ASLAN ASLANOV

DÖVLƏT SİYASƏTİNİN İNFORMASİYA TƏMİNATI

BAKI – 2013

Ç 61
A 93

*Ümummilli lider Heydər Əliyevin
əbədiyaşar xatirəsinə ithaf olunur*

262149

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

Aslan Əhməd oğlu Aslanov

Aslan Əhməd oğlu Aslanov – 1951-ci ildə Cəbrayıl rayonunda anadan olub. 1975-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 30 ildən artıqdır ki, mətbuatda çalışır.

1975-ci ildən 1990-cı ilədək Ağcabədi, Zərdab, İmişli rayon qəzetlərində, 1990-cı ilin dekabrından 1992-ci ilin noyabrınadək "Xalq qəzeti"ndə işləyib. 1992-ci ildə AzərTAc-da müxbir kimi işə başlayıb, sonra baş redaktorun müavini və baş redaktor vəzifələrində çalışıb.

1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə AzərTAc-ın baş direktorunun birinci müavini təyin edilib. 2002-ci ilin oktyabrında Azərbaycan Prezidenti Heydər Əliyevin Fərmanı ilə AzərTAc-ın baş direktoru təyin olunub.

1993-2002-ci illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərlərinin tam əksəriyyətində AzərTAc-ın xüsusi müxbiri kimi iştirak edib.

2000-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb, 2005-ci ildə "Tərəqqi" medalı, 2010-cu ildə "Vətənə xidmətə görə" ordeni, 2011-ci ildə Azərbaycan Respublikasının "Şöhrət" və Rusiya Federasiyasının "Dostluq" ordenləri ilə təltif olunub. Jurnalistika sahəsində Həsən bəy Zərdabi, "Qızıl qələm" və "Ali Media" mükafatlarının laureatıdır.

"Heydər Əliyev və AzərTAc", "AzərTAc-dan AzərTAc-a mürəkkəb və şərəfli yol", "AzərTAc-90" kitablarının, "Müasir dünyanın informasiya şəbəkəsində AzərTAc-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri" monoqrafiyasının, eyniadlı dərs vəsaitinin, eləcə də Azərbaycan mətbuatının problemlərinə həsr olunmuş onlarla elmi və publisistik məqalənin müəllifi, çoxsaylı kitabın redaktorudur.

1979-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 2007-ci il dekabrın 12-dən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) büro üzvüdür. 2004-cü ildə Moskvada, 2007-ci ildə Esteponada keçirilən Dünya İnformasiya Agentlikləri Konqresinin iştirakçısı olmuşdur.

2004-cü ildən Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, 2006-cı ildən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının, 2009-cu ildən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının, 2010-cu ildən Rusiya Elmlər Akademiyası Rusiya Fəlsəfə Cəmiyyətinin üzvüdür. 2008-ci ildən Türkdilli Xəbər Agentlikləri Birliyinə sədrlik edir.

2011-ci il iyunun 13-də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan 14 ölkənin informasiya agentlikləri alyansının – BSANNA-nın prezidenti seçilmişdir.

Ailəlidir, bir oğlu var.

Ön sözün müəllifi	**Nizami Cəfərov** **AMEA-nın müxbir üzvü**
Buraxılışa məsul və redaktor:	**Dağbəyi İsmayılov** **Əməkdar jurnalist**
Tərtib edəni:	**Bətul Eyvazlı** **Əməkdar mədəniyyət işçisi**

Aslan Aslanov. Dövlət siyasətinin informasiya təminatı. (məqalələr, çıxışlar, müsahibələr, rəylər, xatirələr) Bakı, "Şərq-Qərb", 2013, 620 səh.

Müasir Azərbaycan jurnalistikasında özünəməxsus yeri olan tanınmış jurnalist Aslan Aslanovun "Dövlət siyasətinin informasiya təminatı" kitabında müəllifin 1991-2011-ci illərdə dövri mətbuatda dərc olunmuş publisistik məqalələri, xarici ölkələrdə və respublikada keçirilmiş tədbirlərdə çıxışları, KİV-lərə müsahibələri, müxtəlif nəşrlərə rəy və ön sözləri, xatirələri toplanmışdır.

Kitabdakı materialların tam əksəriyyəti Azərbaycan tarixinin şanlı səhifəsi olan AzərTAc-ın – rəhbərlik etdiyi agentliyin fəaliyyətinə, onun bugünkü beynəlxalq əlaqələrinə, dövlət siyasətinin informasiya təminatındakı roluna həsr olunmuşdur.

Nəşrdə, həmçinin ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın son illərdə əldə etdiyi uğurların geniş coğrafiyada təbliği işində AzərTAc-ın əhəmiyyətli rolu vurğulanır.

Kitab jurnalistlər, bu sahədə çalışan mütəxəssislər, tələbələr və geniş oxucu kütləsi üçün maraqlı mənbədir.

ISBN 978-9952-34-947-4

© Aslan Aslanov, 2013

MÜNDƏRİCAT

Ön söz 15

PUBLİSİSTİK MƏQALƏLƏR

Dövlətin paytaxtından dünyanın humanitar paytaxtına doğru
İkinci Bakı Beynəlxalq Humanitar Forumuna sözardı 19

Qəlbimiz bütün Avropa üçün açıqdır,
yaxud "Eurovision-2012" mahnı müsabiqəsi haqqında düşünərkən... 27

Bakı dünyanın "Humanitar Davos"una çevrilir 35

Dünyanı gözəllik xilas edəcək...
"Fransa inciləri" ilə tanışlıqdan yaranan düşüncələr 43

İnkişafın Azərbaycan modelinin arxitekturasında mətbuatın yeri və rolu 51

"Eurovision-2011" mahnı müsabiqəsindəki qələbə bütün Azərbaycanın uğurudur 60

Azərbaycanın müasirləşməsi Heydər Əliyevin adı ilə bağlıdır 66

Müasir innovasiyalardan istifadə: üstünlüklər və risklər 75

Azərbaycan Prezidenti jurnalistlərin dostudur və ya "müstəqil" beynəlxalq
QHT-lərin "obyektivliyi" barədə bir neçə söz 81

Akademik Ramiz Mehdiyevin "Gorus-2010: absurd teatrı mövsümü"
kitabı Ermənistanda getdikcə güclənməkdə olan dövlət faşizmi barədə
həyəcan təbilidir 87

Düşmən dəyirmanına su tökənlərin cəzası daha ağır olur 92

Ümummilli lider Heydər Əliyevə ən yaxşı abidə günbəgün
çiçəklənən Azərbaycandır 98

Azərbaycan yeni informasiya məkanında ulu öndər Heydər Əliyevin
müəyyənləşdirdiyi prinsiplər əsasında möhkəmlənir 103

AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının
carçısına çevrilmişdir 112

İnformasiya həyat deməkdir 128

Ümummilli lider Heydər Əliyevin ən güclü silahlarından biri söz idi 135

Heydər Əliyev Azərbaycan mətbuatının böyük qayğıkeşi və himayəçisi idi 150
AzərTAc dünya informasiya agentliklərinin vahid ailəsində 160
Heydər Əliyevin siyasi irsi müasir Azərbaycan jurnalistikası üçün əbədi xəzinədir 164
Qloballaşan dünyada informasiya hamı üçün 171
Demokratik, azad mətbuatın inkişafında yeni mərhələ açan konsepsiya 175
Heydər Əliyev və Azərbaycan mətbuatı 177
Milli mətbuatımızın tarixində məktəb yaradan ustad 184
Heydər Əliyev siyasətinin informasiya təminatı 189
Azərbaycan milli mətbuatı inkişafının yeni mərhələsini yaşayır 198
Ustad dərsi unudulmur... 207
Azərbaycanın demokratik inkişafında yeni mərhələ 212
Heydər Əliyev və AzərTAc 221
AzərTAc-dan... AzərTAc-adək 229
Dünyanı valeh edən əfsanəvi lider 250
Azərbaycanı informasiya blokadasından Prezident Heydər Əliyev çıxarmışdır 259
Prezident Heydər Əliyevin jurnalistika dərsi 267
İqtisadiyyatsız siyasət yoxdur 272
Cücəni payızda sayacağıq, qalsa... 276
Yollar, a yollar... 280
Qaradağ neftçilərindən Qarabağ döyüşçülərinə 283
Ölümünə inanmıram 286
Artan növbələr, dolu vaqonlar və yenə də gileylər, eyhamlar, əsaslı-əsassız səbəblər 287
Qiymətli... qiymətsiz kağızlar 290
Fövqəladə tədbirlər görülməsə... 294
"Stəkanlarınızı ehtiyatla işlədin..." 298
"Abşeronun harayı", yoxsa... 301
Çölə atırlar, bizə satmırlar və yaxud bolluğun astar üzü 304
Qiymət artdı, avtobuslar azalır 308
Kənd şəhərə arxadır 310
Sınaq ... çıxış yoluna aparır 314
"Ətalətə, qorxaqlığa üstün gəlməliyik..." 318
Dönüş xeyrimizədir 321

"Xeyri zərərindən çox olacaq..." 326
Hər sətirdə sərt həqiqət 329
Ətalət buzu əriyəcəkmi? 334
Kooperativin acı almaları 338
Abşeron... onu necə xilas etməli? 342
Balıq niyə tükənib? 344

ÇIXIŞLAR

Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 34-cü iclasında çıxış 353

Erməni faşizminin və erməniliyin mahiyyətini ifşa edən kitab
("Azərbaycanlıların soyqırımı: Tarixin qanlı salnaməsi" kitabının təqdimat mərasimində çıxış) 356

Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltifolunma mərasimində çıxış 359

Multimedia informasiya agentliklərinin işində yeni səhifədir
(Bakı Beynəlxalq Humanitar Forumunun bölmə iclasında çıxış) 360

Sosial jurnalistika və yüksək texnologiyalar
(Bakı Beynəlxalq Humanitar Forumunun bölmə iclasında çıxış) 366

Müstəqilliyimizin 20 illiyinə layiqli töhfə
("Müasir Azərbaycan dövrün baxışında" kitabının təqdimat mərasimində çıxış) 368

İnformasiya cəmiyyətinə keçid mərhələsində mediatexnologiyanın yeri və rolu
(Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının – BSANNA-nın V Baş Assambleyasında çıxış) 371

Xəbər agentliyinin müştəri münasibətləri – təminatçıdan tərəfdaşa
(Avropa Xəbər Agentlikləri Alyansının (EANA) konfransında çıxış) 376

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunur
("Müdriklik zirvəsi" kitabının təqdimat mərasimində çıxış) 379

Xəbər mediasının perspektivlərini müəyyənləşdirmək mühüm vəzifədir
(Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XIV Baş Assambleyasında çıxış) 383

Müasir dünyanın inkişafında informasiyanın əhəmiyyəti və rolu
(Dünya Xəbər Agentliklərinin üçüncü konqresində çıxış) 387

Xəbər agentlikləri və multimedia: AzərTAc-ın yeni xidməti
(Avropa Xəbər Agentlikləri Alyansının konfransında çıxış) 393

15 iyun – Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir
(Suraxanı rayonunda keçirilən konfransda çıxış) 395

Xəbər agentliklərinin gələcəyi
(EANA-nın və MTİ-nin birgə konfransında çıxış) ... 401
OANA-nın sammitində çıxış ... 403
Yüksək diqqət və qayğı yeni arzulara ruhlandırır
(AzərTAc-ın əməkdaşlarına mükafatların təqdim edilməsi mərasimində çıxış) ... 405
Anadolu Agentliyi ilə AzərTAc-ın əlaqələri qardaşlıq və dostluq təməlləri üzərində inkişaf edir
(Anadolu Agentliyinin 90 illik yubileyi mərasimində çıxış) ... 407
Azərbaycan qadını cəmiyyətin aparıcı qüvvəsidir
("İnsanlar... Hadisələr... Zaman" kitabının təqdimat mərasimində çıxış) ... 410
Xalqımızın azadlıq arzularının carçısı
(AzərTAc-ın 90 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə çıxış) ... 413
Müasir iqlim dəyişmələri və Azərbaycan
(UNESCO-nun Moskva ofisi ilə AzərTAc-ın birgə seminarında çıxış) ... 420
AzərTAc – Avropanın informasiya agentlikləri ailəsində
(Avropa Xəbər Agentlikləri Alyansı (EANA) Baş Məclisinin iclasında çıxış) ... 423
Dünya informasiya məkanına inteqrasiya başlıca vəzifədir
(Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan Ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) II konfransında çıxış) ... 425
Qloballaşan dünyada informasiya hamı üçün
(OANA İcraiyyə Komitəsinin 30-cu iclasında çıxış) ... 429
Ukrinform-90: şərəfli yol
(Ukrayna Milli İnformasiya Agentliyinin – Ukrinformun 90 illik yubiley mərasimində çıxış) ... 436
Türkdilli agentliklərin Bakı görüşü
(Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclasında çıxış) ... 437
AzərTAc OANA-nın fəal üzvüdür
(OANA-nın XIII Baş Assambleyasında çıxış) ... 444
Dünya İnformasiya Agentliklərinin ikinci konqresində çıxış ... 447
Bütün türk xalqları üçün əlamətdar hadisə
(Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VI iclasında çıxış) ... 449
Ənənələr yaşayır, zənginləşir...
(Akademik Mehdi Mehdizadə adına Cəbrayıl rayon orta məktəbinin 130 illik yubiley mərasimində çıxış) ... 452
Yeni Azərbaycan Partiyasının mübariz dəstəsi
(YAP Səbail rayon Təşkilatının VII konfransında çıxış) ... 454

Ulu öndərimizin misilsiz xidmətləri milli tariximizin səhifəsinə qızıl hərflərlə yazılmışdır
(Ümummilli lider Heydər Əliyevin
AzərTAc-ın binasında büstünün açılış mərasimində çıxış) 458

AzərTAc yeni regional qurumun təsisçilərindən biridir
(BSANNA-nın üzvü olan Ölkələrin
Milli İnformasiya Agentlikləri Assosiasiyasının təsis konfransında çıxış) 462

Azərbaycan-Rusiya münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir
(Azərbaycanda İTAR-TASS günlərinin açılış mərasimində çıxış) 463

Beynəlxalq informasiya məkanına inteqrasiya AzərTAc-ın fəaliyyətinin
başlıca istiqamətidir
(Dünya İnformasiya Agentliklərinin birinci konqresində çıxış) 468

Dahilər sırasında öz yeri, öz şöhrəti olan əfsanəvi şəxsiyyət
("Dünyanı heyran qoyan insan" kitabının təqdimat mərasimində çıxış) 472

Agentlik jurnalisti münaqişə və gərginlik nöqtəsində
(Dünya İnformasiya Agentliklərinin sammitində çıxış) 477

MÜSAHİBƏLƏR

Sosial şəbəkənin informasiyası xalq düşüncəsinə daha yaxındır,
yaxud informasiyanı başlı-başına buraxmaq olmaz 483

Dünyanın informasiya məkanında layiqli yeri olan
Azərbaycanın uğurları diqqət mərkəzindədir 493

Niyyətlər, perspektivlər, planlar 500

Azərbaycan jurnalistikası – 135 il 509

Azərbaycan mətbuatı bu gün 511

Hansı informasiyanı almağa hazırıq? 520

Şərqdə ilk demokratik respublikanın xalqımıza bəxş etdiyi ən dəyərli
milli sərvətlərdən biri də AzərTAc-dır 525

Azadlıq arzularının carçısı 534

Mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək qiymətləndirən
ikinci bir lider olmamışdır 538

Yeni ildə yeni vəzifələr 542

AzərTAc informasiyanı haradan alır? 544

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə doğru-düzgün çatdırılması
AzərTAc-ın fəaliyyətinin əsas istiqamətidir 550

AzərTAc yeni inkişaf yolundadır 559

Azərbaycanın 85 illik şanlı tarixinin salnaməçisi 564

AzərTAc-ın əsl dirçəliş dövrü Prezident Heydər Əliyevin adı ilə bağlıdır 571

RƏYLƏR, XATİRƏLƏR

"İnsanlar...Hadisələr... Zaman" kitabına ön söz 583
"Ədəbi redaktə: nəzəriyyə və təcrübə" kitabına ön söz 585
Babam Aslan bəyin ruhu şad olsun!
(Acılı-şirinli xatirələr) 594
Xatirəsi qəlbimizdə yaşayacaq insan haqqında düşüncələr 602
Əsl bakılı, geniş qəlbli və möhkəm əqidəli insan 607
Dost haqqında ürək sözləri 610
Yaxşılıq heç vaxt unudulmur 612
Öz dəst-xətti olan jurnalist 616

Bu gün Azərbaycan dövləti ölkə konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmış və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdr.

Heydər Əliyev
Azərbaycan xalqının ümummilli lideri



Biz Azərbaycanda elə bir mühit yaratmağa çalışırıq ki, bütün media qurumları özlərini azad hiss etsin, öz baxışlarını sərbəst ifadə edə bilsin. İnformasiya agentliklərinə gəldikdə isə, mən dövlət informasiya agentlikləri haqqında danışa bilərəm, onlar vəziyyəti real əks etdirir. Şərhlər fərqli ola bilər, siyasi analizlər tamamilə müxtəlif ola bilər, lakin informasiyanın özü dəqiq və səlis olmalıdır.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Ön söz

Hər bir kitabın mahiyyətini üç amillə qiymətləndirmək olar – məqsəd, məram və nəticə. Məqsəd aydın, məram saf olanda nəticə də uğurlu alınır. Tam məsuliyyətlə deyə bilərəm ki, tanınmış jurnalist Aslan Aslanovun oxucu ilə növbəti görüşü olan bu kitab da məqsədin aydınlığı, məramın saflığı və nəticənin əhəmiyyəti baxımından uğurludur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə həsr olunmuş bu kitab müasir mətbuatın problemlərinin araşdırılması, massmedianın yeni istiqamətlərinin tədqiqi və öyrənilməsi ilə bağlı sanballı elmi məqalələrin, monoqrafiya və dərs vəsaitinin müəllifi olan A.Aslanovun yaradıcılıq yolunun müəyyən mərhələsinin yekunu kimi də dəyərləndirilə bilər.

Kitabda müəllifin müxtəlif illərdə qələmə aldığı analitik məqalələrin əksəriyyəti ulu öndərimiz Heydər Əliyevin mətbuatla bağlı problemlərə, o cümlədən AzərTAc-a göstərdiyi diqqət və qayğıya həsr olunmuşdur. Bununla bərabər müəllifin publisistik yazıları, reportajları, müsahibələri, səfər təəssüratları, xarici ölkələrdə və Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə çıxışları, ayrı-ayrı əsərlər barədə rəyləri ilə də tanış oluruq.

Kitabın tərtibatı da orijinallığı ilə diqqət çəkir. Belə ki, müəllif əvvəlcə müasir dövrün, sonra isə əvvəlki illərin siyasi, iqtisadi, sosial və elmi-mədəni mənzərəsi haqqında dolğun təsəvvür yaradan maraqlı yazılarla bu günlə keçmiş arasında uğurlu bir körpü salaraq oxucunu düşündürən maraqlı müqayisə yaradır.

Kitabda toplanmış yazıları tarix baxımından iki qrupa bölmək olar. Onların böyük əksəriyyəti müstəqillik dövründə, digər qismi isə sovet dönəminin son onilliyində qələmə alınmışdır. Fərqli tarixi dövrlərdə, çox müxtəlif mövzularda və hərəsi bir ovqatın təsiri altında yazılsa da, onlar bütün zamanlar üçün əhəmiyyətlidir. Bu da ondan irəli gəlir ki, A.Aslanov mövzunu dəqiq seçə, faktı görə və düzgün qiymətləndirə bilir. Müşahidənin dəqiqliyi, dilin rəvanlığı, təhlilin, fikrin və mülahizələrin orijinallığı istər analitik, istərsə də publisistik yazıların dəyərini artıran amillərdir. Bu mənada kitabdakı yazıları analitikanın və publisistikanın ən yaxşı nümunələri hesab etmək olar. Belə nümunələr yalnız və yalnız universal dünyagörüşlə peşəkarlığın vəhdətindən yaranır.

Jurnalist fəaliyyətinə əyalət qəzetinin müxbiri kimi başlayan Aslan Aslanov bu çətin peşənin bütün pillələrini keçərək, hazırda ölkə mediasının flaqmanı olan Azərbaycan Dövlət Teleqraf Agentliyinə - AzərTAc-a rəhbərlik edir. Kitabda yer almış materialların bir qismi bu agentliyin fəaliyyətinə, beynəlxalq əlaqələrinə, Azərbaycan həqiqətlərinin dünya informasiya məkanında daha geniş coğrafiyada yayılması ilə bağlı görülən işlərə, dövlət siyasətinin informasiya təminatında agentliyin roluna həsr olunmuşdur. Bu mövzuda yazıları və mötəbər beynəlxalq tədbirlərdə ənənəvi və yeni medianın aktual problemlərinə həsr olunmuş çıxışları oxuyanda müasir dünyanın informasiya məkanında baş verən proseslərin, sosial jurnalistikanın müsbət və mənfi cəhətlərinin geniş panoramı göz önündə canlanır. Bəzən oyun qaydalarının pozulduğu, bəzən obyektivlikdən uzaq, piar yazıların yer aldığı, eyni zamanda, internet əsrində yeni texnologiyaların yaratdığı inqilabi dəyişikliklər dalğası fonunda düzü əyridən seçmək, ucsuz-bucaqsız informasiya arealında öz yerini tapmaq heç də asan məsələ deyildir.

Müstəqil Azərbaycanın milli informasiya agentliyinin qazandığı nailiyyətləri, dünya informasiya məkanında geniş əlaqələr qurması, nüfuzlu beynəlxalq informasiya alyanslarının üzvü, bir neçəsinin isə təsisçisi olması, altı dildə həm yazılı, görüntülü və səsli xəbərlər hazırlayıb yayması, həm də innovativ yeniliklərin tətbiqinin sürətləndirilməsi barədə fikirlərə əsasən əminliklə deyə bilərəm ki, AzərTAc düzgün inkişaf yolu seçmişdir. Oxucu bu inkişafı müəllifin agentliyin fəaliyyətinə həsr etdiyi hər məqaləsinin, xarici ölkələrdə, beynəlxalq tədbirlərin mötəbər tribunalarından səslənən çıxışlarının hər sətrində hiss edir.

Əminəm ki, uğura aparan yolda yüksək peşəkarlığı yeni ideyalara, təşəbbüslərə açıq olmaqda, zamanın çağırışlarına həssas yanaşmaqda görən Aslan Aslanovun bu kitabı oxucular üçün maraqlı olacaqdır.

Nizami Cəfərov
AMEA-nın müxbir üzvü

262149

PUBLİSİSTİK MƏQALƏLƏR

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

Dövlətin paytaxtından dünyanın humanitar paytaxtına doğru

İkinci Bakı Beynəlxalq Humanitar Forumuna sözardı

Bu il oktyabrın 4-5-də Bakıda İkinci Beynəlxalq Humanitar Forum keçirildi. Gündəliyində humanitariyanın daha aktual mövzularının yer alması, həm formatı, həm də iştirakçılarının sayının çoxluğu bu forumu fərqləndirən əsas amillər oldu. Bu forum paytaxt Bakının humanitar statusuna da yenilik gətirdi. Keçənilki forumun iştirakçılarının "Humanitar Davos" dedikləri Bakını builki forumun qonaqları "Dünyanın humanitar paytaxtı" adlandırdılar. Beynəlxalq aləmdə Bakı Forumuna marağın coğrafiyası və dinamikası da artıb. Bu dəfə Bakıya dünyanın 70 ölkəsini təmsil edən 700-dən çox nümayəndə - görkəmli siyasətçilər, ictimai xadimlər, alimlər, o cümlədən 11 Nobel mükafatı laureatı və 10 sabiq dövlət başçısı gəlmişdi. Bu, yalnız bir fakta dəlalət edir: Bakı Beynəlxalq Humanitar Forumu dünya ictimaiyyətinin diqqətini getdikcə daha çox cəlb edir və dünyanın qlobal problemlərinin müzakirə edilməsi, planetar miqyaslı humanitar gündəliyin işlənib hazırlanması üçün çox nüfuzlu məkana çevrilir.

Dünyada tüğyan edən iqtisadi böhran fonunda Azərbaycan dövlətinin böyük uğurları beynəlxalq birliyin diqqətini bu gənc dövlətə yönəldib. İndi nüfuzlu siyasi xadimlərdən bu sözləri tez-tez eşidirik: Cəmi iyirmi il bundan əvvəl özü iqtisadi və siyasi hərc-mərclik vəziyyətində olan, dünya dövlətləri ailəsində öz yerini tapmağa çalışan Azərbaycan artıq tam suveren siyasət yeridən müstəqil oyunçudur, dünyada ona hörmət edir, onunla hesablaşır, hətta məsləhətləşirlər. Bu gün Azərbaycan bazar iqtisadiyyatının arxitekturasında öz modelini yaradan, başqa ölkələrin iqtisadiyyatına sərmayə yatıran dövlətdir. Bu gün Azərbaycan beynəlxalq siyasətdə təcrübəsiz ölkə deyil, BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü, müxtəlif nüfuzlu beynəlxalq təşkilatlarda çoxlu qərar və qətnamələrin təşəbbüskarıdır. Bu gün Azərbaycan beynəlxalq müstəvidə sıravi debütant deyil, dünya səviyyəli tədbirlərə ev sahibliyi edən ölkədir. "Eurovision" mahnı müsabiqəsi, Beynəlxalq Humanitar Forum, 17 yaşa qədər qadınlar arasında futbol üzrə dünya çempionatı, İqtisadi Əməkdaşlıq Təşkilatının XII zirvə toplantısı, gələcək şahmat olimpiadası və s.

Gənc dövlətimizin müstəqil mövcudluğunun əvvəllərində skeptiklərin bədbin proqnozlarına, düşmən qüvvələrin fəal müqavimətinə rəğmən Azərbaycan bütün çətinlikləri dəf etdi, yeni cəmiyyət quruculuğuna transformasiya prosesindəki uğurları ilə beynəlxalq arenada etibarlı aktora çevrildi. Ona görə də iki il bundan əvvəl Azərbaycan və Rusiya prezidentlərinin himayədarlığı ilə yeni nüfuzlu beynəlxalq tədbirin – Bakı Humanitar Forumunun burada keçirilməsi elan ediləndə tanınmış şəxsiyyətlərin çoxu həmin forumda iştirak etmək arzusunda olduqlarını bildirdi. Foruma dəvət edilmiş dünya şöhrətli insanlar isə bu tədbirdə iştirak edib-etməyəcəklərini uzun-uzadı götür-qoy etmədilər. Bu, dövlətimizin sürətli inkişafının, dünyada onun nüfuzunun artmasının və ona böyük hörmətin nəticəsi idi. Bakıda keçirilən növbəti humanitar forumda çoxlu sayda məşhur insanın, o cümlədən keçmiş dövlət və hökumət başçılarının, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin, məşhur alimlərin və mədəniyyət xadimlərinin, Nobel mükafatı və digər nüfuzlu mükafatların laureatlarının, aparıcı KİV rəhbərlərinin iştirak etməsi faktı forumun gündəliyinin, eləcə də iştirakçıların təqdim etdiyi, ətraflı müzakirəyə ehtiyacı olan məsələlərin aktuallığına dəlalət edirdi.

Yaşadığımız dünyada müxtəlif mədəniyyətlər arasında münasibətlərin tamamilə yeni formaları yaranır. Bəşəriyyətin dəyərlər sistemində struktur dəyişiklikləri baş verir. Sivilizasiyalar arasında dialoqun yeni mexanizmi formalaşır. Bu proseslər qloballaşmaqda olan dünya nizamının humanitar əsasını təşkil edir. Ümumbəşəri miqyaslı dəyərlərin təkamülü şəraitində elə yeni humanitar platforma yaranması zərurəti qarşıya çıxır ki, bu platforma üzərində sivilizasiyalar təmas nöqtələri tapsınlar, tamdəyərli, səmərəli dialoqa və qarşılıqlı anlaşmaya mane olan fərqləri aradan qaldırsınlar. Azərbaycan bu dəyişikliklərin diktə etdiyi mədəniyyətlərarası mübadiləyə ehtiyac olmasını vaxtında hiss edərək humanitar əməkdaşlığın yeni gündəliyinin işlənib hazırlanması təşəbbüsü ilə çıxış etdi.

Bu baxımdan İkinci Bakı Beynəlxalq Humanitar Forumu xüsusi əhəmiyyət kəsb etmiş və himayədarlar tərəfindən bu foruma həvalə edilmiş missiyanı – XXI əsrdə bəşəriyyətin üzləşdiyi qlobal çağırışlara cavablar axtarışı ilə məşğul olmaq, qarşıdakı onilliklər üçün strategiyanı müəyyən etmək vəzifəsinin öhdəsindən çox uğurla gəldi.

Azərbaycan Prezidenti İlham Əliyevin forumun açılış mərasimində proqram məzmunlu nitqi diskussiyalara istiqamət və fon verdi. Dövlətimizin başçısı son illərdə Qərbin çox etinasızlıqla üz döndərdiyi multikulturalizmin əhəmiyyətini vurğulayaraq demişdir: "Multikulturalizmlə bağlı son illər ərzində dünyada müxtəlif fikirlər vardır. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıbdır, onun gələcəyi yoxdur. Biz isə hesab edirik ki, onun bu günü və gələcəyi vardır. Hamımız çalışmalıyıq ki, multikulturalizm meyillərini gücləndirmək üçün öz səylərimizi qoyaq". Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, multikulturalizmin alternativi yoxdur. Prezident demişdir: "Multikulturalizm gələcək inkişaf üçün ən məqbul variantdır. Çünki multikulturalizmin alternativi özünütəcriddir. XXI əsrdə qloballaşan dünyada hesab etmirəm ki, hər hansı bir dövlət öz gələcəyini özünütəcrid prinsipləri əsasında qurmağa cəhd etsin". Dövlətimizin başçısının bu fikirlərinin ünvanlandığı auditoriyanı nəzərə alsaq deyə bilərik ki, bu sözlər əsrimizin humanitar manifesti kimi qəbul edilə bilər. Çünki multikulturalizm ideyası sayəsində bəşəriyyət anlamalıdır ki, biz hamımız vahid dünyada yaşayırıq və vahid bəşəriyyəti təmsil edirik. Dünyanın müxtəlifliyini dərk etmək və bərabərlik mədəniyyəti formalaşdırmaq lazımdır, çünki bu mədəniyyət sivil birgəyaşayışın əsasıdır. Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun haqlı olaraq qeyd etdiyi kimi, "biz özümüzün müxtəlif və bu müxtəlifliklərdə yekdil olmağımızı bəyan edən ümumi humanist prinsiplərə qayıtmağa borcluyuq".

Prezident İlham Əliyev nitqində müasir dövrün ən mühüm humanitar problemləri sırasında cəmiyyətlərdə təhsilin səviyyəsini vurğulamışdır. Təhsil hər bir cəmiyyəti irəliyə aparan amildir. Bu gün və xüsusən gələcəkdə intellektual potensialın istənilən ölkənin inkişafını müəyyən edəcəyini bildirən dövlətimizin başçısı belə bir məqama diqqəti cəlb etdi ki, təhsilin yüksək səviyyədə olduğu ölkələr mənfi proseslərlə az-az üzləşir və həmin ölkələrdə belə hallara qarşı mübarizə sivil şəkildə aparılır, problemlər müharibələrə, münaqişələrə və qan tökülməsinə gətirib çıxarmır. Azərbaycan dövlətinin başçısı milli-mədəni dəyərlərin qorunub saxlanmasının vacibliyi, onların ümumbəşəri dəyərlərə, başqa xalqların mədəniyyətinə, tarixinə və dininə hörmətin əsası olduğunu vurğulayaraq

demişdir: "Başqa mədəniyyətə, dinə, tarixə olan hörmət öz mədəniyyətinə, tarixinə, öz dininə olan hörmətdən başlamalıdır". Bu sözlər bəşəriyyətin inkişafının indiki mərhələsində milli ideologiyanı özlərinin müstəsnalığı və üstünlüyü postulatları üzərində qurmağa çalışanlara ciddi xəbərdarlıqdır. Nəticə etibarilə bu cür yanaşma tamamilə səmərəsizdir və özünütəcridə gətirib çıxarır.

İkinci forumun əlamətdar xüsusiyyəti ondan ibarət idi ki, bu platformanın adına baxmayaraq, o, sırf humanitar müzakirələr çərçivəsindən çıxaraq bəşəriyyəti narahat edən problemlərin bütün spektrinin nəzərdən keçirildiyi bir məkana çevrildi. Bu baxımdan siyasətçilərin məsuliyyəti mövzusu xüsusi diqqətə layiqdir. Azərbaycan Prezidentinin nitqində də, plenar və "dəyirmi masa" iclaslarında da bu məsələyə toxunuldu. "Dünyada gedən ağrılı, yəni, narahatlıq doğuran proseslərin təməlində siyasətçilərin məsuliyyətsizliyi dayanır", - deyən Azərbaycan dövlətinin başçısı vurğuladı ki, bu məsuliyyətsizlik müxtəlif formalarda özünü büruzə verir. Bəzi siyasətçilərin təxribat xarakterli bəyanatları o qədər də yüksək savadı olmayan insanları hansısa aqressiv hərəkətlərə sövq edir, onların qeyri-real vədləri, populist çıxışları isə cəmiyyətlərdə haqlı narazılıqlara səbəb olur. Siyasi kateqoriyaya aid olan "siyasətçilərin məsuliyyəti" anlayışı, şübhəsiz, həm də humanitar məna kəsb edir. Hələ Platon deyirdi ki, hökmdarlar əsl filosoflar olmayınca, bəşəriyyət şərdən yaxa qurtara bilməyəcəkdir. Müasir dövrdə, internet əsrində dünyanın bir nöqtəsində deyilmiş hər hansı ehtiyatsız, məsuliyyətsiz söz və ya bu cür hərəkətlər tamamilə başqa nöqtədə rezonansa və əks-təsirə səbəb ola bilər.

Təsadüfi deyil ki, bir qədər bundan əvvəl öz ölkələrində və regionlarında siyasətin vektorunu müəyyən edən və fikirləri ilə dünyada çoxlarının hələ də hesablaşdığı 10 sabiq dövlət başçısının iştirakı ilə keçirilən forumun plenar iclasında siyasətçilərin məsuliyyəti məsələləri qızğın diskussiyalara səbəb olan mövzulardan biri idi. Litvanın sabiq prezidenti Valdas Adamkusun vurğuladığı kimi, siyasətçilər yeni humanitar aspektlərin məsuliyyətini öz üzərinə götürməli, bu məsələləri təhsilin, elmin, mədəniyyətin, kütləvi informasiya vasitələrinin köməyi ilə cəmiyyətin həyatına uyğunlaşdırmalıdırlar. O demişdir: "Biz zamanın üzərimizə qoyduğu məsuliyyətə etinasız yanaşa bilmərik". Tamamilə aşkardır ki, müasir dünyada, xüsusən maliyyə-

iqtisadi böhran nəticəsində lokal və qlobal münaqişələrin dərinləşdiyi bir dövrdə humanitariyanın yeni ideyalarının inkişaf etdirilməsi həyati zərurətə çevrilir. Bakı Beynəlxalq Humanitar Forumu bu aktual məsələnin öhdəsindən çox uğurla gəlir.

Dəyişməkdə olan beynəlxalq şəraitdə əməkdaşlığa və qarşılıqlı anlaşmaya rəvac verən müasir proseslər dünyanın müxtəlif regionlarında geniş miqyas alan qarşıdurma meyilləri ilə yanaşı, universitetlərin, elmlər akademiyalarının və müvafiq fondların elmi fəallığının episentrinə keçir. Bu halda elmin sürətli inkişafı yeni fənlərarası elmi paradiqmanın formalaşmasına gətirib çıxarır və bu proseslərin təhsildə öz əksini tapmasını zərurətə çevirir, yeni nəsillərdə dünyanın vahid, bütöv mənzərəsinin formalaşmasını tələb edir. Beləliklə, Bakı Forumunun bir məqsədi də onun iştirakçıları tərəfindən bu yeni proseslərin ilkin mərhələdə öyrənilməsinə yekun vurmaq idi.

Bu il növbəti forum çərçivəsində təşkil edilmiş tematik "dəyirmi masa"larda müxtəlif problemlər üzrə diskussiyalar aparıldı: "İqtisadi inkişafın humanitar aspektləri", "Konvergensiya edən texnologiyalar və gələcəyin konturları", "Müasir kütləvi informasiya vasitələri və yeni çağırışlar", "Postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemi", "XXI əsrdə qloballaşma proseslərinə yeni metodoloji yanaşmalar", "Müasir səhiyyəyə baxışları dəyişən texnologiyalar və molekulyar biologiya", "Multikulturalizm və mədəni özünüdərk". Müzakirələrin gedişində fəlsəfi və humanitar mövzulara toxunuldu, inkişafın müasir mərhələsində bəşəriyyətin üzləşdiyi suallar cavablandırıldı.

Keçən il olduğu kimi, bu dəfə də AzərTAc və İTAR-TASS agentlikləri forumun informasiya dəstəyini və kütləvi informasiya vasitələrində onun işıqlandırılmasını uğurla təmin etdilər. Bu iki məşhur agentlik "Müasir KİV-lər və yeni çağırışlar" mövzusunda "dəyirmi masa" keçirdi. Həmin "dəyirmi masa" çərçivəsində qloballaşma dövründə dünya siyasəti və sosial şəbəkələr, yeni minillikdə jurnalistikanın humanitar aspektləri, habelə sivilizasiyaların dialoqunda müasir KİV-lərin rolu məsələləri təhlil edildi.

Forumda toplaşmış ekspertlər müasir cəmiyyətin transformasiyasında sosial şəbəkələrin rolunun artmasını və onun dünya miqyasında siyasi proseslərə təsirini etiraf etdilər. Alimlər razılaşdılar ki, hamı üçün əlyetərli sosial media tərəfindən sıxışdırılan ənənəvi media bir qayda olaraq, "rafinə

edilmiş" informasiyanın geniş əhali təbəqələrinə çatdırılması məsələsində öz inhisarçı rolunu artıq itirməkdədir. Doğrudan da, müasir cəmiyyət artıq informasiyanın sırf passiv istehlakçısı deyildir və texnoloji innovasiyalar əsrində o, özü sosial şəbəkələr vasitəsilə informasiyanın istehsalçısına və yayıcısına çevrilir.

Forumda çıxış edən alimlər belə bir fikir söylədilər ki, insanların məhdud qrupu tərəfindən nəzarət edilən ənənəvi KİV-lərin köməyi ilə ictimai rəyin formalaşması və onun gözəgörünməz şəkildə idarə edilməsi cəmiyyətin özünün siyasətə və siyasi strukturların mövqeyinin formalaşmasına təsirinin artması ilə əvəz olunur. Diskussiyaların gedişində Qərb modelli liberal-demokratik şəbəkələrin səfərbəredici potensialı xüsusi qeyd edildi.

AzərTAc və İTAR-TASS tərəfindən təşkil edilmiş "dəyirmi masa"nın daha bir nəticəsi insanın mövcudluğu və salamatlığı ilə əlaqədar bütün bəşəriyyətin üzləşdiyi qlobal humanitar problemlərin aktuallaşması şəraitində müasir jurnalistikanın rolunun etiraf edilməsi oldu. İnsan həyatının, onun siyasi və qeyri-siyasi xarakterli əsas hüquqlarının qorunub saxlanması və yaxşılaşdırılması kimi geniş sahələrdə jurnalistikanın sosial məsuliyyətinin dərəcəsi barədə fikirlər söylənildi. Mədəniyyətlərarası kommunikasiyanın davamlı platforması və kanalı kimi müasir medianın xüsusi rolu dərk edildi. Yeni minillikdə dinlərarası və etnoslararası tolerantlıq, müxtəlif xalqlar, irqlər, mədəniyyətlər və sosial qruplar arasında qarşılıqlı anlaşma mövzusunun daha da aktuallaşdığı bir vaxtda məhz jurnalistika insanların daha yaxşı öyrənilməsi, onların bir-birini tanıması, aralarında yaxınlaşma və anlaşma yaranması, dözümlülüyün möhkəmlənməsi məsələlərində aparıcı rol oynayır. Bu məsələlər forum iştirakçılarının məruzələrində və müzakirələrdə öz əksini tapdı.

Forumun ümumi nəticələrinə gəldikdə isə deməliyik ki, beynəlxalq tədbirin iştirakçıları qloballaşma şəraitində multikulturalizm konsepsiyasına yeni həyat verilməsinin zəruriliyini və müasir cəmiyyətdə onun rolunun artmasını vurğuladılar. Dövlət siyasətinin tərkib hissəsi kimi multikulturalizmin imkanlarından istifadənin vacibliyini və onun həm müxtəlif mədəniyyətlərin inkişafı, həm də bütün bəşəriyyətin əldə etdiyi mədəni nailiyyətlərin qorunması və zənginləşməsində əhəmiyyəti qeyd olundu. Fo-

rum iştirakçıları multikulturalizm problemlərinin fəlsəfi və etik aspektlərinin bundan sonra tədqiqinin ksenofobiya, irqçilik və dözümsüzlüyün qarşısını almaq üçün kütləvi informasiya vasitələrində lazımınca işıqlandırılmasının vacibliyinə xüsusi diqqət yetirdi, dünya ictimaiyyətini, siyasətçiləri və alimləri beynəlxalq aləmdə multikulturalizm problemlərinin tədqiqi üzrə xüsusi mərkəzin yaradılması ilə bağlı Azərbaycanın təşəbbüsünü hamılıqla müdafiə etməyə çağırdılar. Forumda nano-, bio-, info- və koqnitiv texnologiyaların inkişafına və onlardan tətbiqi elmlərdə lazımınca istifadə edilməsi məsələsinə xüsusi diqqət yetirildi.

Forumda beynəlxalq qurumlara və müxtəlif humanitar təşkilatlara müraciətlə dövlətlər, vətəndaş cəmiyyətləri və konfessiyalar arasında tolerantlıq mühiti yaratmağa və sivilizasiyalararası münaqişələrin qarşısını almağa xidmət edən əsl mədəniyyətlərarası dialoqun gerçəkləşdirilməsi məqsədi ilə forumlar, konfranslar, müzakirələr və "dəyirmi masa"ların təşkilinə davamlı olaraq təşəbbüs göstərməyə çağırışlar səsləndi. Forumda qaldırılmış məsələlərin mütəmadi müzakirə edilməsinin zəruriliyinə əminlik beynəlxalq humanitar əməkdaşlığı təşviq etmək və bu istiqamətdə səylərin səmərəli əlaqələndirilməsi məqsədlərindən irəli gəlir.

Bakı Beynəlxalq Humanitar Forumunun nadir sayılan daha bir xüsusiyyətini qeyd etmək istərdim. Bu xüsusiyyət ondan ibarətdir ki, bəşəriyyətin üzləşdiyi aktual iqtisadi, sosial, ekoloji və texnoloji problemlərin humanitar cəhətlərini müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan, lakin bir məqsədlə - dünyamızı daha yaxşı, daha mükəmməl etmək naminə birləşmiş insanlar müzakirə edirdi. Bu da onu göstərir ki, zəruri hallarda dinc və təhlükəsiz gələcək naminə qüvvə və imkanları birləşdirmək olar. Bu mənada forum Şərq ilə Qərbin dialoqu, Bakı isə bəşəriyyətin gələcəyi barədə diskussiyalar mərkəzinə çevrilir və tədricən dünyanın humanitar paytaxtı statusu qazanır.

Forumun kuluarlarında dəfələrlə belə bir fikir səsləndi ki, bu nüfuzlu beynəlxalq tədbir artıq dünyanın təkcə mədəni-humanitar həyatında deyil, həm də siyasi həyatında əlamətdar hadisəyə çevrilir. Zənnimcə, forumda müzakirə edilən mövzuların aktuallığını və onlara ümumi marağı, habelə müasir mərhələdə siyasi və humanitar məsələlərin getdikcə daha çox çulğaşdığını nəzərə alsaq, bu fikir tamamilə təbiidir.

İkinci Bakı Beynəlxalq Forumu haqqında qeydlərimi bu nüfuzlu tədbirin təşkilat komitəsinin sədri, Azərbaycan paytaxtının qloballaşan dünyada humanitariyanın yeni trendini müəyyənləşdirən məkana çevrilməsində çox böyük əməyi olan tanınmış dövlət xadimi, görkəmli filosof alim, akademik Ramiz Mehdiyevin aşağıdakı fikirləri ilə yekunlaşdırmaq istəyirəm: Yeni dünya düzənində humanitar aspekt siyasətin ayrılmaz tərkib hissəsinə çevrilir, siyasət isə humanitar sahəyə təsir göstərir. Siyasəti ümumbəşəri maraq və dəyərlərin gerçəkləşməsinə doğru istiqamətləndirməklə onun humanistləşməsinə nail olmaq zəmanəmizin müasir çağırışlarından biridir. Bakı Beynəlxalq Humanitar Forumu da gələcəkdə bu qlobal məsələni həll etməlidir.

"Kaspi" qəzeti, 23 oktyabr 2012-ci il,
"Azərbaycan", "Respublika",
"Yeni Azərbaycan", "İki sahil",
"Bakinski raboçi" qəzetləri, 24 oktyabr 2012-ci il,
"Azerbaydjanskiye izvestiya",
"Zerkalo" qəzetləri, 25 noyabr 2012-ci il.

Qəlbimiz bütün Avropa üçün açıqdır, yaxud "Eurovision-2012" mahnı müsabiqəsi haqqında düşünərkən...

Odlar yurdu. Bu adı möcüzələr diyarı Azərbaycana Yerin təkindən üzə çıxan alovun insanlara işıq və istilik bəxş etdiyi qədim dövrlərdə vermişlər. Yurdumuz kimi, insanlarımızın da qəlbi işıqlı, qanı isti, ürəyi odlu-alovludur. Azərbaycan xalqı bu ölkəyə saf niyyətlə və xoş məramla gələn hər kəsdən öz qəlbinin hərarətini, könül evinin işığını heç zaman əsirgəməmişdir.

Bu hisslər hər bir vətənpərvər azərbaycanlı üçün qürur mənbəyidir. Ona görə də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva başda olmaqla "Eurovision-2012" mahnı müsabiqəsinin təşkilatçıları bu tədbirin loqotipinin seçilməsində tərəddüd etmədilər: insanları birləşməyə, sülhə və həmrəyliyə çağıran "Öz məşəlini alovlandır!" devizi və odlu çiçək musiqi bayramının rəmzi oldu.

Azərbaycanın ev sahibi olduğu "Eurovision-2012" mahnı müsabiqəsi sayca 57-ci idi. 2011-ci ildə Almaniyanın Düsseldorf şəhərində keçirilən müsabiqənin finalında Eldar və Nigar dueti 221 xal toplayaraq birinci yeri tutandan sonra Azərbaycan növbəti müsabiqəyə ev sahibliyi hüququnu qazanmışdı. Bundan dərhal sonra paytaxt Bakıda "Eurovision" mahnı müsabiqəsinə ciddi hazırlıq işlərinə başlandı.

On beş gün Avropanın qəlbi Bakıda döyündü. Dünya musiqisevərləri "Eurovision-2012"nin mayın 22-də və 24-də yarımfinal, 26-da isə final mərhələlərinin unudulmaz həyəcanını yaşadılar.

Təbii ki, belə bir möhtəşəm tədbirin keçirilməsi ölkəmizin dünya miqyasında təqdim edilməsi, xalqımızın zəngin mədəniyyətinin, yurdumuzun gözəl təbiətinin, turizm potensialının təbliği üçün yeni imkanlar açdı, eyni zamanda, infrastrukturun inkişafına da ciddi təkan verdi. Azərbaycan onun qarşısında duran vəzifələrin öhdəsindən şərəflə gəldi. Çox qısa müddətdə Bakıda, Dövlət Bayrağı Meydanının yaxınlığında məxsusi olaraq "Eurovision-2012" mahnı müsabiqəsi üçün 23 min tamaşaçı tutan möhtəşəm "Baku Crystal Hall" Konsert Kompleksi inşa edildi. Bunlar həqiqətən böyük enerji, yüksək təşkilatçılıq, fədakarlıq, iradə, hünər və qətiyyət tələb edən işlər idi.

Ancaq hər bir yeniliyə, uğura "qulp qoymaq" fürsəti axtaran bəzi Qərb KİV-ləri dərhal bütün dünyaya car çəkməyə başladı ki, guya Azərbaycan bu mahnı müsabiqəsindən özünü "gözə soxmaq" üçün istifadə etməyə çalışır. Bu KİV-lər hətta dünyada 125 milyon insanın izlədiyi müsabiqənin özünə də qara yaxmağa çalışır, onun haqqında qərəzli ifadələr işlədirdilər. Nə baş vermişdi? Onlar niyə belə edirdilər? Azərbaycan kimin haqqını əlindən almışdı? Belə müsabiqələr keçirən ölkə özünü, maddi-mənəvi dəyərlərini, adət-ənənələrini bir daha göstərməyə çalışırsa, bunun nəyi pisdir? Məhz rəsmi Bakı da o günlərdə dəfələrlə bəyan etmişdi ki, "Eurovision" müsabiqəsini keçirmək Azərbaycan üçün məqsəd deyil, vasitədir. Bəs onda bədxahlarımız nə istəyirdilər?

Bu və digər suallar barədə düşünərkən bu qənaətə gəldim ki, Azərbaycan kimi gənc, sürətlə inkişaf edən bir ölkədə "Eurovision-2012" mahnı müsabiqəsi tək möhtəşəm tədbirlər zamanı bədxah, paxıl, riyakar, ikiüzlü ünsürlərin zühur etməsi təəccüblü deyildir. Beləlləri təmsil etdikləri təşkilatların və ya nəşrlərin reytinqini "yüksəltmək" üçün boş yerə hay-küy salmağa, bəzən də özünə diqqəti cəlb etməyə, guya söz azadlığı və insan hüquqları uğrunda mübarizlər kimi "xal qazanmağa" çalışırlar. Qalmaqalları ilə ad çıxarmış bəzi "məşhur" siyasətçilər, sifarişlə ağı qara yazan jurnalistlər və başqaları o günlərdə Azərbaycana qarşı iyrənc böhtan yarışına girmişdilər. Görünür, beləlləri onlar üçün qara piar olan bu fürsəti çoxdan gözləyirmişlər ki, suyu bulandırıb balıq tutsunlar. Onların əsas məqsədi diqqəti özlərinə cəlb etmək və "bütün məclis boyu səhnədə parlamaq", hətta təlxəklik etməkdir.

Başqa ölkələrdə belə mühüm tədbirlərin keçirilməsi tarixinə nəzər salsaq, orada da oxşar mənzərənin şahidi olarıq. Beləlorinin çoxunun sifarişlə işləməsi faktını da nəzərdən qaçırmamalıyıq. Onlar aldıqları pulun müqabilində o qədər hay-küy salırlar ki, ilk baxışda hadisələrin gedişinə təsir göstərə biləcəkləri təsəvvürü yaranır. Ancaq bunlar sabun köpüyünə bənzəyir, bir qədər havada uçur və partlayıb yox olur.

Bunu yəqin etmək üçün "Eurovision-2012" mahnı müsabiqəsi zamanı bizim opponentlərin nə barədə danışdıqlarını və yazdıqlarını qısaca xatırlatmaq kifayətdir.

Mahnı müsabiqəsi keçirilən dövrdə bəzi qərəzli xarici jurnalistlər bizim şəhərin gözəlliyinin süni olduğu barədə informasiyalar yaymağa başlamış

və Bakını müsabiqədən sonra görmək istədiklərini söyləmişdilər. Onlar elə təqdim edirdilər ki, guya bütün bunlar butaforiyadır və müsabiqədən sonra bu gözəlliklər də nağıllardakı kimi yoxa çıxacaqdır. Belə yerdə deyiblər: milçək bir şey deyil, ürək bulandırır.

Bu məddahlar elə danışırdılar ki, guya bütün yeni binalar, muzeylər, parklar, şəhərimizin görməli yerləri, günbəgün yenilənən, inkişaf edən Azərbaycanda müstəqillik illərində yaradılmış bütün bu gözəllikləri aparıb haradasa gizlətmək və ya götürüb daha yaxşı vaxta qədər saxlamaq olarmış. Cənablar, məlumunuz olsun ki, Azərbaycanın simasının dəyişməsi nəinki builki müsabiqədən, hətta keçənilki mahnı yarışmasında bizim nümayəndələrin qələbəsindən neçə illər əvvəl başlanmış möhtəşəm, məqsədyönlü, perspektivə hesablanmış işlərin məntiqi yekunudur.

Azərbaycan tarixən qısa müddətdə nail olduğu tərəqqini müstəqilliyini bərpa edəndən 20 il sonra bütün dünyaya nümayiş etdirdi. Azərbaycan bu illərdə inkişafın özünəməxsus modelini yaratmışdır. İndi Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biridir. Azərbaycan yeni cəmiyyət quruculuğuna sürətlə transformasiya etmişdir. Ağır böhran burulğanında ümidsiz halda çarpışan Avropa ölkələrinin əksəriyyətindən fərqli olaraq Azərbaycanda maliyyə-iqtisadi artım sabit templərlə davam edir. Azərbaycan sürətli iqtisadi inkişafı, o cümlədən qeyri-neft sektorunun davamlı artımını iqtisadi və siyasi sabitliklə uzlaşdırmağa nail olmuşdur. Təbii ki, bütün bunlar dostlarımızı sevindirir, düşmənlərimizdə isə həsəd və paxıllıq hissləri doğurur.

Opponentlərin söylədiklərinə məna baxımından təsir göstərən bir mühüm məqam barədə söhbət açmaq yerinə düşər. Almaniyada çıxan "Die Welt" nəşrinin jurnalisti Xolger Kraytlinq "Eurovision-2012" mahnı müsabiqəsinin qalibi isveçli Lorinin iştirakı ilə mətbuat konfransını belə təsvir edir: "Müsabiqənin 28 yaşlı qalibi səhnədə siçan kimi sakitcə əyləşmişdi və qorxa-qorxa ətrafa baxırdı. Elə təsəvvür yaranırdı ki, onu hansısa qoruq meşəsindən tutub səhvən buraya göndərmişlər. Buna baxmayaraq, Lorin öz mahnısını mistik meşə mələyi obrazında ifa etdi və qələbə qazandı".

Jurnalist dərhal Lorini 2010-cu ildəki müsabiqənin almaniyalı qalibi Lena Mayer ilə müqayisə edir və Lena barəsində çox təmtəraqlı fikirlər söyləyir.

Bundan əlavə, həmin jurnalistin fikrincə, Bakıda keçirilən müsabiqədə də ən yaxşı iki mahnıdan biri Almaniyanın nümayəndəsi Roman Lobun ifa etdiyi "Standing Still" kompozisiyası olmuşdur. Jurnalistin mövqeyi aydındır, axı kim öz ayranına turş deyər? Bununla belə, Xolger Kraytlinqin obyektivlikdən uzaq olmasına göz yummaq mümkün deyil.

Kraytlinq daha sonra Lorinin qələbəsinə açıq-aşkar qərəzli münasibət bildirir: "Əgər sən müsabiqədə qalib gəlmiş mahnının o qədər də maraqlı olmadığını, onda bayağılıq və çiylik əlamətləri olduğunu düşünürsənsə, həyəcanlanmaya bilərsən, belə düşünən tək sən deyilsən". Bunun ardınca Kraytlinq müsabiqənin daha bir iştirakçısı – Norveç nümayəndəsi Tuci barədə qərəzli fikirlər söyləyir: "Zəfər və biabırçılıq lap yanaşı ola bilərmiş, bəstəkar və prodüser Peter Bostremin çıxışı buna sübutdur. Bu İsveç nümayəndəsi Bakıda Lorinin yanında əyləşmişdi. "Eurovision-2012" mahnı müsabiqəsində iki kompozisiya – Lorinin ifasında "Eyforiya" və norveçli Tucinin təqdimatında "dums-dums umsa-umsa" tipli sadə bir etnik rəqs onun adı ilə bağlı idi".

Görəsən, bu "zəhər tuluğu"nun belə kəskin ifadələr işlətməsinə səbəb nədir? Məsələ bundadır ki, həmin müğənnilərin hər ikisi mənşəcə qeyri-avropalı və hətta başqa dini mədəniyyətə mənsub olan adamlardır. Tam ad-soyadı Lorin Zinab Noka Talyaui olan Lorin Mərakeş-Liberiya mənşəlidir, Tuci isə İranın Şiraz şəhərində anadan olmuşdur. Alman jurnalist özünün kin-küdurətini, daha dəqiq desək, millətçilik təzahürlərini gizlədə bilməmişdir: "axı nə üçün onlar "Eurovision" mahnı müsabiqəsində Avropanı təmsil edirlər, ümumiyyətlə, bu müsabiqə nə üçün müsəlman ölkəsində keçirilir?". Bu başabəla jurnalistin müsabiqənin "qeyri-avropalı" iştirakçılarının ünvanına işlətdiyi bütün ağlasığmaz epitetləri sadalamağa lüzum görmürəm. Ona görə ki, Avropa Yayım Birliyinə daxil olan hər bir ölkə (hətta Avropa hüdudlarından kənarda olsa belə) bu müsabiqədə iştirak edə bilər. 1980-ci ildə müsabiqədə iştirak etmiş Şimali Afrika ölkəsi Mərakeş, habelə indiyə qədər hər il müsabiqəyə iştirakçılar göndərən İsrail belə ölkələrdəndir.

"Eurovision" mahnı müsabiqəsi ilə əlaqədar kin-küdurət püskürən jurnalistlərdən biri də Britaniyada çıxan "The İndependent" nəşrinin müxbiri Dom Coli olmuşdur. O yazır: "Mən "Eurovision" mahnı müsabiqəsinə

baxmırdım. Ümumiyyətlə, həmin müsabiqəni heç olmasa bir dəfə gördüyümə əmin deyiləm, lakin əminəm ki, o, mənim zövqümə uyğun deyil. Mən bu özünəməxsus tədbirə ev sahibliyi etdiyinə görə öz kiçik qonşusu Azərbaycanı qınayan İran hökuməti ilə müəyyən mənada razıyam".

İngilis jurnalistin bu məsələdə İran ilə bu dərəcədə həmrəy olması çox qəribə görünə bilərdi, lakin bir mühüm məqam hər şeyə aydınlıq gətirir: Dom Coli əslən iranlıdır və Yəzd şəhərində anadan olmuşdur. Onun gizlətmədiyi kin-küdurətin, paxıllığın əsas səbəbi də budur.

Belə cəfəng yazıları oxuyanda başa düşürsən ki, onların əsas məqsədi Azərbaycanın imicinə zərər vurmaq, hətta ən yüksək dərəcədə inkişaf etmiş ölkələrin də demək olar ki, hər birində rast gəlinən xırda qüsurları hədsiz şişirdərək "milçəyi filə döndərmək" istəyidir. Sanballı nəşrlərdə bu cür qərəzli yazıların dərc edilməsi isə yalnız heyrət və təəssüf doğurur. Görünür, onlar fikirləşmirlər ki, düşünülməmiş belə addımlar atmaqla öz imiclərini korlayırlar. Görünür, fikirləşmirlər və yeri gələndə şeytanla da əməkdaşlıq etməyi məqbul sayırlar.

Əlbəttə, bütün bu qarayaxmalarda siyasi məqsədlərin olması da istisna edilmir. Onlar "Eurovision" mahnı müsabiqəsini maraqla izləyən çoxmilyonlu auditoriyanın diqqətini bu yolla Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, mədəni Avropanın xalqımıza qarşı törədilən ədalətsizliklərə barmaqarası baxmasından, erməni faşistləri və separatçıları tərəfindən doğma yurdlarından qovulmuş bir milyon azərbaycanlının problemlərindən, Xocalı, Qaradağlı faciələrindən, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində törədilən vandalizmdən yayındırmağa çalışırlar.

Almaniya Bundestaqının deputatları – iqtisadi əməkdaşlıq, inkişaf və turizm üzrə parlament komitələrinin üzvü Xelqa Daub, Bundestaqın Almaniya-Türkiyə parlamentlərarası dostluq qrupunun sədri Yohannes Kars, habelə almaniyalı tanınmış siyasi xadim Günter Verxeugen müsabiqə ərəfəsində Azərbaycana qarşı həmlələr seriyasını belə izah edirlər: "Azərbaycana münasibətdə ədalətsizlik edilmişdir. Mətbuat bizim ölkədə də rast gəlinən bəzi məsələləri həddən artıq şişirdir. Dünyada problemləri olmayan dövlət yoxdur. Üstəlik, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı problemi vardır. "Eurovision" mahnı müsabiqəsi ərəfəsində bü-

tün dünyanın diqqəti Azərbaycana yönəldiyinə görə ədalətsiz tənqid halları da olmuşdur. Bütün bu anlaşılmazlıqlara son qoymaq üçün Azərbaycana gəlmək və buradakı tərəqqini, inkişafı öz gözləri ilə görmək kifayətdir".

Ədalət naminə demək lazımdır ki, geniş bir coğrafi məkanı əhatə edən başqa yazıların, bəyanat və rəylərin böyük əksəriyyətinin müəllifləri yekdilliklə bildirmişlər ki, xaricdəki islam ictimaiyyətinin qəzəbinə, Ermənistanın müsabiqədə iştirak etməkdən imtinası ilə bağlı qalmaqala və dünya hüquq-müdafiə təşkilatlarının gurultulu bəyanatlarına baxmayaraq, Azərbaycan öz müstəqilliyi tarixində Qərbin mədəni paradiqmasına inteqrasiyanın ən təsirli nümunəsini nümayiş etdirdi.

Duqlas və Sara Elisson adına Rusiya və Avrasiya Tədqiqatları Proqramının böyük elmi işçisi Ariel Koen "The National İnterest" jurnalında dərc edilmiş məqaləsində müsabiqənin Bakıda keçirilməsini bu cür qiymətləndirir: "Bu yaxınlarda populyar teleşou – "Eurovision" mahnı müsabiqəsi keçirilmiş Azərbaycan müsəlman dünyası, xüsusən qonşu İran üçün misli görünməmiş milli və dini dözümlülük səviyyəsi nümayiş etdirdi. Bu modeli alqışlamaq və Amerikanın islam ölkələrinə ünvanladığı ictimai demokratiya çərçivəsində inkişaf etdirmək lazımdır".

Koen ilə razılaşmamaq mümkün deyil, çünki tolerantlıq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir və əsrlər boyu mövcuddur. Bu, danılmaz faktdır.

Azərbaycan müsabiqəni yüksək səviyyədə keçirməklə beynəlxalq səviyyəli tədbirlərə münasibət mədəniyyətini bir daha nümayiş etdirdi. İndiyə qədər Bakıda keçirilmiş beynəlxalq forumlar, simpoziumlar, konfranslar, idman yarışları məhz kommunikasiya sisteminin bu mühüm komponenti nəzərə alınmaqla təşkil edilmişdir. Biz özümüz də xarici ölkələrdə bu qəbildən tədbirlərdə iştirak edərkən bunların yüksək səviyyədə təşkil edilməsinin, insanlara səmimi münasibətin şahidi olur və qayıdandan sonra bu barədə xoş niyyətlə danışır, təəssüratlarımızı bölüşürük. Azərbaycan da qonaqlara öz mədəniyyətini, qonaqpərvərlik ənənələrini nümayiş etdirir. Məgər burada hansısa gizli məna axtarmaq olarmı? Əlbəttə, yox! Onu da əlavə etmək istərdim ki, Azərbaycanda mövcud olan, xarici ekspertlərin və müşahidəçilərin dönə-dönə xüsusi vurğuladığı tolerantlıq təkcə müsəlman dünyası üçün deyil, Avropa ölkələri üçün də nümunə ola bilər.

Mahnı müsabiqəsi ölkələri və insanları birləşdirən, qarşılıqlı anlaşmaya şərait yaradan mədəniyyət körpüsüdür. O, siyasi haqq-hesab çəkmək, hamıya və hər şeyə əsassız qara yaxmaq alətinə çevrilməməlidir. Azərbaycan hər bir ifaçının, paytaxtımızın hər bir qonağının özünü evindəki kimi rahat hiss etməsi üçün lazım olan hər şeyi etmişdir.

Müsabiqədə 42 dövlət iştirak edirdi. Maliyyə çətinlikləri ilə əlaqədar 2010-cu ildən müsabiqədə iştirak etməyən Monteneqro bu il yenidən həmin tədbirə qayıtmışdı.

Yeri gəlmişkən, Ermənistanın Bakının ev sahibi olduğu "Eurovision-2012" mahnı müsabiqəsində iştirakdan imtina etməsi və erməni müğənnilərin Avropa Yayım Birliyinə və Ermənistan İctimai Televiziyasına ünvanlanmış müraciətinə də münasibət bildirmək istərdim.

Erməni tərəfi öz imtina qərarını əsaslandıraraq bildirirdi ki, Ermənistan silahlı qüvvələrinin əsgəri Albert Adibekyan fevralın 23-də Ermənistanın Tavuş bölgəsində Azərbaycan snayperinin gülləsindən həlak olmuşdur və buna görə də onlar Bakıda keçirilən mahnı müsabiqəsində iştirak etməyəcəklər. Bu bəyanatı Ermənistanın bir sıra populyar artistləri, o cümlədən əvvəlki "Eurovision" mahnı müsabiqələrinin bütün iştirakçıları imzalamışdılar.

Sonradan elə Ermənistan KİV-lərinin özləri etiraf etmişdirlər ki, haqqında söhbət gedən erməni əsgərini öz yoldaşları güllələmişlər. Göründüyü kimi, bu dəfə də Ermənistan təbliğat maşını ənənəsinə sadiq qalaraq beynəlxalq ictimaiyyətə növbəti yalan sırımışdır. Bu təbliğat maşınının "ideoloqları" yaxşı bilirlər ki, bir müddət əvvəl 9 yaşlı azərbaycanlı oğlan öz ölkəsində, öz evinin həyətində sakitcə oynadığı vaxt erməni snayperinin gülləsinə tuş gəlmişdir.

Əlbəttə, ermənilərin "Eurovision" mahnı müsabiqəsində iştirak etməməsinin başqa səbəbləri vardır. Ermənistan sadəcə olaraq, bu müsabiqədə qalib gəlməyə ümid etmir, Bakıda uduzmağı isə heç istəmirdi. Ermənilər illər boyu, mütəmadi olaraq Azərbaycanın musiqi kompozisiyalarını oğurlayır, sonra onlara yüngülvarı "əl gəzdirir" və avropalılara öz mədəni irsləri kimi təqdim edirlər. "Eurovision" mahnı müsabiqəsinə ev sahibliyi edən ölkələrdə isə bu cür "dəcəlliklərə" yol vermirlər. Azərbaycanla bağlı halda isə erməni tərəfi, ehtiyatlı tərpənməyi qərara almış, görünür, iflasa uğrayacaqlarını əvvəlcədən bildiklərinə görə imtina yolunu seçmişdir.

Müsabiqənin keçirildiyi müddətdə başqa ölkələrdən Azərbaycana gəlmək üçün viza almaq proseduru sadələşdirilmişdi. Arzu edən hər kəs ölkəmizə gələrək, həm burada baş vermiş bütün dəyişiklikləri öz gözləri ilə görə, həm də insanları qəlbən və ruhən birləşdirən əsl bayram tədbirinin iştirakçısı ola bilərdi.

"Eurovision-2012" mahnı müsabiqəsinin translyasiyasını İTV kanalı təmin edirdi. Azərbaycan təmsilçisi Səbinə Babayeva "When the Music Dies" mahnısını ifa edərək 150 bal toplamış və ölkəmizin bu müsabiqədə fəxri dördüncü yeri tutmasını təmin etmişdir. Müğənnimizin məlahətli səsi, gözəl ifa manerası, səhnə mədəniyyəti insan qəlbini ehtizaza gətirən mahnısı onun güclü vokal imkanlarını nümayiş etdirdi. Finalda Səbinəni müşayiət edən əfsanəvi muğam ustası Alim Qasımov və Azərbaycan xalq çalğı alətləri isə bu mahnını müasir etnik çalarlarla zənginləşdirdi.

Azərbaycanlı ifaçı və onun mahnısı avropalı dinləyicilərin ürəyincə oldu. Odlar yurdu Azərbaycan bu müsabiqədə iştirak etdiyi illər ərzində həmişə ilk onluğa, son dörd ildə isə ilk beşliyə daxil olmaqla sübut etmişdir ki, onun nümayəndələri "Eurovision" mahnı müsabiqəsində həmişə qeyri-adi şou göstərir və gözəl ifa nümayiş etdirirlər.

Qarşıda bizi çox müxtəlif beynəlxalq müsabiqə və idman yarışları gözləyir. Əminəm ki, həmin tədbirlərdə də dünya bizim yeni-yeni dəyərlərimizlə tanış olacaqdır. Deməli, qarşıda hələ bizi çox zəfərlər və qələbələr gözləyir.

Nəsibimiz daim zəfərlər olsun!

"Azərbaycan", "Yeni Azərbaycan",
"İki sahil", "Kaspi" qəzetləri,
3 iyul 2012-ci il

Bakı dünyanın "Humanitar Davos"una çevrilir

Birinci Forumda 36 ölkədən, 6 beynəlxalq təşkilatdan 263 nümayəndənin, 3 Nobel mükafatı laureatının və 6 sabiq prezidentin iştirakı da bunu təsdiqləyir

Sürətlə qloballaşan dünyada sivilizasiyalar arasında münasibətlərin yeni formaları yaranır, dəyərlər sisteminin arxitekturasında dəyişikliklər baş verir, fərqli düşüncə mədəniyyəti formalaşır. Bütün bu amillər humanitariyanın yeni platformasını formalaşdırmaq zərurətini yaradır. Bu zərurəti nəzərə alan Azərbaycan humanitar əməkdaşlığın gündəliyini müəyyənləşdirən təşəbbüslər irəli sürərək, bu istiqamətdə genişformatlı tədbirlər keçirərək multikulturalizmə böyük önəm verən məkana çevrilir. Bu baxımdan 2011-ci il oktyabrın 10-11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təşəbbüsü və himayəsi ilə "XXI əsr: ümidlər və çağırışlar" devizi altında keçirilən Birinci Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətini xüsusi vurğulamalıyıq. Bu tədbirin təşkil edilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda keçirilmiş Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunda qəbul olunmuşdu. Humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərin müzakirəsi üçün nüfuzlu bir platforma kimi nəzərdə tutulmuş beynəlxalq tədbirin məqsədi XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavablar axtarmaq, növbəti onilliklər üçün strategiyanı müəyyən etmək idi.

Siyasətçilər, sabiq dövlət və hökumət başçıları, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, dünyanın hər yerindən gəlmiş adlı-sanlı alimlər və mədəniyyət xadimləri, o cümlədən Nobel mükafatı və digər nüfuzlu mükafatların laureatları, aparıcı KİV-lərin rəhbərləri, ictimai xadimlər öz fikirlərini bölüşmək üçün Bakıda toplaşmışdılar. Foruma bu qədər məşhur şəxslərin gəlməsi onun gündəliyinin, habelə iştirakçılara təqdim edilən və ətraflı müzakirəyə ehtiyacı olan məsələlərin aktuallığına dəlalət edirdi.

Bu Forumun keçirilməsi üçün məhz Bakının seçilməsi təsadüfi deyildi. Qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiya və konfessiyaların əsrlər boyu dinc yanaşı mövcud olduğu Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün həqiqətən də əvəzsiz məkandır. Əvvəla, Azərbaycan bu cür tədbirlərə ev sahibliyi etməkdə yaxşı təcrübə qazan-

mışdır. 2009-cu il oktyabrın 13-14-də, "Bakı - İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində dünyanın 45-dən çox ölkəsindən, eləcə də İSESCO, İRSİKA, Avropa Şurası, TÜRKSOY və digər təşkilatlardan 200-dən çox nümayəndənin iştirakı ilə respublikamızda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı keçirilmişdir. 2011-ci il aprelin 7-də Bakıda 20 ölkədən 435 qonağın, o cümlədən Avropa Şurası Parlament Assambleyası, İSESCO, Dünya İctimai Forumu, UNESCO və BMT rəsmilərinin iştirakı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir.

Bundan əlavə, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə bir sıra tədbirlər – "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü", "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfranslar, "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum, "Dünya gənclərinin 4-cü məşğulluq sammiti" və s. keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 may tarixli Fərmanı ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkil edilməsi barədə verilmiş tapşırıqlar Azərbaycanda bu cür tədbirlərin keçirilməsinin bir ənənə halı aldığını göstərir.

Digər tərəfdən, son onillikdə Azərbaycan sosial-iqtisadi inkişafda misli görünməmiş uğurlar nümayiş etdirir, diplomatiya və mədəniyyət sahəsində sanballı qələbələr qazanır və regionda şəksiz liderə çevrilmişdir. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi bunun daha bir təsdiqidir.

Humanitar forumun keçirilməsi üçün nəyə görə məhz Bakının seçilməsini şərtləndirən amilləri Prezident İlham Əliyev çox gözəl izah etmişdir: "Əsrlər boyu Azərbaycanda müxtəlif mədəniyyətlərə mənsub olan xalqlar bir ailə kimi yaşamışlar. Hesab edirəm, bizim təcrübəmiz əyani şəkildə göstərir ki, müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan xalqlar mehribanlıq, sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər".

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra öz qarşısına elə bir cəmiyyət qurmaq məqsədi qoymuşdur ki, onun əsas postulatları siyasi sabitlik, iqtisadi səmərə və sosial ədalət olsun. 1993-cü il payızın əvvəlində, yəni Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından iki ay sonra seçki

kampaniyası zamanı onun fotoşəklinin yanında belə bir şüar yazılmışdı: "Mən Azərbaycanı siyasi cəhətdən sabit, iqtisadi cəhətdən səmərəli və sosial baxımdan ədalətli bir dövlət kimi görürəm". Ümummilli lider Heydər Əliyevin və onun siyasi varisi, strateji xəttinin davamçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin davamlı inkişafı sayəsində bu məqsədlərə çatmaq təmin edilmişdir.

Ölkə humanitar sahədə də böyük uğurlar qazanmışdır. Elm, təhsil, səhiyyə, mədəniyyət, idman humanitar sektorun özəyini təşkil edir. Ona görə də bu sahələrin inkişafı diqqət mərkəzindədir, onların hər birinə dair uzunmüddətli proqramlar həyata keçirilir.

Elmi-texniki tərəqqi həmişə ölkələrin uğurlu inkişafını müəyyən etmiş və bu inkişafa güclü təkan vermişdir. İqtisadiyyatın sabit inkişafı və maliyyə imkanları olmadan humanitar sahənin davamlı inkişafı mümkün deyildir. Azərbaycan dövlət müstəqilliyinin ilk illərində çətin bir dövr yaşamış, dərin siyasi və iqtisadi böhran keçirmişdir. İndi isə dünyada ən yüksək sürətlə inkişaf edən dövlətlərdən biridir. Bu isə humanitar sahənin inkişafı üçün möhkəm təməldir. Prezident İlham Əliyev xüsusi vurğulamışdır ki, "ölkənin gələcəyi və uğurlu inkişafı təbii ehtiyatlarla deyil, humanitar amillərlə müəyyən olunur". Ona görə də təhsilə və elmə qoyulan sərmayələrin uzunmüddətli nəticələr qazanılmasına yönəlməsi tamamilə qanunauyğundur.

İndi Azərbaycan elə bir ölkədir ki, multikulturalizm onun vizit kartıdır. Bu termin nisbətən yaxın vaxtlarda yaranmışdır, Azərbaycanda isə xalqlar artıq neçə əsrdir ki, multikulturalizm şəraitində yaşayırlar. Təsadüfi deyil ki, Bakı Humanitar Forumunda müzakirə mövzularından biri məhz multikulturalizm idi. Prezident İlham Əliyev bu hadisənin Azərbaycanın ictimai həyatında əhəmiyyətini xüsusi vurğulamışdır: "Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Bizim bu gün keçirdiyimiz Forum multikulturalizmin təsdiqidir, onun təntənəsidir".

Bakı Forumu çərçivəsində bir neçə tematik bölmə təşkil edilmiş, müxtəlif problemlərə dair diskussiyalar aparılmışdır: "Sosial jurnalistika və yüksək texnologyalar", "Dünyanı dəyişdirən müasir texnologiyalar", "İnkişafın iq-

tisadi modellərinin humanitar aspektləri", "Postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemləri", "Biotexnologiyalar və etik problemlər", "Multikulturalizm: nailiyyətlər və problemlər", "Elmlərin konvergensiyası". Müzakirələrdə fəlsəfi, humanitar mövzulara toxunulmuş, inkişafın müasir mərhələsində bəşəriyyət qarşısında duran suallara cavablar verilmişdir.

Forumun gedişində AzərTAc və İTAR-TASS bu tədbirin informasiya dəstəyini və KİV-lərdə işıqlandırılmasını təmin etmiş, bundan əlavə, sosial jurnalistika və yüksək texnologiyalar məsələlərinə həsr olunmuş bölməni aparmışdır. Bu bölmə çərçivəsində XXI əsrdə sosial jurnalistika, informasiya sənayesində yüksək texnologiyaların inteqrasiyası, habelə müasir cəmiyyətin inteqrasiyası və qütbləşməsi şəraitində sosial media və siyasət məsələləri təhlil edilmişdir.

Müzakirələrin əsas nəticələri müasir jurnalistikada yeni istiqamətlərin - sosial medianın, elmi-texniki nailiyyətlərin qlobal inkişafda və bəşəriyyətin ümumi tərəqqisində artmaqda olan rolunun etiraf edilməsi oldu. Bu amillərin əhəmiyyəti media sektorunda hi-tech nailiyyətlərinin tətbiq edilməsi prosesində daha çox nəzərə çarpır. Doğrudan da, yeni minillikdə bəşəriyyətin üzləşdiyi təhdidlərə bizim cəmiyyətlərin hazır olub-olmaması indi dünya jurnalistikasında ən çox müzakirə edilən məsələlərdən biridir. İnformasiya sektorunun yeni rolu yeni reallıqları əks etdirir. Heç şübhəsiz, yeni texnologiyaların, o cümlədən internetin yaranması və tətbiq edilməsi KİV-lərin inkişafında və demokratikləşməsində yeni mərhələnin başlanğıcıdır.

Hazırda planetdə internet istifadəçilərinin sayı təqribən iki milyard nəfərdir. Şübhə yoxdur ki, media gələcəkdə də bəşəriyyətə təsir göstərəcək və öz böyük rolunu davam etdirəcək, son xəbərlər isə ən populyar "qida" rolunu saxlayacaqdır. Əvvəllər olduğu kimi, bəşəriyyət yenə bu "qidaya" ehtiyac duyacaq, onu istehlak edəcəkdir. Bu səbəbdən də xəbərlər sektorunun nümayəndələri dəqiq, qərəzsiz və peşəkarlıq baxımından qüsursuz informasiyanın hazırlanması və dərhal istehlakçıya çatdırılması işinə sadiqliyini qoruyub saxlayacaqlar.

Bu bölmədə aparılmış müzakirələrdə çıxarılmış daha bir nəticə ondan ibarətdir ki, multimedia informasiya agentliklərinin işində yeni bir mərhələ hesab edilir. Nisbətən yaxın vaxtlarda multimedia gündəlik reallıqlardan

birinə çevrilmişdir. İnformasiya agentliyinin arsenalında mətn məlumatları ilə yanaşı, video və audio xəbərlərin olması artıq heç kəsi təəccübləndirmir. Bir sıra agentliklərin veb-saytlarına daxil olsaq, xəbər materiallarının bu növünün yerləşdirildiyi bölmələrə rast gələrik. Həmin agentliklərin çoxu videomaterialların yayılmasında xüsusi videoportalların, məsələn, YouTube saytının resurslarından istifadə edirlər. Lakin agentliklərin çoxunun öz texniki imkanları vardır.

Şübhə yoxdur ki, vaxt gələcək, bu gün yüksək texnologiyalar dediyimiz imkanlar tarixə çevriləcək və öz yerini elə nailiyyətlərə verəcək ki, onlar hələ bəşəriyyətə məlum deyildir. Bu, reallıqdır! Elə buna görə də media sektorunun peşəkar vəzifəsi bu reallıqdan geri qalmamaqdır. Əgər elmi-texniki nailiyyətlər xəbər məhsulları istehsalına vaxtında tətbiq edilərsə, yeniliklərin istehlakçıları qazanacaq, bu isə bütün cəmiyyət üçün qazanc olacaqdır.

Azərbaycanlı mütəxəssislər Bakı Humanitar Forumunun işində fəal iştirak etmələri ilə fərqləndilər. Forumun müxtəlif bölmələrində çıxış edən alimlərimiz vurğuladılar ki, tarixən Qərb və Şərq dəyərlərini özündə birləşdirmiş Azərbaycan mədəniyyətinin formalaşmasında ölkəmizdə yaşayan bütün xalqların və dini icmaların rolu olmuşdur. Forumun ən mühüm ideya istiqamətlərindən biri müzakirə edilən problemlərə humanitar prinsiplər aspektində bu cür yanaşmadır. Forumun əsas məqsədlərindən biri cəmiyyətin sosial-mədəni həyatının humanitar dəyərlər əsasında inkişafı modelinin müzakirəsi idi. Bu məqsəd əldə edildi.

Forumun digər bölmələrində müzakirələrin iştirakçıları belə qənaətə gəldilər ki, müasir dünyada polietniklik və multikulturalizm amilləri daha böyük aktuallıq kəsb edir. Bakı Humanitar Forumunun postmodernist mədəniyyətin ənənəvi dəyərlərlə sıx bağlılığını etiraf etməsi ilə yanaşı, bir məqamı da inkar etmək olmaz ki, tədbirin gündəliyindəki bütün məsələləri xarici ölkələrdən gəlmiş, tamamilə müxtəlif sahələri təmsil edən alim və mütəxəssislərin iştirakı ilə müzakirə edilmişdir.

Bununla bərabər, müasir elm cəmiyyətin inkişafına əvvəlki kimi çox güclü təsir göstərən əsas ideyalar generatoru rolunu qoruyub saxlayır. Lakin fundamental problemləri təkcə elmi-texniki tərəqqi və iqtisadi modellər vasitəsilə həll etmək mümkün deyildir. Forumda çıxış edən alimlərin

çoxu bunu vurğulamışlar. Bütün ictimai strukturların və konsepsiyaların dəyişikliklərə məruz qalması fundamental məsələdir.

Bakı Beynəlxalq Humanitar Forumunun əsas yekunlarından biri bu faktın etiraf edilməsi olmuşdur ki, qloballaşma yalnız bütün bəşəriyyətə məxsus olmağa əsaslanan ümumi gələcəyin formalaşması üzrə geniş-miqyaslı və israrlı səylərin həyata keçirilməsi yolu ilə ədalətli xarakter kəsb edə bilər. Forum iştirakçılarının qənaəti belə olmuşdur ki, qloballaşan müasir dünyada dəyər sistemləri yenilənir, sosial və mədəni proseslər sürətlənir, həyatın bütün sahələrində fundamental dəyişikliklər yaradan siyasi və mənəvi irəliləyişlər baş verir, əvvəlki tarixi dövrlərdə cəmiyyətin şüurunda formalaşmış stereotiplər və sosial təsəvvürlər dəyişir. Bu şəraitdə elmin və təhsilin inkişafı, yeni texnologiyaların yaranması, informasiya cəmiyyətinin təşəkkülü vaxtilə sırf nəzəri təsir bağışlayan bir sıra problemləri aktuallaşdırır.

Forumun daha bir nəticəsi bunun etiraf edilməsi olmuşdur ki, genişlənməkdə və dərinləşməkdə olan qloballaşma prosesi alimlər və siyasətçilər qarşısında çoxsaylı məsələlər qoyur, o cümlədən elə məsələlər qarşıya çıxır ki, bəşəriyyət bunlarla əvvəllər üzləşməmişdi və yeni humanitar gündəliyin formalaşmasını zərurətə çevirir.

Bakı Forumunun iştirakçıları narahatlıqlarını bildirmişlər ki, bəşəriyyət təbiətlə harmoniya şəraitində yaşamağa hazır olmadığına və bunu bacarmadığına görə, planetar miqyaslı təhdidlərlə üzləşir. Forumda çıxış etmiş görkəmli nümayəndələr vurğulamışlar ki, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üçün göstərilən bütün cəhdlərə baxmayaraq, sivilizasiyaların münaqişəsi hələ də kifayət qədər aktual problem olaraq qalmaqdadır. Qloballaşma şəraitində mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı təsiri prosesi heç də o demək deyil ki, bütün cəmiyyətlərə müəyyən dəyərlər toplusu zorla qəbul etdirilməlidir. Qloballaşmanın müxtəlif modellərinin və variantlarının nəzərdən keçirilməsi bu gün mövcud olan mədəniyyətlərin və dəyər oriyentirlərinin müxtəlifliyini ən adekvat şəkildə nəzərə almağa imkan verir.

Azadlıq, bərabərlik, həmrəylik, dözümlülük və təbiətə hörmət kimi fundamental dəyərlərin əhəmiyyətinin etiraf edilməsi Bakı Forumunun leytmotivi olmuşdur. Eyni zamanda, bir ölkənin və ya bir qrup ölkənin dəyərləri

yeganə düzgün dəyərlər kimi qəbul edilməməlidir. Sivilizasiyaların parçalanmasının qarşısını ala biləcək və qlobal etika hüququnda bərqərar olmağa şərait yaradan etik prinsip və normaların müəyyən olunmasının zəruriliyi dərk edilməlidir.

Müxtəlif ölkələrin dövlət siyasətinin tərkib hissəsi kimi multikulturalizmin nailiyyətlərinin və imkanlarının bir daha təhlil olunmasının vacibliyinin bildirildiyi Forumda dünya ictimaiyyəti etnik və mədəni identiklik arasında sərbəst seçimi təmin etməyə, insanın əsas hüquq və azadlıqlarını müdafiə etməyə, ksenofobiya, irqçilik, dözümsüzlük kimi halların bütün təzahürlərini qətiyyətlə pisləməyə çağırılmışdır. Forum iştirakçıları planetar miqyaslı təhdidlərin dərk edilməsi, ekoloji və texnogen fəlakətlər baş verə bilməsinin, iqlim dəyişmələrinin, təbii ehtiyatların tükənməsinin aktuallaşması probleminə, habelə biotexnologiyalar sahəsində böyük uğurlarla bağlı fəlsəfi və etik problemlərin geniş spektrinə diqqəti cəlb etməyi zəruri saymışlar.

Forum iştirakçıları bəşəriyyətin qorunub saxlanması və daha müsbət inkişafı üçün şərt kimi mədəniyyətlərarası, konfessiyalararası və sivilizasiyalararası dialoq üçün real mexanizmlər yaratmağı, ilk növbədə, mədəniyyətlərin və dəyər sistemlərinin müxtəlifliyini qoruyub saxlamaqla onların ümumi cəhətlərini aşkara çıxarmağı vacib hesab etmişlər.

Birinci Bakı Beynəlxalq Humanitar Forumu uğurla başa çatmış, iştirakçıların mövqeyi Bakı Bəyannaməsində öz əksini tapmışdır. Forum iştirakçılarının bu tədbirin ənənəvi təşkili barədə təklifini dəstəkləyən Azərbaycan Prezidenti İlham Əliyev 2011-ci il oktyabrın 24-də Bakı Beynəlxalq Humanitar Forumunun nəticələri haqqında Sərəncam imzalamışdır. Həmin Sərəncama əsasən Bakı Forumunun ənənəvi olaraq keçirilməsini təmin etmək üçün Prezident Administrasiyasının rəhbəri, görkəmli filosof alim, akademik Ramiz Mehdiyevin sədrliyi ilə Təşkilat Komitəsi yaradılmışdır.

Çox məsuliyyətli bir məsələnin akademik Ramiz Mehdiyevə həvalə edilməsi heç də təsadüfi deyildir. Akademik Ramiz Mehdiyevin ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya əsasında həyata keçirilən dövlət quruculuğu prosesinin elmi-nəzəri və praktik istiqamətlərinin tədqiqi ilə bağlı fundamental tədqiqatları müasir müstəqil Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikrin inkişafında həqiqətən yeni

mərhələ kimi qiymətləndirilir. Qloballaşma, demokratik inkişaf modelləri, milli münasibətlər, milli ideologiya, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi, iqtisadi və humanitar islahatların, modernləşmə xəttinin nəzəri-fəlsəfi əsaslarının işlənib hazırlanması filosof alimin elmi fəaliyyətinin əsas trendləridir.

İndi Azərbaycanın növbəti on il üçün inkişaf konsepsiyası üzərində ciddi iş aparılır. Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması haqqında Sərəncam imzalamışdır. Ölkəni siyasi, iqtisadi və humanitar quruculuğun üçüncü fazasına çıxaracaq bu sənəddə nəzərdə tutulacaq tədbirlərin hazırlanıb həyata keçirilməsi çoxmədəniyyətliliyin Azərbaycan modelini yeni hədəflərlə zənginləşdirəcəkdir.

Son olaraq bir daha demək lazımdır ki, Birinci Beynəlxalq Humanitar Forumun Azərbaycan paytaxtında keçirilməsi əlamətdar hadisə olmaqla yanaşı, dövlətimizin beynəlxalq nüfuzunu daha da artırmışdır. Bu Forumun hər il keçirilməsi ilə əlaqədar Bakı da tədricən bəşəriyyətin qlobal məsələlərinin müzakirə edildiyi beynəlxalq platformaya, belə demək olarsa, dünyanın "Humanitar Davos"una çevrilir.

"Azərbaycan", "Respublika", "Bakinski raboçi",
"İki sahil" və "Kaspi" qəzetləri,
11 aprel 2012-ci il.

Dünyanı gözəllik xilas edəcək...
"Fransa inciləri" ilə tanışlıqdan yaranan düşüncələr

Azərbaycan Milli İncəsənət Muzeyində açılmış Fransa təsviri sənət şedevrlərinin – boyakarlıq, qrafika, heykəltəraşlıq və foto nümunələrinin möhtəşəm sərgisi ilə tanış olarkən bu məşhur deyimin daşıdığı məna yükünün həqiqət olduğunu bir daha anlayırsan: Dünyanı gözəllik xilas edəcək...

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin, Fransa mədəniyyət və kommunikasiyalar naziri Frederik Mitteranın təşəbbüsü ilə təşkil edilmiş sərginin "Fransa inciləri" adlandırılması bu ölkənin qədim və müasir incəsənət nümunələrinin vahid məkanda nümayiş etdirilməsinin doğurduğu hissləri çox dəqiq səciyyələndirir. Şübhəsiz ki, fransızlar həmvətənlərinin yaradıcılığının bütün bəşəriyyətə mənsub olan bu gözəl nümunələrini dünyaya təqdim etməklə haqlı olaraq qürur duyurlar. Çünki bu şedevrlər artıq təkcə fransızların deyil, ümumbəşəri mədəni sərvətlər xəzinəsini zənginləşdirən sənət inciləridir. Əlbəttə, belə nadir sənət inciləri hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da mədəniyyət xəzinəsində vardır və bunlar bəşəri dəyərlər platformasını formalaşdırır.

Sərgidə Parisin məşhur Luvr, Orse, Romantika muzeylərindən, Fransanın bütün coğrafiyasını əhatə edən qalereyalarından və şəxsi kolleksiyalarından təsviri incəsənətin bütün növlərinə aid olan 484 eksponat nümayiş etdirilir. XVII-XIX əsrlərin dekorativ tətbiqi sənət nümunələri – qobelenlər, "Lalə" adlı zərgərlik məmulatı və başqaları sərgidə geniş təmsil olunmuşdur.

Ogüst Renuar, Ogüst Roden, Edqar Deqa, Anri Tuluz-Rotrek, Jan-Batist Simeon Şarden, Ejen Delakrua və digər məşhur fırça ustalarının əsərlərinin təmsil edildiyi sərginin ilk dəfə məhz Bakıda nümayiş etdirilməsi, digər dövlətlərin paytaxtlarında isə yalnız Bakıdan sonra göstəriləcəyi faktı çox rəmzi məna daşıyır.

Bu sərgi ölkəmizin mədəni həyatında çox mühüm hadisəyə çevrilmişdir. Çünki müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı nüfuz etməsinə və zənginləşməsinə şərait yaradan mədəni əlaqələr təkcə insanlar arasında anlaşmaya xidmət etməklə məhdudlaşmayıb, həm də nağıllar aləmini xa-

tırladan romantik Şərqi praqmatik Qərb ilə birləşdirən yollar, körpülər salır. Mədəniyyətlərin bu cür qeyri-adi və bununla bərabər, zamanın hökmü baxımından zəruri olan əlaqəsində yeni, sintez edilmiş möhtəşəm bir dünya yaranır. Bu dünya bəşər övladının mövcud olduğu bütün dövrlərdə insanın yaratdığı gözəllikləri özündə cəmləşdirir.

Qloballaşan dünyamızın üzləşdiyi çağırışlar bəşəriyyətin qarşısında yeni məsələlər qoyur. Bu məsələlər birlikdə həll edilməlidir. Bu mənada mədəniyyət xalqlar arasında ünsiyyəti artırır, ümumi harmoniyanın bərqərar olmasında əvəzsiz rol oynayır. Mədəniyyət həm də siyasi dialoq və əməkdaşlıq üçün məkan yaradır.

Milli İncəsənət Muzeyinin zallarında böyük fransız rəssamlarının əsərlərinə tamaşa etdikcə, xəyal məni unudulmaz günlərə - 1993-cü il dekabrın 19-22-də Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin Fransanın o vaxtkı Prezidenti Fransua Mitteranın dəvəti ilə bu ölkəyə rəsmi səfərində ulu öndəri müşayiət etmək xoşbəxtliyinin nəsib olduğu vaxta apardı. Yeri gəlmişkən deyim ki, bu, Heydər Əliyev prezident seçiləndən sonra onun Qərb ölkələrinə ilk rəsmi səfəri idi. Beləliklə, Heydər Əliyev Avropa ilə əməkdaşlıq siyasətinin həyata keçirilməsi xəttini məhz Fransadan başlamışdır. O vaxt Heydər Əliyev Fransanın ali rəhbərliyi, bu ölkənin parlamentinin, sənaye və işgüzar dairələrinin nümayəndələri ilə bir sıra faydalı görüşlər keçirmişdir. Bu səfər çərçivəsində iki ölkə arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə, Şərqi Avropanın keçmiş sosialist respublikalarının və keçmiş sovet respublikalarının demokratik inkişaf yoluna və bazar iqtisadiyyatına transformasiyasını nəzərdə tutan "Paris xartiyası" imzalanmışdır.

Elə həmin vaxt Fransua Mitteran bəyan etmişdi ki, onun ölkəsi Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıyır.

Bir vaxtlar Avropanın əsas paytaxtı sayılan, qitədəki digər dövlətlərə təsiri çox böyük olan bu şəhərdə bizim Prezidenti necə ehtiramla qəbul etdiklərini, onun təkcə xoşniyyətli dinləyiciləri deyil, hətta opponentlərini də öz tərəfinə çəkməklə danışıqları necə məharətlə aparmasının şahidi oldum. Azərbaycan dövlətinin liderinə bu ehtiram bütün ölkəmizə və xalqımıza şamil edilirdi. O vaxt Heydər Əliyev bəyan etmişdi ki, Azərbaycan Fransa ilə əməkdaşlığa böyük əhəmiyyət verir. 1995-ci ilin dekabr ayında

bu ölkəyə ikinci səfəri çərçivəsində investisiya məsələsinə həsr olunmuş konfransda iştirak etmiş Heydər Əliyev Fransa şirkətlərini Azərbaycana dəvət edəndən sonra tərəflər iqtisadi əlaqələri genişləndirməyə başladılar.

Təsadüfi deyildir ki, cənab İlham Əliyev də 2004-cü ilin yanvar ayında Azərbaycan Prezidenti kimi ilk xarici səfərini məhz Fransaya etmişdi. Fransa bunu qiymətləndirdi. Məsələn, ölkənin Baş naziri Dominik de Vilpen demişdi: "Azərbaycan sivilizasiyaların qovuşduğu, dini tolerantlığın bir sıra ölkələr üçün nümunə olduğu ölkədir". O vaxt Azərbaycan ilə Fransa arasında mülki müdafiə, aeronavtika, elmi əməkdaşlıq, turizm və başqa məsələlərə aid sazişlər imzalanmışdı. Elə həmin səfər zamanı Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın "Total" və "Elf Akiten" şirkətləri arasında "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının birgə işlənilməsinə dair kontrakt, habelə hava nəqliyyatı sahəsində əməkdaşlıq, sərbəst gediş-gəliş və mədəniyyət sahəsində sazişlər imzalanmışdır.

O vaxtdan, necə deyərlər, çox sular axıb. Ölkələrimiz arasında ictimai-siyasi həyatın bütün sahələrini, o cümlədən iqtisadi, elmi-mədəni, humanitar və digər sahələri əhatə edən sıx əməkdaşlıq münasibətləri yaranmışdır.

Azərbaycan-Fransa əlaqələrinin bütün tarixi ölkələrimiz və xalqlarımız arasında etimada əsaslanan qarşılıqlı münasibətlərin olduğuna dəlalət edir. Hətta Fransa Senatında qondarma "erməni soyqırımı"nı inkar edənlərin cinayət təqibi barədə qanun (Bəziləri səhvən düşünürlər ki, bu qanun yalnız qardaş Türkiyəyə qarşı yönəlmişdir. Əslində isə, həmin qanun, həm də Azərbaycana qarşı yönəlmişdir və bütövlükdə Azərbaycan-Fransa münasibətlərinə kölgə salır.) qəbul edilməsinə xeyir-dua vermiş indiki Fransa Prezidenti Nikola Sarkozinin siyasi demarşına baxmayaraq, Fransa xalqı, onun qanunları və postulatları bizim hisslərimizlə oynamağa, alternativi olmayan və ola bilməyəcək dostluğa xələl gətirməyə imkan vermədi. Fransa Konstitusiya Şurası demokratiyanın beşiyi sayılan öz ölkəsinin ənənələrinə dönmədən riayət edərək həmin qanunu demokratik prinsiplərə və Konstitusiyaya zidd olan sənəd kimi ləğv etdi. Bu, tamamilə qanunauyğun haldır, çünki uzaqgörməz siyasətçilər gəldi-gedərdir, ölkələr, onların qurduğu humanitar əlaqələr isə əsrlər boyu qalır və qalacaqdır. Çünki bu əlaqələr xalqların humanitar ənənələrini zənginləşdirir, mədəni dəyərlər məcmusunda əlvanlıq və qarşılıqlı faydalanmaq meyilləri vardır.

"Fransa inciləri" sərgisinin açılış mərasimindəki çıxışında bu amilləri yüksək dəyərləndirən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva demişdir: "Fransa incəsənəti ölkəmizdə hər zaman yüksək dəyərləndirilib və fransız dilinə, ədəbiyyatına, musiqisinə olan rəğbət bütün dövrlərdə hiss olunubdur. Keçmişə nəzər salsaq, Fransa-Azərbaycan mədəni tellərini sadalamaq mümkündür. Bu sırada hələ XIX əsrdə məşhur yazıçı Aleksandr Dümanın ölkəmizə səfəri və xan qızı Xurşidbanu Natəvan ilə görüşü, dahi Üzeyir bəyin 1995-ci ildə Parisin "Femina" teatrında fransız dilində tamaşaya qoyulmuş "Arşın mal alan", operettası, Fransada vaxtilə nəşr olunan "Qafqaz" jurnalının redaktoru Ceyhun Hacıbəylini və Fransa ədəbiyyatına "Banin" imzası ilə daxil olan və ilk fransızdilli yazıçımız Ümbülbanu Əsədullayevanı xatırlamaq olar. Bütün bu şəxsiyyətlər Azərbaycan-Fransa mədəni əlaqələrinə silinməz töhfələr veriblər".

Bu fikirlər tarixi köklərə malik olan Azərbaycan-Fransa humanitar münasibətlərinin ən yaxşı xarakteristikasıdır və mədəni əlaqələrin dinamikasının möhkəm təməllər üzərində qurulduğunu təsdiqləyir. Artıq humanitar sahədə Azərbaycan-Fransa münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu təsdiqləyən kifayət qədər zəngin faktlar vardır. Bu əlaqələrin yeni mərhələsində Parisdə və Fransanın regionlarında Azərbaycan Mədəniyyəti Günləri təşkil edilir, müxtəlif sərgilər, festivallar və konsertlər keçirilir, Fransanın ən yaxşı ali məktəblərində yüzlərlə azərbaycanlı gənc təhsil alır, bu ölkənin bir sıra ali məktəblərində Azərbaycan dili öyrənilir, cari ilin sonunda isə Fransada Azərbaycan mədəniyyəti mərkəzinin açılışı gözlənilir.

Təbii ki, bütün bunlar Azərbaycan dövlətinin və onun Prezidentinin düzgün qurulmuş siyasi vektoru, hərtərəfli ölçülüb-biçilmiş xarici və daxili siyasəti, öz xeyirxahlığı və şəfqəti ilə təkcə Azərbaycanda deyil, onun hüdudlarından çox-çox uzaqlarda da tanınmış ölkəmizin birinci xanımının, sözün həqiqi mənasında, fədakar əməyi sayəsində mümkün olur.

Heydər Əliyev Fondu Versal sarayının, Luvr muzeyinin və Strasburqdakı tarixi kilsənin bərpa olunmasında bilavasitə iştirak etmişdir. Fond başqa ölkələrdə də xeyirxah işlər görmüş, xalqlar arasında etimad və dostluq tellərinin möhkəmlənməsi naminə yorulmadan çalışmışdır.

Çox sevindirici haldır ki, həyata keçirilən tədbirlərə nazir Frederik Mitteranın şəxsində Fransa tərəfi də böyük əhəmiyyət verir. Nazir "Fran-

sa inciləri" sərgisinin açılış mərasimindəki çıxışında demişdir: "Fransada, ümumiyyətlə, bu cür mədəni tədbirlər xüsusi nüfuza malikdir və bu baxımdan biz hesab edirik ki, əgər Azərbaycan tərəfi, azərbaycanlılar Fransa mədəniyyətinə bu cür maraq nümayiş etdirirlərsə bu, o deməkdir ki, Fransada Azərbaycanı tanıyanların da sayı çoxalır. Xüsusən də Sizin Fransada mövcud ictimai rəyə təsiriniz artır və kütləvi informasiya vasitələri ilə ölkənizi tanıtmağa imkanlarınız genişlənir.

Əslində, biz bu gün Fransanın mədəni irsinin müəyyən incilərini burada Azərbaycan ictimaiyyətinə nümayiş etdiririk. Lakin Sizin çoxsaylı nümayəndələrinizin bu sərginin açılışında iştirak etməsi və bundan sonra da ictimaiyyət nümayəndələrinin ekspozisiya ilə tanış olması Fransa tərəfindən çox yüksək dəyərləndiriləcək və Fransanın, Fransa cəmiyyətinin Azərbaycana marağını daha da artıracaqdır. Biz bu baxımdan məlumatlıyıq ki, Azərbaycanın da çox gözəl mədəni irsi vardır. Mən bu sözləri deyərkən Azərbaycanın muzeylərini, poeziyasını, incəsənətini, baletini nəzərdə tuturam".

Fransalı nazir fikirlərini inkişaf etdirərək vurğulamışdır ki, bu sərginin ilk dəfə Bakıda keçirilməsi Fransanın Azərbaycana hörmət və ehtiramının əlamətidir, bu, bir daha onu göstərir ki, Fransa Azərbaycan ilə mövcud mədəni münasibətlərə, əməkdaşlığa xüsusi əhəmiyyət verir.

Müasir müstəqil Azərbaycan haqqında bu sözləri Fransa cəmiyyətində kifayət qədər böyük nüfuza malik ictimai xadimin – Frederik Mitteranın dilindən eşitmək qürurverici amil olmaqla bərabər, həqiqət anıdır. Bütün bunlar sübut edir ki, Azərbaycan daha uğurlu gələcək qurmağı hədəfə alan və mükəmməl inkişaf modelinə malik olan dövlət kimi beynəlxalq humanitar əməkdaşlıq üçün böyük inam və nikbinlik yaradır. İndi artıq hamı etiraf edir ki, dünyanın özü qədər qədim olan Odlar Yurdu Azərbaycan tolerantlıq nümunəsi olmaqla, sülhsevər mehriban qonşuluq siyasəti yeridir, tərəqqi yolu ilə irəliləyir, regiondakı digər dövlətlərin iqtisadiyyatını keyfiyyətcə yeni səviyyəyə çatdırmaqda onlara kömək edir və beləliklə, ümumi firavanlığa və rifaha şərait yaradır. Azərbaycan xalqının rifah halı günbəgün yaxşılaşır və gələcək qələbələrin qazanılmasında gənclərə böyük önəm verilir.

Hazırda Azərbaycanda bütün sahələrdə olduğu kimi, incəsənət aləmində də çox istedadlı gənclər yetişmişdir. Yaşlı nəslin milli yaradıcılıq es-

tafetini qəbul edən bu gənclərin səyləri sayəsində Azərbaycan avanqard rəssamlığın və memarlığın növbəti dalğası ilə əlamətdar olan bir ölkəyə çevrilmişdir.

Çox iddialı və orijinal layihələrlə çıxış edən bu gənclərin yaradıcı fikrinin misilsiz təxəyyülü, onların böyük uğurları Azərbaycanda həyata keçirilən gənclər siyasətinin nəticəsidir. Dövlətimiz tərəfindən bu sahədə formalaşdırılmış strategiyanın dəqiq oriyentirləri bəllidir. Bu strategiya bir neçə ildən sonra ölkəmizin inkişafını müəyyənləşdirəcək gəncliyin potensialından daha səmərəli istifadə edilməsinə yönəlmişdir. Gənclik sahəsində hərtərəfli düşünülmüş və elmi cəhətdən əsaslandırılmış proqramların işlənib hazırlanması və qəbul edilməsi dövlətimizin bu sahəyə son dərəcə ciddi yanaşmasına dəlalət edir. Ölkəmizdə həyata keçirilən gənclər siyasəti inkişafın Azərbaycan modelinin tərkib hissəsidir. Bu modelin səciyyəvi cəhətləri onun gələcəyə istiqamətlənmiş, genişmiqyaslı, ardıcıl, müasir, qarşıya qoyulmuş məqsədlərin aydın və praqmatik olmasıdır.

Azərbaycan dövləti keçən əsrin 70-80-ci illərində təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ənənələri davam etdirərək gəncləri dünyanın ən yaxşı ali məktəblərində təhsil almağa göndərir, bunun üçün milyonlarla vəsait xərcləyir. Yaradıcı gənclərin inkişafına dövlət tərəfindən Azərbaycanda olduğu qədər böyük diqqət yetirilən ölkələrə az-az rast gəlmək olar. Hər il incəsənətin müxtəlif sahələrində xüsusi qabiliyyətlərini göstərmiş onlarla gəncin adı istedadların "Qızıl kitab"ına yazılır, onlara sanballı prezident təqaüdləri ayrılır. Bu isə, əlbəttə, yaradıcı gənclər üçün çox böyük stimuldur.

Dövlətimiz tərəfindən təbliğ və təşviq edilən milli və ümumbəşəri dəyərlər bugünkü gənclərin hər cür yenilik və tərəqqi üçün açıq, eyni zamanda, adət-ənənələrimizə sadiq, tolerant, hər şeyi bilmək istəyən, ətraf aləmdə baş verənlərə laqeyd qalmayan, hər işdə birinci olmağa, dünyamızı daha da yaxşılaşdırmağa çalışan insanlar kimi yetişdirməyə kömək edir. Buna görə də heç də təsadüfi deyildir ki, indi kino, musiqi və təsviri sənətdə yeni-yeni adlar üzə çıxır, onları artıq təkcə Azərbaycanda deyil, ölkənin hüdudlarından çox-çox uzaqlarda da tanıyırlar. Bununla bərabər, əlbəttə, bir məsələni də unutmamalıyıq ki, həmin istedadların üzə çıxmasına yenə də dövlətimiz və ölkənin ən iri qeyri-hökumət təşkilatı olan

Heydər Əliyev Fondu kömək edir, bu gənclərə qayğı göstərir, onlar üçün daha yaxşı şərait yaradır.

Bu yaxınlarda Londonun məşhur sərgi qalereyasında Heydər Əliyev Fondunun və "Baku" jurnalının ingilisdilli versiyasının köməyi və təşkilati dəstəyi ilə Azərbaycan rəssamlarının işlərindən ibarət "Bakıya uçuş. Azərbaycanın müasir incəsənəti" adlı sərgisi keçirilmişdir. Sərginin təşkil edilməsi təşəbbüsünü Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva irəli sürmüşdür. Sərgidə nümayiş etdirilən işlərin demək olar ki, yarısının müəllifləri böyük incəsənətdə ilk addımlarını atan gənclərdir. Avropanın ən iri paytaxt şəhərlərindən birində bu ekspozisiyanın təşkili Azərbaycandan olan gənc rəssam və heykəltəraşların öz sənətini qitənin məşhur sərgi salonlarında təqdim etmək üçün nadir imkan oldu. Belə sərgilərə düşməyi yəqin ki, artıq tanınmış sənətkarların çoxu arzu edir. London elitasının nümayəndələrinin çoxunun təşrif buyurduğu bu sərgi incəsənətdən yaxşı baş çıxaran və tələbkar tamaşaçıların böyük marağına səbəb olmuşdur. Ekspozisiyada Leyla xanım Əliyevanın da qədim və müasir Bakı ilə assosiasiya doğuran maraqlı rəsmlərinin yer aldığı "Bakıya uçuş" sərgisi ilə yaxın vaxtlarda Paris, Roma, Moskva və dünyanın bir sıra digər şəhərlərinin sənətsevərləri də tanış ola biləcəklər.

İstedadlı gənc rəssam Aida Mahmudova tərəfindən Azərbaycanda və xarici ölkələrdə sərgilərin təşkili və təhsil proqramları vasitəsilə müasir incəsənətin inkişafını dəstəkləmək üçün təsis edilmiş "YARAT" adlı qeyri-kommersiya özəl təşkilatının yaradılması da gənclərin yenilik axtarışlarının nəticəsi olmuşdur. "YARAT" təşkilatının ciddi yaradıcılıq potensialına malik olmasını belə bir fakt əyani şəkildə təsdiqləyir ki, bu təşkilat "012 Baku Public Art" adlı ilk festival təşkil etmişdir. Açılış mərasimi bu il fevralın 24-də keçirilmiş bu festivalın qeyri-adiliyi ondan ibarətdir ki, festival çərçivəsində təqdim edilən əsərlərin əksəriyyətinin müəllifləri gənc rəssamlardır, əsərlər adət etdiyimiz məkanda – sərgi salonlarında və qalereyalarda deyil, açıq havada nümayiş etdirilir və bununla da yaradıcı fantaziya üçün geniş üfüqlər açılır. Bu qayda ilə nümayiş etdirilmiş bir neçə iş cəsarətli eksperimentə, ideyanın orijinal ifadəsinə və avanqard sənətə xas olan qeyri-adi formalar sayəsində böyük maraq doğurmuşdur. Bu festivalın keçirilməsi həm də bizim qədim və müasir Bakını, onun zəngin tarixini,

ənənələrini, mədəniyyətini, nadir mənəviyyatını nümayiş etdirmək üçün çox gözəl fürsətdir.

Keçən ilin axırlarında Parisdəki məşhur "Vivyen" incəsənət qalereyasında azərbaycanlı gənc rəssam Məryəm Ələkbərlinin fərdi sərgisi açılmışdır. Məşhur fransız rəssamları Məryəmin böyük istedada, qeyri-adi yaradıcılıq imkanlarına malik olmasını, onun forma və rənglərlə əsl sənətkar kimi işləmək, parlaq və harmonik bir aləm yaratmaq bacarığını, dərin yaradıcılıq intuisiyasını, ətraf aləmin reallıqlarını könül süzgəcindən keçirmək qabiliyyətini qeyd etmişlər. Bu gənc rəssamın əsərlərində qeyri-adi səmimilik, xeyirxahlıq və həyatsevərlik duyulur. Bu məziyyətlərə isə yaşadığımız total rasionallıq dövründə çox güman ki, nadir hallarda rast gəlinir. Təsadüfi deyildir ki, Məryəm Ələkbərlinin Moskvada açılmış "Novruz – yeni gün" adlı sərgisi də geniş əks-səda doğurmuşdur. Sərgi ilə tanış olan incəsənət xiridarları Məryəm Ələkbərlini nadir istedad adlandırmışlar.

Beləliklə, bu gün Azərbaycanı beynəlxalq aləmdə təkcə neft və qaz ölkəsi kimi deyil, həm də qədim tarixə və mədəniyyətə malik olan, dünya sənət xəzinəsinə nadir incilər bəxş etməklə onu zənginləşdirən bir ölkə kimi tanıyırlar. Milli incəsənətdə nadir hadisə olan istedadlı gənclərimiz bu işdə mühüm rol oynayırlar.

Böyük rus yazıçısı Fyodor Dostoyevskinin "Dünyanı gözəllik xilas edəcək" kəlamını bu yazının sərlövhəsinə təsadüfən çıxarmamışıq. Doğrudan da, gözəllik dünyanı xilas edəcək, o, süni sərhədləri aradan götürəcək, insanlar arasında bir-birini başa düşməmək hallarını aradan qaldıracaq, onları birləşdirəcək, dünyadakı dəyərlərin ümumplanetar meyarlarla qavranılmasına istiqamətləndirəcəkdir. Bu baxımdan, Azərbaycanın da deməyə sözü, göstərməyə nümunələri vardır.

"Azərbaycan", "Bakinski raboçi",
"İki sahil" və "Kaspi" qəzetləri,
4 aprel 2012-ci il.

İnkişafın Azərbaycan modelinin arxitekturasında mətbuatın yeri və rolu

Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın misilsiz inkişaf dinamikası bütün dünya birliyi tərəfindən artıq etiraf edilir. Həqiqətən, qısa tarixi dövrdə – cəmi iyirmi il ərzində gənc müstəqil dövlətimiz elə bir yol keçmişdir ki, bir sıra ölkələrin bu yolu keçməsi üçün yüzilliklər lazım gələrdi. Bu müddətdə Azərbaycan yarıdağılmış, daxili ziddiyyətlərin girdabında boğulan, gələcəyi üçün aydın oriyentirləri görünməyən, dərin siyasi və iqtisadi böhran içində olan bir ölkədən günbəgün çiçəklənən, sabit, dinamik inkişaf edən, bu gün artıq nəinki regional geosiyasətə, hətta müasir dünya nizamının arxitekturasına təsir göstərən dövlətə çevrilmişdir.

Ölkəmizin bu cür sürətli inkişafını təhlil edən nüfuzlu beynəlxalq ekspertlər indi "Azərbaycan fenomeni", "Azərbaycan sıçrayışı", "İnkişafın Azərbaycan modeli" ifadələrini tez-tez işlədirlər. Lakin bu sürətli inkişaf, necə deyərlər, göydən düşməmişdir. O, çox böyük və gərgin əməyin, konseptual və strateji yanaşmaya, perspektivlərin aydın təsəvvürünə əsaslanan səmərəli dövlət idarəçiliyinin nəticəsidir.

Konseptuallıq, strateji məqsədlərin düzgün seçimi, hətta ilk baxışdan əhəmiyyətsiz görünən bütün detalların da nəzərə alınması, irəlini görmək, hər bir konkret tarixi dövrdə Azərbaycana məhz nə lazım olmasını dəqiq bilmək bacarığı ümummilli lider Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik üslubuna həmişə xas olmuşdur.

Bunu 1993-cü ilin ortalarından başlayaraq, ümummilli liderin yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanın necə inkişaf etməsi nümunəsində aydın görmək olar. İlk illərdə bütün qüvvələr sosial-iqtisadi böhrandan çıxmaq, dövlətçiliyin möhkəm təməlini yaratmaq, siyasi sistem formalaşdırmaq, sabitliyi və asayişi təmin etmək məsələləri üzərində cəmləşdirilmişdisə, bu məqsədlərə nail olduqdan sonra əsas diqqət iri-miqyaslı sosial və iqtisadi islahatlara yönəlmişdi. Bu halda da qüvvələrin tətbiq vektoru tədricən dəyişirdi. 1990-cı illərin axırları – 2000-ci illərin əvvəlində hökumətin strategiyası iqtisadiyyatın baza sahəsi kimi neft-

qaz sənayesinin dirçəlişinə, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun inkişaf etdirilməsinə, ixrac boru kəmərləri şəbəkəsi yaradılmasına yönəlmişdi. 2003-cü ildə, Azərbaycan artıq neftdən sanballı gəlirlər əldə etməyə başlayanda dövlət öz qüvvə və vəsaitlərini iqtisadiyyatın şaxələndirilməsinə və infrastrukturun inkişafına yönəltdi. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafının birinci beşillik Dövlət Proqramı qəbul edildi. Sənaye müəssisələrinin, elektrik stansiyalarının, yolların, məktəblərin, tibbi mərkəzlərin, idman komplekslərinin genişmiqyaslı tikintisi, zavod və fabriklərin modernləşdirilməsi, informasiya-kommunikasiya texnologiyaları və başqa sahələrin inkişafı üzrə işlər başlandı. Bu işlər sosial sahədə ciddi dəyişikliklərlə müşayiət olunurdu. Son illərdə isə biz həyatın keyfiyyətinə və insan kapitalının inkişafına sərmayə qoyulmasını getdikcə daha çox müşahidə edirik. Statistik göstəricilər də bunu çox gözəl nümayiş etdirir. Təkcə son səkkiz ildə Azərbaycanda bir milyondan çox yeni iş yeri açılmış, yoxsulluq səviyyəsi 6 dəfədən çox azalaraq 49 faizdən 7,9 faizə düşmüş, minimum əməkhaqqı və pensiya 15 dəfə artırılmışdır.

Bugünkü Azərbaycan bütün Cənubi Qafqaz iqtisadiyyatının 83 faizini təmin edir; iqtisadiyyatda keçid dövrü uğurla başa çatmışdır; sürətli sənayeləşmə prosesi gedir, nəhəng müəssisələr yaradılır; şəhər ilə kənd arasında fərq ilbəil azalır; enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir; regionda ən güclü və döyüş qabiliyyətli ordulardan biri formalaşmışdır; səmərəli sosial proqramlar həyata keçirilir. 20 il bundan əvvəl dövlət xəzinəsi boş olan Azərbaycanda bu illər ərzində 40 milyard dollardan artıq vəsait toplanmışdır. Neft və qaz hesabına əldə edilən gəlirlərin akkumulyasiyası və onların idarə edilməsi şəffaf tərzdə həyata keçirilir, bu vəsaitlərin bir qismi gələcək nəsillər üçün saxlanır, bir qismi isə ölkə üçün ən əhəmiyyətli layihələrin həyata keçirilməsinə, o cümlədən qaçqınların və məcburi köçkünlərin şəraitinin yaxşılaşdırılmasına və Azərbaycan gənclərinin xaricdə təhsilinə sərf edilir. Əvvəllər xaricdən sərmayələr cəlb edən Azərbaycan bu gün özü xarici dövlətlərin iqtisadiyyatına milyardlarla sərmayə qoyur.

Beynəlxalq baxımdan ölkəmiz qlobal enerji təhlükəsizliyinin mühüm amilinə çevrilmişdir. Bundan əlavə, artıq bir neçə ildir ki, Azərbaycan özünü mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun mühüm məkanı

kimi təqdim edir. "Eurovision-2011" mahnı müsabiqəsində Azərbaycan nümayəndələrinin qələbəsi və dünyanın 155 dövlətinin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi də müstəqillik dövründə ölkəmizin danılmaz nailiyyətləridir.

Müasir Azərbaycanın bu portret cizgiləri artıq formalaşmış inkişafın Azərbaycan modeli – ümummilli lider Heydər Əliyev tərəfindən yaradılmış, dövlətimizin başçısı İlham Əliyev tərəfindən zənginləşdirilmiş və daha da konkretləşdirilmiş model haqqında danışmağa əsas verir.

Fikrimcə, "İnkişafın Azərbaycan modeli" termini dünyanın siyasi leksikonuna daxil olmağa layiqdir və artıq daxil olmuşdur. Ona görə ki, bu, mücərrəd anlayış deyil, real məzmuna malik olan tamamilə konkret anlayışdır. Bu model ucsuz-bucaqsız dünyada itməməyə, özünün mövcudluğunu bildirməyə, qlobal geosiyasətdə öz yerini tapmağa çalışan digər gənc müstəqil dövlətlər, dinamik inkişaf edən, səmərəli iqtisadiyyata və sosial sistemə, hakimiyyətlə cəmiyyət arasında ahəngdar şəkildə tərəqqi tapan münasibətlərə malik olan müasir dövlət qurmağı öz qarşısına məqsəd qoymuş ölkələr üçün nümunə ola bilər.

Məhz belə bir modelin olması Azərbaycanı öz inkişafında kortəbiilikdən və irrasionallıqdan, başqasının təcrübəsini kor-koranə təkrarlamaqdan və deməli, səhv və nöqsanlardan qorumuşdur. İnkişafın Azərbaycan modelinin fəlsəfəsini qısaca ifadə etmək istəsək bu, vətəndaşların rifah halını artırmaqla ölkənin modernləşməyə tam transformasiyası, həyatın bütün sahələrinin ahəngdar inkişafı, milli xüsusiyyətlər nəzərə alınmaqla dünyanın müsbət təcrübəsinin tətbiq edilməsi, universal demokratik prinsiplərin milli-mənəvi dəyərlər kontekstində bərqərar edilməsi, dünya birliyinə daha sıx inteqrasiya deməkdir.

Azərbaycan modeli hərtərəfli düşünülmüş və tarazlaşdırılmış proqramlar, dəqiq siyasi-iqtisadi və sosial proqnozlar əsasında ölkənin inkişafını nəzərdə tutur. Zənnimcə, belə bir fakt bunu çox gözəl nümayiş etdirir ki, bu gün Azərbaycanda 60-a yaxın dövlət proqramı, strategiya və konsepsiya həyata keçirilməkdədir. Prezident İlham Əliyevin Sərəncamına əsasən hazırda "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası hazırlanır. Belə bir sənədin işlənib hazırlanması zərurəti ölkəmizin inkişafında yeni, qarşımızda duran məqsəd və vəzifələrin daha mürəkkəb və çoxtərəfli olması

ilə səciyyələnən mərhələsinə qədəm qoyması ilə bağlıdır. Bu məqsədlərə nail olmaq üçün ən müasir, elmi əsaslara söykənən idarəçilik metodları və strateji yanaşmalar tələb olunur. Bu gün ölkə rəhbərliyinin bütün fəaliyyəti həmin metod və yanaşmaların hazırlanmasına yönəlmişdir.

Prezident İlham Əliyev müsahibələrinin birində vurğulamışdır ki, əgər gələcək haqqında fikirləşməsək, bugünkü məsələləri həll etmək çox çətin olacaqdır. Dövlət başçısı vurğulamışdır ki, bu gün bizim həyata keçirdiyimiz təşəbbüslərin çoxu gələcəyə yönəlmişdir. O cümlədən, neft-qaz sahəsində hökumətin planları ən azı 100 il üçün nəzərdə tutulmuşdur. Nəqliyyat sferasında və alternativ enerji mənbələrinin yaradılması sahəsində həyata keçirilən dövlət proqramları çərçivəsində yaradılan infrastruktur ölkəyə əsrlər boyu xidmət edəcəkdir. Təhsil, informasiya-kommunikasiya texnologiyaları, turizmin inkişafı sahəsində proqramlar da qarşıdakı onilliklər üçün nəzərdə tutulmuşdur.

Ölkədə reallaşdırılan bütün proqramların təhlili dövlətimizin qarşısına qoyduğu bütün ambisiyalı məqsədlər və layihələr real əsasa, konkret icra mexanizmlərinə və maliyyə təminatına malikdir. Bu da inkişafın Azərbaycan modelinin xüsusiyyətidir. Bu modelin bir xüsusiyyəti də qarşıya qoyulmuş məqsədlərin aydın, nəzərdə tutulan planların ardıcıl, tarazlaşdırılmış olması, onların həyata keçirilməsi yollarının düzgün təsəvvür edilməsidir.

Məsələn, iqtisadi sahədə neft-qaz sektorundan asılılığı tədricən azaltmaq və innovasiyalı inkişaf modelinə keçmək vəzifəsi qarşıya qoyulmuşdur. Azərbaycan hökuməti bu vəzifəni yerinə yetirmək üçün qeyri-neft sektorunu fəal inkişaf etdirir, neft gəlirləri yeni texnologiyalara yatırılır, sahibkarlığa güclü dəstək verilir. Sosial sahədə əsas məqsəd insanların rifahını yüksəltməkdən ibarətdir. Bu məqsəd davamlı inkişaf üzrə genişmiqyaslı proqramların həyata keçirilməsi, yoxsulluğun azaldılması və işsizliyin ləğv edilməsi hesabına təmin olunur.

Xarici siyasətdə Azərbaycan regionda liderlik modelini seçmişdir. Bu məqsəd bütün dövlətlərlə hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamaq əsasında əməkdaşlığın tənzimlənməsinə və inkişaf etdirilməsinə yönəlmiş təşəbbüslər, xoş məram, açıqlıq, dialoqa və zəruri anlarda köməyə gəlməyə hazırlığın nümayiş etdirilməsi yolu ilə həyata keçirilir. Azərbaycanın həyata keçirdiyi tarazlaşdırılmış, əsasını millətin və dövlətin

mənafeləri təşkil edən xarici siyasət bütün dünyada hamılıqla qəbul edilmiş nailiyyətdir. Bu siyasət sayəsində dünya birliyinin hörmət və rəğbətini qazanmış Azərbaycan regionda və dünyada mövqelərini möhkəmlətmiş, sülhsevər dövlət və etibarlı tərəfdaş imici qazanmışdır.

Bu uğurların informasiya təminatında dövlətimizin media sahəsində siyasəti də mühüm rola malikdir. Əlbəttə, dövlətin informasiya siyasəti də inkişafın Azərbaycan modelinin tərkib hissələrindən biridir.

Ölkəmizdə kütləvi informasiya vasitələrinin azad olması haqqında müddəa Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Azərbaycan hələ 1998-ci ildə, MDB məkanında birinci olaraq, senzuranı ləğv etmişdir. 2000-ci ildə Mətbuat Nazirliyinin ləğv olunması KİV-lərin fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin aradan qaldırılmasına, söz azadlığının təmin edilməsinə yönəlmiş çox mühüm addım idi. 2001-ci ildə qəbul edilmiş, beynəlxalq ekspertlərin fikrincə, çox demokratik və Avropa standartlarına müvafiq olan "Kütləvi informasiya vasitələri haqqında" qanun medianın fəaliyyəti üçün qanunverici bazadır. 2005-ci ildə "İnformasiya azadlığı haqqında" qanun qəbul edilmişdir. Azərbaycanda nəşr edilən materialların və yayımlanan verilişlərin məzmununa total nəzarət, iqtidarın tənqid edilməsinə görə hər hansı şəkildə təqib, o cümlədən cinayət təqibi yoxdur. Bu sahədə plüralizmin bərqərar olmasına belə bir fakt da dəlalət edir ki, hazırda Azərbaycanda 30-dan çox gündəlik və 100-ə yaxın həftəlik qəzet buraxılır, respublika əhəmiyyətli 9 telekanal, 15-ə yaxın regional telekanal verilişlərini yayır, internetdən sərbəst istifadə edilir. Bütün bunlar müstəqil mətbuat modelinin əsas elementləridir.

Bununla bərabər, qeyd etməliyəm ki, Azərbaycanda KİV ilə dövlətin münasibətləri sintezləşdirilmiş model əsasında qurulur. Bu model dünyada ümumi qəbul edilmiş "dövlət-mətbuat" qarşılıqlı münasibətlərinin bir neçə modelinin elementlərini özündə cəmləşdirir: mətbuatın sosial məsuliyyəti modeli, əsasən milli dövlət qurmaqda olan gənc müstəqil ölkələrdə tətbiq edilən "inkişaf modeli" və sair.

Sosial məsuliyyət modeli medianın cəmiyyət qarşısında müəyyən öhdəliklərini nəzərdə tutur: yüksək peşəkar standartlara uyğunluq, informativlik, düzgünlük, dəqiqlik, obyektivlik. Bu model müəyyən mənada iki prinsipi birləşdirir: medianın azadlığı və cəmiyyət qarşısında borcu. Bu

halda dövlət ilə mətbuat arasında münasibətlər müstəqil ictimai təsisatlar vasitəsilə tənzimlənir. Azərbaycanda belə bir təsisat rolunda Mətbuat Şurası çıxış edir. Sosial məsuliyyət modelində KİV-lərə ictimai rəy, peşə etikası vasitəsilə nəzarət edilir. Bu baxımdan Azərbaycanda qəbul edilmiş Jurnalistin Etik Davranış Kodeksi mətbuat işçilərindən təkcə yüksək peşəkar vərdişlər deyil, həm də düzgünlük və qərəzsizlik tələb edir, müəyyən mənada KİV-lərin tənzimləyicisi rolunu oynayır.

"İnkişaf modeli" KİV-lərin ölkədə həyata keçirilən milli siyasətin məqsədlərinə kömək etməsinə yönəlmişdir. Demokratik ölkələrdə KİV-lərin fəaliyyətində dövlətin rolu barədə fikir ayrılığı mövcuddur. Adətən belə hesab edirlər ki, bu sahədə dövlətin rolu minimuma endirilməlidir. Mən isə əksinə, hesab edirəm ki, informasiya cəmiyyətinə daxil olmağımız bu rolun artmasını nəzərdə tutur. Burada bir qeyd-şərtə ehtiyac vardır: "dövlətin rolu" dedikdə, əsla dövlətin mətbuatın işinə müdaxiləsini nəzərdə tutmuram. Söhbət KİV-lərin fəaliyyətinin səmərəli qanunvericilik bazasının formalaşmasında dövlətin konkret iştirakından, onun xüsusən elektron media sahəsində tənzimləyici rol oynamasından, inkişaf etmiş telekommunikasiya infrastrukturu yaradılmasından gedir. Bunlar olmasa müasir kütləvi informasiya vasitələri sadəcə mövcud ola bilməz. Mediastrukturların texniki təchizatında dövlətin köməyi və dəstəyi zəruridir. Dövlət həm də KİV-lərin fəaliyyəti üçün, əslində bütün cəmiyyət üçün, universal dəyər oriyentirlərinin müəyyən edilməsinə görə cavabdehdir.

İnformasiya siyasəti ölkənin sosial-iqtisadi və mədəni inkişafının xüsusiyyətlərindən, onun öz qarşısına qoyduğu məqsədlərdən asılıdır. Azərbaycan dövləti iqtisadi inkişafın yetərincə yüksək səviyyəsinə çatmaqla, innovasiyalara əsaslanan müasir informasiya cəmiyyəti qurmaqla KİV-lərin inkişafına, media sahəsinə ən yeni informasiya-kommunikasiya texnologiyalarının cəlb edilməsinə çox böyük diqqət yetirir. Bu texnologiyaların təsiri ilə KİV getdikcə daha artıq dərəcədə biznes sahəsinə çevrilir, bu isə dövrümüzün tələblərinə tam müvafiqdir.

Lakin bu məqamın təhlükəli cəhətləri də az deyildir, çünki kütləvi kommunikasiyalar sahəsində bazar münasibətlərinin ifrat dərəcədə tətbiqi bir sıra hallarda KİV-lərin maarifçilik və informasiya funksiyasının nivelirlənməsinə gətirib çıxarır, jurnalistikaya xas olan humanist səsləri bo-

ğur, əhaliyə xalqın milli-mənəvi dəyərlərinə və mentalitetinə yabançı davranış stereotiplərini zorla qəbul etdirir. Qloballaşmanın, o cümlədən informasiya məkanında qloballaşmanın şəksiz üstünlüklərinə baxmayaraq, bu prosesin sürətlənməsi də yeni təhdidlər doğurur.

Bu şəraitdə dövlətin tənzimləyici rolu, xüsusən Azərbaycan kimi gənc müstəqil ölkələrdə müstəsna əhəmiyyət kəsb edir. Axı bu gün sivilizasiyanın doğurduğu modernləşmə, yeniliyə və tərəqqiyə istiqamətlənmə ilə yanaşı, biz bu yeni aləmdə kimliyimizi itirməmək, milli mənliyimizi qoruyub saxlamaq üçün köklərimizə, mədəni-mənəvi dəyərlərə bağlılıq bizə hava və su kimi lazımdır.

Azərbaycan dövləti kütləvi informasiya vasitələri sahəsində də məqsədyönlü və ardıcıl siyasət yeridir, modernləşmə və qlobal informasiya məkanına inteqrasiya xəttini ölkənin milli maraqları ilə uğurla əlaqələndirir.

Dövlətimizin medianın inkişafı sahəsində atdığı bütün addımlar hərtərəfli düşünülmüş və gələcəyə istiqamətlənmişdir. 2008-ci ildə kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondunun təsis edilməsi buna əyani sübutdur. Hər il qəzet və jurnal redaksiyalarının, informasiya agentliklərinin inkişafı üçün sanballı maliyyə vəsaiti ayrılır. KİV işçilərinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülür.

Bütün bu illər ərzində ölkənin əsas informasiya qurumu - Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) də daim dövlətimizin diqqət mərkəzində olmuşdur. Təkcə bunu demək kifayətdir ki, 1995-ci ildən bəri agentliyin fəaliyyətinin təkmilləşdirilməsi haqqında dövlət başçısı səviyyəsində 6 fərman və sərəncam imzalanmışdır. Bu sənədlərdə agentliyin işinin fəallaşdırılması, onun maddi-texniki bazasının möhkəmlənməsi, dünya informasiya məkanına inteqrasiya üzrə mühüm tədbirlər nəzərdə tutulmuşdur.

Agentliyin texniki təchizatının təkmilləşdirilməsi üzrə tədbirlər sayəsində bu gün AzərTAc səmərəli işləmək üçün zəruri olan innovativ texnoloji avadanlığa malikdir. Agentlikdə qoyulmuş ən müasir server qurğusu onun zəngin informasiya və fotoarxivini saxlamağa imkan verir. AzərTAc-ın sonuncu dəfə 2011-ci ilin axırlarında yenilənmiş və təkmilləşdirilmiş say-

tında təqribən hər iki dəqiqədən bir Azərbaycan, ingilis, rus, alman, fransız və ərəb dillərində materiallar yerləşdirilir. Hazırda AzərTAc-ın internet saytına hər gün 10-12 min dəfə müraciət edilir. Bu isə, heç şübhəsiz, ölkəmizin populyarlaşmasında mühüm rol oynayır.

Dövlət başçısının sərəncamı ilə AzərTAc üçün yeni, müasir bina tikiləcəkdir. Dinamik inkişaf edən ölkəmizin imicinə uyğun olacaq bu bina agentliyin işini daha yüksək səviyyədə təşkil etməyə, onun fəaliyyətinə informasiya sahəsində ən yeni texnoloji araşdırmaların nəticələrini cəlb etməyə imkan verəcəkdir.

Hazırda xarici ölkələrdə AzərTAc-ın 16 müxbir məntəqəsi fəaliyyət göstərir. Onların səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. AzərTAc dünyanın 90-dan çox ölkəsinin milli xəbər agentliyi ilə informasiya mübadiləsi aparır. O, Avropa Xəbər Agentlikləri Alyansı (EANA), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı (OANA), Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA), Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyası (ANİA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyası (BSANNA) kimi nüfuzlu beynəlxalq və regional təşkilatların üzvüdür. Bu qurumlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq sayəsində AzərTAc onların informasiya resurslarından istifadə etməklə Azərbaycan haqqında həqiqətləri daha geniş coğrafiyada yaymaq və eyni zamanda, Azərbaycan oxucusunu dünyada baş vermiş son hadisələrlə tanış etmək imkanına malikdir.

AzərTAc dövlətimizin modernləşmə və innovasiyalı cəmiyyət qurulmasından ibarət ümumi fəaliyyət xəttinə əsaslanaraq, ən yeni informasiya-kommunikasiya texnologiyalarını fəal tətbiq edir. Bu sahədə son nailiyyətlərdən biri istifadəçilərə video, foto və səsli informasiyanı da operativ çatdırmağa imkan verən multimedia xidmətinin yaradılmasıdır.

Agentlik müasir dövrün çağırışlarını nəzərə alaraq, öz informasiya resurslarının kibernetik hücumlardan etibarlı şəkildə qorunmasının təmin edilməsi üzrə ciddi tədbirlər görür və bu iş yetərincə uğurlu şəkildə həyata keçirilir. Hazırda biz müasir informasiya məkanında rolu tədricən artmaqda olan sosial şəbəkələrlə rəqabətdə üstünlüyə necə nail olmaq barədə getdikcə daha çox fikirləşirik. Bizim bəzi həmkarlarımızın fikrincə, sosial

şəbəkələr ənənəvi jurnalistika ilə rəqabət apara bilməz, lakin reallıqlar bunun əksini sübut edir və hətta dünyanın ən iri informasiya agentlikləri də artıq bu amil ilə hesablaşmağa və təsirli tədbirlər görməyə başlamışlar. Qeyri-peşəkar jurnalistika – bloqgerlər və sosial şəbəkələr bazarının get-gedə artan təzyiqi nəzərə alınmaqla KİV-lər işin yeni formatlarını mənimsəməyə məcburdurlar. Zənnimcə, əgər biz peşəkarlığımızı, işimizin keyfiyyətini, operativliyini artırsaq, ən yeni informasiya-kommunikasiya texnologiyalarını fəal mənimsəsək, yüksək ixtisaslı, mütərəqqi düşüncəli gənc kadrlar hazırlanmasına ciddi diqqət yetirsək, bu rəqabətdə uduzmarıq. Bu məqsədlə 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramının bizim üçün yaratdığı imkanlardan istifadə edərək, gənc jurnalistləri, tərcüməçiləri, proqramçıları xaricdə təhsil almağa göndəririk. Təbii ki, gələcək bu gənclərindir.

Azərbaycanın gələcəyinin konturlarına diqqətlə nəzər salsaq, güclü, firavan, sabit inkişaf edən dövlət görərik. Azərbaycan Prezidenti İlham Əliyev qarşımızda dəqiq məqsəd qoymuşdur: Azərbaycan ən yaxın illərdə dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olmalıdır. Əminəm ki, biz Azərbaycanın indiki inkişaf modelini tətbiq etməklə bu məqsədə nail olacağıq.

"Azərbaycan", "Bakinski raboçi" qəzetləri
3 may 2012-ci il.
"Azərbaycan 2020: inkişafın yeni hədəfləri".
Bakı, Azərnəşr, 2012-ci il.

"Eurovision-2011" mahnı müsabiqəsindəki qələbə bütün Azərbaycanın uğurudur

Mayın ortalarında, tarixçilərin dili ilə desək, Köhnə dünyanın (hərçənd, bu ifadənin özündə aşkar bir yanlışlıq var, çünki əslində, Qoca Şərqin tarixi daha qədimdir), yəni Avropanın hər yerində günün əsas hadisəsinin – Almaniyanın Düsseldorf şəhərində keçirilən növbəti 56-cı "Eurovision" mahnı müsabiqəsinin olduğunu desək, yəqin ki, yanılmarıq.

Təmsilçiləri yarışmanın final mərhələsinə çıxmış bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da qocalı-cavanlı milyonlarla insan həmin gün, əgər yerli vaxtı da nəzərə alsaq, gecədən xeyli keçmiş televizorların ekranlarından gözlərini çəkmir, bu möhtəşəm şounun necə nəticələnəcəyini səbirsizliklə və çox böyük həyəcanla gözləyirdi.

Nəhayət, yarışma başa çatdı, qitənin hər yerindən gələn səslər hesablandıqdan sonra "Eurovision-2011"-in qalibi bəlli oldu. Bunlar Azərbaycan təmsilçiləri Eldar və Nigar idi. Bu, həm gözlənilməz, bəlkə də kimlərdəsə şok vəziyyəti yaradan hadisə, həm də gözlənilən qələbə idi. Azərbaycanı hələ də yaxından tanımayan, xalqımızın istedadına, qədim və zəngin mədəniyyətinə bələd olmayan insanlar üçün bu qələbə şübhəsiz ki, gözlənilməz oldu. Lakin bunun özü də bizim xeyrimizə, Azərbaycanın xeyrinə idi. Ölkəmizin təmsilçilərinin belə bir nüfuzlu müsabiqədəki uğuru həmin insanlarda da istər-istəməz Azərbaycana qarşı maraq oyatmamış deyildi.

Azərbaycanın adı birdən-birə Avropanın (özü də təkcə onun yox) ən nüfuzlu qəzetlərinin birinci səhifələrində, televiziya kanallarının xəbər buraxılışlarında günün əsas hadisəsi kimi yer almışdı. Mahnı müsabiqəsinin finalının ertəsi günü səhər artıq bütün Avropa Azərbaycan haqqında danışırdı. Odlar diyarı siyasətçilərin və teleaparıcıların dillərinin əzbəri olmuşdu. Adi insanlar kompyuterdə axtarış sistemlərinə "Azərbaycan" sözünü daxil edərək, bu ölkə haqqında daha çox, yaxud heç olmasa, nə isə öyrənməyə çalışırdılar.

İlk şok adi marağa, bu isə daha dərin marağa çevrildi və nəhayət, praqmatik bir sual doğurdu: gənc müstəqil Azərbaycan heç də asan olmayan bir işin – növbəti müsabiqənin təşkil edilməsi və keçirilməsinin öhdəsindən

gələ biləcəkmi? KİV-lərdə bu mövzuda ilk məqalələr dərc edilmişdir. Onların məzmunu çox müxtəlifdir: tam heyranlıq, səmimi, xeyirxah münasibət, izahedilməz həsəd, qıcıqlandırıcı, hətta təhrikçi xarakterli mövqelər müşahidə olunur. Bəziləri birdən-birə xatırlamışlar ki, Azərbaycan ənənəvi müsəlman ölkəsidir. Digərləri sanki qəflətən "yuxudan ayılmış" və çaşıb qalmışlar: necə olmuşdur ki, bu "qeyri-Avropa ölkəsi" Avropa mahnı müsabiqəsində iştirak edir? Belələrinin coğrafiyadan xəbərsiz olduqlarını söyləmək yəqin ki, sadəlövhlük olardı. Çünki bu cür muzdlu yazarlar coğrafiyanı çoxlarından qat-qat yaxşı bilirlər. Üstəlik, Azərbaycan bu mahnı müsabiqəsində ötən illərdə də üç dəfə iştirak etmiş və onun Avropa ölkəsi olub-olmaması məsələsini heç kim ortaya atmamışdı. Belə çıxır ki, Azərbaycanın həmin müsabiqədə iştirak etməsini nəhayət "görmək" və belə bir yersiz sual ortaya atmaq üçün hökmən ölkəmizin təmsilçiləri qalib gəlməli imiş. Görəsən, Azərbaycanın şahmatçıları, güləşçiləri komanda hesabında Avropada birinci yeri tutanda, Bakıda idmanın müxtəlif növləri üzrə Avropa çempionatları keçiriləndə həmin skeptiklər nə üçün belə cəfəng suallar vermirdilər?

Müxtəlif internet forumlarda birdən-birə fəallaşmış həmin skeptiklər Azərbaycanın Avropa Şurasının üzvü, yaxud da elə bizim AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansının – EANA-nın üzvü olmasına indiyədək nə üçün təəccüblənmirdilər? Axı onlar heç də Avropanın Alp çəmənliklərində mal-qara otarmaqla məşğul olmurlar, çox nüfuzlu kütləvi informasiya orqanlarında çalışırlar və yetərincə dünyagörüşü olan insanlardır.

Görünür, Avropa cəmiyyətində belələrinin ölkəmizin qələbəsinə bu cür reaksiya verməsinə biz də dözməli və gözləməliyik ki, onlar nəhayət, başa düşsünlər ki, hər halda, Azərbaycan Avropanın bir hissəsidir və onun təmsilçiləri də Avropa müsabiqəsində qalib gələ bilərlər. Bir sözlə, Azərbaycanın qələbəsinə Avropada bəzilərinin ilk reaksiyası gözlənilməz idisə və bu, müəyyən məyusluq doğursa da, narahatlığa əsas yoxdur. Çünki Eldar və Nigar bu müsabiqədə məhz elə Avropa ölkələrinin verdiyi səslər sayəsində birinci yerə layiq görülmüşlər. Başqa sözlə desək, bizim üçün məhz belə Avropanın rəyi, mövqeyi daha vacibdir.

İndi isə Eldar və Nigarın qələbəsinin gözlənilən olması barədə. Bundan əvvəlki üç müsabiqədə iştirak edən Azərbaycan təmsilçilərinin birin-

ci dəfə ilk onluğa düşməsi, sonrakı iki yarışmada isə üçüncü və beşinci yerləri tutması faktının özü də çox şey deyir. Bu müsabiqəyə ilk dəfə qoşulan ölkələrin təmsilçilərinin çox qısa müddətdə belə yüksək yer tutduğu hallar bəlkə də yoxdur. Ancaq Azərbaycan duetinin qələbəsi bizim üçün böyük gözlənilməzlik olmadı. Hər şey buna doğru gedirdi. Dövlətimizin gəncliyimizə diqqət və qayğısı müqabilində Düsseldorfdakı qələbə gec-tez qazanılmalı idi. Şəxsən mənim üçün bu il mayın 14-də Düsseldorfda heç bir gözlənilməz hadisə baş vermədi. Bu əla kompozisiya, peşəkar ifa birinci yerə tamamilə layiq idi.

Eyni zamanda, Eldar və Nigarın müsabiqəyə hazırlaşmasının təşkilati işləri ilə məşğul olan insanların xidmətini də qiymətləndirmək lazımdır.

Bütün bunlarla yanaşı, Düsseldorfda qazanılmış uğur ümumən Azərbaycan dövlətinin qələbəsidir. Müsabiqənin yekununda, səsvermədə Azərbaycan təmsilçilərinə ən yüksək – 12 bal vermiş Türkiyə və Rusiyaya, bir qədər az bal vermiş keçmiş sovet respublikalarının bir neçəsinə ürəkdən minnətdarlıq edərək, onların bizə münasibətinin anlaşılan olduğunu deyə bilərik. Bəs Maltanın 12 balı, Rumıniya, Xorvatiya və San-Marinonun 10 balı, Polşa, Avstriya, Albaniya və Portuqaliyanın 8 balı, Sloveniya və Macarıstanın 7, Niderland, Finlandiya və Yunanıstanın, nəhayət, dünyada erməni diasporlarının ən fəallarından birinin – Fransanın 6 balı? Bu məsələdə, xüsusən son illərdə Azərbaycanın dünyada tanıdılması sahəsində görülən məqsədyönlü işlərin böyük rolunun olması danılmazdır. İndi dünyanın əksər ölkələrində Azərbaycanı tanıyırlar, onun inkişafı və mədəniyyəti haqqında məlumatları vardır.

Təmsilçilərimizin Düsseldorfdakı uğurundan danışarkən Azərbaycan dövlətinin gənclər siyasətini, mədəniyyətin inkişafına diqqət və qayğısını xüsusi vurğulamaq lazımdır. Ölkə əhalisinin böyük bir hissəsini təşkil edən gənc nəslin fiziki və mənəvi baxımdan sağlam böyüməsi, yüksək təhsil alması, xalqımızın milli mənəvi dəyərləri ilə yanaşı, ümumbəşəri dəyərlərə də yiyələnməsi, bir sözlə, hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşması üçün dövlət səviyyəsində görülən ardıcıl tədbirlər bütün sahələrdə müsbət nəticələr verir. Bütün bu illər ərzində Heydər Əliyev Fondu istedadların aşkar edilməsi və onların üzə çıxarılması üzrə gərgin işin bayraqdarı olmuşdur. Fondun prezidenti, Milli Məclisin deputatı, UNESCO-nun və İSESCO-

nun xoşməramlı səfiri Mehriban Əliyeva ciddi nəzarət edir ki, Azərbaycanı hər yerdə yaxşıların ən yaxşısı təmsil etsin, onlar ölkədə və xaricdə çıxışlara hazırlıq prosesində heç bir çatışmazlıqla üzləşməsinlər.

Musiqi mədəniyyətinin tarixi və zənginliyi baxımından Azərbaycan dünyada ən say-seçmə ölkələrdən biridir. Bu isə bütövlükdə xalqın istedadından xəbər verir. Azərbaycanın istər xalq, istərsə də klassik musiqisi uzun illərdən bəri ən müxtəlif ölkələrin konsert salonlarında səslənir. Eldar və Nigarın valideynləri yaxşı xatırlayırlar ki, Rəşid Behbudovun, Zeynəb Xanlarovanın bir çox mahnıları, lap elə Qəmbər Hüseynlinin "Cücələrim"i vaxtilə az qala dünyanın hər yerində oxunurdu. Min illərin sınağından çıxaraq daha da cilalanmış ozan-aşıq sənətimiz, məhz Azərbaycanda özünün ən yüksək zirvəsinə yüksəlmiş muğamımız mədəniyyətimizin beynəlxalq miqyasda təbliğində əvəzsiz işlər görən Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü, milli təəssübkeşliyi sayəsində UNESCO tərəfindən Dünya Mədəni İrsi siyahısına daxil edilmişdir.

Bəli, "Eurovision-2011"-in qalibi olan Eldar və Nigar belə bir xalqın, ölkənin təmsilçiləridir. Şübhəsiz, bu qələbəni təmin edən ən birinci amil onların şəxsi istedadıdır.

Prezident İlham Əliyevin müsabiqə başa çatandan az sonra telefonla zəng edib Eldar və Nigarı təbrik etməsi, Bakıda onlarla şəxsən görüşməsi, Azərbaycan dövlətinin və onun başçısının gənclərə qayğısının bariz nümunəsidir.

Türkiyə və Gürcüstan rəhbərlərinin Azərbaycan təmsilçilərinin "Eurovision-2011"-dəki qələbəsi münasibətilə Prezident İlham Əliyevi təbrik etmələrini də ayrıca vurğulamalıyıq. Bu, həqiqətən qürur doğuran faktdır. Yeri gəlmişkən deyək ki, Azərbaycanın müstəqilliyinin 20 illiyi münasibətilə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Moskvada keçirilən mərasimdə çıxış edən Rusiya Prezidentinin xanımı Svetlana Medvedeva da gənclərimizin böyük uğurunu xatırlatmış və Mehriban xanım Əliyevanı təbrik etmişdi.

Bir daha demək istərdik ki, Eldar və Nigarın Düsseldorfdakı uğuru dövlətimizin qələbəsidir. Hər birimiz bundan sonsuz sevinc hissi keçirmişik və fəxr edirik ki, belə istedadlı gənclərimiz var. Əgər kimlərsə bu sevinci paylaşmırlarsa, onların suyunu içib, havasını udduqları Vətən torpağı üstündə gəzməyə haqları yoxdur.

Builki müsabiqə artıq tarixə çevrilmişdir və indi əsas söhbət mövzusu Azərbaycanın növbəti yarışmanı necə təşkil edəcəyi barədədir.

Şübhəsiz ki, dünyada bədxahlarımız yox deyil və onlar bu məsələdə də kölgədə qalmayacaqlar. Hərçənd, Azərbaycan belə şeylərə artıq çoxdan adət etmişdir və heç nəyə məhəl qoymadan öz yolu ilə uğurla gedir. Ancaq buna baxmayaraq, bizə paxıllıq edənlərin, bədxahlarımızın çoxunun xarici ölkələrin kütləvi informasiya vasitələrində canfəşanlıqla nümayiş etdirdikləri digər ifrat mövqe ilə razılaşa bilmirəm. Bu əməllərin mahiyyəti ondan ibarətdir ki, guya azərbaycanlıların uğurları neftin qiymətinin artması və ölkəyə pul axını ilə əlaqədardır. Əcəba, Namiq Abdullayev və Zemfira Meftahətdinova Sidney olimpiadasında qızıl medal qazananda bunun neftin bahalığına və dövlət xəzinəsinin bolluğuna nə dəxli vardı? Hələ mən Olimpiya və ikiqat dünya çempionu Fərid Mansurovun, Olimpiya çempionu, dünya çempionatının gümüş mükafatçısı, ikiqat Avropa çempionu Elnur Məmmədlinin, Pekin Olimpiya oyunlarının gümüş mükafatçısı, Avropa çempionu Rövşən Bayramovun və digər idmançılarımızın qələbələrini demirəm. Belə misallardan çox göstərmək olar. Əlbəttə, mədəniyyətin, elmin və idmanın inkişafı üçün dövlət tərəfindən vəsait ayrılması həmin ölkələrin vətəndaşlarının dünya müsabiqələrində və yarışlarında çıxışlarına müsbət təsir göstərir. Lakin məgər Lüksemburq, yaxud Fars körfəzi dövlətləri kasıbdır? Yaxud başqa bir misal, Efiopiyanın nə dərəcədə "zəngin" ölkə olması məlumdur. Lakin marafon qaçışında bu ölkənin təmsilçiləri, demək olar ki, həmişə qızıl medal qazanırlar.

Bir aşkar fakt da danılmazdır ki, Azərbaycanın elm, mədəniyyət və idman sahəsində qazandığı uğurlar siyasi uğurların qanunauyğun nəticəsi və məntiqi davamıdır. Bu uğurların ən başlıcası əsl xalq hakimiyyətinə, siyasi sabitliyə, bazar iqtisadiyyatına və sosial ədalətə əsaslanan müstəqil dövlət qurulmasıdır. Şübhəsiz, bu, elə bir zəmindir ki, həmvətənlərimizin ən nüfuzlu dünya platformalarında daha mühüm qələbələrini mümkün edəcək və onların sayını artıracaqdır.

Son illərdə ölkəmizdə ən müxtəlif sahələrə aid çoxsaylı mötəbər beynəlxalq tədbirlərin çox yüksək səviyyədə təşkili dünyaya bəllidir. Əsla şübhə yoxdur ki, gələn il Azərbaycan növbəti "Eurovision" mahnı müsabiqəsinin təşkilinin də öhdəsindən layiqincə gələcək, üstəlik, bu cür tədbirlərin

necə keçirilməsi və bunu necə etmək barədə bütün dünyaya nümunə göstərəcəkdir. Bu sahədə toplanmış böyük təcrübəni, xalqımıza tarixən xas olan tolerantlığı və qonaqpərvərliyi də əlavə etsək, deyə bilərik ki, Azərbaycan həmin müsabiqəyə ən yüksək səviyyədə ev sahibliyi edəcək və əvvəlki təşkilatçılardan heç də geri qalmayacaqdır.

Ölkəmizdə həmin müsabiqəyə hazırlıq işləri artıq başlanmışdır. Xarici qonaqlar Azərbaycandan ölkəmiz və xalqımız haqqında, onun ənənələri, qonaqpərvərliyi, tolerantlığı və açıqürəkli olması barədə ən xoş təəssüratlarla qayıdacaqlar. Bu isə Azərbaycanın dünyada ən böyük reklamı – xalq reklamı olacaqdır. Buna görə biz hamımız istedadlı Eldar və Nigar duetinə və onların parlaq qələbəsi üçün şərait yaradanların hamısına borcluyuq!

"Azərbaycan" qəzeti, 22 iyul 2011-ci il.

Azərbaycanın müasirləşməsi Heydər Əliyevin adı ilə bağlıdır

Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin – müasirləşmənin otuz ildən artıq bir dövrünün ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması tarixi həqiqətdir. Heydər Əliyev 1969-cu ilin ikinci yarısında Azərbaycana rəhbərlik etməyə başlayanda respublika həyatın bütün sahələrində tənəzzül dövrünü yaşayırdı. Xüsusilə, iqtisadiyyatı bürümüş dərin böhran hər bir sahədə özünün mənfi nəticələrini göstərirdi. Sosial-iqtisadi baxımdan digər müttəfiq respublikalardan geridə qalan Azərbaycan SSRİ rəhbərliyinin nəzərində ölkənin perspektivsiz əyalətlərindən biri sayılırdı. Moskva hesab edirdi ki, respublikanın məşhur neft yataqları artıq öz əhəmiyyətini itirib və Azərbaycanın əsasən bu sahə ilə bağlı olan iqtisadiyyatının perspektivi yoxdur. Sovet dövlətinin yarandığı ilk vaxtdan başlayaraq bütün ötən illərdə İttifaqı neft və neft məhsulları ilə təmin edən, xüsusilə, İkinci Dünya müharibəsində faşizm üzərində qələbədə, sözün həqiqi mənasında həlledici töhfəsi olan (1941-1945-ci illərdə respublikamız ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları vermişdi) Azərbaycana qarşı bu cür laqeyd münasibət, yumşaq desək, ən azı çox böyük ədalətsizlik idi.

Respublikanı belə bir ağır vəziyyətdən çıxarmaq tamamilə yeni konseptual səviyyədə yanaşma tələb edirdi. Çünki yüngül və yeyinti sənayesi müəssisələrini çıxmaq şərti ilə, əslində, Azərbaycanın o vaxtkı iqtisadiyyatı bilavasitə neft sənayesi ilə bağlı idi. Belə vəziyyət respublikada ənənəvi təsərrüfat sahələrinin şöhrətini və səmərəliliyini bərpa etməklə yanaşı, çoxşaxəli istehsal istiqamətlərinin yaradılmasını, bütövlükdə iqtisadiyyatın sənaye bazasının genişləndirilməsi və müasirləşdirilməsini nəzərdə tutan dolğun iqtisadi konsepsiyanın işlənib hazırlanmasını tələb edirdi.

Məhz Heydər Əliyevin gərgin səyləri nəticəsində belə bir iqtisadi konsepsiya – Azərbaycanın dinamik və hərtərəfli inkişafını təmin edəcək kompleks proqramlar işlənib hazırlandı. Azərbaycanın yeni rəhbəri SSRİ hökumətinin respublika iqtisadiyyatının hərtərəfli tərəqqisini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərarının qəbul edilməsinə nail oldu. Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərini

müəyyənləşdirən bu qərarların respublikanın gələcəyi baxımından çox böyük tarixi əhəmiyyəti vardı. Həmin qərarların icrası sənayenin yeni sahələrinin yaranması, çoxsaylı iş yerlərinin açılması, kənd təsərrüfatı istehsalının artırılması, elm və mədəniyyətin inkişafına təkan verilməsi, ən başlıcası isə əhalinin sosial vəziyyətinin yüksəldilməsi demək idi.

1969-cu ilin ikinci yarısı və 1970-ci il Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı oldu. Sonrakı illərdə isə respublikada bütün sahələrdə dinamik inkişaf müşahidə edilirdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonrakı ilk beşillikdə – 1971-1975-ci illərdə 64 yeni iri müəssisə tikilmişdi. Sənaye məhsulu artımının 76 faizi əmək məhsuldarlığının yüksəldilməsi hesabına əldə olunmuşdu ki, bu da ilk növbədə, texniki tərəqqinin sürətlənməsi, əməyin elmi təşkili ilə bağlı idi. Sənayenin strukturundakı keyfiyyət dəyişiklikləri Bakı məişət kondisionerləri zavodu, Sumqayıt kompressor zavodu kimi iri müəssisələrin, habelə respublika üçün tamamilə yeni olan elektron sənayesinin yaranması, neft emalı zavodlarının yenidən qurulmasına və modernləşdirilməsinə başlanması ilə səciyyələnirdi. Sonrakı beşillikdə SSRİ-də məhsul istehsalının həcmi 29 faiz, milli gəlir 25 faiz artmışdısa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 46 faiz və təqribən 70 faiz təşkil edirdi. Şirvanda məişət cihazları zavodu, Bakıda ayaqqabı fabriki, Gəncədə əlvan metallar zavodu və digər iri müəssisələr istifadəyə verilmiş, Şəmkir SES-in və Azərbaycan DRES-in tikintisinə başlanmışdı. Bakının neftayırma zavodlarında müasir texnoloji qurğuların işə salınması neftayırma sənayesinin inkişafında yeni mərhələnin başlanması demək idi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikanı müasirləşdirmək siyasətində paytaxtdan kənarda yeni sənaye müəssisələrinin yaradılması xüsusi yer tuturdu. Həmin illərdə təkcə Bakı və Sumqayıtda deyil, digər şəhər və qəsəbələrdə yeni fabriklər, zavodlar istifadəyə verilmişdi. Sənayenin strukturu və yerləşdirilməsindəki bu mütərəqqi irəliləyiş bölgələrin inkişafına təkan verir, iş yerləri açılır, eyni zamanda, həmin yerlərə yeni istehsal mədəniyyəti gətirir, əvvəllər mövcud olmayan peşələrə yiyələnən kadrların hazırlanmasına şərait yaradırdı. Məhz bu siyasətin sayəsində Azərbaycanda sənaye məhsulu istehsalının üçdəbirindən çoxu paytaxtdan kənarda yerləşən müəssisələrin payına düşürdü.

Respublika iqtisadiyyatının əsas sahələrindən olan kənd təsərrüfatının inkişafındakı uğurlar xüsusilə diqqətəlayiq idi. Əsas kənd təsərrüfatı məhsullarının istehsalı tam mexanikləşdirilmişdi. 1980-ci ildə respublikanın tarixində görünməmiş miqdarda məhsul yetişdirilmiş, 1136,2 min ton (1970-ci ildə 723,4 min ton) dənli bitkilər, 883,5 min ton pambıq (1970-ci ildə 335,6 min ton), 824,4 min ton tərəvəz (1970-ci ildə 409,9 min ton), 1508 min ton üzüm (1970-ci ildə 351,7 min ton) yığılmışdı. Kənd əməkçilərinin gəlirləri ildən-ilə artır, yaşayış səviyyəsi yüksəlir, rayon mərkəzlərinin və kəndlərin siması getdikcə dəyişirdi.

Xalqın iqtisadi azadlığının onun siyasi müstəqilliyini şərtləndirməsi konsepsiyasının incəliklərinə dərindən bələd olan Heydər Əliyev bilirdi ki, milli dirçəliş ideyalarını, azərbaycançılıq ideologiyasını yalnız iqtisadiyyatın inkişafındakı uğurlar fonunda həyata keçirmək mümkündür. Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İttifaqının digər respublikalarında aşkar şəkildə hiss olunduğu bir vaxtda, Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdı ki, bu, sərbəst düşünməyə və cəmiyyətdə, mədəniyyətdə, ədəbiyyatda gedən prosesləri necə başa düşdüyünü açıq ifadə etməyə, əslində isə, milli mənəvi ideallarının bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi.

Həmin illərdə xalqımızın görkəmli şəxsiyyətlərinin yubileylərinin ittifaq və respublika miqyasında qeyd edilməsi, milli ruhumuzun ifadəçiləri olan görkəmli xadimlərə abidələr ucaldılması, Azərbaycan dilinə göstərilən qayğı, Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili, müttəfiq respublikalarda və bir sıra xarici dövlətlərdə Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi, o vaxt Kirovabad adlanan qədim şəhərimizin təzə salınmış yaşayış massivlərindən birinin "Yeni Gəncə" adlandırılması (bu, əslində şəhərin əsl adının necə olmasına işarə idi), mədəni sərvətlərimizin təbliği, qorunub saxlanması, ittifaqda və xaricdə tanıdılması sahəsində görülən əvəzsiz işlər idi.

Bu baxımdan Azərbaycan sovet dramaturgiyasının banisi, əsərlərində ustalıqla incə məsələlərə toxunan Cəfər Cabbarlının, vətənimizin və xalqımızın düşmənlərinin məkrli əməlləri nəticəsində "millətçi" damğası vurulmuş Nəriman Nərimanovun yubileylərinin keçirilməsinin və Bakıda on-

lara əzəmətli abidələrin ucaldılmasının, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan ilk ali təhsil ocağımızın – Bakı Dövlət Universitetinin 50 illiyinin məhz 1969-cu ildə qeyd olunmasının, respublikanın 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunun təsbit edilməsinin, Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən gətirilərək, şairin doğma yurdu Naxçıvanda dəfn edilməsinin çox böyük rəmzi mənaları vardı.

Özünün bütün fəaliyyətində xalqımızın taleyini düşünən Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanın gələcəyi müasir biliklərə yiyələnmiş, geniş dünyagörüşünə malik, milli mənəvi dəyərlərin daşıyıcısı olan kadrlardan asılıdır və onlar gənclər arasından yetişməlidir. Buna görə də o, gənclərə çox böyük diqqət yetirirdi. Respublikanın kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi üçün əvvəllər görünməmiş səviyyədə tədbirlər həyata keçirilirdi. Müasirləşməkdə olan Azərbaycanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən, ən zəruri ixtisaslara tələbatın ödənilməsindən ötrü gənclər SSRİ-nin mötəbər ali məktəblərinə göndərilirdi.

Həmin illərdə Sovet İttifaqının 170 ali məktəbinə Azərbaycandan 3500 gənc göndərilmişdi. Eyni zamanda, iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq, respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi də genişləndirilirdi. 1980-ci ildə Azərbaycanda ali məktəblərin sayı 12-dən 17-yə, tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdı. Bu sahədə Heydər Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdən biri milli hərbçi kadrların hazırlanması idi. Onun respublikaya rəhbərliyinin ilk illərində yaradılan ixtisaslaşdırılmış internat məktəb (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey) bu işin başlanğıcını qoydu. Hər il həmin məktəbin yüzlərlə məzunu SSRİ-nin ali hərbi təhsil müəssisələrinə daxil olurdu. Azərbaycan rəhbəri gənclərimizin Bakıdakı Ümumqoşun Komandirləri Məktəbində, Sovet İttifaqının ali təyyarəçilik məktəblərində təhsil almağa göndərilməsini xüsusi nəzarətə götürmüşdü. Məhz həmin dövrdə ali hərbi təhsil almış gənclər müstəqilliyin ilk illərində milli ordumuzun zabit korpusunun əsasını təşkil etmişdir.

Heydər Əliyev hər il ittifaqın ali məktəblərinə göndərilən gənclərlə görüşərək dəyərli məsləhətlərini verir və xüsusi vurğulayırdı ki, on-

lar yüksək səviyyəli təhsil almaqla yanaşı, həm də xalqımızı, Azərbaycan gəncliyini təmsil etməli, milli mənəvi dəyərlərimizi, mədəniyyətimizi təbliğ etməli, respublikamızın şərəfini uca tutmalıdırlar.

O illərdə Heydər Əliyevin elm, mədəniyyət, təhsil, ədəbiyyat, incəsənət sahəsində gördüyü əzəmətli işlər həqiqətən milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı oldu. Qətiyyətlə deyə bilərik ki, 1969-1982-ci illərdə Azərbaycan sürətli sosial-iqtisadi inkişafla yanaşı, həm də müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır.

Azərbaycanın modernləşməsinin, müasirləşməsinin XX əsrin 70-ci illərini – 80-ci illərinin əvvəllərini əhatə edən birinci mərhələsindəki tərəqqi, yüksəliş heç də asan başa gəlməmişdi və ilk növbədə Heydər Əliyevin siyasi istedadı və cəsarətinin nəticəsi idi.

Azərbaycanın modernləşməsinin birinci mərhələsinin bütövlükdə nəticələrini ümumiləşdirərək deyə bilərik ki, müasir Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır. Ulu öndər Heydər Əliyev özü də sonralar vurğulayırdı ki, Azərbaycanın sovet dönəmində inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır. Şübhəsiz ki, bunda məhz haqqında söhbət gedən illərdə görülmüş işlər həlledici rol oynamışdır.

Tədqiqatçılar belə bir cəhəti də vurğulayırlar ki, həmin dövrdə Azərbaycanda müşahidə edilən sürətli inkişaf prosesi bütövlükdə Sovet İttifaqında iqtisadiyyatda inkişafın ləngidildiyi, bəzi sahələrdə isə tənəzzülün olduğu bir vaxtda gedirdi. Ölkədə yaranmış durğunluğu sovet rəhbərliyinin özü də etiraf edirdi və Mixail Qorbaçovun "yenidənqurma" siyasəti də bu durğunluqdan xilas olmağa yönəldilmişdi. Lakin bunun nə ilə nəticələndiyi məlumdur.

Mərkəzləşdirilmiş sovet iqtisadi sistemində nəinki durğunluqdan özünü qorumaq, həm də respublikada bu cür inkişaf potensialı axtarıb tapmaq və onu hərəkətə gətirmək heyrətamiz dərəcədə ağlasığmaz bir iş olsa da, həqiqət idi. Ancaq bu uyğunsuzluğun, təzadlı mənzərənin səbəbləri

üstündən iyirmi il keçdikdən sonra üzə çıxdı. Bu səbəbləri isə yalnız və yalnız şəxsiyyətin – Heydər Əliyevin müstəsna rolundan savayı, heç bir başqa amillə izah etmək mümkün deyildir. Lakin Mərkəz özünün ümumi siyasətindən, mövcud meyillərdən, qanunauyğunluqlardan kənara çıxmağı, Azərbaycanın istisna təşkil etməsini görməyə və ən nəhayət, bağışlaya bilməzdi. M.Qorbaçovun Azərbaycana qarşı xəyanətkar mövqeyinin, bu yolda ilk addım kimi artıq o vaxt Moskvada işləyən və özünün nadir şəxsi keyfiyyətlərinə görə ölkənin ali rəhbərliyində açıq-aşkar seçilən Heydər Əliyevi Kremldən uzaqlaşdırmaq niyyətinin köklərini də bununla izah etmək olur.

Heydər Əliyev özü də sonralar bu barədə demişdir: "O illərdə – 80-ci illərin ortalarında biz ayrı-seçkiliyə məruz qalırdıq. Mən həm Azərbaycanı, həm də Orta və Mərkəzi Asiyanın bəzi digər respublikalarını nəzərdə tuturam... Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin – artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəldilmiş siyasətin bir hissəsi idi".

Yalnız ümummilli lider Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtdıqdan sonra Azərbaycanın müasirləşdirilməsinin yeni mərhələsinə başlamağın əsası qoyuldu. Heydər Əliyevin gərgin səyləri nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi, 1990-cı illərin ortalarında isə həqiqi mənada müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatda durğunluq və tənəzzül prosesinin dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklərə başlandı.

1994-cü ilin sentyabrında aparıcı beynəlxalq neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın modernləşdirilməsinin müasir mərhələsinin başlanğıcı oldu. Heydər Əliyevin respublika Prezidenti kimi fəaliyyətinin ilk günlərindən xarici siyasət Azərbaycanın iqtisadi tənəzzüldən çıxmasının təmin olunmasına yönəldilmişdi. Bu baxımdan Azərbaycana xarici sərmayələrin cəlb olunması üçün göstərilən ilk cəhd kimi, son dərəcə böyük geosiyasi və iqtisadi əhəmiyyəti olan "Əsrin müqaviləsi" xüsusi yer tuturdu.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul olunmuş ilk Konstitusiyası ölkədə yeni iqtisadi sistemə keçidin hüquqi əsası oldu və o vaxtdan respublikanın iqtisadi həyatının yeni mərhələsi başlandı.

Heydər Əliyev bazar iqtisadiyyatına keçidi təmin edəcək islahatların dərinləşdirilməsində özəlləşdirməyə həlledici yer verirdi. Kiçik özəlləşdirmə adlanan proses – xidmət sahələrinin, ticarətin, tikinti və nəqliyyatda bir sıra sahələrin özəlləşdirilməsi bazar münasibətlərinə yumşaq keçidi təmin etdi. Bu sahədəki təcrübə orta və iri müəssisələrin özəlləşdirilməsi prosesini uğurla davam etdirməyə imkan verdi.

Lakin ölkə əhalisinin 40 faizdən çoxunun yaşadığı kənd yerlərini bazar münasibətlərinə cəlb etmədən yeni iqtisadiyyatın yaradılması təmin oluna bilməzdi. Bu isə, ilk növbədə, torpağın şəxsi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi – yəni aqrar islahatın aparılması nəticəsində mümkün idi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda çox cəsarətli, keçmiş SSRİ məkanında bənzəri olmayan torpaq islahatının həyata keçirilməsi, əslində, Azərbaycan kəndində bütün təsərrüfat ukladını, kəndin həyat tərzini kökündən dəyişdi.

Heydər Əliyevin iqtisadi strategiyasında ölkəyə xarici sərmayələrin cəlb edilməsi xüsusi yer tuturdu. İlk vaxtlar əsasən Azərbaycanın yeni neft strategiyasının reallaşdırılması ilə bağlı qoyulan xarici sərmayələr getdikcə iqtisadiyyatın digər sahələrinə, infrastruktur layihələrinə də yönəldilirdi. Ölkədə əlverişli sərmayə mühitinin yaradılması, o cümlədən xarici sərmayələrin qorunması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür, müvafiq qanunvericilik bazası yaradılırdı. 1995-2003-cü illərdə ölkə iqtisadiyyatına qoyulmuş 16 milyard dollardan artıq sərmayənin 12,3 milyard dolları və ya 77 faizi xarici sərmayənin payına düşürdü. Təkcə 2000-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 7,5 milyard dollardan çox xarici sərmayə qoyulmuşdu ki, bu da adambaşına götürdükdə bütün MDB məkanında ən yüksək göstərici idi.

Mülkiyyət, maliyyə-bank, valyuta, vergi, məhkəmə-hüquq sahələrində qəbul olunmuş qanunlar iqtisadi münasibətlərin və mexanizmlərin əhəmiyyətli dərəcədə liberallaşmasına, təsərrüfat həyatının dövlət tərəfindən tənzimlənməsinin azalmasına gətirib çıxardı. Ölkədə həyata keçirilən is-

lahatlar artıq 1998-ci ildə hissedilən müsbət nəticələr verməyə başladı. 1991-1995-ci illərdə ümumi daxili məhsulun həcmi 58 faiz, sənaye istehsalı 67 faiz, kənd təsərrüfatı istehsalı 48 faiz azalmışdısa, inflyasiyanın illik səviyyəsi 1400-1800 faiz təşkil edirdisə, 1996-2006-cı illərdə ÜDM 89 faiz, sənaye məhsulu təqribən 32 faiz, kənd təsərrüfatı məhsulları 50 faiz artmış, inflyasiyanın səviyyəsi 23 faizə düşmüşdü.

Heydər Əliyevin yeni neft strategiyasının reallaşdırılması sahəsindəki uğurlar Azərbaycanın intensiv inkişafına yol açdı. Ölkəmiz iri transmilli layihələrin həyata keçirilməsi üçün mühüm geoiqtisadi və geosiyasi məkana çevrilməyə başladı.

Ümummilli lider Heydər Əliyev müasir dövlət yaratmaqla bərabər, onun gələcək illərə hesablanmış inkişaf strategiyasını da müəyyən etmiş, öz zəmanəsini qabaqlayaraq, Azərbaycanın qarşısında duran strateji vəzifələri dəqiq göstərmişdi. O, Azərbaycanı mühüm strateji meydan və dünya dövlətləri birliyinin sərfəli iqtisadi tərəfdaşı kimi görürdü.

Bu məqsədlərə nail olmağın yolu isə XXI əsrdə ölkəmizin siyasi, iqtisadi və sosiomədəni gerçəkliyini modernləşdirməkdən keçir. Son illərdə daxili və xarici siyasətdə qazanılmış çox böyük uğurlar indi inkişafın Azərbaycan modeli haqqında danışmağa əsas verir. Ölkənin mövcud reallıqları və perspektivləri sübut edir ki, modernləşmənin Azərbaycanın timsalında çox böyük inkişaf ehtiyatları vardır və onların hərəkətə gətirilməsi ölkənin sürətli tərəqqisinə birbaşa təsir göstərir. Ötən illərdə Azərbaycan iqtisadiyyatının üç dəfə, dövlət büdcəsi gəlirlərinin on dəfədən çox artması düşünülmüş şəkildə, konkret proqramlar əsasında həyata keçirilən iqtisadi və infrastruktur layihələri nəticəsində yaranmış yeni iqtisadi münasibətlərin səmərəli fəaliyyətinin inkaredilməz reallığıdır.

İnkişafın Azərbaycan modelindən bəhs edərkən regionların sosial-iqtisadi inkişafı sahəsində görülmüş nəhəng işləri xüsusi vurğulamaq lazımdır. Bu sahədə həyata keçirilən dövlət proqramları inkişaf səviyyəsi baxımından təkcə paytaxtla bölgələr arasında deyil, həm də ayrı-ayrı bölgələr arasında fərqləri tədricən aradan qaldırdı, yüz minlərlə yeni iş yeri açıldı. Qeyri-neft sektorunun sürətli inkişafına güclü təkan verən bu tədbirlər Azərbaycan iqtisadiyyatının neft amilindən asılılığının azaldılması, ölkənin tarazlı şəkildə müasirləşdirilməsi baxımından da çox böyük əhəmiyyət kəsb edir. 2004-cü

ildən bəri ölkədə 900 mindən çox, o cümlədən 700 minə qədər daimi iş yeri açılmışdır ki, bunun da əksəriyyəti bölgələrin payına düşür. İqtisadiyyatda özəl bölmənin payı 80 faizdən yuxarıdır.

Prezident İlham Əliyev Azərbaycanın müasirləşdirilməsinin başlıca məqsəd olduğunu dəfələrlə bildirmişdir. Dövlətimizin başçısı 2011-ci ilin fevralında respublikamızın qərb bölgəsinə səfəri zamanı bunu bir daha vurğulayaraq demişdir ki, biz ölkəmizi hər cəhətdən müasirləşdirməliyik. Azərbaycan sözün əsl mənasında inkişaf etmiş ölkəyə çevrilməlidir, bu, bizim məqsədimizdir. Dünyada inkişaf etmiş ölkələrin sayı çox deyil və Azərbaycanın bütün meyarlar üzrə bu sıraya daxil olmağa imkanları vardır.

Qlobal transformasiyaların baş verdiyi müasir dövrdə Azərbaycanın daxili və xarici siyasətinin gündəliyində əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən xətt – modernləşdirilmiş iqtisadiyyatı, vətəndaş cəmiyyəti və liberal ənənələri olan suveren dövlət qurmaq xətti öz ifadəsini tapır. Bu isə postindustrial cəmiyyətə, informasiya cəmiyyətinə aparan yoldur.

"Azərbaycan" qəzeti, 5 may 2011-ci il.

Şəxsiyyətin qüdrəti.
Bakı, "Yazıçı" nəşriyyatı, 2012-ci il.

Müasir innovasiyalardan istifadə: üstünlüklər və risklər

Müasir dövrdə insanlar televiziya kanallarından, radiodan, qəzet və jurnallardan aldıqları informasiyalarla kifayətlənmir, dünyada baş verən hadisələrdən özləri üçün daha münasib vaxtda və istənilən şəraitdə xəbər tutmağa üstünlük verirlər. Ona görə də dünyanın nüfuzlu xəbər agentlikləri insanları operativ surətdə informasiya ilə təmin etmək üçün daim müasirləşən informasiya texnologiyaları vasitələrindən daha geniş istifadə etməyə çalışır. Bu baxımdan AzərTAc da fəaliyyətinin keyfiyyətcə yeni dövrünə qədəm qoyur, zamanla ayaqlaşmağa çalışır. Qlobal informasiya dünyasının ən müasir texnoloji innovasiyaları AzərTAc-ın fəaliyyətində də geniş yer tutmaqdadır.

Elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin informasiya agentliklərinin işində tətbiqi məsələlərinə geniş yer verən media nəzəriyyəçiləri vurğulayırlar ki, internet də daxil olmaqla, yeni texnologiyaların yaranması və tətbiqi, heç şübhəsiz, KİV-lərin inkişafında və demokratikləşmədə yeni bir mərhələnin başlanğıcıdır.

Daha doğrusu, qlobal informasiya məkanının formalaşmasında xüsusi rol oynayan, son illərdə insanların leksikonunda tez-tez rast gəlinən "multimedia", əslində informasiya təminatının lokomotivinə çevrilmişdir.

Hazırda dünyanın aparıcı xəbər agentlikləri bu sistemin açdığı geniş imkanlardan maksimum yararlanmağa çalışır, ənənəvi redaksiyalardan xilas olub müasir dizayn və interyerə malik, son texnologiyalarla təchiz edilmiş multimedia redaksiyalarının sayəsində informasiyanın keyfiyyətli və operativ çatdırılmasını təmin edirlər. Burada inteqrasiya olunmuş və əlaqələndirilmiş iş mexanizmi həm keyfiyyətli məhsulun hazırlanmasına, həm də onun çatdırılmasında fiziki əməyə və vaxta qənaət edilməsinə səbəb olur.

"Multimedia" terminini ilk dəfə 1966-cı ilin iyul ayında Lonq-Aylenddə "Light Works at L'Oursin" adlı şou təşkil etmiş Bob Qoldşteyn işlətmişdir. Bu, adi işıqlı tamaşa idi, lakin illər keçdikcə həmin terminin məna yükü transformasiyaya uğramışdır. 1990-cı illərdə bu termin artıq yeni, müasir anlama yaxın məna kəsb etmişdir.

"Vikipediya – azad ensiklopediya" isə "multimedia" terminine belə tərif verir: "Multi – çox, media – informasiya vasitələrinin toplusu deməkdir, multimedia – çoxvasitəli informasiya mənasını daşıyır. Multimedia informasiya təqdimatının müxtəlif formalarının eyni vaxtda ifadəsi və istifadəsi deməkdir".

Hazırda milyonlarla insanın şüurunda multimedia İnternetlə qırılmaz şəkildə bağlıdır. Bu proses 1990-cı illərin birinci yarısında, yüzlərlə meqabayt həcmində video, audio və fotoqrafiya məlumatları ilə işləməyə imkan verən kompakt disk qurğuları (CD-ROM drive) ilə təchiz edilmiş "multimedia" kompyuterlərinin bazara çıxarıldığı dövrdə başlanmışdır.

Xarici ekspertlər yeni texnologiyaların, o cümlədən multimedianın inkişaf sürətindən bəhs edərək bildirirlər ki, ümumdünya "hörümçək toru"nun – internetin 1969-cu ildə ixtira edildiyi gündən 1980-ci ildə ondan istifadə edilməsinin ilk addımlarına qədər, demək olar ki, on il müddətində onu yaradanların şüurunda "oturuşma" mərhələsi keçmişdir. Yalnız bundan sonra, xüsusən 1980-ci illərin axırlarından etibarən yeni texnologiyalar praktik tətbiqini tapmağa başlamışdır. İnternetin bugünkü istifadəçiləri yeni multimedia inqilabının mərkəzindədirlər.

Azərbaycanın yeni texnologiyalar erasına qədəm qoyması Prezident İlham Əliyevin "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2010-cu il 22 aprel tarixli Sərəncamında da xüsusi qeyd olunur: "Son illər Azərbaycan Respublikasının sürətli sosial-iqtisadi və demokratik inkişafı, ölkəmizin beynəlxalq nüfuzunun artması kütləvi informasiya vasitələrinin qarşısında yeni vəzifələr müəyyənləşdirmişdir. Qlobal informasiya məkanında mühüm dəyişikliklər baş verdiyi, yeni informasiya texnologiyalarının geniş tətbiq olunduğu müasir dövrdə Azərbaycan haqqında obyektiv məlumatların operativ şəkildə beynəlxalq ictimaiyyətə çatdırılması və dünyada baş vermiş hadisələr barədə cəmiyyətimizin hərtərəfli məlumatlandırılması kütləvi informasiya vasitələrinin fəaliyyətinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini tələb edir".

Ölkəmiz haqqında məlumatların operativ və çevik yayılmasında, habelə dünyada baş verən hadisələr barədə ictimaiyyətin dolğun məlumatlandırılmasında AzərTAc-ın xüsusi əhəmiyyəti nəzərə alınaraq, onun fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə Sərəncamda agentliyin

xarici dillərdə informasiya baş redaksiyası nəzdində multimedia və video xidmətinin yaradılması qərara alınmışdır.

Dünyanın bir sıra nüfuzlu informasiya agentlikləri ilə sıx əməkdaşlıq əlaqələri quran AzərTAc artıq yeni xidmətin təşkili istiqamətində müəyyən işlər görmüşdür. Agentlik sıx əməkdaşlıq etdiyi müxtəlif ölkələrdən bu sahənin peşəkarlarını dəvət edərək, onların təcrübəsindən maksimum yararlanmağa çalışır və artıq görüntülü, səsli və təsvirli (infoqrafika) xəbərlərin buraxılmasına başlamışdır. Rus və ingilis dilləri ilə yanaşı, alman, fransız və ərəb dillərində də audio və videomateriallar hazırlanması istiqamətində intensiv iş gedir. Bu proqramın həyata keçirilməsi ilə AzərTAc-ın xarici ölkələrdəki auditoriyası xeyli genişlənərək, beləliklə, agentliyin məhsullarının əcnəbi istehlakçıları Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı, demokratik vətəndaş cəmiyyəti quruculuğundakı nailiyyətləri, eləcə də Azərbaycan diplomatiyasının çoxvektorlu xarici siyasətdəki uğurları ilə daha yaxından tanış ola biləcəklər.

İnformasiya agentliklərinin çoxu videomateriallların yayılmasında YouTube resursundan istifadə edir. Lakin AzərTAc-ın öz texniki imkanları vardır və ixtisaslaşdırılmış videoportalların xidmətlərindən istifadəyə ehtiyac duymayan xaricdəki tərəfdaşlarından geri qalmır. AzərTAc-ın internet resursu vasitəsilə xəbər istehlakçıları üçün əlyetən olan səsli informasiyalardan da geniş istifadə edilir.

İnformasiya istehsalının bu yeni istiqamətlərinə istehlakçı auditoriyasının münasibəti müxtəlifdir. Bəziləri güman edirlər ki, videoxəbər hazırlayan agentlik televiziya yaradır. Bu, heç də belə deyildir. Təbii ki, televiziya ilə müqayisədə videoxəbərlər texnoloji sıçrayışdır. Əvvəllər adamlar televiziya xəbərlərini eşitmək üçün evə tələsirdilər. İndi isə internetə qoşulmuş adi İPhone qurğusu istifadəçiyə istənilən yerdə ani surətdə AzərTAc-ın internet səhifəsini açmağa və son videoyeniliklə tanış olmağa imkan verir. Məlumdur ki, televiziya xəbərləri günün müəyyən saatlarında efirə verilir. Bu saatlarda ekran qarşısında olmadınsa, deməli, yeniliklərdən xəbər tuta bilməyəcəksən. Videoxəbərlə bağlı isə bu cür problem yoxdur: eyni materiala dünyanın istənilən nöqtəsində dəfələrlə baxmaq mümkündür. Telekanalların çoxu bütün bu üstünlükləri nəzərə alaraq, televiziya ilə yayımlanmış reportajları öz internet saytlarına köçürürlər. Maraqlıdır ki, cəmi 20 il

bundan əvvəl videomateriallar geniş auditoriyaya yalnız televiziya kanalları ilə yayımlanırdısa, indi bundan ötrü çox böyük vəsait hesabına yaradılan telekanal heç də zəruri deyildir. Hər hansı bir hadisə barədə süjeti çəkib reportajı YouTube saytında yerləşdirmək üçün kameralı adi mobil telefon kifayətdir. Özü də bunu hər bir insan edə bilər.

AzərTAc-ın audio və videoməhsulları ilə tanış olmaq üçün istehlakçının fərdi kompyuterində xüsusi və ya çətin tapılan softver-proqramların olması tələb edilmir. Agentliyin multimedia xəbərlərinin istehlakçıları çox qısa vaxtda, bəzən cəmi bir neçə saniyədə adi səyyar noutbuk vasitəsilə ən son yeniliklərdən xəbər tuta bilərlər. Müasir dövrdə getdikcə populyarlaşan "internet-flyaşka" (internetə daxil olmaq üçün USB-card qurğusu) olduqda isə hətta yolda, məsələn, qatarda və ya avtobusda da agentliyin video və audio reportajlarını nəzərdən keçirmək mümkündür.

Audio və videoreportajlarla yanaşı, artıq vizual mətn materiallarına aid olan infoqrafikaya da diqqət artmaqdadır. İnformasiyanın yayılmasında multimedia xidmətinin əsas tərkib hissələrindən biri olan infoqrafika (təsviri xəbər) son vaxtlar aparıcı xəbər agentliklərinin işində aktuallığı ilə seçilir. Görüntülü və səsli xəbərlə yanaşı, təsviri xəbər informasiya təminatında son illərin ən böyük uğurlarından sayılır və dünyanın aparıcı media qurumları onu geniş tətbiq edir.

İnformasiya işinin yeni istiqaməti olan infoqrafika ideyaları genişləndirməyə və onlara diqqəti cəlb etməyə kömək edən bir vasitədir. Bir effektli təsvir min sözü əvəz edə bilir, mənanı sadələşdirmək və eyni zamanda, bütün vacib informasiyanı çatdırmaq imkanı yaradır. Təsvir informasiyanı daha cəlbedici və daha inandırıcı edir, daha dolğun, daha polifonik informasiya verir. İnternet şəbəkəsində hər hansı saytda təsviri görəndə orada söhbətin nədən getdiyini tərcüməsiz və şərhsiz də başa düşmək mümkündür. Kompleks informasiyaların istifadə edildiyi bu qrafikalar böyükhəcmli məlumatların çatdırılması üçün çox əhəmiyyətlidir.

İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi indiki vaxtda istənilən xəbər agentliyi multimedianın vacib elementi kimi infoqrafikanın imkanlarından istifadə etməsə, informasiya təminatı prosesində effektliliyi tam və dolğun təmin edə bilməz. Bu baxımdan, AzərTAc-ın fəaliyyətində də infoqrafikaya diqqət yetirilir.

Cəmiyyətdə belə bir yanlış fikir yayılmışdır ki, infoqrafika heç də yeni janr deyil, infoqraflar isə ya rəssam, ya da dizaynerlərdir. Həqiqətən də, yazılı mətbuatda həmişə karikaturalardan, şarjlardan, qrafik illüstrasiyalardan, diaqram və cədvəllərdən istifadə edilmişdir. Məsələn, vaxtilə "Molla Nəsrəddin", "Zənbur", "Kəşkül", sonralar "Kirpi" jurnallarında dərc olunan bir-birindən maraqlı karikaturaları, qəzetlərdə verilən dostluq şarjlarını, "Sözsüz" kəlməsi ilə təqdim olunan müxtəlif mövzulu təsvirləri, bədii əsərlərə, xalq nağıllarına, dastanlara çəkilən illüstrasiyaları, miniatürləri inkar etmək olmaz. Eyni zamanda, "infoqrafika müasir jurnalistikanın mövcud janrlarından ən cavanıdır" deyənlərin də fikirlərini inkar etmək mümkün deyildir. Ona görə ki, hazırda elektron mətbuatda infoqrafikanı hazırlayanlar nə təsviri incəsənətlə məşğul olan rəssamlar, nə karikaturaçılar, nə də dizaynerlərdir. Onlar adi jurnalistlərdir. Göründüyü kimi, bu məsələdə nəzəri cəhətdən mübahisə üçün zəmin olsa da, praktik mənada həqiqət bundan ibarətdir ki, infoqrafların məqsədi materiala forma cəhətdən bəzək-düzək vermək deyil, əyani qrafik material vasitəsilə faktları sadə və anlaşıqlı şəkildə şərh etməkdir.

AzərTAc Azərbaycan Prezidentinin məlum Sərəncamından irəli gələn vəzifələri yerinə yetirməklə bərabər, öz işində sosial medianın müxtəlif platformalarından, o cümlədən son illərdə internetdə olduqca populyarlaşmış Facebook, Twitter, Livejournal bloq-portalı, YouTube videoportalı və digər sosial şəbəkələrdən istifadə edilməsi sahəsində başqa informasiya agentliklərinin qabaqcıl təcrübəsini də diqqətlə öyrənir.

Əlbəttə, sürətlə yayılmaqda olan inteqrasiya prosesləri və onlayn sosial şəbəkələrlə konstruktiv əməkdaşlığı biz də müsbət qiymətləndiririk. Bununla bərabər, araşdırmalar göstərir ki, milli agentliklərin böyük əksəriyyəti sosial şəbəkələrə qoşulmağa çox da can atmır. Bunun başlıca səbəbi həmin sahədə, ilk növbədə, elektron məlumatların və intellektual mülkiyyətin qorunması ilə bağlı müəyyən risklərin olmasıdır. Sosial şəbəkələr çox böyük mütərəqqi potensiala malik olmaqla bərabər, təəssüf ki, informasiya piratlarının, parolların dağıdılması və məlumat bazasına qanunsuz müraciət, o cümlədən məxfi və şəxsi xarakterli məlumatların oğurlanması üzrə ixtisaslaşan xakerlərin fəaliyyət meydanına çevrilmişdir.

Sosial şəbəkələrlə bağlı təhlükəsizlik məsələləri AzərTAc-ın da üzv olduğu nüfuzlu regional informasiya qurumlarına – Asiya və Sakit Oke-

an Ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA) və Avropa Xəbər Agentlikləri Alyansına (EANA) daxil olan milli agentliklərin daim diqqət yetirdiyi problemdir.

Bu təhdidlə əlaqədar məsələ 2010-cu ilin mayında EANA-nın Budapeştdə keçirilən konfransında, 2010-cu ildə Argentinanın Barilos şəhərində Dünya Xəbər Agentliklərinin üçüncü konqresində geniş müzakirə olunmuş, sosial media ilə əlaqədar risk amilini ciddi surətdə nəzərə almaq və ehtiyatlı olmaq tövsiyə edilmişdir. Buna görə də indiki mərhələdə AzərTAc nə ilə nəticələnəcəyi məlum olmayan inteqrasiyaya tələsməməyi və vəziyyəti izləməkdə, tərəfdaşlarımızın təcrübəsini öyrənməkdə davam etməyi üstün tutur.

Bu məsələdə daha bir məqama diqqət yetirmək çox zəruridir. Azərbaycanın bəzi xəbər agentliklərinin və portallarının təcrübəsi göstərir ki, erməni istifadəçilər həmin informasiya resurslarının təşkil etdikləri forumlara və onların serverlərinə sərbəst müdaxilə edir və Azərbaycan dövlətçiliyinə ünvanlanmış təhqiramiz şərhlərlə bizim onlayn KİV-lərin səhifələrində yer alırlar. Agentliklər və portallar bu tipli qeyri-konstruktiv diskussiyaya münasibətdə heç bir kompromisə yol verməməlidir.

Hazırda Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsində yaşayan erməni mənşəli Azərbaycan vətəndaşlarının konstruktiv şərhləri və fikirləri, eləcə də Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almayan Ermənistan vətəndaşlarının konstruktiv rəyləri bizim saytlarda yer ala bilər.

AzərTAc isə xəbərlərin ictimaiyyət tərəfindən müzakirə edilməsi üçün platforma yaradarkən, rəsmi dövlət informasiya agentliyi kimi, ölkəmizin milli maraqlarını həmişə əsas tutacaqdır.

"Azərbaycan" , "Bakinski raboçi" qəzetləri,
13 yanvar 2011-ci il.

Azərbaycan Prezidenti jurnalistlərin dostudur və ya "müstəqil" beynəlxalq QHT-lərin "obyektivliyi" barədə bir neçə söz

Yenicə yola saldığımız 2010-cu ilin son günlərində həqiqətən əlamətdar hadisə baş vermişdir. "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi "Jurnalistlərin dostu" mükafatının laureatını müəyyənləşdirmək məqsədi ilə respublikanın kütləvi informasiya vasitələri və jurnalist təşkilatları arasında sorğu keçirmişdir. 93 KİV-in, o cümlədən 30 gündəlik, 19 həftəlik qəzet, 2 jurnal, 11 informasiya agentliyi, 13 jurnalist təşkilatı, 8 xəbər portalı, 7 televiziya kanalı və 3 radionun nümayəndələri arasında aparılmış sorğuda iştirak etmiş respondentlərin 81 faizi "Siz 2010-cu ilin yekunlarına əsasən hansı ictimai-siyasi xadimi, vəzifəli şəxsi jurnalistlərin dostu hesab edirsiniz?" sualına cavabında birmənalı şəkildə Azərbaycan Prezidenti İlham Əliyevin adını çəkmişdir.

Prezident İlham Əliyevə "Jurnalistlərin dostu" fəxri mükafatının verilməsi dövlətimizin başçısının müstəqillik illərində Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunun ən mühüm meyarlarından olan söz və mətbuat azadlığının hərtərəfli təmin edilməsi, ölkəmizdə müstəqil mətbuatın inkişafı sahəsində gördüyü misilsiz işlərin qanunauyğun nəticəsidir. Bu mükafat Prezidentin kütləvi informasiya vasitələrinin davamlı işinə şərait yaradılması sahəsində xidmətlərinin etiraf edilməsinin və dövlətimizin başçısının milli jurnalistikamıza qayğısına mətbuat işçilərinin səmimi minnətdarlığının ifadəsidir.

Prezident İlham Əliyevin "Jurnalistlərin dostu" elan edilməsi fonunda bir sıra beynəlxalq təşkilatların və bəzi xarici ölkələrin hökumət orqanlarının Azərbaycanda söz və mətbuat azadlığı sahəsində vəziyyəti əsassız olaraq tənqid etməsi ən azı təəccüb doğurur. Məsələn, ABŞ Dövlət Departamenti keçən il martın 11-də özünün internet saytında 2009-cu ildə Azərbaycanda insan hüquqlarına dair məruzənin mətnini yerləşdirmişdi. Bu məruzənin ikinci bölməsi vətəndaş azadlıqlarına, o cümlədən söz və mətbuat azadlığına həsr olunmuşdu.

Həmin məruzə ilə ilk tanışlıqda onun aşkar qərəzliliyi bəlli olur. Düzdür, məruzədə bəzi müsbət məqamlar vardır. Məsələn, "erməni separatçıları

Ermənistanın köməyi ilə (təkcə Ermənistanınmı?-*A.A.*) Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik yeddi rayonu nəzarətdə saxlamaqda davam edir" ifadəsi Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması deməkdir. Bununla belə, ölkəmizdə insan hüquqları və demokratik azadlıqlar sarıdan vəziyyətə aid bölmələrdə əsassız tənqid yer almış, Azərbaycanın müstəqilliyini bərpa etdiyi vaxtdan bəri demokratiyanın inkişafı sahəsində qazandığı aşkar tərəqqiyə göz yumulmuşdur. ABŞ çox vaxt gənc dövlətlər qarşısında elə tələblər qoyur ki, bəzən düşünürsən: Ağ evdə bu ölkələrdə eynilə ABŞ-da olduğu kimi "Amerika cəmiyyətləri" görmək istəyirlər və bu zaman unudurlar ki, okeanın o tayındakı demokratiyanın bir neçə əsrlik tarixi olduğu halda, keçmiş SSRİ məkanında yaranmış müstəqil dövlətlər totalitar kommunist rejiminin buxovlarından təxminən iyirmi il əvvəl azad olaraq, demokratik cəmiyyət quruculuğu yoluna qədəm qoymuşdur. Bu yol isə enişli-yoxuşludur və ötən əsrlər ərzində eynilə bu cür sınaqlarla və çətinliklərlə üzləşmiş amerikalıların özləri də bunu gözəl bilirlər.

Əlbəttə, hər şeyə birdən-birə nail olmaq mümkün deyil, lakin əsas məsələ demokratik dəyərlərə həqiqi bağlılıq və seçilmiş yol ilə irəliləmək niyyətinin qəti olmasıdır. Bütün bunları isə Azərbaycanda aydınca görmək olar. Buna görə də ABŞ Dövlət Departamentinin məruzəsini təkəbbürlülük nümunəsindən başqa cür səciyyələndirmək mümkün deyildir. Məruzədə ötən illər ərzində Azərbaycanda söz və mətbuat azadlığının təmin edilməsi, müstəqil mətbuatın inkişafı sahəsində qazanılmış uğurlar barədə heç nə deyilmir. Görəsən, doğrudanmı həmin sənədin müəllifləri ölkəmizdə bu sahədə heç bir müsbət irəliləyiş görməmişlər? Əlbəttə, buna inanmaq çətindir və ona görə də məruzənin və orada verilən qiymətlərin obyektivliyinə, yumşaq desək, şübhə yaranır.

Təəccüblü deyil ki, özlərini zahirən "müstəqil" kimi qələmə verməyə çalışan, lakin iş maliyyələşdirmə məsələsinə çatanda dərhal bu müstəqilliyi itirən bir sıra "beynəlxalq" təşkilatlar ABŞ Dövlət Departamentinin məruzələrini özlərinin əsas sponsoru tərəfindən bir növ siqnal, fəaliyyət üçün rəhbərlik kimi qəbul edir. Bəzən bu "müstəqil" hüquq müdafiəsi təşkilatları özlərinin illik hesabatlarında hətta mövzunu öyrənməyə də macal tapmadan Dövlət Departamentinin fikirlərini demək olar ki,

sözbəsöz təkrarlayır. Belədə lap gülməli vəziyyət yaranır. Əslində, onların bu "tədqiqatları" nəyə gərəkdir, onsuz da həmin təşkilatların hesabatlarının ümumi istiqaməti qrant verənin özü tərəfindən müəyyən edilmişdir və bircə bu qalır ki, Dövlət Departamentinin məruzəsindəki ifadələr bir qədər başqa şəkildə təqdim edilsin və növbəti il üçün maliyyələşdirilməyə layiq olmaq üçün bəzi çalarlar əlavə olunsun! Bəli, həmin təşkilatlar belə işləyirlər, onların əməkdaşları bu barədə şəxsi söhbətlərdə, bəzən isə öz bloqlarında da açıq danışırlar. "Freedom House", "Human Rights Watch", "Transparency İnternational", "Sərhədsiz Reportyorlar", Jurnalistləri Müdafiə Komitəsi, İnsan Hüquqları Evləri Fondu və digər təşkilatların hesabatlarının necə yazılması bizə yaxşı məlumdur. Bu təşkilatlar siyasi sifarişlə işləyir, ABŞ Dövlət Departamentinin məruzələrinin ahəngi dəyişən kimi, onların hesabatlarının ruhu da dərhal dəyişir.

Nümunə üçün uzağa getmək lazım deyildir. Viktor Yuşşenkonun Ukraynaya rəhbərliyi dövründə okeanın o tayından olan göstərişə əsasən, beynəlxalq QHT-lər bir səslə bu postsovet ölkəsinə insan hüquqları və demokratik azadlıqlar sahəsində yüksək reytinqlər verirdilər. Xüsusi vurğulamaq istəyirik ki, Azərbaycan Ukraynanı həmişə özünə dost ölkə hesab etmişdir və indi də belədir. Ukraynanın istər əvvəlki, istərsə də indiki hökumətləri dövründə vətəndaş hüquqlarının təmin edilməsi həqiqətən yüksələn xətlə getmişdir və bu dinamika davam edir. Lakin təəccüb doğuran budur ki, Ukraynada hakimiyyət dəyişən kimi elə həmin beynəlxalq təşkilatlar bircə anda özlərinin mövqeyini dəyişmiş, son illərdə bu ölkədə qazanılmış uğurları unutmuş və birdən-birə orada "həll edilməmiş problemlərin" olmasından danışmağa başlamışlar. Görünür, Avropanı yaxalamış builki sərt qış kimi, həmin "problemlər" də qəflətən peyda olmuşdur!

Daha bir misal: ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan ABŞ Gürcüstanın ərazi bütövlüyünü hərtərəfli dəstəkləyərək, Abxaziyanı və Cənubi Osetiyanı tanımış ölkələri tənqid etmək üçün heç bir fürsəti əldən vermədiyi halda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarından söhbət düşəndə, nədənsə, bu cür prinsipiallıq göstərmir, bunun əvəzində Helsinki Yekun Aktında təsbit olunmuş üç prinsipin – ərazi bütövlüyü, xalqların öz müqəddəratını təyin etmək hüququ və zor tətbiq edilməməsi prinsiplərinin "eyni dərəcədə əhəmiyyəti" olmasından danı-

şır. Gözlərini yaşıl əskinaslar qamaşdıran beynəlxalq QHT-lər də, özlərinin xüsusi fikri olmadığına görə, dərhal həmin "qiymətli direktivi" dəstəkləyir, məsələyə bu cür yanaşmanın açıq-aşkar ikili standart olduğunu bəzən özləri də başa düşmədən onu təkrarlayırlar. Həmin təşkilatların sözdə bəyan etdiyi qərəzsizlik və obyektivlik həqiqətdə ikiüzlülük və riyakarlıqdan başqa bir şey deyildir.

Bu təşkilatlar arasında Azərbaycanı "azad olmayan dövlət", Dağlıq Qarabağı isə "qismən azad" ərazi adlandıran "Freedom House" xüsusilə fərqlənir. İşğal edilmiş Dağlıq Qarabağın ABŞ Dövlət Departamenti tərəfindən də Azərbaycanın tərkib hissəsi hesab edilməsinə baxmayaraq, bu təşkilatın həmin bölgəni "ölkə" hesab etməsi faktının cəfəngliyini bir yana qoyaq. Aydın olmayan başqa məsələdir – işğal edilmiş Dağlıq Qarabağdakı hərbi rejimi hansı əsasla "qismən demokratik" hesab etmək olar ki, bu bölgənin sakinlərinin demək olar, üçdəbiri milli mənsubiyyətinə görə doğma yurdlarından qovulmuş, yerli seçkilərdə və vətəndaş cəmiyyəti təsisatlarının qurulmasında iştirak etmək imkanından məhrum edilmişdir? Müqayisə üçün Cənubi Afrika Respublikasının (CAR) aparteid dövrünü xatırlayaq. CAR-ın ağdərili əhalisini təcrid olunmuş şəkildə götürsək, o vaxt bu icma daxilində insan hüquqları baxımından vəziyyət həqiqətən yüksək səviyyədə idi, Böyük Britaniyadakı vəziyyətdən heç də pis deyildi. Lakin ölkə əhalisinin əksəriyyətinin ümumi prosesdən tamamilə kənarlaşdırıldığı və fundamental hüquqlardan məhrum edildiyi bir şəraitdə bütövlükdə CAR-da demokratiyadan danışmaq olardımı? Əlbəttə ki, yox! O dövrdə CAR dünyanın ən mürtəce, totalitar və qeyri-demokratik ölkələrindən biri idi. Sual olunur, Dağlıq Qarabağ birdən-birə hansı yolla "qismən azad" ərazi reytinqi almışdır ki, bu bölgənin əhalisinin üçdəbiri siyasi proseslərdə iştirak etmək imkanından məhrum olunmuş, oyuncaq rejim isə öz qarşısına bu diyarda aparteidi xatırladan monoetnik erməni cəmiyyəti yaratmaq məqsədini qoymuşdur? Bu sadə suala hətta "Freedom House"un illik hesabatının öz standartları arasında başlarını itirmiş müəllifləri də cavab tapa bilməzlər.

Bütün üzvləri qohum olan kiçik ölkə daxilində demokratiyaya az-çox nail olmaq müşkül məsələ deyildir. Lakin çoxlu sayda başqa ailələrin də yaşadığı böyük və çoxmənzilli binada ədalətli qayda yaratmaq bundan

qat-qat çətindir. 1987-89-cu illərdə azərbaycanlı əhalinin tarixən ona məxsus olan torpaqlardan zorla qovulduğu bugünkü Ermənistan monoetnik dövlətdir. Azərbaycan isə müxtəlif dillərdə danışan çoxsaylı ailələrin tarixən tolerantlıq, mehribanlıq şəraitində yaşadığı çoxmənzilli uca binanı xatırladır. Belə olan halda "Freedom House" hansı əsasla Ermənistanı "qismən azad", Azərbaycanı isə "azad olmayan" ölkə hesab edir? "Freedom House"un yozumuna görə, demokratik dövlət olmaq üçün doğrudanmı Ermənistan kimi etnik təmizləmələr aparmaq və monoetnik dövlət yaratmaq lazımdır? Əgər Ermənistanda da Azərbaycanda olduğu qədər etnik qrup və millət yaşasaydı, o, "Freedom House"un ona verdiyi indiki reytinqi qoruyub saxlaya bilərdimi? Bizim buna böyük şübhəmiz vardır!

Eyni sözlər Azərbaycanı "ciddi internet senzurası" olan ölkələrin siyahısına (yəqin ki, öz sponsorlarının göstərişi ilə) daxil etmiş "Sərhədsiz Reportyorlar" təşkilatına da aiddir. Hökumətpərəst agentliklərin səxavətlə maliyyələşdirdiyi bu cür "beynəlxalq" QHT-lər müstəqil siyasət yeridən başqa ölkələrin hökumətlərinə siyasi təzyiq alətinə çevrilir. Bu mexanizm kifayət qədər sadədir. Əvvəlcə külli məbləğdə vəsait sərf edilərək "beynəlxalq" təşkilat yaradılır. "Məşhurlaşdırma" fazası başa çatandan və "dünya miqyaslı nüfuzlu təşkilat" imici qazandırıldıqdan sonra bilavasitə ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi – "beynəlxalq" QHT-nin guya müstəqil mövqeyi adı ilə gözəgörünməz haminin mövqeyinin səsləndirilməsi mərhələsi başlanır. "Freedom House", "Human Rights Watch", "Transparency İnternational", "Sərhədsiz Reportyorlar", Jurnalistləri Müdafiə Komitəsi və sair təşkilatların illik məruzələri belə yaranır. Bir sıra hallarda top-menecment illik məruzələri tərtib etməzdən əvvəl sponsor ölkələrin hökumətlərindəki qeyri-rəsmi kuratorlarına birbaşa və birmənalı sualla müraciət edirlər: "Biz nə yazmalıyıq?". Başqa hallarda QHT-lər "ali qonaqların" və digər VİP nümayəndələrinin səfərlərini gözləyir, sonra isə onlardan alınan direktivlərə uyğun olaraq, hesabatın mətni üzərində işə başlayırlar. Bütün bu faktlar bizə yaxşı məlumdur. Onlar həmin hüquq müdafiəsi təşkilatlarının qeyri-səmimiliyinə, bəzən isə açıq-aşkar riyakarlığına dəlalət edir. Bu təşkilatların hansı "müstəqilliyindən" (deməli, həm də onların fikrinin nüfuzundan) danışmaq olar ki, maliyyə asılılığı həmişə mövcud olmuşdur?! Sual ritorikdir.

2010-cu ilin axırlarında Azərbaycanda keçirilmiş sorğuda iştirak etmiş 93 kütləvi informasiya vasitəsinin əksəriyyəti özəl qurumdur, dövlət tərəfindən maliyyələşdirilmir, yəni onlar tamamilə müstəqildir. Bu KİV-lərin 81 faizi tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin "Jurnalistlərin dostu" hesab edilməsi təkcə rəmzi məna daşımır. Bu, həm də hökumətpərəst agentliklər tərəfindən nəzarət və idarə olunan, öz fikrini özlərinin qeyrirəsmi kuratorlarının göstərişi ilə formalaşdıran "müstəqil" beynəlxalq təşkilatlara ünvanlanmış özünəməxsus bir ittihamdır. Azərbaycan KİV-ləri arasında keçirilmiş sərbəst rəy sorğusunun nəticələri çox parlaq şəkildə göstərir ki, jurnalistlər birliyinin yekdil fikrinə görə, Azərbaycan dövlətinin başçısı həm də demokratik dəyərlərin təminatçısı missiyasını layiqincə yerinə yetirir.

Yeri gəlmişkən, indi dünyanın elə vaxtıdır ki, gənc dövlətlərə təkəbbürlə nəsihət verən böyük dövlətlər özləri də onlardan çox şey öyrənə bilər. Bu, ilk növbədə, azad seçkilər nəticəsində formalaşmış və müstəqil siyasət yeridən hökumətlərə oyuncaq beynəlxalq təşkilatlar vasitəsilə təzyiq göstərməyə çalışanlara aiddir. Azərbaycan kiminsə sədəqəsinə göz dikən dövlətlərdən deyil ki, ona təzyiq göstərmək mümkün olsun. Ölkəmizin müstəqillik illərində keçdiyi yol bunu dəfələrlə sübut etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin "Jurnalistlərin dostu" mükafatına layiq görülməsi ölkəmizdə söz və mətbuat azadlığı sahəsində vəziyyətin ABŞ Dövlət Departamenti və bəzi beynəlxalq təşkilatlar tərəfindən əsassız, ikili standartlara söykənən tənqidinə ən tutarlı və obyektiv cavabdır. Azərbaycan dövlətçiliyinin və ölkənin siyasi quruluşunun memarı Heydər Əliyevin müəyyən etdiyi strateji xətti yeni şəraitdə uğurla davam etdirən Prezident İlham Əliyev respublikaya rəhbərliyi dövründə ədalətli cəmiyyətin tarixi ənənələrinə və onun dəyərlərinə sadiqliyini nümayiş etdirmiş, Azərbaycan jurnalistləri də bunu minnətdarlıqla qiymətləndirərək, Prezidenti özlərinin dostu elan etmişlər!

"Azərbaycan", "Bakinski raboçi" qəzetləri,
7 yanvar 2011-ci il.

Akademik Ramiz Mehdiyevin "Gorus-2010: absurd teatrı mövsümü" kitabı Ermənistanda getdikcə güclənməkdə olan dövlət faşizmi barədə həyəcan təbilidir

Dekabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) rəyasət heyətində AMEA-nın Tarix İnstitutunun təşəbbüsü ilə akademik Ramiz Mehdiyevin bu yaxınlarda çapdan çıxmış "Gorus-2010: absurd teatrı mövsümü" kitabının təqdimatı olmuşdur. Kitab Ermənistanda dövlət hakimiyyətini qəsb etmiş Serj Sarkisyanın, - səsvermənin yekunlarını saxtalaşdırmaq və seçiciləri aldatmaq yolu ilə hakimiyyəti ələ keçirmiş bu vücudu "prezident" adlandırmağa adamın dili gəlmir, - təhqiramiz bəyanatlarına və elmə zidd uydurmalarına ən tutarlı cavabdır.

Akademik Ramiz Mehdiyevin kitabının adı onun məzmununu çox gözəl əks etdirir. Bu kitabın məqsədi beynəlxalq elmi ictimaiyyətin və ekspertlərin diqqətini cari il oktyabrın 16-da, tarixən Azərbaycan torpağı olan, sovet dönəmində Ermənistana verilən Zəngəzur mahalının Gorus şəhərinin "siyasi teatr səhnəsində" göstərilmiş, müəllifi, rejissoru və yeganə ifaçısı Sarkisyan olan tragikomik tamaşanın absurd mahiyyətinə cəlb etməkdən ibarətdir.

Serj Sarkisyan qədim türk diyarı, keçmiş Qarabağ xanlığının ərazisi olan, İran və Anadolu haylarının yalnız 1828-ci ildən sonra kütləvi şəkildə məskunlaşdırıldığı Gorus şəhərində tarixdən dəm vurmaq eşqinə düşmüşdür. Halbuki, kimin olsa da, ancaq onun Cənubi Qafqazın tarixi barədə danışmağa, ümumiyyətlə, haqqı yoxdur. Çünki onun əcdadları – öz torpaqları olmayan, yeri-yurdu bilinməyən haylar İrandan və ya Osmanlı imperiyasından ən tezi iki əsr bundan əvvəl Qarabağa köçüb gəlmiş və burada özlərinə sığınacaq tapmışlar.

XX əsrin əvvəllərinə qədər haylar nəinki Qarabağ, Naxçıvan və Zəngəzurda, hətta İrəvanın özündə də heç vaxt etnik çoxluq təşkil etməmişlər. Akademik Ramiz Mehdiyev elə erməni alimləri Ronald Suni və Corc Burnutyana istinadla bunu tarixdən xəbəri olmayanlara və ya onu saxtalaşdıranlara bir daha xatırlatmışdır. O, kifayət qədər zəngin tarixi mənbələrdən istifadə edərək, erməni təbliğatının Qarabağın (Arsaxın),

Naxçıvanın, İrəvanın guya "qədim erməni torpağı" olması barədə uydurmalarını alt-üst etmişdir.

Akademik Ramiz Mehdiyevin əsərinin diqqəti çəkən bir cəhəti də ondan ibarətdir ki, o "Arsax" terminindən cəsarətlə istifadə edir, tarixçiləri və siyasətçiləri bu sözdən çəkinməməyə çağırır. Müəllif yazır ki, Arsax Qarabağın dağlıq hissəsinin tarixi adıdır və Sünik, Qandzak, Utik, Paytakaran və Aran kimi digər vilayətlərlə yanaşı, Arsax da Qafqaz Albaniyası dövlətinin bir hissəsi olmuşdur. Arsaxın maddi-mədəni irsinin Azərbaycanın islamdan əvvəlki dövrünə aid olması isə tarix elmində hamılıqla qəbul edilmişdir. Gəlmə haylar və onların dili ilə "Arsax" sözü arasında heç bir əlaqə yoxdur. Kitabda bu müddəa elmi dəlillərlə, tarixi mənbələrdən gətirilmiş faktlarla bir daha şərh olunmuşdur.

Sarkisyanın öz ifadələrindən istifadə edilməklə ona vurulmuş zərbələr qəti və sarsıdıcı olmuşdur. Erməni tərəfi akademik Ramiz Mehdiyevin kitabına elmi cəhətdən əsaslandırılmış cavab tapa bilməmişdir və tapa bilməyəcəkdir. Əlbəttə, gələcəkdə "qarı nənənin nağılları"na əsaslanan təbliğat xarakterli opusları nəzərə almasaq. Təəssüf ki, Ermənistanda zavallı məktəbliləri və tələbələri tarix dərslərində bu cür nağıllarla "bəsləyir", sərsəm ağılın məhsulu olan həmin cızma-qaraların müəllifləri isə abır-həya etmədən bunları "elm" kimi qələmə verirlər. Hər halda, Ermənistanda belə "alimlər" akademik Ramiz Mehdiyevin kitabına "cavab" verməyə çalışırlar, ancaq nə yazıq ki, oxları daşa dəyir.

Akademik Ramiz Mehdiyevin təbirincə desək, onlar nəinki qarşılarına qoyduqları məqsədə çatmamış, əksinə, özlərinin daxili mədəniyyət səviyyəsini və mütləq mənada qeyri-peşəkar olduqlarını nümayiş etdirmişlər. Məsələn, adını çəkməyi layiq bilmədiyimiz belələrindən biri məşhurlaşmaq naminə Qafqazın tarixi "erməni" torpaqlarında türklərin "gəlmə" olduğunu isbat etməyə çalışmış və Mirzə Adıgözəl bəyin "Qarabağnamə" əsərinə istinad etmişdir. Həmin əsərdə deyilir ki, XVIII əsrin ortalarında "otuzikilər, cavanşirlər və kəbirli türk tayfaları Qarabağa gəlmişlər". Erməni alimi isə özündən bunu da əlavə edir ki, "bundan iyirmi il əvvəl türk tayfaları – əfşarlar, iyirmidördlər və bayandurlar Qarabağa köçüb gəlmişlər". Onun sərsəm məntiqinə görə, əgər "Qarabağnamə" əsəri XVIII əsrin ortalarında bir sıra tayfaların bu vilayətə gəlməsinə dəlalət

edirsə, deməli, onlar Qarabağ torpağında "ilk" türklər olmalı idilər! Məgər Mirzə Adıgözəl bəy haradasa göstərmişdir ki, onlara qədər Qarabağda, ümumiyyətlə, türk olmamışdır?!

Rusiyanın Federal Miqrasiya Xidmətinin 2009-cu il üçün hesabatında bildirilir ki, keçən il ölkəyə Ermənistandan gəlmiş bir neçə min immiqrant qeydiyyata alınmışdır. Erməni opponentin məntiqi ilə yanaşsaq belə çıxır ki, onlar Rusiyada ilk ermənilərdir və 2009-cu ilə qədər bu ölkədə ümumiyyətlə erməni olmamışdır. Bu, əlbəttə ki, cəfəngiyatdır.

Yeri gəlmişkən, Azərbaycan tarixşünaslığında heç vaxt iddia edilməyib ki, 1828-ci ilə qədər Qarabağda, ümumiyyətlə, erməni olmamışdır. Aydındır ki, orada az sayda erməni yaşamışdır (bu gün Uqandada və Uruqvayda ermənilər yaşadığı kimi) və Rusiya mənbəyi də buna dəlalət edir. Həmin mənbəyə görə, 1810-cu ilə qədər Qarabağda ermənilər cüzi azlıq təşkil edirdilər. Əslinə qalanda isə, onlar haylar deyil, erməniləşdirilmiş albanlar idilər. Digər tərəfdən, hətta onlar haylar olsaydılar belə, yenə də sayca çox az idilər. Akademik Ramiz Mehdiyev müvafiq tarixi sənədə istinadla göstərir ki, "Rusiya statistikasının məlumatına görə, təxminən həmin vaxt (1810-cu ildə) Qarabağ əhalisi 9500 türk və 2500 erməni ailəsindən ibarət idi". Faiz nisbətində götürdükdə bu, 79 faiz və 21 faiz təşkil edir. Üstəlik, azərbaycanlı ailələrinin erməni ailələrindən daha böyük olduğunu nəzərə alsaq, ermənilərin mütləq sayı daha da azalar. Belə olan halda 1920-ci illərdə Dağlıq Qarabağın əhalisinin təxminən 99 faizinin ermənilərdən ibarət olmasını söyləmək sayıqlamadan başqa bir şey deyildir. Belə cəfəngiyatı yalnız absurd teatrının bədii rəhbəri və onun azğınlaşmış spiçrayterləri uydura bilər.

Yeri gəlmişkən, akademik Ramiz Mehdiyevin yuxarıda xatırlatdığımız "opponenti" öz xəstə sərsəmləmələrində sübut etməyə çalışır ki, ümumiyyətlə, azərbaycanlılar deyilən millət olmamışdır. O, bu yaxınlarda Tərtərdə ağdamlı məcburi köçkünlərlə yerli sakinlər arasında adi məişət zəminində baş vermiş insidentin əsl erməni təfəkküründən doğan yozumunu təqdim etmişdir. Onun fikrincə, bu hadisə "Ağdamı tərk etmiş əfşarlarla Tərtər sakinləri, Ağqoyunlular ittifaqından ayrılmış Qaraqoyunlu və Bayandur tayfalarının nümayəndələri arasında çoxəsrlik tayfalararası ziddiyyət" idi. Bu sərsəm məntiqlə yanaşdıqda belə demək olar ki, iki il bundan əvvəl Rusiya ilə Ukrayna arasında qaz satışı ilə əlaqədar yaranmış

münaqişə, əslində, Kiyev və Moskva arasında dövlətlərarası disput deyil, "polyanalarla vyatiçlər və kriviçlər ittifaqı arasında çoxəsrlik ziddiyyətlər"in təzahürü imiş...

Akademik Ramiz Mehdiyevin kitabına erməni təbliğatının verdiyi bütün cavab bundan ibarətdir! Bu da təəccüblü deyil, həyasızlıqda ad çıxarmış erməni təbliğatı acizliyini etiraf etməsə də, deyə bilərik ki, daş qayaya rast gəlmişdir. "Gorus-2010: absurd teatrı mövsümü" kitabı bütün erməni təbliğatını indiyədək bəlkə də düşmədiyi nokaut vəziyyətinə salmaqdan əlavə, beynəlxalq birliyə də vaxtında ünvanlanmış bir mesajdır. Dünya birliyi Ermənistanın hakimiyyət strukturlarında getdikcə dərinləşməkdə olan təhlükəli meyillərə çox ciddi diqqət yetirməyin vaxtı çatdığını başa düşməlidir. Bu kitab Ermənistanda getdikcə güclənməkdə olan dövlət faşizmi barədə bir növ həyəcan təbilidir. Akademik Ramiz Mehdiyev bununla faktik olaraq, dünya birliyini indiki siyasi elitanın yoluxdurduğu xəstəlikdən xilas olmaqda sadə erməni xalqına kömək etməyə çağırır.

Dünya liderləri və beynəlxalq təşkilatlar 1933-cü ilin məlum səhvlərindən ibrət dərsi almalıdır! Dünya birliyinin erməni faşizminə laqeyd münasibəti tarixin faciəli səhifələrinin təkrarlanmasına gətirib çıxarmışdır. Erməni "miatsum"u XX əsrin axırlarının "anşlüs" hərəkatıdır. Dağlıq Qarabağın Ermənistan tərəfindən ilhaq edilməsi Sudetin işğalının bizim günlərdə təkrarıdır. Dağlıq Qarabağa bitişik yeddi rayonun işğal edilməsi müasir "Barbarossa planı"dır! Xocalı, Qaradağlı və Malıbəylinin dinc sakinlərinin məhv edilməsi 1992-ci ilin "Liditse" hadisələridir! Serj Sarkisyanın Gorusdakı çıxışı bizim günlərin "Mayn Kampf" kitabından tezislərdir. ATƏT-in Astana sammitinin uğursuzluğu və bu təşkilatın uzanan münaqişələrə prinsipial münasibət bildirməyə qadir olmaması Millətlər Liqasının taleyinin təkrarlana biləcəyi barədə həyəcan siqnalıdır.

Beynəlxalq birlik erməni faşizminə öz münasibətini bildirməli və onu məcbur etməlidir ki, Azərbaycan torpaqlarının işğalına son qoysun. Əks halda, Azərbaycan xalqının da öz qəhrəman övladları – Aleksandr matrosovları, Nikolay qastelloları, panfilovçuları var və bu xalq bütün dünyaya göstərməyə məcbur olacaq ki, onun da öz "marşal Jukovu" var və o, Serj Sarkisyanı – bu erməni Vilhelm Keytelini təslim aktını imzalamağa məcbur edəcəkdir!

Ermənistan dövlətinin faşistləşməsi təhlükəsini lazımınca qiymətləndirməyənlərin hamısı akademik Ramiz Mehdiyevin "Gorus-2010: absurd teatrı mövsümü" kitabı ilə tanış olmalıdır. Yığcam və sadə dildə yazılmış bu kitab geniş oxucu təbəqələri üçün anlaşıqlıdır. Buradakı istehza və sarkazm elementləri Serj Sarkisyanın Gorusdakı çıxışının tamamilə cəfəngiyat olmasını adekvat şəkildə əks etdirir. Şübhə etmirəm ki, bu kitab bir sıra dillərə hökmən tərcümə ediləcək, beləliklə, dünya auditoriyasına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini və Ermənistanın indiki rəhbərliyinin əsl simasını daha yaxşı başa düşmək imkanı verəcəkdir.

"Azərbaycan", "Respublika", "Bakinski raboçi" qəzetləri,
22 dekabr 2010-cu il.

Düşmən dəyirmanına su tökənlərin cəzası daha ağır olur

Dünyada mehriban dostluq münasibətləri quran xalqlar və dövlətlər çoxdur. Onlar çətin anlarda həmişə bir-birinə arxa-dayaq olmuş, kömək etmişlər. Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri isə daha möhkəm təməllər üzərində qurulmuşdur və deyə bilərik ki, digər türkdilli dövlətlər üçün də bir örnəkdir. Dini, dili, adət-ənənələri eyni olan iki ölkənin qardaşlığı, dostluğu ulu öndər Heydər Əliyevin müdrik kəlamı ilə təsdiqlənən "bir millət, iki dövlət" zirvəsinə yüksəlmişdir.

Tarixi faktlar da təsdiqləyir ki, Azərbaycan-Türkiyə münasibətlərinin qırılmaz tellərlə bağlılığı beynəlxalq məsələlər səviyyəsində də sınaqdan uğurla çıxmışdır. Bir müddət əvvəl ABŞ Konqresinin Nümayəndələr palatasının Xarici əlaqələr komitəsində qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı müzakirələr gedərkən, ilk etiraz səsini ucaldan məhz Azərbaycan olmuşdur. Bundan sonra, etiraz dalğası getdikcə güclənmiş və qondarma "soyqırımı" ətrafında aparılan müzakirələr yarımçıq dayandırılmışdır. Başqa bir misal. NATO Ermənistanda hərbi təlim keçirərkən Türkiyəyə bu dövlətlə sərhədləri müvəqqəti açmaq barədə təzyiq göstərsə də, rəsmi Ankara mövqeyindən dönməmiş, sərhədlərin yalnız əvvəllər irəli sürülən şərtin yerinə yetirilməsindən sonra açılacağını bəyan etmişdir. Yəni, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini qeyd-şərtsiz boşaltmalı, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll olunmalıdır. Göründüyü kimi, hətta Türkiyə NATO-nun üzvü olsa da, Azərbaycan ilə dostluq və qardaşlıq münasibətlərinə xələl gətirilməsinə imkan verməmişdir.

Dost və qardaş ölkələrimiz arasında münasibətlərin getdikcə möhkəmlənməsi, siyasi, iqtisadi, sosial, humanitar və digər sahələrdə əlaqələrin gündən-günə genişlənməsi müəyyən maraq dairələrinin narahatlığına və təşvişinə səbəb olmuşdur. Ona görə də bu dairələr Türkiyə-Azərbaycan dostluğuna əngəl törətmək üçün çirkin üsullara – iftiraya, böhtana əl atır, təbliğat maşınını işə salırlar. Həmin qüvvələr bu dəfə daha məkrli üsula əl atmış, necə deyərlər, türkü "türkün" əli ilə vurmağa çalışmışlar. Ancaq unutmuşlar ki, onların baltaya seçdikləri "sap"ın xislətinə həm

Azərbaycanda, həm də Türkiyədə yaxşı bələddirlər. Bir vaxtlar Türkiyənin Azərbaycandakı səfirliyində işləmiş və diplomatik fəaliyyətə yaraşmayan hərəkətlərə yol verdiyinə görə tutduğu vəzifədən uzaqlaşdırılan, düşmən dəyirmanına su tökən Turqut Ər ulu öndər Heydər Əliyevin xalqımız, ölkəmiz, dövlətçiliyimiz qarşısındakı tarixi xidmətlərinin, Türkiyə ilə qardaşlıq əlaqələrinin inkişafı sahəsində gördüyü sayagəlməz möhtəşəm işlərin üzərinə kimlərinsə sifarişi ilə kölgə salmağa cəhd göstərmişdir. Lakin belə cızma-qaralarla tarixi saxtalaşdırmaq qeyri-mümkündür. Dahi Heydər Əliyevin xidmətləri dünyanın görkəmli siyasi və dövlət xadimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Həmin tarixi şəxsiyyətlərin bir neçəsinin ümummilli lider Heydər Əliyev haqqında fikirlərini turqut ərlərə xatırlatmaq istərdik:

ABŞ-ın sabiq Prezidenti Corc Buş: "Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm"; Fransanın keçmiş Prezidenti Jak Şirak: "Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Heydər Əliyev kimi müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir"; Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl: "Həyatın çətin sınaqlarından məğrurluqla, sarsılmaz iradə ilə çıxan Heydər Əliyev dostluqda sədaqət nümunəsidir"; Ukraynanın keçmiş Prezidenti Leonid Kuçma: "Müdriklik, şərəf, şöhrət sözlərini tam mənası ilə Prezident Heydər Əliyevə aid etmək olar"; Qazaxıstan Prezidenti Nursultan Nazarbayev: "Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışmışdır"; Özbəkistan Prezidenti İslam Kərimov: "Azərbaycan xalqına həsəd aparıram, çünki onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi olan lideri vardır"; məşhur politoloq Zbiqnev Bjezinski: "Heydər Əliyev çox maraqlı sima, dünya miqyaslı liderlərdən biridir". Dahi şəxsiyyət haqqında deyilən dəyərli fikirlərdən kifayət qədər misal gətirmək olar.

Ermənipərəst qüvvələrin təsiri altına düşərək türk adına, millətinə qara ləkə olan Turqut Ərə təkcə bir faktı xatırlatmaq istərdik: xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev beynəlxalq aləmdə Azərbaycanın mövqeyini möhkəmlətdi, məhz onun əzmkarlığı sayəsində ölkəmiz dünya dövlətləri sırasında öz layiqli yerini tuta bildi. Dünyanın ən iri neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzalamaqla ölkəmizin indiki sürətli sosial-iqtisadi inkişafının möhkəm təməlini qoydu.

Cızma-qaralarında "demokratiya dərsi" keçən Turqut Ərə bildirmək istərdik ki, ümummilli lider Heydər Əliyev insan hüquq və azadlıqlarının təmin edilməsini və qorunmasını prioritet vəzifələrdən biri hesab edirdi. 1994-cü ildə əfvetmə institutunun və Prezident yanında Əfv Komissiyasının yaradılması ilə on minlərlə məhbusun azadlığa çıxması beynəlxalq aləmdə də yüksək qiymətləndirilmişdir. Bunun ardınca, Şərqdə ilk dəfə olaraq, ölüm hökmü məhz Azərbaycanda ləğv edilmiş, mətbuat üzərində senzura aradan qaldırılmışdır. Bu, insanların öz fikirlərini sərbəst ifadə etmələrinə, söz azadlığına, müstəqil mətbuatın fəaliyyətinə geniş meydan açmışdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur. Bütün bunlar ulu öndərin Azərbaycanda demokratik proseslərin inkişafına xüsusi önəm verməsinin, demokratiyanın bərqərar olunması sahəsindəki xidmətlərinin bariz göstəricisidir.

Başabəla diplomat Turqut Ərin "kitab"ının məhz Azərbaycanda növbəti parlament seçkiləri ərəfəsində işıq üzü görməsi təsadüfi deyildir. Dəfələrlə sübut olunmuşdur ki, Azərbaycanda keçirilən hər hansı seçkidən əvvəl bəzi xarici qüvvələr fəallaşır və ölkəmizin müstəqil, demokratik imicinə kölgə salmağa yönəlmiş ssenarilər həyata keçirməyə başlayırlar. Azərbaycan ilə Türkiyə arasında münasibətlərin möhkəmlənməsində müstəsna xidmətləri olmuş türk dünyasının liderləri Mustafa Kamal Atatürk və Heydər Əliyev hədəfə götürülür, onların haqqında həqiqətə uyğun olmayan, qərəzli, subyektiv mülahizələrə əsaslanan "məlumatlar" yayılır və tarixi həqiqətlər təhrif edilir. Biz bunu Turqut Ərin "kitab" adlandırdığı cızma-qarasında da gördük.

Turqut Ər Türkiyənin Azərbaycandakı səfirliyində fəaliyyət göstərdiyi illərdə öz işindən daha çox Azərbaycanın milli müstəqilliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş qüvvələrlə əlbir olub dövlətə qarşı törədilən təxribatlarda yaxından iştirak etmişdir. Onun "kitab"ında təsvir etdiyi hadisələr müəllifin subyektiv mülahizələrini və qərəzli siyasi mövqeyini açıq nümayiş etdirir.

Azərbaycanın müstəqilliyinin itirilməsi, ölkənin parçalanması təhlükəsini yaradan hadisələrə öz cızma-qaralarında "obyektiv yanaşdığını" iddia edərək, bu hadisələrdə əks mövqedə durması ilə zavallı Turqut Ər özü də dərk etmədən bu çirkin əməllərdə yaxından iştirakçı olduğunu, kimlərinsə

əlində alətə çevrildiyini təsdiq edir. Elə bu səbəbdən də o, Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu proseslərində Heydər Əliyevin tarixi rolu və ulu öndərin hakimiyyətdə olduğu illərdə ölkəmizdə gedən ictimai-siyasi proseslər haqqında əsassız, qərəzli və qeyri-obyektiv mülahizələr irəli sürür, bununla da, ictimai rəyi çaşdırmağa çalışır.

Ancaq Turqut Ər təkcə bununla kifayətlənmir, Heydər Əliyev ilə yanaşı, Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəli də hədəfə alır, onun fəaliyyətinə kölgə salan qərəzli iddialar irəli sürür, bununla da, ermənipərəst qüvvələrin sifarişini yerinə yetirdiyini bir daha təsdiqləyir.

Azərbaycanı üzləşdiyi qardaş qırğını, müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmaq üçün gecə-gündüz yorulmadan çalışan, hərc-mərcliyin hökm sürdüyü, onu cinayətkar dəstələrin ağalıq etdiyi bir ölkədən dünyanın ən sabit, dinamik inkişaf edən ölkəsinə çevirmiş bir şəxsə – xalqın xilaskarı ulu öndər Heydər Əliyevə qarşı çıxanların mövqeyində durmağın, onları müdafiə etməyin özü də Azərbaycana düşmən münasibətidir. Ermənipərəst qüvvələrin sifarişini yerinə yetirən "diplomat" Azərbaycan xalqını fəlakətə sürükləyən insanları dəstəkləmək, Azərbaycanın dövlətçilik tarixində, xalqımızın yaddaşında ən ağrılı, qara ləkə kimi qalmış hadisələrə öz cılız dünyagörüşü ilə qiymət vermək, hadisələri qəsdən təhrif etmək, yalanlar və iftiralar yağdırmaqla öyünən bu insan nə əcəb milli dövlətçiliyimizə qarşı yönəlmiş təxribatlarda öz rolundan da bəhs etmir?

Turqut Ər və ondan alət kimi istifadə edən qüvvələr başa düşməlidirlər ki, Azərbaycanın dövlətçilik, müstəqillik tarixində ulu öndər Heydər Əliyevin yerini tarix özü müəyyənləşdirmişdir. Azərbaycan xalqı isə bu tarixə ləkə salmağa yol verməyəcək, belə cəhdlərə qətiyyətlə "yox!" deyəcəkdir.

Azərbaycanın sərvətlərinin, enerji resurslarının dünya bazarına çıxarılması marşrutları müəyyən edilərkən ulu öndər Heydər Əliyev neftin nəqli yolunu məhz qardaş Türkiyəyə əmanət etmişdir. Göstərilən təzyiqlərə, etirazlara baxmayaraq, indi artıq reallıq olan Bakı-Tbilisi-Ceyhan neft kəməri Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunələrindən biridir.

Bu gün Azərbaycanda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə ümummilli lider Heydər Əliyevə olduğu qədər böyük ehtiram göstərilir. 2010-cu il mayın 17-də Bakının mərkəzi parklarından birində Mustafa Kamal Atatürkün abidəsinin açılışı olmuşdur. Həmin

mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı milli dəyərlərimizə dövlətlərimiz tərəfindən ən yüksək səviyyədə ehtiramın, diqqətin və qayğının əyani sübutudur. Bunu hamı – Azərbaycanın və Türkiyənin dostları da, düşmənləri də bilirlər. Məhz buna görə ikincilər əbədi, sarsılmaz qardaşlığa zərbə vurmaq üçün turqut ərlər kimi öz mənliklərini satan, düşmən dəyirmanına su tökən əqidəsiz insanlardan istifadə edirlər.

Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov məsələyə münasibət bildirərkən demişdir: "Türk dünyasının elə qiymətli dəyərləri vardır ki, onlara toxunmaq, bu barədə qeyri-etik yazılar hazırlamaq yolverilməzdir. Bütün mənalı ömrünü xalqlarımızın, dövlətlərimizin xilasına, tərəqqisinə həsr etmiş ulu öndərlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyev kimi tarixi şəxsiyyətlərimizin misilsiz xidmətlərinin üzərinə kütləvi informasiya vasitələrində kölgə salmaq cəhdləri heç kəsə başucalığı gətirməz. Belə yazılar Azərbaycanı və Türkiyəni, dövlətlərimizin liderlərini sevməyən qüvvələrin rəvac verdikləri yaramaz hərəkətlərdir. Turqut Ərin yazısı da bu qəbildəndir".

Turqut Ərin uydurmalarla dolu "kitab"ına Türkiyənin ictimai-siyasi xadimləri, ziyalıları, elm adamları və dövlət rəsmiləri də öz etirazlarını bildirmişlər. Qeyd etmişlər ki, Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev türk dünyasının böyük liderlərindən biri kimi Türkiyədə də həmişə hörmət və ehtiramla xatırlanacaqdır.

Hər iki xalqın, dövlətin qardaşlıq əlaqələrinin sarsılmazlığı barədə Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın sözlərini xatırlatmaq istərdik: "Azərbaycan-Türkiyə əlaqələrinin bənzərsiz mahiyyəti vardır. Təbii, Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" deyərkən ortaya qoyduğu həqiqət davam edir, bundan sonra da eynilə davam edəcəkdir. Bunu əminliklə söyləyə bilərəm ki, hakimiyyətə hansı iqtidar gəlirsə gəlsin, aramızdakı bu əlaqəni poza bilməz. Çünki bizim aramızdakı əlaqələr qurumların əlaqəsi deyildir. Bizim aramızdakı əlaqə millətlərin əlaqəsidir. Çinki biz ulu öndər Heydər Əliyevin dediyi kimi, bir millət, iki dövlətik. Bunu dərindən anlamaq lazımdır".

Turqut Ərin böhtan və qarayaxmalarla dolu olan "kitab"ı bizi təəccübləndirməməlidir. Çünki Azərbaycan və Türkiyənin arasını vurmaq cəhdləri,

dostluğumuzu, qardaşlığımızı sarsıtmaq istəyən qüvvələr həmişə olub, gələcəkdə də olacaqdır. Lakin həmişə də daş qayaya rast gəlmiş, bu əzəli dostluğu sarsıtmaq mümkün olmamış, bu işdə alət kimi istifadə edilənlər isə oyuncaq olaraq qalmışlar. Bu cür hərəkətlər Azərbaycanda heç bir ictimai fikir formalaşdırmayıb və formalaşdırmayacaq da. Çünki xalqımız bu cür yanaşmanı, belə yaramaz əməlləri qəbul etmir, düşmən dəyirmanına su tökənlərə nifrət edir.

Ümummilli lider Heydər Əliyevin ideyalarını böyük qətiyyətlə və yaradıcılıqla davam etdirən Prezidentimiz İlham Əliyevin düşünülmüş daxili və xarici siyasəti sayəsində Azərbaycanın qardaş Türkiyə ilə münasibətləri daha da möhkəmlənmiş, sarsılmaz olmuşdur. Heç şübhə etmirik ki, bu, gələcək illərdə, əbədiliyə qədər belə olacaqdır.

"Respublika", "Xalq qəzeti", 17 dekabr 2010-cu il.

Ümummilli lider Heydər Əliyevə ən yaxşı abidə günbəgün çiçəklənən Azərbaycandır

Müasir Azərbaycan tarixinin ən kədərli günlərindən biri olan 2003-cü ilin 12 dekabrından bizi yeddi il ayırır. Zaman bizi uzaq Klivlenddən kədərli xəbəri aldığımız gündən uzaqlaşdırdıqca ümummilli liderimiz Heydər Əliyevin şəxsiyyətinin böyüklüyünü, bənzərsizliyini, qüdrətini və müdrikliyini, xalqımız və dövlətimiz üçün gördüyü misilsiz işlərin əzəmətini daha dərindən dərk edirik. Dərk edirik ki, bu dahi insanın liderlik missiyası təkcə öz xalqı üçün deyil, bütövlükdə dünya üçün həlledici rol oynamışdır.

Dahi liderin siyasi portretinin mühüm cəhətlərindən söhbət açan akademik Ramiz Mehdiyev haqlı olaraq yazır: "Müasir dövrdə Azərbaycanda da, bütün postsovet məkanında da, hətta deyərdik ki, bütün dünyada da gedən prosesləri Heydər Əliyevin fəaliyyət dairəsindən kənarda təsəvvür etmək mümkün deyildir".

Bəli, bu, həqiqətən belə idi. Azərbaycanın dünyaya bəxş etdiyi bu nadir şəxsiyyətin, xarizmatik liderin fikri ilə bütün dünya hesablaşırdı. O, təkcə Azərbaycanda deyil, ölkənin hüdudlarından kənarda, həm Qərbdə, həm də Şərqdə heyrətamiz nüfuz qazanmışdı. ABŞ-ın sabiq prezidenti Corc Buş "Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm", Rusiya Federasiyasının Baş naziri Vladimir Putin isə "Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi" – deməkdə tamamilə haqlıdırlar.

Azərbaycan tarixinin 30 ildən artıq bir dövrü Heydər Əliyevin – müasir müstəqil Azərbaycan dövlətçiliyinin banisinin adı ilə bağlıdır. Çağdaş tariximizə "Heydər Əliyev epoxası" kimi daxil olmuş həmin dövrdə Azərbaycan böyük uğurlara imza atmışdır. Bu 30 ildə Heydər Əliyev Azərbaycanın ən tənəzzüllü dövrlərində hakimiyyətə gəlmiş və ölkəni inkişaf yoluna çıxarmışdır. Yaxın tariximizdə ulu öndər iki dəfə siyasətdə və dövlət idarəçiliyində səriştəsizliyə, geriliyə, anarxiyaya qətiyyətlə son qoymuşdur. Heydər Əliyev birinci dəfə də, ikinci dəfə də eyni şəraitdə – ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətdə hərc-mərcliyin yarandığı

dövrdə ölkəyə rəhbərlik etmiş, onu inkişaf relsləri üzərinə çıxarmışdır. O, öz xalqına, ölkəsinə xidmət etməyi özünün ən ali vəzifəsi hesab edirdi. O, həqiqətən tarixin qurucusudur, o, ölkəni qurmuş, dövləti yaratmış və möhkəmlətmişdir.

Sovet hakimiyyəti illərində Heydər Əliyev bütövlükdə sənayeni, neft və maşınqayırma komplekslərini modernləşdirmiş, texnoloji baxımdan yeni istehsal sahələri yaratmış, aqrar sahəni sürətlə inkişaf etdirmiş, yeni kadr potensialını formalaşdırmışdır və bununla da, müasir müstəqil Azərbaycan Respublikasının bünövrəsini qoymuşdur. Məhz Azərbaycanın gələcəyinə hesablanmış bu işlər müstəqilliyimiz üçün baza rolunu oynamışdır. Heydər Əliyev gələcəyi görməklə, onu proqnozlaşdırmaqla yanaşı, öz məqsədlərini ardıcıl olaraq, sarsılmaz bir əzmkarlıqla həyata keçirirdi. Onun ən ülvi arzusu isə Azərbaycanı azad, müstəqil, firavan, dünya birliyində layiqli yerlərdə görmək idi.

Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən o, doğma Azərbaycanda baş verən prosesləri bir an belə nəzərdən qaçırmırdı. O vaxt Moskvada topladığı təcrübə Heydər Əliyevin artıq müstəqil Azərbaycanda həyata keçirməyə başladığı nəhəng layihələrin – TRASEKA strateji nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri konsepsiyasının yaradılması üçün əsas olmuşdur.

Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın başının üstünü qara buludlar aldığı, ölkənin məhv olmaq təhlükəsi yarandığı dövrdə Heydər Əliyev xalqın təkidli tələbi və öz qəlbinin səsi ilə hakimiyyətə qayıtmış, gündəlikdə duran başlıca məsələləri – dövlətçiliyin məhv olmaqdan xilas edilməsi, müstəqilliyin möhkəmləndirilməsi, demokratik dövlət quruculuğu, cəbhədə atəşkəs rejiminə nail olunması, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması məsələlərini qətiyyətlə həll etmişdir. Dahi lider bu vəzifələri həsəd aparılası bir ardıcıllıqla yerinə yetirirdi.

Ulu öndər Azərbaycanın mükəmməl xarici siyasət konsepsiyasını işləyib hazırlamışdır. Ölkəmizin xarici tərəfdaşları açıq etiraf edirlər ki, Heydər Əliyev dövlətin xarici siyasət konsepsiyasını – Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən körpü rolunu möhkəmləndirən, ölkənin modernləşməsinin əsasını qoyan konsepsiyanı son dərəcə taraz-

laşdırılmış şəkildə quraraq, onu beynəlxalq inkişafın qlobal meyilləri ilə əlaqələndirmişdir. Müstəqil Azərbaycanda modernləşmə prosesi 1994-cü ildə aparıcı beynəlxalq neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasından başlanmışdır. Bu müqavilə milli iqtisadiyyatın inkişafına güclü təkan vermiş, onu keyfiyyətcə yeni çalarlarla zənginləşdirmişdir. Qısa müddətdə 22 beynəlxalq neft sazişinin imzalanmasına nail olan Heydər Əliyev bu layihələrin təkcə Azərbaycan və region üçün deyil, bütün Avropa üçün real və zəruri olmasına dünyanın maliyyə elitasını inandıra bilmişdi. O, cəbhədə qan tökülməsinə son qoymaqla, ölkədə möhkəm siyasi sabitlik yaratmaqla müstəqil Azərbaycan dövlətinin arxitekturasını qurmuş, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur.

Xalqımızın qədim dəyərlərinin, ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, tarixinin özümüzə qaytarılması xidmətləri məhz Heydər Əliyevə məxsusdur. Xilaskar liderin hakimiyyətə qayıdışı respublikamızda elmin və mədəniyyətin, ictimai və dövlət həyatının ən müxtəlif sahələrinin çiçəklənməsi ilə əlamətdar olmuşdur. Onun qayğı və diqqəti sayəsində yüzlərlə görkəmli elm və mədəniyyət xadimi, yaradıcı ziyalıların nümayəndələri öz istedad və qabiliyyətlərini inkişaf etdirmək və təkmilləşdirmək, öz potensiallarını maksimum üzə çıxarmaq imkanı əldə etmişlər. Heydər Əliyev elmi xalqın mənəvi həyatının ən mühüm elementi hesab edirdi. O bilirdi ki, vaxtında tətbiq edilmiş elmi-texniki nailiyyətlər və kəşflər dövlətə çox böyük fayda gətirir, iqtisadi və sosial həyat sahələrinin inkişafı üçün güclü stimula çevrilir. Buna görə o, qabaqcıl texnologiyaların tətbiqinə, elmin və istehsalın modernləşdirilməsinə, onların arasında əlaqələrin möhkəmləndirilməsinə həmişə tükənməz qayğı göstərirdi.

Ümummilli lider yüksəkixtisaslı kadr hazırlığına çox böyük əhəmiyyət verirdi. Hələ sovet dövründə yüzlərlə istedadlı gənc o vaxtkı böyük ölkənin ən qabaqcıl tədris müəssisələrinə təhsil almağa və təcrübə keçməyə göndərilirdi ki, respublikaya qayıdandan sonra əldə etdikləri bilikləri Vətənimizin naminə tətbiq etsinlər. O istəyirdi ki, Azərbaycan elmi müasir ideyaların, səmərəli axtarışların, elmi tədqiqatların güclü generatoruna çevrilsin.

İnformasiya blokadasının yarılmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında da ulu öndərin xidmətləri danılmaz-

dır. O, hər dəfə xarici ölkələrə səfərə gedəndə Dağlıq Qarabağın tarixən Azərbaycana mənsub olmasını sübut edən müxtəlif qədim və müasir xəritələri özü ilə aparır, bu və ya digər ölkənin hər bir dövlət xadimi ilə söhbətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəblərini və nəticələrini açıqlayır, jurnalistlər üçün bir növ ustad dərsləri keçir, hadisələri necə işıqlandırmağı, yazılarda hansı məqamlara xüsusi diqqət yetirməyi izah edirdi.

O, azərbaycançılıq ideologiyasını yaratmışdır. Məhz bu ideologiya sayəsində biz milli ideya, milli mənlik şüuru, millətin mədəniyyəti və digər mühüm anlayışları yeni tərzdə dərk etməyə başladıq. Xalqımızın vahid qüvvə kimi birləşməsində ulu öndərin xidmətləri ölçüyəgəlməzdir. Azərbaycan xalqına qarşı soyqırımı, onun deportasiyalara məruz qalması haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdıran məhz Heydər Əliyev olmuşdur. Bir sözlə, ümummilli lider Heydər Əliyevin əzmkarlığı sayəsində Azərbaycan haqqında tarixi həqiqətlərin bərpa edilməsi üçün çox böyük elmi tədqiqat işləri aparılmış və bunun nəticələri göz qabağındadır. Tam əminliklə demək olar ki, XX əsrin ikinci yarısında və XXI əsrin əvvəlində Azərbaycanın əldə etdiyi bütün uğurlar Heydər Əliyevin adı ilə ayrılmaz surətdə bağlıdır.

O, zamanın və taleyin mütləq mənada ehtiyac duyduğu, tarixin yeni mərhələsində, yeni sosial-siyasi və iqtisadi şəraitdə özünün çox böyük fitri lider potensialını reallaşdıra bilmiş bir şəxsiyyət idi. Bu, hər kəsə nəsib olmur və XX yüzillikdə ondan başqa heç kəsə nəsib olmamışdır.

Dünya şöhrətli siyasi və dövlət xadimindən – atasından estafeti qəbul etmiş Prezident İlham Əliyev bu gün ölkəni total modernləşmə, tərəqqi və firavanlığa doğru aparır. Heydər Əliyevin siyasi kursuna, demokratiya və müstəqillik ideyalarına sadiq olan İlham Əliyev ölkəmizin milli maraqlarını, ümummilli liderin yaratdığı azərbaycançılıq ideologiyasını ən yüksək səviyyədə müdafiə edir.

Elitar təfəkkürə malik olan Prezident cəmiyyətin bütün təbəqələrinin inamını qazanaraq sübut etmişdir ki, İlham Əliyev hakimiyyəti bütün Azərbaycan xalqının hakimiyyətidir. Azərbaycan Prezidentinin gördüyü işlər onun siyasi yetkinliyinə, nəinki ölkə miqyasında hadisələrin, həm də bütövlükdə geosiyasi prosesin inkişafının mümkün istiqamətlərini

öncədən görməsinə dəlalət edir. Bunun nəticəsidir ki, Azərbaycan dünyanın ən sürətlə inkişaf edən dövlətinə çevrilmiş, söz və nüfuz sahibi olmuşdur. İndi Azərbaycanın razılığı və iştirakı olmadan regionda heç bir layihəni reallaşdırmaq mümkün deyildir.

Hazırda Azərbaycan, sözün əsl mənasında, başdan-başa quruculuq meydanına çevrilmişdir. Azərbaycan dinamik inkişaf yolu ilə möhtəşəm zəfərlərə doğru irəliləyir. Bütün bu zəfərlərin qanunauyğun yekunu isə çiçəklənən, qüdrətli Azərbaycandır – həqiqətən millətin xilaskarı böyük Heydər Əliyevin arzuladığı Azərbaycan.

"Respublika", "Xalq qəzeti", 10 dekabr 2010-cu il.
"Bakinski raboçi" qəzeti, 11 dekabr 2010-cu il.

Azərbaycan yeni informasiya məkanında ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplər əsasında möhkəmlənir

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı sayəsində yaşadığımız dünyada yeni reallıqlar yaranmış, dövlətlər arasında sərhədlər "silinmiş", xalqlar arasında məsafə xeyli "kiçilmişdir". Peyk və internet şəbəkəsi fərdlərin, xalqların, dövlətlərin əlaqələrinin intensivləşməsində, keyfiyyətcə yaxşılaşmasında geniş imkanlar açmışdır. Hazırda Yer kürəsi vahid informasiya məkanına çevrilməkdədir.

Dövlətimizin dünya birliyinə inteqrasiyası sürətləndikcə, iqtisadi qüdrəti artdıqca "Azərbaycan" kəlməsi müxtəlif ölkələrin KİV-lərində daha tez-tez işlənir. Lakin inteqrasiya, iqtisadi qüdrət asanlıqla əldə edilməmişdir. Bundan ötrü, ilk növbədə, dövlətçilik bərqərar olunmalı, möhkəmləndirilməli idi.

Ölkəmizin inkişafının strateji xəttini müasir müstəqil Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyev müəyyənləşdirmişdir. Hamımızın yaxşı yadındadır: ilk dövrlərdə milli ideoloji xəttimizin müəyyən edilməsi zamanı müxtəlif təkliflər eşidilirdi. Türkçülüyə istinad etmək, dinə söykənmək və digər prinsipləri qəbul etmək təklifi ilə çıxış edənlər var idi. Amma bu təkliflərin hər biri yarımçıq idi, mükəmməl deyildi. Hansısa elementin çatışmaması və yarımçıq tezis inkişafa, ideoloji xəttə əngəl olardı. Bu prinsipləri tamamlamaq, inkişaf etdirmək və mütləqləşdirmək lazım idi. Bunu məhz ümummilli lider Heydər Əliyev etdi və Azərbaycanın ideoloji xəttinin aşağıdakı təməl prinsiplərini müəyyənləşdirdi: Birincisi, dövlətçilik. Yeni Azərbaycan Partiyasının yaranmasının 6 illiyi ilə bağlı keçirilən tədbirdə çıxış edən ulu öndər dövlətçiliyin nə olduğunu və nəyə görə ideologiyamızda bu amilə birinci yer verildiyini çox aydın şəkildə ifadə etmişdir: xalq üçün birinci onun dövlətidir, əgər dövlət yoxdursa, hansı ideologiya və prinsipdən danışmaq olar?

Ümummilli lider təməl prinsiplərində sonrakı yerdə qanunçuluğu müəyyən etmişdir: dövlət varsa, qanun olmalıdır. Əgər qanun yoxdursa, dövlət mövcud olmayacaq. Dövlət qanuna söykənməlidir. Dövlətin söykəndiyi qanun onun idarə edilməsinin əsas xətlərini və prinsiplərini

müəyyən edir. Bu qanunlar olmasa, idarəçilik olmayacaq. İdarəçiliksiz isə dövlətin gələcəyi təhlükə altına düşər.

Müdrik siyasət xadiminin müəyyən etdiyi təməl prinsiplərindən biri də varislikdir. Varislik dövlətin idarəçiliyində, siyasətdə, iqtisadiyyatda və ideologiyada prinsipial olaraq əldə edilənlərin gələcək nəsillərə ötürülməsidir. Varislik mexaniki deyil, yaradıcı şəkildə, təkamül yolu ilə baş verir. Yaradıcı varislik nəticəsində biz bu gün ümummilli liderimizin müəyyən etdiyi təməl üzərində Azərbaycanı irəliyə aparmaqdayıq. Yaradıcı varisliyin nəticəsidir ki, Azərbaycan özünün ideologiyasında, iqtisadiyyatında keçmişə söykənərək, gələcəyə doğru inkişaf etməkdədir. Bəzən varislik deyəndə kimlərsə hakimiyyət varisliyini önə çəkmək istəyir. Ancaq bu, hakimiyyət varisliyi, fərdi şəkildə varislik deyildir. Bu, hakimiyyətin ideoloji, siyasi, iqtisadi baxımdan gələcək nəsillərə ötürülməsidir.

Heydər Əliyevin müəyyən etdiyi digər prinsip azərbaycançılıqdır. Ümummilli liderimiz çox haqlı olaraq deyirdi ki, azərbaycançılıq söykəndiyimiz təməl prinsiplərinin əsasıdır. Hələ 1992-ci ildə YAP-ın proqramı qəbul edilərkən Heydər Əliyev azərbaycançılığı vacib məram kimi göstərmişdir. İndi dünyada yaşayan 50 milyon azərbaycanlını vahid ideya – azərbaycançılıq ideyası birləşdirir. Bu ideya bütün dünya azərbaycanlılarının, Azərbaycanda yaşayan bütün xalqların və Azərbaycan dövlətinin söykəndiyi əsas təməl prinsiplərindən biridir. Ölkəmizə düşmən olan Ermənistan bütün dünya ermənilərini erməni kilsəsi ətrafında birləşdiribdir. Biz isə bütün dünyada olan azərbaycanlıları azərbaycançılıq ideyası altında birləşdirmişik.

Azərbaycan dövlətinin çox vacib təməl prinsiplərindən biri də vətəndaş həmrəyliyidir. Məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda vətəndaş sülhünə nail olunmuşdur. Onun ölkədə vətəndaş qarşıdurmasını aradan qaldırmaq istiqamətində gördüyü tədbirlər, dövlət çevrilişi cəhdlərinin qarşısını alması, silahlı yolla hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyması və s. vətəndaş sülhünə yol açmışdır. Vətəndaş həmrəyliyi ölkəmiz üçün daimi prinsipdir. Çünki bu, bizim hamımızı birləşdirən amillərdən biridir.

Heydər Əliyevin müəyyən etdiyi digər bir prinsip isə sosial ədalətdir. Cəmiyyətdə sosial ədalət olmasa, qarşıdurma qaçılmazdır. Bütün cəmiy-

yətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Qədim müdriklərdən biri deyirdi ki, ən yaxşı dövlət o dövlətdir ki, orada nə yoxsul, nə də həddən artıq varlı vətəndaşlar var. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Davamlı islahatlar, sürətli inkişaf yolu, cəmiyyətdə insanların rifah halının yaxşılaşdırılması fonunda sosial ədalətin təmin olunması siyasi və iqtisadi vasitələrlə bu gün ölkəmizdə uğurla gerçəkləşir.

Müasir müstəqil Azərbaycan yeni informasiya məkanında məhz bu meyarlar əsasında möhkəmlənir, nüfuz qazanır, beynəlxalq münasibətlərə töhfələr verir.

Ümummilli lider həmişə vurğulayırdı ki, milli ideologiyamız tarixi keçmişimizə, adət-ənənələrimizə, xalqımızın mentalitetinə söykənməlidir. Bu, həqiqətən də belədir. Görkəmli filosof alim, akademik Ramiz Mehdiyev öz dəyərli əsərlərində bu prinsipi tarixi reallıq kontekstində əsaslandırır, ulu öndərin irəli sürdüyü məramlar əsasında yeni istiqamətlər müəyyənləşdirir. Azərbaycan xalqı məhz bu prinsiplərə söykənərək gələcəyə doğru inamla addımlayır, dövlətimiz inkişaf edir. Heç bir qüvvə ümummilli prinsiplərə zidd getməməlidir. Kimsə dini qabardıb fundamentalizmi ölkəmizə gətirmək, kimsə azərbaycançılığı kənara sıxışdırmaq istəyirsə, onun qarşısı mütləq alınmalıdır. Akademik Ramiz Mehdiyevin vurğuladığı kimi, Azərbaycanda Heydər Əliyevin müəyyən etdiyi ideoloji prinsiplərdən kənarlaşmaq qeyri-mümkündür. Necə ki, Türkiyədə heç bir siyasi dairə Atatürkün müəyyənləşdirdiyi prinsiplərdən imtina edə bilməz, ABŞ öz banilərinin müəyyən etdiyi Konstitusiya prinsiplərindən uzaqlaşa bilməz, Böyük Britaniya tarixi ənənələrinin ziddinə gedə bilməz, Yaponiya tarixi ənənələrindən kənara çıxaraq ölkəni başqa istiqamətə yönəldə bilməz, Azərbaycanda da Heydər Əliyevin müəyyən etdiyi təməl prinsiplərindən kənara çıxıla bilməz.

Azərbaycan Prezidenti İlham Əliyev bu prinsiplərə sadiqdir. Məhz bu sadiqlik, ümummilli liderimizin müəyyənləşdirdiyi siyasətin davam etdirilməsi ölkəmizə uğur qazandırmış, onu dünyanın nüfuzlu KİV-lərinin diqqət obyektinə çevirmişdir. Uğurlarımız xaricdə diqqətlə izlənilir. İnamla demək olar ki, Azərbaycan informasiya blokadasını yararaq, yeniləşmiş dünya informasiya məkanına daxil olmuşdur və erməni təbliğatına qar-

şı qətiyyətlə mübarizə aparır. Məlumdur ki, erməni təbliğat maşını yalan və iftira üzərində qurulan bir mexanizmdir. Bu gün ermənilər uydurma "erməni soyqırımı" haqqında danışır, Azərbaycan isə müxtəlif vasitələrlə dünya birliyinə Xocalı soyqırımı, azərbaycanlılara qarşı törədilən vəhşiliklər barədə həqiqətləri çatdırır. 1992-ci ildə Xocalıda ermənilər tərəfindən törədilən vəhşiliklərin soyqırımı olması artıq heç kimdə şübhə doğurmur. Bunun etiraf olunması isə başqa məsələdir.

Sonralar hətta düşmənlərimiz də etiraf etməyə məcbur olmuşlar ki, Heydər Əliyevin bu sahədə fəaliyyəti öz bəhrəsini vermişdir. Bədnam "Daşnaksütyun" partiyasının liderlərindən biri G.Kirakosyan demişdi ki, Heydər Əliyev Ermənistanla yanaşı, dünyada erməni lobbisini də sarsıtdı.

Həqiqətən də, Heydər Əliyev bu sahədə o vaxt heç kəsin – nə siyasətçilərin, nə təbliğat qurumlarının, nə də kütləvi informasiya vasitələrinin görə bilmədiyi işi gördü. Ümummilli liderin sayəsində Azərbaycan dünya informasiya məkanına, necə deyərlər, daimi qeydiyyata düşmüş və layiqli yerini tutmuşdur.

Bu gün ölkəmizin uğurlarından yazan əcnəbi jurnalistlər yekdilliklə etiraf edirlər ki, əgər Azərbaycan təhlükəsiz bir regionda yerləşsəydi, o, şübhəsiz, daha böyük uğurlar qazanardı. Möhkəm daxili sabitlik və təhlükəsizlik, yüksək səviyyəli dövlət idarəçiliyi, dünyəvi inkişaf xətti və Qərbə inteqrasiya Azərbaycanın uğurlarını təmin edən əsas amillərdir. Bir neçə il ardıcıl surətdə dünyada ən böyük iqtisadi artıma nail olmuş Azərbaycanda son altı ildə 840 min iş yerinin açılması, yoxsulluğun səviyyəsinin sürətlə azalaraq təqribən 49 faizdən 11 faizə düşməsi beynəlxalq mətbuatda dərc olunan materiallarda xüsusi vurğulanır. Eyni zamanda, bildirilir ki, Azərbaycan Qərbin enerji təhlükəsizliyinə böyük töhfə verir.

Təkcə mətbuat deyil, beynəlxalq maliyyə qurumları da Azərbaycanda iqtisadi inkişaf sahəsində görülən işləri yüksək qiymətləndirir. Dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycanda hətta böhran ilində – 2009-cu ildə də uğurlar qazanılmış, bütün infrastruktur layihələri, sosial proqramlar icra edilmişdir. Ötən ilin də yekunlarına görə, Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələr sırasında olmuşdur. Keçən il Azərbaycanda ümumi daxili məhsul 9,3 faiz, sənaye istehsalı 8,6 faiz, kənd təsərrüfatı 3,5 faiz artmış, inflyasiyanın səviyyəsi 1,5 faiz olmuşdur. Artıq Azərbaycan

xaricdən sərmayə alan ölkədən sərmayə yatıran ölkəyə çevrilmişdir. Son bir ildə ölkəmizə 9,2 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da 7,3 milyardı daxili sərmayələrdir. Hazırda Azərbaycanın valyuta ehtiyatları 20,4 milyard dollara bərabərdir. Bu uğurlar dünya informasiya məkanında inkişafın Azərbaycan modeli kimi qiymətləndirilir, ölkəmizin təcrübəsinin öyrənilməsindən yazılır. Bu baxımdan tanınmış macar iqtisadçısı, İqtisadi Modelləşdirmə və Proqnozlaşdırma Mərkəzinin aparıcı elmi işçisi Jolt Şomloinin fikirləri xüsusi maraq doğurur. Doktor Şomloi fevralın 25-də AzərTAc-ın müxbiri ilə söhbətində demişdir: "Dünya maliyyə-iqtisadi böhranından ciddi zərər çəkmiş Macarıstan üçün Azərbaycanın təcrübəsini öyrənmək çox maraqlıdır. Azərbaycan son ilyarımda sənaye cəhətdən inkişaf etmiş ölkələrin demək olar ki, hamısını sarsıtmış çətinliklərdən bacarıqla yan keçmiş və həmin böhrandan daha da bərkimiş halda çıxmışdır. Bu sınaqdan uğurla çıxmış ölkələr azdır və onlardan biri də Azərbaycandır. Bu baxımdan, Azərbaycanın təcrübəsini, ölkənizdə aparılan islahatları öyrənmək, uğurlarınızın sirrini aydınlaşdırmaq bizim üçün çox maraqlıdır. Azərbaycanın büdcə siyasətini öyrənmək bizim üçün xüsusilə maraqlıdır. Fikrimcə, bu siyasət çox diqqətlə düşünülmüş və risklərdən qorunmuşdur".

Əcnəbi jurnalistlər ölkəmizdən yazarkən dövlətimizin başçısının şəxsiyyətindən, dövlətçiliyimizin inkişafındakı rolundan da bəhs edirlər. ABŞ-da çıxan "Fortune" qəzeti yazır ki, Prezident İlham Əliyev ölkənin inkişafında, əhalinin təhsil səviyyəsinin yüksəldilməsində, ölkəyə Qərb həyat tərzinin gətirilməsində maraqlıdır. Bu baxımdan Azərbaycanın indiki cavan Prezidenti İlham Əliyevi alqışlamaq olar. İlham Əliyev MDB ölkələrinin liderlərindən üstünlüyünü sübut etmişdir.

Fransanın "La Tribune" qəzetindəki yazıda isə deyilir: "Öz ölkəsini Avropaya tamamilə yaxınlaşdırmaq səylərinə görə İlham Əliyevi alqışlamaq lazımdır. İlham Əliyevin Avropa İttifaqı ilə əməkdaşlıq istiqamətində göstərdiyi səylər öz bəhrəsini vermişdir. Qafqazşünas politoloqların bir çoxu hesab edir ki, Qafqazın və Mərkəzi Asiyanın digər ölkələrinə nisbətən Azərbaycan Aİ-yə daha yaxındır".

Əcnəbi jurnalistlər onu da vurğulayırlar ki, İlham Əliyev ikinci prezidentlik müddətinə seçilməkdə xalqın etimadını qazanmaqla tam mənada tarixi şəxsiyyətə çevrilir, özü də təkcə Qafqaz miqyasında yox. İlham Əliyev

hakimiyyətə əsasən aqrar ölkə olan, resursların və potensialların meqapolis və regionlar arasında qeyri-mütənasib bölündüyü, lakin zəngin xammal potensialına malik Azərbaycanı fundamental şəkildə modernləşdirmək ideyaları ilə gəlmişdir.

Yeni informasiya məkanında Azərbaycanın "vətəndaşlıq qazanmasının" əsas səbəblərindən biri iqtisadiyyatının ölçülərinə görə Qafqazda birinci yeri tutmasıdır. İqtisadiyyatın biliyə əsaslandığı şəraitdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı intellektual və elmi potensialın mühüm göstəricilərindən biridir. Eyni zamanda, indiki qloballaşan dünyada dövlətlərin rəqabətə davamlılığını, ilk növbədə, informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi formalaşdırır. Məhz bunu nəzərə alaraq, ümummilli lider Heydər Əliyev 2003-cü ildə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nı təsdiq etmişdi. Prezident İlham Əliyev isə "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nı təsdiqləmişdir. İnformasiya texnologiyalarının inkişaf səviyyəsinə görə Azərbaycan MDB ölkələri arasında liderdir. Dünya İqtisadi Forumu tərəfindən 2007-2008-ci illər üçün hazırlanmış "İnformasiya texnologiyalarının qlobal inkişafı haqqında hesabat"da Azərbaycan dünyanın ən qabaqcıl ölkələri sırasında yer tutur.

Bu ilin yanvarında ABŞ-ın nüfuzlu internet qəzeti "Haffinqton Post" tanınmış amerikalı politoloq, Kaliforniyanın "Tool Shed Group LLC" analitik mərkəzinin eksperti Ceyson Katzın "İncəliklə oynanılan oyun" sərlövhəli məqaləsini dərc etmişdir. Məqalədə bildirilir ki, Şərq-Qərb enerji dəhlizinin fəaliyyətinin təmin edilməsində mühüm rol oynayan Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələri, xüsusilə də Bakı-Tbilisi-Ceyhan neft kəməri Qərb ölkələri üçün çox böyük əhəmiyyət daşıyır. Müəllif qeyd edir ki, dünyəvilik və dözümlülük baxımından nümunə olan, öz siyasətində Qərbə inteqrasiya yolunu tutmuş Azərbaycan istər iqtisadi, istərsə də diplomatik məsələlərdə ABŞ-la müttəfiqlikdən irəli gələn bütün vəzifələri yerinə yetirir. Lakin təəssüf ki, rəsmi Vaşinqton bunu kifayət qədər qiymətləndirmir və Azərbaycana qarşı çox vaxt laqeydlik göstərir. Bu isə Azərbaycanda ABŞ-a qarşı münasibətin soyuqlaşmasına gətirib çıxara bilər. Müəllif vurğulayır ki, Azərbaycan Türkiyə-Ermənistan münasibətləri-

nin normallaşmasına və iki ölkə arasında bu məqsədlə imzalanmış protokollara qarşı çıxmır. Əslində, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Ermənistan ilə dialoq aparır. Azərbaycanı narahat edən əsas məsələ ondan ibarətdir ki, ABŞ siyasətçiləri və diplomatları "normallaşma" prosesinə xüsusi önəm verməklə, regionda real qeyri-sabitlik yaradan əsas məsələni arxa plana keçirirlər. Azərbaycan, sadəcə, Türkiyənin Ermənistanla münasibətlərinin normallaşması prosesinin Dağlıq Qarabağ münaqişəsinin həllində əldə ediləcək irəliləyişdən asılı olacağına əmin olmaq istəyir. Reallıq isə bundan ibarətdir ki, Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisidir və bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı doğma yurd-yuvasından didərgin salınmışdır. BMT, Avropa İttifaqı kimi nüfuzlu təşkilatlar, eləcə də ABŞ Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Buna görə də münaqişənin həllinə biganəlik göstərilməməli, əksinə, onun həlli istiqamətində səylər daha da artırılmalıdır.

Məqalədə deyilir ki, Azərbaycan dəfələrlə dünya ictimaiyyətinin diqqətini regiondakı problemlərə biganə münasibət bəslənilməsinin təhlükəli nəticələr doğura biləcəyinə cəlb etməyə çalışsa da, onun bu çağırışları gözlənilən nəticəni vermir. Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycan rəhbərliyi üçün nə dərəcədə əhəmiyyət daşıması da, təəssüflər olsun ki, kifayət dərəcədə qiymətləndirilmir. Müəllif bildirir ki, Azərbaycan haqqında məlumat əldə etmək istəyən hər bir kəs bu ölkənin öz milli maraqlarından çıxış edən olduqca praqmatik bir ölkə olduğunu öyrənər. ABŞ siyasətçiləri Qafqaz və Avrasiya ilə bağlı xarici siyasətdə strateji yanaşma tətbiq etməli və yaxın deyil, ən azı 20 il sonrakı tarixi nəzərə almalıdırlar. ABŞ-ın regiondakı problemlərin həllinə töhfəsi, şübhəsiz ki, müsbət nəticələr verə bilər. Müəllif xüsusi olaraq vurğulayır ki, Azərbaycan kimi bir dostun itirilməsi ABŞ-ın xarici siyasəti və maraqları üçün böyük zərbə ola bilər.

Azərbaycanın yeni informasiya məkanında öz mövqeyini möhkəmləndirməsində, ölkəmizin üzləşdiyi problemlər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Bakıda keçirilən beynəlxalq tədbirlərin, bu tədbirlərdə xarici kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı böyük rol oynayır. Bu mənada Azərbaycanın birinci xanımı,

UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və prezidenti olduğu Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə və onun hüdudlarından kənarda keçirilən beynəlxalq tədbirlərdə dünyanın nüfuzlu informasiya qurumlarının nümayəndələrinin iştirakını xüsusi qeyd etmək lazımdır. Fondun təşəbbüsü, UNESCO-nun və İSESCO-nun dəstəyi ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun gücləndirilməsi" mövzusunda beynəlxalq forum, "Muğam aləmi" beynəlxalq festivalı və elmi simpozium, Qəbələdə beynəlxalq musiqi festivalı, Brüsseldə Avropa Parlamentinin mənzil-qərargahında "Azərbaycan mədəniyyəti günləri" və s. tədbirlər Azərbaycanın milli informasiya məkanında möhkəmlənməsinə layiqli töhfələr vermişdir. Bu baxımdan yanvarın 22-23-də Bakıda keçirilmiş Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Təkcə onu demək kifayətdir ki, bu tədbirdə Rusiya Federasiyasının "Kommersant", "İzvestiya", "Komsomolskaya pravda", "Selskaya jizn", "Rossiyskaya qazeta" kimi geniş oxucu auditoriyası olan populyar qəzetlərinin rəhbərləri, aparıcı teleradiokanalların təmsilçiləri iştirak edirdilər. Bu forum Azərbaycan həqiqətlərinin yayılması, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün geniş meydan açmışdır. Qonaqlar Azərbaycan Dövlət Teleqraf Agentliyində – AzərTAc-da keçirilən mətbuat bölməsinin işində də iştirak etmişlər. Rusiya KİV-lərinin görkəmli nümayəndələri agentliyin işi ilə tanış olmuş, əməkdaşlarla söhbət etmiş, müasir jurnalistikanın bir sıra mühüm problemləri barədə fikir mübadiləsi aparmış, forum barədə fikirlərini bölüşmüşlər. Onlar Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün bu tədbirin çox böyük əhəmiyyətini vurğulamışlar.

Ölkəmizin yeni informasiya məkanında möhkəmlənməsində 2010-cu ilin martında özünün 90 illiyini qeyd edən Azərbaycan Dövlət Teleqraf Agentliyinin də xidmətlərini xatırlamamaq olmaz. Yubiley mərasimində dünyanın nüfuzlu milli informasiya agentliklərinin 40-a yaxın nümayəndəsinin iştirakı. Azərbaycanın beynəlxalq informasiya məkanına inteqrasiyasını təsdiq edən faktlardan biridir. Prezident İlham Əliyev yubiley mərasimində iştirak edən nümayəndə heyətlərinin başçılarını qəbul edərkən demişdir ki, ölkələr və xalqlar arasında qarşılıqlı anlaşmaya daha geniş imkanlar açan

informasiya agentliklərinin, kütləvi informasiya vasitələrinin fəaliyyətindən çox şey asılıdır. Həqiqi məlumatın vaxtında verilməsi operativ qərarların qəbulu, proseslərin düzgün şərh edilməsi, ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasında mühüm rol oynayır. Memarı və qurucusu Heydər Əliyev olan müstəqil Azərbaycanın inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq yaradıcılıqla davam etdirilməsi nəticəsində respublikamızın dünyanın ən sürətlə inkişaf edən dövlətinə çevrilməsi, mövqeyinin möhkəmlənməsi AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsinə, onun dünya informasiya məkanına inteqrasiyasına müsbət təsir göstərən amillərdən biridir. İndi dünyanın tanınmış xəbər agentlikləri AzərTAc ilə əməkdaşlığa böyük maraq göstərir.

Artıq regional və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edən AzərTAc-ın təşkilatçılığı ilə 2008-ci il aprelin 30-u – mayın 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclası keçirilmişdir. Hazırda TKA-da AzərTAc sədrlik edir. 2008-ci il sentyabrın 1-4-də isə AzərTAc-ın ev sahibliyi ilə OANA İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclası keçirilmişdir. İlk dəfə idi ki, dünyanın 20-dən çox ölkəsindən ən nüfuzlu xəbər agentliklərinin rəhbərləri və yüksək vəzifəli təmsilçiləri respublikamıza gəlmişdilər. Azərbaycanın ictimai həyatında mühüm hadisə olan bu toplantının əhəmiyyəti həm də onda idi ki, OANA və EANA-nın tarixində ilk dəfə olaraq bu qurumların rəhbərləri tədbirdə birlikdə iştirak edirdilər. Azərbaycan Prezidenti İlham Əliyevin iclas iştirakçılarını qəbul etməsi qonaqlarda çox böyük təəssürat doğurmuşdur.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan reallıqlarının yayılma coğrafiyasının genişləndirilməsi ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. İndi tam məsuliyyətlə deyə bilərik ki, ümummilli liderin bu arzusu da reallığa çevrilmişdir. Azərbaycan qloballaşan dünyanın yeni informasiya məkanında öz yerini tutmuşdur və bunu getdikcə möhkəmləndirir.

"Azərbaycan" qəzeti, 5 may 2010-cu il.

AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının carçısına çevrilmişdir

Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın 90 yaşı tamam olur. Şərqdə ilk xəbər agentliklərindən biri olan AzərTAc-ın yaranması bilavasitə Xalq Cümhuriyyəti hökumətinin adı ilə bağlıdır. Ötən 90 ildə AzərTAc mürəkkəb, eyni zamanda şərəfli bir yol keçmiş, bütün çətinliklərə baxmayaraq, həmişə xalqımıza, Azərbaycana xidmət etmişdir. Bu xidmətə ən layiqli qiyməti verən ümummilli liderimiz Heydər Əliyev demişdir: "AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının carçısına çevrilmişdir".

AzərTAc-ın tarixinə qısa ekskursda "mürəkkəb və şərəfli yol" ifadəsi bədii ritorika kimi qəbul edilməməlidir. Agentliyin təkcə adının 7 dəfə dəyişdirilməsinin, – 1920-ci ildə AzərTAc, yenə də həmin ildə AzQafROSTA, 1921-ci ildə AzərTA, 1923-ci ildə ZaqTA, 1936-cı ildə yenidən AzərTA, 1972-ci ildə Azərinform, nəhayət, 1992-ci ildə AzərTAc, – özü keçilmiş tarixi yolun mürəkkəbliyini təsdiq edən faktlardan biridir. Həmçinin bu yol kəşməkəşli olduğu qədər də şərəflidir – AzərTAc bütün zamanlarda xalqımıza və dövlətimizə sədaqətlə xidmət etmiş, Vətənimizin adını dünyada ucaltmışdır.

AzərTAc belə yaranmışdır

1919-cu il martın 3-də Xalq Cümhuriyyəti hökumətinin – Nazirlər Şurasının iclasında Azərbaycan Teleqraf Agentliyinin təşkili barədə məsələ müzakirə olunmuşdur. Bu barədə Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin məruzəsi dinlənilmiş, xalq maarif naziri Nəsib bəy Usubbəyova Azərbaycan Teleqraf Agentliyinin təşkil edilməsi tapşırılmışdır.

1919-cu ilin ikinci yarısında Poçt və Teleqraf Nazirliyinin nəzdində Azərbaycan Teleqraf Agentliyinin yaradılması haqqında qanun layihəsi, qurumun əsasnaməsi hazırlanmışdır. Layihədə AzərTAc-ın məqsəd və vəzifələri, 1920-ci il üçün gəlirlər və xərclər smetası müəyyənləşdirilmişdir.

AzərTAc-ın yaradılmasında məqsəd Azərbaycan Respublikasının dövlət təsisatlarını, mətbuat orqanlarını, ictimai təşkilatlarını Avropa, Asiya və Amerikanın siyasi mərkəzlərindən alınan məlumatlarla təmin etmək, eyni zamanda, Azərbaycan Respublikasının ictimai, hərbi, iqtisadi həyatı,

hökumətin fəaliyyəti və parlamentin işi haqqında məlumatları Qafqaz və Avropa ölkələrinə, əyalətlərə göndərmək idi. Layihəyə görə, agentlik qarşıya qoyulan vəzifəni gerçəkləşdirmək üçün aldığı məlumatlar əsasında gündəlik "Bülletenlər", ən vacib informasiyalar əsasında isə "Xəbərlər" hazırlamalı və sərəncamında olan vasitələrdən istifadə etməklə onları yaymalı idi. Agentliyin 1920-ci il yanvarın 1-dən fəaliyyətə başlayacağı nəzərdə tutulurdu.

Lakin məlum olmayan səbəblər üzündən agentlik həmin tarixdə fəaliyyətə başlamamışdır. Nəhayət, 1920-ci il martın 2-də "Azərbaycan" qəzetində ilk dəfə olaraq "AzərTAc" imzası ilə xəbərlər dərc olunmuşdur. Qəzetin 3 mart tarixli nömrəsində isə "AzərTAc-ın daxili xəbərləri" adı altında Şuşa, Qaryagin (indiki Füzuli) və Xankəndidən alınmış qısa xəbərlər verilmişdi. Martın 9-da yenə həmin qəzetdə AzərTAc-ın 7 mart tarixli 7 nömrəli bülletenindən "Gürcüstana yardım" sərlövhəli xəbər dərc olunmuşdur. Bu fakt agentliyin məhz 1920-ci il martın 1-də fəaliyyətə başladığını bir daha təsdiq edir. Sonuncu xəbərin özü də maraqlıdır və gənc Azərbaycan hökumətinin humanist təbiətini göstərir. Orada deyilir ki, Nazirlər Şurası zəlzələdən zərər çəkmiş Gürcüstan əhalisinə maddi yardım göstərmək üçün Maliyyə Nazirliyinə hökumətə 2 milyon manat vəsait ayrılması haqqında qanun layihəsi hazırlayaraq, parlamentin təsdiqinə verməyi tapşırmışdır.

Təxminən bir ay sonra, 1920-ci il martın 25-də Azərbaycan Teleqraf Agentliyindən Xalq Maarif Nazirliyinə göndərilmiş 17 nömrəli təliqə qurumun məhz martın 1-də yarandığını təsdiq edən daha bir tutarlı dəlildir. Təliqədə hökumətin 1 mart tarixli qanununa uyğun olaraq, Poçt və Teleqraf Nazirliyinin nəzdində Azərbaycan Teleqraf Agentliyinin yaradıldığı və onun formalaşma dövrü yaşadığı qeyd olunmuşdur. Bundan əlavə, təliqədə aprel ayının 1-dən etibarən hökumət tabeliyində olan müəssisələrdən və vəzifəli şəxslərdən AzərTAc-ın bülletenlərinə abunə yazılışının başlanacağına dair məlumat da yer almışdır.

İlk addımlar

AzərTAc-ın xəbər bülletenləri, bayram günləri də daxil olmaqla, hər gün Azərbaycan və rus dillərində buraxılırdı. Bülletenlərdə gənc dövlətdə baş verən mühüm hadisələr işıqlandırılır, hökumətin gördüyü işlər tarixin yad-

daşına yazılırdı. Bülletenlərdə Moskva, Paris, Bəsrə, Roma, Tiflis, Daşkənd, Şimali Qafqaz, Zakaspi, Qara dəniz sahilləri radiostansiyalarından, eləcə də telefon, teleqraf və müxbirlərdən alınan xəbərlər dərc olunurdu.

Agentliyin texniki imkanlarına gəldikdə, onun sərəncamında həm "sönən", həm "sönməyən" rəqs tipli stansiyalarla təchiz olunmuş avadanlıq var idi. Bu da ona hər iki radiostansiyadan göndərilən informasiyanı qəbul etməyə imkan verirdi. Təşkilati işlər tamamlanandan sonra agentlik başqa mənbələr istisna olmaqla təkcə radiostansiyaların köməyi ilə 40 min işarə həcmində informasiya qəbul edirdi.

Lakin agentlik cəmi iki aya yaxın fəaliyyət göstərə bildi. Bolşevik Rusiyasının işğalı nəticəsində 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduğu ilk aylarda AzərTAc formal olaraq öz müstəqilliyini qoruyub saxlasa da, əslində Rusiya Teleqraf Agentliyinin (ROSTA) bir filialı kimi fəaliyyət göstərirdi. Bölgələrdən göndərilən xəbərlər istisna olmaqla, AzərTAc qalan bütün xəbərləri ROSTA-dan alırdı.

Agentliyin ROSTA-nın bir bölməsi kimi rəsmi status alması 1920-ci il iyunun 9-na, Nəriman Nərimanovun "Azərbaycan Mərkəzi Mətbuat Kollegiyası yaradılması haqqında" dekreti imzalamasından sonraya təsadüf edir. Həmin dekretlə o vaxt fəaliyyət göstərən ROSTA-nın Qafqaz diyar şöbəsinin Azərbaycan bölməsi (AzQafROSTA) aparıcı şöbələrdən biri hüququnda Kollegiyaya daxil edilir. İnformasiya işinin təşkilində Kollegiyanın sədri, tanınmış jurnalist Ağababa Yusifzadənin böyük rolu olmuşdur.

AzQafROSTA-nın fəaliyyəti təkcə Bakı ilə məhdudlaşmır, respublikanın digər şəhərlərində də (Gəncə, Şuşa, Lənkəran və s.) qurumun bölmə və məntəqələri fəaliyyət göstərirdi. Həmin məntəqələr nəinki yerlərdə baş verən hadisələr haqqında mərkəzə məlumat göndərir, eyni zamanda, özləri də daxili imkanlarından istifadə etməklə informasiya xarakterli divar qəzetləri və təşviqat plakatları buraxırdılar. Bu işdə görkəmli rəssam Əzim Əzimzadə də yaxından iştirak edirdi.

O zaman AzQafROSTA Bakının Milyutinski küçəsindəki (indiki Tərlan Əliyarbəyov) keçmiş bankın binasında yerləşirdi. Burada işlər gecə-gündüz, hətta istirahət günləri belə səngimək bilmədən davam edirdi. Həftənin bütün günü bu qurumun ünvanına onlarla teleqram və radioqramlar daxil

olur, onların əsasında bülletenlər hazırlanaraq respublikanın mətbu orqanlarına, partiya təşkilatlarının rəhbərlərinə, mədəniyyət müəssisələrinə göndərilirdi. Daha vacib xəbərlər AzQafROSTA-nın buraxdığı informasiya bülletenlərində respublika daxilində yayılır, ən maraqlı xəbərlər isə ölkədən kənara göndərilirdi.

1921-ci ildə QafRostanın bazasında AzərTA təşkil olunandan sonra Azərbaycan musiqi mədəniyyəti tarixinin, o cümlədən Üzeyir Hacıbəylinin yaradıcılığının məşhur araşdırıcılarından biri kimi tanınmış Qubad Qasımov iyulun 14-də agentliyin direktoru təyin edilir. Qubad Qasımov xatirələrində bu barədə yazırdı: "1921-ci ildə məni yeni informasiya orqanının direktoru təyin etdilər. O vaxt mən hərbi hissələrdən birində döyüşçülər arasında savadsızlığın ləğvi üzrə fövqəladə komissiyaya başçılıq edirdim. Siyasi və mədəni iş sahəsində müəyyən səriştəm olsa da, jurnalist təcrübəm yox idi. O zaman gənc Azərbaycan Sovet Respublikasında kadrlar problemi ən kəskin məsələlərdən biri idi və belə gözlənilməz təyinatlar adi hal sayılırdı. Ona görə də tamamilə yeni və olduqca məsul işi çox tezliklə öyrənmək lazım gəlirdi. İnformasiyanı yaymaq üçün texniki imkanlar son dərəcə məhdud idi və mümkün olan bütün üsullardan istifadə etməyə çalışırdıq".

Ümumiyyətlə, 1922-ci ildə SSRİ-nin təşkilindən sonra digər respublikaların informasiya agentlikləri kimi, AzərTA da əslində Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) filialına çevrilmişdi. Lakin maddi-texniki imkanların dövrün tələblərinə cavab verməməsi agentliyin fəaliyyətində, operativliyin təmin edilməsində bir çox çətinliklər yaradırdı. Agentliyin 50 illiyinə həsr olunmuş kitabda həmin illərdə təşkilatın qarşılaşdığı çətinliklər belə təsvir edilmişdir: "Baş verən hadisələr barədə xəbərlər Bakıya uzun müddət SİTA vasitəsilə və özü də ancaq ümumi istifadədə olan teleqrafla daxil olurdu. ...Agentliyin redaktorları "teleqraf dilini" ümumi dilə çevirir, sonra makinaçılar düzəldilmiş mətni yığır, həmin mətn yenə də diqqətlə oxunur, rotatorda çoxaldılır və yalnız bundan sonra SİTA xəbərləri qəzet redaksiyalarına göndərilirdi. Yerli mətbuat üçün geniş materiallar hazırlandığı günlərdə redaksiya masalarında teleqraf blankları qalaqlanır və materialların içində itib-batmış redaktoru bu qalağın arxasında görmək heç də asan olmurdu".

Zaqafqaziya Federasiyası yarandıqdan sonra 1923-cü ilin martında üç Cənubi Qafqaz respublikasının informasiya agentlikləri ZaqTA adı altında

birləşdirildi. 1936-cı ildə isə AzərTA yenidən müstəqil informasiya orqanı kimi fəaliyyətini bərpa etdi.

Bütün bunlar Azərbaycan Teleqraf Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı məsələlər idi. Agentliyin fəaliyyətinin heç də az əhəmiyyətli olmayan tərəfi, əlbəttə ki, AzərTA müxbirlərinin işi idi. Onlar Azərbaycan xalqının – fəhlə və kəndlilərin, alimlərin, mədəniyyət, maarif... xadimlərinin fədakar əməyi sayəsində respublikamızda baş verən böyük dəyişikliklərin salnaməsini yaradırdılar.

Qanlı-qadalı illərdə

Faşist Almaniyasının SSRİ-yə qəfil hücumu dinc quruculuq işlərini dayandırdı. O vaxtkı böyük ölkənin, o cümlədən Azərbaycanın həyatı müharibə ab-havasına kökləndi və yalnız bir ümdə məqsədə – Qələbə üçün və Qələbə naminə mümkün olan və olmayan bütün işləri görməyə istiqamətləndirildi.

Müharibənin, demək olar, ilk günlərindən Moskva ilə əlaqələr kəsildiyi üçün AzərTA bütün xəbərləri yenə də adi teleqrafla, sonra isə hətta radio vasitəsilə alırdı. Agentliyin bütün əməkdaşları gecə-gündüz iş başında idilər. AzərTA-nın hərbi müxbirləri bilavasitə döyüşlərin getdiyi ön cəbhədən hazırladıqları reportajları agentliyə göndərirdilər. Qələmini silaha çevirərək, Azərbaycan Teleqraf Agentliyinin vəsiqəsi ilə qanlı-qadalı cəbhə yollarında irəliləyənlər arasında Azərbaycanın Rəsul Rza, Qılman Musayev, Abbas Zamanov, Cəmşid Əmirov, Nüsrət Bağırov, Mixail Pleskaçevski kimi və digər adlı-sanlı nümayəndələri də var idi. İstedadlı alim, Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov da "Qızıl ordu" cəbhə qəzetinə redaktor müavini göndərilmişdi və eyni zamanda, AzərTA-nın hərbi müxbiri idi. Onların qışın şaxtasında, yayın qızmarında güllə yağışı altında səngərlərdə yazdıqları, Azərbaycan övladlarının Böyük Vətən müharibəsi cəbhələrindəki hünərlərindən bəhs edən xəbərləri AzərTA dərhal yayır, bunlar radioda səslənir, mətbuat səhifələrində dərc edilirdi.

Hərbi müxbir kimi cəbhə bölgəsinə yollanan Xalq şairi Rəsul Rza agentliyin və onun əməkdaşlarının fədakarlığı haqqında xatirələrində yazırdı: "...41-ci ilin axırında respublikamızın ictimaiyyətinin nümayəndə heyətinin tərkibində mən Novorossiyskə gəldim, burada qoşunlar Krıma

desant çıxarmağa hazırlaşırdılar. Hərbi birləşmələrdə çoxlu azərbaycanlı vardı. Səməd Vurğun və mən bir neçə gün ərzində on dəfələrlə döyüşçülər qarşısında çıxış etdik. Elə o vaxt mən özümü hərbi müxbir kimi sınamağı qərara aldım...

Azərbaycanlılardan ibarət hərbi hissələrin olduğu Krım cəbhəsinə siyasi işçilərdən ibarət qrup göndərilirdi. Qrupa məni də daxil etdilər. AzTAq-ın rəhbərliyi ilə razılaşmaya əsasən, mənə hərbi müxbir sənədləri verdilər. Ertəsi gün axşam mən sevimli şəhərimlə – cəbhənin əsas yanacaq bazası olan Bakı ilə vidalaşdım.

Zahirən Bakını xatırladan Kerç şəhəri ilk andan mənə yaxın və doğma göründü. Almanlar hər gün şəhəri bir neçə dəfə bombalayırdılar...

Tez-tez ön xəttə gedir, yeraltı qazmalarda, səngərlərdə 396-cı Azərbaycan diviziyasının komandirləri və əsgərləri ilə gecələməli olurduq. Azərbaycan Teleqraf Agentliyinin hərbi müxbiri olduğumu təsdiqləyən sənəd mənə ordunun rabitə idarəsinə getməyə imkan verirdi. Hərbi teleqrafla Krım cəbhəsi döyüşçülərinin hünərləri barədə qısa xəbərlər, həmyerlilərimin igidliyindən bəhs edən kiçik oçerklər göndərirdim.

Xeyli vaxt Bakıdan məlumat almırdım, yazılarımın çatıb-çatmadığını bilmirdim. İki aydan sonra Bakıdan cəbhə materiallarımın dərc edildiyi bir bağlama qəzet alanda necə sevindiyimi təsəvvür etmək olar".

AzərTA respublika nəşrlərini cəbhə xəbərləri ilə təmin etməklə bərabər, arxa cəbhədəki insanların qəhrəmanlığı, onların Qələbə naminə fədakar və vətənpərvər əməyi haqqında cəbhə üçün informasiyalar da yayırdı. Xüsusi buraxılışlar üçün nəzərdə tutulan və cəbhə qəzetlərinə göndərilən bu yazıların qəhrəmanları "mühərriklər müharibəsində" həlledici rol oynayan "qara qızıl" çıxaran neftçilər, cəbhə üçün çox yüksək oktanlı benzin və digər neft məhsulları alınması üçün laboratoriyalarda tədqiqatlar aparan alimlər, silah, döyüş sursatı və texnikası istehsal edən maşınqayıranlar idi.

Təəssüf ki, Azərbaycanın bu Qələbəyə töhfəsini nə o vaxtkı, nə də sonrakı sovet rəhbərliyi layiqincə qiymətləndirdi. Halbuki bu töhfə misilsiz idi. Təkcə onu xatırladaq ki, 1941-45-ci illərdə ölkədə çıxarılan neftin 75 faizə qədəri, aviasiya benzini və digər neft məhsulları istehsalının 85-90 faizi Azərbaycanın payına düşürdü. Yəni o zaman Bakı nefti olmasaydı, bəlkə də müharibənin necə qurtaracağını təsəvvür etmək mümkün deyildi.

Müharibədən sonrakı illərdə iqtisadi, ictimai-siyasi, mədəni həyatdakı nailiyyətlər yenidən AzərTA-nın materiallarının başlıca mövzusu idi. Agentliyin respublikanın həyatının müxtəlif sahələrindən, Xəzərin qəhrəman neftçilərinin, pambıqçıların əmək qələbələrindən, Bakının, Sumqayıtın və digər şəhərlərimizin yeni tikintilərindən, Azərbaycan alimlərinin elmi axtarışlarından, incəsənət ustalarının uğurlarından, nəhayət, ictimai-siyasi həyatdakı dəyişikliklərdən bəhs edən müxtəlif informasiyaları SİTA vasitəsilə İttifaq və xarici ölkə mətbuatına verilirdi.

XX əsrin 70-ci illəri və ya dönüş mərhələsində

1969-cu ilin iyulunda Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlməsi respublikanın həyatında dönüş mərhələsinin başlanğıcı oldu. Həmin dövrdə Azərbaycan sosial-iqtisadi həyatın bütün sahələrində sovet respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. İqtisadiyyatı bütövlükdə böhran keçirən respublikanı ağır vəziyyətdən çıxarmağın yollarını axtarıb tapmaq, prinsipcə yeni konseptual səviyyədə yanaşma əsasında inkişaf planlarını işləyib hazırlamaq, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparmaq və digər tədbirlər görmək lazım idi. Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan bütün sahələrdə sürətli inkişafa nail oldu. O, yaxşı başa düşürdü ki, millətin siyasi müstəqilliyini onun iqtisadi azadlığı şərtləndirir. Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti Azərbaycan iqtisadiyyatının hərtərəfli və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Ona görə də inamla deyə bilərik ki, müasir Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun dünya iqtisadiyyatına daha dərin inteqrasiyası məhz 1970-ci illərdə – 1980-ci illərin əvvəlində təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

O illər Azərbaycanda həm də milli ruhun və milli özünüdərkin dirçəlməsi dövrü idi. Bu baxımdan təhsilin, elmin, mədəniyyətin inkişafına böyük diqqət yetirilirdi. Təbii ki, belə bir vaxtda mətbuat da diqqətdən kənarda qala bilməzdi.

Azərinform o dövrdə SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəz idi. Bu qurumun əməkdaşları SİTA briqadalarının tərkibində xarici ölkələrə gedir, orada

işləyərək bilavasitə hadisə yerlərindən – bu və ya başqa ölkədə keçirilən Azərbaycan günlərindən, Azərbaycanın fırça ustalarının sərgilərinin açılışından, mədəniyyət ongünlüklərindən və digər tədbirlərdən birbaşa xəbərlər verirdilər.

1972-ci ilin iyununda respublika Nazirlər Sovetinin qərarı ilə Azərbaycan İnformasiya Agentliyi – Azərinform adlandırılan agentlik o dövr üçün müasir texniki avadanlıqla da təchiz olunmuşdu. Əlbəttə, o dövrdə bu, heç də asan məsələ deyildi. Lakin Heydər Əliyevin şəxsi nüfuzu, qüdrəti bütün sədləri aşmağa imkan verirdi. SİTA kimi dünyanın nəhəng informasiya maşınının sükançıları artıq SSRİ rəhbərliyinin də böyük hörmət və rəğbət bəslədiyi, hesablaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı uğurlar barədə Azərinformun hazırladığı xəbərləri dünyaya yaymağa, agentliyə hər cür kömək göstərdiklərini sübut etməyə çalışırdılar. Məhz ötən əsrin 70-ci illərində SİTA özünün Moskvadakı baş ofisini kompyuterləşdirməyə başlayanda, Heydər Əliyevə hörmət əlaməti olaraq, ittifaq respublikaları arasında Ukrinformdan sonra Azərinformu o dövrün müasir "Olivetti" markalı kompyuterləri ilə təchiz etmişdir. Beləliklə, 1970-1980-ci illərdə o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlıqları ilə təchiz edilən Azərinform keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə ön mövqeyə çıxmağa nail oldu.

Maddi, mənəvi, siyasi və ideoloji dayaqsız

1982-ci ildən Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifə tutan Heydər Əliyevin 1987-ci ildə "səhhətinə görə" istefaya göndərilməsi M.Qorbaçov başda olmaqla, mərkəzin Azərbaycana qarşı yönəldilmiş riyakar siyasətinin həyata keçirilməsi yolunda ilk addım oldu. Daim Azərbaycan torpaqlarına göz dikən erməni millətçilərinin və onların Kremldəki havadarlarının əl-qolu açıldı. Digər tərəfdən də, Mərkəzə yarınan o vaxtkı respublika rəhbərliyinin xalqa zidd siyasəti Azərbaycanda ictimai-siyasi vəziyyəti son dərəcə kəskinləşdirmişdi.

Elə buna görə də ötən əsrin 80-ci illərinin axırları – 90-cı illərinin əvvəlləri Azərinformun əməkdaşları üçün çox ciddi siyasi kamillik, vətəndaş cəsarəti, vətənpərvərlik sınağı oldu. Maddi, mənəvi, siyasi və ideoloji dayaqlardan məhrum olan Azərbaycan mətbuatı çətin problemlərlə üzüzə qaldı. Ağır illərdə Azərbaycanda baş verən hadisələrə keçmiş İttifaq məkanında və ümumən dünyada formalaşmış qərəzli münasibətin əsas səbəblərindən biri bu idi.

1990-cı ilin yanvar günlərində, sovet imperiyası qoşunlarının Azərbaycana soxularaq, vahid ölkənin tərkibinə daxil olan respublikanın dinc əhalisinə tarixdə görünməmiş vəhşiliklə divan tutduğu, qəzetlərin çıxmasına imkan verilmədiyi, enerji bloku təxribatçılar tərəfindən partladıldığına görə radio və televiziyanın susduğu günlərdə insanlar son hadisələrdən ancaq agentliyin Bakının müxtəlif yerlərində divarlara yapışdırılan bülletenlərindən xəbər tuturdular.

Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması və sonradan Ermənistanın hərbi təcavüzü müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın silahlı münaqişəyə cəlb olunmasına gətirib çıxardı. Xaricdəki güclü erməni lobbisinin, bəzi dövlətlərin birbaşa maliyyə və hərbi dəstəyinə arxalanan Ermənistanın Azərbaycan torpaqlarının bir hissəsini işğal etməsi, bir milyondan çox qaçqın və məcburi köçkün ordusunun yaranması ölkəni humanitar fəlakət qarşısında qoymuşdu. Belə bir şəraitdə Azərinformun müxbirləri həm də döyüş bölgələrinə, doğma yurdlarından didərgin düşmüş insanların müvəqqəti məskunlaşdıqları çadır düşərgələrinə gedərək materiallar hazırlayır və ölkəmizin fəlakətli vəziyyəti barədə həqiqəti beynəlxalq ictimaiyyətə çatdırmağa çalışırdılar.

Həmin illərdə Azərinformun və "Azərbaycan" nəşriyyatının səyi ilə müxtəlif nəşrlər – Ermənistanın beynəlxalq normalara zidd, təcavüzkar siyasətini, onun qədim Azərbaycan torpağı olan və ermənilərin yalnız XIX əsrin 30-cu illərindən sonra, çarizmin təşəbbüsü ilə məskunlaşdığı Dağlıq Qarabağa əsassız, o vaxtkı sovet rəhbərliyi tərəfindən dəstəklənən iddialarını ifşa edən kitablar da buraxılırdı. Beyinləri "dənizdən-dənizə" Ermənistan dövləti yaratmaq barədə cəfəng ideya ilə zəhərlənmiş erməni millətçi-separatçılarının qərəzli niyyətlərindən qaynaqlanan hadisələrin əsl mahiyyəti, demək olar ki, ilk dəfə məhz bu kitablarda tam çılpaqlığı ilə açılıb göstərilirdi.

Müstəqillik illərində və ya yenidən Heydər Əliyevin himayəsi altında

Azərbaycan dövlət müstəqilliyini elan etdikdən bir qədər sonra, 1992-ci il dekabrın 18-də Azərinformun tarixi adı bərpa olundu və o, Azərbaycan Teleqraf Agentliyi – AzərTAc adlandırıldı. Lakin Azərbaycanın o vaxtkı rəhbərliyi agentliyin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması barədə düşünmədi. Halbuki zaman agentliyin işinin yeni dövrün tələblərinə cavab verən maddi-texniki baza əsasında və dünya standartları səviyyəsində qurulmasını və təkmilləşdirilməsini tələb edirdi. Bunun üçün isə, ilk növbədə, maliyyə vəsaiti lazım idi. Lakin həmin dövrdə büdcə vəsaitindən əslində məhrum edilən AzərTAc ağır günlərini yaşamağa məcbur olmuşdu.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin yayında xalqın təkidi ilə yenidən respublikanın siyasi rəhbərliyinə qayıdışı Azərbaycanı xilas etdi, dövlət müstəqilliyinin itirilməsi təhlükəsi aradan qalxdı. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti, müdrikliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərpa olundu, iqtisadi böhran aradan qaldırıldı, ölkə tədricən inkişaf yoluna çıxdı.

1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə imzalanmış, Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsinin əsasını qoymuş, "Əsrin müqaviləsi" adlanan ilk neft müqaviləsi və sonrakı müqavilələr ölkənin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Ölkənin inkişaf yolunu dəqiq müəyyən edən Heydər Əliyev Ermənistanın və erməni lobbisinin Azərbaycana qarşı məkrli təbliğatının yaratdığı informasiya blokadasını qırdı, gənc müstəqil Azərbaycan dövlətinin dünya birliyində layiqli yerini tutmasına, ölkəmiz haqqında əsl həqiqətlərin dünyaya bəyan edilməsinə nail oldu.

Cəmiyyətin həyatında mətbuatın, o cümlədən informasiya agentliyinin rolunu yüksək qiymətləndirən Heydər Əliyev müstəqil Azərbaycanın dövlət informasiya orqanının işinin müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət yetirirdi. AzərTAc isə bu işdə agentliyə həmişə xüsusi qayğı ilə yanaşan ümummilli liderimizin layiqli köməkçisi olmağa çalışır, Azərbaycan həqiqətlərini yaymaqla ölkəmizi dünyaya tanıdırdı.

1996-cı il iyunun 29-da isə "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Prezidentin Sərəncamı verildi və onun icrası ilə əlaqədar Nazirlər Kabinetinin müvafiq qərarı qəbul olundu. Həmin qərarla işin spesifik xüsusiyyətləri nəzərə alınmaqla AzərTAc-ın maddi-texniki bazası yaxşılaşdırıldı, onun fəaliyyətini gücləndirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirildi, agentliyin tarixində ilk dəfə olaraq ABŞ, İran, Almaniya, Fransa, Türkiyə, London, Aşqabad, Tiflis, Moskva və Daşkənddə müxbir məntəqələri açıldı, xarici dillərdə xəbər hazırlayan və yayan baş redaksiya yaradıldı.

Görülən bu işlər nəticəsində AzərTAc-ın fəaliyyətində də əsaslı dəyişikliklər baş verdi. Texniki təminatın yüksəldilməsi agentliyin işində səmərəliliyin yüksəlməsinə, informasiyanın qəbulu, emalı və ötürülməsində operativliyin artmasına səbəb olmuşdur.

Nəticədə əvvəlki illərlə müqayisədə buraxılan informasiyaların sayı on dəfədən çox artmışdır. Yeri gəlmişkən, hazırda agentlik gün ərzində Azərbaycan, rus və ingilis dillərində orta hesabla 350 min işarədən çox informasiya və 30-40 foto buraxır.

2000-ci il yanvarın 17-də, AzərTAc-ın 80 illiyinin yaxınlaşdığı bir vaxtda Prezident Heydər Əliyev AzərTAc-ın fəaliyyətinin təkmilləşdirilməsi barədə Fərman imzaladı. Bu, dövlət başçısının ölkədə informasiya xidmətinə necə böyük əhəmiyyət verməsinə daha bir parlaq misal idi. Yubileylə bağlı Azərbaycan Prezidentinin Sərəncamları ilə agentliyin əməkdaşlarının bir qrupu təltif olundu.

Prezident Heydər Əliyevin 80 illik yubiley ərəfəsində agentliyin kollektivinə ünvanladığı təbrik məktubunda deyilirdi: "1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyir. Müstəqilliyimizin daha da möhkəmləndirilməsində, ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edən köklü islahatların, baş verən mütərəqqi dəyişikliklərin, Ermənistanın respublikamıza təcavüzü ilə yaranmış mürəkkəb sosial-iqtisadi və insani problemlərin açılmasında, beynəlxalq aləmə yayılmasında AzərTAc-ın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür. Lakin elmi-texniki tərəqqinin media üçün, xüsusən elektron informasiya vasitələrinin hüdudsuz inkişafı üçün yaratdığı bütün imkanlar hər gün yeniləşməli və dünya elminin bu sahədəki nailiyyətlərinin geniş tətbiqini tələb edir. Odur ki, AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır".

Qlobal informasiya məkanında

2005-ci il AzərTAc-ın tarixinə əlamətdar il kimi daxil olmuşdur – agentlik özünün 85 illiyini qeyd etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin yubiley ərəfəsində – fevralın 28-də imzaladığı Sərəncamla AzərTAc-ın əməkdaşlarından 13 nəfəri "Tərəqqi" medalı ilə təltif edilmiş, 5 nəfərə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilmişdir. Bu, ümummilli liderimiz Heydər Əliyevin AzərTAc-a diqqət və qayğısının Prezident İlham Əliyev tərəfindən davam etdirilməsinin parlaq nümunəsi, agentliyin fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Dinamik sosial-iqtisadi yüksəliş yoluna çıxan müstəqil Azərbaycanın həyatının bütün sahələrində baş verən köklü dəyişikliklər AzərTAc-ın xəbərlərinin əsas mövzusudur. Demokratik vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla irəliləyən, dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən, özünün zəngin təbii resurslarını dünyaya açan və Avropanın enerji təhlükəsizliyinə töhfəsini əsirgəməyən ölkəmizin bütün bu sahələrdəki uğurları barədə informasiyalar AzərTAc-ın kanalları ilə təkcə respublika daxilində deyil, həm də xaricdə geniş yayılır.

Müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatının elə bir sahəsi yoxdur ki, AzərTAc-ın xəbərlərində müntəzəm olaraq öz əksini tapmasın. Mövzular, janrlar, coğrafiya dəyişir, yalnız bir prinsip – hazırlanan informasiyanın əzəli və əbədi prinsipi dəyişməz qalır. Bu, faktların geniş ictimai əhəmiyyəti, doğru-düzgünlüyü, dəqiqliyi və xəbərlərin operativliyidir.

AzərTAc-ın zəngin informasiya və fotoarxivinin qorunduğu ən müasir server qurğusu və tamamilə yeniləşdirilmiş saytı vardır. Saytda təxminən hər iki dəqiqədən bir üç dildə – Azərbaycan, rus, ingilis dillərində materiallar yerləşdirilir. 2004-cü ilin əvvəlində AzərTAc-ın saytı Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet səhifəsində yerləşdirilmişdir.

AzərTAc-ın buraxdığı xəbərləri respublika mətbuatı, informasiya agentlikləri, səfirliklər, müxtəlif təşkilatlar bütün gün ərzində e-mail vasitəsilə alırlar.

Memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycanın inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq yaradıcılıqla davam etdirilməsi nəticəsində respublikanın regionda lider dövlətə çevrilməsi, dünyada mövqeyinin möhkəmlənməsi AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsinə, onun dünya informasiya məkanına inteqrasiyasına müsbət təsir göstərən amillərdən biridir.

Hazırda AzərTAc-ın xarici ölkələrdə, respublikanın bölgələrində 20 müxbir məntəqəsi fəaliyyət göstərir. Xarici məmləkətlərdəki müxbirlərimiz təkcə həmin ölkələrin deyil, region dövlətlərinin də həyatında baş verən yenilikləri operativ surətdə Azərbaycan oxucusuna çatdırmağa səy göstərirlər. Biz çalışırıq ki, bu iş birtərəfli istiqamətdə getməsin. Xaricdəki müxbirlərimiz həm də Azərbaycan haqqında ən önəmli informasiyaları çalışdıqları ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırırlar.

Hazırda AzərTAc-ın dünyanın istənilən ölkəsi ilə birbaşa əlaqə saxlamaq, informasiya mübadiləsi aparmaq üçün ən müasir texniki imkanlara malik bazası, ən mükəmməl elektron poçt şəbəkəsi və internet saytı vardır. İndi hər gün AzərTAc-ın internet saytına dünya üzrə 10-12 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər. Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Rumıniyanın, İranın, Bolqarıstanın, Çinin, Qazaxıstanın, Ukraynanın, Koreya Respublikasının, Küveytin, Macarıstanın, İndoneziyanın, Serbiyanın, Misirin, Albaniyanın, Latviyanın, Belarusun, Moldovanın, İordaniyanın, Monqolustanın, Qırğızıstanın, Tacikistanın aparıcı informasiya agentlikləri

ilə əməkdaşlıq müqavilələri vardır. Bu müqavilələrin bir çoxu Azərbaycan Prezidenti İlham Əliyevin xaricə səfərləri zamanı dövlət və hökumət rəhbərlərinin iştirakı ilə imzalanmışdır.

Bundan əlavə, AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. 2004-cü ilin sentyabrında AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü olmuşdur. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə edir. 2007-ci il dekabrın 12-də isə OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən iclasında AzərTAc bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvü seçilmişdir. 2008-ci ildən AzərTAc Asiya Xəbər Agentlikləri Konsorsiumunun ("AsiaPulse") üzvüdür. AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilməsi agentliyimizin həyatında ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir. Beləliklə, agentliyimiz postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi və həmin təşkilatın sayca 31-ci üzvü olmuşdur.

AzərTAc-ın təşkilatçılığı ilə Bakıda beynəlxalq təşkilatların bir sıra iclasları uğurla təşkil edilmişdir. 2008-ci il aprelin 29-u – mayın 3-də müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin "Türkdilli ölkələrin əlaqələrinin inkişafında xəbər agentliklərinin əməkdaşlığının rolu" mövzusunda VII iclası keçirilmişdir.

İclasda AzərTAc-ın, Türkiyənin Anadolu Ajansının, Qazaxıstanın Kazinform, Qırğızıstanın "Kabar", Şimali Kiprin TAK agentliklərinin, habelə qonaq qismində Rusiya Federasiyasının Tatarıstan və Başqırdıstan respublikalarının "Tatarinform" və "Başinform" agentliklərinin, Ukraynanın Krım Muxtar Respublikasından "Krım xəbərləri" agentliyinin rəhbərləri, Türk İşbirliyi və İnkişaf Agentliyinin (TİKA) təmsilçiləri iştirak etmişlər.

İclasda bir sıra mühüm qərarlar qəbul edilmişdir. Bizim təklifimizlə Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyinin adının dəyişdirilərək, Türkdilli Xəbər Agentlikləri Birliyi adlandırılması ilə bağlı təklifi müzakirələrdən sonra qəbul edilmişdir. Məhz bu qərarın qəbulundan sonra Rusiya Federasiyasının Tatarıstan və Başqırdıstan respublikalarının müvafiq olaraq "Tatarinform" və "Başinform" agentlikləri, Ukraynanın Krım Muxtar Respublikasından "Krım xəbərləri" agentliyi Birliyə üzv qəbul olunmuşlar. Həmin iclasda TKA-nın Baş Məclisinə sədrlik AzərTAc-a verilmişdir. Bunlar iclasın rəsmi yekun sənədində öz əksini tapmışdır. TKA Baş Məclisi VII iclasının materialları Azərbaycan və rus dillərində ayrıca kitab halında nəşr edilmişdir.

Həmin il sentyabrın 1-4-də Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının – OANA-nın İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclasına AzərTAc ev sahibliyi etmişdir. İlk dəfə olaraq, 21 ölkənin milli informasiya agentliklərinin rəhbərləri və yüksək vəzifəli təmsilçiləri Azərbaycan paytaxtına gəlmişdilər. İclasda OANA-nın prezidenti, İndoneziyanın Antara agentliyinin baş icraçı direktoru Əhməd Muxlis Yusuf və üzv agentliklərin rəhbər və yüksək vəzifəli təmsilçiləri ilə yanaşı, AzərTAc-ın dəvəti ilə Avropa Xəbər Agentlikləri Alyansının – EANA-nın prezidenti, Avstriyanın APA agentliyinin baş icraçı direktoru Volfqanq Vislozil, Bolqarıstanın BTA agentliyinin baş direktoru, Fransanın Frans Press agentliyinin departament rəhbəri, habelə İordaniyanın PETRA agentliyinin nümayəndəsi də iştirak etmişdir. AzərTAc-ın ilk dəfə həyata keçirdiyi bu təcrübə iclas iştirakçıları tərəfindən rəğbətlə qarşılanmış, gələcəkdə bu təcrübədən istifadənin məqsədəuyğun olduğu bildirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclas iştirakçılarına təbrik məktubu göndərmiş, sentyabrın 2-də onları qəbul etmişdir. İclas çərçivəsində "Mədəniyyət", "Təbiət" və "İdman" nominasiyalarında fotomüsabiqə keçirilmişdir. Qaliblərə OANA-nın və AzərTAc-ın xüsusi diplomu və qiymətli hədiyyələri təqdim edilmişdir. İclasın materialları Azərbaycan, ingilis və rus dillərində ayrıca kitab halında nəşr edilmişdir.

Agentliyimiz 2004-cü ildə İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafatına, 2005-ci ildə isə

Madriddəki biznes təşəbbüsü mərkəzinin xüsusi keyfiyyət və yüksək texnologiya üçün "Avropaya qapı" beynəlxalq qızıl mükafatına layiq görülmüşdür. Əməkdaşımız Osman Kərimovun fotosu İspaniyada dünyanın 90 ölkəsinin aparıcı informasiya agentlikləri fotomüxbirlərinin işlərinin təqdim olunduğu müsabiqənin "Bayram" nominasiyasında münsiflər heyətinin yekdil qərarı ilə birinci yeri tutmuşdur.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan reallıqlarının yayılma coğrafiyasının genişləndirilməsi ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. İndi tam məsuliyyətlə deyə bilərik ki, ümummilli liderin bu arzusu da reallığa çevrilmişdir.

"Azərbaycan" qəzeti, 28 fevral 2010-cu il.
AzərTAc-90. Bakı, "Şərq-Qərb", 2011-ci il.

İnformasiya həyat deməkdir

Hər gün oxucuların əlinə milyonlarla qəzet səhifəsi düşür. Yüzlərlə informasiya agentliyi insanları planetimizin bütün guşələrindən alınan xəbərlərlə tanış edir. Minlərlə televiziya qülləsi, onlarca kosmik peyk sayəsində biz dünyanın müxtəlif ölkələrində baş verən hadisələrin şahidləri oluruq. Müasir aləmdə mətbuatın, xəbər agentliklərinin, radio və televiziyanın əhəmiyyətini lazımınca qiymətləndirmək, sadəcə qeyri-mümkündür. Onlar öz təsiri ilə tarixdə görünməmiş sayda insanları əhatə etməklə çox güclü bir vasitəyə çevrilmişlər.

Kütləvi informasiya vasitələri mövzusuna birbaşa və ya dolayısı ilə aidiyyəti olan tədqiqatların çoxu onların səmərəsinin, cəmiyyətin həyatında KİV-lərin rolunun, ayrıca bir insanın və ya bütöv bir sosiumun dünya görüşünə təsirinin artırılması problemlərinə həsr edilmişdir.

KİV-lərin səmərəliliyi. Bu göstərici jurnalistlərin müraciət etdiyi auditoriyanın xüsusiyyətlərinin nə dərəcədə nəzərə alınmasından asılıdır. Səmərəlilik auditoriya haqqında dəqiq biliklərə malik olmağı tələb edir. Bu halda əsas meyar qismində auditoriyanın informasiyaya maraqları və tələbatı çıxış edir, qarşıya qoyulan məqsədlər isə müasir tarixin fəal oyunçuları haqqında konkret təsəvvürlərə və ictimai inkişaf qanunlarının başa düşülməsinə əsaslanmalıdır.

İnformasiyaya tələbat ictimai fikrin real vəziyyətini, potensial auditoriyanın predmet haqqında malik olduğu biliklərin, düzgün və dəqiq qərarların seçilməsi üçün bu auditoriyanın malik olması zəruri olan məlumatlarla müqayisəsi zamanı üzə çıxır. Məhz o vaxt aydın olur ki, hansı bilikləri, ideyaları, dəyərləri dəstəkləmək və inkişaf etdirmək, auditoriyanın şüurunda nələri yenidən qurmaq, nələri sıxışdırıb çıxarmaq, hansı suallara cavab vermək, oxucuların informasiya baxımından "dünya mənzərəsini" nə ilə tamamlamaq lazımdır.

Deməli, KİV-lərin səmərəliliyi auditoriyanın müəyyən vaxtda və müəyyən şəraitdə obyektiv informasiyaya tələbatı nəzərə alınmaqla qarşıya qoyulmuş məqsədlərin reallaşması dərəcəsi ilə müəyyən edilir. Buna görə də auditoriyanın informasiyaya tələbatını bilmək sosiologiya üçün, bu tələbatın təmin edilməsi isə KİV-lər üçün zəruridir. Tamaşaçısız artist

olmadığı kimi, oxucusuz, dinləyicisiz, tamaşaçısız KİV-lər də yoxdur. İnsan bütün həyatı boyu KİV-lərlə ayrılmaz şəkildə əlaqəli olur. Onlar insanın şəxsiyyətinin formalaşmasına çox güclü təsir göstərir. KİV-lərin yaydığı informasiya fərdə təsir göstərir. Təsirin çevik və mütəmadi, şəxssiz, vasitəli xarakteri onun səciyyəvi cəhətləridir.

KİV-lərin permanentliyi onların təsirinin mühüm xüsusiyyətidir. Lakin eyni xarakterli informasiyanın uzun müddət və ya daim qəbul edilməsi insanın mənəvi aləminin formalaşmasına güclü təsir göstərir. KİV-lərin şəxsiyyətə təsir mexanizmi həm ailənin maddi-predmet mühiti üçün, həm də həyat tərzini müəyyənləşdirən insani münasibətlərin, dəyərlərin və maraqların formalaşmasında nümunə rolu oynaya biləcək modellərin, ictimai normaların yayılmasından ibarətdir.

Bəs, oxucunun marağını necə idarə etməli? Müxtəlif nəşrlər və informasiya agentlikləri oxucunun daim artmaqda olan tələbatını təmin etmək üçün kommunikativ imkanlardan geniş istifadə edirlər. İnsan mətbuata müraciət edərkən, ilk növbədə, baş verən əhvalatları daha dərindən başa düşməyə, həyatın qanunauyğunluqlarından baş çıxarmağa çalışır, yalnız bundan sonra hər hansı utilitar faydalı informasiya əldə etmək, asudə vaxtını mənalı keçirmək arzusu yaranır. Bu motivlər və üstünlüklər nəzərə alınmaqla mətbuatın fəaliyyəti hadisələr barəsində informasiyanın ümumi şəkildə təqdim edilməsi, faktların ciddi şərhi və həyatın fundamental qanunauyğunluqlarına müraciət edilməsi ilə səciyyəvi olmalıdır. Bundan əlavə, informasiyanın praktikiyönümlü olması vacibdir, istirahətə oriyentasiya isə fon kimi istifadə edilə bilər.

Lakin mətbuatın elə xassələri vardır ki, onlara görə o, digər kommunikasiya vasitələrindən geri qalır. İnformasiya agentlikləri informasiyanı praktiki olaraq fasiləsiz və operativ verə bildikləri halda, mətbuat öz texnologiyasına görə nəşr nömrələrinin və kitabların diskret şəkildə buraxılmasına məhkumdur. Dövri mətbuatın buraxılış tezliyi gündə bir dəfədən ildə bir dəfəyə qədər dəyişir. Əlbəttə, təcili informasiya daşıyan qəzetləri gündə bir neçə dəfə də buraxmaq olar, lakin bu həmin qəzetlərin çap edilməsi və çatdırılması ilə bağlı çətinliklərlə müşayiət olunur.

Son onillikdə ümumdünya kompyuter şəbəkəsi şəklində informasiya kanalı fəal inkişaf edir. Kütləvi informasiya bu şəbəkədə mühüm yer tutur.

Söhbət qəzetlərin elektron versiyalarından və daycestlərdən, real zaman rejimində operativ işləyən informasiya agentliklərinin saytlarından gedir. İnternet yaranana qədər informasiya agentlikləri auditoriyaya bilavasitə özlərinin informasiya məhsulunu təqdim etmək imkanından məhrum idilər. Bu məhsullar teletayp, faksimile rabitəsi, elektron şəbəkələr, poçt və digər rabitə vasitələri ilə operativ informasiya lenti, xüsusi xəbər buraxılışları, tematik paketlər, ekspress-buraxılışlar, həftəliklər şəklində ötürülən məlumatlar idi. Lakin informasiya agentliklərinin məhsulları efirə və ya mətbuata, bir qayda olaraq ilkin şəkildə verilmir. Hər bir nəşr, radiostansiya, televiziya xəbər xidməti öz auditoriyası üçün alınmış informasiyanı adaptasiya edir.

İnternet yaranandan sonra informasiya agentliklərinin fəaliyyəti transformasiyaya məruz qalmışdır. Onlar öz internet serverlərini yaratmaqla özlərinin informasiyasını yaymaq üçün vasitəçi müştərilərdən yan keçir və özləri bir sıra fərdi tipoloji əlamətlərə: auditoriyaya, daxili struktura, müvafiq janrlara və tərtibata malik olan tamdəyərli KİV-lərə çevrilirlər. Məsələn, informasiya agentliklərinin hadisə, informasiya agentliyi – KİV-lərin cəmiyyət zəncirində vasitəçilər kimi rolu dəyişmişdir. XXI əsrdə informasiya agentliklərinin resurslarından Yer kürəsinin demək olar ki, hər bir sakini istifadə edə bilər. Bunun üçün həmin sakinin sərəncamında kompyuter, modem, ayrıca rabitə xətti olması kifayətdir. Kompyuter şəbəkələri KİV-lərin bütün tiplərinin imkanlarını özündə cəmləşdirmişdir. Hərçənd, çap edilmiş mətnlər yalnız monitordan oxuna bilər. Zəruri hallarda bu mətni printerdə çap etmək olar.

İnformasiya ilə auditoriya arasında qarşılıqlı təsir. KİV auditoriyası üçün səciyyəvi cəhət sabitlikdir, çünki KİV-lərin işi auditoriya ilə müntəzəm əlaqə üçün nəzərdə tutulur. İnformasiyanın yayılma sistemi: mətbu nəşrlərə uzun müddətə abunə olmaq, xoşladığınız informasiya agentliklərinin saytlarına adət etmək buna şərait yaradır.

İnsanların geniş spektrə malik tələbatları arasında informasiyaya tələbat sosial sistemin informasiya sistemi kimi mahiyyətindən irəli gəlir. Bu sistemin altsistemləri və elementləri arasında qarşılıqlı təsir təkcə maddələr mübadiləsi formasında deyil, həm də informasiya prosesləri şəklində cərəyan edir. İnsanın informasiyaya tələbatı cəmiyyətin informasi-

ya təminatına ehtiyacını ifadə edir. İnformasiya insanın başqa tələbatlarını da əhatə edir, onlara xidmət edir və eyni zamanda, insan şüurunun yaradıcı mahiyyətini ifadə etməklə müstəqil xarakter daşıyır.

Sosiumun hər bir subyekti (şəxsiyyət, qrup, bütövlükdə cəmiyyət) informasiyaya tələbat duyur. Mənim fikrimcə, əhalinin informasiya tələbatını müəyyən məzmun və formaya malik məlumatlara tələbat kimi qəbul etmək lazımdır. Bunlar insanların onları əhatə edən gerçəklikdə oriyentasiya etməsi, dünya haqqında onlarda yaranmış təsəvvürün dəqiqləşdirilməsi, davranış xəttinin seçilməsi və yaranan problemlərin həlli üçün, daxili tarazlığa və sosial mühitlə uzlaşmaya nail olmaq üçün lazımdır. Bu ehtiyaclar təmin edilmədən insanın məqsədyönlü və ağlabatan fəaliyyəti qeyri-mümkündür. Buna görə də informasiya tələbatının və bu tələbatın təmin edilməsinin dərəcəsi insanın sosial fəallığı ilə sıx bağlıdır. Bu, bir daha onu təsdiq edir ki, KİV-lərin səmərəlilik meyarları sırasına onların əhalinin informasiya tələbatının təmin edilməsində və inkişafında rolu məsələsi də daxil edilməlidir. Bu halda "informasiya tələbatı" və "auditoriyanın tematik maraqları" anlayışlarını fərqləndirmək lazımdır.

İnformasiya tələbatının məzmununu və onların müxtəlif, o cümlədən kütləvi ünsiyyət vasitələri ilə təmin olunmasını təhlil edərkən əhalinin həyat tərzini nəzərə almaq lazımdır. Bu, KİV auditoriyasının formalaşmasının qanunauyğunluqlarını, eləcə də əhalinin müəyyən qrupları tərəfindən ayrı-ayrı informasiya kanallarından istifadə edilməsinin səmərəsinin müxtəlif olması səbəblərini izah etməyə imkan verir. Mənim apardığım sosioloji araşdırmalar göstərir ki, informasiya və mədəni tələbatın təmin edilməsində televiziyanın rolunun artması elə qruplarda daha çox nəzərə çarpır ki, onların həyat tərzi, əvvələn kiçik şəhərlərin və kəndlərin əhalisi arasında urbanizasiya dərəcəsinin artması ilə, ikincisi, asudə vaxtın çox olması ilə, üçüncüsü boş vaxtını evdə keçirməyə meyilli olmaları ilə, dördüncüsü, mənəvi həyatın aktiv formalarında iştirak etmək üçün obyektiv və subyektiv imkanların məhdud olması ilə səciyyəvidir.

Eyni zamanda həyat tərzinin müəyyən xarakteristikaları, məsələn, mədəni mərkəzlərdə yaşamaq, məişət qayğılarına çox baş qoşmamaq, ictimai işdə fəal iştirak etmək, idarəetmə, ictimai və yaradıcılıq problemlərinin həlli ilə əlaqədar əmək fəaliyyəti spesifik informasiya tələbatı komplek-

si doğurur. Bu tələbat qəzetlərin, kitabların, jurnalların mütaliə edilməsi yolu ilə təmin olunur. Beləliklə, televiziyanın səmərəliliyi əmək fəaliyyəti ilə bağlı olmayan amillərdən asılıdırsa, insanın qəzetlərə, jurnallara müraciət etməsi, ilk növbədə onun peşə fəaliyyətinin xarakteri, şəxsiyyət statusu ilə, yəni onun əmək sahəsi ilə bağlıdır. Bu, KİV-lərin fəaliyyət məqsədlərinin və effektivlik meyarlarının seçimini şərtləndirir. KİV-lərin yerinə yetirdiyi funksiyalar auditoriyanın həyat tərzindən, onun informasiya tələbatından asılı olaraq müxtəlif əhali qrupları üçün müxtəlif olur.

KİV-lərin şəxsiyyətə təsiri. İnformasiyanın təsirinin uğurlu və ya uğursuz olması barədə söhbət gedəndə biz aşkar və ya qeyri-aşkar şəkildə auditoriyaya təsirin müəyyən məqsədlərini nəzərdə tuturuq. KİV-lərin təsirinin nəticələri 3 sahədə özünü göstərə bilər: informasiya, motivasiya və davranış sahələrində. Bu təzahürlər ayrıca bir şəxsin şüuru və davranışı, onun bilavasitə ətrafı, daha geniş birliklər (istehsalat kollektivləri, region), bütövlükdə cəmiyyət səviyyəsində aşkar edilə bilər. Müxtəlif təsirlərin mürəkkəb əlaqələri faktı bir sıra çətinliklər doğurur. Birinci çətinlik kütləvi informasiyanın auditoriyaya təsirinin öyrənilməsi ilə bağlıdır, ikinci çətinlik informasiyanın təsir effektlərinin təbiətindən irəli gəlir. İnformasiya və motivasiya sahələrində effektləri öyrənmək daha çətindir. Prinsip etibarilə auditoriyanın məlumatlılıq effektini ölçmək onun motivasiya effektlərini ölçməkdən asandır. Məlumatlılıq əhali üçün əlyetərli olan bütün informasiya vasitələrinin məcmu təsiri kimi nəzərdən keçirilir. Bunun nəticəsində məlumatlılıq səviyyəsinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən qruplar aşkar edilmişdir. Məlum olmuşdur ki, müxtəlif sistemlərə aid informasiya kanallarından fəal istifadə edən insanlar daha çox məlumata malikdir.

Həqiqətən KİV-lərin şəxsiyyətə təsiri bir qayda olaraq insanın daim əlaqədə olduğu kiçik birliklərin kontakt qruplarının təsirindən irəli gəlir. Onlar artıq kütləvi informasiya mənbələrinin seçimi mərhələsində üzə çıxır. Kütləvi informasiyanın təsirinin nəticələri insanın başqa adamlarla ünsiyyətində və əməkdaşlığında bu və ya digər şəkildə gerçəkləşir. Müasir cəmiyyətdə informasiyanın təsiri müxtəlif ictimai altsistemlərə – kiçik qruplara, sosial-ərazi, istehsalat sahəsi miqyaslı insan birliklərinə xidmət etmək və onları möhkəmlətmək üçün nəzərdə tutulur. KİV-lər şəxsiyyətin

makromühitlə əlaqə vasitəsi olmaqla bərabər, həm də mikromühit üzərində sosial nəzarət vasitəsidir, onlar qrupdaxili proseslərə ictimai təsiri təmin edirlər. Ümumiyyətlə, KİV-lərin fəaliyyətinin mahiyyəti daha yüksək səviyyəli təşkilatın nisbətən aşağı səviyyəli təşkilata təsirini həyata keçirməkdən ibarətdir.

Əhalinin artmaqda olan informasiya tələbatının təmin edilməsində, şəxsiyyətin mənəvi aləminin formalaşmasında və zənginləşməsində KİV-lərin, xüsusən mətbuatın və informasiya agentliklərinin rolunu araşdırarkən nəzərə almaq lazımdır ki, onların köməyi ilə yayılan informasiya kütlələrə ünvanlanmış olsa da konkret şəxsiyyət tərəfindən qavranılır (qəbul və ya rədd edilir). Şəxsiyyətin bütövlüyünü cəmiyyətdə mövcud mədəniyyətin bütövlüyü və istiqaməti ilə müqayisə etdikdə məlum olur ki, bu nisbət çox cəhətdən kütləvi informasiya vasitələrinin fəaliyyətinin yönəldiyi məqsədlərə nail olmağı təmin edir. Bu vasitələrin fəaliyyətinin spesifikası ondan ibarətdir ki, KİV-lərin yaydığı məlumatlarda dünyanın mahiyyəti açıqlanır, davranışın müəyyən nümunələri, etalonları, əxlaq normaları, bədii zövqlər təşviq edilir, şəxsiyyət nəyin vacib və əhəmiyyətli, nəyin yaxşı və ya pis, nəyin düzgün və ya yanlış, nəyin nəcib və ya rəzil olmasından baş çıxarmağa başlayır.

KİV-lər şəxsiyyətin mənəvi aləminə təsir göstərməklə onun inkişafını istiqamətləndirir, müvafiq maddi və mənəvi şərait yaradır, onun ideya baxımından yetkin, əxlaqi cəhətdən mükəmməl, mənəviyyatca zəngin şəxsiyyət kimi formalaşmasını təmin edir. Buna görə də hər bir KİV ümumi kommunikasiya infrastrukturunun komponenti olmaqla bərabər, həm də informasiya axınlarının məzmununda və onların təqdim edilməsi formalarında öz spesifikasını ifadə etməlidir. Bu isə o deməkdir ki, KİV-lərin şəxsiyyətin mənəvi aləminə təsirinin səmərəsini artıran mühüm amil kimi ardıcıl tətbiq edilməsi onlardan hər birinin təsirinin xüsusiyyətlərinin aydınlaşdırılması ilə bağlıdır.

Məsələn, qəzet üçün dünyada baş verən hadisələrin ümumi panoramına diqqəti cəlb etmək, sonra isə müəyyən ölkə, müəyyən region və ya oxucuların müəyyən qrupu üçün xüsusi əhəmiyyət kəsb edən lokal hadisələri ayırmaq vacibdir. Lakin əgər informasiya agentliyindən söhbət gedirsə, o, dünya və lokal miqyaslı hadisələr barəsində eyni dərəcədə geniş informa-

siya verməklə kütləvi informasiya vasitəsinin bir növ "müşayiətçisi" rolunu yerinə yetirir, kommunikasiya sisteminin müxtəlif komponentlərindən keçən ümumi informasiya axınından müəyyən məlumatlar növünü seçməkdə oxucuya istiqamət verir. Kompekslik prinsipinin ardıcıl tətbiq edilməsi KİV-lərdə dərc edilən materialların informasiya məzmununu artırmağa, informasiya axınlarının janrlarını rəngarəng etməyə, şəxsiyyətin həm rasional, həm də emosional sahələrinə təsirini gücləndirməyə, onun mənəvi aləminə daha məqsədyönlü və daha səmərəli təsir göstərməyə imkan verir.

"Kiyevski teleqraf" qəzeti, 26 fevral-4 mart 2010-cu il.

Ümummilli lider Heydər Əliyevin ən güclü silahlarından biri söz idi

1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxması təkcə Azərbaycan üçün deyil, bütün Şərq dünyası üçün siyasi, mədəni və elmi ünsiyyətin tamamilə yeni bir vasitəsi olmuşdur. Xalqımızın mədəni və ictimai həyatının tarixində çox böyük əhəmiyyəti olan bu hadisə ölkəmizdə baş verən ictimai-siyasi, iqtisadi və mədəni prosesləri, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəblərin formalaşması ilə sıx bağlıdır. "Əkinçi" Azərbaycan üçün sadəcə qəzet deyildi, o, cəmiyyətimizin bütün mütərəqqi təbəqələrinin baxışlarına, ümid və amallarına tutulmuş nurlu çıraq idi.

"Əkinçi" qəzetinin bəyan etdiyi prinsiplər – maarifçilik, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə vəhdəti, ədəbi dilin canlı danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın inkişafı üçün təməl daşları oldu.

Ümummilli lider Heydər Əliyev də bu müstəsna hadisəyə çox böyük əhəmiyyət verirdi. Məhz Heydər Əliyev "Azərbaycanda milli mətbuatın yaranmasının 125 illiyi haqqında" Fərman imzalayaraq, həmin günü Milli Mətbuat günü elan etmişdir.

Azərbaycan xalqının ümummilli liderinin ən güclü silahlarından biri söz idi. O, böyük xalq kütlələrini öz arxasınca aparmaq lazım gələndə də, ölkə üçün möhtəşəm layihələrin həyata keçirilməsinin zəruriliyinə kimisə inandırmaq lazım olanda da, yolunu azmış birisini düz yola yönəltmək lazım gələndə də sözdən ustalıqla istifadə edirdi. Natiqlik ona Allah vergisi idi. Öz rahat yaşayışını unudaraq, ülvi məqsədləri həyata keçirmək və xalqına sədaqətlə xidmət etmək kimi son dərəcə məsuliyyətli bir missiyanı üzərinə götürən bu cür insanlar dünyaya çox az-az gəlir. Onun natiqlik məharəti incəliklərinə qədər cilalanmışdı. Onunla çiyin-çiyinə işləmək şərəfinə nail olanlar qeyd edirlər ki, o, bu məharətindən həm natiq, həm diplomat, həm də həssas bir psixoloq kimi istifadə edirdi. O, xalqla elə danışırdı ki, ölkənin hər bir vətəndaşı hamıya deyilən sözləri şəxsən ona ünvanlanmış kimi qəbul edirdi. Bunu hər adam bacarmaz.

O, müsahibinin ovqatındakı ən kiçik məqamları dərhal sezirdi. Təbiətən daxili nəzakət hissinə və fenomenal sövq-təbiiliyə, uzaqgörənlik qabiliyyətinə malik olan Heydər Əliyev opponentinin fikrindən keçənləri bir andaca duymağı, bəzən də onun dolaşıq fikirlər kələfini açmağı bacarırdı və bunu təsdiqləyən çoxlu sübutlar var. Bununla yanaşı, onun fenomenal yaddaşı vardı və istənilən anda uzaq keçmişdən hadisələri, faktları və rəqəmləri misal gətirərək öz sözlərini təsdiqləməyi bacarır, hər bir sahədə miqyası ilə adamı həqiqətən heyrətə salan, mat qoyan dərin biliklər nümayiş etdirirdi. Heydər Əliyevin bu keyfiyyətləri Azərbaycan xalqı üçün ən gərgin, həqiqətən taleyüklü tarixi məqamlarda heyrətamiz dərəcədə dəqiq çıxış yolları tapmasına dəfələrlə kömək etmişdir.

Ulu öndərimizin sözə, onun geniş ictimai təbəqələrə təsirinə verdiyi əhəmiyyət barədə danışarkən, onun jurnalist peşəsinə necə yüksək qiymət verməsini xatırlatmamaq olmaz: "Bu peşə çox vacib peşədir. Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir. Bu, mənim fikrimdir və mən bu fikrimi heç vaxt dəyişməyəcəyəm".

Heydər Əliyevin bütün səfərlərində onu jurnalistlər müşayiət edirdi. Özü də onlar həm dövlət KİV-lərini, həm də müstəqil, hətta müxalifət nəşrlərini təmsil edirdi. O, çox yaxşı başa düşürdü ki, Azərbaycanın kütləvi informasiya vasitələrinin səviyyəsini qaldırmaq lazımdır. KİV-lər düşmənlərin məkrlərini ifşa etməklə yanaşı, ölkəmizi beynəlxalq səviyyədə təmsil etməyi, Azərbaycan haqqında həqiqətləri dünyanın ən uzaq guşələrinə tam şəkildə çatdırmağı və beləliklə, ölkəmizə qarşı düşmən mövqeyi tutan ölkələrlə, xüsusən Ermənistanla informasiya müharibəsində qalib gəlməyi bacarmalıdır.

Heydər Əliyev jurnalistlərə xüsusi həssaslıqla, əsl atalıq qayğısı ilə yanaşır, bəzən bu və ya digər hadisələri şərh edərkən nəyə xüsusi diqqət yetirmək lazım olduğunu göstərir, onlara yaxşını pisdən ayırmağı bacarmağı öyrədirdi. O, həm də fitnələrə uymamağı, polemikada nəzakətli, təmkinli olmağı öyrədir, başa salırdı ki, jurnalist özünün bütün iradəsini və dəlillərini səfərbər edərək, opponentləri təkzibedilməz faktlar qarşısında qoymağı bacarmalıdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev vurğulayır ki, Heydər Əliyev özü ana dilinə çox qayğı

ilə yanaşır, hər bir cümləyə, deyilən hər bir kəlməyə böyük əhəmiyyət verir və başqalarına da bunu öyrədirdi.

Bu ustad dərsləri, jurnalist məharəti dərsləri jurnalistlər üçün əsl savad məktəbi idi, bu dərslər sayəsində onlar qanunun aliliyinin bərqərar olduğu, qanun qarşısında hamının bərabər olduğu müstəqil, demokratik, hüquqi dövlətin qurulmasına yönəlmiş ali məqsədlərin əhəmiyyətini dərk etməyi öyrənirdilər. Tarixdə milli jurnalistikanın əhəmiyyətini bu qədər yüksəyə qaldıran ikinci lider olmamışdır.

Heydər Əliyevin Azərbaycanda söz azadlığının təmin olunması və kütləvi informasiya vasitələrinin daha da inkişafı sahəsində ən böyük xidmətlərindən biri senzuranın ləğvi idi. Onun 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafına imkan yaratmış, cəmiyyətimizin demokratikləşməsində çox böyük rol oynamışdır. Eyni zamanda, həmin Fərmanla Nazirlər Kabinetinə kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının yaxşılaşdırılması üçün vəsait tapmaq və onlara yardım göstərilməsinə dair tədbirlər proqramının layihəsini hazırlamaq tapşırılmışdı.

2001-ci il dekabrın 18-də Prezident Heydər Əliyev ölkənin əsas kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərlərini qəbul etmiş, onlarla ətraflı fikir mübadiləsi aparmışdı. Bu görüşdən sonra müstəqil qəzetlərin "Azərbaycan" nəşriyyatına borclarının ödənilməsi "dondurulmuşdu".

O, mətbuatın problemlərinin həlli ilə əlaqədar 10-dək fərman və sərəncam imzalamışdı. Məsələn, "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnı Azerbaydjan" jurnallarının və "Ədəbiyyat qəzeti"nin, habelə uşaqlar üçün bəzi milli nəşrlərin maliyyələşdirilməsi dövlət büdcəsindən həyata keçirilməyə başlanmışdı.

Ulu öndər milli mətbuatın ənənələrini zənginləşdirən üç mühüm prinsipi müəyyənləşdirmişdir. Birincisi, dövlətçiliyə xidmətdir, yəni jurnalistlər dövlət quruculuğu ideyalarına xidmət etməli, qarşıya çıxan problemlərə dövlət mövqeyindən yanaşmalıdırlar.

İkinci prinsip – azərbaycançılıq ideologiyasının təbliği Heydər Əliyevin siyasi fəaliyyətinin bütün mərhələlərində ön planda olmuşdur. Müstəqil

dövlətçiliyimizin Heydər Əliyev tərəfindən ifadə edilmiş mənavi-ideoloji əsası dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmlənməsində həlledici rol oynamışdır. Milli dirçəliş probleminin həlli Heydər Əliyevin strateji dövlət siyasətinə çevrilmişdi və məhz onun bu istiqamətdə fəaliyyəti sayəsində azərbaycançılıq ideyası insanların şüurunda kök salmış, əsrlərin qovuşuğunda milli mənavi dəyərləri qoruyub saxlamağa imkan vermişdir.

Akademik Ramiz Mehdiyevin "Modernləşmə xətti yenə də gündəlikdədir" məqaləsində deyilir: "Bu gün, bu yolun çox hissəsi keçiləndən sonra geriyə baxanda, cəsarətlə deyə bilərik ki, görülmüş işlər gələcək nəsillərə mənsubdur. Bununla bərabər, bir mühüm və unudulmaz həqiqəti vurğulamaq lazımdır ki, bütün bunlar bir nəfərin – milli ideyanın mahiyyətini həmişə Vətənə xidmətdə görən Heydər Əliyevin əməyinin bəhrəsidir. Əsasını onun qoyduğu, eyni zamanda, həm ideyanı, həm də ideologiyanı özündə cəmləşdirən azərbaycançılıq fəlsəfəsi millətin və dövlətin perspektiv inkişafının dəyişməz konsepsiyası kimi, Azərbaycanın sosial-siyasi və iqtisadi modernləşməsinin eyniləşdirilməsidir. O, milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla, strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin sanbalında öz əksini tapır. Bütün bunlar həm regional, həm də qlobal xarakterli vəziyyətlərdə ölkənin dəyişməkdə olan rolunu başa düşməklə formalaşan milli ideoloji model kompleksini təcəssüm etdirir".

Ölkəmiz dünya birliyinə intensiv inteqrasiya edir, nüfuzlu beynəlxalq qurumların üzvüdür. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi sürətlə irəliləyir. Heydər Əliyevin bizə vəsiyyət etdiyi üçüncü prinsip – ümumbəşəri dəyərlərə hörmətlə yanaşmaq bu gün həmişəkindən daha aktualdır.

Bu baxımdan demək lazımdır ki, Heydər Əliyevin dövründə Azərbaycan Qərb və Şərq, islam və xristian vektorlarını uğurla əlaqələndirərək, ən yeni dövrün, qloballaşma dövrünün çağırışlarına layiqincə cavab vermək, tarixi ənənəni modernləşmə ilə birləşdirmək üçün zəruri olan yeni səviyyəyə yüksələ bilmişdir.

Heydər Əliyev jurnalistlərin heç də asan olmayan əməyinə hörmət edir, kütləvi informasiya vasitələrinin cəmiyyətin həyatında rolunu yaxşı başa

düşürdü. İldırım sürəti ilə dəyişən ən yeni texnologiyalar və inqilabi elmi kəşflər dünyasında kim informasiyaya malikdirsə, o, hər şeyə malikdir. Buna görə də hər bir cəmiyyətdə informasiya kommunikasiyaları ilə yanaşı, peşəkar hazırlığa malik, təkcə həyatda baş verən hadisələri işıqlandırmaqla kifayətlənməyib, həm də polemika aparmağı bacaran jurnalistlər ordusunun daha da inkişaf etdirilməsi əsas vəzifələrdən biridir. Məhz bu zərurəti çox gözəl başa düşdüyünə görə, ulu öndər ölkədə zamanın bütün tələblərinə cavab verən, ən müasir avadanlıqla təchiz olunmuş, geniş informasiya şəbəkəsi yaratmaq arzusunda idi.

"Əkinçi" qəzetinin 125 illiyi münasibətilə jurnalistlərlə görüşündə Heydər Əliyev demişdi ki, mənim jurnalistikaya hörmətimə, ehtiramına şübhəniz olmasın. Hesab edirəm ki, hətta qatı yalan yazan da jurnalistdir. O deyirdi: "Azərbaycanda belə bir məsəl var: zaman hər şeyi saf-çürük edəcəkdir". Kim bu imtahandan çıxsa o, hörmətli insan, jurnalist olacaq, bu sınaqdan çıxmayanlar isə yəqin ki, özlərinə başqa peşə axtarmalı olacaqlar. Hətta sovet dövründə ən ciddi senzura şəraitində də Heydər Əliyev jurnalistlər üçün böyük yaradıcılıq sərbəstliyini təmin edir, fikir və söz azadlığına kömək edir, etibarlı, geniş əhatəli və hərtərəfli informasiya əldə etməyə imkan yaradırdı.

Jurnalistlər həmişə ona müraciət edə bilərdi. O, istənilən vaxt və istənilən mövzuda müsahibə verməyə, jurnalistləri maraqlandıran sualları cavablandırmağa hazır idi. Eyni zamanda, o, istedadlı, obyektiv, öz işini bilən, həqiqətən peşəkar jurnalistləri dəstəkləyir, onlara hər cür kömək edirdi. Lakin bir şərtə hökmən riayət edilməli idi – informasiya həqiqi, obyektiv olmalı idi. Ümummilli liderimizin əsas məsləhətlərindən biri bu idi: həqiqət nə qədər acı olsa da, onu yazın, bütün mənfi məqamları üzə çıxarın ki, dövlət strukturları mövcud problemlərə diqqəti cəlb etsinlər və beləliklə, dövlət aparatının həmin problemləri aradan qaldırmaq işi asanlaşsın. Lakin o, şayiələr və dedi-qodular yaymaqdan çəkindirirdi, çünki belə hərəkətlər yüksək jurnalist adına yaraşmır.

Heydər Əliyev Azərbaycan publisistikasının əsas vəzifələrindən bəhs edərkən gənclərdə vətənpərvərlik ruhunun tərbiyəsini, milli adət və ənənələrə riayət etməyi, vətənə sədaqətlə xidmət göstərməyi, ana dilinin saflığını qoruyub saxlamağı və mükəmməl bilməyi də ön plana çəkirdi. O,

özü Azərbaycan dilini çox gözəl bilir, onu xalqımızın ən böyük sərvəti hesab edirdi. O, xarici nümayəndə heyətlərinin Azərbaycan dilinin gözəlliyinə heyran olduqlarını xatırladaraq deyirdi ki, biz dilimizi nəinki yaşatmışıq, həm də onu inkişaf etdirmişik. Azərbaycan dili çox gözəl dildir.

Onun rus dilini çox gözəl bilməsi də heyrət doğururdu. O, Rusiya mühitində əsl rus ziyalısı kimi tanınmışdı və bu, çox yüksək qiymət idi. Bu məqamda onun 1981-ci il noyabrın 18-də "Literaturnaya qazeta"da dərc edilmiş və böyük əks-səda doğurmuş müsahibəsini xatırlatmaq yerinə düşər. Heydər Əliyev "sülalə" anlayışı və inzibati idarəetmənin "tayfa" xarakteri arasında ciddi fərq olmasını, sistemin və cəmiyyətin nöqsanları, korrupsiya haqqında və rəhbərliyin mənəvi prinsipləri qorumağa və müdafiə etməyə borclu olması barədə danışmışdı. O vaxtkı ölkənin siyasi ritorikasına aşkarlığı birinci dəfə o, doğma rus dilində danışığı aşağı səviyyədə olan bədnam Mixail Qorbaçovdan çox-çox əvvəl gətirmişdi.

Mübaliğəsiz deyə bilərik ki, ümummilli liderlə sıx ünsiyyətdə olmuş, onun iştirak etdiyi tədbirləri, danışıqları işıqlandırmış jurnalistlər, sözün həqiqi mənasında yeni bir məktəb, Heydər Əliyevin jurnalistika məktəbini keçmişlər. Məhz jurnalistlərin problemlərinin həllində iştirakına görə, onların bütün ümdə məsələlərinin həllinə hərtərəfli və təsirli köməyinə, jurnalistlərə əsl atalıq qayğısına görə o, tamamilə haqlı olaraq "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdü.

Bu mükafatın təqdim edilməsi mərasimində Heydər Əliyev demişdir: "Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salsaq görərik ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır". Bu fikirlə hətta onun opponentləri də razılaşmağa məcbur idilər.

O dövrün Rusiya KİV-ləri yazırdı: "Azərbaycanda KİV postsovet məkanında dərin araşdırmalar tələb edən nadir hadisədir. Bütün MDB ərazisində daha azad və müstəqil jurnalistlər tapmaq çətindir və onlar ictimai proseslərə real təsir göstərirlər" (Ayqul Omarova. "Azərbaycanda iki hakimiyyət var: Heydər Əliyevin hakimiyyəti və KİV"). Müəllif ölkəmizdə nəşr edilən qəzetlərin miqdarı barədə mülahizələrini bölüşərək yazırdı ki, bu nəşrlərin sayı 800-dən çoxdur və "müxalifət qəzetlərinin yayılması heç bir müəssisəyə qadağan olunmamışdır. Mətbuat yayımı ilə məşğul olan

dövlət müəssisələri və özəl müəssisələr müxalifətçi KİV-lərin satışından imtina etmirlər".

Müəllif müstəqil jurnalistlərdən sitat gətirir. Onların sözlərinə görə, "indi informasiyadan istifadə etmək daha sərbəst olmuşdur, əvvəlki kimi çətin deyil. İstənilən nazirə müraciət etmək olar və o, jurnalistlərdən qaçmayacaqdır. Prezident Heydər Əliyev özü də kimisə qarşılayırsa və yaxud haraya gedirsə, onu həmişə 20-30 nəfərlik jurnalistlər qrupu müşayiət edir və bu jurnalistlər Prezidentin danışıqlar apardığı salonda olurlar. Müxalifət jurnalistləri də burada iştirak edirlər. Əvvəllər belə şey yox idi, indi isə müxalifət jurnalistlərini hər yerə dəvət edirlər. Yüksək vəzifəli məmurlar növbə ilə həftədə bir dəfə mətbuat konfransları keçirirlər. Bu gün bir nazir, gələn həftə başqa nazir".

Ayqul Omarovanın məqaləsinin sonu çox maraqlıdır: "Bəli, görünür biz hamımız həm azərbaycanlı jurnalistlərdən, həm də Heydər Əliyevin KİV-lərə və söz azadlığına münasibətindən həqiqətən çox şey öyrənməliyik". Yaxşı deyiblər ki, dağın nəhəngliyi uzaqdan daha yaxşı görünür.

Bəli, həqiqətən, Heydər Əliyevdən öyrənilməli çox şey var, çünki bu gün nəinki dostlarımızın yazdığı və dediyi, hətta əleyhdarlarımızın da etiraf etməyə məcbur olduğu fikir və söz azadlığı bizə ümummilli liderimizdən miras qalmış sərvətdir.

Uzun illər ərzində çoxsaylı xarici səfərlərdə onu müşayiət etmiş, eləcə də Azərbaycanda keçirilən görüşlərdə iştirak etmiş bir jurnalist kimi mən görkəmli siyasi və dövlət xadimlərinin, diplomatların və tanınmış qələm ustalarının Heydər Əliyevə göstərdiyi böyük ehtiramın şahidi olmuşam. Heydər Əliyevin böyüklüyü bütün dünyada etiraf edilmişdir: onu fenomenal şəxsiyyət, nüfuzlu dövlət xadimi, nadir natiqlik istedadına malik olan şəksiz lider hesab edirdilər.

Neçə illər bundan əvvəl "Moskovski komsomolets" qəzetində rusiyalı jurnalist Aleksandr Budberqin "Virtuoz" sərlövhəli böyük bir məqaləsi dərc olunmuşdu. Müəllifin ulu öndərlə şəxsi görüşləri və söhbətləri əsasında yazılmış bu məqalə Azərbaycanın kütləvi informasiya vasitələrində də çap edilmişdir. Deməliyəm ki, müəllifin fikirləri və misal gətirdiyi faktlar yüksək publisistikanın gözəl nümunələri kimi həm bizim təbliğatçılar, həm də jurnalistlər üçün çox faydalıdır.

Aleksandr Budberq yazır: "Özlərini siyasətçi hesab edənlər çoxdur. Bəzən görürsən ki, rayon deputatı seçilən biri napoleonluq iddiasına düşür. Əslində isə, hətta prezidentlərin də bir çoxu baxmayaraq ki, əsl siyasətçiyə çevrilə bilmir, ömürlərinin axırına qədər həmin kürsüdə qalırlar. Amma Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, bu şəxsiyyətləri bir nümunə kimi göstərmək olar. O, Makiavellinin traktatlarının qəhrəmanlarının canlı nümunəsi təsiri bağışlayır. Hakimiyyətə gəlmək istəyən insanlar onun təcrübəsini araşdıra və öyrənə bilərlər. Amma bunun çətin ki, təkrarı olsun. Çünki bütün başqa istedadlar kimi, siyasətçi istedadı da anadangəlmədir. O, belə hesab edir ki, insan məşğul olduğu işi sevməli, həmsöhbətini dinləməyi bacarmalı və verdiyi sözü yerinə yetirməlidir".

Müəllif yazır ki, Heydər Əliyev xaricdə olarkən adamların Azərbaycanda görməyə vərdiş etdiyi Heydər Əliyevdən çox fərqlənirdi. O, Qarabağ problemi haqqında heç nə bilməyən və hətta onun harada yerləşdiyini dumanlı şəkildə təsəvvür edən adamların qarşısında çıxış etməyi özü üçün əskiklik saymırdı. Miqyas baxımından onunla heç müqayisə edilə bilməyən siyasətçiləri də inandırırdı. Lazımdırsa, deməli, etməlidir. Özü də yüksək səviyyədə, ona görə ki, başqa cür bacarmırdı. O, ABŞ-a səfəri zamanı görüşlərdə 150 saat danışmışdı. Türkiyəyə gələndə o, tamamilə dəyişir və ABŞ-dakından tamamilə fərqlənirdi. Rusiyada isə tam başqa adam idi.

Məqalədən gətirilən bu misallar əsl peşəkar jurnalistin müşahidələrinin nəticəsidir. Nəzərə alsaq ki, müəllif həmin məqaləni Heydər Əliyevin çıxışları və nitqləri ilə tanış olduqdan sonra yazmışdır, deyə bilərik ki, ulu öndərin siyasi irsi həqiqətən tükənməz xəzinədir. Ümummilli lider Heydər Əliyevin siyasi irsindən danışarkən onun milli dirçəliş, milli mənlik şüuru, milli köklərə qayıdış kimi dəyərlərə hələ respublikaya rəhbərliyinin birinci dövründə, necə deyərlər, kommunist ideologiyasının "at oynatdığı" vaxtlarda da verdiyi töhfəni vurğulamaq lazımdır.

Ümummilli lider deyirdi ki, o, bütün həyatı boyu, bütün əmək fəaliyyəti dövründə həmişə xalqla birgə olmuş, xalq üçün yaşamışdır. Bu, onun amalı, həyat mövqeyi idi. Bu sözlərin arxasında Heydər Əliyevin mübarizələr və çətinliklərlə dolu həyat yolu, öz xalqına, öz vətəninə sədaqətlə xidmət yolu dayanırdı.

Rusiyalı jurnalist Oleq Sıqanov "Zamanı qabaqlamış ümummilli lider" məqaləsində yazır: "Heydər Əliyev Azərbaycan üçün lazımi vaxtda elə nadir, zəruri şəxsiyyət, ziyalı sinfinin hakimiyyətin zirvəsinə çatmış elə bir nümayəndəsi oldu ki, o, özünün fenomenal siyasi keyfiyyətləri sayəsində nəinki yeni milli ideyanı – müasir dövrün çağırışlarına adekvat olan yeni Azərbaycan dövlətçiliyi ideyasını formalaşdırmağa, həm də millətin ən geniş siyasi və intellektual qüvvələrini – bu ideyanı həyata keçirən, Azərbaycanı mütərəqqi inkişaf orbitinə çıxarmağa qadir olan əla idarəçiləri və cəsarətli novatorları öz ətrafında sıx birləşdirməyə və onları bu məqsədə istiqamətləndirməyə müvəffəq oldu. Əliyev bunu hətta o vaxtda edə bildi ki, çoxları onun uğur qazanacağına inanmırdı, siyasi qeyri-sabitlik xaosu tarixi üfüqləri, tarixi perspektivləri görünməz etmişdi. Heydər Əliyev bunu bacardı".

O, Azərbaycan xalqını özünə, öz istedadına inanmağa, öz köklərinə qayıtmağa və özü ilə, özünün keçmişi və bu günü ilə fəxr etməyə sövq etdi. O, xalqı ümidsiz vəziyyətdən qaldırdı və onda öz gələcəyinə inam oyatdı. Yenə də onun ən güclü silahlarından biri söz idi. Zbiqnev Bjezinskinin dediyi kimi, "siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyətin – bir sözlə, şəksiz liderin" sözü.

Bu baxımdan akademik Ramiz Mehdiyevin müşahidəsi xüsusilə dəqiqdir: "O, sözə münasibətdə çox həssasdır, sözün həm yerini, həm də gücünü bilir, öz zəmanəsinin ən yaxşı natiqlərindən biri kimi tanınmışdır, öz xalqının xarakterini dərindən öyrənmişdir, bilir ki, ümummilli vəzifələrin həyata keçirilməsi üçün onun çox böyük qüvvəsini necə səfərbərliyə almaq lazımdır".

1994-cü ilin oktyabr hadisələri zamanı Prezident Heydər Əliyevin milli televiziya ilə xalqa müraciətində bunun bir daha şahidi olduq. Ulu öndər həmin müraciətində demişdir: "Əziz həmvətənlər, Azərbaycan vətəndaşları! Bu ağır dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlikdəyəm. Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda, mən sizə güvənirəm, sizə arxalanıram... Ona görə də sizi... mənim ətrafımda toplaşmağa dəvət edirəm".

Həmin müraciət gecəyarısı edilməsinə baxmayaraq, bir saatdan sonra Prezident Sarayının qarşısına yüz minlərlə adam toplaşmışdı. Heydər Əliyevin sözünün gücü bu idi!

Mübaliğəsiz, tam qətiyyətlə deyə bilərik ki, Azərbaycanı istər sovet dövründə, istərsə də müstəqillik illərində dünyaya tanıdan, ermənilərin güclü təbliğat maşınının və ondan da güclü lobbisinin məkrli səyləri sayəsində ölkəmizi düşdüyü informasiya blokadasından məhz Heydər Əliyev çıxarmışdır. Burada da onun əsas silahı söz, Azərbaycan həqiqətlərini bəyan edən obyektiv söz idi.

Heydər Əliyev 1993-cü ildə Prezident kimi özünün ilk xarici səfərini Fransaya etmişdi və bu, təsadüfi deyildi. O, dekabrın 21-də Parisdə mətbuat konfransında demişdi: "Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycanla Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur, Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələr, ikitərəfli münasibətlərin inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir. Mən belə düşünürəm ki, bu günlər ərzində biz bunu etməyə müvəffəq olduq".

Bir sözlə, Prezident Heydər Əliyevin BMT-nin və ATƏT-in yüksək tribunalarından çoxsaylı tarixi çıxışlarından başlamış, onun xarici ölkələrə səfərləri zamanı aparılan danışıqlara və çoxsaylı görüşlərə qədər bütün fəaliyyətinin əsas məqsədi bir idi – Azərbaycanı dünyaya tanıtmaq, ölkəmiz haqqında həqiqəti beynəlxalq ictimaiyyətə çatdırmaq, Ermənistanın ərazi iddialarının əsassızlığını sübut etmək, ölkəmizə təcavüzün ağır nəticələrini dünyaya bəyan etmək.

2010-cu ildə özünün 90 illiyini qeyd edəcək AzərTAc-ın tarixinin bütöv bir qərinəsi ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu dövrə təsadüf edir: 1970-ci illərdə Azərbaycanın sosial-iqtisadi gerilikdən çıxaraq, ittifaqın qabaqcıl respublikalarından birinə çevrildiyi bir vaxtda mətbuat, xüsusilə də informasiya agentliyi diqqətdən kənarda qala bilməzdi. Heydər Əliyev o vaxt Azərinform adlanan agentliyin rəhbərliyi ilə müntəzəm görüşür, informasiya siyasətinin təkmilləşdirilməsi

ilə bağlı konkret tapşırıqlar verir, eyni zamanda, maddi-texniki bazanın möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Məhz bu köməyin sayəsində Azərinform SSRİ-nin əsas informasiya orqanı olan SİTA sistemində çox nüfuzlu bir quruma çevrilmişdi.

Azərinformun əməkdaşları SİTA briqadalarının tərkibində xarici ölkələrə ezamiyyətə gedir, bilavasitə hadisə yerlərindən – məsələn, Azərbaycan günlərinin, azərbaycanlı rəssamların sərgilərinin və ya mədəniyyət ongünlüklərinin açılışından məlumatlar verirdilər. Həmin illərdə Azərinformun müxbirləri Parisdə və Praqada, Havanada və Monrealda, Rotterdamda və Hamburqda, Sofiyada və Əlcəzairdə, daha neçə-neçə şəhərlərdə işləmişlər. Agentliyin əməkdaşları müxtəlif ölkələrin, o cümlədən Kuba, Kanada və İtaliyanın qəzet və jurnallarının sifarişi əsasında Azərbaycanın həyatı haqqında maraqlı materiallar hazırlayırdılar.

1972-ci ilin yayında Azərinform o dövr üçün müasir avadanlıqla təchiz edilmişdi. O vaxt buna nail olmaq asan məsələ deyildi. Heydər Əliyevin hər hansı maneələri aradan qaldırmağa imkan verən şəksiz nüfuzu və güclü təsiri öz müsbət rolunu oynamışdı. Nəhəng informasiya maşını – SİTA SSRİ rəhbərliyinin böyük hörmət və rəğbətlə yanaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı uğurlar haqqında Azərinform tərəfindən hazırlanmış xəbərləri həm də dünyaya yayırdı.

1987-ci ildə Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrdən "səhhəti ilə əlaqədar" istefaya göndərilməsindən sonra Mixail Qorbaçov başda olmaqla, Mərkəz Azərbaycana münasibətdə ikiüzlü siyasət yeritməyə başladı, sonralar bu siyasət aşkar düşmənçilik hərəkətləri dərəcəsinə çatdı.

Heydər Əliyevin sovet hökumətində rəhbər vəzifələrdən kənarlaşdırılması əzəli Azərbaycan torpaqlarını ələ keçirmək barədə çoxdan qurduqları planları işə salmağa başlamış erməni millətçilərinin və onların Kremldəki havadarlarının əl-qolunu açdı. Bir faktı da nəzərə almamaq olmaz ki, o vaxt Mərkəzə qulluq göstərən respublika rəhbərliyinin xalqa zidd siyasəti Azərbaycanda ictimai-siyasi şəraiti son dərəcə kəskinləşdirmişdi.

Elə buna görə də keçən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəli Azərinformun jurnalistləri üçün də ciddi sınaq dövrü, bir növ siyasi yetkinlik, vətəndaş həmrəyliyi, mərdlik və vətənpərvərlik imtahanı oldu. Qanlı

Yanvar günlərində, sovet imperiyası qoşunlarının qəflətən Azərbaycana soxularaq, o vaxtkı vahid ölkənin tərkibinə daxil olan respublikanın dinc sakinlərinə, yəni, əslində, ölkənin öz vətəndaşlarına divan tutduğu vaxtda qəzetlərin nəşri dayandırılmışdı. Mərkəzin əlaltıları Azərbaycan televiziyasının enerji blokunu partladaraq, onu susmağa məcbur etmişdi, lakin əhali ölkədə baş verən hadisələr haqqında Azərinformun buraxdığı, Bakının müxtəlif guşələrində yapışdırılan bülletenlər əsasında məlumat almaqda davam edirdi.

Azərbaycan dövlət müstəqilliyini elan edəndən sonra, Azərinformun da həyatında yeni dövr başlandı. 1992-ci il dekabrın 18-də bizim agentliyin tarixi AzərTAc adı bərpa olundu. Zaman özü agentliyin işinin yenidən qurulmasını və təkmilləşdirilməsini, onun maddi-texniki bazasının möhkəmləndirilməsini tələb edirdi. Lakin ölkənin o vaxtkı rəhbərliyi bu barədə düşünmürdü. Büdcə vəsaitindən əslində məhrum edilmiş AzərTAc çətin günlər yaşayırdı.

1993-cü il iyunun 15-də Azərbaycan xalqının təkidi ilə Heydər Əliyev hakimiyyətə qayıtdı. Onun müdrikliyi və məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərpa edildi, iqtisadi böhran aradan qaldırıldı, ölkə tədricən inkişaf yoluna çıxdı.

Cəmiyyətin həyatında kütləvi informasiya vasitələrinin, ilk növbədə, xəbər agentliyinin rolunu yüksək qiymətləndirən Heydər Əliyev müstəqil Azərbaycanın dövlət informasiya orqanının işinin müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət yetirirdi.

1995-ci il martın 3-də Prezident Azərbaycan Teleqraf Agentliyinin yenidən təşkil edilməsi haqqında Fərman imzaladı. Həmin fərmana əsasən, tarixi AzərTAc-ın adı saxlanmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında büdcədən maliyyələşdirilən Dövlət Teleqraf Agentliyi yaradıldı. Beləliklə, AzərTAc-a rəsmi dövlət agentliyi statusu verildi.

1996-cı il iyunun 29-da Prezident "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalamışdır. Həmin sənəddə respublika hökumətinə agentliyin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması, xarici ölkələrdə müxbir məntəqələrinin açılması məsələlərini həll etmək barədə tapşırıq verilmişdi.

2000-ci il yanvarın 17-də AzərTAc-ın 80 illiyi ərəfəsində Prezident Heydər Əliyev agentliyin fəaliyyətinin təkmilləşdirilməsi haqqında növbəti Fərman imzaladı. Bu, dövlətimizin başçısının ölkədə informasiya xidmətinə çox böyük əhəmiyyət verməsinin əyani sübutu idi. Yubiley münasibətilə Prezidentin sərəncamları ilə agentliyin əməkdaşlarının bir qrupu dövlət təltiflərinə layiq görüldü.

Beləliklə, ümummilli lider agentliyin çoxillik fəaliyyətinə yekun vurmuş və eyni zamanda, uzunmüddətli perspektivdə AzərTAc-ın prioritet vəzifələrini göstərmişdir.

Dövlət informasiya agentliyinin 85 illik yubileyi ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il fevralın 28-də imzaladığı Sərəncamla AzərTAc-ın əməkdaşlarından 13 nəfəri "Tərəqqi" medalı ilə təltif edilmiş, 5 nəfərə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilmişdir. Bu, ümummilli liderin AzərTAc-a böyük qayğısının Prezident İlham Əliyev tərəfindən davam etdirilməsinin parlaq nümunəsi, agentliyin fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Son illər AzərTAc-ın fəaliyyətində xüsusi canlanma müşahidə olunur. İnformasiyanın həcmi 10 dəfəyədək artmışdır. Dinamik sosial-iqtisadi inkişaf yoluna çıxmış müstəqil Azərbaycanın həyatının bütün sahələrində baş verən köklü dəyişikliklər, həmişə olduğu kimi, yenə də agentliyin xəbərlərinin əsas mövzusudur.

Bu gün demokratik cəmiyyət qurulması yolu ilə inamla irəliləyən, dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən, Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkəmizin uğurları AzərTAc-ın kanalları ilə təkcə respublika daxilində deyil, həm də xaricdə geniş yayılır. Bu materialların mövzusu, janrları, coğrafiyası dəyişir, lakin həqiqi informasiyanın əsasını təşkil edən əzəli prinsiplər dəyişməz qalır. Bu, faktların ictimai əhəmiyyəti, etibarlılığı, dəqiqliyi və xəbərlərin operativliyidir.

Hazırda AzərTAc-ın Türkiyədə, Rusiyada, ABŞ-da, Fransada, Avstriyada, İranda, Ukraynada, Gürcüstanda, Orta Asiya və Qazaxıstanda, ölkənin müxtəlif regionlarında müxbir məntəqələri fəaliyyət göstərir.

Memarı və qurucusu Heydər Əliyev olan müstəqil Azərbaycanın inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq yaradıcılıqla davam etdirilməsi nəticəsində respublikanın

regionda lider dövlətə çevrilməsi, dünyada mövqeyinin möhkəmlənməsi AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsinə, onun dünya informasiya məkanına inteqrasiyasına müsbət təsir göstərən amillərdən biridir. İndi dünyanın tanınmış xəbər agentlikləri AzərTAc-a maraq göstərir, bizi mass-media ilə bu və ya digər şəkildə əlaqədar olan ən mötəbər beynəlxalq tədbirlərə dəvət edirlər. Hazırda Azərbaycan bir sıra ölkələrin informasiya agentlikləri ilə, məsələn, İTAR-TASS (Rusiya), Anadolu Agentliyi (Türkiyə), Sinxua (Çin), Ukrinform (Ukrayna), BTA (Bolqarıstan), ANSA (İtaliya), İRNA (İran), TANYUQ (Serbiya), BELTA (Belarus), ATA (Albaniya), MTİ (Macarıstan), MENA (Misir), PETRA (İordaniya), ANTARA (İndoneziya) informasiya agentlikləri ilə əməkdaşlıq edir. Bundan əlavə, AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir.

2004-cü ilin sentyabrında AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü olmuşdur. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə edə bilər. 2007-ci il dekabrın 12-də isə OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən iclasında AzərTAc bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvü seçilmişdir.

2008-ci il aprelin 18-də AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilməsi agentliyimizin həyatında ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir. Beləliklə, AzərTAc postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi və həmin təşkilatın sayca 31-ci üzvü olmuşdur.

2008-ci ildən AzərTAc Asiya Xəbər Agentlikləri Konsorsiumunun ("AsiaPulse") üzvüdür.

AzərTAc artıq regional və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. 2008-ci il aprelin 30-u – mayın 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclası keçirilmişdir.

Hazırda TKA-da AzərTAc sədrlik edir.

Ötən il sentyabrın 1-4-də isə AzərTAc-ın ev sahibliyi ilə OANA İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclası keçirilmişdir. İlk dəfə idi ki, dünyanın 21 ölkəsindən ən nüfuzlu xəbər agentliklərinin rəhbərləri və yüksək vəzifəli təmsilçiləri respublikamıza gəlmişdilər. Azərbaycanın ictimai həyatında mühüm hadisə olan bu toplantının əhəmiyyəti həm də onda idi ki, OANA və EANA-nın tarixində ilk dəfə olaraq, bu qurumların rəhbərləri tədbirdə birlikdə iştirak edirdilər. Azərbaycan Prezidenti cənab İlham Əliyevin iclas iştirakçılarını qəbul etməsi qonaqlarda çox böyük təəssürat doğurmuşdur.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan reallıqlarının yayılma coğrafiyasının genişləndirilməsi ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. İndi tam məsuliyyətlə deyə bilərik ki, ümummilli liderimizin bu arzusu da reallığa çevrilmişdir.

Bu yazını ulu öndərimiz Heydər Əliyevin sözün qüdrətinə verdiyi qiyməti son dərəcə bariz səciyyələndirən bir faktla bitirmək istəyirəm. 1995-ci ilin aprelində Prezident Heydər Əliyev xalq şairləri Bəxtiyar Vahabzadəni, Məmməd Arazı və Xəlil Rzanı Azərbaycanın o vaxtkı ən yüksək dövlət mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişdi. Ulu öndər aprelin 16-da filarmoniyada Məmməd Arazın yaradıcılıq gecəsindən sonra ziyalılarla görüşdə demişdi ki, mən bir neçə aydır düşünür, çox götür-qoy edirdim ki, ən yüksək mükafatı birinci kimlər almalıdır. Qərara gəldim ki, buna bizim şəxsiyyətlərimiz – Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rza layiq görülməlidirlər. Mən bu üç şəxsin adını fərəhlə çəkirəm. Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. İnsanlara isə şeir, ədəbiyyat qədər mədəniyyət nümunələri qədər güclü təsir edən başqa bir vasitə yoxdur.

Nəhayət, ümummilli liderin "Dil böyük bir aləmdir" kəlamı da bu dahi insanın sözə, onun qüdrətinə verdiyi qiymətin daha bir nümunəsi, təsdiqidir.

"Azərbaycan" qəzeti, 6 may 2009-cu il.

Heydər Əliyev Azərbaycan mətbuatının böyük qayğıkeşi və himayəçisi idi

Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəkliklərə qalxmışdır. Belə hünərlər göstərən şəxsiyyət fövqəladə şəxsiyyətdir.

Aleksandr Adler
"Kuryer İnternasional" jurnalının
(Fransa) baş redaktoru

Bəli, Heydər Əliyevin hakimiyyətin yüksək pilləsində bir qərinə sürən siyasi uzunömürlülüyü ərzindəki nəhəng fəaliyyətini, sadəcə, göz önünə gətirəndə onun fövqəladə şəxsiyyət olduğunu görməmək mümkün deyildir. Bizim üçün xüsusilə qürur mənbəyidir ki, Heydər Əliyevi dünya belə tanıyır və qəbul edir, ötən əsrin və müasir dövrün görkəmli şəxsiyyətləri onu yeni və ən yeni tarixin ən məşhur siyasi və dövlət xadimləri ilə müqayisə edirlər.

"Heydər Əliyev və Azərbaycan". İndi artıq zərb-məsəl kimi səslənən bu sözlərin necə dərin məna daşıdığını hamımız bilirik. Çünki Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrünün Heydər Əliyevin adı ilə bağlı olması danılmaz həqiqətdir. Qısaca desək, bu sözlərin arxasında ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın bütün sahələrdə sürətli inkişafı, 90-cı illərin əvvəllərində dövlətçiliyimizin xilası və nəhayət, ulu öndərin özünün dediyi kimi, müstəqilliyimizin əbədi və dönməz olması, ölkəmizin dünya birliyində öz yerini tutması dayanır.

Eyni zamanda, qətiyyətlə deyə bilərik ki, ictimai-siyasi fikir tariximizdə, geniş mənada mədəniyyət tariximizdə xüsusi yeri olan milli mətbuatımızın bu illər ərzində inkişafında da ümummilli liderimizin rolu və xidmətləri əvəzsizdir.

Bütün bunlar Heydər Əliyev şəxsiyyətinin qeyri-adi dərəcədə böyüklüyü, onun müdrikliyi və xarizmatik lider keyfiyyətləri ilə izah edilir. Tarixdə görkəmli şəxsiyyətlər çox olmuşdur. Lakin onların heç də hamısının hərtərəfli biliyə, ensiklopedik erudisiyaya, fenomenal yaddaşa, güclü məntiqə malik olduğunu söyləmək çətindir. Heydər Əliyev yüksək insani keyfiyyətləri ilə yanaşı, bütün bu cəhətləri özündə birləşdirən şəxsiyyət olmuşdur. Bunu ulu öndərlə bircə dəfə görüşüb söhbət edən insanlar da hiss edirdilər və bu barədə çox misallar çəkmək olar. Lakin bu yazı mətbuatla bağlı olduğuna görə, italyan jurnalisti, Romanın La Sapienza Universitetinin professoru Konsuelo Priaskonun sözlərini xatırlatmaq istəyirəm: "Prezident Heydər Əliyevin şəxsiyyətindən duyulan fövqəladə xarizma məni valeh etmişdi. Görkəmli şəxslərlə görüşməyə adət etmişəm, lakin Prezident Heydər Əliyevdə heç kəsdə görmədiyim insanpərvərliyin, altruizmin və uzaqgörənliyin şahidi oldum.

Bu həqiqətdir ki, Prezident Heydər Əliyev əbədi olaraq yeri görünəcək böyük liderdir... Əminəm ki, tarix onun barəsində böyük hörmət və minnətdarlıqla danışacaqdır".

Heydər Əliyev birinci dəfə Azərbaycanda siyasi rəhbərliyə gəldiyi vaxtdan, bütün başqa sahələr kimi, mətbuata da xüsusi diqqət yetirirdi. Çünki o, mətbuatın ictimai-siyasi həyatda rolunu, cəmiyyətdə ictimai rəyin formalaşmasına təsir gücünü çox gözəl bilirdi. Onu da bilirdi ki, respublikada başladığı böyük işlərin informasiya təminatı yalnız KİV vasitəsilə mümkündür. Bu baxımdan "qəzet yalnız kollektiv təşviqatçı və təbliğatçı deyil, həm də kollektiv təşkilatçıdır" deyiminin doğruluğuna yəqin ki, bu gün də şübhə edən olmaz.

Akademik Ramiz Mehdiyevin vurğuladığı kimi, Heydər Əliyev sözə münasibətdə çox həssas idi, sözün həm yerini, həm də qədrini bilirdi. Onun mətbuata diqqət və qayğısını, jurnalist peşəsini, bu sahədə çalışanların əməyini yüksək qiymətləndirməsini həm də bununla izah etmək olar. Ümummilli liderimiz jurnalistlərlə görüşlərindən birində deyirdi: "Jurnalis-

tikaya mənim hörmətimə, ehtiramıma şübhəniz olmasın... Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir".

Heydər Əliyev milli mətbuatımızın tarixindən danışarkən onu üç mərhələyə bölürdü: Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetini nəşrə başlamasından Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədərki dövr; sovet hakimiyyəti dövrü; Azərbaycanda 1990-cı illərin əvvəlində ilk müstəqil qəzetlərin yarandığı vaxtdan sonrakı dövr.

Ulu öndərimiz birinci dövrü xalqımızın tarixində çox şərəfli bir dövr kimi qiymətləndirir və deyirdi ki, məhz bu dövr Azərbaycanda dünyəvi, ümumbəşəri dəyərlərin və demokratik fikirlərin yaranmasını ardıcıl şəkildə təmin etmiş bir dövrdür. Bunu isə Azərbaycan xalqının ağıllı, mütəfəkkir, çox cəsarətli insanları ediblər.

İkinci mərhələni də obyektiv qiymətləndirən Heydər Əliyev vurğulayırdı ki, kommunist rejimi dövründə də "Əkinçi" qəzeti böyük iftixar hissi ilə xatırlanırdı, bu qəzet və Həsən bəy Zərdabinin yaradıcılığı haqqında geniş tədqiqatlar aparılmışdır. Totalitar rejimdə yaşamağımıza baxmayaraq, o illərdə də mətbuatımız inkişaf etmişdir.

Təbii ki, sovet dövründəki mətbuat, radio və televiziya bugünkündən tamamilə fərqli idi və o vaxt azad, müstəqil mətbuat haqqında söhbət gedə bilməzdi. Nəhəng sovet təbliğat maşını və onun əsas carçısı olan KİV-lər yalnız kommunist ideologiyasına xidmət edirdi. Sərt senzura isə ölkədə nəinki bu sahəyə, ümumən bütün çap məhsullarına ciddi nəzarət edirdi.

Lakin Heydər Əliyev sübut etdi ki, belə bir şəraitdə, bu cür sərt çərçivədə də nə isə etmək mümkündür. Onun respublikaya rəhbərliyinin birinci dövründə buna dair çoxsaylı misallar var. Heydər Əliyev mətbuata, jurnalistlərə mümkün olan həddə yaradıcılıq sərbəstliyi verilməsinə çalışır, onları cürbəcür təzyiq və təqiblərdən qoruyur, cəmiyyətdə mətbuatın ictimai mövqeyinin, təsir gücünün və nüfuzunun artmasına qayğı göstərirdi. Məsələn, mətbuatımızın gənc nəslinin nümayəndələrinə o illəri xatırladaraq deyirdi: "Keçmişdə, sovet hakimiyyəti vaxtında mən Azərbaycana rəhbərlik edərkən bizdə bir mətbuat – kommunist mətbuatı var idi. Amma mən bu mətbuatı bizim nöqsanları araşdırmağa, aşkara çıxarmağa yönəldirdim... Məsələn, "Kommunist" qəzeti, yaxud "Bakinski raboçi",

"Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana", "Sovet kəndi" və başqa qəzetlər nə qədər tənqidi məqalələr dərc edirdilər...

Xatirimdədir, 1970-ci illərdə "Kommunist" qəzeti Lənkəran hadisələri haqqında bir səhifə material yazmışdı... Mən həmin məsələni on gündən sonra büroya çıxardım. Müzakirə etdim, rayonun bütün rəhbərlərini işdən çıxardım və Kommunist partiyasından xaric etdim. "Kommunist" qəzeti ruhlandı, sonra gedib Göyçay rayonunda və başqa yerlərdə belə hadisələri açdılar...

O vaxt bütün bunlar iqtidarın, necə deyərlər, münasibətindən asılı idi. Amma elə respublikalar var idi ki, orada belə şeylərə yol verilmirdi. Xatirimdədir, bizim "Bakinski raboçi" qəzetini Yerevanda, Tbilisidə 25 manata satırdılar, amma öz qiyməti 2 qəpik idi. Onu niyə belə alırdılar? Çünki həmin respublikalarda da belə proseslər var idi. Amma orada bu proseslərin üstünü bağlayırdılar, açılmağa qoymurdular".

Ulu öndər sovet dövrünün məhdud imkanlarından bacarıqla istifadə edərək, Azərbaycanda milli ruhun dirçəldilməsinə, mədəniyyətimizin inkişafına yönəldilmiş böyük işlər görürdü. Məhz buna görə də, akademik Ramiz Mehdiyevin vurğuladığı kimi, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın və müraciətin yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul etmək lazımdır.

Bu baxımdan mətbuatın, ədəbiyyatın, mədəniyyətin cəmiyyətdə nə kimi rolu olduğunu çox gözəl bilən Heydər Əliyev həmin sahələrə qayğısını, himayəsini əsirgəmirdi. O vaxtlar hətta Moskvada, Leninqradda çıxan jurnallarda çapı mümkün olmayan "dissident" materialları Bakı mətbuatında dərc edilirdi.

Doğrudur, burada da həmin nəşrlər və müəlliflər haqqında çuğulluq edənlər vardı. Lakin Heydər Əliyev jurnalları və müəllifləri belə hücumlardan və təzyiqlərdən qoruyurdu. O, 1997-ci ilin oktyabrında Azərbaycan yazıçılarının X qurultayında bu barədə danışarkən deyirdi ki, yazıçı və şairlər "Qobustan", "Ulduz", "Azərbaycan" jurnallarında heç bir məhdudiyyət olmadan əsərlərini dərc etdirirdilər.

Yeri gəlmişkən xatırladaq ki, Heydər Əliyevin o illərdə ittifaq mətbuatında dərc olunan müsahibələri də ölkədə çox böyük əks-səda doğu-

rurdu. Ümummilli liderimiz 2002-ci ilin iyulunda jurnalistlərlə görüşündə 1979-cu ildə "Literaturnaya qazeta"da "Qoy ədalət zəfər çalsın" adı altında dərc olunmuş müsahibəsi barədə SSRİ DTK-nın sədri və Siyasi Büronun üzvü Yuri Andropovla telefon söhbətini xatırlatmışdı. O vaxt Andropov bildirmişdi ki, müsahibə çox böyük sensasiya doğurub, insanlar cəmiyyətdəki yaraları görür və sevinirlər ki, kimsə cəsarət edib bunları deyir, özü də ən yüksək vəzifədə çalışan bir adam deyir. Əleyhinə olanlar da var, çünki onlar belə halların açıqlanmasını istəmirlər.

Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyi dövründə mətbuat, onun inkişafına diqqət və qayğı tamamilə yeni məzmun və miqyas almış, artıq dövlət siyasəti səviyyəsinə yüksəlmişdi. 1995-ci ildə qəbul edilmiş Konstitusiyada fikir, söz və məlumat azadlığının təsbit olunması, "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" (1998) fərman, "Kütləvi informasiya vasitələri haqqında" qanun (1999), "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər proqramı" (2000), "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam (2001), "Kütləvi informasiya vasitələri haqqında" qanuna əlavə və dəyişikliklər haqqında" qanun (2002), "Kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" (2002) sərəncam bunun bariz nümunəsidir.

Məhz Heydər Əliyevin sayəsində senzuranın ləğvi kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin demokratikləşməsinə təsir edən güclü vasitəyə çevrilməsi baxımından çox mühüm hadisə olmuşdur. Ümummilli liderimiz memarı və qurucusu olduğu müstəqil Azərbaycanda dövlətin və şəxsən özünün mətbuata münasibətindən danışarkən deyirdi: "Bizim ümumi məqsədimiz mətbuata daha çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir. Bilin, bu, mənim səmimi sözlərimdir. Sözlər deyil, bu, mənim siyasətimdir... Çünki biz tamamilə başqa bir şəraitdə, cəmiyyətdə yaşayırıq. Bu cəmiyyətdə hər şey aşkar olmalıdır. Hər kəs öz fikrini açıq deməlidir". Eyni zamanda, o, mətbuat nümayəndələrinə yazılarında ədalətli, obyektiv olmağı tövsiyə edirdi.

Qətiyyətlə deyə bilərik ki, çağdaş dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək dəyərləndirən ikinci bir lider olmamışdır. Elə buna görə də jurnalistlər daim onunla ünsiyyətə can atırdılar. Heydər Əliyev hələ blokada şəraitində olan Naxçıvanda yaşayarkən keçmiş ittifaqın müxtəlif yerlərindən, habelə dünyanın bir sıra ölkələrindən nüfuzlu mətbuat orqanlarının təmsilçiləri cürbəcür çətinliklərə qatlaşaraq, onunla görüşmək, müsahibə almaq, cərəyan edən mürəkkəb hadisələr haqqında bu müdrik insanın fikirlərini öyrənmək üçün oraya gedirdilər. Çünki bilirdilər ki, Heydər Əliyev kimi şəxsiyyətlə hər bir görüş, yaxın ünsiyyət jurnalist üçün gözəl fürsət, yaxşı dərsdir.

Ulu öndərin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Fərmanında deyilir: "Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın inkişafı üçün təməl daşları rolunu oynadı". Mətbuatımızın rolunu, ilk növbədə, həmin prinsiplərə əməl etməkdə görən, jurnalistləri daim buna istiqamətləndirən xalqımızın müdrik oğlu respublikamıza rəhbərlik etdiyi illərdə, həqiqətən, böyük bir jurnalistika məktəbi yaratmış və Azərbaycan jurnalistlərinin əksər hissəsi bu məktəbdən dərs almışdır.

Heydər Əliyev jurnalistlərlə hər yerdə və istənilən mövzuda danışmağa, onları maraqlandıran ən müxtəlif məsələlərə ətraflı cavab verməyə hazır idi. Çox vaxt KİV nümayəndələri ən mühüm xəbərləri, ilk növbədə, ondan öyrənirdilər. O, yüksək peşəkarlığı olan, işinə sədaqətli və məsələlərə obyektiv yanaşan jurnalistlərin əməyini də qiymətləndirir, onları hər cəhətdən dəstəkləyirdi. Eyni zamanda, bunu dövlət məmurlarına da daim tövsiyə edir, onları mətbuata qarşı dözümlü olmağa çağırırdı.

Bütün bunların nəticəsidir ki, Heydər Əliyev 2001-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdü. Ulu öndərimiz həmin mükafatın təqdim edilməsi mərasimində demişdi: "Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salanda görürük ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad

olmayıbdır". Bu, həqiqət olmaqla bərabər, ilk növbədə, böyük şəxsiyyətin mətbuatımızın inkişafı naminə gördüyü işlərin nəticəsidir.

Azərbaycan dünya birliyinə inteqrasiya edir, nüfuzlu beynəlxalq qurumların üzvüdür. Bu amilləri nəzərə alaraq, mətbuatımız Azərbaycanın beynəlxalq imicini qorumağa borcludur, siyasi yönümündən, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, milli mətbuatımızın tarixi ənənələrini yaşatmaqla bərabər, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi prinsipləri fəaliyyətimizdə əsas normaya çevirməliyik.

Heydər Əliyevin müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli, əhatəli nitqləri siyasi publisistikanın son dərəcə gözəl, təkrarsız nümunələridir. Bütün bunlar dönə-dönə nəzərdən keçirilməli, təhlil edilməli, diqqətlə öyrənilməlidir. Heydər Əliyevin siyasi publisistikası hazırda inkişafının yeni mərhələsini yaşayan Azərbaycan jurnalistikası, milli mətbuatımız üçün əvəzsiz xəzinədir.

Ümummilli liderin mətbuatımızın inkişafına diqqət və qayğısının əyani təsdiqi kimi, AzərTAc ilə bağlı bir sıra məqamları xatırlatmaq istərdim. Heydər Əliyev hələ respublikamıza rəhbərliyinin birinci dövründə AzərTAc-ın – keçmiş Azərinformun da inkişafını, nüfuzunun artmasını diqqət mərkəzində saxlamışdır. Ötən əsrin 70-80-ci illərində keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevrilmiş, dünyanın diqqətini cəlb etməyə başlamış Azərbaycandakı vüsətli quruculuq işləri haqqında informasiyalar "SİTA xəbər verir" qrifi ilə Moskvanı aşıb bütün dünyaya yol açırdı. Əlbəttə, o dövrdə bu, heç də asan məsələ deyildi. Lakin Heydər Əliyevin şəxsi nüfuzu, qüdrəti bütün sədləri aşmağa imkan verirdi. SİTA kimi dünyanın nəhəng informasiya maşınının sükançıları artıq SSRİ rəhbərliyinin də böyük rəğbət bəslədiyi, hesablaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı böyük uğurlar barədə xəbərləri həm də dünyaya yaymaqla, Azərinforma hər cür kömək göstərdiklərini sübut etməyə çalışırdılar. Beləliklə, Azərinform da SİTA-nın müttəfiq respublikalardakı filialları arasında ön mövqeyə çıxmağa nail olmuşdu.

Ancaq müstəqil Azərbaycan dövləti kimi, AzərTAc da inkişafının müasir mərhələsinə xalqımızın təkidi ilə ümummilli liderin yenidən siyasi hakimiyyətə qayıdışından sonra qədəm qoymuşdur. Ulu öndərimizin 1995-ci ildən etibarən Azərbaycan Dövlət Teleqraf Agentliyi ilə bağlı imzaladığı

fərman və sərəncamlar agentliyin işinin yaxşılaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır.

"Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Prezidentin 1995-ci il 3 mart tarixli Fərmanının məqsədi dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında, Azərbaycan haqqında operativ məlumatların beynəlxalq miqyasda geniş yayılmasında agentliyin imkanlarından daha dolğun istifadə edilməsinə şərait yaratmaq idi. Həmin Fərmanla Azərbaycan Teleqraf Agentliyi rəsmi dövlət informasiya orqanı statusu aldı.

Ümummilli liderimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsini, işçilərin maddi təminatının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayırdı. Onun Azərbaycan Dövlət Teleqraf Agentliyinin işinin yaxşılaşdırılması haqqında 1996-cı il 29 iyun tarixli Sərəncamından sonra AzərTAc-ın tarixində ilk dəfə olaraq, bir sıra xarici ölkələrdə agentliyin müxbir məntəqələri yaradıldı.

Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində respublikamızın beynəlxalq əlaqələri genişlənir, müstəqil dövlətimizin dünya miqyasında nüfuzu artır, ölkəmizə maraq güclənirdi. Belə bir şəraitdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün agentliyin fəaliyyətinin günün tələbləri səviyyəsində təkmilləşdirilməsi tələb olunurdu. Məhz buna görə də agentliyin tərkibində xarici dillərdə xəbərlər hazırlayan və yayan baş redaksiya yaradıldı, digər müvafiq tədbirlər görüldü.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada yayılması Heydər Əliyevin ən böyük arzularından biri idi. Ulu öndərimizin 2000-ci ilin fevralında, AzərTAc-ın 80 illiyi münasibətilə kollektivimizə təbrikində deyilirdi: "Əmin olduğumu bildirirəm ki, bütün imkanlardan istifadə edərək, agentliyin kollektivi gənc, müstəqil dövlətimizin çiçəklənməsi naminə Azərbaycan həqiqətlərinin ölkə ictimaiyyətinə və beynəlxalq aləmə çevik və dolğun şəkildə çatdırılmasında yüksək peşəkarlıq nümayiş etdirəcək, vətənimizə və xalqımıza sədaqətlə xidmət edəcəkdir".

Bu gün qürur hissi ilə deyə bilərik ki, AzərTAc dünya informasiya məkanına çıxmışdır. Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə

Azərbaycanın hər sahədə qazandığı uğurlar, bölgənin şəksiz lider dövlətinə çevrilməsi, beynəlxalq aləmdə nüfuzunun artması və mövqelərinin möhkəmlənməsi ölkəmizin aparıcı xəbər agentliyi kimi AzərTAc-ın xarici əlaqələrinin genişlənməsinə çox böyük müsbət təsir göstərmişdir. Bu gün bizi tanıyır və tərəfdaş kimi qəbul edirlər.

2008-ci il sentyabrın 1-4-də AzərTAc-ın təşkilatçılığı ilə Bakıda OANA İcraiyyə Komitəsinin 30-cu iclasının keçirilməsi isə ölkəmizin ictimai həyatında mühüm hadisə olmuşdur. İlk dəfə idi ki, dünyanın 21 ölkəsinin aparıcı xəbər agentliklərinin rəhbərləri və yüksək vəzifəli nümayəndələri, o cümlədən OANA və EANA-nın prezidentləri Azərbaycan paytaxtına toplaşmışdılar. Azərbaycan Prezidenti İlham Əliyev iclas iştirakçılarına təbrik məktubu göndərmiş və onları qəbul etmişdir.

Ulu öndərimizin əsasını qoyduğu xətt – milli mətbuatımıza, bütövlükdə kütləvi informasiya vasitələrinə dövlət səviyyəsində diqqət və qayğı hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Buna misal olaraq son illərdə imzalanmış bir sıra sənədləri – "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" (21 iyul 2005-ci il), "Qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi haqqında" (8 fevral 2006-cı il), "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında" və "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqnda" (31 iyul 2008-ci il) sərəncamları göstərə bilərik.

Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsinin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas şərtlərindən biri olduğunu nəzərə alsaq, sonuncu sərəncamın əhəmiyyəti xüsusi vurğulanmalıdır. Ölkəmizdə bu sahədə ən mükəmməl sənəd olan Konsepsiyada vətəndaş cəmiyyətinin tələblərinə uyğun olaraq, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin əsas prinsipləri, formaları, vasitələri və sahələri, maliyyə vəsaitinin ayrılması şərtləri müəyyən olunmuşdur.

Prezident İlham Əliyev 2008-ci il sentyabrın 2-də OANA İcraiyyə Komitəsinin 30-cu iclasının iştirakçıları ilə görüşündə Azərbaycanda

dövlətin informasiya siyasətinin məqsədini və ölkədə media sahəsindəki vəziyyəti şərh edərkən demişdir: "Azərbaycanda biz elə bir mühit yaratmağa çalışırıq ki, bütün media qurumları özlərini azad hiss etsin, öz baxışlarını sərbəst ifadə edə bilsin... Hesab edirəm ki, biz Azərbaycanda bütün media qurumları üçün bərabər şəraitin yaradılmasına nail olmuşuq, söz azadlığı, informasiya azadlığı tam təmin edilmişdir. Bizim təcrübəmiz bu sahədə keçid dövrünün necə baş verməsini görmək üçün maraqlı ola bilər".

Heydər Əliyev ideyaları XXI əsrdə
Azərbaycanın inkişaf yolu.
Bakı, "Azərbaycan" nəşriyyatı, 2009-cu il.

AzərTAc dünya informasiya agentliklərinin vahid ailəsində

Tarixi sənədlər göstərir ki, 1920-ci il fevralın 2-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Camo bəy Hacınskinin başçılıq etdiyi Poçt və Teleqraf Nazirliyi yanında Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yaradılması haqqında qərar qəbul etmişdir. Qərara əsasən AzərTAc daxili və xarici xronika, habelə dövlət idarəçiliyinin bütün sahələri üzrə hökumət xəbərləri şöbələrindən ibarət idi.

Bu, həyati əhəmiyyətli bir addım idi, çünki gənc respublikanın düşmənləri mötəbər və zəruri informasiyanın olmamasından istifadə edən həqiqətə uyğun olmayan müxtəlif məlumatlar və şayiələr yayır, bunlara cavab vermək mümkün olmurdu.

Suveren Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edəndən dərhal sonra özünə qarşı qərəzli, düşmənçilik xarakterli münasibətlə hələ çox üzləşəcəkdir. Praktiki olaraq bu tarixi andan etibarən AzərTAc-ın üzərinə çox çətin və şərəfli bir vəzifə – müstəqilliyin ilk illərində ölkəmizin düşdüyü informasiya blokadasını yarmaq vəzifəsi düşmüşdü. Belə bir vaxtda ölkənin ən qədim xəbər agentliyi onun qarşısında qoyulmuş vəzifənin yerinə yetirilməsinə görə bütün məsuliyyəti başa düşərək işə başladı...

AzərTAc haqqında danışarkən unutmaq olmaz ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev mətbuata çox böyük diqqət yetirir, jurnalistlərlə sıx əlaqə saxlamağa çalışırdı. Jurnalistliyi çox mühüm peşə hesab edən Heydər Əliyev deyirdi: "Demokratik, hüquqi, dünyəvi qanunlarla yaşayan dövlətdə jurnalistika çox mühüm peşə, mətbuat çox mühüm sahədir. Bu mənim fikrimdir və bu fikir heç vaxt dəyişməyəcəkdir".

Heydər Əliyevin jurnalistlərə verdiyi tövsiyələr sözün tam mənasında peşəkar jurnalist dərsləri, əsl ustad dərsləri idi. O, Azərbaycan mətbuatından 3 əsas prinsipə əməl olunmasını tələb edirdi: dövlətçiliyə xidmət etmək, azərbaycançılıq ideologiyasının təbliği və ümumbəşəri dəyərlərə hörmət.

Heydər Əliyev hakimiyyətə gələndən sonra elə ilk günlərdən AzərTAc-ın ən müasir avadanlıqla təchiz edilməsi, onun əməkdaşlarının əmək və məişət şəraitlərinin yaxşılaşdırılması üçün çox iş görmüşdür. Bizim agentlik də öz növbəsində bu diqqətə, bu atalıq qayğısına layiq olmağa çalışmış-

dır. Biz Azərbaycan haqqında həqiqəti mütəmadi və məqsədyönlü şəkildə dünya ictimaiyyətinə çatdırır, ölkəmizi dünya informasiya məkanında populyarlaşdırırdıq.

2005-ci ildə agentlik özünün 85 illiyini qeyd etmişdir. Prezident İlham Əliyevin Sərəncamı ilə yubiley ərəfəsində – fevralın 28-də AzərTAc-ın 13 əməkdaşı "Tərəqqi" medalı ilə təltif edilmiş, 5 əməkdaşa isə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilmişdir. Bu, əyani şəkildə göstərir ki, Prezident İlham Əliyev ümummilli liderə xas olan fərqləndirici cəhəti – Azərbaycan mətbuatına qayğıkeş münasibəti davam etdirir. Bu, bizim agentliyin fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Bu gün AzərTAc ölkənin ictimai-siyasi, sosial və mədəni həyatı haqqında informasiya toplayan və buraxan, bu məlumatı kütləvi informasiya vasitələrinə, Azərbaycan Respublikasının dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara, habelə ictimai birliklərə operativ şəkildə çatdıran dövlət orqanıdır. Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi, onun işinin təkmilləşdirilməsi, daha operativ və səmərəli təşkil edilməsi üzrə mühüm tədbirlər qoyulmuşdu.

İnformasiyanın ictimai əhəmiyyəti, mötəbərliyi, dəqiqliyi və operativliyi – bizim agentlik öz işində bu prinsipləri, bu meyarları rəhbər tutur. Bu gün AzərTAc-da yüksək peşəkar səviyyəli mütəxəssislər işləyir, yaradıcı kollektiv çox səylə seçilir. Bizim agentliyin sərəncamında ən müasir server qurğuları vardır. Zəngin informasiya materialı və agentliyin fotoarxivi həmin qurğuda saxlanılır.

Azərbaycan və rus dilində redaksiyalarla yanaşı, ingilis dili departamenti də yaradılmışdır. Agentliyin saytında Azərbaycan, rus və ingilis dillərində operativ materiallar yerləşdirilir.

Azərbaycanın bütün bölgələrində, həmçinin ABŞ, Türkiyə, Rusiya, Fransa, Avstriya, Almaniya, İran, Gürcüstan, Ukrayna, Mərkəzi Asiya və Qazaxıstanda müxbir məntəqələri açılmışdır.

Son illərdə AzərTAc-ın işi xeyli intensivləşmişdir. İnformasiyanın həcmi on dəfə artmışdır. Fasiləsiz rejimdə işləyən agentlik hər gün təxminən 400 min işarə həcmində xəbərlər və 40 fotoinformasiya buraxır.

Azərbaycan dövlətinin həyatının bütün sahələrində əsaslı dəyişikliklər, Avropanın enerji təhlükəsizliyinə sanballı töhfə verən ölkəmizin uğurları,

sabaha inamla baxan gənclərimiz haqqında informasiya bizim agentlik vasitəsilə həm daxili kanallar üzrə, həm də uzaq xaricdə geniş yayılır.

Agentliyin xarici əlaqələri nəzərəçarpacaq dərəcədə genişlənmişdir. 2004-cü ilin sentyabr ayında AzərTAc iri regional pultun – Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının üzvü olmuşdur. İndi bizim agentliyin məlumatları OANA-nın rəsmi saytında yerləşdirilir və 32 ölkədən bu təşkilata üzv olan digər 39 agentlik həmin məlumatlardan istifadə edə bilər.

AzərTAc MDB məkanında həmin təşkilatda təmsil olunmuş dördüncü agentlikdir. Biz həm də OANA İcraiyyə Komitəsinin Bürosunun – bu strukturun rəhbər orqanının üzvü seçilmişik.

Bizim agentlik MDB Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Ölkələri Assosiasiyasının (BSANNA) təsisçilərindın biridir. AzərTAc 2008-ci ildən Asiya Xəbər Agentlikləri Konsorsiumunun ("Asia Pulse") üzvüdür.

2008-ci il aprelin 18-də AzərTAc Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilmişdir. Bu əlamətdar fakt dünya informasiya məkanında bizim agentliyin nüfuzunun get-gedə artmasına dəlalət edir.

İndi AzərTAc Dünya İnformasiya Agentliklərinin iki ən iri regional strukturunda – OANA və EANA-da təmsil olunmuşdur. Bu, dinamik inkişaf edən, demokratik cəmiyyət quran Azərbaycan haqqında həqiqətin dünyada daha geniş yayılması üçün yeni imkanlar açır.

İndi biz özümüz regional və beynəlxalq tədbirlər keçiririk. 2008-ci il aprelin sonu – mayın əvvəlində Bakıda TKA Baş Məclisinin iclası keçirilmiş, həmin iclasda TKA-da sədrlik AzərTAc-a keçmişdir. 2009-cu il sentyabrın 1-dən 4-dək AzərTAc-ın təşəbbüsü ilə OANA İcraiyyə Komitəsinin 30-cu iclası Azərbaycan paytaxtında keçirilmişdir.

OANA-nın prezidenti, İndoneziyanın Antara agentliyinin baş icraçı direktoru Əhməd Muxlis Yusuf, Türkiyə, Rusiya, Yaponiya, Çin, İran, Koreya Respublikası, Malayziya, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Vyetnam, Qətər, Küveyt, Suriya, Birləşmiş Ərəb Əmirlikləri və Yəmənin milli informasiya strukturlarının rəhbərləri və yüksək vəzifəli nümayəndələri, habelə EANA-nın prezidenti, Avstriyanın APA agentliyinin baş direktoru Volfqanq

Vislozil, Bolqarıstan, Fransa, İordaniya milli agentliklərinin rəhbərləri ilk dəfə Azərbaycan paytaxtında toplaşmışdılar.

Beləliklə, Şərq və Qərb, Avropa və Asiya Bakıda qovuşdu. Bu tarixi vəhdətdə AzərTAc-ın da rolu az olmamışdır.

"Pedaqoji aləm" jurnalı, 2008-2009-cu il.

Heydər Əliyevin siyasi irsi müasir Azərbaycan jurnalistikası üçün əbədi xəzinədir

Müasir müstəqil dövlətimizin memarı və yaradıcısı Heydər Əliyevin siyasi irsi Azərbaycan jurnalistikası üçün əbədi xəzinədir. Bu zəngin irsin tədqiqatçıları yaxşı bilirlər ki, Azərbaycan tarixinin son 30 ildən çox bir dövrünün elə bir sahəsi yoxdur ki, ümummilli lider Heydər Əliyevin dərin məzmunlu, aydın məfkurəli və məntiqli, zəngin faktlar, elmi və sosioloji təhlillər üzərində qurulmuş nitqlərində, çıxışlarında öz əksini tapmasın. Bu nitqlərin və çıxışların hər biri siyasi publisistikanın son dərəcə mükəmməl, təkrarsız və orijinal nümunəsidir.

Ümummilli lider Heydər Əliyevin siyasi irsi Azərbaycanın ən yeni tarixinin araşdırıcıları, ölkənin ötən əsrin 70-ci illərindən bəri keçdiyi sürətli inkişaf yolunun siyasi-iqtisadi, sosial-ictimai, elmi-mədəni mənzərəsinin politoloji və publisistik təhlilinə çalışan mətbuat işçiləri üçün sözün həqiqi mənasında əvəzsiz xəzinə, milli sərvətdir.

Heydər Əliyevin biri digərindən maraqlı, faktlarla zəngin, rəvan və ahəngdar nitqləri, çıxışları dünyanı heyran qoyan bu dahi insanın qüdrətli zəkasını, yenilməz iradəsini, şəxsiyyətinin qüdrətini bütün əzəməti ilə əks etdirir.

Heydər Əliyev dühasının, onun çoxşaxəli fəaliyyətinin bütün bu məziyyətlərini "Həyat dərsi" adlı məqaləsində dolğun və dəqiq ifadə edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yazır: "XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər. Heydər Əliyev. Tarix salnaməsinin XXI əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider".

Mehriban xanım Əliyeva çox dəqiq müəyyən edib: Heydər Əliyev kimi böyük bir tarixi simanın irsinin öyrənilməsinə üç başlıca mövqedən – onun xalqına və ölkəsinə sonsuz sədaqət nümunəsi olan vətəndaş, qüdrətli şəxsiyyət və dövlət xadimi, nəhayət, bütün dünyada şəksiz lider kimi tanınması mövqelərindən yanaşmaq lazımdır.

Heydər Əliyevin siyasi irsinin araşdırıcıları da, dünyanın tanınmış ictimai-siyasi xadimləri də belə bir məqamı xüsusi vurğulayırlar ki, ulu öndər fenomen şəxsiyyətdir. O, siyasətdən danışanda müsahibini dərin məntiqi ilə məftun edir, iqtisadiyyatdan söhbət açanda bu sahənin ən görkəmli mütəxəssislərini belə heyran qoyur, tarixdən, ədəbiyyatdan, mədəniyyətdən, elmdən bəhs edəndə dinləyicilərin qəlbinə hakim kəsilirdi.

Bu baxımdan akademik Ramiz Mehdiyevin sözlərini xatırlamaq yerinə düşər: "Heydər Əliyev həm özünün nadir istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq, müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, məhz buna görə Azərbaycan tarixinin 1969-cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqı üçüncü minilliyə də məhz Heydər Əliyevin adı ilə qədəm qoymuşdur. Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsindən ibarət olmuşdur. Onun fəlsəfəsi sırf ehkamlaşdırılmış əsərlərdə təsvir edilən hər hansı təlim olmaqdan və ya buna çevrilməkdən uzaqdır. Əslində, bu fəlsəfə bizim gözlərimiz qarşısında yaradılmışdır və onun mahiyyəti Heydər Əliyevin əksər halda bədahətən söylədiyi bir çox nitq və çıxışlarında son dərəcə aydın ifadə olunmuşdur. Məhz natiqlik istedadı ona ilk baxışdan qeyri-mümkün görünən məsələni reallaşdırmağa – öz fəlsəfi və siyasi əqidəsini böyük auditoriyalar qarşısında şifahi çıxışlar çərçivəsində formalaşdırmağa imkan vermişdir".

Bu nitqlərdə və çıxışlarda səslənən, formalaşdırılan yeni fikirlər təkcə siyasətçilər, politoloq və sosioloqlar, ümumən tədqiqatçılar üçün deyil, həm də peşəkar jurnalistlər üçün səmt göstəricisi idi.

Mən uzun illər ümummilli lider Heydər Əliyevin xarici ölkələrə səfərlərində, Azərbaycanda keçirdiyi görüşlərdə jurnalist kimi iştirak edər-

kən dəfələrlə şahidi olmuşam, dönə-dönə görmüşəm ki, dünyanın məşhur siyasi və dövlət xadimləri, diplomatları, qüdrətli qələm sahibləri onu şəksiz lider, qüdrətli dövlət xadimi, mahir siyasət ustadı kimi qəbul etmiş, onun fikirləri ilə hesablaşmışlar. Bu baxımdan ABŞ Prezidenti Corc Buşun fikirləri çox dəyərlidir: "Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm". Yaxud, keçmişdə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi olan məşhur politoloq Zbiqnev Bjezinskinin sözlərini yada salaq: "Heydər Əliyev çox maraqlı sima, dünyamiqyaslı liderlərdən biridir". Rusiya Federasiyasının Prezidenti Vladimir Putin isə onu siyasət nəhəngi adlandırmışdır.

Ümummilli lider Heydər Əliyevin siyasi irsinin respublikamıza rəhbərliyinin birinci dövrünə aid jurnalist araşdırması apararkən görülmüş işlərin zahiri əlamətlərinə, yəni hakim ideologiyanın tələbinə uyğun söylənilmiş fikirlərə deyil, əsl mahiyyətə – ulu öndərin xalqın milli dirçəlişini, milli özünüdərkin oyanışını, milli kökə qayıdışını özündə əks etdirən fəlsəfi konsepsiyasının mahiyyətinə diqqət yetirmək vacibdir.

Akademik R.Mehdiyevin vurğuladığı kimi, Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın və müraciətin yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul etmək lazımdır. Onun bütün fəlsəfi konsepsiyası xalqın milli dirçəlişi, milli qürur hissinin oyanması ideyasına əsaslanırdı. İqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi də daxil olmaqla, yerdə qalan hər şey milli şüurun yüksəlişinə təkan verməli, milli dirçəlişin təməlinə çevrilməli idi.

Bu fikirlər Heydər Əliyevin siyasi irsinə maraq göstərən jurnalistlərin hadisələrə münasibətdə obyektiv və düzgün nəticə çıxarmaları üçün əsas tezislər ola bilər. Çünki ulu öndərimizin mətbuata, qələm əhlinə mühüm tövsiyələrindən biri ədalətli və obyektiv olmaq barədə idi. Ümumiyyətlə, bu, bütün dövrlərdə və bütün ölkələrdə qəbul edilmiş prinsip olsa da, respublikamızda jurnalistlərin heç də hamısı, xüsusən müxalifət yönümlü mətbuatda çalışanlar buna məhəl qoymur, necə deyərlər, ucuz sensasiya dalınca qaçır, oxucu cəlb etmək üçün hər cür uydurmalara əl atırlar. Bu baxımdan ümummilli lider Heydər Əliyevin

milli mətbuatımızın 125 illiyi münasibətilə jurnalistlərlə görüşündə dediyi sözləri bir daha xatırlatmaq yerinə düşər: "Mən məsləhət görürəm – bütün mənfi halları, qüsurları meydana çıxarın, yazın, amma ədalətli olun. Şayiələr, uydurmalar lazım deyil. İnsaflı olmaq, yaxşıya yaxşı, pisə də pis deməк lazımdır".

Ümummilli liderimiz deyirdi ki, mən həyatım boyu, bütün əmək fəaliyyətim dövründə xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu, dahi şəxsiyyətin həyat amalı idi. Çox adi görünən bu sözlərin arxasında Heydər Əliyevin mübarizələrdən, çətinliklərdən keçən ömür yolu dayanır. Elə bir ömür ki, onun hər günü, hər ayı, hər ili bütün varlığı ilə bağlı olduğu xalqına, Vətəninə sədaqətlə xidmət nümunəsidir.

Azərbaycanın müstəqilliyə qovuşduqdan sonra ilk illərdə, taleyin ümidinə qaldığı bir vaxtda yenidən siyasi hakimiyyətə qayıdan ulu öndərin gecəli-gündüzlü fəaliyyəti bu xidmətin ən bariz təzahürüdür. Həmin dövrdə Heydər Əliyev bir tərəfdən Azərbaycanı dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas edir, digər tərəfdən ölkəni siyasi-iqtisadi böhrandan xilas etmək üçün tədbirlər görür, üçüncü tərəfdən isə Azərbaycanı dünyaya tanıtmaq, ölkəmiz haqqında həqiqətləri yaymaq və ermənilərin güclü təbliğatı nəticəsində informasiya blokadasında olan respublikamızı bu vəziyyətdən çıxarmaq üçün yorulmaq bilmədən çalışırdı.

Qətiyyətlə deyə bilərik ki, bu baxımdan Heydər Əliyev heç kimin, o cümlədən bütünlükdə ölkəmizin təbliğat strukturlarının, kütləvi informasiya vasitələrinin görə bilmədiyi işi görmüşdür. Burada ulu öndərin 1993-cü ildə hakimiyyətə qayıdışından az sonra, iyulun 26-da BMT Təhlükəsizlik Şurasına və təşkilatın baş katibinə ünvanladığı məktubu xatırlatmaq istərdim: "Suveren Azərbaycan dövlətinin ərazicə parçalanmasına yönəldilmiş erməni təcavüzünün davam etdirilməsi və genişləndirilməsi nəticəsində ölkəmizdə yaranmış gərgin vəziyyət məni bu məktubla Sizə müraciət etməyə vadar edir...

Dağlıq Qarabağı öz ərazisinə birləşdirmək haqqında xəyanətkar qərarlar qəbul edilməsində ifadəsini tapan siyasi təcavüzdən başlayan və sonra emissarlar, terrorçular və silahlar göndərilməsinə keçən Ermənistan bu gün Azərbaycan torpağında genişmiqyaslı hərbi əməliyyatlar aparır...

Dağlıq Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin Ermənistan Respublikasına tabe olmadıqları barədə erməni tərəfinin dedikləri tamamilə əsassızdır...".

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlum qətnamələri məhz bundan sonrakı dövrdə qəbul olunmuşdur.

Peşəkar diplomatın bu dəqiq müşahidəsi yəqin ki, heç kimdə şübhə doğurmaz. O, daha bir məqamı da xatırlatmışdır ki, Fransanın iş adamlarında Azərbaycana marağı da zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev doğurmuşdu. Bunun konkret nəticələri isə hazırda göz qabağındadır. Heydər Əliyev bütün dövrlərdə Azərbaycan mətbuatının milli ruhlu olması barədə düşünmüş, yeri gələndə onu cürbəcür təzyiqlərdən qorumuşdur.

Bu mənada onun 1997-ci ilin oktyabrında Azərbaycan yazıçılarının 10-cu qurultayında dediyi sözlər çox xarakterikdir: "...Məsələn, mən "Qobustan" jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu "Qobustan" jurnalına. Görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də "Qobustan" jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm – "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü.

Amma təkcə "Qobustan" jurnalı deyildi. "Azərbaycan" jurnalını, "Ulduz" jurnalını götürün. Bunlar dövlət jurnalları idi, amma bu jurnallarda siz nə istəyirdiniz, onu da dərc edirdiniz, heç bir məhdudiyyət yox idi. Kim nə istəyirdi, onu da dərc edirdi. Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən – Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsəri qadağan edilməyibdir, bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır".

Bu, Heydər Əliyevin milli ideyaya – azərbaycançılığa bağlılığını göstərən məqam olmaqla yanaşı, onun həm də milli mətbuata, Azərbaycanın milli mənəvi dəyərlərini yayan və təbliğ edən kütləvi informasiya vasitələrinə qayğısının bir nümunəsi idi.

Ulu öndərin nitqlər, çıxışlar və müsahibələr külliyyatını vərəqlədikcə, onun milli mətbuatımız qarşısındakı əvəzsiz xidmətləri göz önündə canlanır. "Mən o jurnalistə minnətdar olacağam ki, nöqsanları üzə çıxarsın və biz də işimizdə bundan istifadə edək", – deyən Heydər Əliyev bununla azad mətbuata həm də güclü mənəvi dəstək verir, KİV işçilərini mövcud nöqsanların aradan qaldırılması işində fəal olmağa çağırırdı. Bu, dövlətin söz və fikir azadlığına, mətbuatın roluna verdiyi böyük ictimai dəyər kimi qiymətləndirilməlidir.

Heydər Əliyevin ölkədə söz və mətbuat azadlığının tam bərqərar olunması istiqamətində atdığı ən ciddi addımlardan biri senzuranın ləğv edilməsi idi. Prezidentin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman müstəqil Azərbaycanda kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində əhəmiyyətli bir addım oldu.

Həmin Fərman nəticəsində kütləvi informasiya vasitələri 1998-ci ilin sonundan etibarən əlavə dəyər vergisindən azad olundu. Bu, bütün MDB məkanında bənzəri olmayan bir hadisə idi. Heydər Əliyevin siyasi irsinin tədqiqi ilə məşğul olanlar ümummilli liderimizin müstəqil Azərbaycanda mətbuatın problemlərinin həlli ilə bağlı 10-dək Sərəncam və Fərmanına rast gələ bilərlər.

Bu sənədləri təhlil süzgəcindən keçirərkən məlum olur ki, ulu öndərimiz milli mətbuatımızın ənənələrini zənginləşdirən üç mühüm prinsipi müəyyənləşdirmişdir. Birincisi, dövlətçiliyə xidmətdir. Heydər Əliyev Azərbaycan mətbuatına milli dövlətçiliyə xidmət amalı aşılamışdır.

Ümummilli liderimiz Heydər Əliyevin milli mətbuatımızın əbədiyaşar ənənələrinə əlavə etdiyi yeni dəyərlərdən biri də Azərbaycan və azərbaycançılıq ideologiyasının təbliğidir.

Ən nəhayət, ümummilli liderimizin mətbuatımıza miras qoyub getdiyi vacib məsələ ümumbəşəri dəyərlərə hörmətlə yanaşmaq prinsipidir. Xalqımızın böyük oğlu, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi bu prinsipləri mətbuatımız fəaliyyətində əsas normaya çevirməlidir.

Təbii ki, bir məqalə çərçivəsində biz ümummilli lider Heydər Əliyevin siyasi irsinin yalnız və yalnız bəzi məqamlarını xatırlada və müəyyən mülahizələr söyləyə bilərik. Lakin bir daha deməliyik ki, Heydər Əliyevin siyasi irsi Azərbaycan jurnalistikası üçün də əvəzsiz xəzinədir və həmişə belə olacaqdır. Heç şübhəsiz ki, illər ötdükcə bu mövzu geniş və müxtəlif prizmalardan araşdırılacaq, yeni-yeni əsərlərdə öz əksini tapacaq, gələcək nəsillər bu ideya sərvətinə daha dərindən yiyələnəcəklər.

Heydər Əliyev və Azərbaycan.
Bakı, "Azərbaycan" nəşriyyatı, 2008-ci il.

Qloballaşan dünyada informasiya hamı üçün

OANA İcraiyyə Komitəsinin Bakıda keçirilən iclası bu mövzuya həsr olunmuşdur

Sentyabrın 2-də AzərTAc-ın ev sahibliyi ilə Bakıda Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının – OANA-nın İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclası işə başlamışdır.

Bu iclasın AzərTAc-ın təklifi ilə Bakıda keçirilməsi beynəlxalq aləmə hərtərəfli inteqrasiya yolu seçmiş müstəqil ölkəmizin ictimai həyatında mühüm hadisələrdən biridir. Çünki ilk dəfədir ki, dünyanın bu qədər sayda ən tanınmış, nüfuzlu xəbər agentliklərinin – OANA-nın prezidenti, İndoneziyanın Antara agentliyinin baş icraçı direktoru Əhməd Muxlis Yusuf, Türkiyənin, Rusiyanın, Yaponiyanın, Çinin, İranın, Koreya Respublikasının, Malayziyanın, Qazaxıstanın, Qırğızıstanın, Vyetnamın, Qətərin, Küveytin, Suriyanın, Birləşmiş Ərəb Əmirliklərinin, Yəmənin, İordaniyanın, ümumiyyətlə 21 ölkənin milli informasiya qurumlarının rəhbərləri və yüksək vəzifəli təmsilçiləri Azərbaycanın paytaxtına toplaşmışlar.

Eyni zamanda, Avropanın ən məşhur informasiya agentliklərinin daxil olduğu digər mötəbər regional qurumun – Avropa Xəbər Agentlikləri Alyansının (EANA) prezidenti, Avstriyanın APA agentliyinin baş direktoru Volfqanq Vislozilin, Bolqarıstan və Fransanın, habelə İordaniyanın milli agentlikləri rəhbərlərinin də bizim dəvətimizi qəbul edərək Bakıya gəlməsi tədbirin əhəmiyyətini daha da artırmışdır.

Azərbaycan həqiqətlərini dünyada geniş yaymağı özünün fəaliyyətinin əsas istiqaməti kimi müəyyənləşdirən AzərTAc beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi əhəmiyyət verir və bu sahədə xeyli işlər görülmüşdür. AzərTAc 2004-cü ilin sentyabrından OANA-nın üzvüdür. Onu da deyim ki, Azərbaycan MDB məkanında xəbər agentliyi bu nüfuzlu regional qurumda təmsil olunan dördüncü ölkədir. Həmin vaxtdan AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə edə bilir. 2007-ci il dekabrın 12-də İndoneziyanın paytaxtı Cakartada OANA-nın 13-cü Baş Assambleyasında AzərTAc bu qurumun rəhbər orqanının – İcraiyyə

Komitəsinin büro üzvü seçilmişdir. İcraiyyə Komitəsinin hazırkı iclasının Bakıda keçirilməsi haqqında qərar da həmin vaxt qəbul olunmuşdu.

AzərTAc-ın tarixində ən əlamətdar hadisələrdən biri də agentliyimizin 2008-ci il aprelin 18-də Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul olunmasıdır.

EANA Baş Assambleyasının Estoniyanın paytaxtı Tallinndə keçirilən iclasında AzərTAc-ın üzvlük məsələsinə dair səsvermə zamanı təşkilatın iclasda təmsil olunan 29 üzvündən 26-sı agentliyimizin namizədliyini dəstəkləmişdir. Beləliklə, postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra AzərTAC EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi, təşkilatın sayca 31-ci üzvü olmuşdur.

Eyni zamanda, AzərTAc digər regional informasiya qurumlarının – Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), MDB-nın üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) üzvü və təsisçilərindən biridir.

Bu il aprelin 30-u – mayın 2-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi Baş Məclisinin VII iclası keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş bu iclasda Türkiyənin, Qazaxıstanın, Qırğızıstanın, habelə Tatarıstanın, Başqırdıstanın, Krımın, Şimali Kiprin xəbər agentliklərinin rəhbərləri iştirak etmişlər. İclasda "Türkdilli ölkələrin əlaqələrinin inkişafında xəbər agentliklərinin əməkdaşlığının rolu" mövzusunda geniş müzakirələr aparılmış, yekun sənədi qəbul olunmuşdur. Həmin iclasda TKA-ya sədrlik AzərTAc-a keçmişdir.

İndiyədək AzərTAc İTAR-TASS (Rusiya), Anadolu Agentliyi (Türkiyə), Sinxua (Çin), Rompress (Rumıniya), Ukrinform (Ukrayna), BTA (Bolqarıstan), ANSA (İtaliya), İRNA (İran), Tanyuq (Serbiya), BELTA (Belarus), ATA (Albaniya), MTİ (Macarıstan), MENA (Misir), PETRA (İordaniya), Antara (İndoneziya) informasiya agentlikləri ilə əməkdaşlıq haqqında sazişlər imzalamışdır.

Bütün bunlar deməyə əsas verir ki, AzərTAc artıq dünya informasiya məkanına çıxmışdır. Biz bunu son illərdə Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasəti sayəsində dinamik inkişaf edən, regionun lider dövlətinə çevrilmiş müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da möhkəmlənməsinin bilavasitə nəticəsi kimi qiymətləndiririk.

Son illər AzərTAc-ın işi xeyli intensivləşmiş, informasiyanın həcmi 10 dəfəyədək artmışdır. Fasiləsiz rejimdə işləyən agentlik hər gün təxminən 400 min işarə həcmində xəbər və 30-40 fotoinformasiya buraxır. Hazırda Ankarada, Vaşinqtonda, Moskvada, Parisdə, Vyanada, Kiyevdə, Tehranda, Tbilisidə, Orta Asiyada AzərTAc-ın xüsusi müxbirləri vardır və gələcəkdə başqa ölkələrdə də müxbir məntəqələrinin açılması nəzərdə tutulur.

Müasir Azərbaycanın həyatının bütün sahələrində baş verən köklü dəyişikliklər, Avropanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən ölkəmizin uğurları barədə informasiyalar AzərTAc-ın kanalları ilə təkcə respublika daxilində deyil, həm də xaricdə geniş yayılır. Mövzular, janrlar, coğrafiya dəyişir, yalnız bir prinsip dəyişməz qalır. Bu, informasiyanın düzgünlüyü, dəqiqliyi, qərəzsizliyi və operativliyidir.

OANA İcraiyyə Komitəsinin Bakıda keçirilən iclası çox mühüm bir mövzuya həsr olunmuşdur. Qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada hər bir kəsin informasiya almaq imkanının olması artıq zərurətə çevrilmişdir. Xüsusilə bəşəriyyətin siyasi qarşıdurmalar, terrorizm, separatçılıq, dini ekstremizm, transmilli cinayətkarlıq kimi təhlükələrlə üzləşdiyi bir vaxtda insanların obyektiv, qərəzsiz informasiyaya daha çox ehtiyacı vardır.

İnsanların məhz belə informasiya ala bilməsi onlara təkcə öz ölkələrində deyil, həm də ümumən dünyada baş verən hadisələri doğru-düzgün qiymətləndirməyə imkan verir. Bu isə, mən deyərdim ki, son nəticədə xalqların və ölkələrin bir-birini daha yaxşı tanımasına, onların yaxınlaşmasına xidmət edir. Əksinə, sivilizasiyalararası, konfessiyalararası dialoqun, Şərq ilə Qərb arasında dialoqun həmişəkindən daha aktual olduğu zəmanəmizdə qərəzli, həqiqətdən uzaq, təhrif olunmuş, insanların milli və dini hisslərini təhqir edən xəbərlərin KİV-lərdə yer alması yalnız və yalnız düşmənçiliyə, ekstremizmə rəvac verir.

OANA kimi nüfuzlu regional qurumun İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasında mövzu ilə bağlı çox səmərəli, konstruktiv müzakirələr, fikir mübadiləsi aparılacaq, qloballaşan dünyamızda ən çox tələbat olan və istənilən nöqtəyə inanılmaz sürətlə – saniyələr, dəqiqələr ərzində çatdırılan məhsulun, yəni xəbərlərin daha operativ, obyektiv, qərəzsiz hazırlanması və yayılması baxımından faydalı təkliflər, tövsiyələr səslənəcəkdir.

Mən hesab edirəm ki, bu cür beynəlxalq tədbirlər həm də xarici qonaqların ölkəmizlə daha yaxından tanış ola bilməsi, respublikamızda gedən sürətli dəyişiklikləri öz gözləri ilə görə bilməsi üçün çox gözəl fürsətdir. Eyni zamanda, peşəkar fikir mübadiləsi aparmaq baxımından çox faydalıdır. Ümidvaram ki, OANA İcraiyyə Komitəsinin iclası çox geniş bir coğrafiyanın əhatə edən ən müxtəlif ölkələrin xəbər agentlikləri arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə öz töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək, qonaqlarımızı paytaxtımız qədim Bakıda salamlayır, burada olduqları günləri xoş keçirmələrini arzulayıram. Əminəm ki, onlar ölkəmizdən ən yaxşı təəssüratla ayrılacaqlar.

"Azərbaycan", "Respublika" qəzetləri,
3 sentyabr 2008-ci il.
"Qloballaşan dünyada informasiya hamı üçün".
Bakı, "Şərq-Qərb", 2009-cu il.

Demokratik, azad mətbuatın inkişafında yeni mərhələ açan konsepsiya

Azərbaycan jurnalistləri ölkəmizdə fikir, söz və mətbuat azadlığının inkişafına dövlət qayğısının gücləndirilməsi sahəsində daha bir mühüm addımın xoş təəssüratını yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyevin kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi və kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında 2008-ci il 31 iyul tarixli Sərəncamları ümummilli lider Heydər Əliyevin milli mətbuatımızın tərəqqisi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, demokratik cəmiyyət quruculuğunda rolunun artırılması sahəsində müəyyənləşdirdiyi siyasətin yeni mərhələdə uğurla davam etdirilməsinin əyani təzahürüdür.

Heydər Əliyev mətbuata həmişə, hətta sovet dövrünün ciddi senzura şəraitində də böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı yaratmış, fikir və söz azadlığının himayədarı olmuş, mətbuatın ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına daim qayğı göstərmişdir.

Ulu öndər Azərbaycanda mətbuatın problemlərinin həlli, onun maddi-texniki bazasının inkişafı ilə bağlı ondan çox Sərəncam və Fərman imzalamışdır. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin növbəti Sərəncamları Azərbaycanın demokratik inkişafına, söz və mətbuat azadlığına çox böyük töhfədir.

Dövlətimizin başçısının bu Sərəncamları ölkəmizdə yeni informasiya mühitinin formalaşdığını təsdiq edir. Bu mühiti şərtləndirən əsas amillər isə ölkənin sürətli sosial-iqtisadi inkişafı, ictimai həyatın bütün sahələrinin yeniləşməsidir. Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyini zəruri edən məqamlar cənab Prezidentin Konsepsiyanın təsdiqi haqqında Sərəncamında çox aydın şəkildə qeyd edilmişdir. Bunlar Azərbaycanın qloballaşan dünyanın informasiya məkanına daxil olması və informasiya cəmiyyətinə keçid mərhələsində şəxsiyyətin, vətəndaşın və dövlətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsinə, mətbuatın fəaliyyətinin müasir dövrün tələbinə uyğunlaşdırılmasına güclü təkan verəcəkdir.

Azərbaycan Prezidentinin bu Sərəncamında qarşıya kütləvi informasiya vasitələrinin inkişafına dəstək fondunun yaradılması vəzifəsi qoyulmuşdur. Düşünürəm ki, belə bir fondun yaradılması jurnalist kollektivlərinin məsuliyyətini, peşəkarlığını yüksəldəcək, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmlənməsinə daha geniş imkan yaradacaqdır.

Prezidentin digər Sərəncamı ilə 40-a yaxın kütləvi informasiya vasitəsinin hər birinə beş min manat yardım göstəriləcəkdir. Bu bir daha təsdiqləyir ki, müasir müstəqil Azərbaycanda dövlətin informasiya siyasətinə böyük əhəmiyyət verilir. Bu Sərəncam təkcə mətbuatın iqtisadi durumunun yaxşılaşmasına deyil, kütləvi informasiya vasitələrinin müstəqilliyinin qorunmasına dövlətimizin xüsusi önəm verdiyini göstərir.

Prezidentimizin təsdiq etdiyi "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda nəzərdə tutulmuş müddəaların həyata keçirilməsi ölkədə cəmiyyət-mətbuat-dövlət münasibətlərinin dövrün tələbləri baxımından daha da inkişaf etdirilməsinə imkan yaradacaq, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu işinə xidmət edəcəkdir.

"Xalq qəzeti", 2 avqust 2008-ci il.

Heydər Əliyev və Azərbaycan mətbuatı

Ümummilli liderimiz, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, dövlətçilik fəaliyyətinin tədqiqatçıları yaxşı bilirlər ki, çağdaş dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək dəyərləndirən ikinci bir lider olmamışdır. Elə buna görə də jurnalistlər daim onunla ünsiyyətə can atırdılar. Heydər Əliyev hələ blokada şəraitində olan Naxçıvanda yaşayarkən keçmiş ittifaqın müxtəlif yerlərindən, habelə dünyanın bir sıra ölkələrindən nüfuzlu mətbuat orqanlarının təmsilçiləri onunla görüşmək, müsahibə almaq, cərəyan edən mürəkkəb hadisələr haqqında bu müdrik insanın fikirlərini öyrənmək üçün cürbəcür çətinliklərə qatlaşaraq oraya gedirdilər. Çünki bilirdilər ki, Heydər Əliyev kimi şəxsiyyətlə hər bir görüş, yaxın ünsiyyət jurnalist üçün gözəl fürsət, yaxşı dərsdir.

Ulu öndərin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Fərmanında deyilir: "Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın inkişafı üçün təməl daşları rolunu oynadı". Mətbuatımızın rolunu, ilk növbədə, həmin prinsiplərə əməl etməkdə görən, daha dəqiq desək, mətbuatımızı, jurnalistləri daim buna istiqamətləndirən xalqımızın müdrik oğlu respublikamıza rəhbərlik etdiyi illərdə, həqiqətən, böyük bir jurnalistika məktəbi yaratmış və Azərbaycan jurnalistlərinin əksər hissəsi bu məktəbdən dərs almışdır.

Heydər Əliyev mətbuata həmişə, hətta sovet dövrünün ciddi senzura şəraitində böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı yaratmış, fikir və söz azadlığının himayədarı olmuş, mətbuatın ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına böyük qayğı göstərmişdir.

Ulu öndərimiz xalqımızın ən başlıca problemlərinə obyektiv mövqedən yanaşan, dövlətçiliyimizə xidmət edən, müstəqil Azərbaycanın həqiqətlərini

dünya ictimaiyyətinə çatdıra bilən mətbuatımızın olmasını arzulayırdı. Nəinki arzulayır, həm də bunun üçün real imkan, şərait yaratmışdı. Bunun təsdiqi kimi, Konstitusiyanın verdiyi hüquqları, kütləvi informasiya vasitələri haqqında qanunu və nəhayət, ölkədə saysız-hesabsız və müxtəlif siyasi yönümlü qəzet və jurnalların nəşrini, özəl televiziya və radio kanallarının fəaliyyət göstərməsini xatırlamaq kifayətdir. Bütün bunlar məhz Heydər Əliyevin xidmətləri sayəsində mümkün olmuşdur.

Heydər Əliyev jurnalistlərlə hər yerdə və istənilən mövzuda danışmağa, onları maraqlandıran ən müxtəlif məsələlərə ətraflı cavab verməyə hazır idi. Çox vaxt KİV nümayəndələri ən mühüm xəbərləri, ilk növbədə ondan öyrənirdilər. O, mətbuatın əhəmiyyətini bilməklə yanaşı, yüksək peşəkarlığı olan, işinə sədaqətli və məsələlərə obyektiv yanaşan jurnalistlərin əməyini də qiymətləndirir, onları hər cəhətdən dəstəkləyirdi. Eyni zamanda, dövlət məmurlarına da bunu daim tövsiyə edir, mətbuata qarşı dözümlü olmağa çağırırdı.

Heydər Əliyevin Azərbaycan mətbuatı qarşısındakı ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, o, mətbuatımızın həmişə milli ruhlu olması barədə düşünmüş, yeri gələndə onu təzyiqlərdən qorumuşdur.

Heydər Əliyev müasir Azərbaycan publisistikasının vəzifələrindən bəhs edərkən gənclərimizin milli ruhda, Vətənə, müstəqil ölkəmizə sədaqət ruhunda tərbiyəsi, ana dilimizin saflığının qorunması, onu mükəmməl bilməyin vacibliyi məsələlərinə xüsusi diqqət yetirirdi.

Heydər Əliyev mətbuata həm də hüquqi və maddi dəstək göstərilməsi üçün tədbirlər görürdü. Prezident Heydər Əliyevin imzaladığı Fərmanla "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnı Azerbaydjan" jurnalları və "Ədəbiyyat qəzeti", habelə bir neçə milli uşaq mətbuatı həmin vaxtdan dövlət büdcəsinin vəsaiti hesabına nəşr edilir.

2001-ci il dekabrın 18-də Prezident Heydər Əliyev ölkənin əsas kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərlərini qəbul edərək, mətbuatın problemləri barədə onlarla geniş fikir mübadiləsi aparmışdı. Həmin görüşdən sonra müstəqil qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi "donduruldu", qəzet kağızı idxalına dövlət rüsumunun ləğvi, qəzetlərin iqtisadi müstəqilliyinin artırılması, onlara güzəştli kreditlərin verilməsi kimi vacib məsələlər həll edildi.

Tale elə gətirib ki, 1993-cü ildən 2003-cü ilədək mən ulu öndərimizin dövlət başçısı kimi xarici ölkələrə səfərlərinin və respublikada keçirdiyi qəbulların, görüşlərin, iclasların və digər tədbirlərin tam əksəriyyətində AzərTAc-ı təmsil etmişəm. Həmişə də şahidi olmuşam ki, əksər dövlət başçılarından fərqli olaraq, Heydər Əliyev bu səfərlər zamanı çoxsaylı görüşlərdə kütləvi informasiya vasitələri nümayəndələrinin ətraflı məlumat əldə edə bilmələri üçün bilavasitə özü lazımi şərait yaradırdı. Şübhəsiz ki, bu, jurnalistlərin məsələlərə daha yaxından bələd olmaları və yazılarını geniş təhlil əsasında hazırlamaları baxımından çox vacib idi.

Qeyri-adi zəka sahibi olan, geniş dünyagörüşünə və zəngin dövlətçilik təcrübəsinə malik ulu öndərimiz jurnalistləri daim öyrənməyə, Vətənə və xalqa sədaqətlə xidmət etməyin yollarını mənimsəməyə çağırırdı. Peşəkar jurnalistlər, adətən, söhbətin məzmununu öz sualları ilə istiqamətləndirməyi bacarırlar. Lakin mətbuata təzə gələn jurnalistlər bunu edə bilmirdilər. Onların təcrübəsizliyini, müəyyən məsələlərdən baş çıxara bilmədiyini görən Heydər Əliyev özü onları istiqamətləndirir, hətta bəzən hansı vacib məsələ barədə sual vermələrini də xatırladırdı.

Bu, sözün əsl mənasında ustad dərsi, nəyi yazmaq, nədən yazmaq, necə yazmaq barədə dərs idi. Xalqın, cəmiyyətin qələm əhlindən nələr gözlədiyini anlatmaq, öyrətmək dərsi idi. Bu dərslərdə isə dövlətimizin, xalqımızın taleyi, gələcəyi ilə bağlı məsələlər həmişə ön planda dururdu.

Ümummilli lider Heydər Əliyev milli mətbuatımızın ənənələrini zənginləşdirən üç mühüm prinsipi müəyyənləşdirmişdir. Birincisi, dövlətçiliyə xidmətdir. Heydər Əliyev Azərbaycan mətbuatına, jurnalistlərə milli dövlətçiliyə xidmət amalı aşılamışdır.

İkincisi, azərbaycançılıq ideologiyasının təbliğidir. Azərbaycançılıq məfkurəsi Heydər Əliyevin siyasi fəaliyyətinin bütün mərhələlərində ön planda olmuşdur.

Üçüncüsü isə, ümumbəşəri dəyərlərə hörmətlə yanaşmaq prinsipidir. Ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətlə getdiyi bir vaxtda bu məsələ olduqca vacibdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir, nüfuzlu beynəlxalq qurumların üzvüdür. Bu amilləri nəzərə alaraq, mətbuatımız Azərbaycanın beynəlxalq imicini qorumağa borcludur, siyasi yönümündən, mülkiyyət

mənsubiyyətindən asılı olmayaraq, milli mətbuatımızın tarixi ənənələrini yaşatmaqla bərabər, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi prinsipləri fəaliyyətimizdə əsas normaya çevirməliyik.

Ümummilli liderin müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli, əhatəli nitqləri siyasi publisistikanın son dərəcə gözəl, təkrarsız nümunələridir. Bütün bunlar dönə-dönə nəzərdən keçirilməli, təhlil edilməli, diqqətlə öyrənilməlidir. Heydər Əliyevin siyasi publisistikası yeni dövrdə özünün yeni tarixini yaşayan Azərbaycan jurnalistikası, milli mətbuatımız üçün əvəzsiz xəzinədir.

Ümummilli liderin mətbuatımızın inkişafına diqqət və qayğısının əyani təsdiqi kimi, AzərTAc ilə bağlı bir sıra məqamları diqqətə çatdırmağı vacib hesab edirəm. Heydər Əliyev hələ respublikamıza rəhbərliyinin birinci dövründə milli mətbuatımızın, o cümlədən AzərTAc-ın – keçmiş Azərinformun inkişafını, nüfuzunun artmasını diqqət mərkəzində saxlamışdır. Məhz onun müdrik, uzaqgörən siyasəti, yorulmaz fəaliyyəti, doğma vətəninə və xalqına sonsuz məhəbbəti sayəsində Azərbaycan ötən əsrin 70-80-ci illərində keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevrilmiş, dünyanın diqqətini cəlb etməyə başlamışdı. SİTA kimi dünyanın nəhəng informasiya maşınının sükançıları artıq SSRİ rəhbərliyinin də böyük rəğbət bəslədiyi, hesablaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı böyük uğurlar barədə xəbərləri həm də dünyaya yaymağa, Azərinforma hər cür kömək göstərdiklərini sübut etməyə çalışırdılar. Məhz ötən əsrin 70-ci illərində SİTA özünün Moskvadakı baş ofisini kompyuterləşdirməyə başlayanda, Heydər Əliyevə hörmət əlaməti kimi, ittifaq respublikaları arasında birincilər sırasında Azərinformu kompyuterlərlə təchiz etdi. Beləliklə, Azərinform da SİTA-nın müttəfiq respublikalardakı filialları arasında ön mövqeyə çıxmağa nail oldu. Ancaq müstəqil Azərbaycan dövləti kimi, AzərTAc da inkişafının müasir mərhələsinə xalqımızın təkidi ilə ümummilli liderin yenidən siyasi hakimiyyətə qayıdışından sonra qədəm qoymuşdur.

Ulu öndərimizin 1995-ci ildən etibarən Azərbaycan Dövlət Teleqraf Agentliyi ilə bağlı imzaladığı fərman və sərəncamlar agentliyin işinin yaxşılaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır.

"Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Prezidentin 1995-ci il 3 mart tarixli Fərmanının məqsədi dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında, Azərbaycan haqqında operativ məlumatların beynəlxalq miqyasda geniş yayılmasında agentliyin imkanlarından daha dolğun istifadə edilməsinə şərait yaratmaq idi. Həmin Fərmanla Azərbaycan Teleqraf Agentliyi rəsmi dövlət informasiya orqanı statusu aldı.

Ümummilli liderimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsini, işçilərin maddi təminatının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayırdı. Onun Dövlət Teleqraf Agentliyinin işinin yaxşılaşdırılması haqqında 1996-cı il 29 iyun tarixli Sərəncamından sonra AzərTAc-ın tarixində ilk dəfə olaraq, bir sıra xarici ölkələrdə agentliyin müxbir məntəqələri açıldı.

Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində respublikamızın beynəlxalq əlaqələri genişlənir, müstəqil dövlətimizin dünya miqyasında nüfuzu artır, beynəlxalq aləmdə ölkəmizə maraq güclənirdi. Belə bir şəraitdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün agentliyin fəaliyyətinin günün tələbləri səviyyəsində təkmilləşdirilməsi tələb olunurdu. Məhz ona görə də agentliyin tərkibində xarici dillərdə xəbərlər hazırlayan və yayan baş redaksiya yaradıldı, digər müvafiq tədbirlər görüldü.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada yayılması Heydər Əliyevin ən böyük arzularından biri idi. Fərəhlə deyə bilərik ki, hazırda AzərTAc İTAR-TASS (Rusiya), Anadolu Agentliyi (Türkiyə), Sinxua (Çin), Rompress (Rumıniya), Ukrinform (Ukrayna), BTA (Bolqarıstan), ANSA (İtaliya), İRNA (İran), TANYUQ (Serbiya), BELTA (Belarus), Moldpress (Moldova), ATA (Albaniya), MTİ (Macarıstan), MENA (Misir), PETRA (İordaniya), ANTARA (İndoneziya) agentlikləri ilə ikitərəfli əməkdaşlıq haqqında sazişlər imzalamışdır.

Bütün bunlar AzərTAc-ın beynəlxalq miqyasda nüfuzunun getdikcə artmasının daha bir sübutudur.

Ümumiyyətlə, indi AzərTAc hər gün dünyanın 80-dən çox ölkəsinə Azərbaycan, ingilis, rus və alman dillərində xəbərlər göndərir və qəbul edir.

Ümummilli liderimizin qarşımıza qoyduğu tələblərdən biri xarici dövlətlərdəki səfirliklərimizə Azərbaycanın gündəlik həyatı barədə operativ informasiya əldə etmək imkanı yaratmaq idi. Hazırda AzərTAc-ın yeniləşdirilmiş saytı bunu təmin etmişdir. Yeri gəlmişkən xatırladım ki, agentliyimizin saytına gün ərzində 1000-dən çox müraciət olur.

Agentliyimiz artıq beynəlxalq tədbirlərə ev sahibliyi etməyə başlamışdır. Bir neçə gündən sonra Bakıda Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi Baş Məclisinin, avqustun axırı – sentyabrın əvvəlində isə OANA İcraiyyə Komitəsinin iclasları keçiriləcəkdir.

Böyük Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycan dövləti indi onun siyasi varisi, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə özünün inkişafının yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin Azərbaycanda təkcə sosial-iqtisadi strategiyasını deyil, həm də azad mətbuatın inkişafı sahəsində müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirir. Mətbuat işçiləri ilə səmimi münasibətlər, KİV-lərin problemlərinin həlli istiqamətində görülən tədbirlər buna əyani sübutdur. Qəzetlərin "Azərbaycan" nəşriyyatına borclarının büdcədən ödənilməsi, müstəqil qəzetlərə böyük məbləğdə birdəfəlik maliyyə yardımı edilməsi barədə dövlətimizin başçısının sərəncamları ölkəmizin hüdudlarından kənarda da yüksək dəyərləndirilir.

Milli mətbuatımızın 130 illiyinə həsr olunmuş yubiley mərasimindəki nitqində Prezident İlham Əliyev demişdir: "Mən şübhə etmirəm ki, bu gün Azərbaycanda formalaşan güclü mətbuat bir neçə ildən sonra keyfiyyətcə daha da yüksək səviyyəyə çatacaqdır... Əlbəttə, biz çalışmalıyıq ki, görülən bütün işlər haqqında cəmiyyətimizə dolğun məlumat çatdıraq. Eyni zamanda, mövcud olan problemləri də tam şəkildə diqqətə çatdıraq. Mətbuatda gedən tənqidi materiallar mənim fəaliyyətimə də köməkdir. Mən bəzi şeyləri belə verilişlərdən, məqalələrdən götürürəm. Bu, çox önəmlidir. İqtidarla mətbuat arasında daim əlaqə, ünsiyyət olmalıdır... İstəyirəm biləsiniz ki, heç bir fərq qoymadan, mənim mətbuata münasibətim çox müsbətdir. İstər iqtidar mətbuatı olsun, istər müxalifət mətbuatı olsun, istərsə də müstəqil mətbuat olsun – bu, bizim mətbuatımızdır. Bu, Azərbaycanın demokratik inkişafına çox böyük töhfədir... Çox çəkməyəcək ki, mətbuatımız dünya standartlarına cavab verəcəkdir".

Bütün bunları ümumiləşdirib qətiyyətlə deyə bilərik ki, ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində diplomatiyadan tutmuş bir çox digər sahələrdə olduğu kimi, mətbuat, jurnalistika sahəsində də özünəməxsus bir məktəb yaratmışdır. Bu məktəbdən dərs alan, onun yetirmələri olan jurnalistlərin, ümumən müasir jurnalistikamızın amalı isə hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, bölgənin lider dövləti olan, müstəqil daxili və xarici siyasət yeridən, beynəlxalq nüfuzu getdikcə artan Azərbaycanımıza sədaqətlə xidmət etmək, xalqımızın, Vətənimizin adını dünyada ucaltmaqdır.

Heydər Əliyev irsi
Azərbaycanın davamlı inkişaf strategiyası.
Bakı, "Azərbaycan" nəşriyyatı, 2006-cı il.
"İki sahil" qəzeti, 2 may 2008-ci il.

Milli mətbuatımızın tarixində məktəb yaradan ustad

Azərbaycan milli mətbuatının 30 ildən çox bir dövrünün inkişafı və ideya-məzmun cəhətdən formalaşması ümummilli lider Heydər Əliyevin adı və titanik fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev müasir mətbuatımızın inkişafında əvəzsiz xidmətlər göstərmiş, onun böyük qayğıkeşi və himayədarı olmuşdur. Bu bir həqiqətdir ki, 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayandan sonra məhz Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti, yorulmaz fəaliyyəti, doğma xalqına sonsuz məhəbbəti sayəsində ötən əsrin 70-80-ci illərində Azərbaycanın özü ilə bərabər, onun milli mətbuatı da əsl inkişaf mərhələsini yaşamışdır.

Qətiyyətlə deyə bilərəm ki, ulu öndərin siyasi irsini, zəngin dövlətçilik fəaliyyyətini araşdıranlar da yaxşı bilirlər ki, çağdaş dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünün əhəmiyyətini Heydər Əliyev qədər yüksək qiymətləndirən ikinci bir lider olmamışdır.

Sovet hakimiyyəti illərində rejimin ideoloqlarını ən çox vahimələndirən məsələlərdən biri azad söz, demokratik fikirlər idi. Elə buna görə də senzura elmi, iqtisadi və hərbi baxımdan həqiqətən dövlət sirri sayılan məlumatlarla yanaşı, fərqli düşüncələrin, hakim kommunist partiyasının ideoloji qəlibləri çərçivəsindən kənara çıxan fikirlərin, baxışların da, – bunların cəmiyyət üçün faydalı olub-olmamasına məhəl qoyulmurdu, – kütləvi informasiya vasitələrinə yol tapmasına imkan vermirdi. Lakin Heydər Əliyev həmin qorxu buzunu məharətlə, ona bir növ rəsmi ideologiya çaları verməklə qıra bilmişdir. Ulu öndərimiz respublikaya rəhbərliyinin birinci mərhələsində bu yolla Azərbaycanda mətbuata imkan daxilində sərbəstlik verir, onun ictimai təsir gücünün, nüfuzunun artmasına xüsusi diqqət və qayğı göstərirdi. Məhz həmin illərdə Azərbaycan mətbuatına milli ruh qayıtmış, azərbaycançılıq ideologiyasının təbliğinə başlanmışdır.

O illərdə Azərbaycan mətbuatında xüsusi yeri olan nəşrlərdən biri də "Bakı" və "Baku" axşam qəzetləri idi. Onların nömrələrini vərəqləsək görərik ki, bu qəzetlərin ən maraqlı, ən mükəmməl nüsxələri məhz ötən əsrin 70-ci illərində işıq üzü görmüşdür. Həmin illəri "Bakı" və "Baku" qəzetlərinin

intibah dövrü adlandırmaq olar. Bu intibahın sükançısı görkəmli jurnalist, ictimai xadim və pedaqoq Nəsir İmanquliyev idi. Tam məsuliyyətlə deyə bilərəm ki, Nəsir müəllimin şəxsiyyətində bir neçə yaradıcı fərdin ali məziyyətləri təcəssüm tapmışdı:

- professor Nəsir İmanquliyev ömrünün sonunadək dərs dediyi Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin auditoriyalarına daxil olanda əsl alim və müəllim idi;
- Nəsir müəllim özünün yaratdığı və fasiləsiz 30 il rəhbərlik etdiyi "Bakı" və "Baku" qəzetləri redaksiyasının kandarından içəri qədəm qoyanda istedadlı qəzetçi, müdrik redaktor və böyük mühərrir idi;
- Nəsir müəllim ardıcıl 10 çağırış deputat seçildiyi Bakı Şəhər Sovetinin sessiyalarına, mötəbər yığıncaqlara, fəxri təqaüdə çıxandan sonra sədrin müavini vəzifəsində çalışdığı Bakı Veteranlar Şurasının tədbirlərinə gedəndə nüfuzlu ictimai xadim idi;
- böyük nüfuz, dərin hörmət sahibi olan Nəsir müəllim kollektiv üzvlərinin, dost-tanışların, qohum-əqrəbanın xeyir və şərində isə müdrik ağsaqqal idi.

Professor Nəsir İmanquliyev ömrünün sonunadək Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində dərs deyib. Ancaq zənnimcə, Nəsir müəllimin əsl universiteti "Bakı" və "Baku" qəzetləri idi. O, universitet auditoriyalarında tələbələrə jurnalistikanın əsasları barədə nəzəri biliklər aşılayıb, "Bakı" və "Baku"nun "auditoriyalarında" isə Azərbaycan jurnalistlərinin bütöv bir nəslinə qəzetçilik işinin incəlikləri ilə bərabər, jurnalistlik məharəti, redaktə bacarığı, səbirlə işləmək vərdişləri öyrədib. Bütün bunlara görə tam məsuliyyətlə deyə bilərəm ki, Nəsir müəllim milli mətbuatımızın tarixində özünün jurnalistika məktəbini yaratmışdır.

Əlbəttə, ustadların məktəbi olur və bu mərtəbəyə ucalmağın necə çətin və şərəfli olduğunu bilmək üçün Nəsir müəllimin ömür yoluna ötəri bir nəzər salmaq da kifayətdir. 1932-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin tapşırığı ilə "Kommunist" qəzeti redaksiyasında işə qəbul olunan Nəsir müəllim taleyini birdəfəlik jurnalistikaya bağlamış, sonralar "Gənc işçi", "Yeni yol" qəzetlərində, müharibə illərində Krımda cəbhə qəzetində, 24 il yenə də "Kommunist" qəzeti redaksiyasında şöbə müdiri, məsul katib, redaktor müavini vəzifələrində çalışmışdır. Bir

müddət Bakı Şəhər Partiya Komitəsi təbliğat-təşviqat şöbəsinin müdiri, Mərkəzi Komitədə eyni şöbənin müdir müavini, Radio Verilişləri Baş İdarəsinin rəisi, Azərbaycan Radio-Televiziya Verilişləri Komitəsi sədrinin birinci müavini işləmiş, nəhayət, 1958-ci ildə "Bakı" qəzetini, 1963-cü ildə isə həm də "Baku"nu yaradaraq, tam 30 il bu nəşrlərin dəyişməz redaktoru olmuşdur.

Nəsir müəllimin jurnalistika məktəbinin yetirmələri o vaxtlar da, elə indinin özündə də Azərbaycanın aparıcı mətbuat orqanlarında çalışır, dəstxətləri ilə seçilirlər. Adları milli mətbuatımızın tarixinə düşmüş jurnalistlərin bütöv bir nəsli, sözün həqiqi mənasında, Nəsir İmanquliyev məktəbinin yetirməsidir.

Nəsir müəllimin məktəbi təkcə istedadlı jurnalistlər deyil, həm də görkəmli elm və ədəbiyyat xadimləri yetirmişdir. Sonralar Azərbaycan ədəbiyyatının tanınmış simaları olan bir sıra yazıçılar, şairlər, alimlər ilk yaradıcılıq addımlarını "Bakı" qəzetində atmışlar. "Bakı" qəzeti, həm də bütöv bir ədəbi nəslin yeni əsərlərinin işıq üzü gördüyü nəşr olmuşdur. Bu barədə zəngin bir siyahı tərtib etmək olar.

Nəsir müəllimin fəxri adları, fəxri mükafatları çox olub. Bu fəxri adlar, mükafatlar Nəsir müəllimin milli mətbuatımızın inkişafındakı əvəzsiz xidmətlərinin rəsmi təsdiqidir. Qətiyyətlə deyə bilərəm ki, bu fədakar insanın banisi olduğu və 30 il sükanı arxasında vüqarla dayanaraq daim irəli apardığı, inkişaf etdirdiyi, övladı qədər sevdiyi, uğurlarından sonsuz iftixar hissi duyduğu "Bakı" qəzetinin 1958-ci il yanvarın 10-da nəşrə başlaması Azərbaycan mətbuatının tarixində milli hadisədir.

Bu qəzet işıq üzü görməsi ilə o dövrün ciddi siyasi buxovları çərçivəsində sıxılan milli mətbuatımıza yeni nəfəs, yeni ruh, yeni dəst-xətt gətirmişdir. Oxucuların yaşlı nəslinin nümayəndələri hər gün axşamçağı "Bakı" və "Baku" qəzetlərini almaq üçün köşklərin qarşısında növbəyə dayandıqları vaxtın xiffətini çəkdiklərini indinin özündə də xoş duyğularla xatırlayırlar.

Milli mətbuatımızın indi üstünlük verdiyi xəbər janrının əhəmiyyətini hələ 40-45 il bundan əvvəl yüksək qiymətləndirən Nəsir müəllim rəhbərlik etdiyi qəzetlərdə operativ, dəqiq, maraqlı, rəngarəng xəbərlərə böyük üstünlük verirdi. Bu, o zaman axşam qəzetlərini digər mətbu nəşrlərdən fərqləndirən əsas cəhətlərdən biri idi.

Nəsir müəllimə cəmiyyətdə, kollektivdə, dost-tanışları arasında nüfuz qazandıran nəcib xüsusiyyətlərindən biri də onun obyektivliyi, işçilərini ayağa verməməsi, çətinə düşəndə onlara arxa-dayaq olması idi. Müəllimimizin bu nəcib keyfiyyətləri barədə çox danışılıb, çox yazılıb, bundan sonra da danışılacaq və yazılacaqdır.

Lakin mən bir məqama toxunmaq istərdim. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkəmizdə saysız-hesabsız kütləvi informasiya vasitələri, o cümlədən yüzlərlə qəzet və jurnal yaranmışdır. Bir tərəfdən, bu, Azərbaycanda söz, mətbuat azadlığının təmin edilməsinin göstəricisidir. Ancaq həmin nəşrlərin çox az bir hissəsi özünü təsdiqləyə bilmişdir. Əksəriyyətinin isə məramı, məqsədi heç onları nəşr edənlərin özlərinə də məlum deyildir. Bir qismi də Azərbaycan mətbuatına əsla hörmət gətirməyən sırf şəxsi məqsədlərə xidmət edir.

Mətbuatın ən mühüm vəzifələrindən biri ölkənin həyatı, habelə dünyada baş verən başlıca hadisələr haqqında cəmiyyəti məlumatlandırmaqla yanaşı, həm də milli mənəvi dəyərlərə, xalqın tarixinə, mədəniyyətinə hörmət hissi tərbiyə etmək, bugünkü qloballaşma dövrünün ilk növbədə, gənclərə mənfi təsirlərinə biganə qalmamaq, başqa sözlə, maarifləndirmə, təbliğat işi görməkdir.

Əfsuslar olsun ki, çox hallarda biz başqa vəziyyətlə qarşılaşırıq. Nəşrlərin bir çoxu nəinki bunlara məhəl qoymur, hətta ən adi ədəb-ərkan, davranış, etika normalarını da gözləmir. Ayrı-ayrı insanların ləyaqətinə, şəxsiyyətinə toxunan təhqiramiz, böhtan xarakterli yazıların dərc olunması az qala "normaya" çevrilmişdir. Belə yazıların müəlliflərini, yaxud onları dərc edən redaktorları bu hərəkətlərinə görə məhkəməyə verəndə də fürsət gözləyən "hüquq müdafiəçiləri" sevincək Avropa Şurasına şikayətlər yağdırırlar. Bu başabəla demokratiya tərəfdarları (əslində, onlara demokratiya dəllalları demək daha düzgün olardı), nədənsə, təhqir olunan, ləyaqəti alçaldılan insanların da hüquqları olduğunu "unudur", Azərbaycanın nüfuzuna xələl gətirəcək "fakt" tapmaq üçün vurnuxmaqdan usanmırlar.

Milli jurnalistikamızın ən görkəmli nümayəndələrindən olan Nəsir müəllim belə üzdəniraq "jurnalistləri", "hüquq müdafiəçilərini" redaksiyanın qapısına da yaxın buraxmazdı. Çünki o, mətbuat tariximizin yara-

dıcılarının yolunu davam etdirirdi və sonda özü də onların sırasında yer tutmuşdur.

Bununla belə, qələm dostlarımızın bir çoxu kimi, mən də nikbinəm. Vaxt ötdükcə bugünkü mətbuat da, bu sahədə çalışanlar da ələnəcək, böyük Zərdabi ilə başlayan və Nəsir müəllim kimi peşəkarlar tərəfindən yüksək səviyyəyə çatdırılan Azərbaycan jurnalistikası öz ənənələrini qoruyub saxlayacaq, xalqımıza, demokratik vətəndaş cəmiyyəti quruculuğu yolu tutmuş ölkəmizə xidmət edəcəkdir.

"Azərbaycan" qəzeti, 29 dekabr 2007-ci il.

Heydər Əliyev siyasətinin informasiya təminatı

Bu yazıya dəfələrlə dediyim və şübhəsiz, hamının razılaşacağı bir fikri təkrar etməklə başlamaq istəyirəm: dünya tarixində mətbuatın cəmiyyətdə ictimai fikrə təsir gücünü, hakimiyyət-cəmiyyət, cəmiyyət-hakimiyyət münasibətlərinin formalaşmasında rolunu Heydər Əliyev qədər düzgün qiymətləndirən, KİV nümayəndələri ilə sıx ünsiyyətə onun qədər əhəmiyyət verən çox az lider olmuşdur. Heydər Əliyev Azərbaycan jurnalistikasına milli dövlətçiliyə xidmət amalı aşılamışdır. Tariximizin son qərinəsini əhatə edən dövrün mətbuatını diqqətlə izləyən hər bir kəs Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyi konsepsiyası barədə kifayət qədər zəngin informasiyaya rast gələ bilər.

Milli mətbuatımız bu yöndə də geniş təbliğat işi aparır, azərbaycançılıq ideologiyasının fəlsəfəsini açıb göstərmək, vətən və vətənpərvərlik məfhumlarının mahiyyətini aşılamaq baxımından son dərəcə mühüm işə töhfəsini verir.

Ən əsası da odur ki, milli mətbuatımızı hər hansı bir ideoloji qurumun göstəriş və ya tapşırığı ilə deyil, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1999-cu il dekabrın 7-də qəbul olunmuş beynəlxalq norma və tələblərə cavab verən hüquqi-normativ akt – "Kütləvi informasiya vasitələri haqqında" qanun çərçivəsində yaşadır və inkişaf etdirir.

Digər qanunlar kimi bu qanun da Heydər Əliyevin genişmiqyaslı quruculuq və dövlətçilik siyasətinin informasiya təminatında, ölkədə söz və fikir azadlığının inkişafı işində mühüm rol oynayır. Bu qanun Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə informasiya və yayım təminatı imkanlarını xeyli artırdı. Heydər Əliyev siyasətinin informasiya təminatı işinə həm də xarici ölkələrdəki Azərbaycan diaspor təşkilatlarının yaratdıqları mətbu orqanları da qoşulmuşdur.

Ümummilli lider Heydər Əliyevin hələ respublikaya rəhbərliyinin birinci dövründə gördüyü nəhəng quruculuq işlərinin uğurlarında mətbuatın da öz rolu olmuşdur.

Yaşlı və orta nəslin nümayəndələrinin yaxşı yadındadır ki, həmin illərdə Heydər Əliyevin keçirdiyi elə bir böyük tədbir, respublikanın rayonlarına elə bir səfəri olmazdı ki, kütləvi informasiya vasitələrinin nümayəndələri iş-

tirak etməsinlər. Azərinform, respublika qəzetləri, televiziya və radio bütün bunlar barədə nəinki geniş məlumat yayır, reportajlar verir, eyni zamanda Azərbaycanda iqtisadiyyatın, mədəni həyatın, elm və təhsilin inkişafı ilə bağlı bütün mühüm məsələləri daim diqqətdə saxlayırdı. Ən mühüm yeniliklər Azərinform vasitəsilə SİTA kanalları ilə bütün ölkəyə və qismən də xaricə yayılırdı.

Mühüm məqamlardan biri də o idi ki, kütləvi informasiya vasitələri təkcə uğurlardan bəhs etməklə kifayətlənmir, həm də mövcud nöqsanları, yol verilən səhvləri kəskin tənqid edirdilər. Bu tənqidi çıxışların bir çoxu bilavasitə respublika rəhbərliyi səviyyəsində müzakirə olunur və ciddi qərarlar qəbul edilirdi. Nəticədə respublikada aparılan məqsədyönlü siyasətin informasiya təminatı daha da güclənir, yeni vüsət alır və öz bəhrəsini verirdi.

Heydər Əliyev Moskvada, SSRİ-nin ali rəhbərliyində işlədiyi illərdə də mətbuata olan bu münasibətini daha geniş imkanlar səviyyəsində davam etdirmişdir.

Əzəli torpağımız olan Dağlıq Qarabağı Azərbaycandan qoparmaq niyyəti ilə mənfur qonşularımızın başladıqları münaqişənin ilk dövründə xalqımızın özünün haqq səsini dünyaya çatdırmaq baxımından da necə çətinliklərlə üzləşdiyini yaxşı xatırlayırıq. Ermənilərin özlərinin Sumqayıtda törətdikləri fitnəkar vəhşiliyi dünyaya necə təqdim etdiklərini, sovet imperiyasının 1990-cı ilin yanvarında Azərbaycana qoşun yeritməsinin hansı faciələrlə nəticələndiyini də unutmamışıq. Bütün bunlar haqqında əsl həqiqəti dünyaya çatdıra bilməməyimiz beynəlxalq aləmdə Azərbaycanın mənafeyinə çox böyük zərbə vurmuşdu, demək olar ki, bizi "əzabkeş" ermənilərə divan tutan xalq kimi təsəvvür edirdilər. Bütün bunlar, digər səbəblərlə yanaşı, həm də Azərbaycandakı real vəziyyətin informasiya təminatının olmamasının acı nəticələri idi.

1993-cü ilin yayında – Azərbaycanın parçalanmaq, dağılmaq, müstəqilliyini itirmək təhlükəsi qarşısında qaldığı, vətəndaş müharibəsi ərəfəsində olduğu bir vaxtda Heydər Əliyev xalqın təkidli tələbi və qəlbinin hökmü ilə Bakıya gəldi və Ali Sovetin sədri, oktyabrda isə respublikanın Prezidenti seçildi. Həmin çətin dövrdə ölkədəki real vəziyyət və hadisələrin gedişi respublika daxilində həyəcanla izlənilməklə yanaşı, regionda

və ümumən dünyada da diqqətdən kənarda qala bilməzdi. Bu barədə məlumat isə, şübhəsiz ki, kütləvi informasiya vasitələri ilə yayılırdı.

Heydər Əliyev doğma vətəninin, xalqının bu ağır dövründə özünə xas olan müdriklik və cəsarətlə vəziyyətdən çıxış yolları axtarırdı, eyni zamanda, mövqeyinin, fikirlərinin, hadisələrə münasibətinin bəyan edilməsi, ölkə ictimaiyyətinə və dünyaya çatdırılması üçün KİV-lərin imkanlarından istifadə edirdi. Bu baxımdan ulu öndərimizin 1993-cü il iyunun 15-də parlamentdəki çıxışının, Ali Sovetin sədri kimi iyulun 2-si və 5-dəki bəyanatlarının mətninin yayılması bir çox suallara cavab oldu.

Bununla yanaşı, Heydər Əliyev cəmi bir ay ərzində Rusiyanın üç kütləvi informasiya vasitəsinə – "Ostankino" teleşirkətinə, "Rossiyski fermer" və "Sobesednik" qəzetlərinin müxbirlərinə geniş müsahibələr vermişdi. Ümummilli liderimiz həmin müsahibələrdə Azərbaycandakı vəziyyət, cərəyan edən hadisələrlə yanaşı, həm də neftdən danışır, başlıca amalını da vurğulamağı unutmurdu: "Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa ayrı bir arzum yoxdur".

Hesab edirəm ki, bunların hamısı namuslu vətəndaşlarımızla bərabər, həm də dünya dövlətlərinin rəhbərlərinə bir mesaj idi ki, müstəqil Azərbaycana münasibətlərində, ölkəmiz haqqında düşüncələrində təshihlər etsinlər.

Və etdilər də. Cəmi bir il sonra Bakıda dünyanın ən iri neft şirkətləri ilə müqavilə imzalandı. Prezident Heydər Əliyev imzalanma mərasimindəki yekun nitqində demişdir: "Bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı, sərbəst bazar iqtisadiyyatı ilə sıx bağlayacaqdır. Ən ümdəsi isə ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır".

Bəli, ulu öndər böyük uzaqgörənliklə dediyi bu sözlərin həqiqət olduğuna hamıdan çox inanırdı və sonrakı dövrdə bütün dünya buna tam əmin oldu. "Əsrin müqaviləsi" adı verilən və Heydər Əliyevin yeni neft strategiyasının əsasını qoyan bu müqavilənin həyata keçirilməsi, o cümlədən onun zirvəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, habelə Cənubi Qafqaz qaz kəmərinin çəkilməsi, həqiqətən, dünyanın diqqət

mərkəzində idi. Eyni zamanda, bu yolda aşkar və gizli bir çox maneələr, müxtəlif təzyiqlər də var idi və bütün bunlar "Əsrin müqaviləsi"ni pozmaq məqsədi daşıyırdı. Lakin Heydər Əliyevin qətiyyətli mövqeyi, dəmir iradəsi, habelə müqavilədə iştirak edən neft şirkətlərinin və onların təmsil etdikləri dövlətlərin güclü dəstəyi bəd niyyətləri puça çıxardı. Bu işdə Azərbaycanın kütləvi informasiya vasitələrinin, o cümlədən ölkənin yeganə rəsmi dövlət informasiya agentliyi kimi AzərTAc-ın, habelə "Əsrin müqaviləsi" çərçivəsində görülən işlərə obyektiv mövqedən yanaşan dünyanın bir çox KİV-lərinin də xidməti vardır. 1994-cü ildən bəri ötən müddətdə bu mövzuda, bəlkə də on minlərlə informasiya yayılmış, beynəlxalq ictimaiyyətdə nəhəng layihənin həqiqətən dünyaya yalnız fayda gətirəcəyi fikri qəti şəkildə formalaşdırılmışdı.

Bu sətirləri qələmə alarkən, ulu öndər Heydər Əliyevin 1993-cü ildən Azərbaycanda yenidən hakimiyyətdə olduğu dövrdə istər xarici, istərsə də yerli mətbuata verdiyi müsahibələrin, bəyanatların, müraciətlərin, çıxışların, təbriklərin heç də tam olmayan statistikasını aparmışam. On il ərzində Prezident Heydər Əliyev 570 dəfə mətbuat konfransı keçirmiş, müsahibə və bəyanatlar vermiş, jurnalistlərlə görüşmüşdür. Həmin müsahibələrin bəlkə də, yazısı bilavasitə xarici ölkələrin jurnalistlərinin xahişi ilə verilmişdir. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 1993-cü il iyunun 15-dən 1998-ci ilin sonuna qədər olan dövrü əhatə edən 18 kitabına nəzər salsaq, belə müsahibələrin sayı 100-ə qədərdir. Bu fakta əsasən birmənalı olaraq deməliyəm ki, jurnalistlərlə sıx ünsiyyətdə olmaq istəyi heç də bütün siyasətçilərə, dövlət xadimlərinə xas olan xüsusiyyət deyildir. Prezident Heydər Əliyev isə bu baxımdan tamamilə fərqlənirdi. Ona görə də bir daha deyə bilərik ki, Heydər Əliyev sözün həqiqi mənasında, mətbuata açıq lider olmuşdur.

Azərbaycanı sürətli inkişaf yoluna çıxaran Heydər Əliyev siyasətinin informasiya təminatında ölkə mətbuatının beynəlxalq internet şəbəkəsinə qoşulmasının da mühüm əhəmiyyətini qeyd etmək lazımdır. Elektron mətbuat Azərbaycan həqiqətlərinin daha sürətlə dünyaya çatdırılması üçün geniş imkanlar açmışdır. İndi ölkəmizin müxtəlif informasiya agentlikləri dünyanın bir çox ölkələrinə informasiya ötürür və qəbul edir. Fikrimi AzərTAc-ın timsalında qısaca olaraq əsaslandırmaq istəyirəm.

Hazırda agentliyimizin dünyanın istənilən ölkəsi ilə birbaşa əlaqə saxlamaq, informasiya mübadiləsi aparmaq üçün ən müasir texniki imkanlara malik bazası, mükəmməl elektron poçt şöbəsi və internet saytı vardır. İndi hər gün AzərTAc-ın internet saytına dünya üzrə 9-10 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər. Agentliyimizin hazırda dünyanın 11 ölkəsinin aparıcı informasiya agentlikləri ilə əməkdaşlıq müqaviləsi vardır.

Eyni zamanda, informasiya agentliklərinin regional təşkilatları çərçivəsində də əlaqələrin qurulmasına çalışırıq. AzərTAc dünyanın 33 ölkəsinin 40 xəbər agentliyinin təmsil olunduğu Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının – OANA-nın üzvüdür. Ötən il isə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xəbər agentlikləri qurumunun – BSANNA-nın təsisçilərindən biri olmuşuq. Agentliyimiz bu qurumun xətti ilə hər gün Azərbaycan barədə xeyli informasiya göndərir və qəbul edir. Agentliyimiz Avropa ölkələri informasiya agentliklərinin nüfuzlu regional qurumu olan EANA-ya üzv olmaq üçün intensiv iş aparır.

Bu məqsədə nail olandan sonra AzərTAc-ın dünya məkanına operativ çıxmaq, dövlətimizin təməli Heydər Əliyev tərəfindən qoyulmuş siyasətinin geniş miqyasda informasiya dəstəyini təmin etmək üçün imkanları daha da genişlənəcəkdir.

Prezident Heydər Əliyev 2002-ci il iyulun 22-də kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərləri ilə görüşündə müasir həyatımızda mətbuatın rolundan və əhəmiyyətindən danışarkən demişdir: "Mənim fikrim belədir ki, birincisi, müstəqil qəzetləri dəstəkləmək lazımdır. Çünki müstəqil qəzet həm siyasidir, həm də müstəqildir. İkincisi, müxalifət qəzetlərini dəstəkləmək lazımdır. Üçüncüsü də, iqtidar qəzetlərini dəstəkləmək lazımdır". Bu tezisdən aydın olur ki, ümummilli liderimiz həyata keçirdiyi siyasətə informasiya dəstəyini cəmiyyətin müxtəlif siyasi düşərgələrini təmsil edən mətbuat vasitələrindən görmək istəyirdi. Bu isə ölkədə demokratik cəmiyyət quruculuğu, milli birlik və vətəndaş həmrəyliyi üçün vacib amillərdən biridir.

Heydər Əliyev mətbuat işçiləri ilə bütün görüşlərində bu prinsiplərə dönmədən əməl etməyi tapşırır və tövsiyə edirdi. Mətbuata, siyasi pro-

seslərin obyektiv informasiya təminatına xüsusi önəm verən ulu öndərin fikirləri həmişə çox aydın idi.

Ümummilli liderimiz Heydər Əliyevin kütləvi informasiya vasitələrinin əməkdaşları ilə istər rəsmi, istərsə də qeyri-rəsmi görüşlərinin çox şahidi olmuş, ulu öndərimizin dövlət başçısı kimi xarici ölkələrə səfərlərində AzərTAc-ı təmsil etmiş, materiallar hazırlamışam. Bu səfərlərin hər birində möhtərəm Heydər Əliyev jurnalistlərə xüsusi həssaslıqla yanaşırdı. Elə bir görüş, elə bir tədbir olmurdu ki, sonda Heydər Əliyev jurnalistlər qarşısında çıxış etməsin, fikirlərini, arzu və istəklərini bölüşməsin. Hətta təyyarədə, qatarda, avtobusda xalqımızın böyük oğlunun jurnalistlərə müsahibə verdiyinin dönə-dönə şahidi olmuşam. Məhz buna görədir ki, bütün tədbirlərdən sonra jurnalistlər Heydər Əliyev ilə görüşə can atır, istər dünyada, istər regionda, istərsə də ölkəmizdə gedən proseslərə bu dahi şəxsiyyətin münasibətini öyrənməyə, onun siyasi qiymətini dinləməyə, yazacaqları materiallarda bu fikirlərdən geniş istifadə etməyə çalışırdılar. Bütün bunlar isə ümummilli liderimizin istər daxili, istərsə də xarici siyasət sahəsindəki fəaliyyətinin informasiya təminatı üçün geniş imkanlar açırdı.

Göründüyü kimi, ulu öndər Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlarını təmin edən amillərdən biri də bu siyasətin istər yerli, istərsə də dünya mətbuatında özünə geniş informasiya dəstəyi tapmasıdır. Xarici mətbu nəşrlər ulu öndərimizin siyasi fəaliyyətini daim diqqətdə saxlayır, Azərbaycanda gedən demokratik, dünyəvi dövlət quruculuğu prosesinin həm çətinlikləri, həm də uğurları barədə maraqlı yazılarla bu siyasətə informasiya dəstəyi verir, Heydər Əliyevin memarı və qurucusu olduğu müstəqil dövlətimizin beynəlxalq aləmdə nüfuzunu daha da gücləndirirdi.

Yuxarıda qeyd olunmuş məqamlar tam qətiyyətlə söyləməyə əsas verir ki, Heydər Əliyevin mətbuata yüksək münasibəti, mətbuatın isə Heydər Əliyevin siyasi fəaliyyətinə mükəmməl informasiya dəstəyi çox geniş elmi araşdırma mövzusudur. Heç şübhəsiz ki, bu işlə məşğul olacaq araşdırıcılar, politoloqlar müstəqil Azərbaycan Respublikasının tarixində Heydər Əliyev epoxasının həqiqətlərinə ulu öndərin jurnalistlərə dəyərli tövsiyələrindən birində söylədiyi fikirlər müstəvisindən yanaşacaqlar: "Əmin olduğumu

bildirmək istəyirəm ki, zəngin və mütərəqqi mətbuat ənənələri ilə fərqlənən Azərbaycan jurnalistləri mənsub olduqları peşənin sirrlərini həmişə uca tutacaq, ölkəmizdə və beynəlxalq aləmdə baş verən hadisələrin respublika ictimaiyyətinə çatdırılmasında yüksək peşəkarlıq, obyektivlik və prinsipiallıq nümayiş etdirəcək, Azərbaycan həqiqətlərinin bütün dünyaya yayılmasında bundan sonra daha böyük səy göstərəcəklər".

Ümummilli lider Heydər Əliyev Azərbaycan həqiqətləri deyəndə, heç şübhəsiz ki, cəmiyyət həyatının bütün sahələrinin inkişafını nəzərdə tutur və jurnalistlərə öz peşələrinə dövlətçiliyin, milli mənəvi dəyərlərin qorunması, ölkənin dünyaya inteqrasiyası, demokratiyanın bərqərar olunması – bir sözlə, Azərbaycanın ümummilli mənafelər kontekstindən yanaşmağı tövsiyə edirdi.

Yuxarıda sadalanan bütün məqamları ümumiləşdirsək, belə bir nəticəyə gələrik: ümummilli lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində diplomatiyadan tutmuş bir çox digər sahələrdə olduğu kimi mətbuat, jurnalistika sahəsində də böyük bir məktəb yaratmışdır. Bu məktəbin qayəsi Azərbaycana, azərbaycançılığa, dövlətə, dövlətçiliyə vicdanla, ləyaqətlə xidmət göstərməkdir. Azərbaycan ümummilli lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Son iki ildə respublikamız iqtisadi artımın sürətinə görə nəinki bölgədə, hətta dünyada liderdir. Bu inkişaf milli mətbuatımızın maddi-texniki bazasının da möhkəmlənməsinə, onun informasiya yayımının əhatə dairəsinin daha da genişlənməsinə imkan vermişdir. Qloballaşan dünyamızda Azərbaycan həqiqətlərinə dair məlumatları indi planetin istənilən qitəsində oxumaq, öyrənmək, təhlil etmək mümkündür.

Dövlətimizin başçısı İlham Əliyev 2005-ci il iyulun 21-də Azərbaycan milli mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimindəki çıxışında demişdir: "Mən ümid edirəm ki, gələcəkdə milli mətbuatımız daha da inkişaf edəcək, dövlət, hökumət tərəfindən lazımi tədbirlər görüləcəkdir. Siz bilirsiniz ki, ulu öndərimiz Heydər Əliyev mətbuata böyük diqqətlə yanaşırdı. Mətbuatın maddi-texniki bazasının möhkəmlənməsinə, ümumiyyətlə, mətbuata qayğısı həmişə hiss olunurdu. Mən çalışıram ki, öz tərəfimdən bunu davam etdirim... İstəyirəm biləsiniz ki, heç bir fərq

qoymadan, mənim mətbuata münasibətim çox müsbətdir. İstər iqtidar mətbuatı olsun, istər müxalifət mətbuatı olsun, istərsə də müstəqil mətbuat olsun – bu, bizim mətbuatımızdır. Bu, Azərbaycanın demokratik inkişafına çox böyük töhfədir".

Ulu öndər Heydər Əliyevin siyasəti bu gün Azərbaycanda yeni bir şəraitdə uğurla davam etdirilir və həqiqətən ölkəmizin, xalqımızın mənafeləri baxımından alternativsiz olduğunu bir daha sübut edir, sanballı bəhrəsini verir. Ona görə də əminliklə deyə bilərik ki, Heydər Əliyev siyasətinin informasiya təminatı indi də davam edir və hələ uzun illər aktual olaraq qalacaqdır. Əminik ki, Azərbaycanın kütləvi informasiya vasitələri bu mərhələdə də fəal mövqeyini nümayiş etdirəcək, regionda lider dövlətə çevrilmiş, beynəlxalq münasibətlər sistemində öz mövqeyini getdikcə möhkəmləndirən ölkəmizin həyatının bütün sahələrində əldə olunan və gələcəkdə qazanılacaq uğurları dünyaya yaymaq üçün bütün imkanlardan istifadə edəcəklər.

1990-cı illərin əvvəllərində respublikamızın dağılmaq, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə İlahinin köməyi, xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması ilə ölkəmizdə gələcək böyük inkişafın bünövrəsinin ilk daşları qoyulurdu. Ölkə həyatının bütün sahələrində müəyyən bir canlanma başlanırdı. Hərc-mərclikdən, başıpozuq idarəetmədən cana doymuş insanların sifətindəki kədəri ölkənin, xalqın işıqlı sabahına olan ümid dolu sevinc, nur əvəz edirdi. Hər bir müəssisədə, kollektivdə işin ahəngi tədricən, addım-addım öz axarına düşürdü.

Ölkəyə dəymiş ağır zərbə nəticəsində çətin günlər yaşamış Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın, habelə Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin də fəaliyyətində artıq dirçəlmənin ilk işartıları sezilirdi. Ən vacibi isə, hər iki kollektivin üzvləri ulu öndərimizin həyata keçirməyə başladığı dahiyanə daxili və xarici siyasətin möhkəm informasiya təminatının yaradılması üçün böyük həvəslə, canla-başla gecəni gündüzə qatırdılar.

Heydər Əliyev yolunun haqq, ədalət yolu olduğunu, bu yolun müasir, müstəqil Azərbaycanın qurulması yolu olduğunu dərk edən həm agentliyin, həm də teleşirkətin əməkdaşlarının tam əksəriyyəti, sözün əsl mənasında

qüvvələrini səfərbər etmişdilər. Ölkədə atılan hər bir addım, görülən hər bir iş, qoyulan hər bir bünövrə insanlara sevinc, xoşbəxtlik gətirirdi. Əhali ümummilli lider Heydər Əliyevin sübh tezdən gecə yarıyadək keçirdiyi tədbirlər, apardığı danışıqlar, imzaladığı sənədlər haqqında AzərTAc-ın və AzTV-nin xəbərlərini hər gün böyük səbirsizliklə gözləyirdilər. Biz əməkdaşlar da bütün günü bu tədbirlərdə, bu görüşlərdə böyük qürur hissi və həvəslə iştirak edir, onları bacardığımız qədər operativ surətdə oxuculara, tamaşaçılara çatdırmağa çalışırdıq.

Heydər Əliyev yolu.
Azərbaycan inkişafın yeni mərhələsində.
Bakı, "Azərbaycan" nəşriyyatı, 2007-ci il.

Azərbaycan milli mətbuatı inkişafının yeni mərhələsini yaşayır

Mətbuat bütün tarixi boyu cəmiyyətdə ictimai proseslərə böyük təsir göstərən qüvvə olubdur. Bu mənada milli mətbuatımızın özünəməxsus ənənələri vardır. Yüz otuz iki il əvvəl "Əkinçi" qəzetinin nəşri ilə başlanan bu ənənələr zaman keçdikcə zənginləşdirilmiş, inkişaf etdirilmişdir.

Bu inkişafın tam bir qərinəsi bilavasitə ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu dövrə təsadüf edir.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev həm də müasir mətbuatımızın inkişafında əvəzsiz xidmətlər göstərmiş, onun böyük qayğıkeşi və himayədarı olmuşdur. Bu bir həqiqətdir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayanda respublikamız uzun illər tərkibində olduğu Sovetlər İttifaqında da o qədər tanınmırdı. Doğrudur, xalqımız bütün dövrlərdə dünya şöhrətli ədəbiyyat, mədəniyyət, elm xadimləri yetirmişdi və onların xidmətləri həmin sahələrin mütəxəssislərinə yaxşı bəlli idi. Lakin bütövlükdə Azərbaycanın bir respublika kimi həm keçmiş İttifaqda, həm də getdikcə dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun müdrik, uzaqgörən siyasəti, yorulmaz fəaliyyəti, doğma xalqına sonsuz məhəbbəti sayəsində 1970-80-ci illərdə respublika nəinki gerilikdən, ətalətdən xilas oldu, İttifaqda ön sıralara çıxdı, eyni zamanda, Azərbaycan dünyanın diqqətini cəlb etməyə başladı.

Təbiidir ki, Azərbaycan mətbuatının, xüsusilə də Azərbaycan Dövlət Teleqraf Agentliyinin – keçmiş Azərinformun inkişafı da yüksəliş yoluna qədəm qoymuş respublikamızın əldə etdiyi uğurlarla sıx bağlı olmuşdur. Yəni iqtisadiyyatı, sənayesi ildən-ilə görünməmiş sürətlə inkişaf edən, bütünlüklə yenidən qurulan Azərbaycanda mətbuat, xüsusilə də informasiya agentliyi diqqətdən kənarda qala bilməzdi.

Heydər Əliyev Azərinformun rəhbərliyi ilə müntəzəm olaraq görüşür, respublikanın informasiya siyasətinin təkmilləşdirilməsi ilə əlaqədar konkret tapşırıqlar verir, dəqiq fəaliyyət istiqamətini müəyyənləşdirirdi. Bununla yanaşı, o, Azərinformun maddi-texniki bazasının möhkəmləndirilməsinə, iş şəraitinin yaxşılaşdırılmasına, problemlərin vaxtında həll olunmasına da xüsusi diqqət yetirirdi. Təsadüfi deyil ki, məhz o dövrdə Azərinformun

işçilərinin böyük bir hissəsi mənzillə təmin olundu, dövlət mükafatları ilə təltif edildilər.

Respublika rəhbərinin köməyi sayəsində Azərinform çox nüfuzlu bir quruma çevrildi. Heydər Əliyevin diqqəti, qayğısı ilə əhatə olunmuş agentliyin əməkdaşları respublikanın əzəmətli yüksəlişindən bəhs edən xəbərləri ilə böyük sovet imperiyasının əsas informasiya qurumunun – SİTA-nın teletayp lentlərində daha çox yer tutmağa nail olurdular.

Lakin çox təəssüf ki, 1987-ci ildə Heydər Əliyev Siyasi Büronun üzvlüyündən çıxdıqdan və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra Azərinformun həyatında da tənəzzül dövrü başlandı. Azərbaycana səriştəsiz, idarəetmə bacarığı olmayan, xalqdan uzaq insanların rəhbərlik etdiyi illərdə Azərinform vaxtilə gərgin səylər hesabına qazandığı nüfuzunu itirirdi. 1990-cı ildə sovet qoşunları Bakıda 20 Yanvar qırğını törətdilər, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etdilər, 1992-ci ildə Xocalı yer üzündən silindi. Lakin Azərinform xalqın haqq səsini dünyaya çatdıra bilmədi. Azərbaycan, sözün əsl mənasında, informasiya blokadasında qaldı, ermənilərin yalan və uydurmaları isə bütün dünyaya yayılırdı.

Ayrı-ayrı siyasi oyunbazların diqqətindən kənarda qalmış AzərTAc o dövrün çətinliklərinə tab gətirməyərək, daha da ağır vəziyyətə düşdü, hətta dövlət büdcəsindən maliyyələşdirmədən də çıxarılaraq, əslində, heç bir statusu olmayan quruma çevrildi.

Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi rəhbərliyə gəldikdən sonra AzərTAc-a da münasibət dəyişdi və birinci növbədə, bu informasiya qurumunun statusunun müəyyənləşdirilməsi və onun normal fəaliyyətinin təmin edilməsi üçün təsirli tədbirlər görüldü.

Ulu öndərimizin 1995-ci ildən etibarən Azərbaycan Dövlət Teleqraf Agentliyi ilə bağlı imzaladığı fərman və sərəncamlar AzərTAc-ın işinin yaxşılaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır.

"Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Prezidentin 1995-ci il 3 mart tarixli Fərmanının məqsədi dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında, Azərbaycan

haqqında operativ məlumatların beynəlxalq miqyasda geniş yayılmasında agentliyimizin imkanlarından daha dolğun istifadə edilməsinə şərait yaratmaq idi.

Bu Fərmanla Azərbaycan Teleqraf Agentliyi əsasında Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi yaradıldı. Bu, hər şeydən əvvəl, AzərTAc-a rəsmi dövlət informasiya orqanı statusu verilməsi demək idi. Fərmanda Nazirlər Kabinetinə AzərTAc-ın maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması və onun dünya standartları səviyyəsində fəaliyyət göstərməsi üçün lazımi tədbirlər görmək tapşırılmışdı.

Fərmanın icrası ilə bağlı Nazirlər Kabineti iyulun 3-də "Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" qərar qəbul etdi. Agentlik, əsasən dövlət büdcəsindən maliyyələşdirilməyə keçirildi. Bundan əlavə, Maliyyə Nazirliyinə agentliyin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasını və digər zəruri ehtiyacları təmin etmək məqsədi ilə lazımi vəsait ayrılması tapşırıldı. AzərTAc-ın hələ o vaxt Türkiyədə, ABŞ-da, İranda, Almaniyada, İngiltərədə, Türkmənistanda, Rusiyada, Gürcüstanda və Özbəkistanda müxbir məntəqələrinin açılmasına icazə verildi.

Ümummilli liderimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsini, işçilərin maddi təminatının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayırdı. 1996-cı il iyunun 29-da "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Sərəncamda Nazirlər Kabinetinə tapşırıldı ki, agentliyin işinin spesifik xüsusiyyətlərini, müasir dövrdə dövlət siyasətinin həyata keçirilməsində rəsmi informasiya işinin böyük əhəmiyyətini nəzərə alaraq, müstəsna hal kimi, işçilərin əməkhaqqını AzərTAc-ın rəhbərliyi tərəfindən təqdim olunmuş dərəcələr səviyyəsində müəyyən etsin və bu məqsədlə lazımi vəsait ayırsın. Sənədə görə, xarici ölkələrdə müxbir məntəqələrinin açılması və onların fəaliyyətinin maliyyələşdirilməsi məsələləri 1996-cı ilin ikinci yarısında həll edilməli idi. Şəhər və rayonların icra hakimiyyəti başçılarına isə AzərTAc-ın zona informasiya mərkəzlərinin fəaliyyəti üçün lazımi şərait yaratmaq tapşırıldı. Sərəncamın icrasını təmin etmək üçün respublika hökuməti oktyabrın 31-də müvafiq qərar qəbul etdi.

Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində respublikamızın beynəlxalq əlaqələri genişlənir, müstəqil dövlətimizin dünya miqyasında nüfuzu getdikcə artır, ölkəmizdə gedən hüquqi dövlət quruculuğuna beynəlxalq aləmdə maraq güclənirdi. Belə bir şəraitdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün agentliyin fəaliyyətinin günün tələbləri səviyyəsində təkmilləşdirilməsi tələb olunurdu. Bunu nəzərə alan ümummilli liderimiz 2000-ci il yanvarın 17-də "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Fərmanla AzərTAc Nazirlər Kabinetinin tabeliyindən çıxarılaraq, Prezidentə tabe olan müstəqil qurum – Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırıldı. Həmin Fərmana əsasən, agentliyin tərkibində xarici dillərdə xəbərlər hazırlayan və yayan baş redaksiya yaradıldı, digər müvafiq tədbirlər görüldü.

Həmin il martın 1-də agentliyimizin 80 illiyi tamam olurdu. Şübhəsiz ki, bu əlamətdar hadisə Heydər Əliyev kimi həssas insanın diqqətindən yayına bilməzdi. Ulu öndərimiz fevralın 29-da Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivinə təbrik məktubu ünvanladı. Məktubda deyilirdi: "Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür". Məktubda kollektivin vəzifələri də konkret şəkildə müəyyənləşdirilirdi: "AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır. Bu gün Azərbaycan dövləti ölkə Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmışdır və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdir".

Xüsusi vurğulamaq istərdim ki, xalqımızın müdrik oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə, xüsusən də müstəqil Azərbaycan dövlətinin Prezidenti kimi 1993-cü ildən sonra özünəməxsus bir jurnalistika məktəbi yaratmışdır və Azərbaycan jurnalistlərinin böyük bir hissəsi bu məktəbdən dərs almışdır.

Heydər Əliyevin jurnalistika məktəbi tarixi zərurətdən yaranmışdır. Çünki demokratik cəmiyyətdə mətbuata xüsusi önəm verilir. Müasir dünyamızda hər bir cəmiyyətin, dövlətin həyatında gedən prosesləri kütləvi informasiya vasitələrinin fəal müdaxiləsindən, münasibətindən kənarda təsəvvür etmək mümkün deyildir. Məhz buna görə də Prezident Heydər Əliyev ölkəmizin, xalqımızın, dövlətimizin ən başlıca problemlərinə obyektiv mövqedən yanaşan, dövlətçiliyimizə xidmət edən, müstəqil Azərbaycanın həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilən mətbuatımızın olması üçün real imkan və şərait yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyasının verdiyi hüquqları, kütləvi informasiya vasitələri haqqında qanunu və nəhayət, ölkədə nəşr olunan saysız-hesabsız və müxtəlif siyasi yönümlü mətbuat orqanlarını, sayı getdikcə artan özəl televiziya və radio kanallarını xatırlatmaq kifayətdir. Bütün bunlar Prezident Heydər Əliyevin mətbuata, azad sözə tükənməz qayğısı və diqqəti sayəsində mümkün olmuşdur.

Məlumdur ki, mətbuatla, jurnalistlərlə sıx ünsiyyət istəyi heç də bütün siyasətçilərə, dövlət xadimlərinə xas deyildir. Ümummilli lider Heydər Əliyev isə bu baxımdan tamamilə fərqlənən dövlət başçılarından biri, daha doğrusu birincisi idi. Keçmiş SSRİ məkanında elə bir dövlət başçısı yox idi ki, jurnalistlər onunla Heydər Əliyevlə olduğu qədər ünsiyyətə can atsınlar.

Tale elə gətirib ki, ulu öndərimizin dövlət başçısı kimi uzun illər xarici ölkələrə səfərlərinin tam əksəriyyətinin iştirakçısı olmuşam və həmin səfərlər barədə materialları mən hazırlamışam. Həmişə də şahidi olmuşam ki, əksər dövlət başçılarından fərqli olaraq, Heydər Əliyev bu səfərlər zamanı çoxsaylı görüşlərdə kütləvi informasiya vasitələri nümayəndələrinin ətraflı məlumat əldə edə bilmələri üçün bilavasitə özü lazımi şərait yaradırdı. Şübhəsiz ki, bu, jurnalistlərin məsələlərə daha yaxından bələd olmaları və yazılarını geniş təhlil əsasında hazırlamaları baxımından çox vacib idi.

Azərbaycanın iqtisadi, siyasi, sosial problemlərindən, sərhədlərimizin toxunulmazlığının təmin olunmasından, ölkəmizin ərazi bütövlüyünün bərpasından, respublikamızın beynəlxalq aləmdə demokratik imicinin formalaşmasına xidmətdən, xalqımızı, cəmiyyətimizi narahat edən məsələlərdən söhbət açılırdı.

Ulu öndərimiz müasir mətbuatımızın, publisistikamızın vəzifələrindən bəhs edərkən gənclərimizin milli ruhda, Vətənə, müstəqil dövlətimizə

sədaqət uğrunda tərbiyəsi, ana dilimizin saflığının qorunması, onu mükəmməl bilməyin vacibliyi kimi ümdə məsələləri də ön plana çəkirdi. Heydər Əliyev deyirdi: "Biz dilimizi yaşatmışıq, nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın ... ən böyük nailiyyətidir... Xarici ölkələrin nümayəndələri... dəfələrlə mənə deyirlər ki, sizin nə qədər gözəl diliniz var. Bəlkə də, biz öz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir!" Ulu öndər bu müdrik fikirləri ilə mətbuatımızı dilimizin saflığını qorumağa, gözəlliyini artırmağa səfərbər edirdi.

Ümummilli lider Heydər Əliyevin müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli, əhatəli nitqləri, ən yüksək səviyyədə apardığı danışıqları siyasi publisistikanın son dərəcə gözəl, təkrarsız nümunələridir. Bütün bunlar dönə-dönə nəzərdən keçirilməli, təhlil edilməli, diqqətlə öyrənilməlidir. Heydər Əliyevin siyasi publisistikası yeni dövrdə özünün yeni tarixini yaşayan Azərbaycan jurnalistikası, milli mətbuatımız üçün əvəzsiz xəzinədir.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada yayılması Heydər Əliyevin ən böyük arzularından biri idi. Fərəhlə deyə bilərik ki, hazırda AzərTAc İTAR-TASS (Rusiya), Anadolu Agentliyi (Türkiyə), Sinxua (Çin), Rompress (Rumıniya), Ukrinform (Ukrayna), BTA (Bolqarıstan), ANSA (İtaliya), İRNA (İran), TANYUQ (Serbiya), BELTA (Belarus), Moldpress (Moldova), ATA (Albaniya), MTİ (Macarıstan), MENA (Misir) agentlikləri ilə ikitərəfli əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Bu sazişlərin bilavasitə tərəfdaşlarımızın təşəbbüsü ilə imzalanması AzərTAc-ın beynəlxalq miqyasda nüfuzunun getdikcə artmasının daha bir sübutudur.

2004-cü ilin sentyabrında isə agentliyimizin həyatında çox əlamətdar hadisə baş vermiş, AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) tam hüquqlu üzvü olmuşdur. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə edə bilir. AzərTAc isə, öz növbəsində, həmin agentliklərin OANA-nın saytına daxil olan bütün informasiyalarından istifadə etmək imkanı qazanmışdır.

Xatırladaq ki, Azərbaycan informasiya agentliyi bu təşkilatda təmsil olunan dördüncü MDB dövlətidir. Ümumiyyətlə, indi AzərTAc hər gün dünyanın 80-dən çox ölkəsinə Azərbaycan, ingilis və rus dillərində xəbərlər göndərir və özü də qəbul edir.

AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin milli informasiya agentlikləri assosiasiyasının (BSANNA) təsisçilərindən biridir.

Ümummilli liderimizin qarşımıza qoyduğu tələblərdən biri xarici dövlətlərdəki səfirliklərimizə Azərbaycanın gündəlik həyatı barədə operativ informasiya əldə etmək imkanı yaratmaq idi. AzərTAc-ın yeniləşdirilmiş saytı bunu təmin etmişdir. Yeri gəlmişkən xatırladım ki, agentliyimizin saytına gün ərzində 1000-dən çox müraciət olur. AzərTAc-ın saytı BMT-nin Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet-səhifəsində yerləşdirilmiş, "NET-TU-2007" Milli İnternet mükafatı müsabiqəsində "Dövlət saytı" nominasiyasında birinci yer tutmuşdur. AzərTAc İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafatına (2004-cü il), Madriddəki Biznes Təşəbbüsü Mərkəzinin xüsusi keyfiyyət və yüksək texnologiya üçün "Avropaya qapı" beynəlxalq qızıl mükafatına (2005-ci il) layiq görülmüşdür.

Azərbaycan xalqının ümummilli liderinin ruhu şad ola bilər, bu gün AzərTAc onun istədiyi səviyyəyə yaxınlaşmaqdadır. İnformasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativliyə nail olmaq üçün yeni yollar axtarılır, texniki-təşkilati tədbirlər görülür. Bütün bunlar getdikcə öz bəhrəsini verir, gündəlik informasiyaların həcmi on dəfədən çox artmışdır. Daha bir neçə xarici ölkədə müxbir məntəqələrinin açılması nəzərdə tutulur.

Böyük Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycan dövləti indi ulu öndərin siyasi varisi, respublikamızın Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə özünün inkişafının yeni mərhələsini yaşayır.

Son illər biz Azərbaycanın həyatının bütün sahələrində böyük inkişafın şahidiyik. Ulu öndərimizin ideyalarının layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu və məqsədyönlü siyasəti nəticəsində

müstəqil Azərbaycan beynəlxalq aləmdə nüfuzlu, öz sözü, öz mövqeyi olan dövlətə çevrilmişdir. Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada birinci yerdədir və beynəlxalq maliyyə qurumları da bunu birmənalı şəkildə təsdiq edirlər. Böyük qürur hissi ilə deyirik ki, bu gün Azərbaycan regionda lider dövlətdir. Bölgələrin, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilməsi respublikamızın şəhər və rayonlarının simasını sürətlə dəyişdirir. Sosial sahənin inkişafına diqqət, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün ardıcıl surətdə həyata keçirilən tədbirlər xalqımız tərəfindən böyük razılıqla qarşılanır.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin Azərbaycanda təkcə iqtisadi və sosial strategiyasını deyil, həm də azad mətbuatın inkişafı sahəsində müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirir. Mətbuat işçiləri ilə səmimi münasibətlər, KİV-lərin problemlərinin həlli istiqamətində görülən tədbirlər buna əyani sübutdur. Qəzetlərin "Azərbaycan" nəşriyyatına borclarının büdcədən ödənilməsi, müstəqil qəzetlərə böyük məbləğdə birdəfəlik maliyyə yardımı edilməsi barədə dövlətimizin başçısının sərəncamları təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə də yüksək dəyərləndirilir.

Prezident İlham Əliyev ağır jurnalist əməyinə həmişə qayğı ilə yanaşır. Hər il jurnalistlərin peşə bayramı ərəfəsində mətbuat işçilərinin böyük bir qrupu fəxri adlara və dövlət mükafatlarına layiq görülür, kütləvi informasiya vasitələrinə maddi yardımlar edilir. Bütün bunlar Azərbaycanda azad mətbuatın və azad sözün dövlət səviyyəsində qorunduğunu sübut edir.

Azərbaycan mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimindəki nitqində Prezident İlham Əliyev milli mətbuatımızın keçdiyi tarixi inkişaf yolunu şərh edərək demişdir: "Mən şübhə etmirəm ki, bu gün Azərbaycanda formalaşan güclü mətbuat bir neçə ildən sonra keyfiyyətcə daha da yüksək səviyyəyə çatacaqdır... Əlbəttə, biz çalışmalıyıq ki, görülən bütün işlər haqqında cəmiyyətimizə dolğun məlumat çatdıraq. Eyni zamanda, mövcud problemləri də tam şəkildə diqqətə çatdıraq. Mətbuatda gedən tənqidi materiallar mənim fəaliyyətimə də köməkdir. Mən bəzi şeyləri belə verilişlərdən, məqalələrdən götürürəm. Bu, çox önəmlidir. İqtidarla mətbuat arasında daim əlaqə, ünsiyyət olmalıdır". Bu fikirlər Prezident İlham Əliyevin azad mətbuatın qarantı olduğunu bir daha nümayiş etdirir.

Yüksək ideallarla yaşayan Azərbaycan Prezidenti İlham Əliyev dözümlülük amilinin demokratiya və mətbuat azadlığının inkişaf etdirilməsi istiqamətində dövlət siyasətinin prioritetlərindən biri olduğunu bəyan etmişdir: "Hər bir vəzifəli şəxs, xüsusilə böyük səlahiyyətlərə malik olan şəxs gərək dözümlü olsun, tənqidə dözümlü olsun. Bəzi hallarda təhqirə də dözümlü olmalıdır". Bu sözlərdə ehtiva olunan mətləbi qısaca belə ifadə etmək olar: Prezident İlham Əliyevin mətbuata münasibəti demokratik inkişafın zəruri tələblərinə söykənir. Bu münasibət sübut edir ki, Azərbaycan mətbuatının inkişafında yeni bir mərhələ başlanmışdır. Bu mərhələni dövlətimizin başçısı belə xarakterizə etmişdir. "İstəyirəm biləsiniz ki, heç bir fərq qoymadan mənim mətbuata münasibətim çox müsbətdir. İstər iqtidar mətbuatı olsun, istər müxalifət mətbuatı olsun, istərsə də müstəqil mətbuat olsun – bu, bizim mətbuatımızdır. Bu, Azərbaycanın demokratik inkişafına çox böyük töhfədir... Çox çəkməyəcək ki, mətbuatımız dünya standartlarına cavab verəcəkdir".

Ulu öndər Heydər Əliyevin siyasəti bu gün Azərbaycanda yeni bir şəraitdə uğurla davam etdirilir və həqiqətən ölkəmizin, xalqımızın mənafeləri baxımından alternativsiz olduğunu bir daha sübut edir, səmərəli bəhrəsini verir. Ona görə də əminliklə deyə bilərik ki, Azərbaycanın milli mətbuatı bu mərhələdə də fəal mövqeyini nümayiş etdirəcək, ölkəmizin həyatının bütün sahələrində qazanılan uğurları dünyaya yaymaq üçün bütün imkanlardan istifadə edəcəkdir.

2007-ci il.

Ustad dərsi unudulmur...

Hələ sağlığında milli mətbuatımızın klassikinə çevrilmiş görkəmli jurnalist Nəsir İmanquliyev haqqında xatirələrimizi qələmə almaq, bir qəzet yazısının imkanları daxilində oxuculara təqdim etmək barədə öz aramızda fikir mübadiləsi apardığımız günlərdə eşitdiyimiz xoş xəbər bizi çox sevindirdi. Möhtərəm Prezidentimiz İlham Əliyev 2006-cı il sentyabrın 4-də unudulmaz müəllimimizin xatirəsinin əbədiləşdirilməsi haqqında Sərəncam imzalamışdı.

Nəsir müəllimlə ilk tanışlığımız, ünsiyyətimiz 36 il əvvələ – artıq əlçatmaz, ünyetməz bir keçmişdə qalmış 1970-ci ilin sentyabr ayına, bütövlükdə qayğısız olsa da, daha çox acılı-şirinli anları ilə yadda qalan tələbəlik illərinin ilk günlərinə təsadüf edir...

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunmuş əlli tələbənin əyləşdiyi auditoriyaya daxil olan, "Jurnalistikanın əsasları" fənnini tədris edəcək boy-buxunlu müəllim ciddi, zabitəli görkəmi, rəvan, ölçülü-biçili danışığı ilə hələ ali məktəbin ab-havasına uyuşmayan, bir qədər şıltaq-ərköyün gənclərin diqqətini dərhal özünə cəlb etdi. Bu, Nəsir müəllim idi. Elə ilk dərsdən hiss etdik ki, Nəsir müəllim jurnalistika sahəsində həm mükəmməl nəzəri biliyə malik alim, həm də zəngin təcrübəsi olan peşəkardır. Elmi dəlillərin həyati faktlar əsasında şərhi Nəsir müəllimin mühazirələrini yaddaqalan və maraqlı edir, gələcəyin jurnalistləri olacağımızdan iftixar duyurduq...

Aradan bir qərinədən artıq vaxt ötsə də, bu müddətdə həyatımızda acılı-şirinli çox hadisələr baş versə də, unudulmaz tələbəlik illərində Nəsir müəllimin jurnalist sənəti və sənətkarlığı ilə bağlı dəyərli fikirlərinin qəlbimizdə oyatdığı xoş duyğuların gələcək peşəmizin məsuliyyətindənmi, çətinliyindənmi, yaxud yazı-pozu işinin əzab-əziyyəti barədə eşitdiklərimizdənmi (bəlkə də onların hamısından) yarandığını hələ də müəyyənləşdirə bilməmişik. Ancaq bir məsələ şəksizdir ki, mətbuat aləmində, yazı-pozu işində nəyə nail olmuşuqsa (təkcə biz yox, Azərbaycan jurnalistlərinin bütöv bir nəsli), buna görə Nəsir İmanquliyev başda olmaqla, əziz və unudulmaz müəllimlərimizə borcluyuq.

Tələbəliyimizin hər ötən semestri, kursu bizi müəllimlərimiz arasında ciddiliyi, tələbkarlığı ilə sayılıb-seçilən Nəsir müəllimə elə yaxınlaşdırmış,

doğmalaşdırmışdı ki, hətta aramızda pünhan tələbə-müəllim dostluğu yaranmışdı. Açığı, bu doğmalıq, məhrəmlik, dostluq duyğularını bizə universitet auditoriyalarından daha çox Nəsir müəllimin yaradıcısı və düz 30 il dəyişməz redaktoru olduğu "Bakı" qəzeti redaksiyasındakı geniş kabineti aşılayırdı. Çünki Nəsir müəllim seminarları, adətən, redaksiyada aparardı və buna görə də biz özümüzü nisbətən sərbəst hiss edər, ustadımızın ömür yolunun, xarakterinin, xasiyyətinin hər dəfə bir məqamını, məziyyətini kəşf edərdik.

Nəsir müəllim ömrünün sonunadək Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində dərs deyib. Ancaq zənnimizcə, Nəsir müəllimin əsl universiteti "Bakı" və "Baku" qəzetləri olub. Tarix elmləri namizədi, professor Nəsir İmanquliyev universitet auditoriyalarında tələbələrə yalnız jurnalistikanın əsaslarını öyrədirdi. "Bakı" və "Baku"nun "auditoriyalarında" isə bizə qəzetçilik işinin incəlikləri ilə bərabər, jurnalistlik məharəti, redaktə bacarığı, səbirlə işləmək vərdişləri, ən başlıcası isə, Nəsir İmanquliyev şəxsiyyətinə xas olan xeyirxahlıq, alicənablıq, nəciblik, yüksək daxili mədəniyyət və böyüklük – ağsaqqallıq, təmkinlilik kimi məziyyətləri təlqin edirdi. Məhz bu amillərə əsasən, tam məsuliyyət hissi ilə deyirik ki, Nəsir müəllim özünün jurnalistika məktəbini yaratmışdır.

Nəsir müəllimin jurnalistika məktəbinin yetirmələri o vaxtlar da, elə indinin özündə də Azərbaycanın aparıcı mətbuat orqanlarında çalışır, dəst-xətləri ilə seçilirlər. Adları milli mətbuatımızın tarixinə düşmüş jurnalistlərin bütöv bir nəsli, sözün həqiqi mənasında, Nəsir İmanquliyev məktəbinin yetirməsidir, necə deyərlər, onun "şinelindən" çıxmışdır. Nəsir müəllimin məktəbi təkcə istedadlı jurnalistlər deyil, həm də görkəmli elm və ədəbiyyat xadimləri yetirmişdir. Sonralar Azərbaycan ədəbiyyatının tanınmış simaları olan bir sıra yazıçılar, şairlər, alimlər ilk yaradıcılıq addımlarını "Bakı" qəzetində atmışlar. "Bakı" həmçinin bütöv bir ədəbi nəslin yeni əsərlərinin işıq üzü gördüyü qəzet olmuşdur. Bu barədə çox zəngin bir siyahı tərtib etmək mümkündür. Ancaq biz qəzet məqaləsinin verdiyi imkan daxilində tanınmış ədəbi simalarımızın Nəsir müəllim haqqında dəyərli xatirələrindən bəzi seçmələri diqqətə çatdırmaqla kifayətlənəcəyik.

Xalq yazıçısı Elçin həyatdan vaxtsız köçmüş məşhur şərqşünas alim, Nəsir müəllimin gözünün ağı-qarası olan ciyərparəsi Aida İmanquliyeva

haqqında "Dünyanın möhnəti və zinəti" adlı məqaləsində yazır: "Görkəmli jurnalist Nəsir İmanquliyev bizim, yəni altmışıncı illərdə ədəbiyyata gəlmiş ədəbi nəslin dostu və xeyirxahı idi. Onun bizə bu münasibəti uzun müddət baş redaktoru olduğu "Bakı" qəzetində həmişə özünü göstərirdi. Mənim ilk yazılarımın bir çoxu o qəzetdə dərc edilmişdi. Haqqımdakı ilk məqaləni də o qəzet çap etmişdi və bizim Nəsir müəllimə xüsusi hörmətimiz var idi".

Xalq yazıçısı Qılman İlkin xatirələrinin birində deyir: "Nəsir İmanquliyev Azərbaycan ədəbiyyatının dostu idi. Ədəbi mühitdə qaldırılmış mühüm məsələlərin müzakirəsində "Bakı" qəzeti həmişə fəal iştirak edər və həmişə də düzgün mövqe nümayiş etdirərdi. Mən də uzun müddət şəhər qəzeti ilə yaxından əməkdaşlıq etmişəm. Əmək adamlarının həyatından bəhs edən silsilə oçerklərim bu qəzetin səhifələrində dərc olunmuşdur.

Həmçinin "Müsəmmərin kirayənişinləri" və "Bir gecənin ömrü" povestlərimi, çoxsaylı hekayələrimi oxuculara birinci olaraq "Bakı" qəzeti çatdırmışdır. Azərbaycan poeziyası, nəsri, dramaturgiyası və ədəbiyyatşünaslığının ötən əsrin ikinci yarısında yaşayıb-yaratmış simalarının hər hansı birini dindirsəniz, yaxud xatirələrini vərəqləsəniz, Nəsir müəllim haqqında mənim fikirlərimdən də dəyərli fikirlər eşidəcək və oxuyacaqsınız".

Qılman müəllimin sözlərinə qüvvət, biz (əlbəttə, başqaları da) müxtəlif tədbirlərdə, mərasimlərdə məşhur insanların, tanınmış ədəbiyyat, mədəniyyət və mətbuat xadimlərinin Nəsir müəllim və "Bakı" – "Baku" qəzetləri haqqında necə böyük məhəbbətlə, dərin iftixar hissi ilə danışdıqlarının dəfələrlə şahidi olmuşuq. Bu yazını hazırlayarkən həmkarım Dağbəyi İsmayılov daha bir maraqlı epizodu yada salaraq dedi: "Mən 1999-cu ilin mart ayında akademik Bəkir Nəbiyevlə birlikdə müqəddəs Məkkədə həcc ziyarətində idik. Zəvvarlar arasında jurnalistlərin, həmçinin "Bakı" qəzeti əməkdaşının da olduğuna çox sevinən Bəkir müəllim asudə vaxt tapan kimi onları başına yığır, şəhər qəzetində çalışdığı gənclik illərini yada salır, Nəsir müəllimlə bağlı maraqlı, ibrətamiz xatirələr söyləyirdi. Belə söhbətlərin birində dedim ki, bu gün (martın 6-sı idi) Nəsir müəllimin vəfatının bir ili tamam olur. Bəkir müəllim təklif etdi ki, gəlin, şeyxə deyək, yığışıb xatirə mərasimi keçirək, ehsan süfrəsi açaq, Quran tapşırtdıraq.

Şeyxülislam hacı Allahşükür Paşazadə təklifi yüksək dəyərləndirdi və Azərbaycanın Səudiyyə Ərəbistanında o vaxtkı səfiri Elman Araslı, səfirliyin

işçiləri və xeyli zəvvarın iştirakı ilə xatirə mərasimi keçirildi. Akademik Bəkir Nəbiyev, şeyxülislam Allahşükür Paşazadə, Bakı Dövlət Universitetinin dosenti İslam Əliyev Nəsir müəllimin müdrikliyi, nəcibliyi, xeyirxahlığı və milli mətbuatımızda bir sıra yeni ənənələrin təməlini qoyan novator redaktor olması barədə çox qiymətli fikirlər söylədilər. Bu, ustadımızın əməlisalehliyindən xəbər verən xoş bir təsadüf idi".

Nəsir müəllimin layiq görüldüyü "Əməkdar Mədəniyyət İşçisi", "Əməkdar Jurnalist" fəxri adları onun mətbuatımızın inkişafındakı əvəzsiz xidmətlərinin rəsmi təsdiqidir. Ancaq qətiyyətlə demək olar ki, bu fədakar insanın banisi olduğu və otuz il sükanı arxasında vüqarla dayanaraq daim irəli apardığı, inkişaf etdirdiyi, övladı qədər sevdiyi, uğurlarından sonsuz iftixar hissi duyduğu "Bakı" qəzetinin 1958-ci il yanvarın 10-da nəşrə başlaması Azərbaycan mətbuatının tarixində milli hadisədir. Bu qəzet işıq üzü görməsi ilə o dövrün ciddi siyasi buxovları çərçivəsində sıxılan milli mətbuatımıza yeni nəfəs, yeni ruh, yeni dəst-xətt gətirmişdir. Oxucuların yaşlı nəslinin nümayəndələri hər gün axşamçağı "Bakı" və "Baku" qəzetləri üçün köşklərin qarşısında növbəyə dayandıqları vaxtın xiffətini çəkdiklərini indinin özündə də xoş duyğularla dilə gətirirlər. Milli mətbuatımızın indi üstünlük verdiyi xəbər janrının əhəmiyyətini hələ 40-45 il bundan əvvəl yüksək qiymətləndirən Nəsir müəllim rəhbərlik etdiyi qəzetlərdə operativ, dəqiq, maraqlı, rəngarəng xəbərlərə böyük üstünlük verirdi. Bu, şəhər qəzetlərini o zaman digər mətbu nəşrlərdən fərqləndirən əsas cəhətlərdən biri idi.

Fərqləndirici cəhətlərdən söz düşmüşkən, xatırlatmağı özümüzə borc bildik ki, mətbuatımızın tarixində 30 il fasiləsiz redaktor işləmək, hər həftə iki dildə bir-birini təkrarlamayan 12 nömrə qəzet buraxmaq, müxtəlif millətlərə, müxtəlif zövqlərə, fərqli düşüncələrə mənsub böyük bir kollektivi söz-söhbətsiz, dəqiq saat mexanizmi kimi işlətmək heç də hamıya nəsib olan hünər deyildir. Təkcə bu faktın özü Nəsir müəllimin ağsaqqallığı, idarəçilik üslubu, redaktorluq məharəti, ustalığı və ustadlığı haqqında çox söz deyir. Nəsir müəllimə cəmiyyətdə, kollektivdə, dost-tanışları arasında nüfuz qazandıran nəcib xüsusiyyətlərindən biri də onun obyektivliyi, işçilərini ayağa verməməsi, çətinə düşəndə onlara arxa-dayaq olması idi. Adətən, rəhbərlər işçini işdən çıxarmaqla hədələyirlər, Nəsir müəllim isə səhvə yol verəni işdən çıxarmamaqla qorxudar, necə deyərlər, danlayıb su-

yunu çıxarar, üstündən 5-10 dəqiqə keçməmiş çağırıb könlünü alar, elə öyüd-nəsihət verərdi ki, bir daha qəbahət etməyə adamın cürəti çatmazdı.

Redaktor-işçi münasibətlərindən söz düşmüşkən, Nəsir müəllimin portret cizgilərini tamamlayan bir ştrixi də diqqətə çatdırmaq vacibdir. Kollektivin xeyrində də, şərində də ağsaqqallığı özünə mənəvi borc bilən Nəsir müəllim tez-tez süfrə açdırıb işçiləri bir yerə yığmağı çox xoşlayırdı. Deyirdi ki, bir süfrədə halal düz-çörək kəsmək adamları mehribanlaşdırır, umu-küsüləri aradan götürür, onlarda bir-birinə hayanlıq hissi aşılayır.

Nəsir müəllim bütün ömrü boyu saysız-hesabsız adama hayan olmuş, çoxunun müşkülünü yoluna qoymuş, dar günündə əlindən tutmuşdur. Allah sevimli bəndəsi Nəsir müəllimə bir çox fəzilətlərlə bahəm mənalı cismani ömürdən əlavə, haqq dünyasına qovuşduqdan sonra qəlblərdə xoş xatirələrlə əbədi yaşamaq şərəfi də qismət etmişdir. Artıq səkkiz ildir ki, ustadımız Nəsir müəllim əbədiyyət dünyasındadır. Bu ayrılığın Nəsir müəllimin əzizləri, doğmaları, dostları və tələbələri üçün dəqiq başlanğıc tarixi vardır: 1998-ci il 6 mart. Ancaq son tarix heç zaman olmayacaqdır.

"Azərbaycan" qəzeti, 1 dekabr 2006-cı il.
"Bakinski raboçi" qəzeti, 2 dekabr 2006-cı il.

Azərbaycanın demokratik inkişafında yeni mərhələ

Son dövrdə Azərbaycanın ictimai-siyasi həyatında ən mühüm hadisələrdən biri, şübhəsiz ki, 2005-ci ilin parlament seçkiləri olmuşdur. Seçki kampaniyası dövrü, səsvermənin gedişi və onun nəticələri uzun müddət həm ölkə daxilində, həm də xaricdə müzakirə mövzusu olmuş, seçkilərlə bağlı müxtəlif rəylər, fikirlər səslənmişdir.

Çoxsaylı xarici müşahidəçilərin, müxtəlif ölkələrdən olan tanınmış ekspertlərin, politoloqların Milli Məclisə seçkilərin yekunları barədə rəylərini ümumiləşdirilmiş şəkildə belə ifadə etmək olar ki, nəticələrə bilavasitə təsir göstərməyən pozuntu və nöqsanlara baxmayaraq, Azərbaycanda parlament seçkiləri əsasən demokratik, azad, şəffaf və ədalətli keçmişdir və ölkədəki mövcud siyasi qüvvələrin nisbətini əks etdirir. Yəni seçkilərin yekunu gözlənildiyi kimi oldu, radikal müxalifət düşərgəsinin hay-küylü bəyanatlarının əksinə olaraq, seçkiqabağı rəy sorğularının nəticələri öz təsdiqini tapdı. Başqa sözlə, Prezident İlham Əliyevin seçkilərin ertəsi günü televiziyaya müsahibəsində dediyi kimi, daha şanslı olan Yeni Azərbaycan Partiyasının təmsilçiləri, habelə iqtidarı dəstəkləyən digər nümayəndələr daha çox deputat mandatı qazandılar.

Azərbaycanda 2005-ci il parlament seçkilərinin əvvəlki seçkilərdən fərqi, iqtidarın və müxalifətin seçkilərə münasibəti, Yeni Azərbaycan Partiyasının qələbəsinin, eyni zamanda, radikal müxalifətin növbəti məğlubiyyətinin obyektiv və subyektiv səbəbləri, xarici ölkələrin və beynəlxalq qurumların seçkilərə münasibəti və nəhayət, bu seçkilərin Azərbaycanın qarşısında yeni imkanlar açması – bütün bunlar Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin bir müddət əvvəl rus dilində çapdan çıxmış "2005-ci il parlament seçkiləri: ilkin təhlil (yekunlar və nəticələr)" kitabında ətraflı, elmi-məntiqi baxımdan yüksək peşəkarlıqla araşdırılmışdır.

Kitabın nəşri ictimaiyyət tərəfindən mühüm hadisə kimi qarşılanmış, mətbuatda bir sıra rəylər dərc olunmuşdur. Bu da tamamilə təbiidir. Çünki seçkilərdən keçən az vaxt ərzində bu mürəkkəb siyasi kampaniyanın bütün mərhələlərini, onun iştirakçılarının taktika və strategiyasını hərtərəfli araşdırmaq, elmi ümumiləşdirmələr aparmaq və seçkilərin yekunlarını məh

bu baxımdan əsaslandırmaq sanballı tədqiqat tələb edən işdir. Həqiqətən də, deyə bilərik ki, professor Ramiz Mehdiyevin kitabı bu baxımdan hələlik yeganə və çox uğurlu təşəbbüsdür, gələcəkdə həmin mövzuya müraciət edəcək müəlliflər, şübhəsiz, görkəmli filosof-alimin istiqamətverici, obyektiv elmi-nəzəri fikirlərindən faydalanacaqlar.

Professor Ramiz Mehdiyev əsərdə seçki prosesinin ayrı-ayrı mərhələlərinin obyektiv və qərəzsiz təhlilinə geniş yer ayırmışdır. Çünki müəllifin vurğuladığı kimi, Azərbaycanda demokratikləşmə proseslərini sürətləndirən bir çox müsbət yeniliklərlə yadda qalan 2005-ci il parlament seçkilərinə verilən yekun qiymət məhz belə təhlilə əsaslanmalıdır.

Azərbaycanda müasir demokratik standartlara cavab verən seçkilərin hüquqi bazası ölkə Konstitusiyasında təsbit olunmuş müddəalara və Seçki Məcəlləsinə əsaslanır. Bununla belə, dünya praktikası da göstərir ki, hər bir növbəti seçkilər seçki qanunvericiliyində müəyyən boşluqlar və qüsurlar olduğunu üzə çıxarır. Azərbaycan hakimiyyəti də bunu nəzərə almış, ATƏT-in və Avropa Şurasının müvafiq qurumlarının siyasi ekspertləri ilə geniş müzakirələrdən sonra Milli Məclis Seçki Məcəlləsinin 43 maddəsində əlavə və dəyişikliklər etmişdir.

Seçkilərə hazırlıq və səsvermə zamanı baş verə biləcək qanun pozuntularının qarşısını almaq baxımından Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 2005-ci il 11 may tarixli Sərəncamı xüsusi yer tutur. Həmin sənəd beynəlxalq təşkilatların təmsilçiləri, ABŞ-ın dövlət katibi, ölkəmizə səfər edən Amerika konqresmenləri tərəfindən də yüksək qiymətləndirilmiş, onun seçkilərin demokratikliyinə tam təminat verdiyi vurğulanmışdır.

Seçki prosesinin ən mühüm mərhələlərindən olan seçkiqabağı təşviqat kampaniyası Azərbaycanda indiyədək görünməmiş dərəcədə genişmiqyaslı, azad aparılmış və professor Ramiz Mehdiyevin vurğuladığı kimi, bəzi çatışmazlıqlara və nöqsanlara baxmayaraq, ümumən müsbət məcrada keçmişdir. Ölkədə seçki mühitinin daha da liberallaşdırılması, seçki qanunvericiliyinin təkmilləşdirilməsi baxımından dövlət başçısının "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 2005-ci il 25 oktyabr tarixli Sərəncamının böyük əhəmiyyəti olmuşdur.

Təşviqat kampaniyasının həlledici mərhələsində imzalanmış, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində mühüm addım olmuş bu sənəd beynəlxalq təşkilatlar və aparıcı demokratik dövlətlər tərəfindən yüksək qiymətləndirilmişdir.

Seçki kampaniyasının ən mühüm mərhələsi, təbii ki, səsvermə günüdür. MSK-nın məlumatına görə, noyabrın 6-da səsvermənin gedişini 17 mindən çox yerli və 1586 beynəlxalq müşahidəçi, 80 ölkədən 310 jurnalist izləmişdi. Azərbaycanda ilk dəfə keçirilən "exit-poll"un nəticələri əksər dairələrdə MSK-nın elan etdiyi nəticələrlə, demək olar ki, üst-üstə düşmüşdür. ABŞ-ın "PA Consulting Group" şirkətinin keçirdiyi sorğunun yekunları isə rəsmi nəticələrlə 85-87 faiz uyğun gəlmişdir.

Kitabın müəllifi səsvermənin gedişi, seçicilər və müşahidəçilər, KİV nümayəndələri üçün yaradılmış şərait barədə ətraflı söhbət açır və vurğulayır ki, müəyyən qüsurlara, çatışmazlıqlara baxmayaraq, 6 noyabr parlament seçkiləri ümumilikdə demokratik və azad şəraitdə keçmiş, xalqın mütləq əksəriyyətinin iradəsini əks etdirmişdir. Professor Ramiz Mehdiyev bu fikrini kitabın "Beynəlxalq müşahidəçilər" bölməsində çox geniş və konkret faktlar əsasında şərh edir. Müəllif belə bir məqama diqqəti cəlb edir ki, son illər seçkiləri izləyən beynəlxalq müşahidəçilərin qənaətinə geosiyasi amilin təsiri böyükdür və bu, postsovet məkanında özünü xüsusilə göstərir. Məsələn, Gürcüstan, Ukrayna və Qırğızıstanda keçirilmiş seçkilər və onların müşahidəsi əsl geosiyasi mübarizə predmetinə, rəylərin kəskin toqquşmasına çevrilmişdi. Azərbaycanın çox nadir ölkə olması, ərazisinin geosiyasi qarşıdurma deyil, əməkdaşlıq və maraqların uzlaşması məkanına çevrilməsi "seçki geosiyasət"ində də özünü göstərmişdir və ötən parlament seçkiləri bunu bir daha təsdiqlədi. Belə ki, həm Qərb ölkələrindən, həm də MDB-dən olan müşahidəçilərin məzmunca yaxın bəyanatlarla çıxış etmələri parlament seçkilərinin ədalətli keçdiyinə işarədir. Hərçənd, radikal müxalifət beynəlxalq qurumların seçkilərin nəticələrini tanımadığını iddia edir.

Lakin bunu konkret faktlarla təsdiqləyə bilmir. Səbəbi də məlumdur, çünki beynəlxalq qurumların seçkilərin nəticələrini tanımamaq barədə rəyi yoxdur. Radikal müxalifətin eşitmək istəmədiyi rəylər barədə misallar isə kitabda kifayət qədərdir.

Professor Ramiz Mehdiyev seçkilərdə Yeni Azərbaycan Partiyasının və iqtidarı dəstəkləyən müstəqil namizədlərin şəksiz qələbəsini və radikal müxalifətin sarsıdıcı məğlubiyyətini şərtləndirən mühüm obyektiv və subyektiv səbəbləri kitabın "Qələbə kampaniyası" bölməsində çox geniş şəkildə, konkret faktlarla təhlil edir, eyni zamanda, gəldiyi nəticələri nəzəri cəhətdən ümumiləşdirərək oxucuların mühakiməsinə verir. İlk növbədə vurğulanır ki, seçki qanunvericiliyinin demokratikləşdirilməsi və təkmilləşdirilməsi, seçkilərin ədalətli, şəffaf və obyektiv keçirilməsi üçün yaradılmış şərait baxımından 2005-ci ilin parlament seçkiləri ölkəmizin tarixində bənzəri olmayan hadisə kimi səciyyələndirilməlidir. Bu isə seçkilərin demokratik keçirilməsində ən çox Azərbaycan iqtidarının marağının olması ilə bağlıdır. Beləliklə də, əvvəlkilərdən fərqli olaraq, budəfəki seçkilər ərəfəsində müxalifət düşərgəsi və beynəlxalq təşkilatlar tərəfindən elə bir ciddi iradlar müşahidə edilmədi.

Deputat mandatları uğrunda azad, heç bir maneəsiz mübarizə aparmaq üçün yaradılmış imkanlardan kimin necə istifadə edə bilməsinə gəldikdə isə, müəllif bu barədə də ətraflı və inandırıcı təhlil aparır. Xüsusi vurğulanır ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, müstəqil Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmlənməsində, ölkənin bugünkü inkişaf səviyyəsinə yüksəlməsində mühüm rol oynamış, xalqın bütün təbəqələrini təmsil edən, intellektual və siyasi potensialına, idarəçilik təcrübəsinə və cəmiyyətdəki nüfuzuna görə alternativi olmayan YAP özünün seçki strategiyası və taktikasını düzgün müəyyənləşdirərək, seçki prosesində qarşıda duran vəzifələrin öhdəsindən uğurla gəldi. Seçkilərə praqmatik, rasional proqramla gedən YAP təşviqat kampaniyasını elmi şəkildə əsaslandırılmış, Azərbaycanın gələcək inkişaf perspektivlərini özündə əks etdirən konsepsiya üzərində qurmuşdu.

Müəllif YAP-ın seçkilərdə qələbəsini şərtləndirən səbəblərdən danışarkən ölkənin son 13 ildəki sosial-iqtisadi inkişafına da xüsusi diqqət yetirir. Bu da təsadüfi deyildir. Ötən parlament seçkiləri ərəfəsində keçirilmiş rəy sorğularının da göstərdiyi kimi, insanlar gündəlik problemlərinin həllinə digər məsələlərdən daha çox üstünlük verirlər. Ona görə də sosial-iqtisadi məsələlər seçkilərdə insanların seçiminə ən çox təsir edən amillərdəndir. Azərbaycan seçicisinin isə AXC-Müsavat hakimiyyəti dövründə tüğyan

edən xaos, siyasi-iqtisadi böhranla bugünkü ictimai-siyasi sabitliyi, dinamik iqtisadi inkişafı müqayisə etmək imkanı var idi. Professor Ramiz Mehdiyev məhz bu amilin, habelə parlament seçkilərində vətəndaşların düzgün seçim etmələrinə təsir göstərən digər amillərin – Azərbaycan hakimiyyətinin uğurlu xarici siyasət fəaliyyətinin, korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlərin konkret faktlar əsasında şərhinə geniş yer ayırır.

Kitabın oxucuda həqiqətən böyük maraq doğuran cəhətlərindən biri də Azərbaycanın radikal müxalifətinin 2005-ci il parlament seçkilərindəki sarsıdıcı məğlubiyyətinin səbəblərinin təhlilidir. Müəllif özünə xas olan səriştəli, dərin elmi-məntiqi araşdırmalar apararaq, "Azadlıq" blokunun timsalında radikalların uğursuzluğunu şərtləndirən amillərlə yanaşı, bütövlükdə Azərbaycan cəmiyyətini artıq bezikdirmiş pozucu müxalifət düşərgəsinin bugünkü simasını, vəziyyətini və sabahkı aqibətini açıb göstərir.

Seçkilərə "ciddi" hazırlaşan "Azadlıq" bloku, daha doğrusu, ona daxil olan radikal partiyaların liderləri azı 70-75 deputat mandatı qazanaraq, əvvəlcə parlamentdə hakimiyyəti ələ almağı, sonra isə ölkənin qanuni Prezidentini devirməyi planlaşdırırdılar. Bunun üçün xaricdən konkret tələblər də almışdılar: "Azadlıq" blokunun timsalında müxalifətin siyasi birliyi qorunub saxlanılmalı, mitinqlərdə kütləvilik təmin olunmalı və parlament seçkilərində yalnız dinc metodlardan istifadə edilməlidir. Amma xaricdən onları siyasi və maliyyə cəhətdən dəstəkləyən bəzi binəvalar hələ də anlamırdılar ki, professor Ramiz Mehdiyevin vurğuladığı kimi, Azərbaycanın müxalifət düşərgəsində uzun illərdir kəskin qarşıdurmalar, ziddiyyətlər, prinsipsiz birləşmə və parçalanmalar, ideyasızlıq hökm sürür. Azərbaycanda formalaşmış demokratik müxalifət yox, özəl şirkətləri xatırladan, rəhbərləri tərəfindən avtoritar qaydada idarə olunan qurumlar mövcuddur. Onların heç vaxt nə ayrılıqda, nə də birlikdə dəqiq, aydın siyasi proqramı, platforması olmayıb və indi də yoxdur.

İndiyədək keçirilmiş bütün seçkilərdə olduğu kimi, 2005-ci il parlament seçkilərində də radikalların əsas iddiası iqtidarın seçkinin nəticələrini saxtalaşdıracağı barədə idi. Onlar hesab edirdilər ki, Azərbaycanda hakimiyyət kifayət qədər seçki saxtakarlığına yol verib, lakin dünyanın fövqəldövləti olan Birləşmiş Ştatlar indiki seçkilərdə buna imkan verməyəcəkdir. Ona görə paytaxtda, xüsusən bölgələrdə kütləvi mitinqlər təşkil etməklə əhalinin hər

yerdə iqtidardan narazı olduğunu ABŞ-a göstərmək istəyirdilər. Lakin sabit elektoratı olmayan radikal müxalifət paytaxtda pul paylamaqla mitinqlərə beş-altı min adam toplaya bilirdisə, bölgələrdə bu, mümkün deyildi. Bu səbəbdən də onların mitinqləri YAP-ın keçirdiyi 50-70 min nəfərlik mitinqlərlə müqayisədə çox miskin görünürdü.

Müxalifətin köhnə bayatılar sırasından olan başqa şüarı bu idi ki, "Azərbaycanın indiki hakimiyyəti pisdir və o getməlidir, biz hakimiyyətə gələcəyik və hər şey yaxşı olacaqdır". Kitabda vurğulandığı kimi, ancaq müxalifət namizədlərindən heç biri əsaslandıra bilmədi ki, bu iqtidar nəyə görə pisdir və o, niyə getməlidir. Heç bir müxalifət nümayəndəsi düzəməlli izah edə bilmədi ki, onlar hakimiyyətə necə gələcəklər və real olaraq nə etmək fikrindədirlər. Müxalifətin funksionerlərindən olan Hikmət Hacızadənin etirafını xatırlatsaq, bu, "Azadlıq" bloku liderinin xalqa danışdığı nağıldan başqa bir şey deyildi. Ona görə də professor Ramiz Mehdiyev çox düzgün və yerində vurğulayır ki, hakimiyyət mübarizəsinə qoşulan siyasi qüvvənin müasir həyatın reallığına cavab verən və qələbəyə aparan ideologiyası olmalıdır. Azərbaycanın radikal müxalifətinin məğlubiyyətinin əsas səbəblərindən biri də onun belə ideologiyasının olmamasıdır.

Müəllif müxalifətin seçki strategiyasını təhlil edərək belə bir qənaətə gəlir ki, radikalların fəaliyyəti, birincisi, seçkilərə hazırlaşmağa və qalib gəlməyə deyil, seçkilərdən sonrakı dövrə hazırlaşmağa yönəlmişdi. İqtidara təzyiq göstərmək üçün qüvvələr səfərbər olunurdu. Bundan da məqsəd, real nəticələrdən asılı olmayaraq, müxalifətin qələbəsini etiraf etməyə məcbur etmək, parlamentdə mümkün qədər çoxluğa nail olmaq və onun köməyi ilə hakimiyyətə gəlmək idi. İkincisi isə, həmin variant baş tutmasa, radikal vasitələrə əl atmaq, yəni "inqilabi" şərait yaradaraq, iqtidarın bilavasitə devrilməsini təmin etmək idi.

Lakin hadisələrin gedişi bunun reallıqdan tamamilə uzaq, ağılsız plan olduğunu sübut etdi. Kitabda vurğulandığı kimi, müxalifət düşərgəsinin məğlubiyyətini şərtləndirən əsas səbəblərdən biri də radikalların seçkilərə "narıncı inqilab" ideyasına köklənmiş həmin planla getməsi idi. Ancaq onlar anlaya bilmirdilər ki, xaricdən narıncı rəngli köynəklər, qalstuklar sifariş edib gətirməklə inqilab etmək niyyəti donkixotluqdan başqa bir şey deyildir. Bu, bir yana, heç olmasa, "inqilabları" üçün simvol seçəndə

düşünmədilər ki, Azərbaycanın adına ləkə gətirməsinlər. Əksinə, onlar Azərbaycan tarixinin ən ağrı-acılı səhifələrindən biri olan 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Bakının küçə və meydanlarına döşənmiş, şəhid qanının rəmzinə çevrilmiş qərənfili özlərinə simvol seçdilər. Azərbaycanın radikal müxalifətinin simasızlığının, xalqdan, mənəvi dəyərlərdən nə qədər uzaq olmasının təsdiqi üçün bu fakt çox səciyyəvidir. Kitabda deyildiyi kimi, radikalların liderlərinin sağlam düşüncədən və mənəviyyatdan uzaq olan bu hərəkəti müxalifət düşərgəsinin özündə də sərt ittihamlarla qarşılanmışdı.

Professor Ramiz Mehdiyev yazır ki, Ukrayna və Gürcüstanda hakimiyyət dəyişikliklərindən vəcdə gələn radikal müxalifət dərk etmirdi ki, həmin ssenarilərin Azərbaycanda həyata keçirilməsi üçün heç bir obyektiv şərait yoxdur. Əksinə, Azərbaycanda xalqla iqtidar arasında birlik var, rəy sorğularının da göstərdiyi kimi, ölkə Prezidentinin nüfuzu çox yüksəkdir, Azərbaycan dinamik iqtisadi inkişaf yolundadır. Cəmiyyət qarşıdurmaya, zorakılığa, ictimai-siyasi sabitliyi pozmağa meyilli olan radikalları qəbul etmir. Hər cəhətdən zəif olan Azərbaycan müxalifəti güclü sosial dayaqlara malik siyasi qüvvə yox, əslində, ölkənin siyasi səhnəsində görüntüdən başqa bir şey deyildir. Ən nəhayət, radikallardan fərqli olaraq, bütün bunları aydın görən Qərb mühüm geosiyasi və strateji əhəmiyyəti olan, müxtəlif regional və beynəlxalq layihələrin mərkəzində yerləşən Azərbaycanda hansısa "rəngli" inqilabın baş verməsində, böhran və qarşıdurma yaranmasında, ictimai-siyasi sabitliyin pozulmasında maraqlı deyildir. Bütün dünya görür ki, Azərbaycanda demokratik islahatlar həyata keçirilir və demokratiyanın təkamül yolu ilə inkişafı bu ölkə üçün ən optimal variantdır.

Müəllif yazır ki, müxalifətin seçki kampaniyası dövründə aldığı ən sarsıdıcı zərbələrdən biri ADP-nin sədri Rəsul Quliyevin Azərbaycana qayıtması ilə bağlı şounun rüsvayçılıqla iflasa uğraması idi və bu, radikalların seçkilərdə məğlubiyyətinə xeyli dərəcədə təsir göstərən amillərdən biri oldu. Radikal müxalifətin iflasından danışarkən belə bir cəhətə də diqqət yetirilir ki, bu düşərgənin ən böyük bəlalarından biri liderlik uğrunda illərdən bəri davam edən barışmaz mübarizədir. Həmin partiyaların liderlərinin siyasi ambisiyaları, "ana müxalifət"də birincilik uğrunda barışmaz mübarizəsi səngimək bilmir və bu səbəbdən də onlar heç vaxt həqiqi birliyə nail ol-

mayacaqlar. Qəribə də olsa, hətta ən adi məsələlərdə, – mitinqlərdə kimin birinci çıxış etməsi, bəyanatlarda hansı partiyanın adının birinci yazılması və sair, – çəkişməsiz ötüşə bilməyən radikallar uzun illər cəmiyyətin şahidi olduğu bu həqiqəti dərk etmək istəmirlər.

Əbədi "müttəfiq–rəqiblərin" mübarizəsi 2005-ci ilin parlament seçkilərindəki sarsıdıcı məğlubiyyətdən sonra daha da kəskinləşir. İndi 2008-ci ilin prezident seçkilərində radikal müxalifətdən vahid namizədlik uğrunda mübarizə başlayır və bu yolda, həmişəki kimi, yenə də bir-birilərini zəiflətmək üçün adət etdikləri bütün vasitələri işə salırlar.

2006-cı il mayın 13-də 10 seçki dairəsində Milli Məclisə təkrar seçkilər keçirildi. Noyabr seçkilərində iflasa uğrayan radikal müxalifət partiyaları daha bir məğlubiyyətdən xilas olmağın yolunu təkrar seçkiləri boykot etməkdə gördülər. Ancaq bu dəfə də özlərinə "sadiq" qalaraq, təkrar seçkilərin də saxtalaşdırıldığı, onun nəticələrini tanımadıqları barədə "ənənəvi" ittihamlarını səsləndirmək fürsətini əldən buraxmadılar. Lakin təkrar seçkiləri izləyən beynəlxalq müşahidəçilərin müsbət rəyləri bu iddialara ən tutarlı cavab oldu.

Professor Ramiz Mehdiyev Azərbaycanın radikal müxalifətinin simasını səciyyələndirən cəhətlərdən danışarkən belə bir məqamı da xatırladır ki, bu düşərgənin nümayəndələri parlament seçkilərindəki məğlubiyyətlərinin səbəblərini araşdırmaq, özlərinin siyasi bəsirətsizliyinin nəticəsi olan səhvlərindən ibrət götürmək əvəzinə, kənarda "günahkarlar" axtarmaqla məşğuldurlar. Müxalifətin daim göz dikdiyi, ümidlə baxdığı ABŞ, onun prezidenti, yüksək vəzifəli siyasi xadimləri indi həmin "günahkarlar" sırasında birinci yerdədir. "Narıncı inqilab" arzuları boşa çıxan radikal müxalifət düşərgəsində indi yaşıl rəngə meyil hiss olunur, "islam inqilabı" barədə səslər eşidilir.

Professor Ramiz Mehdiyevin kitabında qoyulan məsələlər və onların yüksək peşəkarlıqla araşdırılması, analitik təhlilə əsaslanan elmi ümumiləşdirmələr haqqında qəzet məqaləsində tam əhatəli məlumat vermək mümkün deyildir. Şübhə etmirik ki, bu sanballı əsərə hələ çox müraciət olunacaqdır. Biz isə fikrimizi kitabdan bir-iki sitatla tamamlamaq istərdik: "2005-ci il parlament seçkiləri göstərdi ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi artıq dönməz xarakter

alıb və bu prosesi əngəlləməyə qadir olan qüvvə yoxdur... Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real gücə və nüfuza malik, sivilizasiyalı dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, hüquqi, demokratik dövlət quruculuğu problemlərini dönmədən həll edən, ölkənin inkişafı ilə bağlı fundamental konsepsiyanı həyata keçirən iqtidar mövcuddur. Təxminən son üç il göstərdi ki, mərhum Heydər Əliyevin xəttinə sadiq olan Prezident İlham Əliyevin komandası Azərbaycanı yeni böyük uğurlara aparmağa qadirdir.

Eyni zamanda, 2005-ci ilin parlament seçkiləri Azərbaycanda radikal, iddialı müxalifətin nə dərəcədə pozucu olduğunu açıq şəkildə nümayiş etdirdi. İctimai rəyə hakim kəsilmiş və beynəlxalq birliyin də şərik çıxdığı rəy bir daha öz təsdiqini tapdı: Azərbaycanda radikal müxalifət adına iddialı olan qüvvələr xalq içərisində möhkəm dayaqlardan məhrumdur, ölkədə demokratik müxalifət hələ formalaşmayıbdır. Müxalifətin radikal qanadının əsas məqsədi Azərbaycanı inkişaf etdirmək, problemlərinin həllinə nail olmaq deyil, müstəqilliyinin 15-ci ilini yaşayan ölkəmizi yeni siyasi təlatümlərə, qarşıdurmalara, iğtişaşlara sürükləməkdir".

Başqa sözlə, ABŞ ekspertlərindən birinin vurğuladığı kimi, Azərbaycanda gələcəyə istiqamət götürmüş Prezident və keçmişə nəzər salmaqla hərəkət edən, dəqiq siyasi proqramı olmayan müxalifət var.

Müəllif ötən parlament seçkiləri barədə təhlillərini ümumiləşdirərək, həmin kampaniyanın qarşıdakı dövrdə ölkənin həyatındakı əhəmiyyətini haqlı olaraq belə səciyyələndirir: "Birmənalı deyə bilərik ki, başa çatan parlament seçkiləri ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsinin, demokratik cəmiyyətin formalaşması prosesinin fəallaşmasının, əhalinin rifahının artmasının, Azərbaycan Respublikasının beynəlxalq strukturlara daha da inteqrasiya etməsinin təsirli amili olacaqdır".

"Azərbaycan" qəzeti, 15 sentyabr 2006-cı il.
R.Mehdiyev. Yeni siyasət: inkişafa doğru.
I cild, Bakı, 2008-ci il.

Heydər Əliyev və AzərTAc

Martın 1-də Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın 85 illiyi tamam olmuşdur. Agentliyin 85 illik ömrünün tam bir qərinəsi bilavasitə ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu dövrə təsadüf edir. Bu gün AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsi, dünya informasiya məkanına çıxması məhz ulu öndərimizin qayğısı sayəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev həm də müasir mətbuatımızın inkişafında əvəzsiz xidmətlər göstərmiş, onun böyük qayğıkeşi və himayədarı olmuşdur. Bu bir həqiqətdir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayanda respublikamız uzun illər tərkibində olduğu Sovetlər İttifaqında da o qədər tanınmırdı. Doğrudur, xalqımız bütün dövrlərdə dünya şöhrətli ədəbiyyat, mədəniyyət, elm xadimləri yetirmişdi və onların xidmətləri həmin sahələrin mütəxəssislərinə yaxşı bəlli idi. Lakin bütövlükdə Azərbaycanın bir ölkə, respublika kimi həm keçmiş İttifaqda, həm də getdikcə dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun müdrik, uzaqgörən siyasəti, yorulmaz fəaliyyəti, doğma xalqına sonsuz məhəbbəti sayəsində 1970–80-ci illərdə respublika nəinki gerilikdən, ətalətdən xilas oldu, İttifaqda ön sıralara çıxdı, eyni zamanda, Azərbaycan dünyanın diqqətini cəlb etməyə başladı.

Qətiyyətlə demək lazımdır ki, Azərbaycan mətbuatının, xüsusilə də Azərbaycan Dövlət Teleqraf Agentliyinin – keçmiş Azərinformun inkişafı da yüksəliş yoluna qədəm qoymuş respublikamızın əldə etdiyi uğurlarla sıx bağlı olmuşdur. Yəni iqtisadiyyatı, sənayesi ildən-ilə görünməmiş sürətlə inkişaf edən, bütünlüklə yenidən qurulan Azərbaycanda mətbuat, xüsusilə də informasiya agentliyi diqqətdən kənarda qala bilməzdi. Heydər Əliyev Azərinformun rəhbərliyi ilə müntəzəm olaraq görüşür, respublikanın informasiya siyasətinin təkmilləşdirilməsi ilə əlaqədar konkret tapşırıqlar verir, dəqiq fəaliyyət istiqamətini müəyyənləşdirirdi. Bununla yanaşı o, Azərinformun maddi-texniki bazasının möhkəmləndirilməsinə, iş şəraitinin yaxşılaşdırılmasına, problemlərin vaxtında həll olunmasına da xüsusi diqqət yetirirdi. Təsadüfi deyil ki, məhz o dövrdə Azərinformun

işçilərinin böyük bir hissəsi mənzillə təmin olundu, dövlət mükafatları ilə təltif edildilər.

Respublika rəhbərinin köməyi sayəsində Azərinform çox nüfuzlu bir quruma çevrildi. Heydər Əliyevin diqqəti, qayğısı ilə əhatə olunmuş agentliyin əməkdaşları respublikanın əzəmətli yüksəlişindən bəhs edən xəbərləri ilə böyük sovet imperiyasının əsas informasiya qurumunun – SİTA-nın teletayp lentlərində daha çox yer tutmağa nail olur, Azərbaycanın qazandığı böyük uğurlar barədə xəbərləri, dünyaya yaymağa, Azərinforma hər cür kömək göstərdiklərini sübut etməyə çalışırdılar. Beləliklə, Azərinform da SİTA-nın müttəfiq respublikalardakı filialları arasında ön mövqeyə çıxmağa nail oldu. Azərinformun xəbərləri hər gün SİTA-nın gündəlik lentlərində müntəzəm yer alırdı.

Lakin çox təəssüf ki, 1987-ci ildə Heydər Əliyev Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra Azərinformun həyatında da tənəzzül dövrü başlandı. Azərbaycana sərištəsiz, idarəetmə bacarığı olmayan, xalqdan uzaq insanların rəhbərlik etdiyi illərdə Azərinform vaxtilə gərgin səylər hesabına qazandığı nüfuzunu itirirdi. 1990-cı ildə sovet qoşunları Bakıda 20 Yanvar qırğını törətdilər, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etdi, 1992-ci ildə Xocalı yer üzündən silindi. Lakin Azərinform xalqın haqq səsini dünyaya çatdıra bilmədi. Azərbaycan, sözün əsl mənasında, informasiya blokadasında qaldı, ermənilərin yalan və uydurmaları isə bütün dünyaya yayılırdı.

Ayrı-ayrı siyasi oyunbazların diqqətindən kənarda qalmış AzərTAc o dövrün çətinliklərinə tab gətirməyərək daha da ağır vəziyyətə düşdü, hətta dövlət büdcəsindən maliyyələşdirmədən də çıxarılaraq, əslində, heç bir statusu olmayan bir quruma çevrildi.

Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi rəhbərliyə gəldikdən sonra AzərTAc-a münasibət dəyişdi və birinci növbədə, bu informasiya qurumunun statusunun müəyyənləşdirilməsi və onun normal fəaliyyətinin təmin edilməsi üçün təsirli tədbirlər görüldü.

Qətiyyətlə deyə bilərik ki, mətbuatın cəmiyyətdə rolunu, təsir gücünü Azərbaycanda dövlət rəsmilərindən ilk dəfə məhz Heydər Əliyev lazımın-

ca qiymətləndirmişdir. Doğrudur, sovet dövründə indiki anlamda azad mətbuat yox idi. Müstəqil qəzetlərdən, özəl telekanallardan söhbət belə gedə bilməzdi. Həddindən artıq ciddi senzura fəaliyyət göstərirdi, xüsusən tənqidi yazılarda müəyyən edilmiş çərçivələrdən kənara çıxmaq olmazdı.

Lakin Heydər Əliyev Azərbaycanda yerli mətbuata imkan daxilində sərbəstlik verir, onun ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına qayğı göstərirdi. Mətbuatın hər hansı ciddi çıxışı onun diqqətindən yayınmırdı.

Heydər Əliyevin Azərbaycan mətbuatı qarşısındakı ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, o, mətbuatımızın həmişə milli ruhlu olması barədə düşünür, yeri gələndə cürbəcür təzyiqlərdən qoruyurdu.

Ümumiyyətlə, ulu öndər müstəqil Azərbaycanda mətbuatın problemlərinin həlli ilə bağlı 10-dək Sərəncam və Fərman imzalamışdır. Xüsusi vurğulamaq istərdim ki, ümummilli liderimizin siyasi hakimiyyətdə olduğu illərdə Azərbaycan jurnalistləri onunla ünsiyyət sayəsində yeni bir məktəb də keçmişlər. Bu gün bu məktəbi haqlı olaraq, Heydər Əliyevin jurnalistika məktəbi adlandırırlar.

Ümummilli liderimizin 1995-ci ildən etibarən Azərbaycan Dövlət Teleqraf Agentliyi ilə bağlı imzaladığı Fərman və Sərəncamlar AzərTAc-ın işinin yaxşılaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır.

"Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Prezidentin 3 mart 1995-ci il tarixli Fərmanının məqsədi dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında, Azərbaycan haqqında operativ məlumatların beynəlxalq miqyasda geniş yayılmasında agentliyimizin imkanlarından daha dolğun istifadə edilməsinə şərait yaratmaq idi. Bu Fərmanla Azərbaycan Teleqraf Agentliyi əsasında Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi yaradıldı. Bu, hər şeydən əvvəl, AzərTAc-a rəsmi dövlət informasiya orqanı statusu verilməsi demək idi. Fərmanda Nazirlər Kabinetinə AzərTAc-ın maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması və onun dünya standartları səviyyəsində fəaliyyət göstərməsi üçün lazımi tədbirlər görmək tapşırılmışdı.

Fərmanın icrası ilə bağlı Nazirlər Kabineti iyulun 3-də "Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" qərar

qəbul etdi. Agentlik, əsasən dövlət büdcəsindən maliyyələşdirilməyə keçirildi. Bundan əlavə, Maliyyə Nazirliyinə agentliyin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasını və digər zəruri ehtiyacları təmin etmək məqsədi ilə lazımi vəsait ayrılması tapşırıldı. AzərTAc-ın Türkiyədə, ABŞ-da, İranda, Almaniyada, İngiltərədə, Türkmənistanda, Rusiyada, Gürcüstanda və Özbəkistanda müxbir məntəqələrinin açılmasına icazə verildi.

Ümummilli liderimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsini, işçilərin maddi təminatının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayırdı. 1996-cı il iyunun 29-da "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Sərəncamda Nazirlər Kabinetinə tapşırıldı ki, agentliyin işinin spesifik xüsusiyyətlərini, müasir dövrdə dövlət siyasətinin həyata keçirilməsində rəsmi informasiya işinin böyük əhəmiyyətini nəzərə alaraq, müstəsna hal kimi, işçilərin əməkhaqqını AzərTAc-ın rəhbərliyi tərəfindən təqdim olunmuş dərəcələr səviyyəsində müəyyən etsin və bu məqsədlə lazımi vəsait ayırsın. Sənədə görə, xarici ölkələrdə müxbir məntəqələrinin açılması və onların fəaliyyətinin maliyyələşdirilməsi məsələləri 1996-cı ilin ikinci yarısında həll edilməli idi. Şəhər və rayonların icra hakimiyyəti başçılarına isə AzərTAc-ın zona informasiya mərkəzlərinin fəaliyyəti üçün lazımi şərait yaratmaq tapşırıldı. Sərəncamın icrasını təmin etmək üçün respublika hökuməti oktyabrın 31-də müvafiq qərar qəbul etdi.

Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində respublikamızın beynəlxalq əlaqələri genişlənir, müstəqil dövlətimizin dünya miqyasında nüfuzu getdikcə artır, ölkəmizdə gedən hüquqi dövlət quruculuğuna beynəlxalq aləmdə maraq güclənirdi. Belə bir şəraitdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün agentliyin fəaliyyətinin günün tələbləri səviyyəsində təkmilləşdirilməsi tələb olunurdu. Bunu nəzərə alan ümummilli liderimiz 2000-ci il yanvarın 17-də "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Fərmanla AzərTAc Nazirlər Kabinetinin tabeliyindən çıxarılaraq, Prezidentə tabe olan müstəqil qurum – Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırıldı. Həmin Fərmana əsasən, agentliyin tərkibində xarici dillərdə xəbərlər hazırlayan və yayan baş redaksiya yaradıldı, digər müvafiq tədbirlər görüldü.

Həmin il martın 1-də agentliyimizin 80 illiyi tamam olurdu. Şübhəsiz ki, bu əlamətdar hadisə Heydər Əliyev kimi həssas insanın diqqətindən yayına bilməzdi. Ulu öndərimiz fevralın 29-da Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivinə təbrik məktubu ünvanladı. Məktubda deyilirdi: "Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür". Məktubda kollektivin vəzifələri də konkret şəkildə müəyyənləşdirilirdi: "AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini layaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır. Bu gün Azərbaycan dövləti ölkə Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmışdır və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdir".

Martın 15-də Nazirlər Kabineti Prezidentin 17 yanvar tarixli Fərmanının icrası ilə bağlı müvafiq qərar qəbul etdi. Qərara əsasən, AzərTAc-ın maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılması, o cümlədən xarici ölkələrdəki müxbir məntəqələrinin texniki avadanlıqla təchiz olunması məqsədi ilə 500 milyon manat, 2000-ci il yanvarın 17-dən etibarən əməkdaşların əməkhaqqının 50 faiz artırılması ilə əlaqədar 373,5 milyon manat vəsait ayrıldı. 2001-ci il iyunun 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Fərman imzaladı.

Qayğıkeş insan, müdrik siyasətçi təkcə agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsinə yox, həm də işçilərin maddi təminatına da diqqət yetirirdi. 2002-ci il dekabrın 28-də "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) işçilərinin maddi təminatının yaxşılaşdırılması haqqında" Sərəncam bunun bariz nümunəsi idi. Sərəncama görə baş direktorun, onun birinci müavini və müavininin aylıq vəzifə maaşı, müvafiq olaraq nazirin, onun birinci müavini və müavininin aylıq vəzifə maaşı səviyyəsində müəyyən edildi, digər işçilərin aylıq vəzifə maaşları 1,5 dəfə artırıldı. Bundan əlavə, istirahət və bayram günləri də daxil olmaqla, agentliyin gecə-gündüz fasiləsiz fəaliyyət göstərməsini təmin etmək məqsədi ilə işçilərin əməkhaqlarına əlavələr və digər ödənişlər müəyyənləşdirildi.

Bütün bunların sayəsində agentliyin maddi-texniki bazası möhkəmləndirildi, ən müasir avadanlıq alındı. 2003-cü ilin martında AzərTAc üçün xaricdən respublikada analoqu olmayan fotolaboratoriya alınıb quraşdırıldı. Ulu öndərimizin bu diqqət və qayğısının onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi kollektivimizin üzvlərini bütün imkanlardan istifadə edərək daha böyük səylə çalışmağa ruhlandırır.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada yayılması Heydər Əliyevin ən böyük arzularından biri idi. Fərəhlə deyə bilərik ki, hazırda AzərTAc dünyanın İTAR-TASS, Anadolu Agentliyi, Sinxua, ANSA (İtaliya), BTA (Bolqarıstan) kimi tanınmış agentlikləri ilə ikitərəfli əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Bu sazişlərin bilavasitə tərəfdaşlarımızın təşəbbüsü ilə imzalanması AzərTAc-ın beynəlxalq miqyasda nüfuzunun getdikcə artmasının daha bir sübutudur.

2004-cü ilin sentyabrında isə agentliyimizin həyatında çox əlamətdar hadisə baş vermiş, AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) tam hüquqlu üzvü olmuşdur. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 34 ölkənin 39 informasiya agentliyi istifadə edə bilir. AzərTAc isə, öz növbəsində, həmin agentliklərin OANA-nın saytına daxil olan bütün informasiyalarından istifadə etmək imkanı qazanmışdır.

Xatırladaq ki, Azərbaycan informasiya agentliyi bu təşkilatda təmsil olunan dördüncü MDB dövlətidir. Ümumiyyətlə, indi AzərTAc hər gün dünyanın 60-dan çox ölkəsinə Azərbaycan, ingilis və rus dillərində xəbərlər göndərir.

Ümummilli liderimizin qarşımıza qoyduğu tələblərdən biri xarici dövlətlərdəki səfirliklərimizə Azərbaycanın gündəlik həyatı barədə operativ informasiya əldə etmək imkanı yaratmaq idi. AzərTAc-ın yeniləşdirilmiş saytı bunu təmin etmişdir. Yeri gəlmişkən xatırladım ki, agentliyimizin saytına gün ərzində 1000-dən çox müraciət olur. AzərTAc-ın saytı BMT-nin Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet səhifəsində yerləşdirilmişdir. AzərTAc İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafatına (2004-cü il), xüsu-

si keyfiyyət və yüksək texnologiya üçün Madriddəki Biznes Təşəbbüsü Mərkəzinin "Avropaya qapı" beynəlxalq qızıl mükafatına (2005-ci il) layiq görülmüşdür.

Azərbaycan xalqının ümummilli liderinin ruhu şad ola bilər, bu gün AzərTAc onun istədiyi səviyyəyə yaxınlaşmaqdadır. İnformasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativliyə nail olmaq üçün yeni yollar axtarılır, texniki-təşkilati tədbirlər görülür. Bütün bunlar getdikcə öz bəhrəsini verir, gündəlik informasiyaların həcmi on dəfədən çox artmışdır. Daha bir neçə xarici ölkədə müxbir məntəqələrinin açılması nəzərdə tutulur.

Danılmaz həqiqətdir ki, xalqımızın, bütün türk dünyasının dahi oğlu Heydər Əliyev vaxtilə respublikamız ətrafında yaranmış informasiya blokadasının yarılmasında misilsiz xidmətlər göstərmişdir. O, Azərbaycan həqiqətlərinin dünyaya yayılması üçün hər bir imkandan istifadə edirdi. Fəxr edirik ki, ulu öndərin bu fəaliyyətinə AzərTAc da öz töhfəsini verməyə çalışmışdır.

Hazırda Azərbaycanda çoxsaylı qəzet və jurnallar çıxır, özəl informasiya agentlikləri fəaliyyət göstərir, bu, təbiidir. Amma arzu edərdim ki, həmkarlarımız faktlara, hadisələrə münasibətdə peşə etikasını gözləsinlər, kimlərinsə ambisiyasına, siyasi maraqlarına xidmət etməyə çalışmasınlar, şayiəni informasiyaya çevirməsinlər. Bu yol cəmiyyətə yalnız ziyan vurur.

Bu günlərdə AzərTAc öz həyatında əlamətdar bir hadisəni, ölkəmizdə ilk informasiya agentliyinin yaranmasının 85 illiyini qeyd etmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə əməkdaşlarımızdan bir qrupunun "Tərəqqi" medalı ilə təltif edilməsi və "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülməsi kollektivimizə daha bir sevinc bəxş etmişdir. Biz bunu təkcə AzərTAc kollektivinin əməyinə deyil, həm də zəngin ənənələri olan, bu il 130 illiyini qeyd edəcək Azərbaycan mətbuatının, müstəqil dövlətimizin, xalqımızın milli mənafelərinə sədaqətlə xidmət edən, jurnalist adını uca tutan bütün həmkarlarımızın işinə verilən yüksək qiymət kimi qəbul edirik. Yüksək mükafata görə dövlətimizin başçısına sonsuz minnətdarlığımızı bildiririk.

Ulu öndərimizin siyasi xəttinin bütün istiqamətlərdə davam etdirilməsi, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun daha da yüksəldilməsi, res-

publikamızın dinamik sosial-iqtisadi inkişafına nail olunması sahəsində Prezidentimizin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, müstəqil respublikamız haqqında həqiqətlərin dünyada daha geniş yayılması üçün kollektivimiz bundan sonra da bütün imkanlarını səfərbər edəcəkdir.

Heydər Əliyev və AzərTAc. Bakı, "Nurlan", 2005-ci il.
Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi.
Bakı, "Azərbaycan" nəşriyyatı, 2005-ci il.

AzərTAc-dan... AzərTAc-adək

Azərbaycan Dövlət Teleqraf Agentliyinin 85 yaşı tamam olur

AzərTAc... Respublikamızda az adam tapılar ki, bu söz ona tanış olmasın. Azərbaycan mətbuatını izləyən, televiziya kanallarını seyr edən, radio dalğalarını dinləyən hər kəsə müxtəsər AzərTAc sözü yaxşı tanışdır. Vətəndaşlıq duyğusu, milli-ictimai, siyasi özünüdərk hissi olan hər bir vətəndaş bu sözə xüsusi diqqət və hörmətlə yanaşır, onun qədr-qiymətini bilir. Gecə-gündüz, ayıq-sayıq, sərvaxt olan Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc ölkəmizdə, dünyada baş verən hadisələr, cərəyan edən proseslər haqqında yorulmaq bilmədən insanlara ən yeni xəbərləri çatdırır. Özü də, dərhal, operativ və aydın-anlaşıqlı surətdə. Onlar bu günümüzdən, dünənimizdən, yaşadığımız anlardan xəbər verir.

İnsanlar məhz belə informasiyaların intizarındadır, məhz belə xəbərləri dəyərləndirir. Onların beyninə, qəlbinə məhz belə xəbərlər yol tapır. Çünki insan elə xəlq olunub ki, gözü ilə gördüyü, qulağı ilə eşitdiyi sözə və hadisəyə daha çevik reaksiya verir.

Mövzusundan, janrından və həcmindən asılı olmayaraq, hər bir informasiya özü ilə yenilik gətirir. Ona görə ki, yenilik hər hansı informasiya agentliyinin, o cümlədən də "imzalar içində imzası olan", öz dəst-xətti ilə seçilən və bəyənilən AzərTAc-ın "konveyer"indən çıxan başlıca məhsuldur.

Ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının elə bir sahəsi yoxdur ki, AzərTAc-ın müxbirləri öz xəbərlərində ona toxunmasınlar. Mövzular, janrlar, coğrafiya dəyişir, yalnız bir prinsip – hazırlanan informasiyanın əzəli və əbədi prinsipi dəyişməz qalır. Bu, faktın geniş ictimai əhəmiyyətidir, doğru-düzgünlüyü, səhihliyi və dəqiqliyidir, vaxtında yayılmasıdır.

Ümummilli liderimiz, müstəqil dövlətimizin qurucusu Heydər Əliyev Azərbaycan Dövlət Teleqraf Agentliyinin jurnalistlərini məhz bu prinsipləri rəhbər tutmağa, Vətənə, öz xalqının işinə sonsuz məhəbbət və sədaqət hisslərini əsas tutmağa çağırırdı.

Heydər Əliyev Azərbaycanın öz müstəqilliyinə qovuşduğu, daha doğrusu, onu bərpa etdiyi dövrdə də, ümumən, mətbuata, o cümlədən də informasiya agentliyinə həmişə böyük qayğı və diqqətlə yanaşır, onun problemlərini daim diqqət mərkəzində saxlayırdı.

Prezident Heydər Əliyevin 2000-ci ilin fevralında, AzərTAc-ın 80 illik yubileyi ərəfəsində agentliyin kollektivinə ünvanladığı təbrik məktubunda deyilir: "1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyir.

Müstəqilliyimizin daha da möhkəmləndirilməsində, ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edən köklü islahatların, baş verən mütərəqqi dəyişikliklərin, Ermənistanın respublikamıza təcavüzü ilə yaranmış mürəkkəb sosial-iqtisadi və insani problemlərin açılmasında, beynəlxalq aləmə yayılmasında AzərTAc-ın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür. Lakin elmi-texniki tərəqqinin media üçün, xüsusən elektron informasiya vasitələrinin hüdudsuz inkişafı üçün yaratdığı bütün imkanlar hər gün yeniləşməni və dünya elminin bu sahədəki nailiyyətlərinin geniş tətbiqini tələb edir. Odur ki, AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır".

Bu sözlər indi, beş ildən sonra, AzərTAc-ın artıq 85 illiyini qeyd etdiyi bir vaxtda da öz dəyər və kəsərini itirməmişdir.

Azərbaycan Respublikasında informasiya xidmətinin əsasını qoymuş, hazırda ölkəmizin baş informasiya orqanı olan AzərTAc kiçik, məhdud imkanlı bir informasiya qurumundan ən müasir texniki avadanlıqla təchiz edilmiş informasiya mərkəzinədək keşməkeşli, eyni zamanda, böyük və şərəfli bir yol keçmişdir.

AzərTAc-ın 85 illik tarixinin bəzi səhifələrini vərəqlədikcə, bunu bir daha yəqin edirsən.

* * *

Azərbaycanın və onun xalqının həyat salnaməsini yazan AzərTAc-ın da ölkəmizin tarixi ilə qırılmaz surətdə bağlı olan öz salnaməsi var.

AzərTAc adlandırılacaq Azərbaycan Teleqraf Agentliyinin yaradılması ideyası Azərbaycan Demokratik Respublikasının mövcudluğunun elə ilk günlərində irəli sürülmüşdür. Azərbaycan Respublikası hökumətinin 3 mart 1919-cu il tarixli qərarlar jurnalından çıxarış:

Dinlənildi:	Qərara alındı:
Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin Azərbaycan Teleqraf Agentliyinin təşkil olunması barədə məruzəsi	Xalq maarifi naziri Nəsib bəy Usubbəyova Azərbaycan Teleqraf Agentliyinin təşkil edilməsi tapşırılsın

Əsli ilə düzdür:

Katib köməkçisi Nəcəfov
Düzdür: kargüzar Əli Yusif"

F.Xoyski və N.Usubbəyovun imzaladığı əmrdə isə deyilirdi:
Xalq Poçt və Teleqraf Komissarlığı üzrə Xalq Komissarları Şurasının

ƏMRİ

"Ümumazərbaycan Şuraları I Qurultayının qərarının yerinə yetirilməsi məqsədi ilə Xalq Komissarları Şurası Baş Siyasi-Maarif Komitəsinə xidmət etməli olan AzərTAc təxirə salınmadan çox qısa müddətdə təşkil olunmasını təklif edir.

Xalq Komissarları Şurasının sədri
Xalq maarif komissarı
Xalq Təsərrüfatı Şurasının katibi"

Arxiv sənədlərindən göründüyü kimi, bu əmr heç də dərhal icra edilməmişdir. Odur ki, iki il sonra, 1920-ci il fevralın 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Camobəy Hacınskinin başçılıq etdiyi Poçt və Teleq-

raf Nazirliyi yanında "daxili və xarici xronikanın, habelə dövlət idarəçiliyinin bütün sahələri üzrə hökumət xəbərlərinin geniş şöbələri olan" Azərbaycan Teleqraf Acanslığı – AzərTAc agentliyinin təşkil olunması haqqında yeni qərar verdi. AzərTAc agentliyinin yaradılması haqqında qərara Azərbaycan Respublikası Hökuməti qərarlarının jurnalından çıxarış da sübutdur.

"Dinlənildi:

Poçt və teleqraf nazirinin Azərbaycan Teleqraf Acanslığının təşkil edilməsi barədə məruzəsi.

Qərara alındı:

1. Azərbaycan Teleqraf Acanslığı ştatlarının layihəsi və əsasnaməsi aşağıdakı dəyişikliklərlə Parlamentə çıxarılmaq üçün bəyənilsin:

a) Bir redaktor köməkçisi vəzifəsi ixtisar edilsin.

b) Baş redaktora ayda 6000 manat və onun köməkçisinə 4500 manat məvacib təyin olunsun. c) Abunə haqqı 40000 manatadək artırılsın.

2. Parlament ştatları və əsasnaməni təsdiqləyənədək poçt və teleqraf nazirinə yuxarıda adı çəkilən Azərbaycan Teleqraf Acanslığını təşkil etməyə, xərcləri radiobülletenlər üçün abunə haqqından alınan gəlirlərə aid etməyə icazə verilsin.

Əsli ilə düzdür:

Nazirlər Şurasının katibi vəzifəsini icra edən".

Tezliklə, artıq 1920-ci il fevralın 23-də bu məsələ AXC parlamentinin iclaslarından birinə çıxarıldı. Ağa Aşurov iclasda çıxış edərək dedi ki, Teleqraf Acanslığının olmaması təsdiqlənməmiş xəbərlərin xalq arasında yayılmasına səbəb olur. İclasda bildirildi ki, bunun nəticəsində də mətbuat səhifələrində bizim haqqımızda ancaq şayiələrə əsaslanan, həqiqətə uyğun gəlməyən xəbərlər dərc edilir. Öz acanslığımız olsaydı, biz bu uydurma və şayiələri təkzib edə bilərdik...

Parlamentin digər deputatı Ağa Eminov isə həmin məsələ ilə bağlı çıxışında belə demişdir: "Bununla bərabər bir teleqraf acanslığı təsis etmək istənilir...".

Nəhayət, Azərbaycan Teleqraf Acanslığı yaradıldı. Lakin müxtəlif səbəblərə görə, o, həqiqi fəaliyyətə bir qədər sonra, 1920-ci il martın 1-də başladı.

Arxiv sənədləri göstərir ki, AzərTAc-ın xəbər bülletenləri, bayram günləri də daxil olmaqla, hər gün iki dildə – Azərbaycan və rus dillərində buraxılırdı. Bülletenlərdə gənc Azərbaycan dövlətində baş verən mühüm hadisələr işıqlandırılır, demoktatik dəyişikliklər yolunda atılan hər bir addım tarix üçün saxlanılırdı.

Lakin cəmi bir ildən bir qədər artıq kağız üzərində mövcud olmuş, əslində isə, ikicə ay fəaliyyət göstərmiş informasiya agentliyi, aydın məsələdir ki, çox da böyük işlər görə bilməzdi. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti faciəli surətdə devrildikdən sonra agentliyin tarixinin yeni dövrü – ziddiyyətlər və çətinliklərlə dolu sovet dövrü başlandı. Yeri gəlmişkən, həmin günlərdə Rusiya Teleqraf Agentliyi (ROSTA) dərhal, özü də Bakı radiostansiyasının köməyilə, gerçəkliyi təhrif edən belə bir xəbər yaydı ki, guya, Bakıda çevriliş olmuşdur və bunun nəticəsində xalq kütləlari köhnə hökuməti devirmiş və yeni hökumət, kommunist hökuməti qurmuşlar.

Biz bunların əsl həqiqətdən nə qədər uzaq olduğunu indi, onilliklər ötdükdən və bir çox mətləblərə aydınlıq gəldikdən sonra dərk etmişik.

1920-ci ilin iyununu Azərbaycan Teleqraf Agentliyinin ikinci rəsmi yaranma tarixi hesab etmək olar. Bu zaman informasiya şöbəsi hüququ ilə ROSTA-nın Qafqaz bölməsi kimi, o, həmin il yaradılan "Azmərkəzmətbuat" təşkilatının (Mətbuatın Yayılması üzrə Mərkəzi Agentlik) tərkibinə daxil oldu və bu şöbəyə ROSTA-nın Qafqaz üzrə müvəkkili S.Boqdatyev başçılıq etdi.

"AzQafROSTA"nın fəaliyyət sxemi elə ilk günlərdən təkcə respublika paytaxtının çərçivəsi ilə məhdudlaşdırılmadı, bütün Azərbaycan ərazisini əhatə edirdi. Onun Gəncədə, Şuşada, Lənkəranda bir-birinin ardınca bölmələri və məntəqələri yaranmağa başladı. Yalnız 1921-ci ildə Azərbaycan Xalq Komissarları Şurasının qərarı ilə AzQafROSTA Azərbaycan Teleqraf Agentliyinə – AzərTAq-a çevrildi.

Zaqafqaziya Federasiyasının mövcudluğu dövründə AzərTAq üç Zaqafqaziya respublikasının informasiya agentlikləri birliyinin tərkib hissəsi oldu,

1936-cı ildə isə müstəqil informasiya orqanı kimi fəaliyyətini bərpa etdi və "AzTAq" adlanmağa başladı.

Bir qədər irəliyə gedib deyək ki, 1972-ci ilin iyununda respublika Nazirlər Sovetinin qərarı ilə AzTAq "Azərinform" adlandırıldı və bu adla o, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edənədək və artıq müstəqil olan Azərbaycanın Prezidenti tərəfindən 1992-ci ildə verilən sərəncamla tarixi adı – AzərTAc (Azərbaycan Teleqraf Agentliyi) özünə qaytarılanadək fəaliyyət göstərdi.

Lakin agentliyin fəaliyyətinin "sovet dövrü" adlandırdığımız dövrünə qayıdaq.

Ölkəmizin bütün tarixi agentliyin informasiya lentlərində öz əksini tapırdı. Bütün ziddiyyətlərinə və mənfi hallarına baxmayaraq, Sovet Azərbaycanın gerçəkliyi xalq üçün yeni həyat quruculuğunun yüksək vüsət alması ilə fərqlənirdi. Odur ki, oxucular qəzet səhifələrində bu həyat uğrunda geniş mübarizənin cəbhələrindən ən yeni məlumatları, habelə planetin həyatı haqqında son xəbərləri görmək istəyirdi. Bütün bu materialı onlara ölkənin baş informasiya orqanı verməli idi.

İndi keçmişə bugünkü reallıqların mövqeyindən də nəzər salarkən, o vaxtlar baş verənləri qiymətləndirərkən bir məsələni – yalançı kommunist təbliğatı nəticəsində xoşbəxt gələcəyi olacağına inanan və buna görə də bu gələcək naminə yüksək əmək rəşadəti göstərən xalqın misilsiz əmək qəhrəmanlığını qeyd etməmək olmaz.

Təbii ki, AzTAq jurnalistləri respublika əməkçilərinin şanlı işləri barədə xəbərlər verir, onların nailiyyətlərindən inandırıcı surətdə və səmimiyyətlə söhbət açırdılar.

Agentliyin yarandığı ilk illərdə bu və ya digər informasiyanın respublikada yayılması o qədər də asan iş deyildi. Çünki agentliyin maddi-texniki bazası zəif idi. Üstəlik, SSRİ-də və dünyada baş verən hadisələr barədə xəbərlər Bakıya uzun müddət SİTA (Sovet İttifaqının Teleqraf Agentliyi) vasitəsilə ancaq ümumi istifadədə olan teleqrafla gəlirdi. Odur ki, buraxılış üçün hazırlanan və rotatorda çoxaldılan xəbərlər qəzet redaksiyalarına çox da operativ surətdə göndərilmirdi.

AzTAq-da ilk teletayp qurulduqdan sonra vəziyyət bir qədər yüngülləşdi. Bu, respublikanın informasiya xidmətində o zamanlara görə, həqiqətən,

texniki inqilab idi. Teletayp respublika, İttifaq və dünya xəbərlərinin alınması və müxtəlif nəşrlərə ötürülməsi üzrə bütün prosesi sürətləndirməyə imkan verirdi.

Lakin bütün bunlar Azərbaycan Teleqraf Agentliyinin fəaliyyətinin yalnız bir tərəfi idi. Agentliyin fəaliyyətinin digər, eyni dərəcədə əhəmiyyətli tərəfi, əlbəttə ki, AzTAq müxbirlərinin işi idi. Onlar Azərbaycan xalqının – fəhlə və kəndlilərin, alimlərin, mədəniyyət, maarif... xadimlərinin fədakar əməyi sayəsində respublikamızda baş verən böyük dəişikliklərin salnaməsini yaradırdılar.

Sovet quruluşunun bütün mənfi təzahürlərinə, riyakarlığına və qərəzkarlığına baxmayaraq, onun əsl möcüzələr yaratdığını da inkar etmək mümkün deyildir. Bu quruluş insanın Vətənə, doğma yurda məhəbbət hissindən məharətlə bəhrələnməyi, xalqın səadəti, – uydurma olsa da, – naminə insanın özünü fəda etməsini bacarırdı.

Jurnalistlər – qəzetçilər, reportyorlar, bütün informasiya orqanlarının işçiləri şərəfli bir vəzifəni yerinə yetirdiklərindən qürur hissi keçirərək və ruhlanaraq, onların hər bir uğurunu, hər bir əmək qələbəsini öz xəbərlərində sadə, anlaşıqlı, lakonik şəkildə əks etdirirdilər.

Lakin faşist Almaniyasının xaincəsinə qəfil hücumu xalqın dinc, xarüqələrlə dolu əmək epopeyasını dayandırdı. O vaxtki böyük ölkəmizin, o cümlədən Azərbaycanın və təbii olaraq, Azərbaycan Teleqraf Agentliyinin həyatı müharibə ab-havasına kökləndi və yalnız bir ümdə amala – Qələbə üçün və Qələbə naminə mümkün olan və olmayan bütün işləri görmək amalına xidmət etməyə istiqamətləndirildi.

Müharibənin, demək olar, ilk günlərindən Moskva ilə əlaqələr kəsildiyi üçün, SİTA-nın şöbəsi kimi, AzTAq bütün xəbərləri, əvvəlkitək, adi teleqraf, sonra da hətta, radio vasitəsilə alırdı. Agentliyin bütün işçiləri – stenoqrafçılar, makinaçılar, redaktorlar, korrektorlar gecə-gündüz iş başında idilər. Aztaqçı hərbi müxbirlər odlu-alovlu döyüşlərdən, ön cəbhədən hazırladıqları reportajları ardı-arası kəsilmədən AzTAq-a göndərirdilər. Qələmini silaha çevirib, Azərbaycan Teleqraf Agentliyinin vəsiqəsilə qanlı-qadalı cəbhə yolları ilə qətiyyətlə irəliləyənlər arasında respublikamızın Rəsul Rza, Qılman Musayev, Abbas Zamanov, Cəmşid Əmirov, Nüsrət Bağırov, Mixail Pleskaçevski və digər adlı-sanlı nümayəndələri də vardı. Onların qışın şaxtasında,

yayın qızmarında, güllə yağışları və tufanları içində səngərlərdə yazdıqları reportajları – Böyük Vətən müharibəsinin cəbhələrində qarı düşmənlə igidcəsinə vuruşan Azərbaycan övladlarının ölməz hünəri haqqında reportajları AzTAq dərhal yayır, onlar radioda səslənir, mətbuat səhifələrində dərc edilirdi. Öz Azərbaycanının şərəfini doğma torpaqlardan uzaqlarda qeyrətlə qoruyan Həzi Aslanovun, İsrafil Məmmədovun, Məzahir Abbasovun və yüzlərlə, minlərlə digər azərbaycanlı döyüşçünün qəhrəmanlığından respublikamızın sakinləri məhz AzTAq-ın məlumatlarından xəbər tuturdular.

O günlər AzTAq-ın jurnalistləri yuxunun, dincliyin nə olduğunu bilmədən gecə-gündüz çalışırdılar. Agentlik respublika nəşrlərini cəbhə xəbərləri ilə təmin etməklə bərabər, arxa cəbhədəki insanların qəhrəmanlığı, Qələbə naminə fədakar və vətənpərvər əməyi haqqında da cəbhə üçün informasiyalar yayırdı. Xüsusi buraxılışlar üçün nəzərdə tutulan və cəbhə qəzetlərinə göndərilən bu yazıların qəhrəmanları tanklarımızın düşmən üzərinə hücum etməsi, təyyarələrimizin şığıması üçün "qara qızıl" çıxaran neftçilər, cəbhə üçün çox gərəkli yağlar və onları donmağa qoymayan maddələr alınması üçün laboratoriyalarda tədqiqatlar aparan ailmlər, öz istehsalını cəbhənin ehtiyacı üçün döyüş sursatı və texnikasına keçirən maşınqayıranlar idi. Bir sözlə, AzTAq jurnalistləri o ağrılı-acılı və həyəcanlı günlərdə Azərbaycan xalqının faşizm üzərində böyük Qələbənin yaxınlaşması naminə gördüyü işlərdən yazırdılar.

Təəssüf ki, xalqımızın əməyini, dünyada tayı-bərabəi olmayan bu Qələbəyə çox böyük töhfəsini o vaxtki sovet rəhbərliyi layiqincə qiymətləndirmədi, neçə-neçə şəhərə Qəhrəman şəhər adı verilərkən Bakını, Azərbaycanın oğul və qızlarının, istər ön, istərsə də arxa cəbhədə misilsiz hünərlərini əsassız surətdə "unutdu", halbuki onların bu hünəri, fədakar əməyi olmasaydı, bəlkə də, bu Qələbə də olmazdı. Lakin buna baxmayaraq, Azərbaycan, onun zəhmətkeşləri keçmiş SSRİ-nin bütün xalqlarının yaradıcı əməyinə müharibənin viran qoyduğu təsərrüfatın bərpa edilməsinə, onun vurduğu yaraların sağaldılmasına, iqtisadiyyatın, elmin və mədəniyyətin yeni səviyyələrinə yüksəlməsinə yönəldilmiş əməyə ilhamla qoşulmuşdular.

Azərbaycan xalqının müharibədən sonrakı illərdə də şanlı işləri AzTAq jurnalistlərinin xəbərlərində öz parlaq əksini tapır, onun yaydığı informasiyanın başlıca mövzusuna çevrilirdi.

AzTAq-ın reportajlarında, oçerklərində, hesabatlarında, qısa xəbərlərində iqtisadiyyat sahəsində əmək qələbələri ilə yanaşı, xalqın ictimai-siyasi, mədəni həyatındakı nailiyyətlərdən də söhbət açılırdı. Respublikanın həyatının müxtəlif sahələrindən, Xəzərin neft ehtiyatlarının fatehlərinin, Mil, Muğan, Şirvan pambıqçılarının əmək qələbələrindən, Bakının, Sumqayıt və digər şəhərlərimizin yeni tikintilərindən, Azərbaycan alimlərinin ixtiralarından, incəsənət ustalarının uğurlu çıxışlarından, nəhayət, ictimai-siyasi həyatdakı ürəkaçan dəyişikliklərdən bəhs edən müxtəlif informasiyalar SİTA vasitəsilə İttifaq və xarici ölkə mətbuatına verilirdi. Axı, beynəlxalq əlaqələr də genişlənirdi. Bütün bu xəbərlərin yayılması coğrafiyasının ildən-ilə genişləndirilməsi də AzTAq-ın çoxşaxəli işinin başlıca istiqamətlərindən biri idi.

Gənc, enerjili, vətənpərvər, qeyrətli bir insanın – Heydər Əlirza oğlu Əliyevin 1969-cu ilin iyununda respublikaya rəhbərliyə gəldiyindən oxucular, ilk növbədə, Azərbaycan Teleqraf Agentliyinin məlumatından xəbər tutdular. Cəsarətlə və tam əsasla deyə bilərik ki, o il Azərbaycanın taleyində, xalqın taleyində, eləcə də respublikanın informasiya orqanının fəaliyyətində dönüş ili oldu.

Heydər Əliyev Azərbaycana rəhbərliyinin elə ilk günlərindən mətbuata böyük diqqət yetirməyə başladı. AzTAq onun daim diqqət mərkəzində idi. Respublikanın rəhbəri agentliyin ən müasir avadanlıqla təmin olunması, onun əməkdaşlarının həyat və iş şəraitinin yaxşılaşması üçün çox işlər görmüşdür. Bütün bunlar Azərinform müxbirləri hətta respublikanın hüdudlarından kənarda işlədikdə də buraxılan materialların keyfiyyətinin yaxşılaşmasına da, operativliyinə də böyük təsir göstərmişdir. SSRİ-nin bütün xalqları ilə əlaqələr genişlənir və möhkəmlənirdi. Agentliyin xüsusi müxbirləri Moskvada, Gürcüstan, Moldova və digər müttəfiq respublikalarda keçirilən Azərbaycan mədəniyyəti ongünlüklərini və festivallarını işıqlandırır, pambıqçıların qarşılıqlı yoxlama briqadaları ilə birlikdə yarış üzrə dostların yanına, Azərbaycan mütəxəssislərinin çalışdıqları, Bakıdakı "Ümumittifaq neft akademiyası" məzunlarının qardaşlıq köməyi göstərdiyi ölkənin yeni neft mərkəzlərinə gedirdilər.

Azərinforumçular çox vaxt, indi deyildiyi kimi, uzaq xaricə də gedir, orada SİTA briqadalarının tərkibində işləyərək, bilavasitə hadisə yerlərindən –

bu və ya digər ölkədə keçirilən Azərbaycan günlərindən, Azərbaycanın fırça ustalarının bədii sərgisinin açılışından, mədəniyyət ongünlüklərindən və digər tədbirlərdən birbaşa xəbərlər verirdilər. Yaradıcılıq ezamiyyətlərinin məqsədlərindən biri də Azərbaycanın möhkəm iqtisadi və mədəni əlaqələr yaratdığı dost ölkələrin uğurlarından danışmaq idi. Onların zəhməti nəzərdən qaçmırdı: 70-ci illərdə – 80-ci illərin əvvəllərində, qeyd edildiyi kimi, 1972-ci ildə adı dəyişdirilib Azərinform qoyulan AzTAq-ın bir sıra işçilərinin fəaliyyəti layiqincə qiymətləndirildi.

Respublika Ali Soveti rəyasət heyətinin fərmanı ilə agentliyin 50 illiyi qeyd olundu. Respublika rəhbərliyinin yubilyara təbrik məktubunda deyilirdi: "...Ardıcıllıqla və məqsədəuyğun şəkildə faktlarla təşviqat aparmaq – ...bütün məlumat xidməti kimi, AzərTAc əməkdaşlarının da çətin, lakin nəcib əməyinin mənası və mahiyyəti budur".

Azərbaycanın həmin dövrdəki rəhbəri Heydər Əliyev çıxışlarından birində oxuculara əmək növbəsinin qəhrəmanlarından danışan, əmək kollektivlərində yaranan qiymətli təşəbbüsləri dəstəkləyən və yayan, lazım gəldikdə isə, nöqsanları da kəskin tənqid edən kütləvi informasiya vasitələri sırasında Azərinformun da adını çəkmişdir. Respublika rəhbərliyi baş informasiya orqanının fəaliyyətini dəfələrlə təşviq edərək, o vaxtlar Azərbaycan xalqının qarşıda duran vəzifələrin uğurla həyata keçirməsində mətbuatın, televiziya və radionun, habelə xəbərlərin əsas təchizatçısı olan Azərinformun təşkilatçılıq rolunu da xüsusi vurğulayırdı.

Təəccüblü deyil ki, respublikanın iqtisadi, siyasi və mədəni həyatı haqqında əhaliyə geniş məlumat verilməsi işinə Azərinform kollektivinin sanballı töhfəsi onun öz 60 illiyini qeyd etdiyi ildə də mükafatlandırıldı: agentlik Azərbaycan Ali Soveti rəyasət heyətinin Fəxri fərmanı ilə təltif olundu. Agentliyin bir çox jurnalistləri fəxri fərmanlara və adlara layiq görüldü.

Respublikanın salnaməsinə yeni-yeni sətirlər, yeni-yeni səhifələr yazılırdı. Bu, Azərbaycan İnformasiya Agentliyinin, İttifaq və xarici ölkə mətbuatı üçün informasiya şöbəsini, ictimai-siyasi və mədəni, sənaye-iqtisadi, kənd təsərrüfatı informasiyası və yerli mətbuat şöbəsini özündə birləşdirən respublika informasiya redaksiyası əməkdaşlarının əməyilə də edilirdi.

Kompyuter dövrü artıq çoxdan başlanmış olsa da, agentliyin devizi dəyişməz qalır: aktual hadisələri operativ, səhih işıqlandırmaq, respublika-

nın, Azərbaycan xalqının şanlı işlərinin və xarüqələrinin coşqun carçısı və salnaməçisi olmaq! Odur ki, agentliyin respublikamızdakı yeniliklər barədə onlarca xəbəri bütün dünyada ardı-arası kəsilmədən yayılırdı. Özü də bu xəbərləri onda vahid olan ölkəmizin bütün respublikalarında da, xaricdə də gözləyirdilər. Bu təəccüblü deyildi, çünki Azərbaycanın beynəlxalq əlaqələri ildən-ilə genişlənirdi.

Azərbaycan İnformasiya Agentliyinin həyatında çox çətin zamanlar da olmuşdur. Məsələn, ötən əsrin 80-ci illərinin axırları – 90-cı illərinin əvvəlləri Azərinformun jurnalistləri, eləcə də bütün əməkdaşları üçün çox ciddi siyasi kamillik, vətəndaş mərdliyi, vətənpərvərlik və beynəlmiləlçilik sınağı oldu. 1990-cı ilin Qara Yanvar günlərində, imperiya qoşunları qəflətən Azərbaycana soxularaq, vahid ölkənin tərkibinə daxil olan öz respublikasının dinc əhalisinə tarixdə görünməmiş vəhşiliklə divan tutduğu, qəzetlərin çıxmadığı, radio və televiziyanın susduğu günlərdə insanlar son hadisələrdən ancaq agentliyin Bakıda görməli yerlərdən asılan məlumatından xəbər tuturdular. Deyərdik ki, bu gündəlik Azərinform bülletenləri millətlərarası münasibətlərlə bağlı hadisələr ucbatından işıq üzü görən nadir nəşr idi.

Ola bilsin ki, həmin bülletenlərdəki heç də bütün xəbərlər o vaxtkı respublika rəhbərliyinin xoşuna gəlmirdi. Axı, onlar bədnam sovet ənənəsinə uyğun olaraq, gerçəkliyi ört-basdır etməyə öyrəşmişdilər. Buna baxmayaraq, Azərinform jurnalistləri öz peşə borcuna sadiq idi və müxbirlərin bilavasitə yerlərdə topladıqları faktlara əsaslanan doğru-düzgün məlumatı əhaliyə çatdırırdılar. Əlbəttə ki, bu xəbərlərin başlıca dəyəri onların, ilk növbədə, operativliyində idi.

Onu da demək lazımdır ki, bu operativ informasiya vərəqələri iki dildə – Azərbaycan və rus dillərində buraxılırdı və imkan daxilində Bakıda, bəzən də Azərinformun öz müxbirləri vasitəsilə respublikanın digər bölgələrində də yayılırdı. Vərəqələr məxfi surətdə, hərbi senzuradan (onun daimi nümayəndəsi üçün Azərinformun binasında hətta xüsusi otaq ayrılmışdı) gizli surətdə hazırlanır və qaranlıq düşən kimi Bakının müxtəlif məhəllələrində evlərin divarlarına yapışdırılırdı. Təbii ki, azərinformçuların jurnalist hünərinə dəlalət edən bu vərəqələri azğınlaşmış imperiya əsgərləri səhər istehkamçı belləri ilə divarlardan amansızcasına qoparıb cırırdılar. O

günlərin dəhşətli həqiqətini çılpaqlığı ilə nümayiş etdirən Azərinformun fotovitrininin də taleyi belə oldu.

Bu bülletenlər Azərimformçuların jurnalist cəsarətinə dəlalət edən sənəd kimi tarix boyu qalacaqdır.

O dövrdə, 1991-1992-ci illərdə Azəriformun və "Azərbaycan" nəşriyyatının səyi ilə Ermənistanın beynəlxalq normalarla ziddiyyət təşkil edən təcavüzkar siyasətini, onun qədim Azərbaycan torpağı olan və ermənilərin yalnız XIX əsrin XX illərindən başlayaraq, Rusiya çarının əmri ilə məskunlaşdığı Dağlıq Qarabağa əsassız, lakin o vaxtkı sovet rəhbərliyi tərəfindən dəstəklənən iddialarını bir-birinin ardınca ifşa edən kitablar nəşr olunurdu.

"Dənizdən-dənizə" Ermənistan dövləti yaratmaq barədə məntiqə sığışmayan cəfəng ideya ilə zəhərlənmiş erməni millətçi separatçılarının qərəzli niyyətlərindən qaynaqlanan hadisələrin əsl mahiyyəti, demək olar ki, ilk dəfə məhz bu kitablarda tam çılpaqlığı ilə açılıb göstərilirdi.

İnsanlar belə nəşrlərin işıq üzü görməsini səbirsizliklə gözləyirdi. Bu nəşrlər arasında "Erməni terrorizmi", "İki il sürən faciə" (hadisələrin fotoxronikası), "Azərinform məlumat verir, bildirir, təkzib edir", "Elan edilməmiş müharibə" (Agentliyin Qarabağ probleminə, erməni terrorçuluğuna dair dərc etdirdiyi 254 siyasi şərh, replika, felyetondan ibarət toplu) kitablarının adını çəkmək olar. Onların hamısı Azərbaycan, rus və ingilis dillərində, 20, 30, bəzən də 50 min tirajla nəşr olunurdu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi ən ağrılı problemə həsr olunmuş bu kitablar da gündəlik bülletenlər kimi, Azərimformun xüsusi müxbirlərinin köməyi ilə respublikamızın ən ucqar guşələrinə çatdırılırdı.

Çoxşaxəli müxbirlər şəbəkəsi sayəsində agentlik və təbii ki, oxucular respublikanın müxtəlif bölgələrində baş verən hadisələr barədə daim xəbər tuta bilirdilər. Agentliyə müntəzəm surətdə daxil olan bu informasiyalar doğma dildə yazılırdı. Məhz buna görə də Azərbaycanın baş informasiya orqanının mövcudiyyəti dövründən başlayaraq, agentliyin ən mühüm vəsilələrindən biri tərcümə şöbəsi olmuşdur. Ancaq uzun illər boyu, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini qazananadək, xəbərlər əsasən rus dilindən Azərbaycan dilinə tərcümə olunurdu... Çünki materialların çoxu rusca hazırlanırdı.

Yalnız SSRİ dağıldıqdan sonra, bütün respublikalar, o cümlədən Azərbaycan müstəqil, suveren dövlətə çevrildikdən sonra Azərbaycan dili, nəhayət, sözdə deyil, həqiqətdə də dövlət dilinə çevrildi. Agentliyin strukturunda, onun bütün fəaliyyətində dəyişikliklər baş verdi. Materialların əsas hissəsi dövlət dilində hazırlanırdı. Əvvəllər ruscadan Azərbaycancaya çevirən tərcüməçilərin ixtisas dərəcəsinə diqqət yetirilirdisə, indi ruscaya çevirən yüksək ixtisaslı tərcüməçilərə ehtiyac duyulurdu. Bu məsələ də, demək olar ki, tədricən həll olundu.

Azərbaycan Teleqraf Agentliyinin əməkdaşları Xalq Cəbhəsinin hakimiyyətdə olduğu qarmaqarışıq, xaos və özbaşınalığın hökm sürdüyü bir dövrdə də iş başında idilər. AXC-nin qeyri-peşəkar rəhbərliyi nəticəsində iqtisadiyyat tənəzzülə uğramış, elm və mədəniyyət inkişafdan qalmış, bir çox bəşəri dəyərlər kəsərdən düşmüş, nəticədə cəmiyyətdə qarşıdurma yaranmış, ölkənin başı üstünü vətəndaş müharibəsi təhlükəsi almışdı. Peşəsinə vicdanla yanaşmağa adət etmiş Azərinformun jurnalistləri üçün çətin, mürəkkəb bir zaman idi. Lakin bütün bu çətinliklərə baxmayaraq, onlar ucalıqda qalmağa, mövqelərini əldən verməməyə, "ali rəhbərliyin istəyinə rəğmən də olsa" "həqiqətin carçısı", respublika həyatının obyektiv salnaməçisi olaraq qalmağa çalışırdılar.

Lakin hakimiyyət başına gənc, müstəqillik yoluna yenicə qədəm qoymuş Azərbaycanın rəhbərliyinə dövlət idarəçiliyi məsələlərindən az baş çıxaran, əməl və niyyətlərində çox da təmiz olmayan, hakimiyyətdən yalnız şəxsi mənafe naminə yararlanan adamların hakimiyyət başında olduğu zaman, ölkənin və agentliyin tarix salnaməsinə olduqca fərəhli bir səhifə də yazıldı. 1992-ci il dekabrın 18-də Azərbaycan Respublikası Prezidenti Əbülfəz Elçibəyin sərəncamı ilə "Azərinform" Azərbaycan Dövlət İnformasiya Agentliyinin tarixi adı – "AzərTAc" (Azərbaycan Teleqraf Agentliyi) özünə qaytarıldı. Beləliklə də 70 ildən artıq bir müddətdən sonra agentlik öz ilkin, ənənəvi AzərTAc adını bərpa etmiş oldu. Lakin ölkənin baş informasiya orqanına ilkin adını qaytaran o vaxtkı Azərbaycan rəhbərliyi təşkilatın maliyyə durumunu müəyyənləşdirən statusu barədə düşünməmişdi.

Halbuki agentliyin fəaliyyətini məhz bu status müasir tələblərə cavab verən maddi-texniki baza əsasında və dünya standartları səviyyəsində qurulması və təkmilləşdirilməsinin vacibliyini, habelə maliyyə durumu-

nu müəyyənləşdirməli idi. Azərbaycanın başabəla rəhbərlərinin ağalığı dövründə bütünlüklə təsərrüfat hesabına yaşamağa məcbur olmuş və demək olar ki, "yoxsullaşmış" AzərTAc üçün bu, çox önəmli bir məsələ idi.

Lakin AzərTAc onun üçün ağır olan şəraitdə belə yaşayır, işləyir, ölkədə və dünyada baş verənlər haqqında informasiyalar yaymaqda davam edirdi. Bu xəbərlərdə 1988-ci ildən üzü bəri davam edən, Azərbaycanı gözü götürməyənlərin Rusiyadakı əlaltılarının dəstəyi ilə ermənilərin Sumqayıtda törətdikləri hadisələrdən qaynaqlanan, baş alıb gələn Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar faciəli faktlar və ölkənin parçalanmasına aparan meyillər, nəhayət qardaş qırğınları ilə nəticələnə biləcək vətəndaş müharibəsi ilə bağlı həyəcanlar, hər dəfə düzgün prizmadan qiymətləndirilə bilməsə də, AzərTAc-ın xəbərlərində öz əksini tapırdı.

Yalnız xalqın təkidi ilə 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbərliyinə ikinci gəlişi Azərbaycanın xilası oldu. Böyük qanlar və sınaqlar nəticəsində əldə edilən dövlət müstəqilliyinin itirilməsi təhlükəsi aradan qalxdı.

Azərbaycan Teleqraf Agentliyi – AzərTAc-ın da həyatında köklü dəyişikliklər baş verdi. Buraxılan materialların sayı nəzərəçarpacaq dərəcədə artmağa başladı. Heydər Əliyevin fədakar fəaliyyəti, onun müdrik, uzaqgörən siyasəti nəticəsində Azərbaycan düşmüş olduğu informasiya blokadasını yararaq dünyanın demək olar ki, bütün dövlətləri tərəfindən tanınmasına nail oldu. Xırda təfsilatlarına qədər dəqiq işlənib hazırlanmış "Əsrin müqaviləsi" neft strategiyasını xatırlatmaq kifayətdir. O zaman – dünyada misli görünməmiş Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft-boru kəmərinin tikintisinin təməli qoyulduğu zaman 15 ölkənin 30 iri şirkəti ilə 60 milyard dollarlıq 21 müqavilə imzalanmışdı. Lakin bunun gerçəkləşdirilməsi üçün ölkə daxilində ictimai-siyasi sabitlik yaratmaq, demokratiyanı inkişaf etdirmək, bazar iqtisadiyyatına keçmək lazım idi. Buna yalnız Heydər Əliyev – siyasətçi nail ola bilərdi və bildi də. Bütün dünyanı Azərbaycana inanmağa məcbur edərək.

Bu işdə AzərTAc müstəqil dövlətimizin başçısına, həmişə agentliyə xüsusi qayğı ilə yanaşan ümummilli liderimizə layiqli köməkçi olmağa çalışırdı. O, xəbərlərində Azərbaycan gerçəkliklərini obyektiv işıqlandırmaqla, onu bütün dünyaya tanıdırdı.

Dövlət büdcəsindən maliyyələşdirilməyə keçid, kreditor borclarının ödənilməsi, agentliyin bütünlüklə kompyuterləşdirilməsi üçün xüsusi vəsait ayrılması, bütün texniki imkanlardan dolğun istifadə edilməsinə başlanması, binanın əsaslı təmiri, nəhayət bir sıra xarici dövlətlərdə AzərTAc-ın müxbir korpuslarının yaradılması – bütün bunlar AzərTAc-ın fəaliyyət səviyyəsini xeyli yüksəltmiş oldu.

Çox keçmədi ki, Prezidentin 1996-cı il 26 iyun tarixli "Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamı, onun ardınca isə agentliyin iş spesifikası, dövlət siyasətinin müasir mərhələdə təbliğində oynadığı müstəsna rolu nəzərə alınmaqla Nazirlər Kabinetinin qərarı təsdiq olundu. Qərarda Agentliyin maddi-texniki bazasının və maddi vəziyyətinin daha da yaxşılaşdırılması məqsədi ilə AzərTAc-ın fəaliyyətinin gücləndirilməsi, əldə olan imkanlardan daha dolğun istifadə edilməsi məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu.

Agentliyin kollektivi sərəncamı dərin minnətdarlıq hissi ilə qarşıladı. Sərəncama uyğun olaraq bir sıra mühüm tədbirlərlə yanaşı, əməkdaşların əməkhaqqının artırılması, həmçinin xarici ölkələrdə müxbir korpuslarının yaradılması prosesinin davam etdirilməsi nəzərdə tutulurdu.

AzərTAc-ın əməkdaşları dövlət başçısının bilavasitə göstərdiyi əvəzsiz qayğıdan ruhlanaraq agentliyin öhdəsinə düşən vəzifələri vicdanla yerinə yetirməyə, siyasi, iqtisadi və mədəni siyasətin həyata keçirilməsində, Azərbaycan və onun xalqı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında və bu məqsədlər naminə həyata keçirilən bütün tədbirlərin müntəzəm, geniş işıqlandırılmasında ölkə rəhbərliyinə dəstək verməyə çalışırdılar.

2000-ci il yanvarın 17-də AzərTAc-ın yaxınlaşmaqda olan 80 illiyi ilə bağlı, AzərTAc-ın fəaliyyətinin təkmilləşdirilməsinə həsr olunmuş fərman imzalandı. Bu, qısa müddət ərzində həmin sahə ilə əlaqədar imzalanmış artıq üçüncü fərman idi. AzərTAc-ın kollektivinin Prezidentə yazdığı minnətdarlıq dolu müraciətində deyilirdi: "Əziz Prezidentimiz! AzərTAc-ın kollektivi müstəqil dövlətçiliyimizin inkişaf addımlarının, Sizin titanik fəaliyyətinizin salnaməçisi olması ilə, xalqımızın müasir tarixini tam obyektiv şəkildə sənədləşdirilməsi ilə fəxr edir. Bəli, biz tarix yazırıq, bu tarixin ya-

radıcısı Azərbaycan xalqı, baş memarı isə uzaqgörən Prezidentimiz Heydər Əlirza oğlu Əliyevdir..."

Prezident Heydər Əliyevin 2001-ci il 29 iyun tarixli fərmanı ilə təsdiq olunmuş Əsasnaməni rəhbər tutaraq, dövlət səviyyəsində rəsmi informasiyaların xalqa çatdırılmasında və Azərbaycan Respublikası haqqında obyektiv informasiyanın geniş yayılması ölkədə və xaricdə baş verən hadisələrin obyektiv və hərtərəfli işıqlandırılması prinsipləri əsasında quraraq Prezidentin və dövlət hakimiyyəti orqanlarının fəaliyyəti, ölkənin xarici və daxili siyasəti ilə bağlı həqiqi, operativ məlumat ala bilmək hüquqlarından istifadə edərək qarşısında duran vəzifələri layiqincə yerinə yetirir.

AzərTAc-ın kollektivi 2004-cü il dekabrın 24-də Prezident İlham Əliyevə ad günü münasibətilə ünvanlandığı təbrik məktubunda ulu öndərimiz Heydər Əliyevin yolunu davam etdirməsindən və agentliyə göstərdiyi diqqət və qayğıdan ruhlanaraq, dövlət başçısına bundan sonra daha səylə işləyəcəyini, verdiyi vədlərə sadiq qalacağını bildirir. Bunun üçün indiki zamanda olduqca vacib olan texniki imkanlar da daxil olmaqla, hər cür şərait yaradılmışdır.

Son bir neçə ildə müstəqil Azərbaycanın Mərkəzi mətbuat orqanının texnika və texnoloji təminatı sahəsində, sözün əsl mənasında, inqilabi dönüş yaranmışdır. Respublikanın aparıcı "Scissors" veb studiyası "AzərTAc" saytı işlənib hazırlanmışdır. O, özü-özlüyündə əsl informasiya saytıdır. Yazı mətnlərinin, qrafikanın az yer tutduğu, qısa, ciddi, eyni zamanda, zövqlü dizayna malik, açıq, mülayim rənglərin üstünlük təşkil etdiyi sayt istifadədə çox rahat və xoşagələndir. Sayt üç dildə – Azərbaycan, rus, ingilis dillərində hazırlanmışdır. Ona qonaq olan hər kəs siyasət, iqtisadiyyat, mədəniyyət, idman aləmində baş verən son məlumatlardan xəbər tuta bilər. Respublika Prezidentinin gündəlik fəaliyyətini işıqlandıran "Rəsmi xronika" bölməsi saytda xüsusi yer tutur. Ayrıca bir bölmədə isə dövlət başçısının və Nazirlər Kabinetinin yeni qanunverici aktları toplanmışdır.

AzərTAc saytı oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Agentliyin ünvanına müntəzəm şəkildə çoxlu sayda, bəzən mindən yuxarı minnətdarlıq dolu oxucu rəyinin daxil olması bu razılığın parlaq ifadəsidir.

Məhz buna görə, AzərTAc-ın saytı hələ 2004-cü ilin əvvəlində Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisinin informasiya Mərkəzinin

internet-səhifəsində yerləşdirilmişdir. O, bu siyahıda Rusiya və Ukraynadan sonra üçüncüdür. AzərTAc-ın saytındakı informasiyanın bir hissəsi yüksək keyfiyyətli fotoşəkillərlə müşayiət olunur. Bu da fotoxronika şöbəsinin ölkəmizdə analoqu olmayan "Fujifilm" firmasının fotolaboratoriyası ilə təhciz edilməsi sayəsində mümkün olmuşdur. "Fujifilm"in üstün cəhətlərindən biri də 10 dəqiqə ərzində 100 foto çap edə bilməsidir.

AzərTAc-ın yaydığı informasiya daha bir müasir elmi-texniki nailiyyət – elektron poçt vasitəsilə həyata keçirilir. Respublika qəzetləri, informasiya agentlikləri, səfirliklər, eləcə də bütün dünyaya səpələnmiş çoxsaylı təşkilatlar bu informasiyaları bütün gün ərzində məhz onlayn rejimində e-mail vasitəsi ilə alırlar. Rus dilində informasiya MDB məkanının hər guşəsinə – Rusiya, Ukrayna, Belarus, Başqırdıstan, Qazaxıstan, Özbəkistan və sair ölkələrə yayılır. İngilis dilində isə bu informasiyaları Bi-Bi-Si, Anadolu ajansı, Frans-Press, İRNA, Bernama, Sinxua, BTA, KUNA, Rompress, Avstriya, Belçika, Kipr, Macarıstan, Pakistan, İtaliya, Sloveniya, Suriya – cəmi 53 ölkə gözləyir.

Qeyd etmək lazımdır ki, AzərTAc-ın həm saytı, həm də poçtu fasiləsiz işləyən iki server sayəsində fəaliyyət göstərir. Məhsuldar, gözəl tərtib olunmuş, müasir tələblərə cavab verən bu modellər işdə etibarlı və rahatdırlar. AzərTAc həm də APS firmasının UPS Silcoon fasiləsiz cərəyan mənbəyi elektrik kəsildiyi hallarda bir neçə saat ərzində agentliyin müntəzəm işləməsini, beləliklə də "AzərTAc xəbər verir" sözlərinin hər an, hər yerdə, hər gün eşidilməsini təmin edir.

AzərTAc-ın fəaliyyətində son iki-üç ildə xüsusi canlanma müşahidə olunur. Bir sutka ərzində buraxılan informasiyanın təxminən on dəfə (bu 350 min işarə foto material deməkdir) artması, bazar və bayram günləri də daxil olmaqla gecə-gündüzlü iş rejiminə keçilməsi, İnternet vasitəsilə beynəlxalq məkana çıxılması, dünyanın ən nüfuzlu agentlikləri ilə əlaqələrin gündən-günə möhkəmləndirilməsi onun gördüyü işlər sırasındadır. Prezidentin 2001-ci ilin may və 2002-ci ilin dekabr sərəncamları ilə AzərTAc-ın işçilərinin əməkhaqları xeyli dərəcədə artdı, Nazirlər Kabineti sərəncamların bəzi müddəalarını əsas tutaraq əməkhaqqının miqdarını və yaradıcı əməyin qonorar şəklində ödənilməsi qaydalarını dəqiq müəyyənləşdirdi.

AzərTAc-ın kollektivi Prezidentin bu qayğısına böyük məsuliyyət hissi ilə yanaşdı. Böyük öndərə yazdıqları minnətdarlıq məktubunda deyilirdi: "Ölkəmizin həyatının bütün sahələrində islahatların uğurla aparılması və gözəl bəhrələr verməsi... Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artması Sizin müdrik daxili və xarici siyasətinizin nəticəsidir... Bütün bunları təkcə respublikamızda deyil, həm də beynəlxalq miqyasda dəqiq və operativ işıqlandırmaq, doğma Azərbaycanımızı təbliğ etmək, Azərbaycan həqiqətlərini dünyaya yaymaq bizim bilavasitə vəzifəmiz, Vətən, xalq qarşısında, cənab Prezident, Sizin qarşınızda borcumuzdur".

Agentlikdə baş verən dəyişikliklər nəticəsində bir sıra ölkələrin informasiya orqanlarının AzərTAc-a marağı daha da artdı. AzərTAc-ın nümayəndələri informasiyanın yayılması məsələləri ilə əlaqədar bütün beynəlxalq tədbirlərin fəal iştirakçısına çevrildilər. Belə ki, 2003-cü ilin aprelində dünya informasiya agentliklərinin İstanbulda keçirilən sammitində dünyada sülhün təmin olunmasında informasiya agentliklərinin rolu və vəzifələri mövzusuna həsr olunmuş iclaslarda Azərbaycan Teleqraf Agentliyi – AzərTAc-la Türkiyənin Anadolu agentliyi arasında əməkdaşlıq barədə müqavilə imzalandı. AzərTAc elə həmin il – 2003-cü ildə Almatıda keçirilən media-forumda da təmsil olunmuşdu. Ölkə hüdudlarından kənarda müxtəlif toplantılarda, görüşlərdə, forumlarda iştirak etməklə yanaşı, başqa ölkələrin informasiya orqanlarının nümayəndələri də AzərTAc-da qonaq olurdular. O cümlədən, Bolqarıstan Teleqraf Agentliyinin (BTA) baş direktoru Maksim Minçev də AzərTAc-ın qonağı olmuşdu. Nəticədə hər iki agentlik arasında əməkdaşlıq barədə müqavilə bağlandı.

2004-cü il fevralın 6-da Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) ilə Rusiya Federasiyası Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlığa dair sazişin (sonradan Azərbaycan Prezidentinin əmri ilə təsdiq olunmuşdur) imzalanması, həmçinin həmin ilin martında sazişin yerinə yetirilməsi ilə bağlı protokol imzalanmışdır.

İTAR-TASS-ın 100 illik yubileyi ərəfəsində bu agentliyin baş direktoru Vitali İqnatenko, onun birinci müavini, həmyerlimiz Mixail Qusman da AzərTAc-da qonaq oldular. Tədbirdə hər iki tərəf indiki qloballaşma

əsrində, informasiya mübadiləsi də daxil olmaqla qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladılar. Qeyd olundu ki, son illər Azərbaycan-Rusiya əlaqələrinin bütün sahələrində müşahidə olunan sürətli inkişaf hər iki ölkənin aparıcı informasiya agentlikləri arasında əməkdaşlığın da geniş vüsət almasına təkan vermiş, ona yeni məzmun aşılamışdır. İş təcrübəsi mübadiləsi geniş istifadə olunmağa başlamışdır.

AzərTAc-ın artıq bir neçə əməkdaşı bu məqsədlə İTAR-TASS agentliyində olmuşdur. O cümlədən İTAR-TASS-çılar da Azərbaycanda İTAR-TASS günləri çərçivəsində böyük maraqla həmkarlarının iş şəraiti ilə tanış olmuş, onlarla söhbətlər aparmışlar. İTAR-TASS günləri iştirakçılarının ölkəmizin KİV nümayəndələri ilə Beynəlxalq Mətbuat Mərkəzində "dəyirmi masa" arxasında görüşü də xeyirli olmuşdur. Söhbətin mövzusu "Azərbaycan-Rusiya: informasiya mübadiləsi – problemlər və perspektivlər" mövzusunda aparılan söhbət əsnasında qonaqların marağına səbəb olmuş, müxtəlif problemlərə toxunulmuşdur.

AzərTAc onun fəaliyyəti ilə əlaqədar tövsiyələrə diqqətlə yanaşaraq imkan daxilində onların yerinə yetirilməsinə çalışır. Belə ki, 2004-cü ilin yayında agentlikdən ABŞ səfirliyinin ictimaiyyətlə əlaqələr üzrə attaşesi xanım Tereza Markivlə görüş keçirilmişdir. O, dünya informasiya məkanına daha geniş çıxmaq üçün və nəzərdə tutulan tədbirlərlə bağlı AzərTAc-ın planları ilə maraqlanmışdır. Görüş iştirakçıları demokratik cəmiyyətdə o cümlədən Avropaya inteqrasiya yolunu seçmiş Azərbaycanda KİV-lərin rolu haqqında fikir mübadiləsi aparmışlar.

Yenə də 2004-cü ildə Türkiyə Radio və Televiziya Qurumunun sədri Şenol Dəmiröz və onu Bakıya səfərdə müşayiət edən İstanbul şəhər Böyükşəhər bələdiyyəsinin mədəniyyət məsələləri üzrə müşaviri həmyerlimiz professor Tofiq İsmayılov AzərTAc-ın qonağı olmuşlar.

Ən mühüm xəbərlər operativ şəkildə agentliyin saytında verildiyinə görə, geniş oxucu kütləsi AzərTAc-ın buraxdığı materiallarla çox zaman İnternet vasitəsilə də tanış olur. Bu isə AzərTAc-a olan marağın gündən-günə artmasına səbəb olmuşdur. Hazırda müstəqil Azərbaycan dövlətinin mərkəzi mətbuat orqanı olan AzərTAc Türkiyə, Rusiya, İran, Ukrayna, Çin, Rumıniya, Küveyt və s. ölkələrin informasiya agentlikləri ilə bağladığı müqavilələrə əsasən əməkdaşlıq edir.

AzərTAc Asiya və Sakit okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA) MDB dövlətləri arasında dördüncü olaraq tamhüquqlu üzv olmuşdur.

OANA-nın üzvü olan ölkələrdən 40 informasiya agentliyinin rəhbərləri AzərTAc-ın namizədliyini yekdilliklə bəyənmiş və onun bu təşkilata qəbul edilməsinə səs vermişdir. Hazırda AzərTAc-ın, həmçinin EANA (İnformasiya agentliklərinin Avropa alyansı) üzvlüyünə qəbulu məsələsinə baxılır ki, bu da beynəlxalq əlaqələrin daha da genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Dövlət Agentliyinin yaradıcı kollektivi müxtəlif kitab nəşrlərinin hazırlanmasında və buraxılmasında iştirak edir. Belə ki, 2004-cü il mayın 15-də Azərbaycan xalqının dahi oğlu, ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş "Dünyanı heyran qoyan insan" kitabının yüksək səviyyədə tədqimatı keçirilmişdir. Prezident Administrasiyasının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin təşəbbüsü və rəhbərliyi altında AzərTAc-ın kollektivinin iştirakı ilə hazırlanmış bu kitabda 30 ildən çox siyasi hakimiyyətin zirvəsində olan dünyaşöhrətli siyasi xadim Heydər Əliyev haqqında xatirələr və qiymətli fikirlər toplanmışdır.

Agentliyin uğurlu fəaliyyətində onun ayrı-ayrı şöbələrinin də öz töhfəsi vardır. AzərTAc-ın bütün istehsal sahələri onun ümumi müvəffəqiyyətinə öz sanballı töhfəsini verirlər. Müxbirin, sonra isə redaktorun qələmindən çıxan xəbər soraqxanadan "viza" alaraq, korrektorluğa, texnoloji şöbəyə, e-mail-ə, mətbuata, radioteleviziya kanallarına, İnternetə gedir... Faksları və telefon zənglərini qəbul edən rabitə qovşağı da daxil olmaqla, konveyer dəqiq, operativ işləyir. Bunların hamısı bir məqsədə – həyatımızda baş verən yenilikləri respublika və dünya ictimaiyyətinə çevik çatdırmaq məqsədinə xidmət edir.

AzərTAc-ın öz başlıca vəzifəsinin öhdəsindən yaxşı gəldiyinə son illər agentliyin və əməkdaşlarının bir sıra təşkilatların mükafatlarına layiq görülməsi də sübutdur. Onlardan yalnız bir neçəsini qeyd etmək istərdik. İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafat (aprel 2004-cü il), xüsusi keyfiyyət və yüksək texnologiya üçün Madriddəki Biznes Təşəbbüsü Mərkəzinin verdiyi "Avropaya qapı" beynəlxalq qızıl mükafatı (yanvar 2005-ci il). Yeri gəlmişkən, həmin

Mərkəzin prezidenti Xose Prieton AzərTAc-a göndərdiyi məktubda vurğulayır ki, bu nüfuzlu mükafat Azərbaycan Teleqraf Agentliyinin Avropada və bütün dünyada daha çox tanınması nişanı olacaqdır. Onlarca digər mükafatı – fəxri fərmanları, diplomları və sairəni də buraya əlavə etsək, cəsarətlə deyə bilərik ki, AzərTAc beynəlxalq miqyasda tanınmış və şöhrət qazanmışdır.

Beləliklə, "AzərTAc xəbər verir..." – televiziya və radio verilişlərində tez-tez səslənən, bir çox qəzetlərdə və digər nəşrlərdə daim nəzərəçarpan bu sözlər Azərbaycan Dövlət Teleqraf Agentliyinin – müstəqil Azərbaycan dövlətinin baş informasiya orqanı olan AzərTAc-ın bütün fəaliyyətinə güclü təkan verir, onun kollektivini Vətənimizin qüdrətinin möhkəmlənməsi naminə yeni-yeni şanlı işlərə ruhlandırır.

AzərTAc-dan AzərTAc-a mürəkkəb və şərəfli yol.
Bakı, "Şərq-Qərb", 2008-ci il.

Dünyanı valeh edən əfsanəvi lider

"Mən həyatım boyu, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam".

Bu sözlər xalqımızın dahi oğlu Heydər Əliyevə məxsusdur. İlk baxışda çox adi görünən bu sözlərin arxasında nəhəng şəxsiyyətin mübarizələrlə dolu, dinclik, istirahət nə olduğunu bilməyən uzun bir ömrü dayanır. Elə bir ömür ki, hər günü, hər ayı, hər ili bütün varlığı ilə sevdiyi, bağlı olduğu xalqına, Vətəninə misilsiz xidmət nümunəsidir.

Bəşər tarixi çox görkəmli şəxsiyyətlər yetirmişdir. Onlar məşhur sərkərdə, siyasi və dövlət xadimi, elm, mədəniyyət, ədəbiyyat və incəsənətin inkişafına misilsiz töhfələr vermiş insanlar kimi tarixə düşmüşlər. Lakin ölkəsinin, xalqının tarixinin ən çətin, ağır dövründə xilaskarlıq missiyasını öz üzərinə götürən və bunu, həqiqətən, yerinə yetirən, ən nəhayət isə, Vətənini tərəqqi yoluna çıxaran, dünyaya tanıdan şəxsiyyətlər heç də yüzlərlə, minlərlə deyildir. Beləlləri çox azdır. Ona görə də biz fəxr edə bilərik ki, həmin azların sırasında Azərbaycan xalqının yetirdiyi Heydər Əliyev kimi əfsanəvi şəxsiyyətin öz yeri, öz çəkisi, öz şöhrəti var.

Azərbaycanın tarixinin son otuz ildən artıq bir dövrü, sözün həqiqi mənasında, Heydər Əliyevin adı ilə bağlıdır. İlk dəfə 1969-cu ildə respublikada siyasi hakimiyyətə gələn Heydər Əliyev qısa bir müddətdə Azərbaycanın hərtərəfli inkişafını təmin edə bildi. Bu isə heç də asan deyildi. İttifaq hökuməti uzun illər Azərbaycana ölkənin əsas neft mənbəyi kimi baxırdı. Lakin Azərbaycanın qurudakı yataqlarında neft getdikcə tükənməkdə idi. Dənizdə kəşf olunmuş yeni yataqların istismarı isə çox böyük vəsait tələb edirdi. Bilavasitə Azərbaycan neftçilərinin iştirakı ilə SSRİ-nin digər regionlarında kəşf olunmuş zəngin neft yataqları kifayət qədər ucuz "qara qızıl" verirdi və bu səbəbdən də Azərbaycan neft diyarı kimi şöhrətini itirirdi. Respublikada sənayenin digər sahələrinin inkişafı baxımından da irəliləyiş hiss olunmurdu, yüksək texnologiyalara əsaslanan istehsalatlar isə, demək olar ki, yox idi. Kənd təsərrüfatında gerilik hökm sürürdü. Bir sözlə, həmin dövrdə Azərbaycan ittifaq respublikaları arasında ən geridə qalanlardan biri idi. Fəlsəfə elmləri doktoru, professor Ra-

miz Mehdiyevin çox düzgün vurğuladığı kimi, "sovet hökumətinin rəsmi dairələri səviyyəsində belə bir fikir vardı ki, məşhur neft yataqları öz keçmiş əhəmiyyətini itirmişdir və respublikanın neftə yönəldilmiş iqtisadiyyatı elə beləcə sürünməyə məhkumdur...

Həm iqtisadi, həm də mədəni tənəzzülə doğru aparan mənfi hallara qarşı fəal mübarizə məhz Heydər Əliyev hakimiyyətə gələndən sonra başlandı. Bu yorulmaz fəaliyyət sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir".

Həmin illərdə Heydər Əliyev respublikanı SSRİ məkanında öncül yerlərə çıxarmaqla, onun haqqında formalaşmış mənfi imici tamamilə aradan qaldırmaqla yanaşı, Azərbaycanın dünyada tanınması üçün də çox böyük iş görmüşdür. Bu, həmin dövrdə onun ən mühüm xidmətlərindən biri idi. Bir sözlə, müasir Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, dünya iqtisadiyyatına sıx inteqrasiyası prosesi Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə yaradılmış potensial olmadan mümkün deyildi. Bunu təkcə Azərbaycan müəllifləri deyil, müxtəlif ölkələrin siyasi və dövlət xadimləri də dəfələrlə vurğulamışlar. Bu baxımdan Tatarıstan Prezidenti Mintimer Şaymiyevin sözlərini xatırlatmaq yerinə düşər: "Heydər Əliyeviç, məhz Sizin o illərdə respublikanı yüksəltməyiniz və xalqınızın nüfuzunu qaldırmağınız, o sistem şəraitində gördüyünüz işlər bizim hamımızda, eləcə də məndə heyranlıq hissləri, bəlkə də bir qədər qibtə hissi doğurmuşdur. Bu, belədir. Mən hələ onu demirəm ki, məhz Sizin qayğı və diqqətiniz sayəsində nə qədər görkəmli, yaradıcı adamlar şöhrət qazanmış, keçmiş SSRİ-nin bütün xalqlarının mənəvi inkişafına müsbət təsir göstərmişdir".

Bu, həqiqətən, belədir. Çünki Heydər Əliyev təkcə Azərbaycanın ən yeni tarixinin son qərinəsində deyil, həm də keçmiş SSRİ-nin tarixinin müəyyən bir dövründə silinməz iz qoymuş ən görkəmli şəxsiyyətdir.

Azərbaycan xalqı ötən əsrin 80-ci illərinin ortalarınadək Heydər Əliyevin xidmətlərindən nə qədər bəhrələnmişdisə, SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra, xüsusilə 90-cı illərin əvvəlində onun siyasi səhnədə

olmamasının ağrı-acısını bir o qədər hiss etdi, həllini bu gün də tapmamış Qarabağ dərdinə düçar oldu. Bəli, Azərbaycanın bəlalı günləri elə o vaxt başlandı. Ona görə də görkəmli qazax yazıçısı, ictimai-siyasi xadim, xalqımızın böyük dostu Oljas Süleymenov "Mən əminəm ki, 1980-ci illərin axırları – 1990-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycana rəhbərliyi davam etdirsəydi, Ermənistan-Azərbaycan münaqişəsinə yol verilməzdi. 1990-cı ilin yanvarında general Varennikovun tankları Bakıya yeridilməzdi. Qarabağ itirilməzdi" deyəndə tamamilə haqlıdır.

Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyinə yenidən qovuşandan sonra onun bəlaları azalmadı, əksinə, daha da artdı. Qanlı Yanvar qırğınının göynərtisi hələ keçməmiş, Ermənistanın təcavüzünün günbəgün gücləndiyi, torpaqlarımızı bir-birinin ardınca itirdiyimiz vaxtda Azərbaycan həm də parçalanır, ölkədə qardaş qanı tökülürdü. Ən dəhşətlisi isə bu idi ki, Azərbaycan müstəqil dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Bunun da səbəbləri hamıya məlum idi. Yenə də Oljas Süleymenovun sözləri ilə desək, "Bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir. Peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Heydər Əliyev kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında, azad və məğrur insanlar olsunlar. Heydər Əliyev kimi rəhbərlərin xidməti də məhz bundan ibarət idi".

Bəli, "olum ya ölüm" dilemması ilə qarşılaşan Azərbaycan xalqı müdrikliyini bir daha göstərdi, 1993-cü ilin böhranlı iyun günlərində öz müdrik oğlunu təkidlə yenidən siyasi hakimiyyətə gətirdi və yanılmadı. Bu, böyük Qayıdış, böyük Dirçəlişin başlanğıcı idi.

Heydər Əliyev üzərinə götürdüyü məsuliyyətin ağırlığını çox gözəl başa düşürdü. O, 1993-cü il iyunun 15-də Milli Məclisin iclasındakı çıxışında deyirdi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək,

öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

O, həmişə olduğu kimi, bu dəfə də özünə və sözünə sadiq qaldı. Xalqımızın dahi övladı, vaxtilə Kremlin siyasi hakimiyyət pilləsində ən parlaq sima olan Heydər Əliyev özünün nəyə qadir olduğunu bir daha bütün dünyaya – dostlarımıza da, bədxahlarımıza da sübut etdi. Azərbaycana ən böyük xidmətini göstərdi – ictimai-siyasi sabitliyi bərqərar etdi, dövlət müstəqilliyini qoruyub saxladı, möhkəmləndirdi, onu əbədi və dönməz etdi, iqtisadi böhrana son qoydu, iqtisadiyyatı inkişaf yoluna çıxardı, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etdi, Azərbaycanı regionun aparıcı dövlətinə çevirdi. Cəmi bir neçə kəlmə ilə sadalamaq mümkün olan bu taleyüklü vəzifələrin yerinə yetirilməsinin arxasında Heydər Əliyev şəxsiyyətinin gecəli-gündüzlü, məqsədyönlü, ağlasığmaz dərəcədə gərgin, son nəticədə sağlamlığına qəsd edən fəaliyyəti dayanır. Həmin illərə ötəri də olsa nəzər salanda, hətta onun kimi nəhəng, müdrik, qətiyyətli, polad iradəli insanın ixtiyar yaşında bu qədər işin öhdəsindən necə gələ bildiyinə heyrətlənməmək mümkün deyildir. Amma bu, həqiqətdir. Eyni zamanda, o da həqiqətdir ki, buna yalnız Heydər Əliyev kimi qüdrətli şəxsiyyət qadirdir. Ona görə də 30 ildən artıq bir dövrdə siyasi hakimiyyətin zirvəsində olan Heydər Əliyevi xalqımızın bəxtinə düşmüş Tanrı payı adlandıranlar, Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll, Konrad Adenauer kimi siyasi və dövlət xadimləri ilə müqayisə edərək, hələ sağlığında canlı əfsanəyə çevrilmiş lider hesab edənlər heç də yanılmırlar.

Prezident Heydər Əliyevin Azərbaycan, xalqımız, bütün region üçün gördüyü misilsiz işlər özlüyündə nə qədər böyük və əhəmiyyətli olsa da, biz bunların əzəmətini, bəlkə də, hələ olduğu kimi dərk edə bilmirik. Yəqin ona görə ki, buna hələ zaman gərəkdir və üstəlik Heydər Əliyev kimi dahinin müasiri olduğumuza və onun xidmətləri gözümüz qarşısında baş verdiyinə görə bütün bunlara adi hal kimi baxırıq və bəzən hesab edirik ki, belə də olmalı idi. Bu baxımdan, xalqımızın görkəmli oğlunun ən yaxın dostları – Ukraynanın Prezidenti Leonid Kuçma "Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk

edəcəkdir", Qazaxıstan Prezidenti Nursultan Nazarbayev isə "onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir" deməkdə tamamilə haqlıdırlar.

Lakin o da həqiqətdir ki, dünya görkəmli siyasi xadim, mahir diplomat, müdrik dövlət xadimi kimi Prezident Heydər Əliyevin qiymətini artıq vermişdir. Fransada çıxan "Kuryer İnternasional" jurnalının 2003-cü il may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adlerin ümummilli liderimiz Prezident Heydər Əliyevin 80 illik yubileyi münasibətilə geniş məqaləsi dərc edilmişdir. Məqalədə deyilir: "Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb bir tarixi məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Bəli, Heydər Əliyev, həqiqətən, yüksəklərə qalxmışdır, əlçatmaz zirvədir. Ona görə də məlum aforizmdə deyildiyi kimi, dağın əzəmətini ətəyindən yox, kənardan baxmaqla görmək mümkündür. Bu mənada ümummilli liderimiz, xalqımızın dahi oğlu haqqında Azərbaycandan kənarda – dünyanın görkəmli siyasi və dövlət xadimlərinin, biznes nümayəndələrindən tutmuş diplomatlara, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin dilindən səslənmiş fikirlər Heydər Əliyev şəxsiyyətinin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sözləri ilə desək, "siyasət nəhəngi"nin əzəmətini daha dolğun dərk etməyə imkan verir. Zənnimcə, bu fikirlərdə diqqəti cəlb edən odur ki, bunlar Heydər Əliyev fenomeninə xas olan bütün cəhətləri əhatə edir. Yəni, onu təkcə məşhur siyasi və dövlət xadimi kimi deyil, həqiqətən, dünyanı valeh edən, hərtərəfli istedada malik alicənab insan, əfsanəvi şəxsiyyət kimi səciyyələndirir.

Prezident Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində bütün digər xidmətləri ilə yanaşı, həm də ölkəmizin haqq səsini dünyaya bəyan etmişdir. İki əsrə yaxın bir dövrdə torpaqlarımıza göz dikən məkrli qonşularımızın və onların xaricdəki çox güclü lobbisinin yaxşı təşkil olunmuş təbliğatı öz işini görmüş, düşmənlərimiz dünyada Azərbaycan haqqında mənfi təsəvvür yaratmağa, əslində, nail olmuşdular. Ona görə

də tam əsasla deyə bilərik ki, Heydər Əliyev ermənilərin uydurmalarını ifşa etmək, Azərbaycan həqiqətlərini dünyaya bəyan etmək, beynəlxalq ictimaiyyətə çatdırmaq üçün yalnız nəhəng bir təbliğat maşınının qadir olduğu işi, demək olar, təkbaşına gördü. Bu işdə onun xarici səfərlərinin həlledici rolu olmuşdur.

Dünyanın diqqətini Azərbaycana cəlb etmək Prezident Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri idi və o, zəngin təcrübəsi, müdrik dövlət xadimi, mahir diplomat kimi buna tədricən nail olurdu. Onun xarici səfərlər zamanı və ölkə daxilində keçirdiyi saysız-hesabsız görüşlər, apardığı danışıqlar günbəgün öz bəhrəsini verirdi. Çünki dünya Heydər Əliyev şəxsiyyətinin qüdrətini daha dərindən dərk edir və ona birmənalı şəkildə inanırdı. Dediklərimizin təsdiqi kimi bir-iki misal çəkək.

ABŞ Prezidenti Corc Buş: Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin: Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi.

Türkiyənin keçmiş Baş naziri Bülənd Ecevit: Heydər Əliyev min ildən bir yetişən dahilərdəndir.

Böyük Britaniyanın Baş naziri Toni Bleyer: Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir.

Dünyanın tanınmış liderləri, məşhur siyasi xadimlər Prezident Heydər Əliyevin xidmətlərindən danışarkən onun ölkədə ictimai-siyasi sabitliyin təmin olunması, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, neft strategiyasının işlənib hazırlanması və bütün təzyiqlərə baxmayaraq, onun uğurla həyata keçirilməsi, Şərq-Qərb enerji dəhlizi ideyasının əfsanədən reallığa çevrilməsi sahəsində nümayiş etdirdiyi qətiyyəti, əzmkarlığı da xüsusi vurğulamışlar və yeri gəldikcə, bu gün də xatırlayırlar.

Yenə bir neçə misal çəkək.

Fransa Prezidenti Jak Şirak: Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Heydər Əliyev kimi müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir. Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi qiymətləndirirəm.

Özbəkistan Prezidenti İslam Kərimov: Azərbaycan xalqına həsəd aparıram, çünki onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi olan lideri var.

Gürcüstanın keçmiş Prezidenti Eduard Şevardnadze: Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir. Dünya miqyaslı dahi siyasətçi cənab Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda, bunun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkanı verdi. Bizim bədxahlarımız bu layihənin reallaşmasını istəmirdilər. Ona görə də təxribat aktlarından belə çəkinmirdilər. Məhz Azərbaycan Prezidenti bütün bunlara sinə gərərək, qərarlılığını bir daha dünyaya nümayiş etdirdi.

Belçikanın keçmiş Baş naziri Jan Lük Dean: Məhz Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünya birliyində layiqli yer tutması, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair dünyanın bir çox nüfuzlu şirkətləri ilə müqavilələr imzalanması Azərbaycanın müstəqilliyinin əbədi olmasına böyük təminat yaradır. Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan regionda açar rolu oynayan ölkəyə çevrilmişdir.

Prezident Heydər Əliyevin təkcə Azərbaycanda deyil, ümumən Qafqazda sabitliyin qorunmasında göstərdiyi xidmətlər də diqqətdən kənarda qalmamışdır. Bu baxımdan E.Şevardnadzenin sözlərini xatırlamaq istərdik: "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcəkdir".

Rusiya Xalqları Assambleyasının sədri Ramazan Abdulatipov isə Prezident Heydər Əliyevi Qafqazın layiqli oğullarının ən layiqlisi adlandıraraq deyir ki, o, qafqazlıların istedadını və mərdliyini, düşdüyü vəziyyətdən, tutduğu vəzifədən və yaşından asılı olmayaraq, həmişə özünü əsl kişi kimi aparmaq bacarığını təcəssüm etdirmişdir. Heydər Əliyev tarixi şəxsiyyət

Qafqazın fəxridir. Onun siyasi istedadı elə ancaq Azərbaycana xeyir gətirmir, bütün Qafqazın sərvətinə çevrilmişdir.

Çox təəssüf ki, Heydər Əliyevin potensialından həm bütün Qafqaz, həm də ümumilikdə, bütün region üçün tam istifadə olunmamışdır. O, elə nəhəng adamdır, onun şəxsiyyəti elə çoxşaxəli və intəhasızdır ki, bu dahi insanın Dağıstan üçün, Qafqaz üçün, Rusiya üçün kim olduğunu bu gün anlamaq və qiymətləndirmək çox çətindir. Görünür, bunu, bəlkə də 50 ildən sonra anlamaq, dərk etmək mümkün olacaqdır. O, sözün əsl mənasında, İnsandır, çünki insan həyatının siyasi nəticələrdən qiymətli olduğunu başqalarından daha yaxşı bilir.

Heydər Əliyev şəxsiyyətini səciyyələndirən ən mühüm cəhətlərdən biri – xalq, vətən sevgisi onunla ünsiyyətdə olanların diqqətindən yayınmırdı.

Məsələn, Fransa senatının sədri Kristian Ponsöle bu barədə fikrini belə ifadə etmişdir. Prezident Heydər Əliyev cəsarətli və sarsılmaz iradəyə malik bir şəxsiyyətdir. O, bütün varlığı ilə ölkəsinə bağlı, ölkəsi ilə nəfəs alan, onun bütün çətinlikləri ilə yaşayan bir insandır, xalqın həyat tərzinin yaxşılaşdırılması naminə var gücü ilə çalışır, gerçəkliyi nəzərə alaraq, praqmatik hərəkət edir.

"Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram" – deyən məşhur həmyerlimiz, keçmiş SSRİ-nin tanınmış dövlət xadimlərindən biri, Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Nikolay Baybakov vurğulayır ki, onun haqqında kitablar yazmaq lazımdır, çünki Heydər Əliyevin gördüyü işlərin vüsətini təkcə çıxışlarda açıqlamaq mümkün deyildir.

ABŞ-ın tanınmış siyasətçilərindən olan keçmiş dövlət katibi xanım Madlen Olbrayt: Bu vəzifədə olduğum dövrdə Amerika Birləşmiş Ştatlarında Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan və uğurlu səfər edən prezident hələ görməmişəm.

Xalqımızın böyük dostu, məşhur qırğız yazıçısı Çingiz Aytmatov: Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya siyasətində də belədir.

ABŞ konqresmeni Qreq Laflin: Məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya sübut etdi ki, o, müstəqil yaşamaq istəyir.

Rusiya-Belarus İttifaq dövlətinin dövlət katibi Pavel Borodin isə "dünya siyasi liderlərindən, bəlkə də yalnız Heydər Əliyevi Çörçillə müqayisə etmək olar" – deyərək vurğulamışdır ki, o, təkcə Azərbaycanı deyil, bütün postsovet məkanını idarə etməyə qadir heyrətamiz liderdir.

Prezident Heydər Əliyev nəsillərə örnək olan mənalı, hadisələrlə zəngin ömrünü bütünlüklə doğma Azərbaycanına həsr etmiş, bu yolda göstərdiyi misilsiz xidmətləri ilə nəinki ölkəmizin tarixində, həm də dünya diplomatiyasının tarixində silinməz iz qoymuşdur. Bənzərsiz fitri istedadı, müdrikliyi, siyasi uzaqgörənliyi ilə dünyanı valeh edən bu əfsanəvi şəxsiyyət hələ sağlığında milyonlarla insanın qəlbində özünə abidə ucaltmışdır. Lakin Prezident Heydər Əliyevin ucaltdığı ən böyük abidə günbəgün tərəqqi edən, işıqlı gələcəyi olan yeni, xoşbəxt Azərbaycandır. Ona görə də nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Azərbaycanın müstəqilliyi isə əbədidir, Azərbaycan xalqı da tarix durduqca yaşayacaqdır.

Heydər Əliyev ümummilli lider.
Bakı, "Azərbaycan" nəşriyyatı, 2004-cü il.
Heydər Əliyev və AzərTAc. Bakı, "Nurlan", 2005-ci il.

Azərbaycanı informasiya blokadasından Prezident Heydər Əliyev çıxarmışdır

Bu, tam həqiqətdir və obyektivlik hissini itirməyən hər bir adamda qətiyyən şübhə doğurmur. Lakin bu mövzuda söhbət açmazdan əvvəl yaxın keçmişə nəzər salmaq istərdik.

Gəlin, əvvəlcə XX əsrin 60-cı illərinin sonunu xatırlayaq. Azərbaycanın həmin dövrdəki sosial-iqtisadi vəziyyəti yaşlı nəslin yaxşı yadındadır. Azərbaycan, əslində, keçmiş SSRİ respublikalarının bir çoxundan hər sahədə geridə qalırdı. Daha doğrusu, tənəzzül keçirirdi. Yarım əsr nəhəng bir dövlətin tərkibində olan Azərbaycanı, xalqımızı, nə qədər acınacaqlı da olsa, İttifaqın heç də hər yerində əməlli-başlı tanımırdılar. Çoxları da tamamilə mənfi mənada tanıyırdı.

Lakin 1969-cu ilin ikinci yarısında Heydər Əliyev respublika partiya təşkilatının rəhbəri seçildikdən sonra vəziyyət tədricən və nəhayət tamamilə dəyişdi. Dünyanın altıda birini əhatə edən ölkənin nəhəng potensialından bacarıqla istifadə edən və respublikanın bütün imkanlarını səfərbərliyə alan, kommunist rejiminin xüsusiyyətlərinə dərindən bələd olan, böyük təcrübəyə malik Heydər Əliyev Azərbaycanı həqiqətən tərəqqi yoluna çıxardı. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi həmin dövrdə SSRİ hökumətinin Azərbaycanın hərtərəfli inkişafına yönəldilmiş çox mühüm qərarlar qəbul etməsinə nail oldu.

Eyni zamanda, bunların həyata keçirilməsini təmin etdi. Bu isə İttifaq büdcəsindən respublikaya külli miqdarda o vaxtadək görünməmiş məbləğdə vəsaitin ayrılması, yeni müasir istehsal müəssisələri, elm, təhsil, mədəniyyət, səhiyyə ocaqları, Azərbaycanın hər yerində aparılan saysız-hesabsız tikinti işləri və ən nəhayət, xalqımızın yaşayışının ilbəil yaxşılaşması demək idi. Eyni zamanda bu, Azərbaycanın İttifaq miqyasında nüfuzunun sürətlə artması, həmçinin get-gedə dünyada tanınması demək idi. Bu bir həqiqətdir ki, həmin dövrdə Azərbaycanı birinci növbədə Heydər Əliyevə görə tanıyırdılar. Ona görə də qətiyyətlə deyə bilərik ki, respublikaya rəhbərliyinin birinci dövründə cənab Heydər Əliyevin ən böyük xidmətlərindən biri doğma Azərbaycanı və qədim tarixi, zəngin mədəniyyəti olan xalqımızı dünyaya tanıtması olmuşdur. Onun Moskva-

da SSRİ kimi nəhəng dövlətin ali rəhbərlərindən biri olduğu illər isə bu xidmətin daha yüksək səviyyədə və yeni şəraitdə davamı idi.

Amma çox təəssüflər olsun ki, ötən əsrin 80-ci illərinin axırlarında Azərbaycanda vəziyyət tamam başqa şəkil aldı. Xəyanətkar qonşularımız sərsəm niyyətlərini həyata keçirmək üçün xislətlərinə xas olan min cür fitnə-fəsada əl ataraq, Qorbaçovun qılığına girib Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasına nail ola bildilər. Sonra isə Dağlıq Qarabağ hadisələri, qanlı 20 Yanvar faciəsi, nəhayət, sovet rəhbərliyindəki və xaricdəki havadarlarına güvənən Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü, müharibə, torpaqlarımızın bir qisminin işğalı, qaçqınlar və məcburi köçkünlər...

Kiçik bir respublikanın bu cür ağır problemlərlə üzləşməsi, şübhəsiz ki, həm də o illərdə Azərbaycana rəhbərlik edən, daha doğrusu, rəhbərlik edə bilməyən, sadəcə, vəzifə kürsüsündə əyləşən, habelə bu kürsüyə sahib olmaq niyyətləri naminə Vətənin, torpağın, xalqın taleyini hərraca qoyan siyasət dəllallarının xəyanətinin nəticəsi idi. Belə bir dövrdə cənab Heydər Əliyevin hər vəchlə siyasi hakimiyyətə yaxın buraxılmaması Azərbaycana çox baha başa gəldi.

Ancaq həmişə olduğu kimi, tarix yenə də öz sözünü dedi. Məlum həqiqətdir ki, Ulu Yaradan hər hansı xalqı, məmləkəti məhvə məhkum etməyibsə, müqəddəratının həll olunduğu məqamda ona həyan durur, xilaskar yetirir. Bu mənada Vaşinqton, Bismark, Atatürk, Nehru, Adenauer, de Qoll kimi dahi şəxsiyyətləri xatırlamaq kifayətdir. Belə dahilərdən biri də cənab Heydər Əliyevdir! Bunu bütün dünya bilir və deyir, amma min təəssüf ki, özümüzünkülərin bəziləri yenə də mayası məkrdən tutulmuş siyasi hikkələrini boğa bilmir, bu aşkar həqiqəti dərk etmək istəmir, yaxud da, sadəcə, buna qadir deyillər.

Bəli, XX əsrdə ikinci dəfə müstəqil dövlətini yaratmaq imkanı qazanmış, lakin faciələr girdabında çabalayan Azərbaycanın taleyində, tarixində yeni bir dövr, dönüş başladı. Bu həlledici dönüşün bünövrəsi 1993-cü ilin yayında cənab Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması ilə qoyuldu.

İyirminci yüzilliyin 80-ci illərinin axırı – 90-cı illərinin əvvəlində Azərbaycanda baş verən hadisələrə keçmiş İttifaq məkanında və ümumən

dünyada münasibətin necə olduğu çoxlarının yadındadır və əksəriyyətimiz o dövrün bilavasitə şahidiyik.

Cənab Heydər Əliyev Naxçıvandan Bakıya dəvət edildiyi və prezident səlahiyyətlərini həyata keçirdiyi, Ali Sovetin sədri olduğu ilk vaxtlardan başlayaraq, Ermənistanın Azərbaycana hərbi təcavüzünün davam etməsini, torpaqlarımızın işğal olunmasını dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bəyan edirdi. Bu baxımdan 1993-cü il iyulun 26-da BMT Təhlükəsizlik Şurasının sədrinə göndərilmiş, surəti isə BMT baş katibinə ünvanlanmış məktubu xatırlamaq kifayətdir: "Suveren Azərbaycan dövlətinin ərazicə parçalanmasına yönəldilmiş erməni təcavüzünün davam etdirilməsi və genişləndirilməsi nəticəsində ölkəmdə yaranmış gərgin vəziyyət məni bu məktubla Sizə müraciət etməyə vadar edir...

Dağlıq Qarabağı öz ərazisinə birləşdirmək haqqında xəyanətkar qərarlar qəbul edilməsində ifadəsini tapan siyasi təcavüzdən başlayan və sonra emissarlar, terrorçular və silahlar göndərilməsinə keçən Ermənistan bu gün Azərbaycan torpağında genişmiqyaslı hərbi əməliyyatlar aparır...

Dağlıq Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin Ermənistan Respublikasına tabe olmadıqları barədə erməni tərəfinin dedikləri tamamilə əsassızdır...".

Cənab Heydər Əliyev prezidentliyə başlayandan sonra ilk xarici səfərini 1993-cü ilin dekabrında Fransaya etdi. O vaxtkı Prezident Fransua Mitteranla aparılan danışıqların yekunlarına əsasən, ölkələrimiz arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı.

Dövlətimizin başçısının ilk səfərini məhz Fransaya etməsi heç də təsadüfi deyildi. Bunun səbəbini cənab Prezident dekabrın 21-də Parisdə mətbuat konfransında verdiyi bəyanatında çox aydın açıqlamışdır: "Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycan ilə Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur, Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələrin, ikitərəfli münasibətlərin gələcək inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir".

Fransanın dünyada güclü erməni diasporunun olduğu ölkələrdən biri olduğunu nəzərə alsaq, Azərbaycanın onunla əlaqələr yaratması, Avropada və ümumən dünya siyasətində böyük təsiri və rolu olan Fransada respublikamız haqqında həqiqətlərin yayılmasına nail olmaq çox vacib idi.

Azərbaycan Prezidenti Heydər Əliyevin sonra BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan daha iki ölkəyə – 1994-cü ilin fevralında Böyük Britaniyaya və mart ayında Çin Xalq Respublikasına rəsmi səfərlərini də bu baxımdan ayrıca vurğulamaq lazımdır. Həmin səfərlər zamanı yüksək səviyyədə aparılan danışıqların dövlətlərarası əlaqələrin inkişafı baxımından tarixi əhəmiyyəti məlumdur.

Lakin bu ölkələrin müxtəlif dairələrinin nümayəndələri ilə keçirilən görüşlərin Azərbaycanın təbliği, xalqımızın üzləşdiyi problemlər, ilk növbədə zorla cəlb olunduğumuz müharibə və bunun ağır nəticələri, ümumən ölkəmiz, onun zəngin təbii ehtiyatları, iqtisadi potensialı, xarici iş adamlarından ötrü sərmayə imkanları barədə geniş təsəvvür yaratmaq baxımından vacibliyi də diqqətdən yayınmamalıdır. Buna misal olaraq, möhtərəm Prezidentimizin Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında, Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışlarını, Pekində mətbuat konfransındakı bəyanatını, Pekin İctimai Elmlər Akademiyasında çıxışını göstərmək olar.

Qətiyyətlə deyə bilərik ki, bunlar adi protokol çıxışları deyil, müstəqillik yoluna çıxmış, çox ağır və mürəkkəb problemlərlə üzləşən, lakin gələcəyə böyük ümid və inam bəsləyən Azərbaycan haqqında hərtərəfli məlumat, dərin məzmunlu, güclü məntiqə və obyektiv faktlara söykənən klassik mühazirələr idi. Həmin çıxışlardan bir-iki məqama nəzər salaq: "Qarşınızda Azərbaycanın xəritəsi asılmışdır. Siz burada Azərbaycanı, onun sərhədlərini, Naxçıvan Muxtar Respublikasını aydın görürsünüz. 1923-cü ildən Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti mövcud olmuşdur. 1987-ci ilin axırlarında – 1988-ci ilin əvvəllərində Qarabağ münaqişəsi deyilən süni surətdə yaradılmış münaqişə baş vermişdir...

Erməni silahlı birləşmələri Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından çox kənarda Azərbaycan ərazisinin xeyli hissəsini də işğal etmişlər...

Hərbi əməliyyatlar nəticəsində 350 min nəfər əhalisi olan Naxçıvan Muxtar Respublikası tam blokada vəziyyətinə düşmüşdür...

Bütün bunlar Ermənistan tərəfindən aparılan təcavüzkar hərbi əməliyyatların nəticəsidir...

Müstəqil Azərbaycan dövlətinin məruz qaldığı bütün çətinliklərə baxmayaraq, indi daxili siyasi vəziyyət sabit, normaldır. Azərbaycanın ictimai potensialı çox genişdir... Sənayenin, demək olar, bütün sahələrində geniş imkanlara malikik, böyük istehsal fondlarımız var. Azərbaycan bütün ölkələrlə iqtisadi əməkdaşlıq üçün yaxşı ortaq ola bilər".

Bu fikirlər, xüsusən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ölkəmiz üçün ağır nəticələri bir neçə ay sonra, Prezident Heydər Əliyevin Brüsselə səfəri zamanı NATO Şurasının iclasındakı və Beynəlxalq mətbuat mərkəzində keçirilən mətbuat konfransındakı çıxışlarında da ətraflı bəyan edilmişdir.

Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışının ilk bir ili ərzindəki gecəli-gündüzlü gərgin zəhmətinin, o cümlədən gərgin diplomatik səylərinin bəhrəsi tezliklə özünü göstərdi. 1994-cü il sentyabrın 20-də, vaxtilə onun özünün tikdirdiyi "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı neft şirkətlə-ri arasında ilk müqavilə imzalandı. Dünyada çox böyük əks-səda doğuran və tezliklə "Əsrin müqaviləsi" adını alan bu sənədin imzalanması, iri neft şirkətlərinin ölkəmizlə iqtisadi əməkdaşlığa başlaması Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi və dönməzliyi, respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası yolunda Heydər Əliyevin diplomatiyasının ən böyük uğurlarından biri oldu, Azərbaycanın iqtisadi dirçəlişinin başlanğıcını qoydu.

Bu proses sonrakı illərdə daha da böyük vüsət almış, indiyədək Azərbaycan dünyanın 15 ölkəsinin 30 iri neft şirkəti ilə təxminən 60 milyard dollarlıq müqavilələr imzalamışdır. Bunların əksəriyyəti Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur.

Möhtərəm Prezidentimizin müəllifi olduğu yeni neft strategiyasının uğurla həyata keçirilməsinin bu gün üçün zirvəsi kimi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməlinin qoyulmasını xatırlamamaq olmaz.

Bütün bunları kimlərsə adi axarı ilə gedən dövlət siyasətinin nəticələri hesab edə bilər. Amma bu, əsla belə deyildir. Bundan ötrü daxildə icti-

mai-siyasi sabitlik yaratmaqla, ölkəni demokratik inkişaf, bazar iqtisadiyyatı yoluna çıxarmaqla yanaşı, dünyanı Azərbaycanda gedən bu proseslərə inandırmaq lazım idi. Bu isə hec də asan məsələ deyildi, turist, jurnalist kimi Azərbaycana gəlib-gedənlərin təəssüratları əsasında buna nail olmaq mümkün deyildi. Bunun yalnız və yalnız bir yolu vardı – ölkəmizin dünyaya açıq olduğunu, Azərbaycan həqiqətlərini beynəlxalq aləmə çatdırmaq, xarici iş adamlarını respublikamıza sərmayə qoymağın sərfəliliyinə inandırmaq. Mübaliğəsiz, birmənalı deyə bilərik ki, bunlara məhz cənab Heydər Əliyev nail ola bilərdi və nail oldu da.

Bir sözlə, möhtərəm Prezidentimizin BMT-nin, ATƏT-in yüksək tribunalarından etdiyi tarixi çıxışlarından tutmuş, çoxsaylı rəsmi və işgüzar səfərləri zamanı keçirdiyi görüşlər, apardığı danışıqlar yalnız bir məqsədə – Azərbaycanı dünyaya tanıtmağa, ölkəmiz haqqında əsl həqiqətləri, o cümlədən xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, nankor qonşularımızın təcavüzkar siyasətini, əzəli torpaqlarımıza əsassız iddialarını beynəlxalq miqyasda bəyan etməyə, dünyanı buna inandırmağa, müstəqil dövlətimizin dünya birliyində öz layiqli yerini tutmasına nail olmağa xidmət etmişdir. Dövlətimizin başçısı bu yolda heç kimin, o cümlədən bütünlükdə ölkəmizin təbliğat strukturlarının, kütləvi informasiya vasitələrinin görə bilmədikləri işi görmüşdür.

Yeri gəlmişkən, Azərbaycanın dünyaya tanıdılmasında respublikamızın kütləvi informasiya vasitələrinin müəyyən rolu da, ilk növbədə, Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əvvəla, dövlətimizin başçısı Azərbaycanda söz, fikir, mətbuat azadlığının təmin olunması üçün hər cür şərait yaratmışdır və KİV-lərə daim diqqət və qayğı göstərilir.

İkincisi, Azərbaycan Prezidenti KİV təmsilçilərini daim əsas problemlərə istiqamətləndirir, faktlara və hadisələrə obyektiv yanaşa bilmələri üçün dəyərli tövsiyələr verir. Birmənalı deməliyik ki, mətbuatla bağlılıq, jurnalistlərlə sıx ünsiyyətdə olmaq istəyi heç də bütün siyasətçilərə, dövlət xadimlərinə xas olan xüsusiyyət deyildir.

Prezident Heydər Əliyev isə bu baxımdan tamamilə fərqlənir. Müqayisə üçün keçmiş Sovet İttifaqı məkanını götürsək, elə bir dövlət başçısı yoxdur ki, jurnalistlər Heydər Əliyevlə olduğu qədər onunla

ünsiyyətdə olsunlar və ya buna can atsınlar. Bu mənada cəsarətlə deyə bilərik ki, dövlətimizin başçısı ilə daim ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları işıqlandıran Azərbaycan jurnalistləri həqiqətən yeni bir məktəb keçmişlər, Prezident Heydər Əliyevin jurnalistika məktəbində formalaşmışlar. Ona görə də dövlətimizin başçısının "Jurnalistlərin dostu" adına layiq görülməsi tamamilə təbii və qanunauyğundur.

Bu da öz bəhrəsini verməkdədir. İndi Azərbaycanın kütləvi informasiya vasitələrinin bir çoxu ölkəmizdə baş verən hadisələri ictimaiyyətə daha obyektiv çatdırmaqla yanaşı, müstəqil dövlətimizin dünyada tanıdılması, Azərbaycanın informasiya blokadasına məruz qalmaması üçün səmərəli fəaliyyət göstərir.

Prezident Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi böhrandan inkişaf yoluna çıxarılmasında, ölkəmizin beynəlxalq aləmdə tanınması və dünya birliyində layiqli yerini tutmasında misilsiz xidmətlərini, bir sözlə, zəmanəmizin ən qüdrətli siyasi və dövlət xadimlərindən biri olmasını dövlət başçıları, məşhur siyasətçilər, diplomatlar da səmimiyyətlə etiraf edirlər. Bu etiraflara çox misal çəkmək olar, lakin biz bu yazıda bir neçəsi ilə kifayətlənirik.

Birləşmiş Ştatların keçmiş Prezidenti Bill Klinton: "Azərbaycanın demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən bir müstəqil dövlət kimi möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və böyük inkişaf əldə etməsində Prezident Heydər Əliyevin müstəsna xidməti vardır".

Fransa Prezidenti Jak Şirak: "Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanı böyük gələcək gözləyir".

Ukrayna Prezidenti Leonid Kuçma: "Heydər Əliyev Cənubi Qafqaz regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyəti ilə artırmışdır. O, dünyamiqyaslı dövlət xadimidir".

Almaniyanın ölkəmizdəki keçmiş səfiri Frenk Lanbax: "Heydər Əliyevi yalnız kansler Adenauerlə müqayisə etmək olar".

Konqresmen Qreq Laflin (ABŞ): "Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur".

Almaniyanın Bakıdakı keçmiş səfiri Kristian Zibek: "Heydər Əliyev sözün həqiqi mənasında Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə,

ölkəni beynəlxalq aləmdə tanıtmağa və parlaq iqtisadi perspektivlər yaratmağa nail olmuşdur".

Xatırladaq ki, cənab Heydər Əliyevin qüdrətli şəxsiyyət, dövlət xadimi olmasını erməni şovinizminin ideoloqları da etiraf etməyə məcbur olmuşlar.

Akademik Georgi Şahnazarov: "Fəaliyyətini bu gün də izlədiyimiz Heydər Əliyevin işinin nəticəsini təhlil etməyə bir neçə institutun gücü çatmaz".

Ermənistan KP MK-nın sabiq şöbə müdiri Onikyan: "Əliyevi aradan götürə bilməməyimizin günahı bizdə deyil. Onun qurduğumuz tələyə düşməməsindədir. Heydər Əliyev məhv olmaq təhlükəsi qarşısında qalan Azərbaycanı yox, məhv olmuş Azərbaycanı yenidən həyata qaytardı".

Gevorq Kirakosyan (Daşnaksutyun partiyasının liderlərindən biri): "Heydər Əliyev Ermənistanla yanaşı, dünyada erməni lobbisini də sarsıtdı".

Bəli, düşmənlərimizin, necə deyərlər, dişləri bağırsaqlarını kəsə-kəsə söylədikləri bu fikirlər Prezident Heydər Əliyevin xidmətlərini, o cümlədən Azərbaycanı dünyaya tanıtmaq sahəsindəki misilsiz roluna bariz misallardır.

Danılmaz həqiqətdir ki, Azərbaycanı hələ ötən əsrin 70-ci illərindən etibarən geniş inkişaf yoluna çıxaran, 1993-cü ilin iyununda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da xarici və daxili düşmənlərin ölkəmizi parçalayıb yox etmək planlarının qarşısını alan, dövlətçiliyimizi xilas edən, iqtisadi böhranı aradan qaldıran və Azərbaycanın yüksəlişini təmin edən Heydər Əliyevin misilsiz xidmətləri sayəsində müstəqil respublikamız indi planetin hər yerində tanınır və o, dünya birliyində öz layiqli yerini tutmuşdur, beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, möhkəmlənir.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur.
Bakı, "Azərbaycan" nəşriyyatı, 2003-cü il.
Heydər Əliyev və AzərTAc. Bakı, "Nurlan", 2005-ci il.

Prezident Heydər Əliyevin jurnalistika dərsi

1875-ci ildə "Əkinçi" qəzetinin nəşrə başlaması mədəniyyət tariximizə əbədi həkk olunmuş böyük hadisələrdən biri idi. "Əkinçi" Azərbaycan üçün sadəcə qəzet deyildi, xalqın gələcəyinə tutulmuş nurlu çıraq idi. "Əkinçi"nin xidmətləri haqqında çox deyilib, çox yazılıb. Lakin Prezident Heydər Əliyevin imzaladığı "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Fərmandan bir məqamı xatırlatmaq kifayətdir: "Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın inkişafı üçün təməl daşları rolunu oynadı".

Mətbuatımızın rolunu, ilk növbədə, həmin prinsiplərə əməl etməkdə görən, daha dəqiq desək, mətbuatımızı, jurnalistləri daim bu işə istiqamətləndirən xalqımızın müdrik oğlu, görkəmli dövlət xadimi cənab Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə, xüsusən də müstəqil Azərbaycan dövlətinin Prezidenti kimi, 1993-cü ildən sonra özünəməxsus bir jurnalistika məktəbi yaratmışdır və Azərbaycan jurnalistlərinin böyük bir hissəsi bu məktəbdən dərs almışdır.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin jurnalistika məktəbi tarixi zərurətdən yaranmışdır. Çünki müasir dövrdə bütün dünyada kütləvi informasiya vasitələri hər bir cəmiyyətin həyatında son dərəcə mühüm rol oynayır. Ötən əsrin son onillikləri də daxil olmaqla, indi informasiya zəmanəsidir. Dünyada, hər bir cəmiyyətin, dövlətin həyatında gedən prosesləri kütləvi informasiya vasitələrinin fəal müdaxiləsindən, münasibətindən kənarda təsəvvür etmək mümkün deyildir.

Məhz buna görə də möhtərəm Prezidentimiz ölkəmizin, xalqımızın ən başlıca problemlərinə obyektiv mövqedən yanaşan, dövlətçiliyimizə xidmət edən, müstəqil Azərbaycanın həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilən mətbuatımızın olmasını arzulayır. Nəinki arzulayır, həm də bunun üçün real imkan, şərait yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyasının verdiyi hüquqları, kütləvi informasiya vasitələri

haqqında qanunu və nəhayət, ölkədə çıxan saysız-hesabsız və müxtəlif siyasi yönümlü mətbuat orqanlarını, sayı getdikcə artan özəl televiziya və radio kanallarını xatırlamaq kifayətdir. Tam qətiyyətlə demək lazımdır ki, bütün bunlar məhz Prezident Heydər Əliyevin xidmətləri sayəsində mümkün olmuşdur.

Belə bir cəhəti də vurğulamaq lazımdır ki, mətbuatla bağlılıq, jurnalistlərlə sıx ünsiyyət istəyi heç də bütün siyasətçilərə, dövlət xadimlərinə xas deyildir. Azərbaycan Prezidenti Heydər Əliyev isə bu baxımdan tamamilə fərqlənən dövlət başçılarından biri, daha doğrusu, birincisidir.

Uzağa getməyək, keçmiş SSRİ məkanında elə bir ölkə başçısı yoxdur ki, jurnalistlər Heydər Əliyevlə olduğu qədər onunla ünsiyyətə can atsınlar. Zənnimcə, hələ blokada şəraitində olan Naxçıvanda yaşayarkən keçmiş İttifaqın müxtəlif yerlərindən, habelə dünyanın bir sıra ölkələrindəki nüfüzlu mətbuat orqanlarının təmsilçilərinin, jurnalistlərin Heydər Əliyevlə görüşmək, ondan müsahibə almaq, cərəyan edən mürəkkəb hadisələr haqqında bu müdrik insanın fikirlərini öyrənmək üçün necə çətinliklərə qatlaşaraq oraya getdiklərini xatırlamaq kifayətdir. Cənab Heydər Əliyev ilə hər bir görüş, yaxın ünsiyyət, heç şübhəsiz ki, jurnalist üçün nəinki unudulmaz anlar, həm də söhbətin mövzusundan asılı olaraq hadisələrə, ətrafda baş verən proseslərə tamamilə yeni baxışdır.

Cəsarətlə deyə bilərik ki, son dövrdə, yəni 1993-cü ildən bəri dövlətimizin başçısı ilə müntəzəm ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları işıqlandıran Azərbaycan jurnalistləri, sözün həqiqi mənasında, yeni bir məktəb keçmiş, Prezident Heydər Əliyevin jurnalistika məktəbində formalaşmışlar. Bu, bir tərəfdən ölkəmizin müstəqilliyə qovuşmasının bəhrəsidirsə, ikinci tərəfdən və daha çox möhtərəm Prezidentin bilavasitə özünün mətbuata, jurnalistlərə göstərdiyi diqqətin nəticəsidir.

Çünki əksər dövlət başçılarından fərqli olaraq Heydər Əliyev müxtəlif tədbirlərdə, çoxsaylı xarici ölkə rəhbərləri, nümayəndə heyətləri ilə görüşlərdə kütləvi informasiya vasitələri nümayəndələrinin imkan daxilində ətraflı məlumat əldə edə bilmələri üçün lazımi şərait yaradır. Şübhəsiz ki, bu, jurnalistlərimizin məsələlərə daha yaxından bələd olması və yazılarını geniş təhlil əsasında hazırlaması baxımından çox vacibdir.

Jurnalistlərimizə göstərilən diqqətin, xoş münasibətin nəticəsidir ki, dövlətimizin başçısı ölkədə olmayanda onlar həqiqətən darıxırlar. Prezident Heydər Əliyev xarici səfərlərdən qayıdanda, hava şəraitindən, vaxtın gecliyindən asılı olmayaraq, jurnalistlərimizin böyük bir qrupu hava limanına yığışıb respublikamızın rəhbərini səbirsizliklə gözləyirlər.

Prezident Heydər Əliyevin jurnalistika məktəbinin daha bir xüsusiyyəti barədə. Peşəkar jurnalistlər, adətən, öz sualları ilə söhbətin məzmununu özləri istiqamətləndirirlər. İndiki şəraitdə isə bizdə jurnalistlərin əksəriyyətini peşə və həyat təcrübəsi az olan cavanlar təşkil etdiyinə, bəziləri isə müəyyən məsələlərdən baş çıxara bilmədiyinə görə söhbət zamanı Prezident özü onları istiqamətləndirir, hətta hansısa vacib məsələ barədə sual vermələrini xatırladır. Belə olan halda, adlarını jurnalist qoyan bəzi cızmaqaraçıların Prezidentin mətbuat nümayəndələrinə laqeydliyi, yalnız xarici jurnalistlərlə görüşməyə üstünlük verməsi barədə uydurmaları ən azı təəssüf doğurur.

Yeri gəlmişkən, dövlətimizin başçısının jurnalistlərə diqqətinin daha bir bariz nümunəsini xatırlatmaq istərdim. Aprelin 9-da Vaşinqtonda ABŞ Prezidenti Corc Buş ilə görüşdən sonra Prezident Heydər Əliyev Ağ evin qarşısında onu gözləyən jurnalistlərlə görüşüb onların suallarına cavab verdi. Ermənistan prezidenti isə jurnalistlərin gözünə görünmədən çıxıb getdi. Onu da deyək ki, bu, Amerika mətbuatının diqqətindən yayınmadı.

Azərbaycan Prezidenti jurnalistikamız, mətbuatımız qarşısında duran ən vacib məsələləri, xalqın, cəmiyyətin əksəriyyətinin qələm əhlindən nələr gözlədiyini zaman-zaman xatırladır. Bu, ilk növbədə dövlətimizin, xalqımızın taleyi, gələcəyi ilə bağlı məsələlərdir. İlk növbədə, müstəqil Azərbaycanın iqtisadi, siyasi, sosial problemlərindən, sərhədlərimizin toxunulmazlığının təmin olunmasından, ölkəmizin ərazi bütövlüyünün bərpasından, beynəlxalq aləmdə ölkəmizin demokratik imicinin formalaşmasına xidmətdən, xalqımızı, cəmiyyətimizi narahat edən digər məsələlərdən söhbət gedir.

Dövlətimizin başçısı müasir Azərbaycan ədəbiyyatının, publisistikasının vəzifələrindən bəhs edərkən gənclərimizin milli ruhda, Vətənə, müstəqil ölkəmizə sədaqət ruhunda tərbiyəsi, ana dilimizin saflığının qorunması, onu mükəmməl bilməyin vacibliyi kimi ümdə məsələləri də ön plana çəkir. Ona görə də ictimai-siyasi yönümündən asılı olmayaraq, respublikamızın

bütün kütləvi informasiya vasitələri bu tövsiyələrdən faydalanmalıdır. Əgər Prezidentimiz "biz dilimizi yaşatmışıq, nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın... ən böyük nailiyyətidir...

Xarici ölkələrin nümayəndələri... dəfələrlə mənə deyiblər ki, sizin nə qədər gözəl diliniz var. Bəlkə də biz öz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir!" – deyirsə və indi isə bəzi qəzetlərin bu gözəl dilimizi nə kökə saldıqlarını görürüksə, buna nə ad vermək olar?

Azərbaycan Prezidenti Heydər Əliyevin müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli, əhatəli nitqləri, ən yüksək səviyyədə apardığı danışıqları siyasi publisistikanın son dərəcə gözəl, təkrarsız nümunələridir. Bütün bunlar dönə-dönə nəzərdən keçirilməli, təhlil edilməli, diqqətlə öyrənilməlidir. İnamla demək olar ki, Heydər Əliyevin siyasi publisistikası bu gün də, 50-100 il bundan sonra da Azərbaycan jurnalistikası üçün əvəzsiz xəzinədir.

Dövlətimizin başçısı mətbuatımıza, jurnalistikaya münasibətini bayaq adını çəkdiyimiz görüşdə çox aydın açıqlamışdır: "Jurnalistikaya mənim hörmətimə, ehtiramıma şübhəniz olmasın.

Mən hesab edirəm ki, lap o qatı yalan yazan jurnalistlər də jurnalistdir – qoy olsun. Azərbaycanda belə bir ifadə var: "Zaman hər şeyi saf-çürük edəcəkdir". Kim bu imtahandan, rəqabətdən keçəcək, həqiqətən hörmətli bir jurnalist olacaqsa, olacaq. Kimsə bu yolu keçə bilməyəcək, – yəqin ki, özünə başqa peşə axtaracaq. Amma bu, ayrı-ayrı fərdlərə aiddir. Ümumiyyətlə isə, bu peşə çox vacib peşədir. Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir. Bu, mənim fikrimdir və mən bu fikrimi heç vaxt dəyişməyəcəyəm".

Əksər dövlət başçılarının KİV nümayəndələri ilə yaxın ünsiyyəti o qədər də xoşlamamasının, bəzilərinin isə hətta onlardan mümkün qədər uzaq olmağa çalışmasının canlı şahidi kimi deyə bilərəm ki, mətbuata bu dərəcədə məhrəm münasibət bəsləyən, həmişə doğru yol göstərən Prezidentimiz Heydər Əliyevlə biz jurnalistlər həmişə fəxr edirik.

Qısaca, sadaladığımız bütün bu məqamları ümumiləşdirib qətiyyətlə deyə bilərik ki, Prezident Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi

uzun illər ərzində diplomatiyadan tutmuş bir çox digər sahələrdə olduğu kimi, mətbuat, jurnalistika sahəsində də böyük bir məktəb yaratmışdır. Bu məktəbin qayəsi, amalı müstəqillik yolu ilə işıqlı gələcəyə doğru inamla irəliləyən Azərbaycanımıza sədaqətlə xidmət etmək, xalqımızın, Vətənimizin adını hər yerdə ucaltmaqdır.

Heydər Əliyev və AzərTAc.
Bakı, "Nurlan", 2005-ci il.

İqtisadiyyatsız siyasət yoxdur

Bizcə isə sosial ədalət sosializmin nə məhsuludur, nə də qalığı. Heç malı da olmayıb. Bundan beləsi necə olacaq, onu iqtidar göstərər. Amma görünür, bunu bir hücuma fəth etmək çətin olacaq. Çünki problemlər olduqca çoxdur. Onları həll etmək üçünsə bütün siyasi qüvvələr, cəmiyyətin bütün təbəqələri çəkici bir nöqtəyə vurmalıdır. Həmsöhbətimiz yaranmaqda olan Müstəqil Azərbaycan Partiyası təşkilat komitəsi sədrinin müavini, respublika Sahibkarlar və İcarədarlar İttifaqının vitse-prezidenti, iqtisadiyyat doktoru İbad Abbasovdur.

– *Təcrübə göstərir ki, respublikanı siyasətlə böhrandan çıxarmaq qeyri-mümkündür. Bizdə isə az qala hamı bu işlə məşğul olmaq istəyir. Partiyalaşma, təşkilatlanma, siyasətləşmə gedir. Hətta iqtisadçı alimlərimiz də bu prosesdə fəal iştirak edirlər. Bunun səbəbi nədir. İdeyalarımızın təəssübkeşlərini nə vadar edir ki, daha bir partiya yaratsınlar?*

– Respublikamız öz dövlət müstəqilliyini bərpa etdiyi bir dövrdə onu kəskin iqtisadi böhran bürümüşdür. Bəla burasındadır ki, bu böhran üfüqi və şaquli istiqamətdə xalq təsərrüfatının bütün sahələrini əhatə edir. Təsərrüfat mexanizmləri və iflic edilmiş istehsal kəskin surətdə tənəzzülə uğramışdır. Bu ilin ötən beş ayında sənaye üzrə ümumi məhsul istehsalı 23 faiz aşağı düşüb. Ayrı-ayrı məhsul istehsalının azalması 9,3 faizdən 83 faizə çatır. Hələlik tənəzzülü dayandıran heç bir mexanizm yoxdur.

Kənd təsərrüfatında da acınacaqlı vəziyyət yaranıb. Respublikamızın əkin sahələrinin təqribən üçdəbiri müharibə zonasındadır, yaxın rayonların ərazisində də demək olar ki, iş getmir. Bu dövrdə 57 min baş qaramal, 154,4 min baş qoyun, 1 milyon 3 min baş quş azalıb. Maddi-təminat sahəsində böyük gərginlik yaranıb. Söhbət açdığımız dövrdə, yəni cari ilin 5 ayı ərzində əhalinin pul gəliri 12,2 milyard manat olub ki, bu da ötən ilin müvafiq dövründəkindən 2,3 dəfə çoxdur. Lakin əldə edilən pul vəsaitinin təqribən 80 faizi istehlak üçün xərclənmişdir. Bu, o deməkdir ki, əhali ancaq sabaha çıxmaq, acından ölməmək üçün çalışır. Qaldı ki, iqtisadçıların siyasətə meyil etməsinə səbəb çox sadədir. İqtisadiyyat həyatın bazası, siyasət isə onun idarəolunmasıdır. Bir halda ki, həyatın bazasını yaratmağa çalışırsan, onun idarə olunmasından necə kənarda qalmaq olar? Fikrimcə,

siyasət reallığı görmək, ictimai-siyasi vəziyyətin analitik təhlilini vermək, hadisələri proqnozlaşdırmaq və mövcud şəraitdən optimal çıxış nöqtəsini tapmaq yolu ilə ictimai durumu idarə etmək vasitəsidir. Biz çoxpartiyalı sistemə hələ alışmamışıq. Təbii seçmə üsulu ilə sosial təbəqələr müxtəlif platformada birləşməlidirlər. Partiyaların çoxluğu qorxulu deyil. Qorxulu etnik qruplar zəminində partiyaların yaradılmasıdır. Bu, respublikanın ərazi bütövlüyünə xələl gətirə bilər.

Təsis dövründə olan partiyamız – Müstəqil Azərbaycan Partiyası Vətənçilik, Dövlətçilik prinsiplərinə əsaslanaraq, respublikamızda yaşayan bütün millətlərin, azsaylı xalqların nümayəndələrini özündə birləşdirmək fikrindədir. Bu, azsaylı xalqların varlığını inkar etmək deyildir. Biz azsaylı xalqların milli mənsubiyyətinə, dilinə xələl gətirmək fikrində də deyilik. Əksinə, onların inkişafının tərəfdarıyıq. Nəzərə almaq lazımdır ki, Azərbaycan respublikamızda yaşayan bütün millətlərin vətənidir. Yalnız onların birliyi Azərbaycanı parçalanıb məhv olmaqdan qurtara bilər.

– Vəziyyətdən, daha doğrusu, iqtisadi böhrandan çıxmaq üçün siz nə təklif edirsiniz?

– Yalnız və yalnız iqtisadi islahat. Qəti və ardıcıl islahat aparmaq yolu ilə mövcud qapalı iqtisadiyyatın çürümüş dairəsindən çıxmaq, bürokratiyanın buxovlarını sındırıb iqtisadi tərəqqini təmin etmək olar. Mülkiyyətə münasibəti köklü surətdə dəyişməsək, heç bir iqtisadi tərəqqi yoxdur. Lakin bu proses respublikamızda demək olar ki, getmir. Burada dövlət proqramının və lazımi normativ aktların olmaması, mövcud qanunların yüksək səviyyədə tərtib edilməsi, yəni həmin aktlarda əsas, prinsipial məsələlərin öz əksini tapmaması, bürokratik sistemin mənafeyi, əhalinin əhval-ruhiyyəsi, nəhayət, hamımızın yaralı yerimiz olan Qarabağ müharibəsi həlledici rol oynayır.

Hər bir müstəqil dövlətin özünəməxsus müstəqil iqtisadi siyasəti olmalıdır. Bu siyasət, hər şeydən əvvəl, milli iqtisadiyyatın dirçəlişinə və inkişafına yönəldilməlidir. Dövlət bu siyasəti həyata keçirmək üçün mükəmməl proqrama, düzgün taktikaya və strategiyaya malik olmalıdır. Bunlar isə hazırkı hakim qüvvələrdə müşahidə olunmur və deyəsən, onların bu sahədə, ümumiyyətlə, heç bir proqramları yoxdur.

İqtisadi islahatın keçirilməsi üçün birinci növbədə qanunlar toplusu lazımdır. Bütün prinsipial məsələlər tərəflərin qarşılıqlı mənafeyi, qanunun

icra mexanizmi, icra edənin konkret məsuliyyəti kimi vacib məsələlər burada öz əksini tapmalıdır.

– Hazırda iqtisadi islahatla bağlı üç dövlət komitəsi yaradılmışdır. Bizcə, bu komitələr islahatın aparılmasını sürətləndirməli, maneələri aradan qaldırmalı və nəhayət, sosial ədaləti bərpa etməlidir.

– İstərdim sualın əvvəlindən yox, axırından başlayım. Mülkiyyətin özləşdirilməsi və dövlətsizləşdirilməsində sosial ədalətin gözlənilməsi indi tez-tez işlənən populyar sözə çevrilmişdir. Mən deyərdim ki, bu, sosializmin bizə miras qoyub getdiyi ideologiyanın qalığıdır. Bir anlığa təsəvvür edin ki, respublikanın mülkiyyəti bölüşdürülüb qiymətli kağızlar vasitəsilə əhalinin hamısına paylanılıb. Sonradan onlar yenidən birləşib bir müəssisəni aldılar. Nəticə isə belədir: guya hamı bir səviyyədədir, eyni vaxtda varlanmalıdır. Təkrar edirəm, bu, sosializm ideologiyasının qalığıdır və o deməkdir ki, biz heç zaman varlanmayacağıq. Çünki bir mülkiyyətdə hamının payının olması onun lazımi istiqamətdə hərəkətinə imkan verməyəcəkdir. Hamı sahibkar olmaq istəyir. Bu yaxşı arzudur, lakin həyata keçən deyil. Çünki əgər hamı iş verəndirsə, bəs onda iş görən kim olacaq? O ki qaldı, islahatın aparılmasında Dövlət Əmlak Komitəsinin, Dövlət Torpaq Komitəsinin və inhisarçılığa qarşı mübarizə komitəsinin rolu, əlbəttə, bu, inkaredilməzdir. Məhz onlar özləşdirməni proqramlaşdırıb həyata keçirməlidirlər. Amma təəssüflə qeyd etməliyəm ki, yarandığından iki aydan çox keçməsinə baxmayaraq, nə Əmlak Komitəsinin, nə də Torpaq Komitəsinin fəaliyyəti nəzərə çarpmır. Məlum da deyil ki, bu komitələr nə işlə məşğuldurlar.

– Sahibkarlar, icarədarlar dövlətin iqtisadiyyata həddindən artıq müdaxiləsindən şikayətlənirlər. Bəziləri isə hələlik dövlətin üstün rolunu saxlamağı təklif edirlər. Respublikamızın indiki vəziyyətində xalqın mənafeyi baxımından ikinci münasibətə biz də tərəfdarıq...

– İqtisadiyyatı dövlət yox, qanunlar idarə etməlidir. Dövlətin isə bu sahədə mövqeyi yalnız vergi siyasətinə əsaslanmalıdır. O, iqtisadi idarəetmənin əsas dəstəyi olan vergi mexanizmi vasitəsilə inkişafa təsir etməlidir. Lakin respublikamızda vergi siyasəti kökündən səhvdir. Bu siyasət iqtisadiyyatın inkişafına yox, onun məhvinə yönəldilmişdir. Dünyanın heç bir ölkəsində istehsalçıdan bu qədər vergi alınmır. Təsəvvür edin ki bir manatlıq məhsuldan üç dəfə 28 faiz vergi alınarsa, o, istehlakçıya hansı

qiymətə çatdırılmalıdır. Maya dəyərinə müxtəlif adlar altında daxil edilən hesablamaları, əməkhaqqından tutulan çoxsaylı vergiləri nəzərə almasaq belə, bir manatlıq məhsulun maya dəyəri 50 faizə qədər vergilərlə şişirdilir. Həqiqətən də dövlət bu və ya digər formada iqtisadiyyata müntəzəm müdaxilə edir. Bu, yolverilməzdir. Respublikamızda biznesin, kommersiyanın və ümumiyyətlə sahibkarlığın fəaliyyəti, inkişafı üçün heç bir təminat və şərait yoxdur.

– Hakimiyyətdə olan qüvvə ilə müxalifət yolunu seçmisiniz. Bu, necə deyərlər, konstruktiv müxalifətdir, yoxsa qarşıdurmanın da siyasiləşməsi?

– Bu, hakimiyyətə gəlmiş AXC-nin tutduğu mövqe ilə bağlıdır. AXC ona göstərilən etimadı doğrultmur. Xalqda, xüsusilə ziyalılarda böyük ruh düşkünlüyü yaranıb. Lakin xalq bihuşdarının təsirindən çox tez ayılmalıdır. Çünki həyatında böyük sosial gərginlik, həllini gözləyən bir çox problemlər vardır. Bunları isə iqtidarda olan qüvvələr həll edə bilməz.

– Şərhinizdən belə çıxır ki, heç nə dəyişməyib. Amma insafən desək, tam kompleks şəkildə olmasa da, islahatlar həyata keçirilir, qanunların qəbulu nisbətən sürətlənib, qısa vaxtda müstəqilliyimiz yolunda müəyyən addımlar atılıb. Elə götürək milli pulumuzu?

– Manatın taleyi hamını maraqlandırır. İqtisadçılar bu haqda öz fikirlərini mətbuat səhifələrində bildiriblər. Fikirlər demək olar ki, eynidir. Mən də onlarla razıyam. Bir misal deyim: dollar ona görə dollar deyil ki, üstündə Vaşinqtonun şəkli var və yaxud rəngi yaşıla çalır. Dollarla hesablaşmaq məcburiyyətində ona görə qalırıq ki, arxasında yüksək texnologiya, dünya bazarında rəqabət aparan məhsul dayanır. Manatın arxasında isə bu yoxdur, onun taleyi müəmmalıdır. Manatın səmərəli dövretmə mexanizmi işə salınmalıdır. Bizdə isə hələlik belə mexanizm yaradılmayıb.

"Xalq qəzeti", 19 sentyabr 1992-ci il.

Cücəni payızda sayacağıq, qalsa...

Nə qədər desək də ki, siyasət və iqtisadiyyat bir-birindən ayrılmazdır, bir o qədər iqtisadiyyatı, siyasətə qurban veririk. Siyasət meydanındakı yenidənqurmalar özünü iqtisadi həyatda, xalqın güzəranında göstərir. Bahalıq, qıtlıq, sosial gərginlik saatbasaat artır. Allahın səxavətlə verdiyi, torpağımızın yetirdiyi, bizi bazar iqtisadiyyatı deyilən qıl körpüdən keçirə biləcək nemətlərə də xor baxırıq. Qışa hələ bir payız ömrü qalıb. Amma gündə bir qiymətə satılan çörək üçün növbələrə durmalı oluruq, bağ-bağatda mer-meyvənin çürüyən vaxtında bazarlar, piştaxtalar od tutub yanır, qəbul məntəqələrində ötənilki pambıq kif atır, builki isə ağzı qışadır.

İlin çoxu gedib, azı qalıb. Az-çox, pis-yaxşı nə işləmişiksə, barını payızdan gözləyirik. Necə deyərlər, cücəni payızda sayarlar. Respublikada kənd təsərrüfatı işlərinin gedişi ilə qiyabi tanışlıqdan bilirdik ki, bu payız ötənilkindən heç də yaxşılığına görə fərqlənmir. Əksinə, qızıl qiymətinə olan pambığın yığımı ya havadan, ya davadan, ya da tənbəllikdən gecikir. Deməli, torpağın əkinə hazırlanmasından tutmuş becərilməsinə, yığıma qədər bütün tədbirlər vaxtında və keyfiyyətlə həyata keçirilməyib. Bəri başdan yüz min tonlarla pambıq artıq itirilib.

Respublika Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi Pambıq İstehsalı İdarəsinin şöbə rəisi Yusif Əliyevdən tutarlı bir fakt ala bilmədik. Çox ehtiyatla, bir az da ütülü cümlələrlə vəziyyəti, onun səbəblərini yalnız belə izah etdi:

– Aprel-may aylarında yağan leysan yağışlar, sel suları çiyid səpinini gecikdirdi. Sonralar pambığın becərilməsinin əsas dövründə havalar soyuq keçdi. Faydalı istilik temperaturu normadan az olduğu üçün kolların inkişafı əvvəlki ilə nisbətən 12-14 gün, təkrar səpin aparılmış sahələrdə isə 15-17 gün gecikdi. Bundan başqa, respublikanın bir neçə rayonunun təsərrüfatlarında aqrotexniki və təchizat tədbirləri vaxtında görülməyib.

Geriliyi aradan qaldırmaq üçün nazirliyin mərkəzi aparatında rəhbər işçilərdən və mütəxəssislərdən operativ qərargah yaradılıb. Qərargahın vəzifəsi gündəlik pambıq yığımının gedişini təhlil etmək, geri qalan rayon və təsərrüfatların işinə kömək göstərməkdir. Məhsulun satınalma qiymətləri keçən illə müqayisədə 7-8 dəfə artırılıb. Həmçinin nəzərdə tutu-

lub ki, zavodlarda emal edilmiş xam pambığın gəlirinin yarısı təsərrüfatlara qaytarılsın. Beləliklə, cari ildə dövlət sifarişi əsasında təhvil veriləcək xam pambıqdan təsərrüfatlara 10 milyard rubldan çox vəsait daxil olacaq. Bu il pambıq yığımının gecikməsini və qarşıdakı gərginliyi nəzərə alaraq keçən ilə nisbətən maşınlarla 70 min ton artıq, cəmi isə 320 min ton məhsul yığılması nəzərdə tutulub. Bu məqsədlə maşınla yığıma hər cür texniki şərait yaradılıb.

Sentyabrın 8-də Sabirabad rayonunda pambıqçılıq rayonları rəhbərlərinin, təsərrüfat başçılarının, mütəxəssislərin iştirakı ilə keçirilən geniş kollegiya iclasında nəzərdə tutulmuşdur ki, məhsulun 65-70 faizi sentyabrda, qalanı oktyabrın 20-dək yığılıb təhvil verilsin.

Üzüm plantasiyalarında isə yığımın gərgin çağıdır. Hər il bu günlər az qala su qiymətinə satılan üzümün indi kiloqramı 20-25 rubldan aşağı düşmür. Məhsul boldur. Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin şənbə-bazar günləri təşkil etdiyi yarmarkaları istisna etsək, üzümün qiyməti azalmaqdansa artır. Hətta nazirliyin üzümçülük idarəsində bizə dedilər ki, qiymətin aşağı düşəcəyini gözləməyin. Niyə? Məlum oldu ki, emal müəssisələri ilə kolxoz və sovxozlar arasındakı uzunillik çəkişmələr, nəhayət, alıcıların ziyanına həll olunub. İndi məhsul təsərrüfatlardan daha baha qiymətə alınır. Hətta onun daşınma xərci də ödənir, üstəlik zavodun üzümdən əldə edəcəyi gəlirin 50 faizi istehsalçılara veriləcək. Belə olan halda heç kəs əziyyət çəkib, yeşik axtarıb, yanacaq sərf edib, məhsul çeşidləyib, saatlarla yol gəlib şəhər bazarında xərci borcunu ödəməyən mal satmağa maraq göstərmir.

Ələ keçən nə varsa, yaxınlıqdakı emal müəssisələrində "üyüdülür". Bakının küçə və meydanlarında, bazarlarında satılan "Kardinal" sortlu məhsulu isə fərasətli işbazlar öz xərcləri hesabına gedib yerindən – kolxoz və sovxozlardan ucuz qiymətə alıb gətirirlər. "Kardinal"ın Azərbaycanda müştərisi (növləri ayırd edə bilməyən şəhər əhalisini çıxmaq şərti ilə) çox azdır. Vaxtilə şimallı qardaşlarımızın istəyinə görə sahələri genişləndirilən bu üzüm indi nə kənara göndərilir, nə də bizdə həvəslə alınır. Hər il MDB respublikalarına 200 mni ton məhsul göndərilirdisə, bu mövsümdə 10 min ton həddində dayanmışıq. Müqavilə bağlansa da, pulu ödənilmədiyi üçün kənara hələ bir qram üzüm göndərilməyib.

Başqa bir səbəb ticarət təşkilatları ilə bağlıdır. Əvvəllər həm istehsalçı, həm də satıcı bir təşkilata tabe idi. İndi Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi məhsulu gətirib Ticarət Nazirliyinə təhvil verir. Ticarətçilər hər kiloqram üzümə 6-7 rubl qiymət qoyub daha baha satırlar. Halbuki bir kiloqram üzüm təsərrüfatlara 8, hətta 10 rubla başa gəlir.

Təsərrüfatlardan məhsul zavodlara axır, ticarət öz xeyrini güdür, qiyməti alverçilər təyin edir, başqa respublikalardan işbazlar nemətlərimizə daraşır, istədikləri qədər istənilən qiymətə yığıb-yığışdırıb aparırlar. Kimdir günahkar? Maaşını yol xərcinə, çörəyə güclə çatdıran camaat, bu camaat hesabına qaz vurub-qazan dolduran nazirlik və təsərrüfatların ixtiyar sahibləri, zəhmətinin əvəzini uman kəndli, yoxsa cibi boş əhalini bazara qovan, qiymət oyunbazlığı ilə məşğul olub, əslində heç bir real, əməli tədbir görməyən, xalqı dilənçi vəziyyətindən çıxarmağa qadir olmayan dövlət?

Keçən mövsümdə 936 min ton üzüm yığılıb. Bu il 1 milyon ton məhsul təhvil verilməsi planlaşdırılıb. Sentyabrın birinci ongünlüyü başa çatıb, cəmi 20 min ton, ötən ildəkindən təxminən iki dəfə az üzüm yığılıb...

Taxılçılar yır-yığış edirlər. Söhbət açdığımız hər bir təsərrüfat sahəsindən fərqli olaraq, burada vəziyyət elə bir ciddi narahatlıq doğurmur. Əlbəttə, nəzərə alsaq ki, bütün göstəricilər yalnız ötən ildəkilərlə müqayisə olunur, sevinməyinə dəyməz. Axı, ötən il taxılçılarımız 1 milyon 500 min ton əvəzinə 1 milyon 330 min ton (90 min tonunu Dağlıq Qarabağ verməyib) məhsul istehsal etmişdi ki, bunun özü respublikanın tələbatının çox cüzi hissəsidir. Sentyabrın 8-nə olan məlumata görə, zəmilərdən 1 milyon 294 min ton taxıl biçilib. Bu da ötən ilin müvafiq dövründəkindən 71 min ton çoxdur. Həm də söhbət bütövlükdə dənli bitkilərdən (qarğıdalı, çəltik və s.) yox, yalnız buğda və arpadan gedir. Dövlətə taxıl satışı da ötən ildəkindən 7 min ton çoxdur. Cəmi 291 min 334 ton məhsul satılıb. Plan isə 321 min tondur. Bir daha nəzərinizə çatdırırıq ki, bu, sentyabrın 8-nə olan məlumatdır.. Yəqin ki, satış planı artıq yerinə yetirilib. Bir fərqli cəhəti də qeyd edək ki, payızda taxıl əkini sahələri 110,4 min hektar artırılacaq.

Bu, artıq gələn ilin söhbətidir və məsələyə bir az işgüzarcasına yanaşsaq etiraf etməli olarıq ki, nə sahə artımı ən ağıllı çıxış yoludur, nə də yetişəni yığmaq, həm də itirə-itirə, batıra-batıra yığmaq fərasətdir. Respublika əhalisinin taxıl məhsullarına, heyvandarlığın texniki taxılçılığa tələbatını

yaxın illərdə müəyyən qədər ödəmək üçün elə indidən – əl-ayaq soyumamış işə girişməli, hər hektarın məhsuldarlığını artırmaq üçün aqrotexniki tədbirlərdən, gübrələrdən, özünü doğrultmuş dünya təcrübəsindən, texniki vasitələrdən, adamların qüvvə və bacarığından səmərəli, əsl təsərrüfatçı kimi istifadəni öyrənməliyik.

Bununla biz onsuz da az olan münbit torpaqlarımızda növbəli əkinçiliyi genişləndirər, digər kənd təsərrüfatı məhsullarına tələbatımızı ödəyər, qiymətli torpağımızı dirildər və nəhayət, müstəqilliyimizin ən başlıca atributu sayılan iqtisadi qüdrətimizə, iqtisadi müstəqilliyə bu sarıdan təminat verərik.

Sözardı: Qəribə də olsa, yanacaq qıtdır, texnika azlıq edir, ehtiyat hissələri çatmır, kimi dərddən, kimi kefdən, kimi də elə çəkdiyi zəhmətin layiqincə qiymətləndirilmədiyini gördüyü üçün işləmir. Kənd həyati boşalıb. Kəndli az da olsa, baha da olsa, talon üzü görmür. Erməni təcavüzü, daxili çəkişmələr, vəzifə, mafiya, əqidə davaları camaatı işdən-gücdən qoyub. Bayaqdan hər şey heç kimin idi, indi hər kəs hər şeyi qamarlamağa çalışır. Bunların hamısını bilirik. Amma başa düşmədiyimiz bircə şey var: niyə özümüzə, torpağımıza, taleyimizə bu qədər amansız və soyuqqanlıyıq? Niyə başa düşmürük ki, bu gəmi batsa nə nazir qurtara biləcək, nə kolxozçu, nə də fermer. Vaxtilə kənd təsərrüfatının belə həlledici sahələrində və dövrlərində bütün respublika əhalisi, nazirliklər, yerli idarəetmə orqanları bir ovuc adamın rifahı üçün səfərbər edilirdi. İndi də nə olar, özümüz üçün birləşək, iş görək.

"Xalq qəzeti", 12 sentyabr 1992-ci il.

Yollar, a yollar...

Bakının yol dərdindən çox yazılıb. Heç bir paytaxt şəhərində belə nahamar, "yamaqlı" yola rast gəlməzsən. Yol çəkilişi, küçələrin abadlaşdırılması üçün nə lazımdırsa, təbiət bizdən əsirgəməyib. Bəs qonaq-qara qabağına çıxarılası yolumuz niyə yoxdur. Bir halda ki, Bakının yolları bu gündədir, başqa bölgələrimizdən danışmağa dəyərmi? Redaksiyamıza məktub yazan, zəng vuran oxucularımızı narahat edən bu sualları açıqlamağı Bakı Şəhər Yol Təmiri və Tikintisi Baş İstehsalat İdarəsinin müdiri Əli Əliyevdən xahiş etdik.

Belə bir ifadəni tez-tez işlədirlər: "Yol təsərrüfatı". Əgər yollar təsərrüfatdırsa, onların çəkilişi, istismarı və istifadəsi ilə bir təşkilat məşğul olmalıdır, ya yox? Kəsəsi, yolların sahibi olmalıdır. Şəhərimizdə yolların tikintisi, abadlaşdırılması və istismarı ilə bizim idarə məşğuldur. Hüquqi baxıımdan bu, belədir. Ancaq məsələyə əməli mövqedən yanaşsaq, qarşıya bir sıra problemlər çıxır ki, onların həlli idarəmizin imkanı xaricindədir. Əvvələn, şəhər gündən-günə böyüyür. Deməli, yollar da çoxalır. Ayrılan xərclər isə 10-15 il bundan əvvəlki səviyyədə qalır.

– Heç 10-15 il əvvəl də Bakıda öyünməli, nümunə göstərməli yol olmayıb. Bu gün asfalt döşənmiş yolun sabah ekskavatorlar altını üstünə çevirib. Baxın, bir küçəni, prospekti nə qədər qazmaq olar? Dərd burasındadır ki, qazılan küçələr, aylarla, illərlə bərpa edilmir.

– Nə qədər ki, idarələrin özbaşınalığına, məsuliyyətsizliyinə son qoyulmayıb, belə də olacaq. Bakının telefon, işıq, qaz, su və digər xidmətləri küçələri, səkiləri istədikləri vaxt, istədikləri kimi qazıb bərbad hala salır, beləcə də qoyub gedirlər. Qayda belədir ki, hər hansı küçədə qazıntı aparılarkən bizdən rəsmi icazə alınmalıdır. Amma baxan kimdir?...

– Gəlin problemə reallıq mövqeyindən yanaşaq, axı təzə salınan küçə və yollar da yaxşı vəziyyətdə deyil.

– Yol tikintisində köhnə maşın və mexanizmdən, keyfiyyətsiz asfalt qatışığından istifadə edilirsə, hansı abad yoldan söhbət gedə bilər? Asfalt üçün əsas komponent olan bitumun keyfiyyəti son dərəcə aşağıdır. Çünki 50 il bundan əvvəl tikilmiş qurğuda istehsal olunur. Vaxtilə Abşeron nefti qurudan çıxarılırdı və tərkibində parafin, kükürd az olduğu üçün

bitumun keyfiyyəti yüksək idi. İndi həmin qurğuda, əsasən Sibir və dəniz nefti emal olunur. Xammalın tərkibi dəyişib, texnologiya isə əvvəlki kimi qalır. Yaxud götürək asfalt-beton zavodlarını. Bu müəssisələr də dədə-baba üsulu ilə işləyir.

– Əli müəllim, sizi bir mütəxəssis kimi müasir texnologiyalar, məhsuldar texnika düşündürür. Amma bakılıları bu düşündürür ki, yol çəkilişi üçün hər bir xammalı – çınqılı, qumu, bitumu, az-çox texnikası olan paytaxt küçələri dilənçi şalvarı kimi min yerdən yamaqlıdır.

– Bayaq dediniz ki, məsələyə reallıqla yanaşaq. Bunun üçün bir müqayisə aparmaq yerinə düşər. Bakıda yolların uzunluğu Tbilisidəkindən 2,5 dəfə çox olsa da, biz iki dəfə az bitum alırıq. Özümüzdə böyük ehtiyac ola-ola uzun illər bitum kənara satılırdı. Yəqin ki, hər bir sərvətə sahib olmağımızla öyünməyimizin əbəsliyini hiss etdiniz. Yəni hər şeyimiz var, həm də heç nəyimiz yoxdur. Fikrimi bitumun hazırlanması texnologiyası ilə əsaslandırmağa çalışacağam. Bakıda yay çox isti keçir. 30-35 dərəcə temperaturda əriyib yumşalan bitum qarışıq asfalt nəqliyyatın hərəkətindən deformasiyaya uğrayır. Yollarda çala-çuxur yaranır. Halbuki bitum normaya görə 41-51 dərəcədə əriməlidir. İndi yeni "BND" markalı istiyədavamlı bitum istehsalı qaydaya salınmışdır. Yəqin ki, bundan sonra yol örtüyünün dözümlülüyü artacaqdır.

– Təkcə yol örtüyünün keyfiyyətini yaxşılaşdırmaqla vəziyyət düzəlməyəcəkdir. Müasir texnika, güclü asfaltbasan maşınlar lazım olacaq. Bunlar isə böyük xərc tələb edir.

– Yollarımızın bu günə qalması əslində, "böyük xərc"lərdən çəkinməyimizin nəticəsidir. Gec də olsa, səhvimizi dərk etməyə başlamışıq. Almaniyadan alınıb gətirilmiş "Remikser" markalı qurğuların köməyi ilə son bir ildə təqribən 25 kilometr yolun örtüyü yüksək səviyyədə bərpa edilib. İndi şəhərin baş magistrallarından biri – Tbilisi prospekti əsaslı təmir edilir. Bakı-Maştağa magistralının, Yeni Günəşli yaşayış sahəsi ilə şəhərin mərkəzini birləşdirən Babək prospektinin çəkilişində işləri xeyli canlandırmaq mümkün olmuşdur.

Bakının yeni aeroportunun uçuş zolağının tikintisi üçün Almaniyanın "Virtgen" firmasından güclü asfalt-beton zavodu alınacaq. Uçuş zolağı istifadəyə verildikdən sonra saatda 200 ton asfalt qatışığı hazırlayan bu

zavodun məhsulundan şəhər yollarının çəkilməsində və təmirində istifadə olunacaq. Təbii ki, işin həcminin artması yol tikintisi ilə məşğul olan bütün xidmətləri vəsait çatışmazlığı ilə üz-üzə qoyacaq. Bu barədə indidən fikirləşmək lazımdır.

– İncimıəyin, təsərrüfat başçılarından kimi dindirirsənsə vəsait azlığından gileylənir. Axı, müəyyən imkanlar, ehtiyatlar var. Büdcə ayırmalarını nəzərə almasaq, idarə və təşkilatlardan, fərdi avtomobil sahiblərindən hər il tutulan rüsumlar az məbləğ deyil. Bəs, bunlar hara xərclənir.

– Uzun illərdir ki, həmin vəsait "Azəravtoyol" birliyinin hesabına keçirilirdi. Bu birlik isə, rayonlarda yol tikintisi və təmiri ilə məşğuldur. Bizim idarə indiyədək həmin vəsaitin bir qəpiyinin də üzünü görməyib. Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi respublika Nazirlər Kabineti qarşısında belə bir vəsatət qaldırıb ki, şəhərdə yerləşən və şəhər yollarından istifadə edən idarələr, təşkilatlar və müəssisələr gördükləri iş həcminin 0,4 faizi və gəlirlərinin 2 faizini idarəmizin hesabına keçirsinlər.

"Xalq qəzeti", 3 sentyabr 1992-ci il.

Qaradağ neftçilərindən Qarabağ döyüşçülərinə

Əslində bu yazıda Bakının qədim neft rayonlarından biri olan Qaradağ mədənçilərinin timsalında Azərbaycan neftinin problemlərini araşdırmaq niyyətində idik. Ancaq təsadüf bizi bu gün üçün vacib olan başqa bir mövzunu qələmə almağa məcbur etdi. İdarənin rəisi, Azərbaycanın xalq deputatı Kərim Kərimovun işin qızğın çağında neftçilərin himayəyə götürdüyü qaçqın ailələrə baş çəkməyə getdiyini eşidəndə cəbhə xəttində bir döyüşçünün "Qarabağ döyüşçüləri Qaradağ neftçilərindən yerdən-göyə qədər razıdırlar" sözləri yadımıza düşdü. Elə rəislə söhbətə də həmin yöndən körpü saldıq.

– Çətin məqamlarda gecəni gündüzə qatıb işləmək, öz dərd-sərini unudub el qayğısı çəkmək Bakı neftçilərinin köhnə ənənələrindəndir...

– Beş ildir ki, xalqımız azğın düşmənlə çarpışır. Vicdanı olan belə məqamda yaxasını kənara çəkə bilərmi?

Neftçilərimizi Qarabağa, düşmənə qan udduran oğullarımıza baş çəkməyə, yardım göstərməyə sövq eləyən də budur. Qarabağ münaqişəsi başlanan gündən bir ayağımız bu bölgədədir. Ermənilər Xankəndidə mitinqlər keçirib, "miatsum" bağıranda neftçilərimiz keçmiş Hadrut rayonunun Axullu kəndində orta məktəb binası tikdirir, artezian quyuları üçün borular, ərzaq məhsulları aparırdılar.

– İndicə qaçqınlara baş çəkib qayıtmısınız. Respublikamızın çiynindəki bu ağır yük onsuz da problemləri çox olan kollektivinizi əzmir ki?

– Bilirsiniz, evindən-eşiyindən, yurdundan didərgin düşən, qəlbi sınıq adamlara kömək göstərib, sonra bütün respublikaya car çəkməyi və yaxud problemləri əldə bayraq eləməyi məqbul saymıram. Bu cür ailələr olduqca çoxdur. Onlara biz əl tutmasaq, kim arxa duracaq? Əslində bu işdə bütün xalq iştirak edir. Bununla əlaqədar respublikada müxtəlif cəmiyyətlər, təşkilatlar da fəaliyyət göstərirlər. Lakin yeri gəlmişkən, mən də Qarabağ Nicat Cəmiyyətinin bu sahədəki işini müsbət qiymətləndirirəm. O ki qaldı bizim kollektivə, nəyə gücü çatıbsa eləyib. Məsələn, Malıbəyli qaçqınlarına 200 dəst yorğan-döşək, xocalılılara 26 min manat pul, 3 ton un, 3 ton düyü, 200 kiloqram ət, Quşçular kəndindən gələnlərə 11 min manatlıq qab-qacaq vermişik. İdarəmizin işçiləri Xocalı faciəsində həlak olanların Yev-

laxda keçirilən ehsanında iştirak edərək hər bir ailəyə min manat yardım ediblər. Laçından olan 23 ailənin hərəsinə 200 manat yardım göstərilib. Onların yaşadığı yataqxananın təmirində iştirak etmişik. Kərkicahanlı Bəhmən Qurbanovun, həmçinin idarəmizin yataqxanasında yaşayan 40 ailənin bütün ehtiyacını ödəməyə çalışırıq. 7 nəfəri şəhər qeydiyyatı olmasa da işə götürmüşük. 13 qadının başqa müəssisələrdə işlə təmin olunması ilə məşğuluq. Kollektivimizin üzvləri dəfərlərlə öz əməkhaqlarının müəyyən hissəsini ayrı-ayrı fondlara, o cümlədən milli müdafiə fonduna köçürüblər. Tez-tez şəhər xəstəxanalarındakı yaralılara baş çəkirik. Əlbəttə, qaçqınların dərd-səri müqabilində bunlar azdır. Amma nə edəsən, neftçilər də hələ üstündə oturduqları xəzinənin tam sahibi deyillər...

– *Doğrudan da xəzinə üstündə oturmusunuz. Nefti nahaq yerə "qara qızıl" adlandırmırlar. İndi nəinki qaçqınlar, iqtisadiyyatı böhran keçirən respublikamız da siz neftçilərdən daha çox kömək umur. Bu sərvətin hesabına dünyanın varlı məmləkətlərinə çevrilən ölkələr az deyil.*

– Mən saç-saqqalımı neft buruqlarında ağartmışam. Vaxtilə 150-200 metr dərinlikdən fontan vuran yataqları indi beş min, altı min metr dərinliyində qazmaq lazım gəlir. Layların istismar rejiminin pozulması quruda neft hasilatının kəskin surətdə aşağı düşməsinə səbəb olmuşdur. Yataqlarımızda istismar işləri çox çətinləşmişdir. Problemlər siyahısına texnologiyanın və avadanlığın köhnəlməsini, keçmiş mərkəzin Azərbaycanda sənayenin bu sahəsi üçün çox cüzi vəsait ayırmasını da əlavə etsək, vəziyyətin dözülməzliyi barədə yəqin ki, müəyyən təsəvvür yaranar.

Dərd birdirmi, ikidirmi, hansını deyəsən? Keçmiş İttifaqın neft sənayesi üçün avadanlığın 70 faizi Bakının maşınqayırma zavodlarında hazırlansa da, dünyanın bir çox ölkələrinə bu texnika ixrac edilsə də həmişə mərkəzin əlinə göz dikmişik. Bu səbəblər üzündən neftçıxarma sənayemiz elə bərbad vəziyyətə düşüb ki, onu dirçəltmək, neftçi əməyinin nüfuzunu qaytarmaq üçün çox əziyyət çəkmək lazım gələcək.

– *Söhbətinizdə ümidsizlik duyulur.*

– Mən belə deməzdim. 70-ci illərdə neft sənayesi nazirliyini ləğv edib birliklər formasında strukturlar yaradıldı. İstehsal sahələrinə neftçıxarmanın perspektivlərini görə bilən mütəxəssislər deyil, praktik təcrübəyə malik azsavadlı ustalar rəhbər vəzifələrə təyin edildi. Çətin peşə sahibi olan

neftçinin sosial müdafiəsi unuduldu. Elə o vaxt mən sahənin bu cür böhranla üzləşəcəyini duyub, fəryad qoparanda səsim eşidilmədi. Nəyə görə yayın istisində, qışın şaxtasında açıq havada minbir əziyyətə düçar olan mədənçi çıxardığı nefti dəyər-dəyməzinə neftayırma müəssisəsinə versin, neftayıranlar da onu hazır məhsula çevirib valyuta qazansın. Hər ikisi eyni təşkilatın tabeliyində olsa bu cür ədalətsizlik baş verməz, neftçıxarmanın inkişafı üçün vəsait çatışmazlığı aradan qalxar, neftçilərin əməyinin dəyəri lazımınca ödənər. Yoxsa indiki kimi, biri əziyyət yiyəsidir, digəri qazanc.

– Belə başa düşdük ki, siz böhrandan çıxış yolunu neft sənayesi nazirliyinin yaradılmasında görürsünüz?

– Bu, mühüm şərtlərdən biridir. Amma digər həlli vacib problemlər də var. Məsələn, xam neftin satış qiyməti hökmən dünya bazarındakı qiymətlər səviyyəsinə qaldırılmalıdır. Sahənin inkişafına xarici kapital qoyuluşu artırılmalıdır. Əldə edilən gəlirin 25-30 faizi yüksək ixtisaslı milli kadr ehtiyatının yaradılmasına yönəldilməlidir. Bakının maşınqayırma müəssisələrində buraxılan neft-mədən avadanlığının texnoloji parametrləri və keyfiyyəti dünya standartları səviyyəsinə çatdırılmasa, neft hasilatını artırmaq yenə də arzu olaraq qalacaq.

"Xalq qəzeti", 24 iyul 1992-ci il.

Ölümünə inanmıram

Azadlıq və müstəqilliyimizin müharibə içindən keçən müqəddəs yolundakı şəhidlərimiz arasında nisgilimizin, ağrılarımızın baiskarının gülləsinə qələmi, sözü ilə sinə gərənlərimiz də var. Görünür, dərdin də insan üçün olduğunu dərk edib Salatının, Osmanın, Alının, Çingizin, Kazımağanın ölümünə dözə bilirik. Təsəllimiz odur ki, onların yeri təkcə qələm əhlinin yox, yeddi milyonluq xalqın ürəyindədir.

...Kazımağa Bakıya Qubadlının Sarıyataq obasından gəlmişdi. BDU-nun jurnalistika fakültəsinə eyni vaxtda daxil olmuşduq. Hələ birinci kursu bitirəndə nəinki fakültəmizin, hətta universitetin, demək olar ki, əksər tələbələri onu tanıyırdı.

O, sözün həqiqi mənasında, elə bil doğulduğu kəndin bütün odunu sinəsinə yığıb Bakıya çatdırmışdı ki, ondan hamıya pay versin, adamları isindirsin. Yaşadığımız 3 nömrəli yataqxanada onun otağı həmişə qonaqlı-qaralı olardı.

Tələbə yoldaşlarımızın yadındadır ki, Kazımağa ilk baxışda sakit görünsə də, daxilən qızğın adam idi. Ən xırda haqsızlığa belə üsyan edirdi. Qrupumuzun ağsaqqallarından biri kimi yeri gələndə onunla məsləhətləşirdik. Tələbəlik illərində Kazımağanın Goranboyla elə bir əlaqəsi yox idi. Universiteti bitirəndən sonra "Azərbaycan məktəbi" jurnalında işə düzəldi. Lakin vaxtaşırı görüşlərimizdə özünün dediyi kimi, şəhər sanki onu sıxır, addımbaşı qarşılaşdığı bürokratik əngəllər, qayğısızlıq, laqeydlik ona əzab verirdi. Bəlkə də taleyin hökmü idi ki, Bakıda hər şeyi atıb Goranboya getdi.

Axırıncı dəfə onunla görüşəndə hərbi paltarda idi. Özünəməxsus istiqanlılıqla qucaqladı məni. Geyiminə baxdığımı duyub "Bu daşnaklara qələm, söz kar eləyən deyil, qardaş, keçmişəm silaha" – dedi. Öyrəndim ki, batalyon komandirinin müavinidir. "Darıxma, qələbəyə az qalıb, gələcəyəm dərdləşəcəyik" – deyib ayrıldı.

Vətən, torpaq uğrunda şəhid oldu Kazımağa. Şəhidlər xiyabanına xalq qəhrəmanı kimi gəldi. Dəfələrlə gedib qəbrini gözlərimlə görsəm də, ölümünə inana bilmirəm.

"Xalq qəzeti", 22 iyul 1992-ci il.

Artan növbələr, dolu vaqonlar və yenə də gileylər, eyhamlar, əsaslı-əsassız səbəblər...

"Respublikanın dəmir yolu stansiyalarında 200-ə qədər konteynerin yerlərə göndərilməsi ləngidilir. Həmin konteynerlərdə əhali üçün son dərəcə vacib olan mallar – qənd, un, tibb preparatları, məişət cihazları və digər xalq istehlakı malları vardır". Bu məlumat nağd pulun qıtlığı, zəruri malların ayrı-ayrı müəssisə və təşkilatların anbarlarında gizlədilməsi faktı ilə bağlı material hazırlayarkən əlimizə keçdi. Təcili olaraq məsələni aydınlaşdırmaq üçün Azərbaycan dəmir yolu idarəsinə getdik. Görüşdüyümüz rəhbər işçilərin bir neçəsi bundan xəbərsiz olduğunu bildirdi və nəhayət, idarənin yük daşınması və kommersiya xidmətinin rəisi Tofiq Səmədovdan bəzi məsələləri öyrənə bildik.

– *Tofiq müəllim, bu fakt barədə nə deyə bilərsiniz?*

– Konteynerlərin yollarda ilişib qalması indiki vəziyyətdə müəyyən mənada təbiidir. Lakin biz çalışırıq ki, ən zəruri xalq istehlakı malları vaxtında nəzərdə tutulan ünvanlara çatdırılsın. Bəzən ayrı-ayrı təşkilatların və müəssisələrin rəhbərlərinin səhlənkarlığı ucbatından bu məqsədə nail ola bilmirik. Vaqonlar boşaldılmamış qalır. Digər tərəfdən, bu halın səbəbini daha çox respublikalararası münasibətlərdə və yenə deyirəm, bizdən asılı olmayan səbəblərdə axtarmaq lazımdır.

– *Bu günlər dəmir yolunda da işlər artıb. Hamı üçün çətinlik törədən problemlərə müharibə qayğıları da əlavə olunub. Məsələn, sərhədlərdəki əmlakın içərilərə daşınması...*

– Məndən olsaydı, bu axırıncı toxunduğunuz məsələni üstüörtülü qoyardıq. Qaldı ki, problemlərə, bəli, problemlər çoxdur, vəziyyət təsəvvür elədiyinizdən də gərgindir. İstər stansiyalarda, lokomotiv depolarında, istərsə də yükvurma-yükboşaltma məntəqələrində işin ahəngi pozulub. Açıq demək lazımdır ki, Azərbaycan dəmir yolu hazırda yük daşınmasında nəinki 1989-1990-cı illərlə, hətta 1991-ci ilin ötən dörd ayının göstəriciləri ilə müqayisədə xeyli geri qalır. Başlıca səbəb hamıya məlumdur. Erməni təcavüzkarlarının Azərbaycan dəmir yolunun Mehri sahəsində törətdikləri təxribatlar, dəmiryolçularımıza hücumlar işimizə çox böyük əngəl törədir. Azərbaycan dəmir yolunun Mehri-Karçivan-Astazur xətti ermənilərin

nəzarəti altındadır. Biz dəfələrlə xəttin işləməsinə təşəbbüs göstərmişik. Lakin bütün hallarda cəhdimiz boşa çıxıb. Ermənilər bütün vasitələrdən istifadə edirlər ki, Naxçıvan blokadada qalsın. Həm də məqsəd təkcə bu deyil. Düşmənlərimiz bu yolla, İrana, eləcə də dünyanın bir çox ölkələrinə tranzit yüklərin daşınmasının qarşısını alırlar. Təkcə ötən dörd ayda İrana göndəriləsi 5 min vaqondan yuxarı yükdaşınma qabiliyyətini itirib. Naxçıvan Muxtar Respublikası isə 3 min vaqondan çox yükünü hələ də ala bilmir.

Müstəqil Dövlətlər Birliyi ölkələrinə də yük daşınmasında vəziyyət qeyri-qənaətbəxşdir. Hazırda bu ölkələrə yük göndərmək, həmçinin onlardan yük almaq çox çətinləşib. Dəmir yollarında nizam-intizam yoxdur. Yük daşınmasında ləngimə, səhlənkarlıq vərdişə çevrilib.

Bunun ən ağır zərbəsi özümüzə dəyir. Əlli min nəfərlik kollektivimizin belə çətin şəraitdə əməkhaqqı xeyli azalıb. Çünki iş əmsalı günbəgün aşağı düşür. Dəmiryolçularımızın çətinlikləri, sosial təminatı, əslində heç kəsi maraqlandırmır.

Ən böyük bəla burasındadır ki, yükdaşıma ritminin pozulmasında öz respublikamızın ayrı-ayrı idarə və müəssisələri, assosiasiyaları və firmaları da günahkardır. Böyük çətinliklə daşınıb gətirilən qiymətli yüklər bəzən aylarla stansiyalarda "yatıb" qalır. Təqsirkarlar on min manatlarla cərimə verməyə razı olurlar. Amma mallarını vaxtında aparmırlar. Məsələn, "İnterturan" firmasının sanitar-texniki yükləri bu il fevralın 4-dən Keşlə yük stansiyasındadır. Həmin yük burada düz iki cərgə yer tutub. Dəfələrlə xəbərdarlıq etmişik. Bəhanə gətirirlər ki, yer yoxdur. Sual olunur: yeriniz yox idisə, niyə gətirtdirirdiniz? "Elin ruhu" firmasının ünvanına gətirilmiş əlvan metal borular da bir aydan çoxdur ki, həmin stansiyada qalıb. Stansiyanın rəisi rəsmi məktubla respublika Dövlət Maddi Təchizat Komitəsinə müraciət edib, təklif verib ki, həmin yüklər başqa təşkilatlar arasında bölüşdürülsün.

Respublikada qıtlıq hamıya, daha çox da əhalinin aztəminatlı əksəriyyətinə əziyyət verir. Amma təkcə Keşlə yük stansiyasında yüzlərlə vaqon yük sahibini gözləyir. Səhlənkar təşkilatlar arasında dövlət idarə və müəssisələrinin də adları var. "Elektromaş" zavodu 10, "Eltik" müəssisəsi 7, Bakı aptek bazası 7 konteynerə, eləcə də digər təşkilatlar paylarına düşən mala yiyə durmurlar.

– *Özünüz etiraf edirsiniz ki, boşaldılmamış vaqonlar çoxdur. Deməli, bizdə olan məlumat doğrudur, eləmi?*

– Mən bu barədə başqa heç nə deyə bilmərəm...

Sözardı: Bizim isə deməyə hələ sözümüz var. Aydın oldu ki, respublikamızın ayrı-ayrı dəmir yolu stansiyalarında ən zəruri mallar daşınmamış qalır. Lakin nə qədər məktub yazılsa da, cərimələr verilsə də, hədə-qorxu artsa da heç bir irəliləyiş hiss olunmur. Ona görə təcili olaraq bu məsələyə respublika rəhbərliyi səviyyəsində qayıtmalı, bütün nazirliklərin və baş idarələrin fəaliyyəti əlaqələndirilməli, taleyi ona tapşırılan ümumxalq malını əhaliyə vaxtında çatdırmayan idarə və müəssisələr barədə ciddi əməli tədbirlər görülməli, lazım gəlsə həmin mallar qanun əsasında müsadirə edilməlidir. Bütün ağırlığı bir idarənin boynuna qoymaq və yeri gəlmişkən deyək ki, bütün sualların cavabını da bir tək dəmir yolu idarəsinin rəhbərliyindən soruşmaq həqiqətən ədalətsizlikdir...

"Xalq qəzeti", 27 may 1992-ci il.

Qiymətli... qiymətsiz kağızlar

Atılır, çürüdülür, yandırılır,
tonu 50 min manatdır

Biz hələ çox şeyi öyrənməliyik. Biz hələ torpağımızın, sərvətlərimizin, heç olmasa, müstəqilliyimizin qiymətini ən azı düşmənlərimiz qədər bilməliyik. Sabah yox, bu gün ən adi ehtiyaclar, bolluğundan küçələrə atılanlardan ötrü yadlara yalvarmamaq üçün işgüzarlıq, fərasət göstərməliyik. Onsuz da çox şey itirmişik, onsuz da çox şeyə ehtiyacımız var.

Budəfəki söhbətimiz həmin ehtiyaclardan, daha doğrusu, ehtiyatlardan olan qiymətli-qiymətsiz kağız barədədir. Suallarımıza "Azərtəkrarehtiyatlar" Birliyinin baş direktoru Zaur Eminov cavab verir:

– Təkrar ehtiyatlar deyəndə nəyi nəzərdə tutursunuz? Birliyiniz bu ehtiyatlardan necə istifadə edir?

– Təkrar ehtiyatlara kağız qırıntısı, müxtəlif parça, şüşə qırıntıları və tullantıları, sənaye tullantıları, qeyri-metal içliklə işlənmiş avtomobil şinləri, dəri çıxıntıları, məişətdə işlədilən əlvan metal qablar daxildir. Birliyə üç fabrik, yeddi rayonlararası tədarük müəssisəsi daxildir. Bu müəssisələr tədarükçülərin təhvil verdikləri təkrar xammaldan istilik və səs keçirməyən linoleum altlığı, yun iplik, suvenir xalçalar, qobelen örtüklər və digər istehlak malları istehsal edir. Elə bu ilin ötən dörd ayında 43,9 milyon manatlıq belə məhsul buraxılıb. İstehsalın həcmini artırmaq üçün hazırda qeyri-parça materialları fabrikində yeni dəzgahlar quraşdırılır, Qala qəsəbəsində polimer tullantıların emalı üçün zavod tikilir. Başlıca vəzifələrimizdən biri də tədarük etdiyimiz təkrar xammalı başqa respublikalara göndərməkdir. Elə götürək kağız qırıntısını. Bizdə kağız qırıntısını emal edən müəssisə yoxdur. Məcburuq ki, hər il 10-12 min ton kağız qırıntısını kənara göndərək...

– Kağız məsələsinə bir az sonra qayıdacağıq. Hələlik isə deyin: tullantılar necə, hansı yollarla tədarük olunur? İdarə və müəssisələr ayrı-ayrı adamlar bu işdə sizə necə kömək edirlər? Doğrusu, biz hələ kağızdan başqa tullantı təhvil verən bir adam və yaxud onu qəbul edən məntəqə görməmişik.

– Hər il təxminən 32-33 min ton təkrar xammal tədarük edirik. Bu işin bütün ağırlığı bizim boynumuza düşür. Deyirsiniz ki, qəbul məntəqələri

azdır, olanlar da, yalnız kağız təhvil götürür. Amma bir şeyi nəzərə almırsınız ki, bizə kağızdan başqa tullantı gətirən də azdır. Ayrı-ayrı müəssisə və idarələr, şəxslər bayaq adlarını çəkdiyim qırıntıları bizə satmaq əvəzinə yandırmağı, zibilxanalara atmağı üstün tuturlar. İstər-istəməz yenə də kağıza qayıdacağam. Çünki bu xammal indi daha çox bahalaşıb, ona ehtiyac daha çox artıb. Hamı kağız, həm də ucuz kağız tələb edir. Lakin əksəriyyət bu işdə öhdəsinə düşən vəzifəni yerinə yetirmək istəmir. Bakı məişət soyuducuları zavodundan, "Azərbaycan" nəşriyatından, 19 nömrəli mətbəədən və digər bir-iki təşkilatdan başqa qalanları kağız tullantısını bizə satmaq belə istəmir. Statistika məlumatlarında göstərilir ki, hər il respublikamızda 17 min ton kağız tullantıya çevrilir. Lakin mən dəqiq bilirəm ki, hər il ən azı 20 min ton kağız tullantısı əmələ gəlir. Bizə bu məhsulun ən yaxşı halda 50-60 faizi çatır. Təxminən 15 faizini müəssisələr özləri kənara satırlar, qalanı isə yandırılır və ya zibilxanalara atılır. Beləliklə, həm 100 minlərlə manat ziyana düşürük, həm kağız sarıdan korluq çəkirik, həm də ətraf mühit çirklənir.

Lap yaxın zamanlara qədər bir çoxları, xüsusilə məktəblilər kitab abonementi həvəsinə kağız qırıntısı yığar, qəbul məntəqələrinin qarşısında hətta növbələr yaranardı. Elə böyüklər də bu işdə onlardan dala qalmazdılar. Axı böyüklərə də aztapılan sənaye malları verirdik. İndi isə hər şey dəyişib. Respublika Ticarət Nazirliyi lazım olan sənaye mallarını bizə göndərmir. Halbuki hər il 500 min manatlıq belə məhsul almalıyıq. Rusiya aztapılan kitabları göndərməkdən imtina edir. Kağız qırıntısı əvəzinə verməyə kağız pul da yoxdur. Ən maraqlısı odur kı, biz ildə respublikanın ticarət təşkilatlarına 3 milyon manatlıq müxtəlif xalq istehlakı malları göndərdiyimiz halda həmin təşkilatlar bizə lazım olan əvəzediciləri vermirlər.

– Ticarət Nazirliyi aztapılan mal vermir, kağız pul da yoxdur, amma siz həmin təşkilatlara üç milyon manatlıq yun iplik, suvenir xalçalar və digər istehlak malları göndərirsiniz. Olmaz ki, elə həmin malların bir hissəsini camaata əvəz kimi verəsiniz?

– Mən "aztapılan" ifadəsini təsadüfən işlətmədim. Axı əhali məhz həmin mallara həvəs göstərir. Öz məhsullarımız isə aşağı keyfiyyətdədir. Çünki onlar təkrar emldan keçir. Mallarımız bəzən aylarla mağazalarda qalır. Digər tərəfdən, 200-300 manatlıq suvenir xalça üçün görün nə qədər kağız qırıntısı gətirilməlidir.

– Elə isə daha ucuzunu, məsələn, 18 manatlıq iplik yun yumağını verin. Ona ki, ehtiyac çoxdur. Bir də ki, əgər məhsullarınızı hətta tullantıya da dəyişmirlərsə, niyə özünüzə əziyyət verirsiniz?

– Əlacımız yoxdur. Siz deyən məhsulu istehsal etmək üçün güclü texnika, texnologiya, çoxlu vəsait tələb olunur. Biz isə lazım olan qədər tullantı da ala bilmirik. Hər il əhalidən qəbul etdiyimiz min tonlarla kağız qırıntısı nə xammala çevrilir, nə də kimsəyə fayda verir. Bu ilin aprel ayında vur-tut 163 ton kağız qırıntısı tədarük edə bilmişik.

– Hər il min tonlarla kağız qırıntısı başqa respublikalara göndərilir. Yəqin ki, biz bu sahədə də nümunəvi tərəfdaşlıq edir, müştərilərin gözünü yolda qoymuruq. Bəs onlar necə, əvəzində pespublikamıza kağız göndərirlərmi? Eşitdyimizə görə Ukrayna kağızın hər tonunu 50 min manata təklif edir. Sizcə bu normal əməkdaşlıqdır? Normal deyilsə, nə üçün siz də öz imkanlarınızdan istifadə etmirsiniz?

– Kağız qırıntısı dövlət sifarişinə daxildir. Biz tədarük etdiyimiz təkrar xammalın çox hissəsini dövlətlərarası razılığa əsasən göndəririk. Ötən il Ukraynaya 7 min ton kağız göndərmişik. Amma əvəzində nə qədər və neçəyə kağız alınıb, deyə bilmərəm. Bu işlə "KAMİD" kommersiya şirkəti məşğul olur.

– Nə üçün indiyə qədər respublikamızda sellüloz-kağız kombinatı və yaxud heç olmasa, ehtiyatlarımız və ehtiyaclarımız həcmində sex tikilmir?

– Bunun üç səbəbi var: birincisi, xammal azdır, ikincisi, istehsal həddən çox su tələb edir, bu da bizdə yoxdur, üçüncüsü, proses ekoloji cəhətdən zərərlidir. Hələlik MDB-də istifadə olunan texnologiya kağız istehsalında istifadə edilmiş suyu sellüloz liflərindən tam təmizləməyə imkan vermir. Çirklənmiş belə su isə çayları zəhərləyir, balıqları məhv edir. Sex tikmək də sərf eləmir. Çünki xərci borcunu ödəmir.

– Digər iki səbəb barədə bir söz deyə bilmərik. Amma mütəxəssislərin fikrincə, respublikamızda on min hektarlarla sahəni tutan və istifadə olunmayan qarğı və qamış kağız istehsalı üçün tam yararlıdır. Hətta Kanadada pul kağızı belə qarğıdan alınan sellülozdan hazırlanır.

– Amma mən bilən də təkcə qarğıdan kağız olmaz. Lakin bu, o demək deyil ki, respublikamızda kağız istehsal etmək qeyri-mümkündür. Respublika səviyyəsində bu işə maraq və qayğı göstərilsə, gətirilən kağız və kar-

ton müntəzəm olaraq müəssisələrimizə təhvil verilsə, mütəxəssislərimiz səy göstərib mükəmməl texnologiya hazırlasalar, nəinki mətbəə kağızı və karton, dediyiniz kimi, pul kağızı da istehsal etmək olar.

– Söhbətimizdəki bir məqamı açıq qoymamaq üçün respublika Maddi-Texniki Təchizat Komitəsinin "KAMİD" kommersiya şirkətinin direktoru Cabir Həsənovla da görüşdük. Öyrəndik ki, ötən il Ukrayna 7 min ton kağız qırıntısı əvəzinə, 12 min ton karton, 740 ton mətbəə kağızı və 200 ton digər növdən olan kağız göndərib. Lakin bu il vəziyyət xeyli gərginləşib. Tərəfdaşımız həqiqətən hər ton kağız üçün 50 min manat pul istəyir...

Sözardı: Ehtiyac duyulan sənaye malları tapılmır, tapılanı baha qiymətədir, kağız pul qıtlaşır, Rusiya dünya ədəbiyyatı nümunələrini göndərməkdən imtina edir. Bəs nə edək? Əlbəttə, bunun da çarəsi var. Elə bircə kağız istehsalını respublikamızda qaydaya salmaqla, ehtiyatlarımızdan, həm də bolluğundan əl-ayağa dolaşan, zibilxanalarda çürüdülən, yandırılan sərvətlərimizdən ağılla, canıyananlıqla, vətəndaş qeyrəti ilə istifadə etsək, nəinki kitabla, pulla, barıtla, yağla bağlı və digər yüzlərlə problemlərimizi həll edə bilərik, hətta xeyli qazancımız olar. Bunun üçün demək olar ki, hər şey var. Ehtiyat da, işçi qüvvəsi də, mütəxəssis də. İki şey çatmır – pul və işə bütün səviyyələrdə ayıq, işgüzar münasibət. Birincisini də tapmaq olar, çünki sonra öz yerinə qayıdacaq, ikincisinə isə güman azdır, hələ ki, azdır...

"Xalq qəzeti", 20 may 1992-ci il.

Fövqəladə tədbirlər görülməsə...

İqtisadiyyatımızın bütün sahələrində olduğu kimi, tikinti də böhran keçirir. İstər sənaye, istərsə də sosial təyinatlı bir sıra mühüm obyektlərdə, əslində, iş dayanmışdır. İnşaat sahəsindəki tənəzzülü müxtəlif səbəblərlə – material qıtlığı, vəsait çatışmazlığı, vahid tikinti siyasətinin olmaması ilə bağlayırlar. Doğrudanmı əsas səbəb bunlardır? Vəziyyətdən çıxış yolu varmı? Müxbirimiz Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura İşləri Komitəsinin sədri Dadaş Asanovla söhbət zamanı bu suallara cavab tapmağa çalışmışdır.

– İnşaatçıların çox sevdikləri bir ifadə var: "Tikinti konveyeri". Yəqin ki, bu ifadə tikintini layihədən başlamış ta obyektin təhvil verilməsinədək bütün vasilələrini əhatə edir. Tikintidə yaranmış böhran həmin "konveyer"in hansı bir hissəsindəsə baş vermiş nasazlığın nəticəsidir?

– Mən "konveyer"in idarə olunmasında tənəzzül sözlərini də əlavə edərdim. Hazırda tikintidə böhrana səbəb həm müxtəlif mərhələlərdə işin pozulması, həm də köhnə idarəetmə strukturlarının dağılması, yeni yarananların isə hələ ki, özünü doğrultmamasıdır. Bazar münasibətlərinə keçid mərhələsində bunlar təbii hal sayila bilər. Lakin başlıca məsələ tikintidə işi tezliklə qaydaya salmaqdır.

Gizlətmək lazım deyil ki, biz son 70 ildə mərkəzin buyruğu ilə oturub-durmuşuq. Əksər sənədləri, normativləri, metodik vəsaitləri Moskvadan hazır vəziyyətdə almışıq. Biz bir növ ötürücü məntəqə rolunu oynayırdıq. İndi daha Mərkəz yoxdur. Bütün sənədləri, layihələri özümüz hazırlamalıyıq. Bunun üçün isə güclü maddi-texniki baza, səriştəli mütəxəssislər, böyük maliyyə vəsaiti olmalıdır. Əminəm ki, çətinliklərin öhdəsindən gələ biləcəyik. İş tədricən qaydaya düşəcək. Vaxtilə üç layihə institutuna malik olan komitəmizin tabeliyində indi ondan çox layihə və elmi-tədqiqat institutu var.

Məsələyə perspektiv mövqedən yanaşsaq, biz özümüzə qapanıb qalmamalıyıq. İstər keçmiş İttifaqın respublikaları, istərsə də dünyanın inkişaf etmiş ölkələri ilə sıx əlaqə yaratmalıyıq. Yoxsa biz tikintidəki geriliyi qısa müddətdə aradan qaldıra bilməyəcəyik. Qiymətlərin ağlasığmaz dərəcədə artması inşaat materialları əldə etmək üçün çox böyük sərmayə istəyir...

– Dadaş müəllim, respublikamız inşaat xammalı ilə çox zəngindir. Amma bizdə təsərrüfatçılıq sərištəsi, sahibkarlıq hissi çatışmır ki, bu qədər təbii sərvətimiz ola-ola başqalarının əlinə göz dikirik.

– Siz məsələyə emosiyanın gözü ilə baxırsınız. Reallıq isə problemə başqa mövqedən yanaşmağı tələb edir. Özünüz də dilimizdən "təbii sərvətlər" ifadəsini qaçırdınız. Axı sərvət hələ hazır material, maşın və mexanizm, avadanlıq deyil. Unutmayaq ki, xammalı tikinti materialına çevirmək üçün güclü istehsal bazası, ağır konstruksiyaları quraşdırmaqdan, geniş miqyasda torpaq işləri görməkdən ötrü müasir və güclü mexanizmlər, yeni texnologiyaları tətbiq etməyə imkan verəcək müvafiq avadanlıq və vasitələr lazımdır. Varmı bizdə belə baza, həmin texnikanı hazırlayan müəssisələr? Sirr deyil ki, biz bu sahədə işə sıfırdan başlamalı olacağıq.

Respublikamızda mişar daşı, kərpic, üzlük tava, şüşə və polimer materiallar ehtiyacımızı ödəyəcək qədər istehsal edilsə də meşə və metal məmulatının hamısını, sementin, sanitariya texnikasının müəyyən hissəsini və bir çox digər inşaat məmulatlarını kənardan gətirməyə məcburuq. İqtisadi əlaqələrin pozulması inşaatçılarımızı, sözün əsl mənasında, çıxılmaz vəziyyətdə qoymuşdur.

– Çətinlik həmişə olub, var və yəqin hələ xeyli müddət olacaq. Ancaq buna nə ilə bəraət qazandırmaq olar ki, bu ilin birinci rübündə nəzərdə tutulanın cəmi 9 faizi qədər mənzil, 4 faizi qədər məktəb, 15 faizi qədər xəstəxana tikilib, mühüm buraxılış obyektlərində daşı daş üstə qoymayıblar. Necə bilirsiniz, mövcud imkanlardan və ehtiyatlardan səmərəli istifadə edilsəydi, müəyyən qədər də olsa tikmək mümkün idimi?

– Görürəm ki, komitəmizin adındakı "tikinti" sözü sizi söhbətin məhz inşaat obyektlərində planların kəsirdə qalması səbəblərini araşdırmağa sövq edir. Axı bizim komitə tikintinin istehsalat və investisiya məsələləri ilə bilavasitə məşğul olmur. Lakin bu, heç də o demək deyil ki, həmin məsələlər bizi narahat etmir. Mövcud imkanlardan səmərəsiz istifadə olunmasının səbəbləri bir mütəxəssis kimi mənə aydındır.

Maliyyə vəsaiti və material çatışmazlığı, əlbəttə, başlıca səbəbdir. Amma etiraf etməliyik ki, tikintidə intizam olduqca zəifdir. Orta vəsilə kadrları astagəllik azarından hələ xilas ola bilməyiblər. İşin təşkilində çeviklik hiss olunmur. Bəziləri yenə də yuxarı instansiyalardan göstəriş gözləyirlər. Bəs,

biz nə vaxt müstəqilliyə alışacaq, nə vaxt həm öz ehtiyaclarımızı kifayət qədər ödəmək, həm də dünya bazarında rəqabət apara bilən materiallar istehsal etmək üçün müasir texnologiyalara yiyələnəcəyik? Biz tikinti sahəsində o vaxt dönüşə nail olacağıq ki, məhsul mübadiləsinin bütün formalarından istifadə edək, xarici və daxili investisiyaları işə qoşaq. Bazar şəraitində hər şey sərmayəyə bağlıdır. Vəsait fondu yaratmaqdan ötrü birinci növbədə, Azərbaycan Respublikasının milli investisiya fəaliyyətini maliyyələşdirməyi bankların faizsiz kredit buraxmasını həvəsləndirmək üçün onlara vergi güzəştlərini nəzərdə tutan xüsusi hökumət qərarı qəbul olunmalıdır. Mənzil və digər zəruri sosial obyektlərin tikintisinə yönəldilən, respublikada əsas inşaat materialları (mişar daşı, kərpic, beton məmulatı) istehsalına çəkilən xərclər təcili olaraq əlavə dəyər vergisindən azad edilməlidir.

– Yaxşı bir ifadə işlətdiniz: – "hər şey sərmayəyə bağlıdır". Məlumdur ki, respublikamız həm də pul böhranı keçirir. Belə bir vəziyyətdə olan-qalan vəsaiti toplayıb yarımçıq qalmış obyektlərin tikintisinə yönəltmək əvəzinə yeni obyektlər inşa etmək meyli hiss olunur. Sizcə bu yarımçıq tikintilərin onsuz da az olmayan sayının və həcminin artmasına gətirib çıxarmayacaq ki? Ümumiyyətlə, yarımçıq tikintilərin taleyi haqqında fikrinizi bilmək maraqlıdır.

– Sualınızın birinci hissəsi normal şərait üçün səciyyəvidir. Respublikamızda isə indi vərdiş etdiyimiz bir şərait yaranmışdır. Qaçqınlar problemi, müharibə, Xəzərin səviyyəsinin qalxması və digər fövqəladə vəziyyətlər investisiya siyasətinə də təsir göstərməyə bilməz. Razılaşarsınız ki, fövqəladə vəziyyət fövqəladə tədbirlər tələb edir. Əlbəttə, yarımçıq tikintilər məsələsi həmişə narahatlıq doğuran problem olmuşdur. Hazırda tamamlanmamış tikinti işlərinin həcmi normativdən 3 milyard manat artıqdır. Vəziyyətdən çıxış yollarından biri yarımçıq tikintiləri inventarlaşdırdıqdan sonra onların müəyyən qismini satmaq, birgə müəssisələr təşkil etməkdir. Lakin bu məsələdə ehtiyatlı olmaq lazımdır.

Ona görə də biz tikintidə bazar mexanizminin və müvafiq infrastrukturun yaradılması məqsədi ilə elmi-tədqiqat institutuna sifarış vermişik. Zənnimcə, tikintidə də bazar münasibətlərinə keçid zamanı hər bir məsələ ciddi ölçülüb biçilməlidir.

– Söhbətimizi Sizin komitənin bilavasitə fəaliyyətinə aid sualla bitirmək istərdik. Qıtlığın və qiymətlərin tüğyan etdiyi bir vaxtda binaların arxitektura həlli və gözəlliyi ikinci plana keçməyib ki?

– Buna qətiyyən yol vermək olmaz. Onsuz da vaxtilə bu məsələdə cox ciddi səhvlər buraxılıb. Milli arxitektura ünsürlərindən məhrum olan, yeknəsəqlik yaradan binalar, Bakının yeni yaşayış sahələrinin simasını pozmuşdur. Axı hər bina əslində, onun bilavasitə daşıdığı funksiyadan əlavə həm də sənət əsəri olmalıdır. Bu sahədə Şərq mədəniyyətinə qapı olan Azərbaycanın zəngin ənənələri vardır. Bu ənənələri dirçəltmək, inkişaf etdirmək, zənginləşdirmək əvəzinə, onları pozmağa heç kəsin mənəvi haqqı yoxdur.

Arxitektorlar qarşısında milli Azərbaycan memarlığını inkişaf etdirmək vəzifəsi qoymuşuq. Bunun üçün şəhərsalmada fərdi layihələşdirmə metodundan istifadə olunmasına yenidən qayıdırıq. Yalnız bu yolla şəhərlərimizin, qəsəbələrimizin, kəndlərimizin görünüşünə bənzərsizlik, milli və yerli çalar vermək olar. Əlbəttə, birinci növbədə, memarlarımızın əməyi layiqincə qiymətləndirilməli, onların yaradıcı təxəyyülünün qol-qanad açması üçün lazımi şərait yaradılmalıdır.

"Xalq qəzeti", 15 may 1992-ci il.

"Stəkanlarınızı ehtiyatla işlədin..."

Vaxt var idi mağazalarda Bakı şüşə zavodunun məhsullarına – büllur güldanlara, armudu stəkanlara məhəl qoyan olmazdı. Hamı xarici mala can atırdı. İndi keyfiyyətini deyə bilmərik, qiymətdə Bakı məhsulları xariciləri ötüb. Şüşə qablar bahalaşıb, azalıb, müştərilər isə indi bu qabları istəsələr də ala bilmirlər. Görəsən, respublikamızda müxtəlif çeşidli qab-qacaq istehsal edən yeganə müəssisə – Bakı şüşə zavodu doğrudanmı bu yolla öz rəqibləri ilə haqq-hesab çürüdür? Bəs bizim təqsirimiz nədir? Müxbirimiz bu günlərdə Bakı şüşə zavodunun baş mühəndisi Namiq İsmayılovla görüşüb. Baş mühəndis vəziyyətin səbəbini belə izah edib:

– Kollektivimiz xammal sarıdan korluq çəksə də, məhsul buraxılışının azalmasına imkan verməmişdir. Özünüz fikirləşin, bir müəssisənin gücü ilə əhalinin çox böyük tələbat duyduğu, həm də işlənərkən tez-tez qırılıb sıradan çıxan şüşə qablara ehtiyacını ödəmək mümkündürmü? Sirr deyil ki, vaxtilə respublikaya şüşə qabların çox böyük hissəsi keçmiş İttifaqın müxtəlif regionlarından gətirilirdi. İndi isə əlaqələr pozulmuşdur. Elə qiymətə təklif edirlər ki, yaxın düşmək olmur. Sözümün canı budur ki, müəssisəmiz gecə-gündüz fasiləsiz işləsə, belə şüşə qablara tələbatı ödəyə bilməz. Qiymətlərin yüksək olmasına gəldikdə isə özümüzdən asılı olmayaraq, bu addımı atmağa məcburuq. Əgər xammalı bizə çox baha qiymətə satırlarsa, ondan nə cür ucuz məhsul hazırlamaq olar? Elə götürək təbii qazı. Şüşə qab istehsalında bu xammalı heç nə ilə əvəz etmək olmaz. Əvvəllər onun hər min kubmetri üçün 305 manat ödəyirdik. Bu il martın birindən həmin miqdarda yanacaq üçün bizdən 7 dəfə çox – 1954 manat tələb edirlər. Zavod bu hesabla bir ayda işlətdiyi təbii qaz üçün 3,5 milyon manat verməlidir. Halbuki müəssisəmizdə ay ərzində bundan bir az şox – 4,5 milyon manatlıq məhsul buraxılır. Müqayisə üçün deyim ki, Rusiyada təbii qazın hər min kubmetrinin qiyməti 320 manat, Belarusiyada 345 manatdır.

Oxucuları rəqəmlərlə yorsam da, daha bir xammalın qiymətindəki fərqi nəzərə çatdırmağa məcburam. Şüşə qablar istehsalında ən çox istifadə edilən sülügənin (qırmızı, qəhvəyi boyaq) bir tonunun qiyməti 1.112 manatdan 136.700 manata qalxmışdır. Axı qiymətlər necə ucuz olsun ki, büllur

qablara məhsulun dəyərinin 45 faizi qədər aksiz vergi, 28 faizi əlavə gəlir vergisi, 25 faizi isə ticarət əlavəsi qoyulur.

Qiymət marafonunun müəssisəmizə zərəri daha çoxdur. Əvvəla, baha olduğu üçün məhsullarımız satılmır, ikincisi, məhsulun qiymətinin hər manatından əldə olunan gəlirin yalnız 27 faizi müəssisənin büdcəsinə daxil olur. Qalanını dövlət və ticarət təşkilatları mənimsəyir.

Bizim başqaları kimi məhsullarımızı özümüzün satmağa imkanımız yoxdur. Axı indiki şəraitdə firma mağazaları tikmək və yaxud hazır binalar almaq, ona müəyyən tərtibat vermək, malları ora gündəlik daşımaq, satıcıları saxlamaq az xərc tələb eləmir. Biz vəziyyətdən çıxmaq üçün yollar axtarırıq. Elə bilirəm ki, yaxın aylarda alıcılara öz mağazalarımızda xidmət göstərə biləcəyik. Sözsüz ki, bu həm bizim, həm də mallarımızı almaq istəyənlərin xeyrinə olacaq. Yaxın günlərdə zavodumuzda yeni istehsal sexi işə düşəcək. Macarıstandan alınmış "Ayveiqo" tipli axın xəttində gün ərzində on min ədəd stəkan istehsal edəcəyik.

Bir vaxtlar hər şeyi əlində cəmləşdirən mərkəz respublikamızda yeni zavod və ya fabrikin tikintisini plana salmağa icazə verəndə bunu böyük pay kimi qəbul edirdik. Amma burasını fikirləşmirdik ki, belə müəssisəni işlətmək üçün lazım olan xammal, material, alətlər də öz respublikamızda istehsal olunmalıdır. Mərkəz işləri elə dolaşdırıb ki, biz hələ uzun müddət əziyyət çəkəcəyik. Bunları deməkdə məqsədim odur ki, yeni sex işə düşən kimi yeni problemlər ortaya cıxacaq. Elə bu gün mövcud sexlərin ahəngdar işləməsində çətinliklər çoxdur. Yaranmış ağır iqtisadi vəziyyət büllur qablar sexini bağlanmaq təhlükəsi ilə üzbəüz qoyub. Bu isə yüz nəfərlik kollektivin işsiz qalması deməkdir. Biz Xətai rayon icra hakimiyyətinin və respublika hökumətininköməyini gözləyirik...

– Sizə baha satırlar, siz də malınızın qiymətini artırırsınız. Üstəlik respublika hökumətindən kömək də umursunuz. Deyək ki, kömək etdilər, 100 işçiniz yerində qaldı, büllur şüşə sexi bağlanmadı, bəs, alıcıların qazancı nə olacaq? Axı, söhbət ondan gedir ki, yüz minlərlə alıcı bir stəkan üçün az qala ailə büdcəsinin yarısını xərcləməyə məcburdur. Bu barədə nə deyə bilərsiniz?

– Məsləhət görərdik ki, stəkanlardan ehtiyatla istifadə etsinlər...

– Elə bu?

– Bəli...

Sözardı: Bizcə əlavə izaha ehtiyac yoxdur. Amma çox istərdik ki, gündəlik tələbat malları istehsal edən müəssisələr, bu müəssisələrin təchizatçıları öz problemlərini öz xeyirlərinə, həm də əziyyət çəkən camaatın qəpik-quruşu hesabına həll etməyə çalışmasınlar. Respublikamızın müvafiq təşkilatları isə dövlət müəssisələrinin işini əlaqələndirmək, bu yiyəsizliyi və özbaşınalığı qaydasına salmaq üçün, nəhayət, tədbir görməlidir. Əlbəttə, belə təşkilatlar qalıbsa...

"Xalq qəzeti, 24 aprel 1992-ci il.

"Abşeronun harayı", yoxsa...

Rayon icra hakimiyyətinin mətbuat konfransı belə strukturlar praktikasında bəlkə də yeni olduğu üçün gözlənilməz idi. Amma qıtlıq tüğyan edirsə, xalqın döyüşlərdən kənarda olan kənd rayonlarından umacağı varsa, kimsə iqtisadiyyatın dağılmasının qarşısını almaq istəyirsə onun çağırışına getmək mütləq vacibdir. İş elə gətirib ki, Bakı bu ağır günlərində Abşerondan az da olsa ət, yağ, süd, yumurta umur. Axı rayon vaxtilə həm də bu məqsədlə yaradılıb. Bəs indi niyə o, göz-görəti dağılıb gedir? Bəlkə harayına çatan, istifadəsiz qalan potensialı hərəkətə gətirə bilən, baş alıb gedən xəlvəti talançılığın qarşısına sipər çəkib "bəsdir" deyən tapılsa hər şey düzələcək?

Mətbuat konfransını giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı İsrafil İsrafilovun dediyinə görə, Abşeronda istər iqtisadi, istərsə də sosial-mədəni sahədə müvazinət pozulub. Torpağa, təsərrüfata, ekologiyaya münasibətdə, hətta insanlar arasındakı münasibətdə ölçü itib. Əlbəttə, bütün bunlar ötən 28 ildə yığıla-yığıla gəlib. Səbəblər saysızdır, onları saf-çürük etməkdənsə, bu gün nə iş görəcəyimizi, sabaha nə üzlə çıxacağımızı düşünmək daha gərəklidir.

Rayonun böyük iqtisadi potensialı var. Amma səmərə vermir. Rayonun ərazisi girişli-çıxışlıdır. Bu isə təsərrüfatlara nəzarət işini heçə endirir. Kənd inzibati cəhətdən başqa rayona tabedir, oradakı kolxoz və sovxozların torpağı Abşerona.

İcra hakimiyyətinin başçısı danışdıqca belə guman edirdik ki, biz Bakının, necə deyərlər, qulağının dibində olan bir rayonda deyil, respublikanın ən ucqar bölgəsindəyik. Vaxtilə heyvandarlığın və tərəvəzçiliyin inkişafında ad çıxarmış bu rayonun bərbad vəziyyətə düşən təkcə iqtisadiyyatı deyil. Digər sahələrdəki gerilik də indi ciddi narahatlıq doğurur. Necə doğurmasın ki, rayonda indiyədək mərkəzi xəstəxana yoxdur, Xırdalan kimi böyük bir qəsəbədə uzun illər ərzində cəmi beşmərtəbəli 3 bina istifadəyə verilib, kəndlərin əksəriyyətində mədəniyyət ocaqları, istirahət guşələri açmaq yada düşməyib. Sözün qısası, qayğısızlıq, biganəlik adamların torpaqdan üz döndərməsinə, rayonun iqtisadiyyatında əsas sahələrin – heyvandarlığın, taxılçılığın və balıqçılığın tənəzzülünə səbəb olub. Ötən il rayonda

meyvə tədarükü tapşırığına 50 faiz, tərəvəz və bostan məhsulları istehsalı tapşırığına isə 55 faiz əməl olunub. Rayon taxıl tədarükü planının 80 faizini ödəyib. Əvvəllər hər inəkdən ildə orta hesabla 4-5 min kiloqram süd sağılırdısa, keçən il 3 min kiloqramdan yuxarı qalxmayıb. Ət istehsalı tapşırığı 67 faiz yerinə yetirilib.

Görəsən, səbəb nədir? Təsərrüfatı dirçəliş yoluna çıxarmaq üçün nə etmək lazımdır?

Rayon icra hakimiyyətinin başçısının müavini Xaləddin Xəlilovun dediklərindən:

– Abşeronda təsərrüfatçılığın ata-baba ənənələrini dirçəltmək lazımdır. Quru iqlimə, şoran torpaqlara malik rayonumuzda zeytun plantasiyalarını, zəfəranın əkilib-becərilməsini genişləndirmək, dəvəçiliyin və qoyunçuluğun üstün inkişafına nail olmaq lazımdır. Bu gün bir məsələ bizi çox ciddi narahat edir. Adamlarda torpağa sahiblik hissi itib. Çoxları fermer təsərrüfatının inkişafını xilas yolu hesab edir. Amma bunu nəzərdə tuturlarmı ki, torpağın dilini bilən əsl kəndlinin onu almağa, becərmək üçün texnika əldə etməyə, meliorasiya işi aparmağa vəsaiti olmayacaq?

Torpaq el sərvətidir. Onu elliklə əkib-becərmək, torpaqdan hamılıqla bəhrələnmək lazımdır. Torpağı hərraca qoymaq, bir qrup imkanlının gəlir mənbəyinə çevrilməsinə yol vermək olmaz. Rayonda hazırda 206 kəndli fermer təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatların kimlər üçün işlədiyindən, kimə mənfəət verdiyindən fələk də baş aça bilməz. Yaxud 4 min hektar münbit torpaq sahəsinin ixtiyar sahibləri olan adamlar tərəfindən zəbt edilməsinə necə haqq qazandırasan? Yüksək tribunalardan "torpaq kəndlinindir" deyib sonra torpağı kəndlinin əlindən alanlara nə ad verəsən? Son bir neçə ildə rayon ərazisində kooperativ daş karxanaları yağışdan sonra əmələ gələn göbələk kimi çoxalmışdır. Yalnız bir neçəsinin rəsmi icazəsi olan belə 51 kooperativ karxananın hektarlarla torpaqları korladığına göz yumub onların rayona hec bir fayda vermədiyi ilə necə barışmaq olar? Bu karxanalardan 7-də yoxlama aparılıb, ciddi qüsurlar aşkara çıxarılmışdır. Amma onların fəaliyyətinə xitam vermək barədə qərar yüksək dairələrdə ciddi etiraza səbəb olmuşdur.

Bu deyilənlərdən hansı qənaətə gəlmək, nə nəticə çıxarmaq olar? Rayon icra hakimiyyəti başçısının mətbuat konfransı çağırmasından məqsəd

doğrudanmı ictimaiyyətin diqqətini Abşeronun problemlərinə yönəltmək, qüvvələri müşkülə düşmüş işlərin yoluna qoyulmasına səfərbər etmək idi? Çox istərdik ki, rayon icra hakimiyyəti aparatının, hüquq mühafizə orqanları rəhbərlərinin və bir neçə kənd ağsaqqalının iştirakı ilə keçirilən bu mətbuat konfransı yalnız həmin məqsədə xidmət edəydi. Ancaq tədbirdə rayon rəhbərlərinin, necə deyərlər, onları gözləyən "təhlükədən" sığortalanmaq istəyini də hiss eləmək çətin deyildi. İcra hakimiyyəti başçısının və müavinlərinin dediklərindən məlum oldu ki, respublika rəhbərliyi onların fəaliyyətindən ciddi narazıdırlar. Rayonu gerilik burulğanından çıxarmaq üçün təkcə ittihamlar yox, konkret proqram, yaxud konsepsiyası olmayan rayon rəhbərləri haqlıdır, yoxsa ... Biz də bir şey deyə bilmərik, amma zaman özü kimin, haqlı kimin haqsız olduğunu sübuta yetirəcək.

"Xalq qəzeti", 21 aprel 1992-ci il.

Çölə atırlar, bizə satmırlar və yaxud bolluğun astar üzü

Çoxdan idi ki, ərzaq mağazalarının yanından köks ötürmədən keçə bilmirdik. Almağa bir şey tapılmadığından üstü bərli-bəzəkli, içi boş vitrinlər, piştaxtalar gözdən düşmüşdü, onlara heç kim yaxın durmurdu. Elə dolusuna da yaxınlaşan yox idi. Amma, görünür, bu Novruzun da ayağı ruzulu imiş, adamların ümidini gözündə qoymadı, mağazalarda Novruz günlərində ət, toyuq, un, düyü, yumurta göründü və hamıya da olmasa, çoxumuza bayram süfrəsi açmağa imkan verdi. Bayram ötdü, qəribə də olsa, bayramdan-bayrama görünən ərzaq məhsulları vitrinlərdən azalmadı. Çox sevindik və fikirləşdik ki, deyəsən, bu arxa bir də su gəlir, quşçuluq fabriklərindən, ət kombinatlarından, hava və dəniz limanlarından daşınan ərzağın yönü mağazalara səmtlənib, ticarətçilər belə ağır günümüzdə qeyrətə gəlib camaatın payını camaata satmağa başlayıblar. Həm də gör işin harasıdır ki, məhsullar çeşid-çeşid, qiymətlər müxtəlifdir. Baha da olsa var, buyur al. Çətinlik çəksən də ürəyimizə bir təpər verib yeniləşmənin daha bir cığırına düşdük. Amma deyəsən, həmişəki kimi bu dəfə də axıracan sevinmək qismətimiz deyilmiş...

Əvvəlcə Azadlıq prospektindəki 31 nömrəli ərzaq mağazasına baş çəkdik. Mağazanın müdiri Yaqub Qavrilov məlumat verdi ki, onlara verilən sərbəstlikdən istifadə eləməyə çalışırlar. İndi oturub kimdənsə kömək gözləmək olmaz. Ticarət işçisi özü fikirləşməlidir ki, nəyi alıb, nəyi sata bilər. Sonra da etiraf etdi ki, son vaxtlar qapılarına gələn beş-on müştəriyə də (?!) heç bir şey təklif edə bilmirdilər. Novruz ərəfəsində şəhərdəki kiçik müəssisələrin bir neçəsi ilə əlaqə yaratdılar, Rusiyanın ayrı-ayrı yerlərindən mal gətirildi. Bu yolla mağazaya 10 ton toyuq əti daşınıb. Hələ bundan sonra da on ton gətiriləcək. Qonşuluqdakı Sənaye Universitetinin işçiləri üçün isə ət kombinatı 8 ton mal əti göndərib. Hazırda satış gedir. Bölgünü institutun rəhbərliyi özü aparıb.

Yaxınlıqdakı 12 nömrəli mağazada məhsul bol olsa da, az adam gözə dəyirdi. Hər kiloqramı 81 manata mal əti, 57 manata toyuq satılırdı. Məhsulun keyfiyyəti o qədər də yaxşı deyildi. Satıcı and-aman elədi ki, ət cəmi üç gün əvvəl Şəkidən göndərilib, təzədir.

– Bir halda ki, bahalığına görə müştərisi azdır, niyə malı ucuz satmırsınız? Axı, qaldıqca keyfiyyəti daha da pisləşir.

Satıcı hövsələdən çıxdı:

– Ay qardaş, nə istəyirsiniz bizdən, nə veriblər onu da satırıq, – dedi. – Satıcı nəkarədir ki, mala qiymət qoysun?

– Bəs, sərbəstlik?

...

Başqa mağazada da eyni mənzərə ilə qarşılaşdıq, amma sualımıza bir az hazırlıqlı cavab eşitdik.

– Üç-dörd gündür mağazada talonla düyü və un satılır. Ona görə də toyuğu görən olmayıb (?!).

Bilirdik ki, deyilənlərin heç bir əsası yoxdur. Axı neçə aydan bəri gözü toyuğa, ətə yadırğamış alıcı qalaq-qalaq məhsulları vitrinlərdə necə görməyə bilərdi? Nə isə, söhbəti çox da dərinləşdirmədik və başqa bir cəhət daha çox diqqətimizi çəkdi. Gördük ki, mağazaların birində keyfiyyəti aşağı olsa da, ucuz malın müştərisi çoxdur, digərində isə vitrinlər, piştaxtalar dolu olsa da, ət, toyuq daha gözəgəlimli görünsə də, ürək eləyib yaxınlaşan yoxdur. Qəsdən bir-iki gün yolumuzu eyni mağazalardan saldıq ki, bəlkə bir dəyişiklik görək, amma hər şeyi necə görmüşdüksə, eləcə də qalmışdı.

Şikayətçi oxucularımızı, gileyli alıcıları maraqlandıran suallara nə sərbəstləşən mağazaların işçiləri, nə də müdirləri aydın cavab verə bildilər. Kimi dindirdiksə başı ilə yuxarı işarə vurdu, məsləhət gördü ki, rəhbərliklə görüşək.

Bu da rəhbərlik – Bakı Şəhər Ticarət İdarəsinin rəisi Mahmud İsmayılov:

– Az müddətdə şəhərimizə min tona yaxın ət gətirilib. Respublika Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi qiyməti aşağı salmaq üçün hər kiloqramda 30 manat ödəməyi boynuna götürüb. Rayonların içra hakimiyyəti başçıları idarə və müəssisə rəhbərləri öz büdcələri hesabına hər kiloqramda 10 manat güzəşt etməyə imkanları olduğunu bildiriblər. Biz də bu işdən kənarda qalmamışıq. Bütün ticarət şəbəkələrinə göstəriş verilib ki, hər kiloqram üçün nəzərdə tutulan 15 faiz vergi hesablanmasın. Nəğd pul ödəyə bilməyən, lakin hesabında vəsaiti olan təşkilatlarda malın dəyərini köçürmə yolu ilə almışıq.

Mağazalarda ərzaq məhsullarının görünməsinə həlledici təsiri respublikanın yeni rəhbərliyi göstərmişdir. Bayramdan əvvəl keçirilən müşavirədə müvafiq nazirliklərin və baş idarələrin rəhbərlərinə tapşırıldı ki, əhalinin Novruz süfrəsi heç olmasa zəruri məhsullarla təmin edilsin. Faktlara baxın: martın 2-də quşçuluq sənayesi xətti ilə Bakının ticarət şəbəkələrinə vur-tut 2,8 ton toyuq əti gətirilmişdisə, martın 19-da bu göstərici 52 tona çatdırıldı. Yeri gəlmişkən deyim ki, yenə də köhnə maneələrdən yaxa qurtara bilmirik. Aldığımız məhsulların bir hissəsinin keyfiyyəti çox aşağıdır. Bəzi istehsalçılar göstərişə əməl olunsun deyə tez-tələsik kəsim vaxtı çatmayan toyuqları, dəqiq desəm, cücələri məhsulun gözünə qatırlar. Nəticədə isə bu gün 100 qram qazanırıq, sabah 500 qram itirəcəyik.

– Piştaxtalarda qalıb keyfiyyətini bir az da itirən məhsulun zərərini kim ödəyəcək? Əgər mağaza istehsalçı ilə müqavilə əsasında malı götürübsə onu necə geri qaytaracaq? Deyirsiniz ki, kəsim vaxtı çatmayan toyuq-cücəni satışa göndəriblər. Bunu görə-görə niyə malı qəbul edirdiniz?

– Heç nə geri qayıtmayacaq. Ət, əvvəla, o qədər də çox deyil ki, geri qaytarılsın, toyuğun da bolluğu bir-iki günlükdür. İşdir əgər xarab olsa, alıcı yaxın durmasa, onun zərərini mağaza özü ödəməlidir. Götürüblər, zəhmətini də çəksinlər.

– Sərbəstlik deyəndə siz nələri nəzərdə tutursunuz? Məsələn, tutaq ki, mağaza rəhbərliyi istəmədiyi məhsulu qəbul etmədi, istənilən məhsul isə yoxdur, onda necə olsun? Nə üçün təsərrüfathesablı müəssisələrə, başqa sözlə, nisbətən sərbəst olanlara imkan verilməyib ki, yükün ağırlığını çəksinlər və nəticədə xarab mal satıcıların boynunda qalmasın.

– Düzünü istəyirsinizsə deyim, bu, sərbəstlik deyil. İnanın ki, istehsalçı ilə müqavilə bağlayıb, mal seçib, mal almaqdan ötrü təsərrüfathesablı mağazalar olmazın əziyyət çəkirlər. Onlar yüz cür nəzarətdən, təftişdən keçməli olurlar. Hələ yollardakı milis və gömrükxana yoxlamalarını, reketçiləri demirəm. Sərbəst ticarətçilər sərbəst və çevik hərəkət edə bilmirlər. Nəticə etibarilə mal işgüzar adamların, kommersantların, dəqiq desəm, sənədli-sübutlu alverçilərin əlinə keçir və heç kim də onlara gözün üstə qaşın var demir. Lazım gələndə onlar özləri reketçi saxlayırlar, xərcə düşəndə qiyməti qaldırıb ziyanın yerini doldururlar. Bizim isə nə malı gətirməyə sərbəstliyimiz var, nə qiyməti tənzim etməyə ixtiyarımız. Qaldı

ki zərərə düşən mağazalara, məncə, təqsirin bir hissəsi onların özündədir. Bilirsiniz, yəqin fikirləşiblər ki, necə mal olsa belə qıt vaxtda sata biləcəklər.

Bakı Şəhər İcra hakimiyyəti ticarət, ictimai-iaşə və məişət xidməti şöbəsi ilə əlaqə saxladıq. Şöbənin əməkdaşı, iqtisad elmləri namizədi Nəbi Quliyev:

– Bu mübahisənin tarixi bir-iki günlük deyil. Vəziyyətdən çıxmaq üçün müəyyən yollar axtarılıb. Yəqin ki, bunu şəhər ticarət idarəsində də bilməmiş deyillər. Onlardan yalnız birini deyim. Şəhər ticarət idarəsindəki əmtəəşünaslar mağazalardakı vəziyyətdən hamıdan yaxşı xəbərdardırlar. Onlar məhsul xarab olmazdan əvvəl tələblə təklif arasındakı uyğunsuzluğu tarazlamaq üçün malı müştərisi az olan mağazadan müştərisi çox olan mağazalara dəyişdirə bilərlər. Axı şəhərin elə rayonları var ki, mal çoxdur, alan az. Əksinə, elə əldən-ayaqdan uzaq yaşayış sahələri var ki, orada həmin malların yolunu səbirsizliklə gözləyirlər.

Sözardı: Qərarlar ləngidilir, təsirli tədbirlər görülmür, xalq gözləyir, əzab-əziyyətlə yetişdirilən, azdan-çoxdan ortalığa çıxarılan qiymətli məhsul zay olur. Bəlkə bu dəfə iqtisadi tədbirləri siyasi prinsiplərə, ayrı-ayrı mövqelərin barışmazlığına və xırda hisslərin güdazına verməyək!..

"Xalq qəzeti", 7 aprel 1992-ci il.

Qiymət artdı, avtobuslar azalır

Bu günlərdə redaksiyamıza sərhəd rayonlarından birinin sakini gəlmişdi. Bildirdi ki, üç gecədir avtovağzalda yatır, evə getməyə maşın tapmır. Ona kömək eləmək, vəziyyəti öyrənmək üçün avtovağzala getdik. Məlum oldu ki, doğrudan da, son günlər bir sıra rayonlara avtobus marşrutları bağlanıb.

Niyə? Axı biletlərin qiyməti də artırıldı ki, bu sahə özünü yaşada bilsin. Sualı Bakı Avtovağzallar Birliyi baş drektorunun müavini Sənan İmanova verdik. Müsahibimiz cavabında dedi:

– Hər gün Bakının mərkəzi və şimal avtovağzallarından Azərneft meydanındakı avtokassanın yanındakı dayanacaqdan 204 xətt üzrə avtobuslar yola çıxmalıdır. Bunlardan 94-nün avtobuslarını rayonların avtomobil nəqliyyatı müəssisələri, 98 xətti isə avtokombinat təmin etməlidir. Həmçinin 25 xəttə avtokombinat şərikli qaydada nəqliyyat vasitəsi verməlidir. Bütün bunların əvəzində hər gün mərkəzi avtovağzaldan 113 əvəzinə 85, şimal avtovağzalından 69 əvəzinə 50–51, Azərneft meydanından isə 22 əvəzinə, 19–20 avtobus xəttə çıxır. Təkcə bu ilin yanvar ayında şəhərlərarası sərnişin daşınması avtokombinatı 765 xəttə avtobuslar ayırmayıb ki, bu da 30.600 sərnişinin səfərdən qalması deməkdir.

Rayon avtomobil nəqliyyatı müəssisələrinin təqsiri üzündən 381 xətdə hərəkət cədvəli pozulub. Lənkəran, Tovuz, Füzuli, Ağdam, Sabirabad və s. rayonların avtomobil nəqliyyatı müəssisələrinin yarıtmaz işi onsuz da çətin olan vəziyyəti bir az da gərginləşdirir. Bu müəssisələrin rəhbərləri başa düşmək istəmirlər ki, avtovağzallar sərnişin axınını nəzərə alıb cədvəl müəyyənləşdirir.

Avtonəqliyyat müəssisələrində avtobus çatışmazlığının səbəbini ehtiyat hissələrinin, təzə avtobusların, yanacağın qıtlığı ilə izah edirlər. Bu çətinliyi biz də başa düşürük. Amma bir məsələyə təəccüblənirik ki, nə üçün belə çətinliklə yaşayan camaatımıza evinə-eşiyinə getmək üçün avtobus, yanacaq və ehtiyat hissələri tapılmır, qonşu dövlətlərə alverə gedən bəzi "turist" dəstələri üçün isə çox böyük səxavətlə maşın da verilir, ehtiyat hissələri də.

Vəziyyətin bir az da pisləşəcəyi gözlənilir. Yaxın gələcəkdə şəhərlərarası avtobus marşrutlarının bir-bir bağlanması təhlükəsi realdır. Əslində, bu proses başlanıb. Respublikanın hakimiyyət orqanları kömək göstərməsə, bu boşluğun yerini heç nə ilə doldurmaq mümkün olmayacaq.

"Xalq qəzeti", 5 mart 1992-ci il.

Kənd şəhərə arxadır

İndi az adam tapılar ki, kəndin bugünkü durumu ilə maraqlanmasın. Hər dəfə yumurta, toyuq, ət növbəsində dayanmaq qismətimizə düşəndə, ailə korluq çəkəndə hətta kəndlilərin qarasına deyinirik də.

Amma heç maraqlanmırıq ki, qışın bu çilo-çilo vaxtında fermalar nə ilə qızdırılır, mal-qara, toyuq-cücə, lap elə onu bəsləyənlər nə ilə dolanır. Çətinliklər isə çoxdur, təsəvvür elədiyimizdən də çox. Bu, respublika kənd təsərrüfatı və ərzaq nazirinin müavini Ağaş Baxışovla söhbətimizdən də bəlli oldu.

– Ağaş müəllim, qışa hazırlıqdan, qışın sərt gəlişindən danışmayan, gileylənməyən az adam olar. Heyvandarlar qışı necə keçirirlər? Ümumiyyətlə, qışlamanın vəziyyəti necədir? Əvvəlki illərdən fərq varmı? Bizə çatan məlumata görə heyvandarlıq bu il ən böhranlı qışını yaşayır.

– Heyvandarlıq iki aya yaxındır ki, qışlama dövrünü keçirir. Amma əslində bu il boyu zəhmət, əziyyət, xidmət tələb edən bir sahədir. Doğrudur, yaz-yay dövründə heyvanlar nisbətən özünü "dolandırır", qışda isə mal-qaranın müqəddəratı insanlar tərəfindən görülmüş ehtiyatdan asılı olur. Söhbət tədarük edilən yemdən gedir. Açığını deyim ki, builki yem ehtiyatımız o qədər də ürəkaçan deyil. Tələb olunanın yarısından da az toplanıb. Bol süd üçün vacib olan sulu-şirəli yemlərin dörddən biri yığılıb. Deyilənlər azmış kimi, keçmiş müttəfiq respublikalarla iqtisadi əlaqələrin pozulması ucbatından sənaye yemlərini vaxtlı-vaxtında ala bilmirik.

Yaranmış vəziyyət məcbur edir ki, təsərrüfatlarımız mövcud yem ehtiyatından, yem sexlərindən, mətbəxlərdən, yem doğrayan texnikadan daha səmərəli istifadə etsinlər. Min bir əziyyətlə bəslədiyimiz mal-qaranı qışdan sağ-salamat çıxarmağın yolu bundadır.

Atalar deyib ki, bir yandan bağlayan bir yandan açar. Qaramalın qışlamasında çətinliklər yaransa da, qoyunçuluqda vəziyyət ümidvericidir. Bütün qışlaqlarda yem var. Təsərrüfatlardan da qış yataqlarına qüvvəli yem aparılmışdır.

– Heyvandarlıqda, belə başa düşdük ki, qışlama o qədər də pis keçmir. Bəs qışın gəlişi ilə bağlı respublika heyvandarları biz şəhərlilər barədə nə düşünürlər? Öz paylarına düşən vəzifəni yerinə yetirirlərmi?

– Boynuma alım ki, vəzifə tam yerinə yetirilmir. Amma biz yaxın gələcəyə nikbin baxırıq. Bunu deməyə əsasım var. Kəndlinin çox gileyli olduğu məhsulların satınalma qiymətləri artırılıb, heyvandarların xeyrinə yeni əməkhaqqı ödənişi tətbiq edilib, qaramalın yüksək çəki ilə satılması üçün fermalarda kökəltmə briqadaları yaradılıb, ləğv olunan qoyunçuluq, quşçuluq fermaları bərpa olunur. Qısa müddətdə 19 təsərrüfatda, atılmış heyvandarlıq binalarında yenidənqurma işi aparıb, sənaye əsasında broyler sexləri istifadəyə verilməlidir. Lakin yaxşı bilirsiniz ki, böhrandan və qıtlıqdan təklikdə çıxmaq heyvandarlar üçün çətindir. Bütün sahələrin intensiv, səmərəli işi tələb olunur. Bircə məsələ indi reallıqdır – torpaq da, üstündəkilər də bizimdir. Hər halda, buna az da olsa nail olmuşuq. Sonrası yenə özünüzdən asılıdır.

– Elə sahələr var ki, Rusiyadan, eləcə də keçmiş İttifaqın digər iri respublikalarından asılıdır. Müstəqillik cəhdimiz onların işini bir az da çətinləşdirir. Heyvandarların isə, necə deyərlər, əsas xammalı öz torpaqlarımızda yetişir. Bu sahə niyə geriləyir?

– Respublikada kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması şəraitində öz istehsalımız hesabına əhalini ət və süd məhsulları ilə gündəlik təmin etmək mümkün deyil. Əvvəllər İttifaq fondundan 64-70 min ton ət, 900 min – 1milyon ton süd, 90 min tona qədər yağ alırdıq. Ötən il respublikalararası müqavilələr yerinə yetirilmədiyinə görə başqa regionlardan ət, süd, yağ ala bilmədik. Asılılıq bu mənada bizim üçün də mövcuddur. Hələlik xaricə çıxmaqla bəzi ehtiyaclar ödənilir. Ötən il mübadilə yolu ilə 6,4 min tondan çox ət, 147 min tondan çox süd və süd məhsulları gətirmişik. Amma bu da məsələnin tam həlli deyil. Öz bazamızı möhkəmləndirməliyik. Kəndi, onun təsərrüfatını canlandırmasaq, o biri arzularımız da kağızda qalacaq. İndi hamının gücü bir də bu nöqtəyə yönəldilməlidir.

– Kolxoz və soxvozlardan hələlik zərərlə işləyənlərinin şəxsi kəndli təsərrüfatlarına paylanmasına necə baxırsınız? Bazarı heyvandarlıq məhsulları ilə təmin etməkdə bu tədbir özünü doğruldarmı?

– Zərərlə işləyən kolxoz və sovxozların fərdi kəndli təsərrüfatlarına paylanması məsələsinə birtərəfli baxmaq olmaz. Əvvəla, aran və dağətəyi bölgələrdə yerləşən pambıqçılıq, üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq təsərrüfatlarının ziyanla işləməsinə bir nov özümüz bais olmuşuq.

Pambıq bitməyən yerdə pambıq, sərt dağ yamaclarında üzüm beçərmişik, soya bitməyən yerə məcburən soya əkmişik... Hər şey yuxarıdan idarə olunub. Qaldı ki, ümumiyyətlə, zərərlə işləyən kolxozların və sovxozların kəndli təsərrüfatları arasında paylanmasına, imumi şəkildə buna müsbət baxıram. Lakin məsələni dərindən hissiyyata qapılmadan saf-çürük etmək lazımdır. Siz yəqin bilirsiniz ki, bu gün kəndli gənclər işsizlik, torpaqsızlıq üzündən kənddən gedirlər.

Ən yaxşı halda kəndlərimizdə "işsizlər ordusu" yaranır. Bir çox kəndlərdə torpaq sahələrinin azlığından gənc ailələr ayrıca təsərrüfat yarada bilmirlər. İkinci tərəfdən, respublikamızın dağlıq rayonlarında bəzi təsərrüfatlar nə vaxta qədər ziyanla işləməlidir. Bir sözlə, sahəni dəqiq mexanizmi işlənilməlidir. Həm də nəinki rayonlar üzrə, hətta rayon daxilində ayri-ayrı təsərrüfatlar üzrə. Heyvandarlıq sahəsində ilk addımlar atılır. Məsələn, Xızı rayonunun təsərrüfatlarında ictimai mal-qara şəxsi təsərrüfatlara paylanılıb ki, kökəldilsin, müəyyən şərtlərlə dövlətə satılsın.

– Bir vaxtlar respublikamızın ayrı-ayrı rayonlarında milyonlarla xərc çəkildi, iri heyvandarlıq kompleksləri tikildi, lakin sonralar heyvandarlığın sənaye əsasında inkişafına bu şəkildə keçid özünü doğrultmadı. Sizcə tədbirin özü dəyərsiz idi, yoxsa biz bacarmadıq?

– Biz bacarmadıq. Texnoloji prosesdə son mərhələ hesab olunan iri heyvandarlıq komplekslərini istifadəyə verəndən sonra yem bazası yaratmağa əl atdıq. Halbuki əksinə olmalı idi. Bu şərtlərə əməl edən Şəki, Qəbələ, Göyçay mal-qara kökəltmə birlikləri, Abşeron rayonundakı S.Əliyev adına, Xanlar rayonundakı M.F.Axundov adına və başqa təsərrüfatların südçülük kompleksləri indi də səmərəli işləyir.

– Respublikamızın sərhəd rayonlarında hər gün fermalar talanır, sürülər Ermənistana aparılır. Vaxtında həmin el malını bir az içərilərə çəkmək olmazdımı? Ümumiyyətlə, bu açıq talançılığa qarçı sizin nazirlik hansı tədbirlər görür?

– Hamımızı narahat edən məsələyə toxundunuz. Lakin burada bir iş var ki, sərhəd rayonlarındakı fermaların məhsulu orada məskunlaşmış əhali üçündür. O biri tərəfdən fermaları başqa yerə köçürmək üçün binalar, yem sahələri, heyvandarlar üçün yaşayış yerləri və deməli, külli miqdarda tikinti materialı, vaxt lazımdır. Bir də ki, niyə axı quldura, oğruya görə el

obamızı atmalıyıq? Əksinə, biz fermanı köçürmək əvəzinə, camaata kömək etməliyik ki, daha möhkəm dayansınlar. Nazirliyimiz talan olmuş fermaları, şəxsi təsərrüfatları mal-qara ilə təmin edir, onlara maddi kömək göstərir, gücümüz çatan qədər texnika, tikinti materialları ayırırıq.

"Xalq qazeti", 9 yanvar 1992-ci il.

Sınaq ... çıxış yoluna aparır

Atalar yaxşı deyiblər ki, igidin adını eşit, üzünü görmə. "Defisit" məhsul buraxan Bakı şin zavodu haqqında da çox eşitmişdik. Bilirdik ki, belə böyük zavodumuz ola-ola minik, yük və kənd təsərrüfatı maşınlarında istifadə olunan şinləri "od qiymətinə" başqalarından almağa məcburuq. Hər il milyon manatlarla qiymətli məhsulumuz isə dövlət sifarişinə, daha dəqiq desək, Mərkəzin sərəncamına gedir.

Əkəndə yox, biçəndə ortaqdırlar...

Zavod direktorunun müavini Məcid Şikarov məlumatımızı dəqiqləşdirir: hər il zavodun istehsal etdiyi məhsulun 94 faizi, başqa sözlə, milyonlarla manatlıq şin dövlət sifarişinə göndərilir. Bəs, Mərkəz və müqabil tərəflər necə, vədə sədaqətimizdən, intizamımızdan və üzüyolalığımızdan nümunə götürürlərmi? Bizi iqtisadi müqaviləyə qol çəkməyə təhrik edən böyük qardaşlarımız bu çətin günlərdə bizə yardım əllərini uzadırlarmı?

Həmişə olduğu kimi, budəfəki gedişdə də uduzan bizik. Ən maraqlısı da odur ki, bu cür qeyri-bərabər münasibət regionlararası iqtisadi və siyasi əlaqələrin pozulduğu, ölkənin xalq təsərrüfatı mexanizminin sıradan çıxdığı, iqtisadi vasitələrdən siyasi məqsədlər üçün istifadə edildiyi indiki vaxtdan xeyli əvvəl özunu göstərib. Zavodda olarkən öyrəndik ki, ötən üç il ərzində rəhbər təşkilat sayılan SSRİ Neft və Kimya Nazirliyi Bakı şin zavodu üçün bir manatlıq da olsun avadanlıq və material fondu ayırmayıb. İndiyə qədər zavoda gətirilənlərin hamısı barter müqaviləsinin nəticəsidir. Bu üsulun çətinlikləri isə çoxdur. Əvvəla, qarşı tərəflər əksər hallarda göndərəcəkləri avadanlıq və ehtiyat hissələrin əvəzinə özümüzdə də az tapılan kondisioner və ya soyuducu tələb edirlər. Digər tərəfdən, hər kəs öz malını Bakıya – sovetin qiymətsiz manatına yox, xaricə – dollara satmağı üstün tutur. Belə sual oluna bilər: nə üçün şin zavodunun kollektivi dövlət sifarişinə göndərdiyi 94 faizin heç olmasa, yarısını valyuta qazanmağa sərf etmir?

Birlik yoxsa, dirilik də olmayacaq!

– İşə bələd olmayan adamlar bu sualı bizə çox verirlər, – deyə M.Şikarov əldən-ələ keçməkdən əzik-əzik olmuş bir dəstə kağızı ortalığa tökür: – Biz

Mərkəzdən çoxdan yanıqlıyıq. Hamıdan əvvəl biz istəyirik ki, məhsulumuzun nəinki yarısının, hamısının sahibi olaq. Xaricdə də məhsullarımıza müştərilər çoxdur. Yeri gəlmişkən deyim ki, bu barədə bir neçəsi ilə hətta razılığa da gəlmişik. Amma çoxunuzun bilmədiyi çətinliklər bizə mane olur. İtaliyalı həmkarlarımızla birgə müəssisə yaratmaq barədə razılığa gəlmişdik. Binanı biz tikməli idik, avadanlığı onlar gətirib quraşdırmalıydılar. Müəssisə işə düşəndən sonra məhsulu bölüşdürəcəkdik. Gəlmələr çəkdikləri xərci çıxarandan sonra müəssisənin bütün ixtiyarı bizə keçəcəkdir. Tezliklə Qaradağda hazırlıq sexinin tikintisinə başladıq. Bina 1988-ci ilin sonunda istifadəyə verilməli idi. Həmin vaxtdan 3 il keçib. Bina hələ də "ağzıgünə" qalıb. Tərəfdaşlarımız acıq elədilər və müqaviləni birtərəfli qaydada pozdular. Yazdıq, xahiş-minnət elədik, baxan olmadı. Deyirsiniz ki, dövlət sifarişini başqaları kimi siz də yerinə yetirməyin. Axı başqalarında olan dil birliyi, təəssübkeşlik bizdə yoxdur. Yenə bir misal deyim. Xammal, ayrı-ayrı məmulat göndərilməyəndə təbii ki, şin də hazırlanmır. Məsələn, bu il həmin səbəbə 61 milyon manatlıq az məhsul istehsal etmişik. Rostov şəhərindəki Oktyabr inqilabı adına zavod müqavilə öhdəliyinə cəmi 20 faiz əməl etdi. Zavod tərəfindən göndərilməyən 700 ton sink oksidi hesabına işimiz xeyli çətinləşdi. Üstəlik sink oksidini ölkədə təkcə həmin zavod istehsal etdiyinə görə bir il ərzində məhsulun qiymətini 25 dəfə artırdı. Əksəriyyəti Rusiya Federasiyası ilə bağlı olan bu cür faktları sadalamaqda məqsədim odur ki, xammal, ehtiyat hissələr, digər köməkçi məmulatlar göndərilməyəndə biz də müqavilə öhdəliyinə əməl edə bilmirik. Görün respublika Dövlət Arbitrajı vəziyyətdən hansı çıxış yolu tapıb. Göndərdiyimiz məhsulun yarısı qiymətində zavodumuzu cərimə etdi. İndi cərimə o qədər artıb ki, az qala olan-qalan qazancımızı da üstələyir. Respublika Ali Sovetinə, müvafiq respublikaların parlamentlərinə, Nazirlər Kabinetimizə dəfələrlə müraciət etsək də əhəmiyyət verməyiblər.

Haqq sözə nə deyəsən. Doğrudan da, Mərkəzin ətəyindən əlimizi üzürüksə kiməsə, harasa arxamızı söykəməliyik. Bununla əlaqədar bir vacib məsələnin üstündə dayanmaq istərdik. İndi respublikamızın siyasi və iqtisadi həyatı üçün ən aktual və mübahisəli mövzu iqtisadi müqavilə ilə bağlıdır. İqtisadi müqaviləyə gedək və ya getməyək? Müxtəlif variantlar, alternativ gedişlər, cavab tədbirləri, eləcə də sərfəli sayılan çıxış imkanları təklif olunur.

Siyasətçilər-lə istehsalçılar gah rəyə gəlirlər, gah da didişirlər. Hələlik orta məxrəc tapılmayıb. İstehsalçılar parlamenti fəaliyyətsizlikdə, çevik qanunlar və qərarlar qəbul etməməkdə günahlandırırlar. Siyasətçilərin isə fikrincə, bir çox istehsalat rəhbərləri acizdirlər, müstəqil fəaliyyət göstərməyə qadir deyillər, hətta ştreykbrexerdirlər, xırda çətinliklərdən qorxuya düşüblər. Parlamentimizin fəaliyyəti barədə ümumilikdə fikir söyləməyəcəyik, lakin istehsalçıları müdafiə eləməliyik. Həm də ona görə ki, yol göstərmək, ideyalar irəli sürmək, göstərişlər vermək yükün bütün ağırlığını çəkməkdən asandır. İqtisadiyyatımız onsuz da böhranlı günlərini yaşayır, necə deyərlər, çiyni təklikdə çətin ki, belə yükə tab gətirsin. Məsələnin başqa tərəfi də var. Bu zavodda iki min fəhlə və qulluqçu çalışır. Əvvəllər xüsusilə də RSFSR beş alıb, bir verirdisə, indi onu da vermir. Bu zavodda, eləcə də digər müəssisələrdə bir çox istehsalat sahələri iflic ərəfəsindədir. Qabaqdan isə qış gəlir, kasıb camaatın olan-qalan ehtiyatı tükənir. Biz də inanırıq ki, müqaviləyə qol çəkilsə belə, heç nə dəyişilməyəcək. Amma bunu hamı başa düşmür. Hamı da təqsiri konkret bir müəssisənin və təsərrüfatın rəhbərliyində görür. Sənayeçi deputatlarımızın narahatçılığı da elə bu ikitərəfli – yuxarıdan və aşağıdan göstərilən təzyiqlə bağlıdır.

İl başa çatır. Respublika hökumətinin hələ gələn il üçün aydın, dəqiq, real proqramı, düşünülmüş dəst-xətti yoxdur. Bakı şin zavodunda olarkən hiss elədik ki, hamı bir nəfər kimi Mərkəzin boyunduruğundan azad olmaq arzusundadır. Amma bunun üçün respublika Nazirlər Kabineti heç bir kömək vəd etmir. Respublikanın digər təşkilatları da iri sənaye müəssisələrimizin böhrandan çıxması üçün konkret addımlar atmağa tələsmir. Məsələn, şin zavodunun buraxdığı az-çox məhsulun xeyli hissəsi çıxdaşa gedir. Səbəb budur ki, müəssisəyə vaxtlı-vaxtında su və qaz verilmir. Bəzən bircə növbənin dayanması bütün zavodun istehsal ahəngini pozur. İnşaat materialları ilə təchizat yarıtmazdır və ziyanın fəsadlarından biri haqqında artıq yuxarıda danışmışıq.

İmkanlar problemlərdən çoxdur

Yeni İttifaqın köhnə dəyirmi stolu arxasında oturub-oturmayacağımızı zaman göstərəcək, həyat isə hələ ki, davam edir, sıxıntı ağır olsa da, bizi sərbəst, müstəqil yaşamağa öyrədir. Get-gedə öz-özümüzə da-

ha çox güvənirik. Bakı şin zavodunda da bu həqiqətə yetişiblər. Zavodun kollektivi vəziyyətdən çıxmaq üçün daxili imkanlar hesabına pula gedən yeni növ məhsullar istehsalına başlamaq fikrindədir. Elə indidən həmin məhsulların Türkiyədə, İraqda, Vyetnamda, Əfqanıstanda və digər ölkələrdə müştəriləri tapılıb. Yaxın vaxtlarda türk qardaşlarımıza 20 ton rezin xammal göndərilib. Bundan sonra min ton da göndəriləcək. Əlbəttə, əvəzi qaytarılmaq şərti ilə.

Şinçilər, nəhayət çölə atılanın qiymətini bilməyə başlayıblar. Uzun illər boyu ciblərinə, havalarına, torpaqlarına, sularına tullantı adı ilə ziyan gətirən materiallardan indi səmərəli istifadə etməyə çalışırlar. Şin zavodunun nəzdində yaradılan "Ekologiya" kiçik müəssisəsi hər il min tonlarla hesablanan tullantını xalq istehlakı mallarına çevirəcək. Kim bilir, bəlkə elə bu kiçik müəssisə nə vaxtsa öz çiynini böyük zavodun yükünün altına verəcək.

Haqqın dizi bükülməzdir. Bunu min illərin təcrübəsi min dəfələrlə sübut edib. İndi də olsun o dəfələrdən biri. Amma heç olmasa, bu dəfə unutmayaq ki, yüz ildə bir-iki dəfə qismətimizə düşən belə günlər üçün vaxtında, özü də əməlli-başlı hazırlaşmaq lazımdır. Bir də ki, nə bilmək olar, bu gün biz imtina edirik, sabah bizdən imtina edərlər. Onda necə olacaq?

"Xalq qəzeti", 27 noyabr 1991-ci il.

"Ətalətə, qorxaqlığa üstün gəlməliyik..."

Sərlövhədəki sözlərin müəllifi gənc texnika elmləri doktoru, Azərbaycan Texnologiya İnstitutunun müəllimi Məzahir Fərzəliyevlə redaksiyamızda tanış olduq. Ürəyi dolu idi. İllərlə həsrətində olduğu arzusuna qovuşmasına – fasiləsiz parça toxuyan yeni tipli dəzgahın layihəsinin, nəhayət, Azərbaycanda tətbiqinə köməyimizi xahiş eləməyə gəlmişdi. Söhbətimiz uzandı, oxucularımız üçün də maraqlı olan xeyli suala cavab tapıldı.

– *Sirr deyil ki, parça istehsalı üçün hər cür xammalı – pambığı, yunu, baramanı, xəzi, hətta süni lifi hazırlamaq imkanı olan bir diyarın övladları indi iki metr çitə, yorğan-döşəyə möhtac qalıb.*

– Necə deyərlər, aləmi bəzər, özü lüt gəzər, hə? Əvvəldən belə olub. Əkib, becərib, hasilə gətirib, ölkələri yedizdirib, geyindirib, dolandırmışıq, amma özümüz gözü dolusu görməmişik. Nə olsun ki, xammalımız var? Pambıq ki, hələ parça deyil. Onu ilkin emal etmək, ipə, sapa, ən nəhayət, parçalara çevirmək üçün müasir toxuculuq kompleksləri, dəzgahlar, aqreqatlar, texnologiyalar və səriştəli mütəxəssislər olmalıdır...

– *Məgər respublikamızda toxuculuq müəssisələri azdır? Bakıda Hacı Zeynalabdin Tağıyev adına Toxuculuq İstehsalat Birliyi, kamvol və zərif mahud kombinatları, Gəncədə, Mingəçevirdə toxuculuq kombinatları...*

– Sadalamayın, uzun çəkəcək. Onların hamısında yalnız hazır iplik əsasında parça toxunur. Totalitar rejim elə bir tor hörüb ki, çıxmaq çox çətindir. Fikrim aydın olsun deyə, belə bir mənzərəni təsəvvürünüzdə canlandırın. Azərbaycanın pambığı ipliyə çevrilənədək Rusiyadan belə uzun yol qət etməlidir.

Toxuculuq müəssisələri xammalımız ola-ola onun yolunu gözləməyə məcburdur. H.Z.Tağıyev adına kombinata vaxtilə yalnız xam parça toxumağa icazə verirdilər. Yəni parça saya şəklində toxunurdu, boyanıb rənglənmək üçün isə İttifaqın eyni profilli müəssisələrinə göndərilirdi. Orada üzərinə naxış vurulub yenidən satışa yola salınırdı. Bax, beləcə, yüngül sənayemizi diz çökdürmüşlər.

Hələ bu nədir ki? Adi bir dəzgahı almaq, yeni bir texnologiyanı tətbiq etmək üçün neçə-neçə bürokratın qapısını aylarla, bəlkə də illərlə döyməli olmuşuq. Bu cür ögeylik səriştəli mütəxəssislərimizin inamını öldürüb,

həvəsdən salıb, respublikadan perikdirib. Hec uzağa getmirəm. Mənim iştirakımla yaradılmış TMM tipli fasiləsiz parça toxuyan dəzgah hələ indiyədək Azərbaycanın toxuculuq sənayesinə yol tapa bilməyib. İcazə versəydiniz, bu barədə ətraflı danışardım.

– *Buyurun.*

– Toxuculuq sənayesində məkikli və məkiksiz aqreqatlardan geniş istifadə edilir. Bu dəzgahların qüsurları çoxdur. Əvvəla, texnoloji proseslərdə tez-tez fasilələr yaranır, səs-küy çox olur, dəzgahları idarə edən toxucular tez yorulur və nəticədə məhsuldarlıq aşağı düşür. Fasiləsiz parça toxuyan yeni dəzgahlarda isə bu cür qüsurlar yoxdur. Məhsuldarlıq ənənəvi aqreqatlara nisbətən iki-üc dəfə yüksəkdir. Səs-küy istehsalatda yol verilən normalardan aşağıdır. Əməliyyatlar avtomatların köməyi ilə yerinə yetirilir. Bir ədəd fasiləsiz parça toxuyan dəzgahın istehsalatda tətbiqi müəssisəyə ildə 5 min manat iqtisadi səmərə verir.

– *İnanmırıq ki, belə parça qıtlığında toxucular bu cür məhsuldar texnikadan xəbərdar olsunlar, amma istifadəsindən imtina etsinlər.*

– Elə məsələ də burasındadır ki, toxucuların xəbəri yoxdur. Yeni dəzgahların faydalı olduğunu digər regionlarda müəssisə rəhbərləri daha tez dərk ediblər. Bu dəzgahlardan Yaxroma və Karabanov əyirici-toxucu fabriklərində, Alitus pambıq parça və Kemerovo toxuculuq kombinatlarında, İtaliyada, Almaniyada, Tayvanda, Argentinada, Bolqarıstanda çoxdan istifadə olunur. Zəhmətimizdən başqaları faydalanır, özümüzünkülər isə hələ də ayılmaq istəmirlər.

– *Yəni demək istəyirsiniz ki, həmişə olduğu kimi, biz yenə də gecikirik? Əvvəlki iqtisadi strukturda bu adətin eybəcərlikləri bəlkə də gözə görünmürdü. Ancaq bazar münasibətləri şəraitində bu yolla irəliləmək heç cür mümkün deyildir.*

– Onları qınamıram. Uzun illər yuxarıdan planlaşdırma nəticəsində əmək kollektivlərinin müstəqilliyi, təşəbbüskarlığı, təsərrüfat çevikliyi əslində buxovlanmışdır. Buna görə də tələb təklifi deyil, təklif tələbi üstələyirdi. Müəssisələrimiz bazar üçün deyil, anbar üçün işləyirdi. Bir halda ki, istehsalçını məhsulun keyfiyyətinə görə deyil, planın yerinə yetirilməsinə görə məsuliyyətə cəlb edirdilər, tələbat duyulan məhsul buraxmağa kimdə maraq olardı?

Parça, geyim, ümumiyyətlə, yüngül sənaye elə spesifik istehsal sahəsidir ki, burada çevik texnologiyalar başlıca rol oynayır. Belə istehsal sahələrində məhsul buraxılışı modanın tələbinə uyğun olaraq müntəzəm təzələnməlidir. Bu isə çevik texnologiyaların tətbiqi, kiçik müəssisələrin yaradılması sayəsində mümkündür. İqtisadi müstəqillik inkişafın bu yönümündə də geniş imkanlar açmışdır. Əsas iş bu imkanlardan bacarıqla istifadə etməkdir.

– Söz ki müstəqillikdən düşdü, bu məsələyə sizin münasibətinizi bilmək istərdik.

– Respublika parlamenti Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etmişdir. İndi başlıca məsələ həmin aktın həyata keçirilməsi mexanizmini yaratmaqdır. Xammalımız da var, işçi qüvvəmiz də, elmi potensialımız da. İndi əsas vəzifə dünya bazarında pula gedəcək məhsul istehsal etməkdir. Yüngül sənaye üçün belə müəssisələr çoxmərhələli vəsilələrdən ibarət iri kombinat və fabriklər deyil, texnoloji prosesləri asanlıqla dəyişə bilən kiçik istehsalatlar ola bilər. Yaxşı ki, indi xarici ölkələrin şirkət və firmaları ilə bu cür kiçik müəssisələr yaradılmasına diqqət artmışdır. Bu dönüş inam oyadır ki, yaxın vaxtlarda Azərbaycanın yüngül sənayesi həm öz xammalına, həm hazır məhsullarına, həm də öz müştərilərinə malik olacaq.

"Xalq qəzeti", 19 noyabr 1991-ci il.

Dönüş xeyrimizədir

Hər ilin bu vaxtları bayram-bayrama qarışar, toy-büsat, çal-çağır bütün respublikanı başına götürər, iclaslar, raportlar, keçici bayraqlar dalbadal düzülərdi. Pambıq mövsümü əsl hadisəyə çevrilərdi. Yenidənqurma küləyi bura da əl gəzdirdi. Pisini də, onunla qarışıq yaxşısını da, necə deyərlər, gedər-gəlməzə yolladı. Biz də susduq və susuruq. Pambığı qızıla dəyişə-dəyişə, kəndlinin olan-qalanını əlindən ala-ala, alın təri ilə hələ ki bizi saxlayan qeyrətli kəndlilərimizi "yalançı qəhrəmanlar"a tay tuta-tuta və nəhayət, hər şeyi yerbəyer eləmək vaxtının çatdığını bilə-bilə susuruq. Pambıqçılarımız belə qıtlıqda, çətinlikdə, respublikanın ağır günündə, bir qarnı ac, bir qarnı tox vəziyyətdə yarım milyon tondan çox həqiqətən qızıla bərabər məhsul təhvil veriblər, vədlərinə əməl ediblər. Yenədəmi susacağıq? Belə fədakarlığın üstündən sükutla keçməyə mənəvi haqqımız varmı? Bizi Azərbaycan Respublikası kənd təsərrüfatı və ərzaq nazirinin müavini İnqilab Şəmiyevin görüşünə bu borc gətirdi.

– Ötən illərin qələbələri bizə məhsul bayramları, təriflər və bayraqlar verdi. Bəs indi, builki raportdan nə gözləyirsiniz? Respublikamız, kəndimiz builki pambıqdan nə qazanacaq?

– Bunu düz deyirsiniz, təltiflər sarıdan korluq çəkməmişik. Elə gözdən pərdə asmaq, rəqəmləri şişirtmək, əkin sahələrinin uçotdan gizlədilməsi halları da az olmayıb. Amma gəlin ədalət naminə deyək ki, nöqsanlarla bərabər öyrənməli və faydalı işlərimiz də olub. Çoxundan fərqli olaraq biz nöqsanları etiraf edirik. Həm də nöqsanlar özümüzə daha baha başa gəlib. Heç uzağa getmirəm, düz dörd ildir ki, bu sahədə durğunluqdan çıxa bilmirik. Bu dörd ildə illik plan bircə dəfə də yerinə yetirilməyib. Respublika üzrə hər hektarın məhsuldarlığı 20 sentnerdən yuxarı qalxmır. Torpağımıza, suyumuza, havamıza, adamların sağlamlığına nə qədər ziyan dəyib. Ölkədə və respublikada baş verən məlum, əsaslı və əsassız çətinliklər də bir yandan. Təkcə ötən mövsümdə sahələrimizdə 70 min tondan çox pambıq yığılmamış qaldı. Qarın, yağışın altında çürüyən pambıq yox, milyonlarla valyuta idi. Vəziyyətdən çıxmaq üçün müəyyən işlər görülür. Pambığın becərmə texnologiyası təkmilləşdirilir, tezyetişən, məhsuldar, maşınla yığım üçün əlverişli olan sortlar yaradılır, tətbiqinə hazırlıq görülür. Toxum-

çuluğun və pambıqçılığın mexanikləşdirilməsinə diqqət artırılır. Göründüyü kimi, dönüş yaranır və bu da bizim xeyrimizədir.

Xeyirdən danışırsınız. Kənd əməkçilərimiz və deməli, respublika indi-indi pambıqdan əsl xeyir götürməyə başlayır. Bu il pambığın satış qiymətləri təxminən iki dəfə artıb. Özü də keçən il artmış qiymətə nisbətən. Əgər əvvəllər müxtəlif zonalar üzrə satınalma qiymətləri fərqli idisə, bu ildən vahid qiymətlər müəyyənləşdirilib. Pambıqçılara imkan verilib ki, istehsal xərcləri çıxandan sonra yerdə qalan gəlirin 70 faizini özlərinə götürsünlər. Xaricə satılan məhsuldan götürülən qazanc barədə isə yəqin ki, ayrıca söhbətimiz olacaq.

Biz gəlirdən çox onu artırmağa səbəb olan amillərə maraqlıyıq. Axı yüksək keyfiyyət olmasa, sənaye xammalsız, təsərrüfatlar və pambıqçılar pulsuz qalar. İndi gəlirini-çıxarını yaxşı bilən pambıqçılarımız keyfiyyətə elə buna görə xüsusi diqqət yetirirlər. Nəticə göz qabağındadır. Əgər keçən il ümumi istehsalda birinci növün payı 50 faiz idisə, bu il 70 faizdən yuxarı olacağı gözlənilir.

– Nə vaxta qədər xammalımızla fəxr edəcəyik? Nə vaxta qədər milyonlarla hesablanan halal sərvətimizdən başqaları faydalanacaq?

– Dediklərinizi rəqəmlərlə təsdiqləmək istəyirəm. İndiyə qədər mahlıcımızın yalnız 12-15 faizi öz yüngül sənaye müəssisələrimizdə ipliyə və parçaya çevrilib. Bizə qalan yalnız alın təri, bir də qəpik-quruş olub. İndi bu sahədə də vəziyyət dəyişib. Pambıqçılıq təsərrüfatlara plandan əlavə istehsal etdiyi məhsulu xaricə sərbəst konversiya olunmuş valyuta ilə satmaq imkanı verib.

Bu il üçün dövlət sifarişi 48,4 faiz nəzərdə tutulmuşdur. Respublikamız öz müstəqilliyini elan edib. Yuxarıdakı rəqəm də indi respublikalararası iqtisadi sazişdən asılı olacaq və ehtimal ki, dəyişəcək. Alimlərimiz hesablayıblar ki, təkcə mahlıcın 50 faizi respublikada son məhsula çevrilsə, pambıq iplik istehsalı 2,5 dəfə, parça istehsalı 2,7 dəfə artar. Bundan əlavə, təxminən 15 min nəfər üçün yeni iş yeri açılar.

Çoxumuza məlumdur ki, pambıqçılıq təkcə parça, iplik və ya mahlıc deyil. Pambıq bəlkə də yeganə kənd təsərrüfatı bitkisidir ki, tullantısı yoxdur. Hətta pambığın gövdə və budaqlarından mebel düzəldilməsində də istifadə eləmək mümkündür. Bir vaxtlar respublikada bununla əlaqədar

müəyyən təşəbbüslər oldu. Lakin təşəbbüs söz olaraq qaldı. Müstəqilliyə, heç olmasa tam iqtisadi müstəqilliyə nail olsaq, sərbəst düşünmək, sərbəst hərəkət etmək, öz malımızdan özümüzə lazım olan şəkildə faydalanmaq imkanı qazanarıq.

– Pambıq istehsalının artımına indi həmişəkindən daha çox ehtiyac var. Bu məhsul indi hava və su kimi vacib olan valyuta deməkdir. Torpaq, işçi qüvvəsi, texnika isə artmır. Bəs, hansı yollarla bu ehtiyacı ödəmək olar?

– Bunun üçün bir neçə yol var. Hər şeydən əvvəl, növbəli əkinə keçməliyik. Deyim ki, heyvandarlığın da yem bazası bundan asılıdır. Növbəli əkin torpağın münbitliyini özünə qaytarar, məhsulun axırına çıxan vilt xəstəliyinin kökünü kəsər, sahə artmadan daha çox məhsul üçün zəmin yaranar. Son dörd ildə pambıq əkini sahələrini 58 min hektar, bu il isə ötən ilə nisbətən 16 min hektar azaltmışıq. Həmin sahələr payızlıq taxıl və yem bitkiləri üçün ayrılıb. Gördüyünüz kimi, sahə artmayıb, əksinə azalıb, amma hər hektarın məhsuldarlığını 23-30 sentnerə çatdırmağı qarşımıza məqsəd qoymuşuq.

Daha məhsuldar, xəstəlik və ziyanvericilərə, davamlı tezyetişən sortların tətbiqi ikinci yoldur. Bu il iki yeni sortu – Az.NXİ-104 və Az.NXİ-170 sortlarını sınağa vermişik. Pambığın əkini və becərilməsində daha mütərəqqi texnologiyaların tətbiqi də məhsuldarlığı artırar. Bu il çiyid səpini zamanı Kürdəmir, Ağdaş və Göyçay rayonlarının bəzi təsərrüfatlarında "tirə üsulu" ilə əkin texnologiyasından istifadə edilmişdir. Pis də nəticə vermir.

İstehsalı artırmağın, keyfiyyəti yaxşılaşdırmağın baş yolu isə insana bağlanır. Nə qədər ki, pambıqçı üçün normal iş və yaşayış şəraiti yaradılmayıb, əsaslı dəyişikliyi gözləmək xülyadır. Biz isə hələ də bu sarıdan üzüqarayıq...

– İndi hər sahə öz müstəqilliyinə çalışır, sərbəstlik qazanmaq istəyir. Bu vaxta kimi pambıq da strateji məhsul hesab olunub, yığılanın hamısı dövlət sifarişinə gedib. İnhisardan, mərkəzin sifarişlərindən qurtarmaq üçün hansı tədbirlər görülür?

– Pambığın qiymətini biz hamıdan yaxşı bilirik. Bəlkə də çoxlarına məlum deyil ki, təkcə bu ilin 8 ayında pambıq hesabına respublikamıza 6.400 ton yağ, 5 min ton ət gətirilib. Hələ bu ələnib, ələnib dibində qalanındandır. Sizcə, bu qədər varımız ola-ola dilənçi kökündə yaşamaq pambıqçıları ağrıtmır? Əlbəttə, çətinliklər çoxdur. Özü də bu çətinliklər hər gün yox, hər

saat, hər dəqiqə işimizə mane olur. 18 pambıqtəmizləmə zavodu, 100-dən çox qəbul məntəqəsi üçün lazım olan ehtiyat hissələrini ala bilmirik.

Mərkəzləşmiş valyuta fondundan respublikamıza valyuta ayrılmadığından bizə bu il xaricdən 2.500 ton polad lent, mahlıcı qablaşdırmaq üçün 5 milyon kvadratmetrdən çox parça və s. göndərilməyib. Xarici tərəfdaşlarımıza özümüz üz tutmuşuq. Avstriyanın OVYQ və Türkiyənin "Səda Qorxmaz" firmaları Gəncədə və Bərdədə pambıqəyirici fabriklər tikəcəklər. Yeri gəldikcə ehtiyat hissələri də verəcəklər.

İstehsal olunan məhsulun respublikada qalan hissəsini son məhsula çevirmək üçün əyirici fabriklər tikmişik və yenə də tikəcəyik. Lakin lap yaxın vaxtlarda bütün pambıq məhsulunun inhisardan alınması real deyil. Bilirsiniz, iqtisadi əlaqələr durur, İttifaq iqtisadi tellərlə hələ möhkəm bağlıdır və biz yenə də nəyinsə əvəzində tələb olunanı verməliyik.

– *Pambığı yetişdirmək qul əməyi ilə müqayisə olunur. Nə vaxt Azərbaycan kəndlisi bu zəhmətdən qurtaracaq? Pambıqçılığı ləğv etməkləmi? Yoxsa başqa vasitələr də var?*

– Əlbəttə, var. Axı yuxarıda ərz elədim, pambıq hələ bizə çox lazım olacaq. Ona sərf olunan zəhməti, işçi qüvvəsini isə azaltmaq mümkündür. Hər şeydən əvvəl, pambıq əkinində, becərilməsində, yığılmasında əl əməyi tələb edən işlər mexanikləşdirilməlidir. Bizdə maşınla pambıq yığımında texnikanın rolu hiss olunacaq dərəcədə artır. Faktlara nəzər salaq. Respublikamızda yığılan pambığın bu il tam yarısı maşınların payına düşür. Halbuki cəmi iki il bundan əvvəl, yəni 1989-cu ildə bu göstərici 39,9 faiz idi. Məncə, artım sürəti pis deyil. Özü də həmin rəqəm ayrı-ayrı rayonlar üzrə daha çoxdur. Məsələn, Yevlaxda 80 faiz, Hacıqabulda və Saatlıda 67 faiz, Neftçalada və Sabirabadda 65 faiz, Beyləqanda və Biləsuvarda 60 faiz və s. Yığımın mexanikləşdirilməsi təkcə çəkilən zəhməti azaltmır, həm də növbəti ilin bol məhsulu üçün zəmin yaradır. Çünki yığım vaxtında qurtarır, dondurma şumu optimal müddətdə keçirilir, digər hazırlıq tədbirləri gecikdirilmir.

Əl əməyini azaltmaq üçün texnikadan istifadə işin yalnız bir tərəfidir. Axı hələ də bir çox təsərrüfatlarımızda xəstəlik və ziyanvericilərə qarşı zərərli-kimyəvi maddələrdən istifadə olunur. Doğrudur, ötən il Kürdəmir rayonunda, bu il isə Saatlıda, Hacıqabulda və Ağsuda sovkaya qarşı

kimyəvi mübarizədən imtina edilmişdir. Ümumiyyətlə isə, respublikanın 65 min hektar pambıq sahəsində sovkaya qarşı mübarizə aparılmışdır. Lakin yenə təkrar edirəm ki, kəndlini əziyyətdən qurtarmaq üçün hələ çox iş görülməlidir.

Şəxsən mənim, qul əməyi ifadəsindən xoşum gəlmir. Elə bilirəm, minbir əziyyətlə qızıla bərabər məhsul yetişdirənlər də bu müqayisədən xoşlanmırlar, həqiqət də olsa bu qiymət heç birimizi "açmır". Ona görə çalışırıq ki, bu təzadı kəndlinin xeyrinə həll edək və kəndli, o cümlədən pambıqçılarımız layiq olduqları mərtəbəyə yetişsinlər. İndiki qələbələr, raportlar, səssiz-küysüz, necə deyərlər, "ağ qızıl" karvanları da bax, buna xidmət edir.

– İnqilab müəllim, sizi builki qələbə münasibətilə təbrik edirik və arzu edirik ki, budəfəki raport məqsədinizə çatmaq üçün getdiyiniz yolda uğurlu addım olsun.

"Xalq qəzeti", 12 oktyabr 1991-ci il.

"Xeyri zərərindən çox olacaq..."

Azərbaycan Respublikası Prezidentinin fərmanına görə İttifaq tabeli müəssisələrin və təşkilatların 1992-ci il yanvarın 1-dək Azərbaycanın dövlət idarə orqanlarının ixtiyarına verilməsi təmin edilməlidir. Həmin müəssisələrdə bu işə necə hazırlıq görülür? Onları hansı çətinliklər gözləyir? Bu və digər suallara cavab almaq üçün müxbirimiz L.Şmidt adına maşınqayırma zavodunda olmuş, müəssisənin direktoru, Azərbaycan xalq deputatı Əyyam Musayevlə söhbət etmişdir.

– Vaxt var idi zavodunuz sahənin bayraqdarı sayılır, məhsullarınız İttifaqın bütün neftçıxarma rayonlarına, dünyanın bir çox ölkələrinə göndərilirdi. Demə, bu illərdən bizə yalnız quruca sevinmək qalıb.

– Bəli, elədir. Axı qiymətli məhsullarımızı, hətta Bakı neft mədənlərinin ehtiyacı üçün olanları da İttifaq nazirliyi bölüşdürürdü. Bu halda hansı faydadan danışmaq olar? Zavodumuz isə həqiqətən sahənin bayraqdarıdır. Di gəl ki, Bakı maşınqayıranları çalışmış, yaratmışlar, amma xeyrini başqaları görmüşlər. Təkcə bir misal çəkəcəyəm. Üzərində bizim zavodun markası olan fontan armaturlarına dünyanın bir çox ölkələrində rast gəlmək mümkündür. Bu avadanlığı əcnəbilərə valyutaya satıblar, bizə isə qəpik-quruş veriblər. Əgər qazancımızın üçdəbiri özümüzə qalsaydı indi, necə deyərlər, müəssisəmizin dirəyi də qızıldan olardı. Amma biz istismar vaxtını çoxdan başa vurmuş, fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığı təzələməyə pul tapmırıq. İndiki qıtlıq, qiymətlərin artdığı bir vaxtda fəhlələrin sosial müdafiəsini lazımınca təmin etməyə, əməkhaqqını çoxaltmağa imkanımız yoxdur.

– Yanvar ayından respublika üçün işləyəcəksiniz. Pis-yaxşı, İttifaq nazirliyi müəssisənizin təchizat-istehsal-satış proseslərini tənzimləyir, problemləri yoluna qoyurdu... İndi bu məsələlərlə respublikada kim məşğul olacaq? Axı Azərbaycanda maşınqayırma sənayesi nazirliyi yoxdur?

– Müstəqillik yolunda qarşıya çıxan ən başlıca çətinlik də elə budur. Zənnimcə, tək bizim sahənin deyil, elektrotexnika sənayesinin idarə olunması və inkişaf etdirilməsi üçün də güclü respublika strukturu yaradılmalıdır. Düzdür, bizim zavodun da daxil olduğu "Azərneftmaş" konserni təşkil edilmişdir. Lakin könüllülük prinsipi əsasında formalaşan konsern təbii ki, sahə

nazirliyinin funksiyasını yerinə yetirə bilməz. Bu məsələ təxirəsalınmadan həll edilməlidir. Çünki problemlər çox, biz isə gücsüzük.

İqtisadi əlaqələr pozulub. Bizə metal, avadanlıq və ehtiyat hissələri göndərən müəssisələr təchizatçıdan dönüb barter mübadiləsi yolu ilə özləri üçün sərfəli materiallar və məhsullar tələb edən partnyorlara çevriliblər. Görün ənənəvi təchizatçılarımız olan Moskvanın "ZİL" maşınqayırma, Çelyabinskin ağır traktor zavodları, Dnepropetrovsk metallurgiya kombinatı texnika, komplektləşdirici qovşaqlar əvəzinə bizdən nə tələb edirlər: kondisioner, soyuducu, hətta aztapılan kənd təsərrüfatı məhsulları. Axı zavodumuzda bunların heç biri hazırlanmır. Bunu həmin müəssisələrdə yaxşı bilsələr də inadlarından dönmürlər. Nəticədə moskvalılar ilin əvvəlindən bəri bizə 180 avtomobil şassisi əvəzinə 34-nü, çelyabinsklilər 170 ədəd "T-170 B" traktoru əvəzinə 52-sini, dnepropetrovsklılar dövlət sifarişində nəzərdə tutulan boruların cəmi 25 faizini göndəriblər.

Bu cür çətinliklər zavodumuzda əmək ahəngini pozur, boşdayanmalara səbəb olur. Hətta bəzi sexləri bağlanmaq təhlükəsi qarşısında qoyur...

– Axı sizin də çıxış yolunuz var. Yadınızdadırsa, respublika Prezidenti Y.Qasımov adına zavodda maşınqayıranlarla görüşərkən bu məsələ ilə əlaqədar suala təqribən belə cavab verdi: Məhsullarınızı ölkənin bütün regionlarına yola salırsınız. Siz də nümayəndələrinizi, fəhlələrinizi həmin regionlara göndərin. Danışıqlar aparsınlar. Başa salsınlar ki, "ZİL" zavodunun müqavilə öhdəliyini yerinə yetirməməsi RSFSR-in Tümen kimi böyük bir neftçıxarma müəssisəsinin Bakı texnikasına olan tələbatının ödənilməsinə təsir edə bilər.

– Əlbəttə, nümayəndələrimiz tez-tez İttifaqın sənaye şəhərlərində ezamiyyətdə olurlar. Nəzərə alın ki, xammalın, ehtiyat hissələrinin 99 faizini müxtəlif respublikalardan alırıq. İttifaqın tabeliyindən çıxmaq, uzun illər ərzində formalaşmış şaquli əlaqələrdən dərhal üz döndərmək qarşıya elə problemlər qoyacaq ki, onları beş aya, bir ilə həll etmək müşkül məsələdir. Müstəqilliyimiz təmin olunub, bəs onu həyata keçirəcək mexanizm varmı? Bax əsl məsələ də budur.

– Sözünüzdən belə çıxır ki, İttifaq tabeliyində qalmaq daha sərfəlidir...

– Xeyr, mən elə demirəm. Totalitar strukturun zərəri məlumdur. Demək istəyirəm ki, zavodun ölkənin hər hansı bir regionundakı müəssisə ilə üfüqi

müqavilə bağlaması bir şeydir, bu məsələni suveren dövlətlərin – respublikaların sahə nazirlikləri və ya komitələri səviyyəsində həll edilməsi başqa şey.

Biz gələn il üçün Rusiya Federasiyasının bir neçə iri müəssisəsi ilə niyyət protokolları imzalamışıq. Diqqətinizi bu kəlmədəki "niyyət" sözünə cəlb etmək istəyirəm. Yəni niyyət hələ real iş, neçə deyərlər, sənin olan deyildir. Kim təminat verə bilər ki, sövdələşdiyimiz müəssisələr sabah öz təəhhüdlərini sözsüz yerinə yetirəcəklər? Lakin aqillər demiş, bir yandan bağlananda bir yandan açılar. Biz dünyanın bir sıra inkişaf etmiş ölkələri ilə əlaqələr yaratmağa başlamışıq. İran, Əlcəzair, Küveyt, İraq, Əfqanıstan, Hindistan, Polşa, Bolqarıstan və başqa ölkələr ən sərfəli partnyorlarımız ola bilərlər. Vyetnamla iqtisadi əlaqələr yaratmaq barədə danışıqlarımız yekun mərhələsinə qədəm qoymuşdur. Türkiyənin "S.T.S" (Sərdar, Tofiq, Sabit) firması ilə zavodumuzun köhnə çuquntökmə sexinin yerində xalq istehlakı malları buraxan birgə müəssisə yaratmaq barədə danışıqlar aparırıq. Əvvələr bu cür addımlar atmaq mümkün idimi? Məncə, müstəqilliyin nə demək olduğunu dərk etmək üçün bu faktlar kifayətdir. Xeyrimiz zərərimizdən çox olacaq.

– Sizin zavod neftçıxarma avadanlığı istehsalı üzrə ixtisaslaşıb. Təsəvvür edin ki, bazar münasibətləri şəraitində hələ dünya səviyyəsində olmayan məhsullarımıza tələbat azalacaq. Belə bir çoxminli kollektivi saxlamaq, istehsalın yönümünü dəyişmək mümkündürmü? Çevik texnologiyalar tətbiq edib daha hansı xalq istehlakı malları buraxa bilərsiniz?

– Bazar münasibətləri şəraitində məhsullarımıza tələbat daha da artacaq. Əlbəttə, keyfiyyət göstəricilərinə daha çox fikir verilməlidir. Buna sözsüz ki, müasir texnika və texnologiyanın tətbiqi sahəsində nail olmaq mümkündür. Ancaq böyük bir zavodun texnika parkını və texnologiyalarını təzələmək, təyinatını dəyişmək sadə məsələ deyil. Buna da vaxt lazımdır. Amma hər halda gec, ya tez bu yola qədəm qoymalıyıq. Qaldı ki, xalq istehlakı malları buraxılışı, yaxşı planlarımız var. Sağlıq olsun, yaşayarıq görərik...

"Xalq qəzeti", 9 oktyabr 1991-ci il.

Hər sətirdə sərt həqiqət

Məktublar üzərində düşüncələr

Vaxt var idi demokratiya sarıdan "aclıq keçirirdik". Yenidənqurma gəldi. Aclıqdan qurtardıq, necə deyərlər, pəhriz gözləmədik. Hamılıqla – ziyalı da, fəhlə də, kəndli də işi-gücü buraxıb başladıq siyasətlə məşğul olmağa. İndi bütün bazarlarda qıtlıq, görünməmiş bahalıq olduğu halda, söz bazarında bolluq və ucuzluqdur. Hamı tənqid edir, məsləhət verir. Lakin az adam deyir ki, gəlin işləyək: əkək, becərək, biçək. Nə qədər ki, belə davam edəcək nə yeməyə çörəyimiz, nə geyməyə paltarımız olacaq.

Son vaxtlar redaksiyamıza daxil olan məktubların bir qisminin məğzini qısaca bu cür ifadə etmək olar.

Yaxın-uzaq obalarımızdan aldığımız məktublar da müəllifləri kimi müxtəlifdir. Açıb oxuyursan və sənə elə gəlir ki, kimləsə lap üz-üzə, göz-gözə söhbət edirsən. Baxırsan ki, bəzisi fikirlərini deməkdə çətinlik çəkir. Çox şeyi eyib bilib açıb-ağartmır. Bir başqası hər vəchlə haqlı olduğunu sübut etmək istəyir. Digərinin çox ağıllı mühakimələri var. Bu isə çılğındır. Adi nöqsanı, səhlənkarlığı da cinayət hesab edir... Beləcə çoxdur, məzmunca müxtəlifdir məktublar...

Əgər məktublarda yenicə qədəm qoyduğumuz yaz mövsümündə görülməli işlərdən, təsərrüfat qayğılarından danışılsaydı, buna ancaq sevinmək olardı. Amma istər ölkədə, istərsə də respublikada o qədər dolaşıq məsələlər ortaya çıxıb ki, adamlar rahatlıq tapa bilmirlər.

Siyasətdən danışa-danışa bir də gözümüzü açıb görmüşük ki, ərzaq qıtlığı başımızın üstünü alıcı quş kimi kəsib. Vəziyyətin tezliklə düzələcəyinə isə inam azdır. Doğrudur, respublikanın prezidenti, hökumətimiz müvafiq tədbirlər görür, ən son imkanları da işə salırlar. Götürək, elə Novruz bayramı günlərini. Bütün İttifaqın ərzaq mağazalarının boş olmasına baxmayaraq, bizdə hər ailənin bayram süfrəsi üçün az da olsa əti, yağı, yumurtası, düyüsü, qəndi oldu. Ancaq buna necə haqq qazandırasan ki, kəndli də, şəhərli də gözünü mağazaya dikib ki, görüm nə vaxt ərzaq gələcək. Axı torpağın sahibi insandır. Torpağa üz çevirsək, əksək-becərsək qıtlıq olmaz.

Oxucularımızın çoxu bu fikirdədir ki, ərzaq bazarında günbəgün qorxulu xarakter alan vəziyyətin düzəldilməsi üçün əsas söykənəcək yer kənddir.

Kəndin isə problemlərini saymaqla qurtarası deyil. Götürək elə torpaq məsələsini. Günü bu gün kənd soveti sədrindən tutmuş raykom katibinədək kimdən soruşsan cavab verəcək ki, torpağın sahibi kəndlidir. Halbuki hər kolxozda, yaxud sovxozda həyətyanı torpaq sahəsi almaq üçün uzun növbə siyahıları var. Bir çox məktub müəlliflərini də narahat edən budur ki, niyə torpaq kəndliyə minbir çətinliklə, özü də misqal-misqal verilsin?

"Kənddə yaşayasan, ev tikməyə, özün üçün gün-güzəran düzəltməyə bir qarış torpağın olmaya! Dinəndə də qayda-qanundan sənə mühazirə oxuyurlar. Ay qardaş, bu torpağı verin camaata əksin, özünü dolandırsın, artığını da çıxarsın bazara" (İ.Babayev, Yardımlı rayonu, Bozayran kəndi).

Gədəbəy rayonunun İsalı kəndindən Ə.Musayev yazır: "Ailəmizin beş nəfər üzvü var. Neçə ildir həyətyanı torpaq sahəsi almaq üçün növbəyə dayanmışdım. Bu yaxınlarda mənə 0,12 hektar torpaq verdilər. Onun da 0,8 hektarı arx yeri. Di gəl burda ev tik, həyət-baca düzəlt görüm, necə düzəldirsən".

Laçından M.Aslanov, Masallıdan Ə.Dadaşov və onlarca başqaları da həyətyanı torpaq sahəsi ala bilmədiklərindən gileylənirlər. Tərtər rayonunun narçılıq sovxozundan Təzəgül İsmayılova yazır: "Bir gün sovxoz direktorunun müavini icarəyə götürdüyüm taxıl sahəsindən onun oğluna həyət yeri verməyimizi xahiş etdi. Razılaşmadım. Ertəsi gün gəlib gördüm ki, həmin yer buldozerlə hamarlanıb, çəpərlənib. Kimə müraciət etdimsə, nəticəsi olmadı".

Görəsən, necə olur ki, xalqın içərisindən çıxıb bircə addım irəli gedən kimi közü öz qabağımıza çəkirik? Məgər buna da kimsə nəzarət etməlidir? Özümüzü niyə aldadaq ki, Təzəgülün icarə sahəsini oğluna çox asanlıqla məhlə yeri götürən sovxoz direktorunun bu müavininin əvəzinə başqa birisi olsa belə etməyəcəkdi. Elə oxucularımızın da çoxunun qənaəti belədir ki, cəmiyyətimizdə yaranan mövcud siyasi-iqtisadi böhrana səbəb iş bacarmayan, öz mənafeyini elindən, obasından, lap qapıbir qonşusundan üstün tutan, vəzifəyə ancaq qazanc yeri kimi baxan bir para adamlardır. Bəla burasındadır ki, məqam düşəndə belə ixtiyar sahibləri özlərini qabağa verib hamıdan uca səslə "mən də xalqın oğluyam" deyirlər. Bax elə buna görə də yuxarıdan nə qədər göstəriş, qərar olsa da aşağıda torpağı adamlara çətinliklə verirlər.

Uzun illər qədir-qiymətini bilmədiyimiz, plan doldurmaq xatirinə zəhər-zəhrimarla sinəsinə sağalmaz yaralar vurduğumuz torpağı sahibinə qaytarmasaq, ərzaq qıtlığı hələ uzun sürəcək. Həm də burada yeni mülkiyyət formalarına keçməsinə, mütərəqqi təsərrüfatçılıq üsullarının tətbiqinə geniş yer verilməlidir.

Torpağın icarəyə verilməsi barədə müxtəlif fikirlər söylənilir. Tərifləyən də, pisləyən də var. Amma oxucularımızın çoxunun rəyi belədir: "İcarə o yerdə faydalıdır ki, orada torpağı icarəçiyə maneəsiz verirlər". Həm də torpaq sahibi əmin olur ki, məsələn, 15 il ona dəyib toxunan olmayacaq. Təəssüf ki, çox vaxt belə olmur. Məsələn, Biləsuvar rayonundan İ.Hüseynov, M.Əhmədov və başqaları yazırlar: "Biz beş ailə başçısı icarəyə götürdüyümüz üzüm və taxıl sahələrindən yüksək məhsul əldə etmişik, planları artıqlaması ilə ödəmişik. Lakin "Bakı fəhləsi" sovxozunun direktoru bir gün bizi çağırıb dedi ki, icarə ləğv olunur. Torpaqları qaytarın".

"Doqquz uşaq atasıyam. Üç il bundan əvvəl "Moskva" meyvəçilik sovxozundan 9 hektar bağ sahəsi götürdüm. Ailəliklə işlədik. Yaxşı da bar götürdük. Hətta Norilskdə və Sumqayıtda işləyən oğlanlarımı da ata-baba ocağına çağırdım ki, bizə kömək etsinlər. İndi torpağı bizdən alırlar" (A.Zeynalov, Quba rayonu).

A.Zeynalovun məktubunu oxuyanda istər-istəməz 60-cı illər yada düşür. O vaxt (kəndlərimizin böyük əksəriyyətində) kimsə gedib bazardan yağ, şor, toyuq, yumurta axtarsaydı, camaatın özü onu məzəmmətləyərdi. Ətin kilosunu bir-iki manata satardılar. Çox ailə həyət-bacasından dolanardı. Üstəlik kolxoz əməkgününə taxılla bərabər müxtəlif kənd təsərrüfatı məhsulları bölərdi. Hər kənddən örüşə üç-dörd sürü çıxardı. Amma... Bir vaxt düşdülər ev-ev ki, sənin beş qoyunun, iki inəyin artıqdır. Sonralar başqa göstərişlər gəldi: kimin həyətində bir-iki sot yer artıqdır çəkdilər "məhşər" ayağına. Əvəzində institutlar düşdü dəbə. Kənddə əli çox şeydən üzülən kəndli çalışdı ki, nə yolla olur-olsun uşağını çörək yiyəsi elətdirsin. Oxumağa həvəsi olan da, olmayan da diplom dalınca qaçdı. Torpaq qaldı yiyəsiz.

Məktublarda aqrar siyasət barədə də ağıllı mühakimələr yürüdülür. Bir vaxtlar kolxozlar birləşdirildi. Sonra bəzisi sovxoza çevrildi. İndi isə təsərrüfatlar bir ucdan ayrılır. Müəlliflərin bəzilərinin fikrincə, bu, yaxşı

tədbirdir. Onlar bunu əsas götürürlər ki, heç olmasa, unudulan kəndlər yada düşər, abadlaşar, az-çox nə isə tikilər, yollar qaydaya salınar. Masallı rayonundakı Qasımlı kəndindən Ə.Kərimov, B.Muxtarov (cəmi 26 imza), Saatlıdakı Nəsimi adına sovxozdan İ.Əliyev, Ə.Rzayev (cəmi 12 imza) və başqaları da iri təsərrüfatların bölünməsinə tərəfdar olduqlarını yazırlar. Lakin onları narahat edən, həyəcanlandıran odur ki, ayrılan kolxozlarda ciddi torpaq münaqişələri yaranır. Qonşu obalar üz-üzə dayanır. Səbəb də budur ki, rayonların aqrar-sənaye komitələri məsələnin həllində səhvlərə yol verir, nəticədə əziyyəti camaat çəkir.

Məktub müəlliflərini ən çox düşündürən məsələlərdən biri də kəndin sosial problemləridir. Əgər biz ərzaq qıtlığından yaxa qurtarmaq, boşalmış kəndlərə həyat vermək, yurddan baş götürüb gedənləri öz ocağına qaytarmaq istəyiriksə, gərək heç olmasa kəndin abad yolu, qazı, suyu, işığı, telefonu, həkimi olsun.

Qusardan M.Bəkirovun, Xaçmazdan P.Qədirovanın, Lerikdən İ.Babayevin, Dəvəçidən M.Əzimovun, Ağdamdan B.Əliyevin, Zaqataladan Z.Novruzovanın, Lerikdən K.İsmayılovun, Masallıdan S.Fərziyevin fikri belədir.

Yaz mövsümü yenicə başlasa da, oxucularımız haqlı olaraq məhsul yığımına hazırlıq qayğılarından söz salırlar. Uzağa getmək lazım deyil. Elə keçən ilin özündə tarlaların azlığı, vaqonların vaxtında sifariş verilməməsi, anbarların qaydada olmaması, tədarükçülərin sərištəsizliyi, neçə-neçə bu və digər çatışmazlıq ucbatından bu gün üzünə həsrət qaldığımız tonlarla məhsul itkiyə getdi. "Nədənsə, alverçilərin hazırlığında qüsur olmur. Halbuki bahalıq yaradan, bərəkətimizi əlimizdən alan onlardır" (B.Babayev, Qobustan rayonu). "Kəndli minbir əziyyətlə əkib-becərir. Tədarükçülər tərpənincə bir dəstə adam hazır məhsulu dəyər-dəyməzinə alır, aparır başqa şəhərlərə, biz də qalırıq əliboş" (İ.Rzayev, Lənkəran rayonu).

Məktub müəllifləri dönə-dönə xəbərdarlıq edirlər ki, kəndin məhsulunun camaata çatdırılması, bazarlarda ucuzluq yaradılması üçün gərək indidən alverçilərin əl-qolunu bağlayan, heç olmasa, onları qabaqlayan tədbirlər görülsün. Tədarükçülərin işindəki sui-istifadə halları aradan qaldırılsın. Məktublar arasında bürokrat rəhbərlərdən şikayətlər

az deyil. Cəmiyyət yenidən qurulsa da, beləlıəri köhnə vərdişdən əl çəkə bilmirlər. Oxucular onları "sağalmaz" yaraya bənzədir, belə vəzifə sahiblərindən xilas olmağın çətinliyi ilə istər-istəməz barışırlar. Nəticədə neçə-neçə adam işsiz qalır, bir çoxları halalca əməkhaqqını ala bilmir. Yaxşı ki, hələ yaxşılar da az deyil. Məktub müəllifləri onların işindən həvəslə söhbət açırlar. Demək istəyirlər ki, dünya xali deyil. Cəmiyyət təzələnib, yaxşılığa doğru gedir...

"Kommunist" qəzeti, 24 aprel 1991-ci il.

Ətalət buzu əriyəcəkmi?

Velədi Lənkəranın böyük kəndlərindəndir. 1.600-dən artıq əhalisi var. Yarıdan çoxu əmək qabiliyyətlidir. Ancaq onlardan H.Aslanov adına sovxozda vur-tut 3 nəfəri işləyir. Bəs yerdə qalanlar? Sualımızı təəccüblə qarşıladılar. Məgər bilmirsiniz, alverlə məşğuldurlar. Ölkənin hansı yerində istəsən velədiliyə rast gələrsən – dedilər.

Sovxozun əkin sahələrinə, şitilliklərə baxdıqca təəccübümüzü gizlədə bilmirdik. Tərəvəzçilikdə ad-san qazanmış lənkəranlılar niyə belə laqeydləşiblər? Azərbaycan KP MK katibi Zakir Abdullayev sahələri gəzdikcə bu sualın cavabı da yavaş-yavaş aydınlaşırdı. Sonradan etiraflar başlayırdı: məsuliyyətsizlik etmişik, vaxtında işə başlamamışıq, nizam-intizamı pozmuşuq. Sovxozun direktoru Tofiq Əsədullayev etiraf etdi ki, velədililərlə bacarmıram. Əlimdə elə də bir ixtiyarım yoxdur. Bircə tədbirim qalmışdı, ona da imkan vermədilər. İstəyirdim sovxozda işləməyənə həyətyanı sahə verməyim. Ancaq məni sıxma-boğmaya saldılar.

Bu faktlar təkcə Lənkərandadırmı? Təəssüf ki, yox. Əksər rayonlarda belədir. Lerik rayonundakı H.Aslanov adına sovxozun direktoru Əbdül Ağagülov isə ciddi bir məsələyə toxundu. Dedi ki, indi hər yerdə adamlara kompensasiya verilir. Özü də qanuna görə hamıya – işləyənə də işləyəməyənə də. İndi biz çətin dağ şəraitində adamları işlədək?

Bax belə təzadlı məsələlər kənd təsərrüfatını pis kökə salıb. Elə bir sahə yoxdur ki, orada ürəkaçan nəticələr olsun. Müşavirədə çıxış edən 50-yə yaxın adamı dinlədikcə xəyal bizi yaxın keçmişə aparırdı. O vaxtlar dəbdə olan bir cümlə qulaqlarımızda cingildəyirdi: "Əlverişsiz hava şəraitinə baxmayaraq bol məhsul yetişdirilmiş, dövlətə planda nəzərdə tutulduğundan xeyli çox məhsul satılmışdır". Doğrudan da, kənd əməkçiləri çox vaxt əlverişsiz hava şəraitində işləməyə məcbur olurdular. Əkinçi vicdanı və tələbkarlıq da bu işdə mühüm rol oynayırdı. Amma indi "əlverişsiz hava şəraiti" sözləri bəhanəyə çevrilib. Cəlilabad Rayon Partiya Komitəsinin birinci katibi Xeyrulla Əliyev belələrinə çox tutarlı cavab verdi: "Tutaq ki, yağış yağıb, əkini vaxtında keçirməmişik, sahələrə gübrə verməmişik, becərmə işləri görə bilməmişik. Bəs şitilliklərdə, fermalarda vəziyyət niyə bu kökdədir? Ora ki, yağış yağmır. Gəlin bəhanələrdən əl çəkək. Özümüzə

kənardan baxmağı bacaraq. İşləyə bilmiriksə, qırağa çəkilək. Vəzifə boynumuza biçilməyib ki?".

Belə səmimi etiraf zalda böyük əks-səda verdi. Görünür, öz xoşu ilə vəzifədən əl çəkmək istəyənlər hələ yoxdur. Bəs onda niyə işləmirlər.

Vaxtilə respublikada istehsal olunan tərəvəzin üçdəbirini, çayın ikidəbirini lənkəranlılar verirdilər. Cəlilabad rayonu İttifaqda ən güclü üzüm istehsalçısı idi.

İndi hanı bu məhsullar? 30 min hektar üzümlükdən 13.800 hektarı qalıb. Onun da təxminən 15 faizi seyrəklikdir. Bunun üçün kimi qınayaq? Masallı rayonunun təsərrüfatları dövlətə 16 milyon manat borcludurlar. Bu pulları qaytarmaq bir yana, fəhlələrə əməkhaqqı verməyə də vəsait tapılmır. Yardımlıda mal-qara, qoyun-quzu kəsilə-kəsilə az qala heçə enib. Bir sözlə, müşavirədə iştirak edən 6 rayonun hamısında vəziyyət dözülməzdir. Bəs çıxış yolu yoxdurmu? Əlbəttə, var. Bunun üçün ilk növbədə, məsuliyyət hissi yüksəldilməlidir.

Fasilə zamanı da adamlar dəstə-dəstə yığışıb müzakirəni davam etdirirdilər. Bəziləri hətta təəssüflənirdilər ki, deyəsən, danışmaq üçün onlara vaxt çatmayacaqdır. Belələri çox olduğu üçün Z.Abdullayev yoldaşdan xahiş etdik ki, müşavirə qurtarandan sonra respublika nazirlikləri, komitələri, birliklərinin rəhbərləri ilə dəyirmi stol arxasında söhbət edək. Kimin nə sözü var deyə bilsin. Katib fikrimizi bəyəndi və müşavirə qurtaranda bunu elan etdi. Zalın təxminən yarısı yerindən tərpənmədi. Beləliklə, dəyirmi stol arxasında söhbət yox, necə deyərlər, ikinci müşavirə başlandı. "Kimin sözü var?" – deyə Z.Abdullayev zala müraciət edəndə 30-dan çox əl göyə qalxdı.

Rəhim Cəmilov, respublika taxıl məhsulları naziri:

– Bugünkü söhbət bir daha göstərdi ki, fəhlədən tutmuş nazirədək hamının məsuliyyəti artırılmalıdır. Nəzarətsizlik böyük bəlalar yaradıb. Bunu görə-görə susmağımız faciəmizdir.

Yaşar Rzayev, Lənkəran Şəhər Partiya Komitəsinin birinci katibi:

– İttifaq və respublika hökumətlərinin Lənkəranda çayçılığı inkişaf etdirmək barədə bir neçə qərarı var. Ancaq bunlar təkcə bizim yox, əsasən respublika təşkilatlarının günahı ucbatından yerinə yetirilmir. 7-8 il bundan əvvəlin proqnozlarına görə 1990-cı ildə biz 40 min ton çay yarpağı istehsal

etməli idik. Amma güc-bəla ilə, bəzən aqrotexniki tədbirləri poza-poza 16 min tona gəlib çatdıq.

Əvvəllər bilirdik ki, hökumət yardım göstərəcəkdir. İndi yeni iqtisadi münasibətlər, bazara keçid bütün ümüdlərimizi qırır. Bəs milyonlarla vəsaiti biz haradan alaq? Çay məgər təkcə Lənkərana lazımdır? Gəlir dalınca qaçmaq respublikamıza baha başa gələr. Onda biz də çay əvəzinə sitrus əkərik. Gəliri çox, zəhməti az. Bu, inkişaf yoludurmu? Əlbəttə, yox.

Nadir Hüseynbəyov, bitkiçilik məhsulları istehsalı və tədarükü baş idarəsi rəisinin birinci müavini:

– Kənddəki bütün bəlaların başı kooperativ hərəkatıdır. Təsərrüfatları parçalayan, adamların inamını qıran bu hərəkata son qoyulmalıdır. Ən yaxşı torpaqları mənimsəyirlər, becərdikləri məhsullar təsərrüfatların planlarına daxil olunmur, onu kimə satdıqları da məlum deyil. Amma o məlumdur ki, əldə olunan pullar ayrı-ayrı adamların cibinə axır. Bu da kəndlərdə haqlı narazılıq yaradır. İctimai təsərrüfata marağı get-gedə öldürür.

Akif Ağayev, Lerik payonundakı Kirov adına sovxozun direktoru:

– Mərkəzi Komitə raykomları, raykomlar isə təsərrüfat rəhbərlərini lazım gəldikdə müdafiə etsələr, tezliklə dönüş yaratmaq mümkündür. Xalqın xeyri üçün bəzən sərtlik də vacibdir.

Əşrəf Məmmədov "Azərdamazlıq" respublika Elm-İstehsalat Birliyinin baş direktoru:

– Gözləmə mövqeyi yenə davam edir. Biz belə gözləyə-gözləyə adamların ümidini qırırıq. Sözümüzlə işimiz düz gəlmir. Həyatımız çörəkdən, ətdən, yağdan asılı olsa da, həmişə bu sahələrə ögey münasibət bəsləmişik.

İsmayıl Şükürov, Masallı rayonundakı 2 nömrəli çay fabrikinin direktoru:

– Burada çayçılardan çox danışıldı. Amma onun emalından söhbət getmədi. Adi bir detal üçün başqalarına möhtacıq. Hər hansı bir hissə üçün Gürcüstana qaçmalı oluruq. O da tapaq, ya da tapmayaq. Bütün kombayn və mexanizmləri Gürcüstanın ayrı-ayrı şəhərlərindən gətirməli oluruq. Məgər Bakı zavodlarının birində kiçik bir sex açmaqla çayçıları bu əzabdan qurtarmaq olmazmı? Çayımızın keyfiyyətindən narazılıq çoxdur. Elə özümüz də narazıyıq. Ancaq nə edək? Axı bizdən asılı olmayan min bir səbəb var.

Arif Axundov, Astara rayonundakı M.Cəbiyev adına sovxozun direktoru

– Mən bu müşavirədən təsərrüfata çox nigaran qayıdıram. Məni səbirsizliklə gözləyən sovxoz əməkçilərinə necə deyim ki, 15-16 ildir söhbət getsə də Xəzər sularının təsərrüfatımızı basmasının qarşısı yenə də alınmayacaqdır. Heç layihə hazır deyil. Hələ mən lazım olan tikinti materiallarını, ən başlıcası, pul vəsaitini demirəm. Axı hər il böyük zəhmət bahasına yetişdirdiyimiz məhsulların 50-60 faizi zay olub gedir.

Eldar Qəhrəmanov, respublika Dövlət Statistika Komitəsi sədrinin müavini:

– Yoxlamalar göstərir ki, kolxoz və sovxozlarda uçot-hesabat işləri yarıtmaz vəziyyətdədir. Əksər kolxoz sədri, sovxoz direktoru bilmir ki, nəyi var, nəyi yoxdur. Belə olanda hansı inkişafdan danışmaq olar. Hesabat və məlumatların vaxtında statistika orqanlarına təqdim olunmaması işimizi xeyli çətinləşdirir. Ona görə də təsərrüfatların fəaliyyətinə yaxşı nəzarət edə bilmirik. Sui-istifadə, oğurluq halları çoxdur. Mal-qaranın, qoyun-quzunun kütləvi şəkildə uçotdan gizlədilməsi faktları ciddi təşviş doğurur.

* * *

Axşam saat 9-dur. Çöhrələrdəki ifadələrdən hiss olunurdu ki, 6 saatlıq müşavirə heç kəsi yormamışdır. Adamlar əmin-arxayın geri qayıdırdılar. Bəziləri son illər unudulmuş belə yığıncaqlarda ilk dəfədir ki, iştirak edirlər. Əksəriyyəti isə belə müşavirələri çox görmüşlər. Amma çoxları əmin idi ki, bu müşavirənin nəticəsi səmərəli olacaq. Biz də bu ümiddəyik.

"Kommunist" qəzeti, 2 aprel 1991-ci il.

Kooperativin acı almaları

Respublikamızda ictimai-iaşə kooperativlərinin bir gün müddətində bağlanması haqqında qərar qəbul olunmuşdur. Elə bir vaxtda ki, küçədə, avtobusda xeyir-şər məclislərində söhbət haradan başlayırsa başlasın, bu mövzuya da toxunmaq yaddan çıxmır. Pisləyənlər çoxdur, tək-tək xoş sözlər də eşitmək olur. Camaatı bu narahatlığa görə qınamaq düz deyil. Yenidənqurmanın məhsulu adlandırdığımız kooperativlərin xeyri nə oldu, ümumiyyətlə ondan bir fayda götürə bildikmi? Bəs nə üçün yaranan gündən "kooperativ" ağacından "acı almalar" dərməyə başlamışıq?

Kooperativ yaratmaq göstərişi də bir vaxtlar mərkəzdən gəlmişdi. O saat gecikmək olmaz deyib, bu tədbiri vacib kampaniyaya çevirdik. Bəhsəbəhs düşdü. Gərgin yarış başlandı. Bir də baxıb gördük ki, necə deyərlər, daş atırsan kababxanalara dəyir.

İşbazlar əvvəlcədən işlərini ehtiyatlı tutdular, rəsmi idarələrdən möhürlü, imzalı kağızlár aldılar ki, özümüz məhsul istehsal edib, camaata nümunəvi qaydada xidmət göstərəcək, hətta bazarı da bollaşdıracağıq. Bu yerdə kədərli və gülməli el lətifəsi yada düşür: "Birinə dedilər ki, Əzrayıl bala paylayır. Müdrük adam tez yaxasını kənara çəkdi ki, balasını istəmirəm, balama dəyməsin...".

Əslində bütün kooperativlər haqqında eyni hökm çıxarmaq ədalətsizlik olardı. Əgər aqrar-sənaye kompleksinin müxtəlif sahələrində yaradılmış istehsal kooperativləri tərəvəz yetişdirməklə, mal-qara kökəltməklə, quşçuluq, balıqçılıq, arıçılıqla məşğuldursa, digərləri tikinti-abadlıq işləri aparırsa, yeni iqtisadi şəraitdə bunun nəyi pisdir ki? Ancaq yaz yağışından sonra artan göbələk kimi düzü-dünyanı ağzına alan iaşə kooperativləri haqda bu sözləri demək, doğrudan da çətindir.

Mağazalar gündən-günə boşalır, az-çox istehsal olunan məhsullar o anbardan çıxıb bu anbara dolur, camaatın əli boşa çıxır. Kooperatorlar isə dövlətdən aldıqları məhsulları od qiymətinə xırıd edirlər. Bolluq, firavanlıq olsaydı, heç kooperativ yaratmaq da yada düşməzdi. Axı çox-çox əvvəl sürəkli alqışlarla qəbul etdiyimiz ərzaq proqramının bizi qarşıda gözləyən ərzaq qıtlığına doğru necə sürətlə dartıb apardığını görüb kooperativlərdən dördəlli yapışmışdıq. Qazancımızın nə olacağını hesab-

lamaq, dəqiqləşdirmək lazım gələndə xarici ölkələrdəki kooperativlərin təcrübəsinə üz tuturuq, o saat da həyəcanımız yox oldu. Amma...

İaşə kooperativləri məhsulların bir hissəsini rayon ictimai iaşə idarələrinin fondlarından alır. Başqa sözlə desək, həmin idarələr iaşəçi kooperatorları ərzaq məhsulları ilə təchiz etməlidirlər. Niyə? Axı lazım olan məhsulları onlar özləri istehsal etməlidirlər. İkincisi, həmin idarələr qabaqca bilavasitə öz tabeliklərində olan restoranların və yeməkxanaların tələbatını ödəməlidir. Təəssüf ki, ictimai iaşə idarələri üçün kooperativlər doğma, öz tabeliklərindəki xidmət obyektləri isə ögey oldu. Bu idarələrdə belə bir prinsip yarandı. Təki kooperativlərin işi rəvan getsin, ictimai iaşə obyektləri işçiləri müştərilər yanında üzüqara qalsalar da olar. Səbəb də budur ki, dövlət yeməkxanasında və ya restoranda deyək ki, bir pitinin menyu üzrə qiyməti ən çoxu manat yarım olduğu halda, kooperativdə onun üçün müştəridən dörd-beş manat qoparacaqlar. Və heç kim bu özbaşınalığa irad tuta bilməyəcək. Əgər bu fikrə düşənlər olsa da, təxminən belə cavab alacaqlar: bura kooperativdir, yeməyi kefimiz istəyən qiymətə sata bilərik. Bazarda ətin kilosu 15-20 manat, göyərtinin dəstəsi 25-30 qəpikdir. Amma insafları olmayacaq deyələr ki, bazardan aldıqları əti ictimai iaşə idarəsinin verdiyi məhsulun gözünə qatmışlar. Qəribə cəhət budur ki, ictimai iaşə müəssisələrində müştərini bir manat aldatmaq faktına görə cinayət işi qaldırılır, kooperativ yeməkxanada müştərinin cibini gözgörəsi soyurlar, gözün üstə qaşın var, deyən olmur. Təkcə bu fakt göstərir ki, kooperativ hərəkatı məişətimizə tələm-tələsik, onun fəaliyyətinə nəzarət mexanizmi hazırlanmadan daxil edilmişdir. Bax indi çəkdiyimiz əzab-əziyyət, daha doğrusu, əslində yaxşı bir iş olan kooperativ hərəkatından üz döndərməmiz məhz elə bu yarımçıqlığın nəticəsidir.

Bolluq yaradacağına, güzəranımızı yaxşılaşdıracağına ümid bəslədiyimiz iaşə kooperativlərinin bizi bahalıq məngənəsində sıxdığını görəndə başa düşdük ki, bu hərəkat da ölkənin iqtisadiyyat sahəsində çalışan başbilənlərinin yeni eksperimenti imiş. Vaxtilə irimiqyaslı iqtisadi islahat, təsərrüfat hesabı metodunun birinci və ikinci modelləri, icarə podratı, məhsulun keyfiyyətinə fəhlə təminatı, istehsalın səmərəliliyinin, məhsulun keyfiyyətinin yüksəldilməsi və sair eksperimentlər kimi bu da özünü doğrultmayanda iaşə kooperativlərini bağlamaq kimi inzibati tədbirə əl at-

mağa məcbur olanda hansı çətinliklərlə qarşılaşacağımızı fikirləşməmişik, deyəsən. Məgər olmazdımı bu kooperativləri yaradanda əməlli-başlı fikirləşəydik ki, məhsul yetişdirmək üçün torpaq sahəsi, texnikası heyvandarlıq ferması olmayan kooperatorlar müştərilərə təklif etmək üçün əti də, yağı da, tərəvəzi də dövlət müəssisələrindən dövlət qiymətinə alacaq və birə-beş qiymətinə əhaliyə satacaqlar? Nə üçün iaşə kooperativlərini çox səxavətlə qeydə alan, şəhərin, rayonlararası magistral yolların, turizm və kurort zonalarının, istirahət guşələrinin ən gözəgəlimli sahələrində onlara yer verən rayon sovetlərinin icraiyyə komitələrindən soruşan olmayıb ki, nəyə görə maddi bazası, istehsal sahələri olmadığı halda, bir-birinin ardınca iaşə kooperativləri açılmasına imkan yaratmışlar? Əhalini narazı salan odur ki, kooperativlər yaranandan sonra ərzaq qıtlığı bir az da şaxələnib. Təkcə mağazaların piştaxtaları boşalsaydı dərd yarıydı. İndi ictimai iaşə obyektlərində də vəziyyət acınacaqlıdır. Fəhlə yeməkxanaları, məktəbli və tələbə iaşə obyektləri, ictimai yeməkxanalar elə günə düşüb ki, onların qapısını çox az adam açır. Acanlar da buraya gəldiklərinə peşman olurlar. İctimai yeməkxanalarda müştərilərə suda qaynadılmış makaron, adicə kartof püresi, qonşuluqdakı kooperativ kafedə isə nəinki qoyun ətindən, hətta qızıl balıqdan kabab təklif olunur. Deyə bilərlər ki, bunun nəyi pisdir? Müştəri üçün nə fərqi? İctimai yeməkxana olmasın, olsun kooperativ kafe. Bax elə məsələ də bundadır. Çünki dövlət kababxanasında müştəriyə ən çoxu iki-üç manata təklif olunan bir şiş kababı kooperativ yeməkxanada azı səkkiz-on manata camaata sırıyırlar. Biz 70 ildə buraxılmış nöqsanları buna görəmi açıb-ağardır, "durğunluq" illərini "müvəffəqiyyətə görəmi söyürük?".

Adama ağır gələn təkcə iaşə kooperativlərindəki görünməmiş bahalıq deyil, həm də mənəvi dəyərlər adı altında belə biabırçı hallara yol verilməsidir. Sanki kooperativ yeməkxana açan adamlar bu obyektlərə xalqımızın müqəddəslik rəmzinə çevirdikləri yer, şəxsiyyət adlarını vermək yarışına girmişlər. Diqqət yetirin: "Qarabağ", "Təbriz", "Savalan", "Gülüstan", "Koroğlu", "Azərbaycan" və sair. Üzərində bu lövhələr yazılmış kafe və barların içərisində nə oyunlardan çıxıldığını, adamların insafsızcasına soyulduğunu göz önünə gətirəndə sarsılmaya bilmirsən: axı mənəvi dəyərlər adı altında alver etmək azı cinayətdir. Bu adlar muzeylərə, parklara, xiyabanlara, küçələrə verilməlidir.

İctimai iaşə kooperativlərinin yaradılmasından bizə təsəlli olacaq bir şey varsa, o da bir çoxunun zirzəmilərdə yerləşməsi, yüzlərlə adamın burada dolanışıq tapmasıdır. Doğrudan da, vaxtilə üfunət və ağcaqanad mənbəyi olan neçə-neçə zirzəmini kooperatorlar abadlaşdırıb yararlı xidmət sahələrinə çevirmişlər. Lap qoy elə hamısı qohum-əqrəba olsun, nə qədər adam iaşə kooperativlərində özünə iş, dolanacaq tapmışdır. İndi həmin kooperativləri bağlamaq barədə qərar veriləndə fikirləşirsən ki, bu adamların, zirzəmilərin taleyi necə olacaq? Axı həmin zirzəmiləri abad guşələrə çevirmək üçün kooperatorlar nə qədər vəsait sərf etmişlər. Özü də bu vəsaitin böyük bir hissəsi dövlətdən ssuda kimi götürülmüşdür. Bəs bu borcu kim və necə qaytaracaq. Bu barədə ciddi düşünməli, zərərə düşməmək üçün yollar axtarılmalıdır. Məsələn, kooperativ xidmət obyektlərini onları işlədən adamları saxlamaq şərti ilə ictimai-iaşə müəssisələrinə çevirmək olar. Əlbəttə, həm kooperatorların, həm də dövlətin mənafeyini nəzərə almaq şərti ilə. Sözümüzün canı budur ki, kooperativlər bağlanarkən bu məsələdə heç bir cəhət diqqətdən yayınmamalıdır. Yoxsa kooperativ-iaşə obyektləri açılarkən yol verilmiş nöqsanlar, onları bağlayarkən daha acınacaqlı nəticələrin yaranmasına səbəb ola bilər.

"Kommunist" qəzeti, 24 yanvar 1991-ci il.

Abşeron... onu necə xilas etməli?

Respublikanın Bakı və Sumqayıt kimi ən böyük sənaye mərkəzlərinin yerləşdiyi Abşeron yarımadasında ekoloji tarazlığın pozulması bu gün adamları ciddi narahat edir. İnsan fəaliyyətinin təbiətin ahəngini pozması nəticəsində yaranmış ekoloji fəlakətin qarşısını almaq üçün görülən tədbirlərin əhəmiyyətini azaltmadan demək olar ki, bu sahədə lazımi dönüş əldə edilməmişdir. Ekologiyanı necə sağlamlaşdırmalı, Bakının və Sumqayıtın atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılmasına necə nail olmalı? Mazutla çirkləndirilmiş, Samur-Abşeron kanalından sızan və lay sularının səviyyəsinin qalxması nəticəsində korlanmış minlərlə torpaq sahəsini münbitləşdirmək üçün nə etməli? "Ölü dəniz"ə çevrilmək təhlükəsinə məruz qalan Xəzəri və onun sərvətlərini necə xilas etməli? Radioaktiv fonun normadan yüksək olmasına imkan yaradan mənbələrin yaşayış məskənlərindən kənara çıxarılması üçün hansı tədbirlər görülməlidir?

Respublika "Bilik" cəmiyyəti Bakı şəhər təşkilatının iclas salonunda keçirilmiş brifinqdə bu və digər məsələlərdən söhbət açılmış, onların həlli yolları axtarılmışdır. Azərbaycan SSR Dövlət Təbiəti Mühafizə Komitəsinin təşkil etdiyi birifinqdə müxtəlif nazirliklərin və baş idarələrin, sənaye müəssisələrinin, elmi-tədqiqat inistitutlarının, ictimai-siyasi təşkilatların nümayəndələri, jurnalistlər iştirak edirdilər.

Birifinqdə istər ətraf mühitə nəzarət edən rəhbər orqanların nümayəndələrinin, istər ekologiyanın korlanmasında bu və ya digər dərəcədə olan müəssisələrin işçilərinin məlumatlarında, istərsə də adamların sağlamlığı, gələcək nəsillərin də istifadə edəcəyi təbii sərvətlərə ehtikar münasibəti üçün narahatlıq üzündən fəaliyyətə başlamış könüllü ictimai-siyasi təşkilatların üzvlərinin sorğularında ümumi bir cəhət var idi: Abşeronun ekologiyasını pərakəndə tədbirlərlə sağlamlaşdırmaq mümkün deyil, bu iş kompleks surətdə – qüvvələri, vəsaiti, səyləri əlaqələndirmək, vahid məcraya yönəltmək yolu ilə həll edilməlidir. Görülən tədbirlər istənilən nəticəni necə verə bilər ki, Dövlət Təbiəti Mühafizə Komitəsinin, onun yerli orqanlarının səlahiyyət hüquqlarını təsbit edən qanun yoxdur. Əslində bu orqanlar ekoloji intizamı pozanları son qəti tədbir kimi yalnız cərimə edə bilər ki, bu da uzun illərin təcrübəsinin göstərdiyi kimi, lazımi səmərə vermir. Yaxud

ətraf mühitin çirklənməsi dərəcəsini müəyyənləşdirmək üçün lazımi qədər müasir nəzarət-ölçü cihazları, xüsusi laboratoriyaları olmayan bir komitə ekoloji pozuntuları necə müəyyən edib onları aradan qaldırmaq üçün tədbirlər görə bilər? Ən nəhayət, vahid ekoloji maliyyə fondu yoxdursa və bu cür fondları olan müəssisələr həmin vəsaitdən çox halda öz təyinatı üzrə istifadə etmirsə, həmçinin bu iş üzərində xüsusi nəzarət yoxdursa, əlbəttə, görülən tədbirlər səmərə verməyəcəkdir.

Birifinqin iştirakçılarını ciddi narahat edən problemlərdən biri də bu idi ki, Bakının və Sumqayıtın sənaye müəssisələrinin böyük əksəriyyətində istehsal qurğuları köhnəlmişdir, texnoloji intizam tez-tez pozulur, istehsal tullantılarının və zəhərli qazların atmosferə atılmasının, çirkabın dənizə axıdılmasının qarşısını almaq üçün kompleks tədbirlər görülmür, iri nəqliyyat müəssisələrinə məxsus avtomobillərin yanacaq sisteminin nasazlığını müəyyənləşdirməkdən ötrü xüsusi diaqnostika cihazları yoxdur və onlardan da əslində istifadə edilmir. Həmin təsərrüfatların rəhbərləri təbiəti mühafizə orqanlarının təlimat, göstəriş və qadağanlarına məhəl qoymayaraq, "tüstülü maşınları" şəhərin küçələrinə buraxırlar ki, bu da havanın işlənmiş qazlarla yüksək dərəcədə çirklənməsinə səbəb olur. Samur-Abşeron kanalının şorlaşdırdığı, Bakının ətrafındakı neft yataqlarında mazutun və lay sularının korladığı torpaq sahələrinin rekultivasiyası üçün əslində heç bir iş görülmür.

Birifinqdə qeyd edildi ki, hələ torpaqların rekultivasiyasının məqsədli elmi konsepsiyası hazırlanmamışdır, bu işi səriştəli surətdə və xüsusi texnologiya üzrə yerinə yetirəcək ixtisaslı mütəxəssislər, lazımi texnika yoxdur. Problemlərin həllində respublika Elimlər Akademiyasının müvafiq institutları, ali məktəblər çox iş görə bilərlər. Diqqət belə bir məsələyə yönəldildi ki, Abşeronun kompleks ekoloji xəritəsinin hazırlanması sahəsində iş sürətləndirilməlidir.

Birifinqdə ekoloji böhrandan çıxmaq yollarının axtarılmasında, nöqsanların aradan qaldırılması işinə kömək göstərilməsində jurnalistlərin əməyini qiymətləndirməklə yanaşı qeyd edildi ki, onlar problemin həlli üçün daha səriştəli, məsələnin mahiyyətini doğru-düzgün aşkarlayan yazılar hazırlayıb qəzet səhifələrinə və efirə çıxarmalıdırlar.

"Kommunist" qəzeti, 3 yanvar 1991-ci il.

Balıq niyə tükənib?

(Həm də yalnız bu barədə yox)

Əsrlərdən bəri sahildə yaşayanları yedizdirən, aclıq təhlükəsi yaranan anlarda haraya çatan Xəzərin dünya şöhrətli balıq sərvəti niyə tükənib? Bu sual elmi ictimaiyyətə, problemin həlli yollarını öyrənən mütəxəssislərə, eləcə də geniş kütləyə haqlı narahatlıq gətirib. Axı ölkədə, respublikada yaranmış ərzaq çətinliyi və üstəlik hədsiz bahalıq ucuz başa gələn balıq məhsullarına tələbatı qat-qat artırır. Müxbirimiz Cənub Xəzər Balıqçılıq İdarəsinin rəisi Zülfüqar Quliyevdən müsahibə almışdır.

– *Xəzər həmişə müxtəlif balıq növləri ilə zəngin olub. Ancaq son bir neçə onillikdə vaxtaşırı həyəcan təbili çalınıb ki, qiymətli balıqların ehtiyatı tükənməkdədir. Bu mənada respublikamızda balıqçılığın tarixinə qısaca nəzər salmaq oxucular üçün maraqlı olardı...*

– Balıq ovunda ən yüksək göstəricilər 1901-1903, 1913-1930-cu illərə təsadüf edir. Əsrimizin əvvəlində SSRİ-də ovlanan nərə balıqlarının (35-39 min ton) və onlardan alınan qara kürünün 60,6 faizi Kür-Xəzər hövzəsinin payına düşürdü. Kür çayında nərə balıqlarından ildə 17 milyon manat gəlir əldə edilirdi. 1930-cu ildə Xəzərdə balıq ovu 600 min tona çatmış, həm də bunun 90 faizə qədəri qiymətli balıqlar olmuşdur.

Müharibədən sonrakı illərdə Xəzərə tökülən çaylar üzərində hidrotexniki qurğuların tikilməsi, onların suyundan suvarma və digər məqsədlər üçün normadan artıq istifadə olunması, dənizdə seysmik-kəşfiyyat işlərinin genişləndirilməsi və digər səbəblər üzündən balıq ovu kəskin surətdə azalmağa başladı. Bu vaxt vəziyyəti tənzim etmək və azalmaqda olan ehtiyatın süni yolla artırılması metodlarını işləyib hazırlamaq vəzifəsi qarşıya çıxdı.

– *Yəqin bu məqsədlə yaradılmış balıqartırma zavodlarını və təsərrüfatlarını nəzərdə tutursunuz?*

– Düzdür. Xəzər hövzəsində nərə balıq ehtiyatını süni yolla artırmaq üçün 11 zavod tikilib istifadəyə verilib (onlardan 3-ü Kür çayı üzərindədir). Bu zavodlar ildə 90 milyon nərə balığı körpəsi yetişdirib dənizə buraxır (Ondan 17 milyonu bizim zavodlarda yetişdirilir). Kür qızıl balığını artırmaq üçün iki zavod, karp cinsli balıqları artırmaq üçün 6 təsərrüfat yaradılıb. Həmin zavod və təsərrüfatlarda ildə 150-200 minə qədər qızıl

balıq, 400 milyondan çox çəki, çapaq, kütüm, külmə, xəşəm və digər balıq körpəsi yetişdirilir.

Əlbəttə, bütün bunlar balıq ehtiyatını qismən bərpa etmək, bəzi növlərin isə məhv olub sıradan çıxmaq təhlükəsinin qarşısını almaq məqsədi güdürdü. Hesablamalara görə 1990-cı ildə nərə ovu 30 min tona, 2000-ci ildə 38 min tona, sonrakı illərdə 50 min tona çatdırılmalı idi. Lakin proqnoz özünü doğrultmadı. Ən acınacaqlı cəhət budur ki, bəzi balıqların (ilanbalığı, poru, şirbit, şahmayı) nəslinin kəsilmək təhlükəsi yarandı. Vaxtilə Abşeron sahillərində geniş yayılmış dəniz sıfı və qılınc balığını isə həmişəlik itirdik.

– Bəs Xəzərdə qiymətli balıq sərvətinin məhv olmasına təsir edən hansı amillərdir? Ümumiyyətlə, balıq ehtiyatlarını artırmaq mümkündürmü?

– Bəri başdan deyək ki, Xəzərin, xüsusilə Kür-Xəzər hövzəsinin balıqtəsərrüfat əhəmiyyətini 40 il bundan əvvəlki vəziyyətə qaytarmaq qeyri-mümkündür. Lakin balığı heç olmasa, tamamilə məhv olmaqdan saxlamaq, bəzilərinin ehtiyatını artırmaq olar.

Elmi dəlillər əsasında müəyyən edilmişdir ki, balıqların say dinamikası, ehtiyatın vəziyyəti təbii çoxalma yerlərinin, kürüvermə sahələrinin və əlverişli yemləmə şəraitinin mövcud olmasından asılıdır. Dənizdə əsrlərdən bəri formalaşmış ekoloji sistem kökündən dəyişib. Bu isə hövzənin bütün canlılar aləminə öz mənfi təsirini göstərir.

Azərbaycanın mühüm vətəgə balıqlarının əksəriyyəti şirin su mənşəlidir. Vaxtilə onlar öz kürülərini Mingəçevir bəndindən yuxarılarda – İori, Alazan, Arazın qolu olan Həkəri və digər çaylarda, eləcə də Kürətrafı göllərdə, daşqınlarda tökürdü. Artıq bu yerlər çoxdan əlçatmaz sahələrə çevrilib.

Kür çayında Varvara bəndində, Araz çayında isə Bəhramtəpədən aşağıda məhdud sahədə mövcud kürüləmə yerləri (300 hektaradək) balıqların "əlindən alınıb". Hesablamalara görə Kür suyunun 70 faizə qədərindən, bəzən daha çoxundan suvarma məqsədləri üçün istifadə edilir. Halbuki SSRİ-də və dünyada mövcud ümumi qaydaya görə çayların suyundan istifadə ümumi həcmin 10-15 faizindən artıq olmamalıdır.

– Xəzərə axan çayların suyundan təkcə müxtəlif təsərrüfat məqsədləri üçün istifadə edilsəydi dərd nə idi? Əsas bəla həm çayların, həm də dənizin intensiv çirkləndirilməsidir.

– Hələ 1977-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarında 1985-ci ilədək Xəzərə çirkab axıdılmasını tamamilə dayandırmaq nəzərdə tutulurdu. SSRİ Dövlət Plan Komitəsinin, SSRİ Təbiəti Mühafizə Komitəsinin verdiyi arayışda göstərilir ki, bu qərar yerinə yetirilməyib. Ümumiyyətlə, son iyirmi ildə Xəzərə həsr olunmuş 16 hökumət qərarı var. Lakin onların heç biri həyata keçirilməyib. Fikir verin: Xəzər ətrafında yerləşən 200-ə qədər iri şəhər və 220-dən çox iri sənaye müəssisəsi hər il dənizə tərkibində həyat üçün təhlükəli olan 8 milyard kubmetrdən artıq çirkab axıdır. Respublikamızın ərazisində bu rəqəm 1,5 milyon kubmetrdir. İl ərzində Xəzərə 7 milyon tonadək müxtəlif yağlar, 1 milyon ton fəal zəhərləmə xassəsinə malik sintetik maddələr, 190 tonadək fenol birləşmələri, 60 min tondan artıq digər zəhərli maddələr daxil olur. Sumqayıtın sənaye müəssisələrinin təqsiri üzündən yaranmış "ölü zona" ilbəil öz sərhədini genişləndirir. Təəccüb doğuran budur ki, Xəzərdə fenol və neft məhsulları ilə çirkləndirmə normadan 10-16 dəfə çoxdur, lakin bu fakt indi də gizli saxlanılır. Müəssisələrin rəhbərləri və onun təmizliyinə nəzarət edən "mütəxəssislər" arasında belə bir ziyanlı fikir hökm sürür ki, "Xəzərin çirkləndirilməsi balıqları və dənizdə yaşayan digər canlıları məhv edəcək dərəcədə deyildir".

– Belə çıxır ki, dənizin çirkləndirilməsi hələ bundan sonra da davam etdiriləcək?

– Əgər qəti tədbirlər görülməsə vəziyyət daha da acınacaqlı olacaq. Kürətrafı zonada beş böyük kollektor kanal (Şirvan, Komsomol, Muğan-Salyan, Şor-Kanal-1, Şor-Kanal-2) əkin sahələrindən və sənaye müəssisələrindən toplanan suyu dənizə gətirir.

Xəzərin Abşerondan şimala və cənuba doğru sahilləri çirklənməyə daha çox məruz qalır. Hər il bu zonada balıq körpələrinin kütləvi qırılması müşahidə olunur. Qəribədir, külli miqdarda vəsait və zəhmət hesabına yetişdirilib dənizə buraxılan körpə balıqlar amansızcasına məhv edilir.

– Yadınızdadırsa, 1998-ci ilin yay aylarında Volqa çayında nərə balıqlarının kütləvi surətdə qırılması barədə mətbuatda verilmiş bir xəbər hamını həyəcana gətirdi. Bu, Xəzərin ekoloji fəlakətlə üz-üzə dayanması demək deyildimi?

– Yəqin ki, həmin ilin iyun-iyul aylarında baş vermiş hadisəni nəzərdə tutursunuz.. İki ay ərzində kürü vermək üçün Volqa çayına keçmiş 8,5 min

iri nərə balığı məhv olmuşdur. Dəyən zərər 35 milyon manat məbləğində idi. Kompleks tədqiqatlar göstərdi ki, burada nərə balıqları "miopatiya" deyilən xəstəliyə tutulub: onların əzələ lifləri elastikliyini itirdiyindən öz-özünə parçalanır, kürülərin xarici örtüyü qısa müddətdə parçalanır, nəsilvermə qabiliyyəti pozulur. Qırğına səbəb isə hövzənin tərkibində civə, sink və digər ağır metallar olan müxtəlif sənaye və istehsalat tullantıları ilə çirkləndirilməsi idi.

– Azərbaycanda balıqçılığın taleyi həmişə Kür çayı ilə bağlı olmuşdur. Bu çay, necə deyərlər, Xəzər üçün inkubatordur. Elə buna görə də Kür son vaxtlara qədər dünyanın ən zəngin balıq ehtiyatı olan su hövzələrindən biri hesab edilib. Bəs indi?

– Kür çayında vəziyyət heç də Volqadan yaxşı deyil. Çirklənmə dərəcəsi son illər daha da artıb. Kür qızıl balığının bədən səthində və daxili orqanlarında irinli şişlər, digər qeyri-normal dəyişikliklər müşahidə edilməkdədir. Belə törədicilərdən alınmış körpə balıqlar mühitin təsirinə davamsızdır. Kütləvi qırılma var. Bu isə o deməkdir ki, növbəti qurban Kür qızıl balığı olacaq.

– Yeri gəlmişkən, mümkünsə bir məsələni aydınlaşdıraq. Belə fikir var ki, nərənin ehtiyatlarının azalmasında həm də vaxtilə Xəzərə gətirilib artırılmış kefal balığının müəyyən təsiri olmuşdur.

– Bu, yanlış mülahizədir. Ona görə ki, 1930-33-cü illərdə Qara dənizdən Xəzərə gətirilmiş kefal balıqları SSRİ-də iqlimləşdirmə sahəsində həyata keçirilən ən uğurlu tədbir hesab edilir. Bu balıqlar dənizdə yaşayır, burada kürü verir, artır, çürüntülərlə qidalanır. Nərələr isə dənizdə böyüyür, kürü vermək, çoxalmaq üçün isə dənizdən Kür və Araz çaylarına keçirlər. Kefal balıqları heç zaman nərələrin kürü tökdüyü yerlərdə olmurlar. Deməli, onların ehtiyatının azalmasına da səbəb ola bilməzlər.

– Xəzərdə və təbii su hövzələrində yaranmış böhran süni balıqyetişdirmənin – hovuz balıqçılığının inkişafını tələb edir. Bu sahədə vəziyyət necədir?

– 1978-ci ildə yaradılmış xüsusi idarə müəyyən işlər görsə də bunu qənaətbəxş hesab etmək olmaz. Hovuz balıqçılığının inkişaf etdirilməsi barədə xeyli vaxtdır ancaq söhbət gedir. İmkanları az olsa da qonşu respublikalar bu sahədə bizdən üstündürlər. Onlar bolluğu təbii su hövzələrindən

ovla deyil, orada yetişdirilən balıqlar hesabına təmin edirlər. Bizdə isə bu günədək balıq körpələri yetişdirən xüsusi məntəqələr yoxdur. Odur ki, balıq körpələrini başqa respublikalardan gətirməyə məcburuq.

Forel balıqçılığını inkişaf etdirmək üçün də respublikada müəyyən imkanlar var. Bizim təşəbbüsümüzlə Şəki-Zaqatala və Ağdam rayonlarında yaradılmış təcrübə bu sahənin perspektivli olmasına əyani sübutdur. Dünyanın 115 ölkəsində geniş yayılmış bu tədbir bizdə öz həllini tapa bilmir. Yenə də deyirəm, balıq ehtiyatının kəskin surətdə pozulduğu bir vaxtda plan xatirinə onların ovunu intensivləşdirmək vəziyyətdən heç də çıxış yolu deyildir.

– Demək istəyrsiniz ki, kooperativlərin, habelə bu sahə ilə heç bir əlaqəsi olmayan müəssisələrin balıq ovlamağa cəhd göstərmələri gərgin olan vəziyyəti daha da mürəkkəbləşdirmişdir?

– Acınacaqlı cəhət budur ki, onların heç biri zəhmət çəkib hovuz düzəltməyə, satlıq balıq yetişdirməyə təşəbbüs göstərmir, əksinə, yüngül zəhmətlə xeyli qazanc əldə edir. Maraqlı burasıdır ki, kooperativlərin əksəriyyətinin əsasnaməsində hovuz balıqçılığı təşkil etmək yolu ilə yaranmış ərzaq qıtlığını aradan qaldırmaq, respublika əhalisinin balıq və balıq məhsulları ilə təmin etmək barədə danışılır. Lakin bu kooperativlər, bəzi hallar istisna olmaqla, yalnız öz sahiblərinə xidmət edirlər. Belə hesab edirəm ki, onlar nə qədər tez ləğv olunsa, balıq ehtiyatına vurulan zərərin qarşısı daha tez alınar. Balıq ovu üzərində nəzarət də zəifdir. Ovlanan məhsul kombinatlara təhvil verilməkdənsə elə oradanca baha qiymətə "müştərilərə" satılır.

– Elə bu yerdə brakonyerlər yada düşür. Təəssüf ki, bu bəlaya qarşı mübarizə lazımi səviyyədə aparılmır.

– Azərbaycanın ərazi sularında ildə 2 minədək brakonyerlik hadisəsi qeydə alınır. Brakonyerlərə qarşı mübarizənin səmərəli olması üçün yerlərdə bu sahəyə xidmət edən təbiəti mühafizə və hüquq işçilərinin birgə fəaliyyəti lazımdır. Amma çox zaman bunun əksini görürük. Məsələn, idarənin Kürün Ağstafa-Qazax zonasına xidmət edən onuncu rayon müfəttişliyi Qarayazı Dövlət qoruğunun ərazisində – Ehram çayının Kürə qovuşduğu yerdə zəhərli maddələrin köməyi ilə brakonyerlik edildiyindən xəbərdar idi. Lakin onları yaxalamaq mümkün olmurdu.

Qəribədir ki, qoruğun direktoru kömək göstərmək əvəzinə müfəttişliyin əməkdaşlarını kənar şəxslər sayıb reyd keçirilməsini qadağan edirdi. Xəlvəti keçirilən reyddə brakonyerlər yaxalandı, onlardan 180 kiloqram balıq və ov alətləri müsadirə edildi. Şamxor su-elektrik stansiyasında da belə bir hadisə baş verib. Burada yalnız respublika prokurorluğu işə qarışdıqdan sonra müfəttişliyin əməkdaşlarına ərazidə iş aparmaq şəraiti yaradılıb.

Bəzi nəzarət fünksiyalarının Respublika Təbiəti Mühafizə Komitəsinə həvalə edilməsi ilə əlaqədar idarənin 49 ştat vahidinin, iki gəmisinin, bir minik avtomaşınının oraya verilməsi brakonyerliyə qarşı mübarizəni xeyli çətinləşdirmişdir. Bu gün brakonyer güclü texniki vasitələrlə, eləcə də odlu silahla dənizə çıxır. Ona qarşı mübarizə aparanlar isə köhnəlmiş, istismar müddətini çoxdan başa vurmuş vasitələrdən istifadə edir. Balıq mühafizə işçilərinin təhlükəsizliyini təmin edən qanunun qüvvədə olmaması da işdə müəyyən çətinlik yaradır.

– *Bir mütəxəssis kimi Azərbaycanda balıqçılığın tənəzzülünün qarşısını almaq, onun inkişafına nail olmaq üçün hansı tədbirlərin həyata keçirilməsini vacib bilirsiniz?*

– Xəzərin harayına çatmaq, onu məhv olmaqdan qorumaq üçün ona sahiblik edən güclü təşkilat – mərkəz yaradılmalıdır. Hazırda mövcud elmi və ictimai təşkilatların heç biri bu vəzifənin öhdəsindən gəlmir.

"Kommunist" qəzeti, 12 iyun 1991-ci il.

ÇIXIŞLAR

Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 34-cü iclasında çıxış

– Hörmətli xanımlar və cənablar!

Sürətlə inkişaf edən dünyada Yer kürəsinin müxtəlif guşələrində baş verən hadisələr haqqında obyektiv və qərəzsiz informasiyanın yayılmasını, habelə bizim agentliklər arasında əlaqələrin daha da genişləndirilməsini zaman özü tələb edir.

OANA-nın İcraiyyə Komitəsinin 2008-ci il sentyabrın 1-dən 4-dək Bakıda, tarixən Şərq ilə Qərbin, Şərq və Qərb sivilizasiyalarının qovuşduğu, özünün yüksək tolerantlığı və qonaqpərvərliyi ilə həmişə fərqlənmiş bir məkan olan Azərbaycanda keçirilmiş 30-cu iclasında da biz iki ən nüfuzlu regional informasiya alyansının – OANA və EANA-nın rəhbərlərini, aparıcı xəbər agentliklərini təmsil edən dostlarımız və həmkarlarımızın iştirakı ilə həm Avropanı, həm də Asiyanı, əslində bütün dünyanı narahat edən məsələlər barədə ətraflı müzakirələr apardıq. Bu gün biz burada – Tokioda toplaşmışıq və dünya informasiya məkanını narahat edən, bizim birlikdə həll etməli olduğumuz məsələlər yenə gündəmdədir.

Tamamilə aşkardır ki, XXI əsrin mediası əvvəlki jurnalistikadan - bizim peşə karyeramızın başlanğıcında adət etdiyimiz jurnalistikadan xeyli fərqlənir. Bu gün informasiya agentliklərinin qarşısında duran əsas məsələ hər bir insanın həyatının ayrılmaz hissəsinə çevrilmiş İnternetlə, sosial şəbəkələrlə qarşılıqlı fəaliyyətdə olmaq və eyni zamanda, informasiyanın əsas təchizatçısı rolunu qoruyub saxlamaqdır.

İnternet, podkaslar, mobil rabitə, VOİP-telefonlaşdırma, mikrobloqqinq, iPhone bazasında videorabitə, sosial şəbəkələrin və kommunikasiya vasitələrinin bir sıra başqa formaları çox qısa müddətdə gündəlik həyatımıza daxil olmuşdur.

Bu gün sosial medialar ünsiyyət məkanından daha çox informasiya partlayışının detonatoru rolunu oynayır, çünki onlar cəmi bir neçə saniyə ərzində məlumatları bütün dünyaya yaymaq, beləliklə, bu və ya digər əməliyyatın gedişinə təsir göstərmək imkanına malikdir.

Bu gün multimedia bizim gündəlik reallıqlardan birinə çevrilmişdir. O, informasiyanın yaradılmasının və yayılmasının müxtəlif formalarından eyni vaxtda istifadə edilməsini nəzərdə tutur. Hazırda informasiya agentliyinin

arsenalında mətn tipli məlumatlarla yanaşı, video və audio xəbərlərin də olması artıq heç kəsi heyrətləndirmir. Bu mənada ixtisaslaşdırılmış portalların xidmətlərindən istifadə etməyə heç bir ehtiyacı olmayan AzərTAc özünün xarici ölkələrdəki tərəfdaşlarından əsla geri qalmır.

AzərTAc istehlakçılar üçün əlyetərli olan səsli informasiya da yayır. Şübhəsiz, yüksək texnologiyaların gündəlik işimizdə tətbiq edilməsi, multimedia vasitələrindən istifadə sahəsində ən uğurlu tərəfdaşlarımızın və həmkarlarımızın təcrübəsinin öyrənilməsi və bu təcrübədən istifadə edilməsi nəticə etibarilə jurnalistlərin özünün peşəkarlığının artmasında təzahür edir, çünki bütün bu yeniliklər dünyada baş verən hadisələrə tamam başqa nəzərlə baxmağa imkan verir.

Bununla əlaqədar qeyd etmək istəyirəm ki, Asiya-Sakit okean regionu sürətlə inkişaf edir və bu gün - bütün dünyanın nəzərlərinin bu regiona yönəldiyi, bu inkişafın diqqətlə izləndiyi bir vaxtda region ölkələrinin dünya siyasətinə təsir dairəsinin daha da genişlənməsi məsələsi gündəmdədir, deməli, regionun informasiya potensialı da artır. Burada OANA kimi mühüm platformanın əhəmiyyəti xüsusilə artır. Biz bu platforma çərçivəsində böyük iş aparmalıyıq.

Əlbəttə, biz OANA-nın fəaliyyətini daha yaxşılaşdırmaq üçün yeni yollar axtarmalıyıq. Bununla bağlı mənim təkliflərim vardır. OANA-nın internet resursu artıq gündəlik həyatımızın reallıqlarına çevrilmiş multimedia məhsullarının üzv agentliklərin saytlarında bərabər qaydada paylanması üçün körpü rolunu oynaya bilər. Əminəm ki, üzv agentliklərin OANA çərçivəsində görüntülü xəbərləri daha çox yayması alyansımızın fəaliyyətinə maraq coğrafiyasını daha da artıra bilər.

İkinci təklifim ondan ibarətdir ki, üzv agentliklər arasında əlaqələrin inkişafı, təcrübə mübadiləsi OANA çərçivəsində əməkdaşlığın səmərəliliyini daha da artıra bilər. Bu məsələdə AzərTAc-ın yaxşı təcrübəsi vardır. Ötən illərdə agentliyimizin Türkiyənin ANADOLU, İndoneziyanın ANTARA, Rusiyanın İTAR-TASS və digər agentliklər ilə təcrübə mübadiləsi sahəsində çox yaxşı ənənələri yaranıb. Biz bu ənənələri bütün üzv agentliklərlə davam etdirməyə hazırıq.

Digər bir məsələni də qeyd etmək istəyirəm. biz bu gün yalnız OANA çərçivəsində keçirilən iclaslarda, konfranslarda bir-birimiz haqqın-

da məlumat əldə edə bilirik. Hesab edirəm ki, OANA-nın saytında üzv agentliklərdə ən son yenilikləri təqdim edəcək korporativ xəbərlər bloqunun yaradılmasına ehtiyac vardır. Bu bloq vasitəsilə biz agentliklərimizin həyatında baş verən ən son təşkilati və texnoloji yeniliklərdən xəbər tuta bilərik. Bu cür bloqun yaradılması OANA platformasında daha sıx əməkdaşlığa töhfə vermiş olar.

Əminəm ki, OANA-nın İcraiyyə Komitəsinin bu iclası aparıcı xəbər agentliklərinin daxil olduğu qurumun fəaliyyətinə daha güclü impuls verəcəkdir. Ümumiyyətlə, bu qurum Asiya-Sakit okean regionu kimi ucsuz-bucaqsız bir arealı əhatə edəcəkdir.

Hər halda biz bu məqsədə çatmağa can atırıq.

Diqqətinizə görə sağ olun.

Tokio, 29 noyabr 2012-ci il

Ermәni faşizminin vә ermәniliyin mahiyyәtini ifşa edәn kitab

("Azәrbaycanlıların soyqırımı: Tarixin qanlı salnamәsi" kitabının tәqdimat mәrasimindә çıxış)

– Bu gün biz bu salona tariximizin acı sәhifәlәrindәn biri olan 31 Mart – Azәrbaycanlıların Soyqırımı Günü әrәfәsindә toplaşmışıq. Bildiyiniz kimi, ulu öndәrimiz Heydәr Əliyev 1998-ci il martın 26-da 31 Mart – Azәrbaycanlıların Soyqırımı Günü ilә bağlı xüsusi Fәrman imzalamışdır. Hәmin tarixdәn başlayaraq hәr il martın axırlarında ölkәmizin hәr yerindә, hәr bir regionda, xarici ölkәlәrdә soyqırımı qurbanlarının xatirәsi dәrin kәdәr hissi ilә anılır vә bununla bağlı silsilә tәdbirlәr keçirilir.

Bu kitabın ermәni faşizminin mahiyyәtini, xalqımızın әsrlәr boyu mәruz qaldığı qanlı qırğınların baiskarlarını vә tәşkilatçılarını, soyqırımı haqqında әsl hәqiqәtlәri tәkzibolunmaz faktlar әsasında geniş ictimaiyyәtә çatdırmaq baxımından müstәsna әhәmiyyәti vardır. Şübhәsiz ki, bu dәyәrli kitabı vәrәqlәyәn hәr bir kәs mәnfur qonşularımızın xalqımızın başına gәtirdiyi faciәlәrin tarixi köklәrinә bir daha nәzәr salacaq, ermәni faşizminin xislәtini vә ermәniliyin mahiyyәtini dәrindәn dәrk edәcәkdir. Kitabda toxunulan mәsәlәlәrin әhatә dairәsinin çox geniş olduğunu görmәk üçün birinci cilddәki yazıların bir neçәsinin sәrlövhәsinә diqqәt yetirmәk kifayәtdir: "Ermәnilәrin Azәrbaycana köçürülmәsi vә mәskunlaşması"; "Ermәnilәrin Osmanlı imperiyasında türklәrә qarşı törәtdiklәri soyqırımı"; "1905-1920-ci il soyqırımları", "1948-1953-cü illәrdә azәrbaycanlıların Ermәnistandan deportasiyası"; "Sonuncu deportasiyanın qanlı olayları", "Sumqayıt – ermәni tәxribatının yeni ünvanı"; "Qarabağ müharibәsinin qara salnamәsi"; "20 Yanvar faciәsi" vә s.

Kitabın ikinci cildindә, әsasәn qanlı hadisәlәrlә (20 Yanvar, Xocalı soyqırımı, ermәnilәrin Qubada törәtdiklәri qәddarlığı әks etdirәn Quba kütlәvi mәzarlığı vә s.) bağlı rәsmi xronika, BMT, AŞPA, ATƏT, İslam Əmәkdaşlıq Tәşkilatı tәrәfindәn qәbul edilmiş qәrarlar, sәnәdlәr, ümummilli lider Heydәr Əliyevin vә Prezident İlham Əliyevin mötәbәr beynәlxalq tәşkilatların tәdbirlәrindә çıxışları, nitqlәri yer almışdır.

Bu cilddә, hәmçinin Türkmәnçay müqavilәsinin mәtni, 1918-ci ildә ermәnilәr tәrәfindәn dağıdılan kәndlәrin, 1948-1953-cü, 1988-1989-cu illәrdә

əhalisi Ermənistan tərəfindən deportasiya edilmiş azərbaycanlı yaşayış məntəqələrinin siyahısı verilmişdir ki, bunlar da olduqca əhəmiyyətlidir.

Son illərdə erməni vəhşiliyinin səbəb və nəticələri, Azərbaycanın əzəli torpaqlarında Ermənistan dövlətinin yaradılması, xalqımızın milli mədəniyyət nümunələrinin, toponimlərimizin özününküləşdirilməsi tarixi faktlarla əsaslandırılmışdır.

Bir məqamı da xüsusi qeyd etmək istəyirəm. Bu dəyərli nəşrin ideya rəhbəri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Gorus-2010: absurd teatrı mövsümü" adlı fundamental əsərinin kitabda ön söz əvəzi kimi yer alması ikicildliyin dəyərini daha da artırmış, materialların mötəbərliliyinə və dərin təhlilə söykəndiyinə dəlalət edir.

Hər cildi dörd fəsildən ibarət olan bu qiymətli kitabın ərsəyə gəlməsində nəşrin redaktoru, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əli Həsənovun böyük zəhmətini qeyd etmək lazımdır.

Kitabın buraxılışına məsul Milli Məclisin deputatı, baş redaktor Bəxtiyar Sadıqovun və "Azərbaycan" qəzeti redaksiyası kollektivinin gördüyü iş həqiqətən diqqətəlayiqdir. Tarixi sənədlərə, faktlara əsaslanan, elmi təhlil əsasında yazılmış bu cür kitablar ən azından rus və ingilis dillərində, yığcam formada nəşr olunmalıdır.

Həm də bu kitabların elektron versiyası hazırlanmalıdır ki, bu nəşr dünyanın internet resurslarında, aparıcı kitabxanaların elektron bazasında yerləşdirilsin. Bunlar çox vacib məsələlərdir.

Bu yaxınlarda professor Əli Həsənovla birlikdə AzərTAc-ın xətti ilə altı dildə "Xocalı. XX əsrin soyqırımı" adlı kitab nəşr edilmişdir. Kitab qısa bir vaxtda Xarici İşlər Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin xətti ilə dünyanın hər yerinə yayılmışdır. AzərTAc həm də bu kitabın elektron versiyasının Avropanın tanınmış milli kitabxanalarının elektron bazalarında yerləşdirilməsi istiqamətində intensiv iş aparır. Stokholm şəhər kitabxanaları ilə danışıqlar apararkən məlum oldu ki, bu kitabxanalarda Azərbaycan ilə bağlı nəinki kitablar, hətta broşürlər də yoxdur. Biz Heydər Əliyev Fondunun, Milli Təhlükəsizlik Nazirliyinin xətti ilə buraxılmış Azərbaycan tarixi, mədəniyyəti və incəsənəti barədə ingilis dilində

kitabları Stokholm şəhər kitabxanasına təqdim etdik. Hədiyyələr arasında "Azerbaijan-Heydar Aliyev Foundation", "Azerbaijan carpets-Masterpieces of Garabagh", "Azerbaijan-The land of Tolerance", "Azerbaijan: 100 Questions Answered" və başqa kitablar, instrumental, xalq musiqisi və muğamlardan ibarət CD-lər də vardır. Bu günlərdə agentliyimizin əməkdaşı Stokholmda olarkən görmüşdür ki, göndərdiyimiz nəşrlər kitabxananın yeni kitablar rəfində yerləşdirilmişdir. Artıq bu kitabxana Azərbaycan haqqında kitablarla yanaşı, yazıçılarımızın əsərləri ilə də maraqlanır. Aprel ayında kitabxananın əməkdaşı Azərbaycana gələcəkdir.

Məhz bu amillərə görə belə kitabların xarici dillərdə də çap edilməsi və elektron versiyalarının hazırlanması faydalı olardı.

* * *

Hörmətli mərasim iştirakçıları, hesab edirəm ki, çıxış edənlər kitaba həqiqətən layiq olduğu qiyməti verdilər, erməni faşizminin xalqımıza qarşı apardığı soyqırımı siyasəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində dövlətimizin başçısının apardığı məqsədyönlü siyasət barədə dəyərli fikirlər söylədilər.

İcazə verin öz adımdan və sizin adınızdan belə bir uğurlu layihənin həyata keçirilməsində böyük zəhməti olan insanların hər birini təbrik edim, onlara yeni yaradıcılıq uğurları arzulayım. Bir arzumu da bildirmək istəyirəm: Bu kitabın müxtəlif dillərə tərcümə edilib yayılması faydalı olardı.

Əminəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə gündən-günə qüdrətlənən dövlətimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində tezliklə həllinə nail olacaqdır.

Xalqımıza, dövlətimizə sülh, firavanlıq, daha böyük uğurlar arzusu ilə mərasimimizin bütün iştirakçılarına təşəkkürümü bildirirəm.

Bakı, 29 mart 2012-ci il.

Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltifolunma mərasimində çıxış

– Çox hörmətli Sergey Yevgenyeviç!

Rusiya dövlətinin bu yüksək ordenini almaq mənim üçün böyük şərəfdir. Mən bu mükafata Rusiya-Azərbaycan münasibətlərinin inkişafına töhfəyə görə layiq görüldüyüm üçün xüsusi qürur duyuram. Sadə əməyimin belə yüksək qiymətləndirildiyinə görə Rusiya Federasiyasının Prezidenti cənab Dmitri Anatolyeviç Medvedevə dərin təşəkkürümü bildirmək istəyirəm.

Memarı və qurucusu ulu öndərimiz Heydər Əliyev olan müasir müstəqil Azərbaycanın vətəndaşı kimi Rusiyanın "Dostluq" ordeni ilə təltif edilmək mənim üçün böyük şərəfdir. Azərbaycan ilə Rusiya arasında münasibətlərin indiki yüksək səviyyəyə – strateji tərəfdaşlıq səviyyəsinə çatmasında məhz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirir və həmin siyasi kursa müvafiq olaraq biz hamımız Azərbaycan-Rusiya dostluq və qardaşlıq münasibətlərinin daha da genişlənməsi işinə töhfə verməyi özümüzə borc bilirik.

Hörmətli Sergey Yevgenyeviç! Bu gün bu mükafatı Sizdən qəbul etmək mənə xüsusilə xoşdur. Respublikamızda Sizi Azərbaycanın və Azərbaycan xalqının böyük dostu hesab edir, ölkələrimizin və xalqlarımızın bir-birinə daha yaxın olmasına səy göstərən dövlət xadimi kimi tanıyırlar. Bu da əlamətdardır ki, mən bu ordeni Bakı Beynəlxalq Humanitar Forumunun keçirildiyi günlərdə alıram. Artıq beynəlxalq status almış bu forumun əsasını qoyan bizim ölkələr olmuşdur. Bu forum Azərbaycan və Rusiya prezidentlərinin himayəsi altında keçirilir və əminəm ki, o, Azərbaycan-Rusiya dostluğunun daha bir rəmzinə çevrilmişdir.

Bir daha təşəkkür edirəm, çox sağ olun!

Rusiyanın Azərbaycandakı səfirliyi,
10 oktyabr 2011-ci il.

Multimedia informasiya agentliklərinin işində yeni səhifədir

(Bakı Beynəlxalq Humanitar Forumunun bölmə iclasında çıxış)

– Hörmətli xanımlar və cənablar, hörmətli həmkarlar, Forumumuzun hörmətli qonaqları!

İlk növbədə, sizi Azərbaycan Dövlət Teleqraf Agentliyinin bütün kollektivi adından ölkəmizin paytaxtında bir daha salamlamaq istərdim. Bu panelin mövzuları qlobal inkişafda və bəşəriyyətin ümumi tərəqqisində elmi-texniki nailiyyətlərin artmaqda olan rolunu əks etdirir. Bu rolun əhəmiyyəti media sektorunda hi-tech nailiyyətlərinin tətbiq edilməsi prosesində xüsusilə aşkar görünür. Bir neçə əsr bundan əvvəl liberal ideologiyanın baniləri ilk konstitusiyaları tərtib edərkən və ilk demokratiyaların təməlini qoyarkən söz və mətbuat azadlığını azad cəmiyyətlərin qapısı hesab edirdilər. O vaxtdan neçə əsrlər keçmişdir, lakin bütün bu müddətdə media insanların şüuruna çox böyük təsir göstərmək qabiliyyətini, öz rolunu və funksiyasını qoruyub saxlamışdır. Cəmiyyətlər, dünya nizamı dəyişdikcə media da dəyişmişdir. Bəşəriyyətin lap yaxın vaxtlarda yeni minilliyə qədəm qoyarkən onu müşayiət edən təhdidlərə bizim cəmiyyətlərin hazır olması bu gün dünya jurnalistikasında ən çox müzakirə edilən mövzulardan biridir.

İnformasiya sektorunun yeni rolu yeni reallıqları əks etdirir. Yeni texnologiyaların, o cümlədən internetin yaranması və tətbiq edilməsi, heç şübhəsiz, KİV-lərin inkişafında və demokratikləşməsində yeni mərhələnin başlanğıcıdır. Təəccüblü deyildir ki, yüksək texnologiyalar tətbiq ediləndə bəzən özümüz də hiss etmədən gündəlik peşə terminologiyamız dəyişir. Bu gün həmin terminologiya cəmi 30-40 il bundan əvvəl, bizim çoxumuzun jurnalist karyeramıza yenicə başladığımız dövrdə mövcud terminologiyadan çox fərqlənir. Doğrudan da, həmin dövrdə informasiya agentliklərində və başqa KİV-lərdə işləyənlərdən kimin ağlına gələrdi ki, multimedia zalları və sosial media barədə danışsın. O vaxt kim fikirləşə bilərdi ki, bir vaxt övladlarımız və nəvələrimiz sinif otaqlarından kənarda və məktəb dərslikləri çərçivəsindən uzaqda yerləşən mənbələrdən müstəqil şəkildə bilik əldə edəcəklər? Bugünkü məktəblilər böyüyəcək və bizi əvəz edərkən onların

istifadə etdiyi informasiyanın mənbələri, həcmi və xarakteri bizim nəslin istifadə etdiyi mənbələrdən tamamilə fərqli olacaqdır.

Əlbəttə, media gələcəkdə də bəşəriyyətin həyatında çox böyük rol oynayacaq və ona təsir göstərməkdə davam edəcək, son xəbərlər isə ən populyar "qida" rolunu qoruyub saxlayacaqdır. Bəşəriyyət əvvəlki kimi, yenə informasiyaya ehtiyac duyacaq, onu əldə etməyə çalışacaqdır. Məhz bu səbəbdən biz xəbərlər sektorunun nümayəndələri kimi ən dəqiq, qərəzsiz və peşəkarlıq baxımından qüsursuz informasiya yaradılması və onun dərhal istehlakçılara çatdırılması ənənəsinə sadiq qalmalıyıq.

Müasir dövrdə yüksək texnologiyaların tətbiq edilməsi bu məqsədə nail olmağımıza və ən qısa müddətdə cəmiyyəti planetimizin istənilən nöqtəsindən alınmış ən son yeniliklərlə tanış etməyə imkan verir: İnternet, planşetlər, podkastlar, mobil rabitə, VOİP-telefoniya, mikrobloqqinq, videorabitə. Sosial şəbəkələrin və kommunikasiya vasitələrinin bir sıra başqa formaları radio, teleqraf, teletayp və hətta lap yaxın vaxtlara qədər inanılmaz texniki ixtira hesab olunan, lakin bu gün çox az adamın istifadə etdiyi faks kimi fenomenlər "keçmişin eksponatları" kimi tarixə dönmüş və muzeylərə göndərilmişdir. Bir neçə gün bundan əvvəl mən maraqlı bir məqalə oxudum. Həmin məqalədə kağız şəklində qəzet və jurnalların tezliklə ləğv ediləcəyi fikri söylənilir və hətta bunun təxminən nə vaxt baş verəcəyi göstərilirdi. Özünüz fikirləşin, bizim peşənin adı "jurnal" sözü ilə bağlıdır, jurnal özü isə indi tamamilə sıxışdırılır. Qəzetlərin və digər mətbu xəbər KİV-lərinin redaksiyalarında jurnalist karyerasında ilk addımlarını atmış bizim həmkarların çoxu bu məhsul növünün dövriyyədən çıxacağı günü görəcəkdir.

Bu gün biz tamamilə yeni bir aləmdə, yüksək texnologiyaların misilsiz axını və dəyişən, yeniləşən, saysız-hesabsız imkanları olan dövrdə yaşayırıq. Daim dəyişən bu dünyada və yeni texnologiyalar dövründə biz – xəbərlər sektorunun nümayəndələri özümüzün nə dərəcədə vaxtında dəyişməyimiz, fəaliyyətimizi texnoloji tərəqqiyə nə dərəcədə sürətlə uyğunlaşdırmağımız üçün çox böyük məsuliyyət daşıyırıq. Çünki bizim məclisin əsas istehlakçısı olan cəmiyyət texnoloji innovasiyalar dövrünün güman edilən benefislərindən maksimum bəhrələnməli və onlardan təcrid olunmamalıdır.

Son vaxtlar multimedia bizim gündəlik reallıqlardan birinə çevrilmişdir. Bizim zəmanədə multimedia informasiyanın yaradılmasının və yayılmasının müxtəlif formalarından eyni vaxtda istifadə edilməsi deməkdir. İnsanların şüurunda multimedia ilə internet arasında qırılmaz əlaqə vardır. Bu proses 1990-cı illərin birinci yarısında, kompakt disk qurğuları (CD-ROM drive) ilə təchiz edilmiş ilk multimedia-kompyuterlə bazara çıxarıldığı vaxtda başlanmışdır. Həmin kompyuterlər yüzlərlə meqabayt həcmində video, audio və fotoinformasiya ilə işləməyə imkan verirdi. 1969-cu ildə İnternet ixtira olunandan 1980-ci ildə ondan istifadə edilməsinin ilk addımları atılana qədər, təqribən 10 il ərzində onu yaradanların şüurunda dərketmə mərhələsi gedirdi. Yalnız bundan sonra, xüsusən 1980-ci illərin sonundan etibarən yeni texnologiyaların praktik tətbiqi başladı və mənzillərdə ilk fərdi kompyuterlər göründü.

İnternetin bugünkü istifadəçiləri isə artıq yeni multimedia inqilabının mərkəzindədirlər. İnformasiya agentliyinin arsenalında mətnli məlumatlarla yanaşı, video və audioxəbərlərin də olması artıq heç kəsi təəccübləndirmir. Bir sıra agentliklərin veb-saytlarına daxil olanda xəbər materiallarının bu növünün toplandığı bölmələri görmək olar. Həmin agentliklərin çoxu videomaterialların yayılmasında müxtəlif, məsələn, YouTube kimi ixtisaslaşmış videoportalların resurslarından istifadə edir. Lakin AzərTAc da daxil olmaqla agentliklərin çoxunun özlərinin texniki imkanları vardır. Məsələn, AzərTAc ixtisaslaşmış portalların xidmətlərindən istifadə etməyə heç bir ehtiyac duymadan özünün xarici tərəfdaşlarından əsla geri qalmır. İstehlakçılar AzərTAc-ın İnternet resursları vasitəsilə əlyetərli olan səsli xəbərlər informasiyasından da geniş istifadə edirlər.

Hörmətli həmkarlar! Elmi-texniki xarakterli son dəyişikliklər barədə qısaca məlumat verdim. Bu dəyişikliklər axarında AzərTAc yaxın vaxtlarda bizim agentliyin işinin struktur və konseptual baxımdan yenidən təşkil edilməsi ilə bağlı geniş proqram həyata keçirməyə başlamışdır. Azərbaycan dövlətinin iqtisadi uğurları sayəsində bizdə bütün dünyada müxbir məntəqələrinin coğrafiyasını genişləndirmək və xarici dillərdə xəbər hazırlayan redaksiyaların sayını artırmaq imkanı yaranmışdır. Bizim agentliyin yenidən təşkil edilməsi proqramının özəyi ən son tələblərə cavab verən və regionda ən iri informasiya agentliyinin standartlarına uyğun olan mərkəzi multimedia

studiyası yaratmaqdır. Dünyanın hər yerində iri agentliklər tez-tez müxtəlif təşkilati, texnoloji və hətta daxili arxitektur dəyişiklikləri ilə bağlı (xəbərlər studiyasının dizaynı baxımından) eksperimentlər aparırlar. Xəbər studiyasının müasir dizaynı xəbərin çatdırılmasını sürətləndirməyə, onun səmərəsini artırmağa imkan verir, internet və kağızı vahid məkanda birləşdirir. Müasir xəbər studiyaları elə düşünülmüşdür ki, divarların sayı və xəbərin hərəkətinə mane olan digər fiziki və virtual maneələrin miqdarı minimuma endirilsin, lakin eyni zamanda, texnoloji baxımdan təchizat maksimum səviyyədə olsun. Məqsəd xəbərlərin istehsalı ilə məşğul olan bütün əməkdaşlar arasında kommunikasiyanın səmərəliliyinə nail olmaqdır.

Əlbəttə, Krılovun məşhur təmsilində olduğu kimi, mebelin yerinin dəyişdirilməsi, yaxud yeni vəzifə adlarının icad edilməsi dərhal məhsulun keyfiyyətinin dəyişməsinə səbəb olmur (bizim məhsulumuz xəbərlərdir). Lakin heç şübhəsiz, yüksək texnologiyaların gündəlik işimizdə tətbiq edilməsi, ən uğurlu tərəfdaşlarımızın və həmkarlarımızın multimedia vasitələrindən istifadə təcrübəsinin öyrənilməsi və bu təcrübənin tətbiq edilməsi nəticə etibarilə jurnalistlərin özünün peşəkarlıq səviyyəsinin artmasında üzə çıxır, çünki bütün bu xəbərlər baş verən hadisələrə tamamilə başqa nəzərlə baxmağa imkan verir. Nəticədə bunlar jurnalistlərin peşə mədəniyyətinə müsbət təsir göstərir, müəllifləri hadisələrə başqa rakursdan baxmağa məcbur edir, bu isə əlbəttə, onların yaratdığı məhsula təsir göstərir, buraxdıqları informasiyalar daha maraqlı olur. Təbii ki, bu halda, ilk növbədə, bizim müştərilər qazanır, deməli, biz özümüz də qazanırıq.

Bu cür yenidən təşkilatlanma tədbirlərinin həyata keçirilməsi nəticəsində agentliyin dərhal dünya KİV-lərinin ilk beşliyinə və ya ilk onluğuna düşəcəyinə heç bir zəmanət yoxdur. Lakin bu da aydındır ki, əgər agentlik müasir dövrün tələblərinə məhəl qoymasa, mühafizəkar yanaşmalardan əl çəkməsə, yüksək texnologiyaları tətbiq etməkdən çəkinsə, o, çox qısa müddətdə marginallaşacaq, xəbərlər bazarında daha yüksək ambisiyalı rəqibləri tərəfindən sıxışdırılacaq və nəticədə öz yerini başqalarına verəcək, bəlkə də ümumiyyətlə, mövcudluğuna xitam verəcəkdir. Agentliyin uğur qazanması üçün zamanın texnoloji tələblərini izləmək zəruridir. Bu gün informasiya agentliklərinin işində multimedia texnologiyalarının tətbiq edilməsi, demək olar ki, müasir dövrün tələbinə çevrilmişdir.

Bütün bunların səbəbi çox sadədir: bizim auditoriya çevikdir, o daim hərəkətdə olur. O, dünyada nələr baş verdiyini bilməlidir. Bu auditoriya daim, günün istənilən vaxtında və harada olmasından asılı olmayaraq yeniliklərdən xəbər tutmaq istəyir. İnsanların yenilikləri öyrənmək üçün saatlarla səhər qəzetlərini gözlədiyi və ya o vaxtlar mövcud olan iki-üç televiziya kanalından birində axşamlar efirə çıxan "Zaman" ("Vremya") proqramını intizarla gözlədiyi vaxtlar keçmişdə qalmışdır. Yeni minilliyin adamları harada olmalarından asılı olmayaraq, hər dəqiqə xəbərlərə ehtiyac duyur. Onlar küçədə gəzişdiyi və ya avtomobilin sükanı arxasında əyləşdiyi vəziyyətdə də belə bir tələbat yarana bilər. Rəqəmsal texnologiyalar oyun qaydalarını dəyişmişdir, indi isə onu saysız-hesabsız imkanlara malik olan nanotexnologiyalar əvəz edir. Onun üstünlüklərini bəşəriyyətin növbəti nəsli görəcəkdir.

Buna görə də elmi-texniki tərəqqidən geri qalmamaq, hi-tech nailiyyətlərini işimizdə fasiləsiz tətbiq etmək zərurətini nəzərə alaraq biz zamanın tələblərinə dərhal cavab verməli və ən başlıcası, bazarın tələbi ilə hesablaşmalı, bu səbəbdən işimizi elə qurmalıyıq ki, digital peyk xəbərləri və ya ənənəvi kağızdaşıyıcı üzərindəki xəbərlər müxtəlif yaş və digər sosial kateqoriyalarına aid istehlakçıları tapsın və onlara çatsın. Bu gün "multimedia"dan istifadə edilməsi məhz zamanın bu sosial tələbinə cavabdır.

Hörmətli qonaqlar! Aparıcı informasiya agentliklərinin mərkəzi multimedia studiyasında siyasətdən başlamış idmana və hava haqqında məlumata qədər müxtəlif tematik rubrikalara aid xəbərlər yaranır. Burada bütün sutka ərzində yeniliklər istehsal edilir. Bu, xəbərlərin əsl fabrik konveyeridir. Sutka ərzində bir-birini əvəz edən elektron KİV-lərin redaktorları fasiləsiz işləyir, xəbərlər ləngidilmədən buraxılır. Eyni zamanda, kağızdaşıyıcı üzərində xəbər məhsullarının – qəzetlərin və digər mətbəə materiallarının redaktorları ən vacib xəbərləri seçir və onları çapa göndərirlər. Xəbərlərin yayılmasının elektron və ənənəvi formalarını əlaqələndirən agentliklər bu gün belə işləyir. Belə studiyalarda informasiya müxtəlif media vasitələrində yaradılır (multimedia adı da bununla əlaqədar olub çoxlu media deməkdir) və dərhal buraxılır. Kollektiv müxtəlif ölkələrdəki xüsusi müxbirlərdən və xarici ölkələrdən başlamış tərəfdaş agentliklərə qədər

müxtəlif mənbələrdən informasiya toplanması üzərində daim iş aparır. Elektron xəbərlər və xəbərlərə dair yenilənmələr dərhal buraxılır, qəzetlər və digər çap məhsulları üçün bu və ya digər yenilik isə gün ərzində tamamlanmasını gözləyir və bütün yeniliklər toplandıqdan sonra redaktor tərəfindən buraxılışa göndərilir.

Multimedia studiyasının dizaynı da az əhəmiyyət kəsb etmir, lakin hər halda bu, başlıca şərt deyildir. Dizayn yenilənmənin yalnız bir hissəsidir. İlk növbədə, jurnalistin peşə mədəniyyəti və onun işə yanaşması dəyişməlidir. Multimedia texnologiyaları dövründə əsas məqsəd kommunikasiyaları təkmilləşdirmək, xəbərin yaradılmasını və onun auditoriyaya çatdırılmasını sürətləndirməkdir. Bu, bir tərəfdən hər bir jurnalistin fərdi işi, digər tərəfdən ümumi studiyada kollektiv halında iş deməkdir.

Forumumuzun hörmətli qonaqları!

Mən məruzəmdə qeyd etdiyim məqamları qısaca yekunlaşdıraraq bir daha vurğulamaq istərdim ki, bir vaxtlar bizim sələflərimiz teleqrafın və teletaypın yaranmasından hədsiz sevindikləri kimi, bu gün multimedia bizim gündəlik peşəkar fəaliyyətimizin tərkib hissəsinə çevrilməkdədir. Şübhə yoxdur ki, vaxt gələcək bu gün yüksək texnologiyalar adlandırdığımız yeniliklər də tarixə qovuşacaq və öz yerini hələ bizə məlum olmayan yeni nailiyyətlərə verəcəklər. Bu, reallıqdır. Bizim peşə vəzifəmiz bu reallıqdan geri qalmamaqdır. Əgər elmi-texniki nailiyyətlər istehsala vaxtında tətbiq edilərsə, – bu halda söhbət xəbər məhsulları istehsalından gedir, – onda artıq qeyd etdiyim kimi, bizim istehlakçılar qazanacaqlar. Bizim müştərilərin qazanması isə o deməkdir ki, biz də qazanacağıq!

Diqqətinizə görə təşəkkür edirəm!

Bakı, 10 oktyabr 2011-ci il.

Sosial jurnalistika və yüksək texnologiyalar

(Bakı Beynəlxalq Humanitar Forumunun bölmə iclasında çıxış)

– Hörmətli xanımlar və cənablar, əziz qonaqlar, həmkarlar!

Bu gün mən çox böyük bir imtiyazdan istifadə edərək sizin hamınızı Bakı Beynəlxalq Humanitar Forumunda salamlayıram. Bu tədbirin keçirilməsi ideyası meydana gələndə o, dinamik inkişaf edən bir dövlətin paytaxtında elə bir nüfuzlu beynəlxalq platforma yaradılması kimi nəzərdə tutulmuşdur ki, dünya elminin və mədəniyyətinin görkəmli xadimləri, tanınmış ekspertlər yeni minillikdə bəşəriyyətin qarşılaşdığı qlobal humanitar mövzuları müzakirə etmək üçün həmin məkanda toplaşsınlar. Həqiqətən, bu gün gənc müstəqil Azərbaycan dövləti bütün iqtisadi göstəricilər üzrə regional liderdir və burada belə bir platformanın təsis edilməsi tamamilə məntiqli və vaxtında atılan bir addımdır. Digər tərəfdən, bəşəriyyətin üzləşdiyi yeni çağırışlar qloballaşan dünyamızın mövcud şəraiti nəzərə alınmaqla XXI əsrdə gedən proseslərin müzakirə olunmasını mütləq zərurətə çevirir. Hazırda dünyada o qədər humanitar məsələlər yığılıb qalmışdır ki, onların müzakirəsinin zəruri olduğunu diktə edən yeni gündəmin formalaşmasından danışmağın əsl vaxtıdır.

Bu gün belə mövzulardan biri jurnalistikanın tamamilə yeni növü olan sosial jurnalistikada yüksək texnologiyaların tətbiq edilməsi məsələsidir. Bugünkü forumun yeddi seksiyasından biri bu məsələyə həsr edilmişdir. Bu da təsadüfi deyildir, çünki həmin məsələ XXI əsrin sosial sifarişlərindən biridir. Mən qısa təbrik sözümdə sosial jurnalistikanın nə demək olması məsələsi üzərində ətraflı dayanmaq fikrində deyiləm. Bu barədə panel iştirakçıları və məruzəçilər danışacaq, onların hər biri bu mövzunun müxtəlif aspektlərini işıqlandıracaqdır. Mən isə yalnız onu qeyd etmək istəyirəm ki, bu gün, forumumuzun işinin ikinci günündə biz həmkarlar – informasiya istehsalçıları seksiyamızın çərçivəsində aşağıdakı məsələləri müzakirə edəcəyik və bu məsələlərin hər birinə ayrıca panel həsr olunacaqdır. Beləliklə, birinci paneli şərti olaraq "XXI əsrdə sosial jurnalistika: hər kəs jurnalist ola bilər" adlandırmağı qərara almışıq. Burada ənənəvi informasiya sənayesi və sürətlə inkişaf edən sosial media arasında əlaqələrdən söhbət gedəcəkdir. Tamamilə aşkardır ki, XXI əsrdə media ənənəsi jurnalistikadan, yəni biz peşə karyeramıza başlayarkən adət etdiyimiz jurnalis-

tikadan kəskin fərqlənir. Bu gün bizim qarşımızda belə bir sual durur: hər birimizin həyatının bir hissəsinə çevrilmiş internet və sosial şəbəkə ilə bağlı media sektorunun gələcəyi necə olacaqdır?! İnformasiya agentlikləri bu sektorda özlərinin əsas rolunu qoruyub saxlaya biləcək, yoxsa könüllü informasiya təchizçiləri okeanında itib-batacaqlar?

İkinci paneldə qloballaşma dövründə informasiya sahəsində yeni meyillər müzakirə ediləcəkdir. Qloballaşma ənənəvi medianı necə dəyişir? İnformasiya istehsalına və onun istehlakçılarına təsir göstərmək nə deməkdir? Ən güclü olanın üstün gəlməsi və ən zəifin yox olması mümkündürmü? Qloballaşmış iqtisadiyyat informasiya sektoruna necə təsir göstərir? Bundan əlavə, yeni media-texnologiyaların müxtəlifliyi, habelə informasiya istehsalçılarının gündəlik peşə fəaliyyətində bu müxtəliflikdən necə istifadə edilməsi məsələləri də müzakirə olunacaqdır.

Üçüncü panel "Sosial media və siyasət: inteqrasiya, yoxsa qütbləşmə?" adlanır. Bu paneldə sosial medianın regional siyasətə bəzən səmərəli təsiri, hətta tarixin axarını dəyişmək qabiliyyəti müzakirə ediləcəkdir. Müasir dünyada sosial şəbəkələr ənənəvi seçkilərlə yanaşı, cəmiyyətin dövlət siyasətinə fəal müdaxiləsini gücləndirməyə, eyni zamanda, cəmiyyəti müxalif istiqamətdə səfərbər etməyə qabildir. Beləliklə, biz bəzi regionlarda "Facebook inqilabı" deyilən hadisələrin şahidiyik. Dünyanı sarsıda biləcək yeni qüvvə – sosial media şəbəkələri mövcuddurmu?

Seksiyada bizim iş planımız belədir. Siz proqramla tanışsınız və artıq bilirsiniz ki, bütün forumun işinin informasiya dəstəyini AzərTAc və İTAR-TASS təmin edir. Bizim seksiya çərçivəsində üç paneli bu iki agentlik və bizim çox sıx əməkdaşlıq etdiyimiz Anadolu Agentliyi aparacaqdır.

Hörmətli forum iştirakçıları!

Mən bütün qonaqları bir daha ürəkdən salamlamaq və sizin hamınıza səmərəli iş, maraqlı diskussiyalar arzu edirəm. Məruzə və müzakirələrə daha çox vaxt saxlamaq üçün mən giriş sözümü tamamlamaq istərdim. Şübhə etmirəm ki, bu cür nüfuzlu tərkibdə seksiyamızın işi çox maraqlı olacaqdır.

İcazə verin, Forumun işində iştirakınıza görə AzərTAc-ın adından sizin hamınıza təşəkkürümü bildirim.

Bakı, 10 oktyabr 2011-ci il.

Müstəqilliyimizin 20 illiyinə layiqli töhfə

("Müasir Azərbaycan dövrün baxışında" kitabının təqdimat mərasimində çıxış)

– Hörmətli xanımlar və cənablar!

Dəyərli media nümayəndələri!

Bildiyiniz kimi, bu günlər Azərbaycanın hər bir guşəsində bayram ovqatı yaşanır. Vətənimizin tarixində ən şanlı günlərdən birinin – Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin iyirminci ildönümü ərəfəsindəyik.

Təqdimatına toplaşdığımız kitabın hər bir vətənpərvər azərbaycanlı üçün əziz olan belə bir bayram ərəfəsində işıq üzü görməsi heç şübhəsiz, mühüm məna daşıyır. Çünki ötən iyirmi ilin Azərbaycanın müasir tarixində həqiqətən müstəsna əhəmiyyəti vardır.

Bu gün bu mərasimdə "Azərbaycan" qəzetinin redaksiyası tərəfindən hazırlanmış, müasir müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf edilmiş "Müasir Azərbaycan dövrün baxışında" kitabı haqqında çox dəyərli fikirlər eşidəcəyimizə şübhə etmirəm. Lakin mənə verilən fürsətdən istifadə edərək deyərdim ki, müzakirəsinə yığışdığımız çox dəyərli ikicildliyi Azərbaycanın müstəqilliyə qədər və iyirmiillik müstəqillik yolunda keçdiyi möhtəşəm iqtisadi, siyasi, mədəni inkişafının, ölkəmizin dünya birliyində layiqli yer tutmasının salnaməsi hesab etmək olar.

Kitabın başlıca məziyyəti ondan ibarətdir ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyev siyasətinin təntənəsi, ümummilli liderin ideallarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi, milli maraqlara söykənən sürətli inkişaf dinamikasının uğurları tarixi-politoloji prizmadan təhlil edilərək qiymətləndirilir. Kitabda müstəqillik yollarında qarşıya çıxan və uğurlu həllini tapan iqtisadi problemlərdən, həyata keçirilən möhtəşəm layihələrdən, Azərbaycanı modern dövlətə çevirən islahatlardan, demokratik vətəndaş cəmiyyəti quruculuğu sahəsində əldə olunan uğurlardan maraqlı publisistik maneralarla söz açılır.

Hörmətli həmkarım, müasir mətbuatımızın tanınmış nümayəndəsi, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovun buraxılışına məsul olduğu kitabı oxuduqca Azərbaycanın xoşbəxt gələcəyinə inam hissi daha da artır. Təsadüfi deyildir ki, kitabın Azərbaycan Prezidenti cənab İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, xoşməramlı səfir, Milli Məclisin deputatı Mehriban Əliyevanın fəaliyyətinə həsr olunmuş sonuncu fəsli "Yeni hədəflərə doğru" adlanır və inkişafımızın oriyentirlərini olduqca dəqiq səciyyələndirən aşağıdakı cümlə ilə tamamlanır: "Müstəqilliyimizin əbədiliyinin, dövlətin hərtərəfli yüksəlişinin ən etibarlı təminatçısı olan Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, ideyalarını yaşadan və həyata keçirən Prezident İlham Əliyevin ətrafında daha sıx səfərbər olan xalqla onun lideri arasında özünü göstərən birlik sarsılmaz və əbədidir".

Bir məqamı da xüsusi qeyd etmək istəyirəm ki, kitabın əvvəlində verilmiş Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, görkəmli filosof alim Ramiz Mehdiyevin "Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi" adlı fundamental məqaləsi ikicildliyin sanbalını artırır, eyni zamanda, kitabda yer almış materialların ciddiliyinə və dərin təhlilə söykəndiyinə dəlalət edir.

Əlbəttə, mənə həvalə olunmuş funksiyadan istifadə edib qarşıdan gələn gözəl yubileyə layiqli töhfə olan bu kitab haqqında çox danışa bilərdim, lakin istərdim ki, təqdimat mərasimimizin dəyərli iştirakçıları fikirlərini bölüşsünlər.

Gəlin, əvvəlcə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, müasir müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və xarici siyasətinin geostrateji istiqamətləri barədə çox qiymətli əsərlərin müəllifi, tarix elmləri doktoru, hörmətli professorumuz Əli Həsənovu dinləyək.

***

Hörmətli həmkarlar, özünüz də şahid oldunuz ki, mən qənaətimdə yanılmamışam. Kitaba həqiqətən layiq olduğu yüksək qiymət verildi. Çıxış edən natiqlər həm təqdimatı keçirilən kitab barədə, həm də ümumiyyətlə

Azərbaycanın dünəni, bu günü və gələcəyi haqqında çox dəyərli fikirlər söylədilər.

İcazə verin, öz adımdan və sizin adınızdan belə bir uğurlu layihəni həyata keçirdiyi üçün "Azərbaycan" qəzeti redaksiyasının yaradıcı kollektivini, həmçinin qəzetin baş redaktoru, Milli Məclisin deputatı, tanınmış publisist Bəxtiyar Sadıqovu təbrik edim, yeni yaradıcılıq uğurları arzulayım.

Əminəm ki, qarşıdan gələn yeni onilliklərdə də Azərbaycan böyük uğurlar qazanacaq, dünya birliyində tutduğu layiqli yerini daha da möhkəmləndirəcək, nüfuzunu artıracaq, bu gün təqdimatını və müzakirəsini keçirdiyimiz qiymətli kitaba bənzər yeni əsərlərin ərsəyə gəlməsinə zəmin yaradacaqdır.

Bütün iştirakçılara, hörmətli Əli Həsənov başda olmaqla mərasimimizdə çox dəyərli fikirlər söyləyən natiqlərə səmimi təşəkkürlərimi bildirirəm. Çox sağ olun!

Bakı, 7 oktyabr 2011-ci il.

İnformasiya cəmiyyətinə keçid mərhələsində mediatexnologiyanın yeri və rolu

(Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının – BSANNA-nın V Baş Assambleyasında çıxış)

– Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Hazırda bəşəriyyət öz inkişafının informasiya texnologiyaları ilə sıx bağlı olan yeni mərhələsinə – informasiya cəmiyyətinə qədəm qoymuşdur. İndi informasiya-kommunikasiya texnologiyalarının hansısa bir növündən istifadə etməyən insan təsəvvür etmək çətindir. Bəşəriyyət tarixinin informasiya cəmiyyəti adlandırılan bu mərhələsi üçün kompyuter texnologiyalarının, kosmik rabitənin, informasiya yeniliklərinin misli görünməmiş inkişafı, yeni biotexnologiya və nanotexnologiya kəşfləri və s. səciyyəvidir.

Artıq terminləşmiş "şəffaflıq və modernləşmə" olmadan inkişafın və tərəqqinin istənilən mərhələsində və səviyyəsində irəliyə getmək, nəzərəçarpan uğur qazanmaq mümkün deyildir. Çünki qloballaşan müasir dünyada tərəqqi, uğur, inkişaf ən müasir texnologiyalar və innovasiyalardan düşünülmüş və səmərəli istifadə etmək bacarığı ilə sıx bağlıdır. Əlbəttə, modernləşmə cəmiyyətin demək olar ki, bütün sahələrini əhatə edir desək, səhv etmərik. Lakin insan fəaliyyətinin elə sahələri var ki, orada yenilik, novatorluq, elmin və tərəqqinin ən yeni nailiyyətləri ilə ayaqlaşmağı bacarmaq və bəlkə də bir addım irəlidə olmaq, onlardan yubanmadan, çevik və səmərəli istifadə etməyi bacarmaq uğur qazanmağın ən vacib şərtlərindəndir. Dünyada gedən proseslərin artan sürəti və müasir massmediada heyrətamiz yeniliklər də bunu təsdiq edir.

Əsrlərdir oxucuya informasiya çatdıran ənənəvi media internetin insanların gündəlik həyatının bir hissəsinə çevrilməsi ilə sürətlə inkişaf edən ictimai mediaya çevrildi. Təəccüblüsü budur ki, YouTube saytındakı sadə bir klip milyonlarla insanın diqqətini cəlb etdiyi halda, bir televiziya kanalı demək olar ki, özünə auditoriya yığa bilmir. Bir özəl bloqu bir gündə bəzən minlərlə insan nəzərdən keçirir. Ancaq elə olur ki, gün ərzində qəzetin bir nüsxəsi də satılmır. Amma Facebook, Twitter kimi sosial şəbəkələrin çox böyük istifadəçi auditoriyası vardır.

Yəni indi informasiya keçmişdə bir növ adət etdiyimiz dövlət sərhədləri kimi maneələri çox asanlıqla dəf edir. Məsələn, Liviyada baş verən hadisələr barədə informatorlar vasitəsilə alınan təzə xəbərlərin operativ yayılması əyani şəkildə göstərir ki, əllərində silah, ciblərində isə iPhone-u olan adi insanlar informasiyanı, təkcə mətni deyil, hətta videoreportajları hadisə yerindən heç bir maneə ilə üzləşmədən yüksək sürətlə dünyanın tanınmış xəbər agentliklərinə, onlar da öz növbəsində qat-qat çox inkişaf etmiş texniki imkanlardan istifadə edərək bütün dünyaya çatdıra bilir, nəticədə cəmi bir neçə dəqiqə əvvəl daxil olmuş təzə xəbər dünyanın müxtəlif guşələrində çoxmilyonlu auditoriya üçün əlyetən olur. Hazırda texniki innovasiyalar elə səviyyəyə çatmışdır ki, yanında günəş batareyası, adi noutbuk və mobil telefon olan hər bir insan praktik olaraq qaynar xəbərləri bir anın içərisində dünyanın bir qitəsindən digər qitənin istənilən nöqtəsinə çatdıra bilər.

Bəli, media-texnologiya böyük sürətlə dəyişir, biz də dəyişirik. Yeni nəsillər gəlir, özləri ilə yeni texnologiya, yeni yanaşma və ideyalar gətirirlər. Amma dəyişməyən yalnız informasiya sənayesinin fundamenal fəlsəfəsidir – yəni dünyada baş verənlər haqqında düzgün, tamamilə qərəzsiz və yüksək keyfiyyətli informasiya istehsal edib istehlakçılara vaxtında çatdırmaqdır. Əsrlər boyu xidmət etdiyimiz başlıca qayə, sadiq qaldığımız ənənə budur.

Azərbaycanın davamlı və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi, dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilmiş və bu sahədə mühüm tədbirlər görülmüşdür. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)", eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ hüquqi aktlar əsasında dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində hüquqi baza formalaşmışdır.

Azərbaycan haqqında məlumatların operativ və çevik yayılmasında, habelə dünyada baş verən hadisələr barədə ictimaiyyətin dolğun məlumatlandırılmasında AzərTAc-ın xüsusi əhəmiyyəti nəzərə alınaraq, onun fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Prezidenti

tərəfindən xüsusi Sərəncam imzalanmış, agentliyimizin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün bir sıra mühüm addımlar atılmışdır. Daha doğrusu, AzərTAc öz strukturunda yenidənqurma və coğrafi genişlənmə timsalında iddialı bir proqram həyata keçirməyə başlamışdır. İndiyədək Azərbaycan, rus və ingilis dillərində informasiya yayan agentliyimizdə alman, fransız, ərəb dillərində informasiya redaksiyaları, həmçinin milli xəbər agentlikləri üçün ən müasir tələblərə, yüksək standartlara cavab verən yeni multimedia və videoxəbər redaksiyası fəaliyyətə başlamışdır.

Məlumdur ki, xəbər auditoriyası daim hərəkətdədir. Yəni insan gün ərzində harada olursa-olsun dünyada nə baş verdiyini və nəyin mühüm olduğunu bilməyə can atır. İnsanlar sabah qəzetlərdə və yaxud günün müəyyən saatlarında teleradio proqramlarında gedən informasiyaları gözləmək istəmirlər. Onlara avtomobildə gedərkən, küçədə gəzərkən müntəzəm və operativ xəbərlər lazımdır. Ona görə də biz məhsullarımızı auditoriyaya çatdırmaq üçün kağız və peyk xəbərlərinin vəhdətini yaratmağa başlamışıq. Nəticədə multimedia və videoxəbər redaksiyamız siyasətdən tutmuş idmana qədər bütün mövzuları əhatə edən xəbərləri insanlara ən qısa vaxtda çatdırmağa çalışır.

Agentliyimizin audio və videoxəbərlərinin sayının artırılmasına və onların keyfiyyətinin daim yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Azərbaycan, rus və ingilis dilləri ilə yanaşı, alman, fransız və ərəb dillərində də audio və videomateriallar hazırlanması istiqamətində intensiv iş gedir. Bu proqramın həyata keçirilməsi sayəsində AzərTAc-ın xarici ölkələrdəki auditoriyası xeyli genişlənir və beləliklə, agentliyin məhsullarının əcnəbi istehlakçıları Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı, demokratik vətəndaş cəmiyyəti quruculuğundakı nailiyyətləri, eləcə də Azərbaycan diplomatiyasının çoxvektorlu xarici siyasətdə uğurları ilə daha yaxından tanış olmaq imkanı əldə edirlər.

Yaxın vaxtlarda oxucular agentliyimizin internet saytında ölkədə və xaricdə baş vermiş son hadisələrdən hazırlanmış videoreportajlarla da tanış ola biləcəklər. İnformasiya agentliklərinin çoxu videomaterialların yayılmasında YouTube resursundan geniş istifadə edir. Lakin AzərTAc bu sahədə öz işini dünya standartları səviyyəsində qurmaq üçün ən müasir avadanlıqların alınıb quraşdırılmasına başlamışdır. Bu baxımdan, agentlik

ixtisaslaşdırılmış videoportalların xidmətlərindən istifadəyə ehtiyac duymayan xaricdəki tərəfdaşlarından geri qalmır. Onu da qeyd etmək istərdim ki, AzərTAc-ın internet resursu vasitəsilə xəbər istehlakçıları üçün əlyetən olan səsli informasiyalardan da geniş istifadə edilir.

Həqiqətən, indi dünya informasiya məkanında ənənəvi xəbər agentliklərinə təxminən 10 il bundan əvvəl hələ məlum olmayan yeni ab-hava yaranmasını inkar etmək olmaz. Dünyanın aparıcı informasiya xidmətlərinin rəsmi internet səhifələrinə nəzər salsaq, onları sosial şəbəkələrlə əlaqələndirən linkləri görmək çətin deyildir. Həmin şəbəkələrin istifadəçiləri bu və ya digər materialı fəal müzakirə edir, şərhlərini bir-biri ilə bölüşürlər. Maraqlıdır ki, müzakirələrin iştirakçıları arasında çox vaxt materialın müəlliflərinə, onların informasiya agentliyindəki həmkarlarına, eləcə də müvafiq dairələrdə geniş şöhrət tapmış siyasətçi, politoloq və ekspertlərə də rast gəlmək olar.

Sürətlə gedən inteqrasiya prosesləri və onlayn sosial şəbəkələrlə konstruktiv əməkdaşlıq AzərTAc tərəfindən müsbət qiymətləndirilir. Bununla bərabər, AzərTAc qlobal məkanda ikitərəfli qaydada əməkdaşlıq əlaqələri qurduğu milli informasiya agentliklərinin bu sahədə təcrübəsini öyrənmək üçün intensiv iş aparır.

Araşdırmalar göstərir ki, milli agentliklərin böyük əksəriyyəti sosial şəbəkələrə qoşulmağa bir o qədər də can atmır. Bunun başlıca səbəbi həmin sahədə, ilk növbədə, elektron məlumatların və intellektual mülkiyyətin qorunması ilə bağlı müəyyən risklərin olmasıdır. Sosial şəbəkələr çox böyük mütərəqqi potensiala malik olmaqla bərabər, təəssüf ki, informasiya piratlarının, parolların dağıdılması və məlumat bazasına qanunsuz müraciət, o cümlədən məxfi və şəxsi xarakterli məlumatların oğurlanması üzrə ixtisaslaşan xakerlərin fəaliyyət meydanına çevrilmişdir.

Sosial şəbəkələrlə bağlı təhlükəsizlik məsələləri AzərTAc-ın üzvü olduğu regional informasiya qurumlarına – Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA) və Avropa Xəbər Agentlikləri Alyansına (EANA) daxil olan milli agentliklərin daim diqqət yetirdiyi problemdir. Bu təhdidlə əlaqədar məsələ 2010-cu ilin mayında EANA-nın Budapeştdə keçirilən konfransında, 2010-cu ildə Argentinanın Barilos şəhərində Xəbər Agentliklərinin Üçüncü Dünya Konqresində geniş müzakirə olunmuş, so-

sial media ilə əlaqədar risk amilini ciddi surətdə nəzərə almaq və ehtiyatlı olmaq tövsiyə edilmişdir.

Çıxışımı yekunlaşdıraraq demək istəyirəm ki, yeni minillik qarşımızda yeni tapşırıqlar qoyur. Onları yerinə yetirmək və əsas auditoriyanın tələblərinə yüksək keyfiyyətlə cavab vermək üçün müntəzəm olaraq yeni texnologiyalardan və texnikalardan istifadə olunmalı, struktur, təşkilati, habelə arxitektura yenilikləri həyata keçirilməli və nəhayət, ən müasir redaksiyalar qurulmalıdır. İnformasiyanın qorunması və xaker hücumları ilə bağlı risklərə və zəifliklərə barmaqarası yanaşmaq olmaz. Nəzərə alsaq ki, xəbər məhsulu insanlar üçün istehsal edilir, o zaman hesab edirəm ki, insanların fikirlərinin əsas götürülməsi hər kəsin peşəkar mədəniyyətinin ayrılmaz hissəsi olmalıdır.

Diqqətinizə görə sağ olun!

Bakı, 13 iyun 2011-ci il.

Xəbər agentliyinin müştəri münasibətləri – təminatçıdan tərəfdaşa

(Avropa Xəbər Agentlikləri Alyansının (EANA) konfransında çıxış)

– Hörmətli həmkarlar,

Bu qısa çıxışımda tərəfdaş agentliklərin bir çoxu üçün maraqlı ola biləcək bir sıra məsələlərə toxunmaq istərdim.

Biz xeyli vaxtdır ki, informasiya agentlikləri arasındakı əlaqələrə və istehsal etdiyimiz məhsulun, yəni xəbərlərin alıcıları olan müştərilərə dair intensiv müzakirələr aparırıq.

Apardığımız bu müzakirələr əhəmiyyətli olmasına baxmayaraq, istər-istəməz başqa bir vacib məsələnin kölgəsində qalmışdır. Məncə, bu məsələ eyni dərəcədə əhəmiyyətlidir və bu, agentliklər arasındakı daxili əlaqələrdir.

Əsas məqsədimizin müştərilərimizə informasiya çatdırmaq olduğu doğrudur. Lakin bu da həqiqətdir ki, işimizin səmərəliliyi və keyfiyyəti aramızdakı əlaqələrin necə qurulmasından, ümumi məqsədlərə çatmaq üçün necə əməkdaşlıq etməyimizdən və birlikdə işləməyimizdən asılıdır.

Əlbəttə, agentliklər, hər halda, fərqlidir – bəziləri özəl, bəziləri isə dövlətin tabeliyindədir. Maliyyə mənbələri, gəlirlər, inzibati miqyas, maliyyə və texniki imkanlar da hamısında eyni deyildir. Bəzən biz birinci olmağa can atırıq, bəzən də rəqabəti kənara qoyaraq əməkdaşlıq edirik. Bütün bu təbii fərqlər öz yerində, amma biz hər halda eyni işi görürük və eyni sektoru təmsil edirik. Həm agentliklərin, həm də müştərilərin xeyrinə daha nə etmək olar?

Agentliklər arasında əməkdaşlığın ənənəvi tiplərindən biri ikitərəfli əsasda informasiya abunəsidir, yəni satan agentliyin informasiyasını müştəri agentliyin alması. Əlbəttə, əməkdaşlığın bu növü hər iki tərəf üçün faydalı olduqda həyata keçir. Tərəflərdən biri ehtiyacı olduğu xəbərləri alır (ehtiyacı olmayanda almır), digər tərəf isə hər zaman ehtiyacı olduğu pulu alır. Lakin gəlin bir anlığa fikirləşək: satış üçün təklif olunan informasiyaya bizim hər zaman ehtiyacımız olur? Yəqin ki, həmişə yox. Ola bilər bəzən. Biz ancaq ehtiyacımız olanda bu xəbərləri alırıq. Ehtiyacımız olmayanda almırıq və beləliklə də bu xəbərlər satılmır. Beləliklə, xəbərlərin

geniş oxucu kütləsinə çatdırılması baxımından daha çox hansı faydalıdır: informasiyanı başqa agentliyə satmaq və ya tərəfdaşlıq əsasında qarşılıqlı şəkildə mübadilə etmək? Sən öz məhsulunu yalnız qarşı tərəfin ehtiyacı olsa sata bilərsən və özün də günümüzdə ən çox maraq doğuran informasiyanı ala bilərsən. Bunlar ən vacib şərtlərdir, çünki sən nə öz tərəfdaşını ehtiyacı olmayan məhsulları almağa məcbur edə bilməzsən. Bundan başqa, həmin tərəfdaşın maliyyə imkanları məhduddursa, informasiya nə qədər cəlbedici olsa, yenə də həmin tərəfdaşını onu almağa məcbur edə bilməzsən. Buna görə də nəticədə itirən tərəf hansı olur? Aydındır ki, alıcı – internet istifadəçiləri, televiziya tamaşaçıları, radio dinləyiciləri, qəzet oxucuları, qısası biz kimlər üçün işləyiriksə, onlar.

AzərTAc bir çox tərəfdaş agentliklərlə ikitərəfli əsasda xəbərləri mübadilə edərək uzunmüddətli əməkdaşlıq əlaqələri qurmuş və informasiyanı geniş oxucuya çatdırmaqda bir-birinə hər cür kömək göstərir. Misal üçün, AzərTAc-la Anadolu Agentliyi, İTAR-TASS, KYODO, AGİ və s. agentliklər informasiya mübadiləsi sahəsində əməkdaşlıq edir.

Dünyanın müxtəlif hissələrində qonşu ölkələrin bir-biri ilə əməkdaşlıq edən və informasiya mübadiləsi həyata keçirən yeni xəbər agentlikləri arasında yaxın əlaqələrin olması ilə bağlı bir neçə nümunə göstərmək olar. Məsələn, Anadolu, Fars və Pakistanın Assoşieyted Press agentliklərinin əməkdaşlığı. Bu agentliklər 1972-ci ilin sentyabr ayında əvvəlcə öz aralarında informasiya mübadiləsini həyata keçirmək, daha sonra isə informasiyanın dünyaya çatdırılması istiqamətində əməkdaşlıqla bağlı razılığa gəlmişlər. Digər bir nümunəni isə Baltikyanı ölkələrin milli xəbər agentliklərinin timsalında göstərmək olar. Latviya, Litva və Estoniyanın milli xəbər agentlikləri BaltPress adı altında birləşərək vahid bir qurum kimi EANA-ya üzv olmuşlar. Həmin agentliklər mütəmadi olaraq informasiyaları, multimedia məhsullarının mübadiləsini aparır. Bundan başqa, informasiyalarla yanaşı, əməkdaşlarının da təcrübə, təlim kursları keçmək üçün mübadiləsini həyata keçirirlər. Fəaliyyət göstərdikləri ölkələrdə informasiyaları yayarkən hər bir tərəfdaş agentlik digər tərəfdaşı üçün emal mərkəzi kimi fəaliyyət göstərir. Bu əməkdaşlığın daha faydalı və effektiv olduğu artıq sübut olunmuşdur. Regional, subregional və beynəlxalq miqyasda da bu cür əməkdaşlığın nümunələri vardır. Məsələn: OANA – Asiya

və Sakit Okean Ölkələri Milli Xəbər Agentlikləri Alyansı, BSANNA – Qara Dəniz İqtisadi əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Milli İnformasiya Agentlikləri Alyansı, TKA – Türkdilli Xəbər Agentlikləri Birliyi, CANA – Karib Xəbər Agentliyi, PANA – Pan Afrika Xəbər Agentliyi və s.

Yüksək sürətə və effektivliyə əsaslanan rabitə texnologiyaları və informasiyanı dünyanın istənilən hissələrinə çatdırmağa imkan verən qurğular vasitəsilə xəbər agentlikləri öz informasiyalarını onu qəbul etməyə hazır olan tərəfdaşlarına çatdıra və çoxtərəfli əsasda öz əlaqələrini genişləndirə bilərlər və genişləndirməlidirlər.

Bizim hamımız eyni işlə məşğuluq. İnanıram ki, informasiyaların qarşılıqlı mübadiləsinə əsaslanan əməkdaşlığın agentliklər arasındakı müştəri əlaqələrindən daha böyük potensialı var və daha çox faydalıdır.

AzərTAc bu məsələləri agentliklərlə müzakirə etməyə, tərəfdaşlıq əlaqələrini ikitərəfli və çoxtərəfli əsasda genişləndirməyə hazırdır.

Berlin, 18-21 may 2011-ci il.

Ümummilli lider Heydər Əliyev bütün mənalı ömrünü Azərbaycanın inkişafına həsr etmişdir

("Müdriklik zirvəsi" kitabının təqdimat mərasimində çıxış)

– Hörmətli xanımlar və cənablar,

Bu günlərdə biz müstəqil dövlətimizin memarı və qurucusu, Azərbaycan xalqının dahi oğlu, görkəmli siyasi və dövlət xadimi kimi dünyada şöhrət tapmış ulu öndərimizin nurlu xatirəsini yad edirik. Əslində, bu dahi şəxsiyyət hələ sağlığında Azərbaycan xalqının qəlbində özünə elə bir abidə ucaltmışdır ki, onun xatirəsi daim ürəklərdə yaşayır, onu hər gün dərin minnətdarlıq hissi ilə anırıq.

Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Onun respublikaya rəhbərliyinin birinci dövründə gördüyü nəhəng işlərlə bugünkü Azərbaycanın dövlət suverenliyinin, iqtisadi müstəqilliyinin, milli dirçəliş, azərbaycançılıq ideologiyasının təməli qoyulmuşdur.

XX əsrin 60-cı illərinin sonunda Azərbaycanın sosial-iqtisadi vəziyyəti yaşlı nəslin yaxşı yadındadır. Azərbaycan, əslində, keçmiş SSRİ respublikalarının bir çoxundan hər sahədə geridə qalırdı. Daha doğrusu, tənəzzül keçirirdi. Yarım əsr nəhəng bir dövlətin tərkibində olan Azərbaycanı, xalqımızı, nə qədər acınacaqlı da olsa, İttifaqın heç də hər yerində əməlli-başlı tanımırdılar.

Çoxları da tamamilə mənfi mənada tanıyırdı. Lakin 1969-cu ilin ikinci yarısında Heydər Əliyev respublika rəhbəri seçildikdən sonra vəziyyət tədricən və nəhayət tamamilə dəyişdi. Dünyanın altıdabirini əhatə edən ölkənin nəhəng potensialından bacarıqla istifadə edən və respublikanın bütün imkanlarını səfərbərliyə alan, kommunist rejiminin xüsusiyyətlərinə dərindən bələd olan, böyük təcrübəyə malik Heydər Əliyev Azərbaycanı həqiqətən tərəqqi yoluna çıxardı.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi həmin dövrdə SSRİ hökumətinin Azərbaycanın hərtərəfli inkişafına yönəldilmiş çox mühüm qərarlar qəbul etməsinə nail oldu. Eyni zamanda, bunların həyata keçirilməsini təmin etdi. Bu isə İttifaq büdcəsindən respublikaya o vaxtadək görünməmiş məbləğdə vəsaitin ayrılması, yeni müasir istehsal

müəssisələri, elm, təhsil, mədəniyyət, səhiyyə ocaqları, Azərbaycanın hər yerində aparılan saysız-hesabsız tikinti işləri və ən nəhayət, xalqımızın yaşayışının ilbəil yaxşılaşması demək idi. Eyni zamanda, bu, Azərbaycanın İttifaq miqyasında nüfuzunun sürətlə artması, həmçinin get-gedə dünyada tanınması demək idi. Qətiyyətlə deyə bilərik ki, respublikaya rəhbərliyinin birinci dövründə cənab Heydər Əliyevin ən böyük xidmətlərindən biri doğma Azərbaycanı və qədim tarixi, zəngin mədəniyyəti olan xalqımızı dünyaya tanıtması olmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildən 2003-cü ilə qədər xarici ölkələrə səfərlərində onu müşayiət etmiş, respublikada keçirilən yığıncaqların, qəbulların, görüşlərin tam əksəriyyətində iştirak etmiş bir jurnalist kimi mən görkəmli dövlət və siyasi xadimlərin, diplomatların, müxtəlif peşə sahiblərinin, tanınmış qələm ustalarının Heydər Əliyevə göstərdiyi böyük ehtiramın şahidi olmuşam. Onun böyüklüyünü bütün dünyada etiraf edir, fenomen şəxsiyyət, nüfuzlu dövlət xadimi, nadir natiqlik istedadına malik şəksiz lider kimi ona böyük rəğbət bəsləyirdilər.

Azərbaycan xalqı ötən əsrin 80-ci illərinin ortalarınadək Heydər Əliyevin xidmətlərindən nə qədər bəhrələnmişdisə, SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra, xüsusilə 90-cı illərin əvvəlində onun siyasi səhnədə olmamasının ağrı-acısını bir o qədər hiss etdi, həllini bu gün də tapmamış Qarabağ dərdinə düçar oldu. Bəli, Azərbaycanın bəlalı günləri elə o vaxt başlandı. "Olum, ya ölüm" dilemması ilə qarşılaşan Azərbaycan xalqı müdrikliyini bir daha göstərdi, 1993-cü ilin böhranlı iyun günlərində öz müdrik oğlunu təkidlə yenidən siyasi hakimiyyətə gətirdi və yanılmadı.

Xalqımızın dahi övladı, vaxtilə Kremlin siyasi hakimiyyət pilləsində ən parlaq sima olan Heydər Əliyev özünün nəyə qadir olduğunu bir daha bütün dünyaya – dostlarımıza da, bədxahlarımıza da sübut etdi. Azərbaycana ən böyük xidmətini göstərdi – ictimai-siyasi sabitliyi bərqərar etdi, dövlət müstəqilliyini qoruyub saxladı, möhkəmləndirdi, onu əbədi və dönməz etdi, iqtisadi böhrana son qoydu, iqtisadiyyatı inkişaf yoluna çıxardı, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etdi, Azərbaycanı regionun aparıcı dövlətinə çevirdi. Cəmi bir neçə kəlmə ilə sadalamaq mümkün olan bu taleyüklü vəzifələrin yerinə yetirilməsinin arxasında Heydər Əliyev şəxsiyyətinin gecəli-gündüzlü, məqsədyönlü, ağlasığmaz dərəcədə gərgin

son nəticədə sağlamlığına qəsd edən fəaliyyəti dayanır. Həmin illərə ötəri də olsa nəzər salanda hətta onun kimi nəhəng, müdrik, qətiyyətli, polad iradəli insanın ixtiyar yaşında bu qədər işin öhdəsindən necə gələ bildiyinə heyrətlənməmək mümkün deyildir. Amma bu, həqiqətdir. Eyni zamanda, o da həqiqətdir ki, buna yalnız Heydər Əliyev kimi qüdrətli şəxsiyyət qadirdir.

Prezident Heydər Əliyevin Azərbaycan, xalqımız, bütün region üçün gördüyü misilsiz işlər özlüyündə nə qədər böyük və əhəmiyyətli olsa da, biz bunların əzəmətini, bəlkə də, hələ olduğu kimi dərk edə bilmirik. Yəqin ona görə ki, buna hələ zaman gərəkdir və üstəlik Heydər Əliyev kimi dahinin müasiri olduğumuza və onun xidmətləri gözümüz qarşısında baş verdiyinə görə bütün bunlara adi hal kimi baxırıq və bəzən hesab edirik ki, belə də olmalı idi.

Lakin o da həqiqət idi ki, dünya görkəmli siyasi xadim, mahir diplomat, müdrik dövlət xadimi kimi Prezident Heydər Əliyevin qiymətini artıq vermişdir. Fransada çıxan "Kuryer İnternasional" jurnalının 2003-cü il may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adlerin ümummilli liderimiz Prezident Heydər Əliyevin 80 illik yubileyi münasibətilə geniş məqaləsində deyilir: "Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb bir tarixi məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlı hadisələrlə üzləşmiş, bunların hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Bəli, Heydər Əliyev, həqiqətən, yüksəklərə qalxmışdır, əlçatmaz zirvədir. Dünyanın görkəmli siyasi və dövlət xadimlərinin, biznes nümayəndələrindən tutmuş diplomatlara, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin dilindən səslənmiş fikirlər Heydər Əliyev şəxsiyyətinin, Vladimir Putinin sözləri ilə desək, "siyasət nəhəngi"nin əzəmətini daha dolğun dərk etməyə imkan verir. Zənnimcə, bu fikirlərdə diqqəti cəlb edən odur ki, bunlar Heydər Əliyev fenomeninə xas olan bütün cəhətləri əhatə edir. Yəni, onu təkcə məşhur siyasi və dövlət xadimi kimi deyil, həqiqətən, dünyanı valeh edən, hərtərəfli istedada malik alicənab insan, əfsanəvi şəxsiyyət kimi səciyyələndirir.

Dünyanın diqqətini Azərbaycana cəlb etmək Prezident Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri idi və o, zəngin təcrübəsi, müd-

rik dövlət xadimi, mahir diplomat kimi buna tədricən nail olurdu. Onun xarici səfərləri zamanı və ölkə daxilində keçirdiyi saysız-hesabsız görüşlər, apardığı danışıqlar günbəgün öz bəhrəsini verirdi. Çünki dünya Heydər Əliyev şəxsiyyətinin qüdrətini daha dərindən dərk edir və ona birmənalı şəkildə inanırdı. Həqiqətən də, Prezident Heydər Əliyev siyasi və dövləti fəaliyyəti ilə dünyanı valeh edən əfsanəvi liderdir. Buna görə dünya da onu olduğu kimi qiymətləndirmişdir və gələcəkdə də qiymətləndirəcəkdir.

Prezident Heydər Əliyev nəsillərə örnək olan mənalı, hadisələrlə zəngin ömrünü bütünlüklə doğma Azərbaycanına həsr etmiş, bu yolda göstərdiyi misilsiz xidmətləri ilə nəinki ölkəmizin tarixində, həm də dünya diplomatiyasının tarixində silinməz iz qoymuşdur. Ulu öndərimiz Heydər Əliyevin qurub-yaratdığı müasir müstəqil Azərbaycan Respublikası Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti sayəsində dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Azərbaycanın müstəqilliyi isə əbədidir, Azərbaycan xalqı da tarix durduqca yaşayacaqdır.

Ulu öndərin titanik fəaliyyətinin, müdrik daxili və xarici siyasətinin geniş miqyasda öyrənilməsi və təbliği məsələləri ilə gündəlik məşğul olmaq hər birimizin müqəddəs borcudur. Azərbaycan Müəllimlər İnstitutunun rektoru, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlının ideya və ön sözün müəllifi olduğu "Müdriklik zirvəsi" kitabı bu yöndə atılmış uğurlu addımlardan biridir. Bu kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edirəm. Qəti əminəm ki, dahi liderin fəaliyyətinin öyrənilib araşdırılması bundan sonra da davam etdiriləcək və neçə-neçə sanballı əsərlər yazılacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

Bakı, 29 aprel 2011-ci il

Xəbər mediasının perspektivlərini müəyyənləşdirmək mühüm vəzifədir

(Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XIV Baş Assambleyasında çıxış)

– Xanımlar və cənablar,

Azərbaycan Dövlət Teleqraf Agentliyi adından Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı Baş Assambleyasının iştirakçılarını salamlamaqdan məmnunluq duyuram. Fürsətdən istifadə edib belə mötəbər tədbirin ərsəyə gəlməsi üçün gördükləri böyük işlərə görə Təşkilat Komitəsinin üzvlərinə və Anadolu Ajansının rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Bəşəriyyətin tərəqqisində və qloballaşan dünyanın inkişafında informasiya mühüm rol oynayır. Ölkələrimizin baniləri ilk konstitusiyaları təsis edərkən və demokratiya yolunu seçərkən müstəqilliyin dönməzliyi üçün vacib amillərdən olan fikir və mətbuat azadlığını ön plana çəkmişlər. Media, xüsusilə xəbər agentliyi azad cəmiyyətin təməl prinsipləri hesab edilir. Azad cəmiyyətin təşəkkül tapmasından çox illər, hətta bir sıra ölkələr üçün əsrlər keçib. Ölkələrimiz inkişaf etdikcə xəbər mediasının cəmiyyətdə təsir imkanları artıb və bu proses müasir dünya dövlətlərini hörümçək toru kimi bir-birinə sıx bağlayıb. Bu gün biz alyansımızın – OANA-nın bu vacib tədbirinə milli xəbər agentliklərinin XXI əsrdə üzləşdikləri problemlərin həlli yolları ilə bağlı müzakirələr aparmaq üçün toplaşmışıq.

Baş Assambleyanın İstanbul toplantısı xəbər mediasının perspektivlərinin müəyyənləşdirilməsi kimi mühüm bir mövzuya həsr olunmuşdur. Bu toplantının çox geniş bir coğrafiyanı əhatə edən müxtəlif ölkələrin xəbər agentlikləri arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi baxımından da əhəmiyyətli olacağına əminəm. Biz yeniliklər barədə təcrübə mübadiləsi aparacaq, xəbər istehsalının və yayılmasının yeni yollarını müzakirə edəcək, səmərəli dialoqlardan yetərincə faydalanacağıq.

Hörmətli həmkarlar,

Azərbaycanın milli informasiya agentliyi – AzərTAc xəbər istehsalı və yayılması arxitekturasında çox önəmli islahatlara, iddialı bir proqram həyata keçirməyə başlamışdır. Bu proqramın vacib cəhətlərindən biri Xarici

dillərdə informasiya baş redaksiyasının strukturunun genişləndirilməsidir. Artıq bu istiqamətdə ciddi addımlar atılmış, ingilis və rus dillərindən başqa alman, fransız və ərəb dillərində xəbər şöbələri yaradılmışdır. Bunun nəticəsində AzərTAc-ın xəbərləri artıq altı dildə dünyanın müxtəlif ölkələrinə yayılır.

Proqramın digər vacib cəhəti isə aparıcı milli xəbər agentliyi üçün yüksək standartlara cavab verən yeni multimedia redaksiyasının yaradılmasıdır. Bu, bütün gün ərzində fasiləsiz işləyən, siyasətdən tutmuş idmana qədər bütün mövzuları əhatə edən informasiya məhsullarını ortaya qoyacaq bir redaksiyadır. Bu istiqamətdə ixtisaslaşmış peşəkar jurnalistlər hadisə yerindən reportajları agentliyə ötürəcəklər. Rəqəmsal avadanlıqla işləyən redaktorlar günün əvvəlində xəbər mövzularını planlaşdırır, jurnalistlər tapşırıqları yerinə yetirir, çap xəbər redaktorları isə məhsulun istehlakçıya çatdırılması funksiyasını yerinə yetirirlər. Yeni rollar məsələsində ideal nəticə bütün media xəbərlərini idarə etmək və qərarları mümkün qədər tez verməkdir. Bizim komanda informasiyanı müxtəlif mənbələrdən – dövlət və hökumət qurumlarından, qeyri-hökumət təşkilatlarından, hadisə yerlərindən, xəbər lentlərindən, xarici ölkələrdəki müxbirlərimizdən əldə edib onu daim yenilənən qaynar xəbər kimi hazırlayır və yayır. Bununla da, xəbər daha operativ, zəngin və məzmunlu olur.

Biz xəbərlərin hazırlanmasının vacib bir elementini daim diqqətdə saxlayırıq – hər bir jurnalist müasir kommunikasiya vasitələri ilə işləməyi, xəbər məhsulunun video, audio, foto, infoqrafika elementlərini kombinasiya etməyi, vahid komanda halında çalışmağı, tez və düzgün qərar qəbul etməyi bacarmalıdır. Bu məqsədlə agentlikdə seminarlar təşkil olunur, əməkdaşlarımıza kommunikasiya vasitələrindən istifadə vərdişləri aşılanır, müasir informasiyanın incəlikləri və xarici agentliklərin iş prinsipi öyrədilir.

Müasir dizayn xəbər istehsalı və çatdırılması işini sürətləndirməyə və səmərəliliyi artırmağa imkan verməklə yanaşı, elektron və kağız çap medialarını bir-birinə yaxınlaşdırır. Ən müasir redaksiyalar son texnologiyalara uyğun, iş şəraiti sürətli və davamlı kommunikasiyalara əsaslanan rahat və müasir otaqlarda qurulmalıdır. Doğrudur, mebelləri yeniləmək və ya peşələrə yeni adlar vermək heç də son məhsulun – xəbərin keyfiyyətin dəyişmir. Lakin işimizdə ən müasir texnologiyalardan istifadə etməyin

və böyük uğurlar qazanmış tərəfdaşlarımızın təcrübələrini nəzərə almağın jurnalistlərin peşəkar inkişafına xidmət etdiyinə şübhə yoxdur. Çünki bu, jurnalistlərə ətraf aləmə yeni düşüncə, baxış və perspektiv prizmadan yanaşmalarına imkan verir. Nəticə etibarilə, bu, jurnalistlərin və kollektivin digər üzvlərinin peşəkarlıq mədəniyyətini, habelə bir çox müəlliflərin hadisələrə baxışını dəyişir, onlara xəbər istehlakçılarının – yəni, bütövlükdə cəmiyyətin faydalandığı informasiyaları daha keyfiyyətli və daha maraqlı etməyə imkan yaradır.

Əlbəttə, məsələyə bu cür yanaşmanın qəbul olunmasının gələcəkdə dərhal səni uğurlu media qurumu edəcəyinə heç kim təminat vermir. Lakin məsələ burasındadır ki, əgər sən bunu etməsən, yerində sayacaq, bazardan təcrid olacaq, rəhmsiz rəqiblərinə fürsət verəcək və bəlkə də, iflasa uğrayacaqsan. Müvəffəqiyyət qazanmaq üçün müasir dizaynlı redaksiyanın, ən son texnologiyaların və jurnalistlərin səmərəli iş şəraitinin olması çox vacib amildir. Hazırda bizim işimizdə fiziki məsafənin redaksiyada yaxşı qərar qəbul etmək üçün böyük maneə olduğu bir faktdır. Bununla əlaqədar, AzərTAc üçün milli informasiya agentliyinə hesablanmış müasir binanın tikilməsi istiqamətində intensiv smeta-layihələndirmə işləri görülür. Ümidvaram ki, yaxın zamanlarda biz tərəfdaşlarımızla əlaqələri yeni binamızdan saxlamağa nail olacağıq.

Fürsətdən istifadə edib diqqətinizə çatdırmaqdan məmnunam ki, OANA-dakı tərəfdaşları ilə əlaqələr quran AzərTAc son vaxtlar böyük təşkilati, texnoloji və arxitektura dəyişiklikləri həyata keçirir. Bu da onunla əlaqədardır ki, bizim məhsulların istehlakçısı olan auditoriya daim hərəkətdədir. Onlar bütün gün ərzində, harada olursa-olsunlar, dünyada nə baş verdiyini və nəyin mühüm olduğunu bilməyə can atırlar. Onlar artıq səhər qəzetlərdə və axşam radiolarda informasiyalarla kifayətlənmirlər. Onlara maşında gedərkən, hətta küçədə gəzərkən müntəzəm və operativ xəbərlər lazımdır. Bununla əlaqədar, biz bazarın tələbinə uyğun olaraq redaksiyalarımızı birləşdirməyə, məhsullarımızı yaxşı formada bütün yaş qruplarından olan auditoriyaya çatdırmaq məqsədilə kağız və peyk xəbərlərinin vəhdətini yaratmağa başlamışıq. Buna görə də, biz hesab edirik ki, nəinki 10 il, necə onilliklərdən sonra da milli informasiya agentliklərinin, o cümlədən AzərTAc-ın xəbərlərinə ehtiyac duyulacaqdır.

Günün ən mühüm xəbərləri insanlara hava və su kimi lazımdır. Bu səbəbdən son dərəcə dəqiq, bitərəf, qərəzsiz və operativ xəbər bizim ən vacib maraq dairəmizdədir. Müasir texnologiyaların yaranması və inkişafı insanlara qaynar xəbərlər çatdırmaq üçün geniş və yeni yollar təklif edir. İnternet, podkastlar (internetdən yüklənə bilən audio və videomateriallar), MP3 çalarlar, mobil telefonlar, mobil video, ismarıc, mikrobloqqinq və sosial şəbəkələnmənin digər formaları kommunikasiya əlaqələrinin sonsuz imkanlarını təqdim edir. Bu, saysız-hesabsız seçim imkanları ilə daim dəyişən yeni dünyadır. Cəmiyyətin istehlak edəcəyi informasiya ilə bağlı məsuliyyəti məhz biz bölüşürük.

Sonda demək istəyirəm ki, yeni minillik bizim qarşımıza yeni vəzifələr qoyub. Onları yerinə yetirmək və informasiya bazarında təklifin tələbi üstələməsi üçün müntəzəm olaraq yeni texnologiyalardan geniş istifadə edilməli, struktur islahatları mütəmadi aparılmalı, habelə redaksiyaların arxitekturası daim yenilənməlidir. İnformasiyanın qorunması və pirat hücumları ilə bağlı risklərə və təhdidlərə barmaqarası yanaşmaq olmaz. Tərəfdaşların, həmçinin hökumətlərin əməkdaşlığında bu məsələlərə diqqət yetirilməlidir. Sonuncu və daha bir əhəmiyyətli məqam – nəzərə alandakı xəbər məhsulu istehlakçılar üçün hazırlanır, o zaman, hesab edirəm ki, istehlakçıların fikirləri media biznesində peşəkar mədəniyyətin ayrılmaz hissəsi olmaqda davam etməlidir.

Diqqətinizə görə sağ olun.

İstanbul, 25 noyabr 2010-cu il.

Müasir dünyanın inkişafında informasiyanın əhəmiyyəti və rolu

(Dünya Xəbər Agentliklərinin üçüncü konqresində çıxış)

– Xanımlar və cənablar,

Azərbaycan Dövlət Teleqraf Agentliyi adından Dünya Xəbər Agentliklərinin üçüncü konqresi iştirakçılarını salamlamaqdan məmnunluq duyuram. Fürsətdən istifadə edib belə möhtəşəm tədbirin ərsəyə gəlməsi üçün gördükləri böyük işlərdən dolayı Təşkilat Komitəsinin üzvlərinə və Argentina Respublikasının Xəbər Agentliyinə (TELAM) öz minnətdarlığımı bildirirəm.

Bu forumun mövzusu müasir dünyanın inkişafında və bəşəriyyətin tərəqqisində informasiyanın danılmaz rolu haqqındadır. Media, xüsusilə xəbər mediası azad cəmiyyətin giriş qapısı rolunu oynayır. Bu prosesin təşəkkül tapmasından çox illər, hətta bir sıra ölkələr üçün əsrlər keçib. Cəmiyyətimiz inkişaf etdikcə xəbər mediasının insanlar üzərində təsir imkanları daim olub və olmaqda davam edir. Bu gün biz bu möhtəşəm tədbirə xalqlarımızın və milli xəbər agentliklərinin 21-ci əsrdə üzləşdikləri olduqca yeni sayılan məsələlərlə bağlı müzakirələr aparmaq üçün yığışmışıq.

On il öncə dünya kütləvi informasiya vasitələri, özəlliklə burada bizim təmsil etdiyimiz xəbər mediası tamamən yeni rolu ilə yeni minilliyə daxil oldu. Bu yeni rol özündə yeni reallıqları, yeni çağırışları və təbii olaraq, ölkələrimizin erkən illərdə istifadə etdiklərindən kifayət qədər fərqli olan yeni terminologiyanı ehtiva edir. Yəni, o zamanlar kim "informasiyanın qorunması", "multimedia redaksiyaları", "sosial media", "yeni media" haqqında danışırdı? Kimin ağlına gələrdi ki, zaman gələcək bəzi ölkələrdə uşaqlar ev tapşırıqlarını etmək və ya məktəbdə dərslərinə qulaq asmaq əvəzinə vaxtlarının çoxunu televiziyaya baxaraq və yaxud internetdə oturaraq keçirəcək. Əslində, onlar kitablarda yazılanlardan daha çox mediada gördüklərinə və eşitdiklərinə inanırlar. Bu uşaqların çox böyük hissəsinin düşüncələri və inamları mediada gördüklərinin və eşitdiklərinin əsasında qurulur. Doğrudur, media insanlara nə düşünməli olduqlarını deməkdə effektli deyil, ancaq necə düşünmələri və yiyələndikləri informasiyaları təhlil edərkən hansı əxlaqi norma və dəyərlərə əsaslanmaları baxımından onun insanlara güclü təsir etmək imkanları var.

Dünya əhalisinə effektli yetişməklə bağlı medianın həyati rol oynamaqda davam etməsinə bir balaca şübhələr mövcuddur. İnsanlar son xəbərləri hava, su kimi qəbul etməkdə davam edirlər. Bu səbəbdən son dərəcə dəqiq, bitərəf, qərəzsiz və operativ verilən xəbər bizim birinci dərəcəli marağımız və inancımızdır.

– Xanımlar və cənablar,

Bizim agentliyimiz, AzərTAc bu yaxınlarda strukturunda yenidənqurma işləri və coğrafi genişlənmə timsalında iddialı bir proqram həyata keçirməyə başlamışdır və bunun da bir hissəsini aparıcı milli xəbər agentliyi üçün son tələblərə, yüksək standartlara cavab verən yeni multimedia redaksiyasının yaradılması təşkil edir. Mən çox şadam ki, bu məsələ bu konfransın müzakirə mövzularından biridir. Əlbəttə, dünya xəbər agentlikləri böyük təşkilati, texnoloji və arxitektura (yəni redaksiyaların dizaynı) dəyişiklikləri həyata keçirirlər. Müasir dizayn xəbər çatdırma işini sürətləndirməyə və effektliliyini artırmağa imkan verməklə yanaşı, interneti və kağızı bir-birinə yaxınlaşdırır. Ən müasir redaksiyalar son texnologiyalara uyğun, iş şəraiti sürətli və davamlı kommunikasiyalara əsaslanan rahat, müasir və böyük otaqlarda qurulmalıdır. Nəticə etibarilə, bu, jurnalistlərin və digər kollektiv üzvlərinin peşəkarlıq mədəniyyətini, habelə bir çox müəlliflərin hadisələrə baxışını dəyişir, onlara müştərilərimizin (yəni bütövlükdə cəmiyyətin) faydalandığı məhsulları daha keyfiyyətli və daha maraqlı etməyə imkan verir.

Əlbəttə, bu yanaşmanın qəbul olunmasının gələcəkdə dərhal səni uğurlu media qurumu edəcəyinə heç kim təminat vermir, lakin məsələ burasındadır ki, əgər sən bunu etməsən, yerində sayacaq, bazardan təcrid olacaq, rəhmsiz rəqiblərinə fürsət verəcək və bəlkə də, iflasa uğrayacaqsan. Müvəffəqiyyət qazanmaq üçün müasir dizaynlı redaksiyanın, ən son texnologiyaların və jurnalistlərin effektli iş şəraitinin olması olduqca vacibdir.

Səbəb sadədir: Bizim auditoriya daim hərəkətdədir. Onlar bütün gün ərzində, harada olurlarsa-olsunlar, dünyada nə baş verdiyini və nəyin mühüm olduğunu bilməyə can atırlar. Onlar artıq yalnız sabah qəzetlərində və axşam radiolarında gedən informasiyalara etibar etmirlər.

Onlara maşında gedərkən, hətta küçədə gəzərkən müntəzəm və operativ xəbərlər lazımdır. Rəqəmsal texnologiya vəziyyəti dəyişib. Ümum vəziyyəti və xidməti vasitələri dəyişmək ehtiyacını nəzərə alaraq və işimizin

effektini düşünərək biz redaksiyalarımızı birləşdirməklə bazarın tələbinə uyğunlaşmağa məcbur olduq. Eyni zamanda, məhsullarımızın yaxşı formada bütün yaş qruplarından olan auditoriyaya çatdırmaq məqsədilə kağız və peyk xəbərlərinin vəhdətini yaratmağa başlamışıq.

Nəticədə multimedia redaksiyası yaradılacaq, bu da siyasətdən tutmuş idmana qədər bütün mövzuları əhatə edən məhsulları ortaya qoyacaq. Hərtərəfli bacarığı olan və yeni təlimlər almış jurnalistlər istənilən vaxt istənilən məsələ üzrə işləyə biləcək, redaktorlar isə dərhal materialların son variantını buraxacaq və yeni tapşırıqlar verəcəklər. Bu, 24 saat işləyən redaksiyadır. Rəqəmsal redaktorlar günün əvvəlində xəbər mövzusu planlaşdırırlar, daha sonra gün ərzində çap xəbər redaktorları planlaşdırma və buraxma funksiyasını öz üzərlərinə götürürlər. Yeni rollar məsələsində ideal nəticə bütün mediada xəbərləri idarə etmək (ona görə də bu multimedia adlanır) və qərarları mümkün qədər tez verməkdir. Bizim komanda informasiyanı müxtəlif mənbələrdən – xəbər lentlərindən, xaricdəki müxbirlərimizdən əldə edib onu daim yenilənən qaynar xəbər kimi hazırlayacaq. Bununla da, xəbər daha zəngin və daha dərin olur, eyni zamanda çapa hazır vəziyyətə gətirilir.

Əslində, əsas məsələ redaksiya otağının dizaynı deyil. Doğrudur, müəyyən mənada dizayn da vacibdir və inteqrasiya prosesində aktiv rol oynayır, lakin buna baxmayaraq, o, mədəni dəyişikliyin yalnız bir hissəsini təşkil edir. Hər şeydən qabaq peşəkarlıq mədəniyyəti dəyişməlidir. Əsas məqsəd daha yaxşı kommunikasiya və operativ işin təmin edilməsidir. Bu, müntəzəm qaydada kommunikasiyadan xəbərdar olan, komandada işləməyi bacaran və tez qərarlar qəbul etməyə qabil insanların yan-yana, bir yerdə işləməsidir. Hazırda bizim işimizdə fiziki məsafənin redaksiyada yaxşı qərar qəbul etmək üçün böyük baryer olduğu bir faktdır. Bütün bunlar yenidənqurma işlərimizdə bizim əsas hesab etdiyimiz prinsiplərdir.

Xanımlar və cənablar, hazırda digər vacib məsələ – mən bunun konqresin gündəliyinə salınmasını alqışlayıram – məlumatın qorunması və informasiya piratlığına qarşı tədbirlərdir. Keçən ilin mayında Budapeştdə sosial media və ənənəvi xəbər agentliklərinin sosial mediaya inteqrasiyası mövzusunda EANA-nın konfransı keçirildi. Bu mənada, gizlilik planı yaratmaq bizim sosial media strategiyamızın bir hissəsi olmalıdır, çünki qazanclarla

yanaşı risklər də mövcuddur. Əlbəttə, bir bazar kimi sosial şəbəkələrin inkişafı son illərdə mühüm iqtisadi hadisələrdən biridir. Həmin bu yeni imkanların axtarışında olan korporativ şirkətlərə və fərdi müştərilərə gözləntilərini qarşılamaq üçün gizlilik planı lazımdır.

Gizlilik məsələlərini düşünmədikdə və onun mümkün risklərinə məhəl qoymadıqda mənfi nəticələri görmək üçün bir çox xəbər agentliyinin bağlantısı olduğu Facebook-un cavab reaksiyasına baxmaq kifayətdir. Bu mənada sual doğur: Bu günün sosial media platforması tam etibarlıdırmı? Açığı, mən buna çox da əmin deyiləm.

Heç kimə sirr deyil ki, agentliklərimizdə çalışan bir çox jurnalistin internetdə özlərinin bloqları var və çox zaman korporativ veb səhifələrini, şəxsi bloqlarını agentliyin texniki imkanlarından istifadə edərək redaktə edirlər, bu da, bizim təhlükəsizliyimizə zərbə vurur, eyni zamanda, hakerlərin bu bloqlar vasitəsilə məlumat bazamıza hücum etmələrinə şərait yaradır. Belə hallar kompyuter piratlarının Facebook-a üzv olan kollektivdə çalışanların profilini oğurlayaraq və sonra da şifrələri açaraq ümumi serveri dağıtması ilə nəticələnir. Bundan başqa da bir çox kanallar vardır ki, piratlar onlar vasitəsilə məlumat təhlükəsizliyini yara bilərlər. Məhz bu baxımdan, biz çox ehtiyatlı olmalıyıq.

Bununla bağlı bir uğursuz faktor da (mən bunu əslində tendensiya adlandırardım) vardır ki, bunu mütləq qeyd etməliyəm: pis məqsədli insanlar həmişə bizdən bir addım öndədirlər (onlardan elələri də vardır ki, onların əlinə keçməsi təhlükəli olan məlumatları qeyri-qanuni yolla əldə etməyə çalışır və çalışmağa da davam edəcəklər).

Təəssüflər olsun ki, biz həmişə onların etdiklərinə ancaq cavab verməklə kifayətlənirik və növbəti dəfə nə edəcəklərini nadir hallarda bilirik. Bu, sənaye və informasiya casusluğu keçmiş zamanlarda da belə olmuşdur və kibernetika aləmində məlumatın qorunmasına çox önəm verdiyimiz bu günümüzdə də belədir. Onlar yenilikçidirlər və bizi gözləmədiyimiz anlarda haqlayırlar.

Təəssüf ki, milli qanunvericilik və dövlətlərarası sazişlər bu problemlərlə mübarizə aparmaqda yetərli deyillər və daha önəmlisi, keçən illərin statistik rəqəmləri göstərir ki, məlumatın qorunması və informasiya piratlığı məsələləri daha böyük aktuallıq qazanmışdır. FTB-nin (Federal Təhqiqatla

Bürosu) məlumatına görə, informasiyanın qorunmasına dair qanunvericiliyin gücləndirilməsinə baxmayaraq, təkcə keçən il sosial media platformalarına olan hücumlar üçqat artmışdır. Bu "pis oğlanlar" xəbər agentliklərinə tərəf də baxacaqlarmı? Doğrusu, mən bundan qorxuram və bunu istisna etmək, hesab edirəm ki, sadəlövhlük olardı. Mən həmkarlarımın bu məsələ ilə bağlı nə düşündüklərini, ideyalarını və təkliflərini məmnuniyyətlə eşitmək istərdim.

Xanımlar və cənablar, icazə verin işimizdə müştəri ilə istehsalçının qarşılıqlı əlaqəsi haqda da bir-iki kəlmə deyim. Sizin elə müştəriniz olubmu ki, qabaqlar həmişə xəbərlərinizi sevə-sevə oxusun, ancaq qəflətən, saytınıza artıq girməsin, yaxud xəbər bülletenlərinizə abunəçiliyini dayandırsın? Heç düşünmüsünüzmü niyə? Aydın məsələdir ki, onları nə isə məmnun etməyib – bu, ya xidmətinizin, məhsulunuzun keyfiyyəti ilə bağlıdır, yaxud da oxucularınıza münasibətiniz sizi onlardan uzaqlaşdırıb. Narazı müştərilərin böyük əksəriyyəti (təxminən 95 faizi) heç vaxt narazılıqlarını bildirmir. Müştərinin şikayət məktubu yazması, ya da zəng edib narazılığını bildirməsi vaxt, səy tələb edir. Onlar üçün ən asan yol çıxıb getmək və bir də sənin xəbərlərini oxumamaqdır. Beləliklə, sənin müştərilərinin sənin işindən məmnun olub-olmadığını necə biləcəksən və bundan istifadə edərək işini necə inkişaf etdirəcəksən?

Bunun bir sadə yolu müştərinin fikrini öyrənmək yoludur. Hətta şikayət yazmağa həvəsi olmayan müştərilər anonim qaydada formalar dolduracaqlar. Müştərilərə sizin xəbər agentliyi haqqında müsbət və ya mənfi fikirdə olmalarına dair sualların olduğu sorğu vərəqələri göndərin. Siz həmişə bir neçə cavabı olan sualı da ora daxil etməlisiniz, sonda da onlara əlavə rəy və təklifləri haqda imkan da yaratmalısınız. Onların nədən narazı qaldıqlarını bilmək və ya onların verdiyi konstruktiv təkliflər sizin ümumi işinizi inkişaf etdirmək baxımından bir imkan ola bilər.

Siz, həmçinin onlara imkan yarada bilərsiniz ki, fəaliyyətinizi rəqəmlərlə, məsələn 1-dən 10-a kimi qiymətləndirsinlər. Bütün bunlar sizə çətin gəlirsə o zaman sorğudan istifadə etməyin. Sadəcə, saytınızda müştərilərin rəy və fikirlərini daxil etməsi üçün bölmə yerləşdirin. Siz suallar verib cavablar alarkən buna uyğun addım atmağa hazır olmalısınız. Bunlardan iş fəaliyyətinizi yaxşılaşdırmaq üçün istifadə edin.

Müştərilər bizim agentliklərin yeganə var olma səbəbidir, yəni onları razı salmaq media bazarında bizi daha dayanıqlı edəcək. Rəy söyləyən hər bir insana cavab vermək, onların fikirlərini nəzərə almaq vacibdir. Müştəri rəyinə əsaslanıb addım atmaq mümkündürsə, qoyun onlar bundan xəbərdar olsunlar. Ən pisi odur ki, rəylərini soruşasan amma heç bir iş görməyəsən. Bu cür laqeyd yanaşma nəticəsində, təbii ki, müştəri öz fikirlərini bir daha səninlə bölüşməyəcək və sənin rəqiblərinə üz tutacaq, bununla da sən rəqiblərini sevindirmiş olacaqsan.

Çıxışımı yekunlaşdıraraq demək istəyirəm ki, yeni minillik bizim qarşımıza yeni tapşırıqlar qoyub. Onları yerinə yetirmək və əsas auditoriyamızın tələblərini qarşılamaq üçün müntəzəm olaraq yeni texnologiyalardan və texnikalardan istifadə olunmalı, struktur, təşkilati, habelə arxitektura yenilikləri həyata keçirilməli və nəhayət, ən müasir redaksiyalar qurulmalıdır. İnformasiyanın qorunması və pirat hücumları ilə bağlı risklərə və zəifliklərə barmaqarası yanaşmaq olmaz.

Tərəfdaşların, həmçinin hökumətlərin əməkdaşlığında bu məsələlərə diqqət ayrılmalıdır. Sonuncu və əhəmiyyətli məqam – nəzərə alandakı xəbər məhsulu müştərilər üçün istehsal edilir, o zaman, hesab edirəm ki, müştərilərin fikirləri media biznesində olan hər kəsin peşəkar mədəniyyətinin ayrılmaz hissəsi olmaqda davam etməlidir.

Diqqətinizə görə sağ olun.

Barilos, 21 oktyabr 2010-cu il.

Xəbər agentlikləri və multimedia: AzərTAc-ın yeni xidməti

(Avropa Xəbər Agentlikləri Alyansının konfransında çıxış)

-Hörmətli cənab sədr!

Xanımlar və cənablar!

Agentliyimizin adından EANA-nın "Yeni biznes modelləri yaradan xəbər agentlikləri və mediada dəyişiklik" konfransının iştirakçılarını salamlamaqdan şərəf duyuram. EANA-nın baş katibinə belə bir tədbiri təşkil etdiyinə görə dərin minnətdarlığımı bildirmək istərdim.

Bugünkü forumun mövzusu hazırkı qlobal inkişafda və bəşəriyyətin tərəqqisində xəbər istehsalının rolunun artmasını əks etdirir.

Dövlətlərimizin əsasını qoyan ulu babalarımız ilk olaraq konstitusiya qəbul edərkən və demokratiyanı seçərkən onlar davamlı azadlığın təmin edilməsinin vacib şərti kimi söz və mətbuat azadlığını fundamental hüquq kimi qəbul etmişlər.

Medianın, xüsusilə də xəbər mediasının rolu azad cəmiyyətə "giriş qapısı" olmaq idi. Həmin vaxtdan uzun illər, hətta bəzi ölkələr üçün əsrlər keçmişdir. Cəmiyyətlərimizin inkişafı ilə yanaşı, xəbər mediası insanlara çox böyük təsir etmiş və etməkdədir.

Yaşadığımız dünya yeni minilliyə kütləvi informasiya vasitələrinin tamamilə yeni rolu, xüsusilə bu gün təmsil etdiyimiz xəbər mediası ilə qədəm qoydu. Yeni rol yeni reallıqlar, yeni tələblər və təəccüblü də olsa yeni terminologiyanı əks etdirir. Bu isə əvvəlki illərdən çox fərqlidir. Əlbəttə, o vaxtlar kim "məlumat mühafizəsi"ndən, "multimedia redaksiyaları"ndan və ya "sosial media"dan danışardı?

Xanımlar və cənablar,

Təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda ən böyük xəbər agentliyi olan AzərTAc bu yaxınlarda struktur dəyişikliyi və coğrafi genişlənmə ilə bağlı nəzərdə tutulmuş bənzəri olmayan bir proqramın icrasına başlamışdır. Bu struktur dəyişikliyinin bir hissəsini də aparıcı xəbər agentliklərinə uyğun, müasir standartlara cavab verən yeni multimedia bölməsinin yaradılması olmuşdur.

2010-cu il aprelin 22-də Azərbaycan Prezidenti İlham Əliyev AzərTAc-ın fəaliyyətinin təkmilləşdirilməsinə dair Sərəncam imzalamışdır. Sərəncamda Azərbaycan haqqında məlumatların operativ və çevik yayılmasında, habelə dünyada baş vermiş hadisələr barədə ictimaiyyətin dolğun məlumatlandırılmasında AzərTAc-ın xüsusi əhəmiyyəti vurğulanmışdır. Sərəncamda AzərTAc-ın xarici ölkələrdəki müxbir məntəqələrinin sayının artırılması da nəzərdə tutulmuşdur.

Agentliyimiz ingilis və rus dillərindən başqa, fransız və ərəb dillərində xəbər yayımına başlamış və gələcəkdə alman dili xidməti də fəaliyyət göstərəcəkdir.

AzərTAc mültimedia xidmətində dünyanın böyük təcrübəyə malik aparıcı xəbər agentlikləri ilə yaxından əməkdaşlıq edir. Biz agentliyimizə xarici agentliklərin mütəxəssislərini dəvət etmişik ki, bu da AzərTAc-a bu sahədə böyük nailiyyətlər əldə etməyə imkan yaratmışdır.

Dünyanın xəbər agentliklərində təşkilati, texnoloji və arxitektura (redaksiyaların dizaynı) cəhətdən nəzərəçarpan dəyişikliklər baş verir. Müasir dizayn xəbərlərin çatdırılmasında sürətin və keyfiyyətin artırılmasına imkan verir.

Əslində redaksiyanın tərtibatının necə olmasının heç bir fərqi yoxdur. Biz inanırıq ki, dizayn vacibdir və inteqrasiya prosesində çox fəal rol oynayır. Lakin bu, mədəni dəyişikliyin yalnız bir hissəsidir. Peşəkar mədəniyyətin dəyişilməsi vacib məsələdir. Əsas məqsəd yaxşı əlaqə və sürətli işdir. Çevik qərar qəbul etməyi bacaran insanlar bir araya gətirilməlidir.

Bu gün bizim biznesimizdə redaksiyada yaxşı qərar qəbul etmək üçün fiziki məsafə böyük bir maneədir. Bunlar bizim yenidən təşkilatlanmağımız üçün bünövrədir.

Nəhayət, yeni minillik bizim qarşımıza yeni çağırışlar qoyur. Bu çağırışlara və əsas kütlənin tələblərinə cavab vermək üçün struktur, təşkilati və arxitektura yenilikləri ilə yanaşı, müasir texnologiyadan və texniki üsullardan vaxtında istifadə edilməsi vacib şərtdir.

Diqqətinizə görə minnətdaram.

Cenevrə, 24 sentyabr 2010-cu il

15 iyun – Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir

(Suraxanı rayonunda keçirilən konfransda çıxış)

– Hörmətli xanımlar və cənablar!

Bəşər tarixi çox görkəmli şəxsiyyətlər yetirmişdir. Onlar məşhur sərkərdə, siyasi və dövlət xadimi, elm, mədəniyyət, ədəbiyyat və incəsənətin inkişafına misilsiz töhfələr vermiş insanlar kimi tarixə düşmüşlər. Lakin ölkəsinin, xalqının tarixinin ən çətin, ağır dövründə xilaskarlıq missiyasını öz üzərinə götürən və onu müdrikliklə yerinə yetirən, ən nəhayət isə, Vətənini tərəqqi yoluna çıxaran, dünyaya tanıdan şəxsiyyətlər heç də yüzlərlə, minlərlə deyildir. Biz fəxr edə bilərik ki, həmin dahi insanların sırasında Azərbaycan xalqının yetirdiyi Heydər Əliyev kimi əfsanəvi şəxsiyyətin öz yeri, öz çəkisi, öz şöhrəti var.

Azərbaycanın tarixinin son 30 ildən artıq bir dövrü, sözün həqiqi mənasında, Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev 1969-cu ildə siyasi hakimiyyətə gəldiyi vaxt Azərbaycan SSRİ-də ən geridə qalan respublikalardan biri idi. O, qısa bir müddətdə Azərbaycanın hərtərəfli inkişafını təmin edə bildi.

Həm iqtisadi, həm də mədəni tənəzzülə doğru aparan mənfi hallara qarşı fəal mübarizə məhz Heydər Əliyev hakimiyyətə gələndən sonra başlandı. Onun yorulmaz fəaliyyəti sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir.

Qətiyyətlə demək lazımdır ki, Azərbaycan mətbuatının, xüsusilə də Azərbaycan Dövlət Teleqraf Agentliyinin – keçmiş Azərinformun inkişafı da yüksəliş yoluna qədəm qoymuş respublikamızın əldə etdiyi uğurlarla sıx bağlı olmuşdur. Yəni iqtisadiyyatı, sənayesi ildən-ilə görünməmiş sürətlə inkişaf edən, bütünlüklə yenidən qurulan Azərbaycanda mətbuat, xüsusilə də informasiya agentliyi diqqətdən kənarda qala bilməzdi.

Heydər Əliyevin diqqəti, qayğısı ilə əhatə olunmuş agentliyin əməkdaşları respublikanın əzəmətli yüksəlişindən bəhs edən xəbərləri ilə

böyük sovet imperiyasının əsas informasiya qurumunun – SİTA-nın teletayp lentlərində daha çox yer tutmağa nail olurdular. Azərbaycandakı misli görünməmiş quruculuq işləri haqqında informasiyalar "SİTA xəbər verir" qrifi ilə Moskvanı aşıb bütün dünyaya da yol açırdı. Əlbəttə, o dövrdə bu, heç də asan məsələ deyildi.

Lakin Heydər Əliyevin şəxsi nüfuzu, qüdrəti bütün sədləri aşmağa imkan verirdi. SİTA kimi dünyanın nəhəng informasiya maşınının sükançıları artıq SSRİ rəhbərliyinin də böyük rəğbət bəslədiyi, hesablaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı böyük uğurlar barədə xəbərləri, həm də dünyaya yaymağa, Azərinforma hər cür kömək göstərdiklərini sübut etməyə çalışırdılar. Azərbaycan xalqı ötən əsrin 80-ci illərinin ortalarınadək Heydər Əliyevin xidmətlərindən nə qədər bəhrələnmişdisə, SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra, xüsusilə 90-cı illərin əvvəlində onun siyasi səhnədə olmamasının ağrı-acısını bir o qədər hiss etdi, həllini bu gün də tapmamış Qarabağ dərdinə düçar oldu. Bəli, Azərbaycanın bəlalı günləri elə o vaxt başlandı. Ona görə də görkəmli qazax yazıçısı, ictimai-siyasi xadim, xalqımızın böyük dostu Oljas Süleymenov "mən əminəm ki, 1980-ci illərin axırları – 1990-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycana rəhbərliyi davam etdirsəydi, Ermənistan-Azərbaycan münaqişəsinə yol verməzdi. 1990-cı ilin yanvarında general Varennikovun tankları Bakıya yeridilməzdi. Qarabağ itirilməzdi" deyəndə tamamilə haqlıdır.

Bəli, "olum ya ölüm" dilemması ilə qarşılaşan Azərbaycan xalqı müdrikliyini bir daha göstərdi, 1993-cü ilin böhranlı iyun günlərində öz müdrik oğlunu təkidlə yenidən siyasi hakimiyyətə gətirdi və yanılmadı. Bu, böyük Qayıdış, böyük Dirçəlişin başlanğıcı idi.

Heydər Əliyev üzərinə götürdüyü məsuliyyətin ağırlığını çox gözəl başa düşürdü. O, 1993-cü il iyunun 15-də Milli Məclisin iclasındakı çıxışında deyirdi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək, öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

O, həmişə olduğu kimi, bu dəfə də özünə və sözünə sadiq qaldı. Xalqımızın dahi övladı, vaxtilə Kremlin siyasi hakimiyyət pilləsində ən parlaq sima olan Heydər Əliyev özünün nəyə qadir olduğunu bir daha bütün dünyaya – dostlarımıza da, bədxahlarımıza da sübut etdi. Azərbaycana ən böyük xidmətini göstərdi – ictimai-siyasi sabitliyi bərqərar etdi, dövlət müstəqilliyini qoruyub saxladı, möhkəmləndirdi, onu əbədi və dönməz etdi, iqtisadi böhrana son qoydu, iqtisadiyyatı inkişaf yoluna çıxardı, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etdi, Azərbaycanı regionun aparıcı dövlətinə çevirdi.

Cəmi bir neçə kəlmə ilə sadalamaq mümkün olan bu taleyüklü vəzifələrin yerinə yetirilməsinin arxasında Heydər Əliyev şəxsiyyətinin gecəli-gündüzlü, məqsədyönlü, ağlasığmaz dərəcədə gərgin, son nəticədə sağlamlığına qəsd edən fəaliyyəti dayanır. Həmin illərə ötəri də olsa nəzər salanda hətta onun kimi nəhəng, müdrik, qətiyyətli, polad iradəli insanın ixtiyar yaşında bu qədər işin öhdəsindən necə gələ bildiyinə heyrətlənməmək mümkün deyildir. Amma bu, həqiqətdir. Eyni zamanda, o da həqiqətdir ki, buna yalnız Heydər Əliyev kimi qüdrətli şəxsiyyət qadirdir. Ona görə də 30 ildən artıq bir dövrdə siyasi hakimiyyətin zirvəsində olan Heydər Əliyevi xalqımızın bəxtinə düşmüş Tanrı payı adlandıranlar, Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll, Konrad Adenauer kimi siyasi və dövlət xadimləri ilə müqayisə edərək, hələ sağlığında canlı əfsanəyə çevrilmiş lider hesab edənlər heç də yanılmırlar.

Prezident Heydər Əliyevin Azərbaycan, xalqımız, bütün region üçün gördüyü misilsiz işlər özlüyündə nə qədər böyük və əhəmiyyətli olsa da, biz bunların əzəmətini, bəlkə də, hələ olduğu kimi dərk edə bilmirik. Yəqin ona görə ki, buna hələ zaman gərəkdir və üstəlik Heydər Əliyev kimi dahinin müasiri olduğumuza və onun xidmətləri gözümüz qarşısında baş verdiyinə görə bütün bunlara adi hal kimi baxırıq və bəzən hesab edirik ki, belə də olmalı idi. Bu baxımdan, xalqımızın görkəmli oğlunun ən yaxın dostları – Ukraynanın keçmiş prezidenti Leonid Kuçma "Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir", Qazaxıstan Prezidenti Nursultan Nazarbayev isə "onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir" deməkdə tamamilə haqlı idilər.

Lakin o da həqiqət idi ki, dünya görkəmli siyasi xadim, mahir diplomat, müdrik dövlət xadimi kimi Prezident Heydər Əliyevin qiymətini artıq vermişdir. Fransada çıxan "Kuryer İnternasional" jurnalının 2003-cü il may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adlerin ümummilli liderimiz Prezident Heydər Əliyevin 80 illik yubileyi münasibətilə geniş məqaləsi dərc edilmişdir. Məqalədə deyilir: "Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb bir tarixi məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Bəli, Heydər Əliyev, həqiqətən, yüksəklərə qalxmışdır, əlçatmaz zirvədir. Ona görə də məlum aforizmdə deyildiyi kimi, dağın əzəmətini ətəyindən yox, kənardan baxmaqla görmək mümkündür. Bu mənada ümummilli liderimiz, xalqımızın dahi oğlu haqqında Azərbaycandan kənarda – dünyanın görkəmli siyasi və dövlət xadimlərinin, biznes nümayəndələrindən tutmuş diplomatlara, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin dilindən səslənmiş fikirlər Heydər Əliyev şəxsiyyətinin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sözləri ilə desək, "siyasət nəhəngi"nin əzəmətini daha dolğun dərk etməyə imkan verir. Zənnimcə, bu fikirlərdə diqqəti cəlb edən odur ki, bunlar Heydər Əliyev fenomeninə xas olan bütün cəhətləri əhatə edir. Yəni, onu təkcə məşhur siyasi və dövlət xadimi kimi deyil, həqiqətən, dünyanı valeh edən, hərtərəfli istedada malik alicənab insan, əfsanəvi şəxsiyyət kimi səciyyələndirir.

Prezident Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində bütün digər xidmətləri ilə yanaşı, həm də ölkəmizin haqq səsini dünyaya bəyan etmişdir. İki əsrə yaxın bir dövrdə torpaqlarımıza göz dikən məkrli qonşularımızın və onların xaricdəki çox güclü lobbisinin yaxşı təşkil olunmuş təbliğatı öz işini görmüş, düşmənlərimiz dünyada Azərbaycan haqqında mənfi təsəvvür yaratmağa, əslində, nail olmuşdular. Ona görə də tam əsasla deyə bilərik ki, Heydər Əliyev ermənilərin uydurmalarını ifşa etmək, Azərbaycan həqiqətlərini dünyaya bəyan etmək, beynəlxalq ictimaiyyətə çatdırmaq üçün yalnız nəhəng bir təbliğat maşınının qadir olduğu işi, demək olar, təkbaşına gördü. Bu işdə onun xarici səfərlərinin

həlledici rolu olmuşdur. Bunu xarici ölkələrin Azərbaycana az-çox bələd olan təmsilçiləri dəfələrlə etiraf etmişlər. Məsələn, ermənilərin Avropada ən güclü diasporunun olduğu Fransanın ölkəmizdəki ilk səfiri cənab Jan Perrənin on il əvvəl, 1994-cü ildə AzərTAc-ın müxbiri ilə söhbətində dediyi sözlərə nəzər salaq: "Açığını deyim ki, Azərbaycanı Fransaya, sözün əsl mənasında, Heydər Əliyev tanıtdı. Onun Fransaya səfərinə qədər bizim ölkədəki ermənipərəst qüvvələr Azərbaycan əleyhinə təbliğatları ilə müəyyən məqsədlərə çatmağa çalışırdılar. Doğrudur, dövlət səviyyəsində buna məhəl qoyulmurdu. Ancaq görünür ki, məsələyə məhəl qoymamaqla iş bitmirmiş. Əslində, ideoloji mübarizə gərək imiş. Zati-aliləri Prezident Heydər Əliyevin Fransaya səfəri hadisələri öz məcrasına yönəltdi. Onun bizim ölkədəki çıxışları, verdiyi bəyanatlar Azərbaycanın siyasətini və regiondakı siyasi vəziyyəti düzgün qiymətləndirməyə imkan yaratdı".

Heydər Əliyev şəxsiyyətini səciyyələndirən ən mühüm cəhətlərdən biri – xalq, vətən sevgisi onunla ünsiyyətdə olanların diqqətindən yayınmırdı.

Məsələn, Fransa senatının sədri Kristian Ponsöle bu barədə fikrini belə ifadə etmişdir. Prezident Heydər Əliyev cəsarətli və sarsılmaz iradəyə malik bir şəxsiyyətdir. O, bütün varlığı ilə ölkəsinə bağlı, ölkəsi ilə nəfəs alan, onun bütün çətinlikləri ilə yaşayan bir insandır, xalqın həyat tərzinin yaxşılaşdırılması naminə var gücü ilə çalışır, gerçəkliyi nəzərə alaraq, praqmatik hərəkət edir.

"Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram" – deyən məşhur həmyerlimiz, keçmiş SSRİ-nin tanınmış dövlət xadimlərindən biri, Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Nikolay Baybakov vurğulayır ki, onun haqqında kitablar yazmaq lazımdır, çünki Heydər Əliyevin gördüyü işlərin vüsətini təkcə çıxışlarda açıqlamaq mümkün deyildir.

Ümummilli liderimizin ən yaxın dostlarından biri, dünya şöhrətli həkim, Bilkənd Universitetinin qurucusu, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri İhsan Doğramacının bu barədə dedikləri də ibrətamizdir: Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

Dünyanın müxtəlif ölkələrinin təmsilçilərinin dilindən misal gətirdiyimiz bəzi fikirlər Heydər Əliyev dühası, müdrikliyi barədə deyilənlərin çox cüzi bir hissəsidir. Lakin bunların özü də onun şəxsiyyətinin nə üçün hələ sağlığında əfsanəyə çevrildiyini, qismən də olsa, dərk etməyə imkan verir. Həqiqətən də, Prezident Heydər Əliyev siyasi və dövləti fəaliyyəti ilə dünyanı valeh edən əfsanəvi liderdir. Buna görə dünya da onu olduğu kimi qiymətləndirmişdir və gələcəkdə də qiymətləndirəcəkdir.

Suraxanı, Heydər Əliyev Mərkəzi,
12 iyun 2010-cu il.

Xəbər agentliklərinin gələcəyi

(EANA-nın və MTİ-nin birgə konfransında çıxış)

– Xanımlar və cənablar,

Mən bu gün Sizi – EANA/MTİ konfransının iştirakçılarını Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) adından salamlamaqdan böyük məmnunluq hissi duyuram. İcazə verin, dostum EANA və MTİ-ın prezidenti cənab Matyas Vinsə, onun MTİ-dən olan bütün əməkdaşlarına belə mühüm bir konfransın təşkili və baş tutmasına görə təşəkkürümü bildirim.

Bu konfransın mövzusu dünyanın son onilliklərdə yeni texnologiyaların yayılması fonunda şahid olduğu radikal dəyişiklikləri əks etdirir. Əsrlərdir insanlara informasiya çatdırmaq üçün ənənəvi mediadan istifadə edilirdi. İnternetin insanların gündəlik həyatının bir hissəsinə çevrilməsi ilə ənənəvi media köklü dəyişikliyə məruz qaldı və dünənin istehlakçıları əslində informasiya resurslarına çevrildi. Media həqiqətən ictimailəşdi. Milyonlarla insanı informasiya mübadiləsinə cəlb edən xəbər axını iki yolla hərəkət etməyə başladı.

İctimai media elə sürətlə inkişaf etdi ki, o, on ilə nail olduğunu ənənəvi media əsrlərlə əldə etməyə çalışıb. O, müxtəlif sahələrdə sənaye mediası ilə, yəni bizimlə uğurla rəqabət apara bilər. Təəccüblüsü də budur ki, YouTube saytındakı bir sadə klip milyonlarla insanın diqqətini cəlb etdiyi halda, bir televiziya kanalı demək olar ki, özünə auditoriya yığa bilmir. Bir özəl bloqu bir gündə bəzən minlərlə insan ziyarət edir, ancaq bütün günü bir qəzet satılmır. Görün, Facebook, Tvitter kimi ictimai şəbəkələrin nə qədər müştərisi var. Onlar bu şəbəkələrə nəyisə oxumaq üçün yox, nəyisə göndərmək üçün girirlər. Əlbəttə, burada güclü risklər vardır. Belə ki, internetdə düzgün olmayan məlumatlarla tez-tez rastlaşmaq mümkündür. Misal üçün götürək elə Vikipediya saytını. Bu saytı istənilən şəxs redaktə edə bilir, nəticə etibarı ilə, buraya saxta informasiya yerləşdirmək olduqca asandır.

Yeni əsrin başlaması ilə qarşımıza yeni məsələlər çıxdı. Həmişə inkişafda olan ictimai media ilə birlikdə mövcudluq məsələsini nəzərdə tuturam. Biz bir-birimizdən öyrənə bilərikmi? İcazə verin sualımı daha konkret qoyum. Biz əlaqə qura, ya da bir-birimizə inteqrasiya edə bilərikmi? Zamanın-

da bir çox EANA üzvü, xüsusilə, təxminən bir əsrlik tarixi olan agentliklər xəbəri teleqrafla yayırdılar və internet səhifələrini bu yaxınlarda açıblar. Biz bu gün bir az da irəli gedib bloq üçün məkan aça bilərikmi? Yaxud bizim kimi ənənəvi sənaye media agentlikləri xəbəri çatdırmaq üçün platforma kimi sosial medianın istifadə etdiyi imkanlardan yararlana bilərlərmi? Biz buna hazırıqmı və ya bunsuz fəaliyyət göstərə bilərikmi? Gəlin etiraf edək ki, sayı getdikcə artmaqda olan elektron xəbər agentlikləri öz səhifələrinin yuxarısına "biz facebookdayıq" banerini yerləşdirirlər. Bu gün biz bir çox veb-forumlara rast gələ bilərik ki, onlar bəzi xəbər agentliklərinin işini dublikat edir və onların xəbərlərini yenidən dərc edərək bilmədən onlara xəbərlərinin yayılmasında kömək edirlər (ən qəribəsi isə budur ki, insanlar eyni xəbəri əsl mənbədən daha çox ictimai medianın saytında oxuyurlar). Yaxud daha bir misal, bu gün biz tez-tez belə bir faktın şahidi oluruq ki, CNN və ya BBC yayımladıqları bəzi videoları YouTube-dən götürürlər. Bütün bunlar günümüzün reallıqlarıdır. Gələn onillikdə hadisələr necə cərəyan edəcək və biz onlara necə hazır olacağıq?

Bəli, texnologiya dəyişir, biz də dəyişirik. Yeni nəsillər gəlir, özləri ilə yeni texnologiya gətirirlər, yeni yanaşma və ideyalar gətirirlər. Amma dəyişməyən yalnız informasiya sənayesinin fundamental fəlsəfəsidir – dünyada baş verənlər haqqında düzgün, tamamilə qərəzsiz və yüksək keyfiyyətli informasiya istehsal etmək və xəbər istehlakçılarına vaxtında çatdırmaq. Agentliklərimizin yarandığı gündən, bu, onların əsas vəzifəsi olmuşdur. Nəsillər boyu xidmət etdiyimiz başlıca qayə, on illər, hətta əsrlər boyu sadiq qaldığımız məram budur. Gəlin bu ənənəni davam etdirək!

İzn verin, bir daha Sizi bugünkü tədbirdə hərarətlə salamlayım və konfransın işinə müvəffəqiyyət, gözəl nəticələr arzulayım.

Budapeşt, 7 may 2010-cu il.

OANA-nın sammitində çıxış

– Əziz dostlar, hörmətli həmkarlar!

Hörmətli dostum Park Cunq-Çan!

Bu salonda olmaq mənim üçün böyük şərəfdir. Mən sizi bu əlamətdar yubiley – sizin "Yonhap" agentliyinin yaradılmasının 30 illiyi münasibətilə AzərTAc-ın kollektivi adından və öz adımdan ürəkdən təbrik edirəm. "Yonhap" agentliyi Koreya xalqının ictimai-siyasi ideyalarının, milli mənəvi dəyərlərinin yorulmaz təbliğatçısı missiyasını həmişə şərəflə yerinə yetirmişdir.

Bu gün Koreya Respublikası demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləyir. Buna görə də "Yonhap" agentliyinin fəaliyyəti Koreyanın daha da inkişaf etməsi, ölkənin iqtisadi və mədəni həyatının təbliği, bu gün güclü təkan almış mütərəqqi müsbət dəyişikliklərin ictimaiyyətə izah edilməsi üçün çox böyük əhəmiyyətə malikdir.

Bu gün "Yonhap" Koreya mətbuatında mərkəzi mövqe tutur, dünyanın müxtəlif qitələrində öz müştərilərinə yeniliklər və xəbərlər çatdırır, xarici və yerli KİV-lərdə rəsmi informasiya mənbəyinə çevrilir. "Yonhap" öz oxucularına rəsmi məlumatlarla bərabər, mədəni, iqtisadi və siyasi həyat haqqına geniş informasiya seçimi təklif edir, öz məlumatlarını ingilis, ərəb, fransız, ispan və başqa dillərdə yayır. Biz hesab edirik ki, bu, təkcə Koreya üçün deyil, bütün dünya üçün Koreya xalqının həyatı haqqında ən mühüm informasiya mənbəyidir.

Biz fəxr edirik ki, keçən ilin axırlarında cənab Park Cunq-Çan ilə Azərbaycan Dövlət Teleqraf Agentliyinin və Koreya İnformasiya Agentliyinin əməkdaşlığı barədə uzunmüddətli, mənim fikrimcə, əbədi müqavilə imzalamışıq. Bizim üçün böyük məmnunluq doğurur ki, bu gün "Yonhap" dünyanın aparıcı agentliklərindən biridir. Bu onu göstərir ki, "Yonhap" agentliyinin jurnalistlərinin bütün məlumatları mötəbər söz hesab edilir və indi bu mötəbər söz bütün dünyada eşidilir. Bu bizi çox sevindirir və mən bu uğurlar münasibətilə həmkarlarımızı təbrik edirəm.

Fürsətdən istifadə edib, mənim dostum və burada dünyanın müxtəlif ölkələrini təmsil edən bütün jurnalistlərin dostu, "Yonhap" agentliyinin prezidenti cənab Park Cunq-Çanı da bu şanlı yubiley münasibətilə ürəkdən təbrik edirəm. Mən sizin hamınızı təbrik edirəm.

30 il bundan əvvəl məhz belə bir bahar günündə bizim həmkarlarımız, Koreya jurnalistlərinin o nəsli çox inanırdı ki, bahar özü ilə bərabər yeni ümidlər gətirəcək və bu ümidlər hökmən doğrulacaqdır. Bu gün, həmin tarixdən 30 il keçəndən sonra sizin informasiya agentliyi bu nəcib missiyanı tamamilə doğrultmuşdur. Mən bu münasibətlə sizi təbrik edirəm.

Sağ olun. Bir daha demək istəyirəm ki, AzərTAc həmişə sizin etibarlı və sadiq dostunuz olacaqdır.

Seul, 23 aprel 2010-cu il.

Yüksək diqqət və qayğı yeni arzulara ruhlandırır

(AzərTAc-ın əməkdaşlarına mükafatların təqdim edilməsi mərasimində çıxış)

– Hörmətli Əli müəllim, hörmətli mərasim iştirakçıları!

Bu gün AzərTAc-ın həyatında çox əlamətdar günlərdən biridir. Kollektivimizin üzvlərindən 19 nəfərinin kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Prezidentinin Sərəncamı ilə təltif olunduqları orden, medal və fəxri adların təqdimatı mərasiminə toplaşmışıq.

Hər birimiz yaxşı başa düşürük ki, bu mükafatlar təkcə 19 nəfərin yox, bütün kollektivin əməyinə verilən qiymət, agentliyimizin fəaliyyətinə Azərbaycan dövlətinin, ölkə başçısının diqqət və qayğısının yeni təzahürüdür. Bu qayğı və diqqətə, sadə əməyimizin yüksək qiymətləndirilməsinə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildirirəm.

Yeri gəlmişkən, təxminən bir ay bundan əvvəl bütün dünya AzərTAc-a qayğının və diqqətin bir daha şahidi oldu. Belə ki, agentliyimizin 90 illik yubileyi dövlət səviyyəsində qeyd olundu. Əli müəllim, həmin mərasimdə sizin iştirakınız, rəsmi hissədə səmimi çıxışınız yaxşı yadımızdadır. "Bütün təşkilatlarda iş qurtaranda AzərTAc-da iş başlayır" cümləniz işimizin xüsusiyyətinə dərindən bələdliyinizi göstərir. Onu da bilirsiniz ki, əslində AzərTAc-da "İş başladı", "iş qurtardı" anlayışları yoxdur. Bizdə iş fasiləsiz prosesdir və bu gərgin rejim hər bir əməkdaşımız üçün adi hala çevrilmişdir. Kollektivimiz fasiləsiz olaraq bütün sutka ərzində rəsmi dövlət xəbərləri ilə yanaşı, ictimai-siyasi, iqtisadi mövzularda, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və s. haqqında Azərbaycan, rus və ingilis dillərində dəqiq və operativ informasiya buraxır.

Mən bayaq "bütün dünya" ifadəsini mübaliğə xatirinə işlətmədim. Məsələ burasındadır ki, yubiley tədbirimizdə Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının, Avropa Xəbər Agentlikləri Alyansının, Müstəqil Dövlətlər Birliyinin üzvü olan Ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının, Türkdilli Xəbər Agentlikləri Birliyinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan Ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının, Asiya Xəbər Agentlikləri Konsorsiumu-

nun nümayəndə heyətləri iştirak edirdilər. Respublikanın aparıcı informasiya agentliyi, yerli və xarici KİV-lər üçün yeganə rəsmi dövlət informasiya mənbəyi olan AzərTAc bu qurumların təsisçilərindən biri, rəhbər orqanlarının üzvüdür. Agentliyimizə göstərilən bu etimad ümummilli liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı cənab İlham Əliyevin yeritdikləri siyasət sayəsində Azərbaycan dövlətinin beynəlxalq aləmdə qazandığı nüfuzun etirafıdır. Məhz bu nüfuza arxalanan AzərTAc qlobal informasiya məkanında öz yerini möhkəmləndirir. Biz fəxr edirik ki, dövlət başçımızın məqsədyönlü daxili və xarici siyasəti nəticəsində gündən-günə qüdrətlənən Azərbaycanın uğurlarını dünya ictimaiyyətinə çatdırırıq. Beynəlxalq qurumların Azərbaycanın iqtisadi uğurlarına verdikləri yüksək qiyməti, maliyyə təsisatlarının müəyyənləşdirdikləri reytinqləri də eyni qürur hissi ilə ölkə ictimaiyyətinə çatdırırıq.

Üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlmək üçün vaxtilə ulu öndər Heydər Əliyev AzərTAc-ın maddi-texniki bazasının yaxşılaşdırılmasına dair bir sıra sərəncamlar vermişdir. İndi isə bu işi hörmətli Prezidentimiz İlham Əliyev davam etdirir. Bilirsiniz ki, dövlət başçımızın göstərişi ilə AzərTAc üçün yeni bina tikilməsi qərara alınmışdır... Bu, bizim üzərimizə daha böyük məsuliyyət qoyur.

Ümummilli liderimiz Prezident Heydər Əliyevin 2000-ci ilin fevralında, AzərTAc-ın 80 illik yubileyi ərəfəsində agentliyin kollektivinə ünvanladığı təbrik məktubunda deyilirdi: "...AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır". Ulu öndərin bu vəsiyyətinə dönmədən əməl edəcək, yeni qlobal informasiya məkanında yerimizi möhkəmləndirəcək, Azərbaycan həqiqətlərini, Prezidentimizin sosial-iqtisadi uğurlarımızın artırılması, ərazi bütöövlüyümüzün bərpası istiqamətində yeritdiyi siyasəti dünya ictimaiyyətinə daha əzmlə çatdıracağıq.

Təltif olunan əməkdaşlarımızı bir daha təbrik edirəm.

Diqqətinizə görə sağ olun.

Bakı, 15 aprel 2010-cu il

Anadolu Agentliyi ilə AzərTAc-ın əlaqələri qardaşlıq və dostluq təməlləri üzərində inkişaf edir

(Anadolu Agentliyinin 90 illik yubileyi mərasimində çıxış)

– Qardaş Türkiyənin milli sərvəti – Anadolu Agentliyi İdarə Heyətinin sədri və baş direktoru, dəyərli dostum və qardaşım Hilmi Bengi,

Hörmətli mərasim iştirakçıları,

Əziz dostlar, hörmətli qonaqlar,

Xanımlar və cənablar!

Hamınızı bu əlamətdar gündə – Anadolu Agentliyinin 90 illik yubileyi münasibətilə qardaş Türkiyənin paytaxtı Ankarada ən səmimi duyğularla salamlayıram.

Mən bu gün bu möhtəşəm mərasimdə xüsusi qeyd etmək istəyirəm ki, xalqlarımız, dövlətlərimiz kimi, Anadolu Agentliyi ilə AzərTAc-ı da əbədi, qırılmaz dostluq və qardaşlıq telləri bağlayır. Soyu, kökü, dili və dini eyni olan xalqlarımızın oxşar talelər kimi, Anadolu Agentliyi ilə AzərTAc-ın da taleləri oxşardır. Hər iki agentlik xalqlarımızın müstəqillik uğrunda şanlı mübarizəsinin yadigarıdır. Hər ikisi yaşıddır. Biz AzərTAc-ın 90 illik yubileyini martın 1-də təntənəli surətdə qeyd etdik. Bu gün isə dəyərli dostlarımızla Anadolu Agentliyinin 90-cı ildönümü mərasimində görüşürük.

Agentliklərimizin təməlini qoyan insanların xatirəsini ehtiramla yad edərək bir məqamı da diqqətə çatdırmağı özümə borc bilirəm ki, Anadolu Agentliyini yaradan insanlar arasında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri də Əhməd bəy Ağayev olmuşdur. Hər iki agentlik milli status missiyasını yerinə yetirir. Anadolu Agentliyi qardaş Türkiyənin, AzərTAc isə Azərbaycanın haqq səsini qloballaşan dünyanın informasiya məkanında yayırlar.

Hörmətli mərasim iştirakçıları!

Anadolu Agentliyi ilə AzərTAc-ın əlaqələri sarsılmaz Türkiyə-Azərbaycan qardaşlığı və dostluğunun təməlləri üzərində inkişaf edir. Türkiyə-Azərbaycan dostluğu və qardaşlığının ən qiymətli tərifini türk dünyasının dahi şəxsiyyətləri Mustafa Kamal Atatürk və Heydər Əliyev vermişlər. Böyük Atatürk deyirdi ki, Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir. Ulu öndər Heydər Əliyev isə Azərbaycan-Türkiyə qardaşlığını

"Biz bir millət, iki dövlətik" kəlamı ilə tarixə yazmışdır. Ümummilli liderin müdrik kəlamına söykənərək Anadolu Agentliyi ilə AzərTAc-ın əlaqələrini belə səciyyələndirərdim: biz bir millətin iki agentiyik.

Agentliklərimiz əlaqələri təkcə ikitərəfli müqavilə çərçivəsində deyil, həm də beynəlxalq və regional qurumlar çərçivəsində uğurla davam etdirir. Biz Avropa Xəbər Agentlikləri, Qara dəniz Ölkələri Xəbər Agentlikləri, Türkdilli Xəbər Agentlikləri birlikləri çərçivəsində də fəal əməkdaşlıq edirik. Anadolu Agentliyi Türkdilli Xəbər Agentlikləri Birliyinin təsisçilərindən biridir. 2008-ci il mayın 3-dək bu quruma Anadolu Agentliyinin Baş direktoru dəyərli dostum Hilmi Bengi sədrlik etmişdir. Həmin tarixdə TKA-nın Baş Məclisinin Bakıda keçirilən iclasında bu quruma sədrlik rotasiya qaydasında AzərTAc-a verilmişdir.

Dəyərli dostlar!

Anadolu Agentliyi ötən 90 ildə şərəfli inkişaf yolu keçmiş, qardaş Türkiyənin şanlı tarixini yazmış, müasir dünyanın tanınmış, etibarlı, operativ media qurumuna çevrilmişdir. Hazırda agentliyin 70-dən çox ölkədə təmsilçiliyi və müxbirləri vardır. Əminəm ki, Anadolu Agentliyi dinamik inkişaf xəttini davam etdirərək yayım coğrafiyasını daha da genişləndirəcəkdir.

Hörmətli mərasim iştirakçıları!

Türkdilli xalqların qədim və zəngin mədəniyyəti var və bəşər sivilizasiyasına çox böyük töhfələr vermişlər. Lakin tarixin müəyyən dönəmlərində xalqlarımız böyük faciələrlə də qarşılaşmış, onların bir çoxu milli dövlətçiliyini itirərək, əsrlər boyu başqa imperiyaların tərkibində yaşamağa məcbur olmuşlar. Sovet İttifaqı dağılana qədər türk dünyasında yalnız bir müstəqil dövlət – Türkiyə Respublikası var idi.

SSRİ-nin süqutundan sonra isə daha beş müstəqil türkdilli dövlət yarandı. Tarixin bu şansı bizə birgə fəaliyyət göstərmək, uğurlarımızı və problemlərimizi dünyaya birgə çatdırmaq imkanı vermişdir. Qlobal dünya bu gün təkcə dövlətlərin gücü ilə idarə olunmur. Müasir dünyada informasiya getdikcə bütün hadisələrin hərəkətverici qüvvəsinə çevrilir. İndi şəffaf dünyamızda informasiyasız heç nəyi idarə etmək mümkün deyildir. Odur ki, bu gün biz müasir dünyaya xalqlarımız, ölkələrimiz haqqında elə informasiyalar çatdırmalıyıq ki, bunlar xalqlarımızın həm ayrı-ayrılıqda, həm də birlikdə mənafelərinə xidmət etsin. Müasir dünyada bizim xalqlara qarşı ədalətsizliklər var, milli haqlarımı-

zın pozulması halları var, bizə qarşı qonşuların və beynəlxalq aləmin haqsız tələbləri var ki, bunlara qarşı da birgə sinə gərməliyik.

Ermənistan 20 ildir ki, Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. Yüz ildir ki, ermənilər qondarma "soyqırımı" tələbi ilə Türkiyəyə qarşı ittihamlar irəli sürürlər. Prezident İlham Əliyevin dediyi kimi "Xocalı soyqırımını törədən vəhşilər bizi soyqırımında ittiham edirlər və bəzi hallarda onların yalan təbliğatı uğur gətirir. Bir çox hallarda xarici ölkələrin ermənilər tərəfindən pulla, rüşvətlə ələ alınmış siyasətçiləri onların səsinə səs verirlər. Erməni lobbisi və Ermənistan xarici ölkələrin parlamentlərində "soyqırımı"nı tanıtmaq istəyir. Bu, böyük erməni yalanıdır, böyük erməni təxribatıdır. Ermənilər həmişə türklərə, azərbaycanlılara qarşı soyqırımı siyasəti aparmışlar. Keçmiş tarixdə də belə olub, yaxın tarixdə də belədir".

Hesab edirəm ki, ermənilərin Türkiyəyə, Azərbaycana qarşı riyakar təbliğatının ifşası dost və qardaş ölkələrimizin informasiya qurumlarının başlıca vəzifəsidir. Biz əks-təbliğat xatirinə yox, sadəcə, ədalət naminə tarixi həqiqətlərin dünyaya olduğu kimi çatdırılması üçün birgə səylərimizi artırmalıyıq. Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Türkiyəyə rəsmi səfəri çərçivəsində aprelin 2-də İstanbuldakı "Çırağan" sarayında qardaş ölkənin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşündə demişdir: "Həm Azərbaycan, həm də Türkiyə mətbuatı əsas diqqəti dövlətlərimizə və xalqlarımıza qarşı düşmən olan qüvvələrlə mübarizəyə yönəltməlidir". Bu işdə mən Anadolu Agentliyindən olan həmkarlarımıza uğurlar arzulayıram.

Çıxışımı ölkələrimizin və agentliklərimizin yeni dünya müstəvisində daha möhkəm yer tutacağına dərin inamımı ifadə etməklə bitirərək demək istəyirəm ki, biz birliyimizi qoruduğumuz, əməkdaşlığımızı inkişaf etdirdiyimiz təqdirdə gələcək bizimdir, türk dünyasınındır.

Anadolu Agentliyinin 90 illiyi münasibətilə türkiyəli dostlarımızı və qardaşlarımızı bir daha ürəkdən təbrik edir, onlara yeni-yeni uğurlar diləyirəm. Müvəffəqiyyətlərlə dolu neçə-neçə belə yubileylər arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

Ankara, 6 aprel 2010-cu il.

Azərbaycan qadını cəmiyyətin aparıcı qüvvəsidir

("İnsanlar... Hadisələr... Zaman" kitabının təqdimat mərasimində çıxış)

– Əziz dostlar!

Gender stereotiplərinin aradan qaldırılmasında kütləvi informasiya vasitələrinin roluna həsr olunmuş bugünkü "dəyirmi masa"nın mövzusu çox mühüm və aktualdır. Ulu öndərimiz Heydər Əliyev istər ötən əsrin 70-80-ci illərində, respublikamıza rəhbərlik etdiyi dövrdə, istərsə də qurub yaratdığı müasir müstəqil Azərbaycan dövlətinin Prezidenti kimi kişilər və qadınlar arasında hüquq bərabərliyinin real təmin olunmasına, cəmiyyət həyatının bütün sahələrində, o cümlədən dövlət idarəçiliyi sahəsində qadınların fəal iştirakına həmişə böyük diqqət və qayğı göstərmişdir. Qadının cəmiyyətdə rolunu yüksək qiymətləndirən ümummilli liderimiz deyirdi: "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün və gələcəyimizin dayağıdır".

Dahi Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət qadın siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2006-cı il fevralın 6-da hörmətli Prezidentimiz İlham Əliyevin Fərmanı ilə yaradılmış Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu qurumun adında ehtiva olunmuş hər üç istiqamət üzrə qarşısında duran vəzifələri uğurla yerinə yetirir.

Kütləvi informasiya vasitələri insan şüurunda sosial stereotiplərin aradan qaldırılması prosesində mühüm vasitə olmuş və olmaqdadır. Hər bir jurnalist materialının – istər qəzet və ya jurnal məqaləsinin, istərsə də informasiya agentliyinin məlumatı, yaxud telereportajın əsas atributu yaxşı və pis, xeyir və şər, qəhrəmanlıq və qorxaqlıq haqqında təsəvvürlərin məcmusudur. Əlbəttə, bu baxımdan KİV-lərin müasir cəmiyyətdə dəyərlərin və davranış normalarının formalaşmasında rolu çox böyükdür. Bu isə bizim, jurnalistlərin üzərinə çox böyük məsuliyyət qoyur.

Düşünürəm ki, tanınmış Azərbaycan jurnalisti Elmira xanım Əliyeva bu məsuliyyəti həmişə dərinliyi ilə dərk etmişdir. Bu gün biz onun "İnsanlar... Hadisələr... Zaman" kitabının təqdimat mərasiminə toplaşmışıq. Bu kitabda Elmira xanımın son bir neçə ildə respublika mətbuatında dərc

edilmiş məqalələri toplanmışdır. Başqa sözlə, bu, onun çoxillik yaradıcılıq fəaliyyətinin yalnız bir hissəsidir. Zənnimcə, bu gün geniş ictimaiyyətə təqdim etdiyimiz kitabın gender problemləri ilə birbaşa əlaqəsi vardır. Təkcə ona görə yox ki, Elmira Əliyevanın məqalələrinin bir çoxunun qəhrəmanları qadınlardır.

Onların arasında ölkəmizdə tanınmış alimlər, musiqiçilər, siyasətçilər, ictimai xadimlər, eyni zamanda, sadə əmək adamları vardır. Onları yüksək insani keyfiyyətlər, əməksevərlik, seçdiyi peşəyə, ailə dəyərlərinə sədaqət, Vətənə sonsuz məhəbbət kimi mənəvi amillər birləşdirir. Buna görə də tam məsuliyyətlə demək olar ki, Elmira xanım öz yaradıcılığı ilə müasir Azərbaycan qadınının cəmiyyətdə yeri və rolu barədə geniş təsəvvür formalaşdırır.

Elmira Əliyevanın kitabının qəhrəmanları arasında kişilər də az deyildir. Bu isə gender bərabərliyi baxımından çox maraqlıdır. Çünki bu, kişilərə, onların cəmiyyətdə, ölkənin inkişafında və ailədə roluna ziyalı, yaradıcı qadının baxışıdır.

Kitaba artıq dünyasını dəyişmiş insanlar barədə məqalə və oçerklər də daxil edilmişdir. Bu yazılar "Onlar yaxşı iz qoymuşlar" başlığı altında toplanmışdır. Bu maraqlı materialların qəhrəmanları Hüseynxan Naxçıvanski, Əliağa Şıxlinski, Həzi Aslanov, Zərifə xanım Əliyeva, Həsən Abdullayev, Müslüm Maqomayev, Vasif Adıgözəlovdur. Bir sözlə, bu adamlarsız Azərbaycan tarixini təsəvvür etmək mümkün deyildir. Onlar doğma Vətənimizi bütün dünyada şöhrətləndirmişlər. Kitabda Azərbaycan diasporunun görkəmli nümayəndələri, xalq ənənələri, ən böyük dərdimiz – Qarabağ haqqında məqalələr də yer almışdır.

Düşünürəm ki, bu kitabı oxuyanlar bir çox suallara cavab tapacaqlar. Çünki onun müəllifi böyük təcrübəyə, yüksək peşəkarlığa malik müdrik bir insandır. Onun yazılarına heç kim biganə qala bilmir. Çünki onlar ağıl, düşüncə və qələmlə bərabər həm də qəlbin məhsuludur. Elmira xanım hər materialına ürəyinin bir hissəsini qoyur. O, öz qəhrəmanlarını sevir və oxucuya da sevdirir. Bəzi jurnalistlərin ucuz sensasiya dalınca qaçdığı indiki vaxtda bu, xüsusilə əhəmiyyətlidir.

Mən şadam ki, artıq təxminən 20 ildir ki, Elmira Əliyeva ilə bir agentlikdə işləyirəm. Ondan çox şey öyrənmək olar. Bunlar, ilk növbədə, ya-

radıcılıq təşəbbüsü, ətrafda baş verən bütün maraqlı hadisələri kağıza köçürmək həvəsi, yüksək peşəkarlıq, fəal həyat mövqeyi, böyük nikbinlik və həyat eşqidir.

Bilirəm ki, Elmira xanım yaradıcılıq axtarışlarını davam etdirir və artıq yeni kitab üzərində çalışır. Şübhə etmirəm ki, yeni kitabda da oxuculara müasirlərimiz, tariximiz, bu günümüz haqqında maraqlı materiallar təqdim olunacaqdır. Hörmətli Elmira xanıma müvəffəqiyyətlər, yaradıcılıq uğurları, möhkəm cansağlığı və jurnalistikada uzun və fəal ömür arzulayıram.

Bakı, 2 aprel 2010-cu il.

Xalqımızın azadlıq arzularının carçısı

(AzərTAc-ın 90 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə çıxış)

– Hörmətli mərasim iştirakçıları!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Sizi – AzərTAc-ın 90 illik yubileyi mərasiminin bütün iştirakçılarını ürəkdən salamlayır, Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivi adından və şəxsən öz adımdan hamınıza "Xoş gəlmisiniz" deyirəm.

Dünyanın ən böyük və ən nüfuzlu informasiya agentliklərindən biri olan Rusiyanın İTAR-TASS agentliyinin beynəlxalq informasiya məkanında xüsusi hörmətə malik baş direktoru, mənim üçün çox əziz insan olan cənab Vitali Nikitiç İqnatenkonu, agentliyin baş direktorunun birinci müavini, Azərbaycana və doğma Bakıya qəlbən bağlı olan, əziz dostum Mixail Solomonoviç Qusmanı, baş direktorun müavini hörmətli Yakov Borovoyu və agentliyin digər əməkdaşlarını səmimi qəlbdən salamlayıram.

Azərbaycan üçün dost və qardaş ölkə olan Türkiyənin Anadolu agentliyi idarə heyətinin sədri və baş direktoru, dəyərli dostum və qardaşım cənab Hilmi Benginin həmişə olduğu kimi, bu gün də AzərTAc-ın yubiley mərasimində bizimlə birlikdə olmasından qürur duyuram.

Bolqarıstanın BTA agentliyi ilə AzərTAc arasında 2004-cü il oktyabrın 7-də Bakıda "Əməkdaşlıq haqqında" saziş imzalanan gündən baş direktor, çox dəyərli insan Maksim Minçevlə aramızdakı dostluq münasibətləri bu gün də uğurla davam edir. Mən Maksim Minçevin rəhbərlik etdiyi nümayəndə heyətinin bu salonda olmasından çox məmnunam.

Uzun illərdən bəri dostluq etdiyim Ukrinform agentliyinin baş direktoru, nəinki Ukraynada, hətta beynəlxalq informasiya aləmində yaxşı tanınan Viktor Çamaranı və beynəlxalq əlaqələr departamentinin müdiri xanım Natalya Kostinanı salamlayıram.

Xorvatiyanın HİNA agentliyinin baş direktoru, gözəl insan, bacarıqlı təşkilatçı, məşhur jurnalist xanım Smilyana Skuqor Hrınkeviçə minnətdaram ki, vaxt tapıb Bakıya gəlmişdir.

Əziz dostum, AzərTAc-ın təəssübkeşi İtaliyanın ANSA agentliyinin direktor müavini Giulio Pekoraya və Gündoğar ölkədən ikinci dəfədir ki,

AzərTAc-a qonaq gələn Yaponiyanın Kyodo agentliyinin direktor müavini Masaru Savanişiyə, Çinin Sinxua xəbər agentliyinin Asiya-Avropa departamentinin rəhbəri Zhanq Cinhaya və Sinxuadan olan digər qonaqlarımıza dərin təşəkkürümü bildirirəm.

Qazaxıstanın "Kazinform" agentliyinin prezidenti, qardaşım Dauren Diyarova, Belarusun BELTA agentliyinin baş direktoru, çox hörmətli Dmitri Juka, baş direktorun birinci müavini İqor Lutskiyə, Moldovanın Moldpress agentliyinin baş direktoru Vladimir Darieyə, departament direktoru Fidel Qalaikoya, Qırğızıstanın "Kabar" agentliyinin baş direktoru Narın Ayıpa, Tacikistanın "Xovar" agentliyinin baş direktoru Sadriddin Şamsuddinova Azərbaycana "Xoş gəlmisiniz" deyirəm.

Bu gün yubiley tədbirlərimiz çərçivəsində AzərTAc-ın ev sahibliyi ilə MDB ölkələri Milli İnformasiya Agentlikləri Rəhbərləri Şurasının 11-ci iclası keçiriləcəkdir. Həm yubiley mərasimində, həm də iclasda iştirak etmək üçün Bakıya gələn MDB İcraiyyə Komitəsi analitik informasiya departamentinin direktoru cənab Aleksandr Zavarzinin başçılıq etdiyi nümayəndə heyətini, Moskva şəhər Jurnalistlər İttifaqının sədri, "Moskovski komsomolets" qəzetinin baş redaktoru cənab Pavel Qusevi, MDB məsələləri üzrə Federal Agentliyin direktor müavini Yevgeni Kojokini, MDB ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun icraçı direktorunun müavini Tatyana Bubnovanı böyük səmimiyyətlə salamlayıram.

Şərqdə qocaman xəbər agentliklərindən biri olan AzərTAc 90 il əvvəl müsəlman aləmində yaranmış ilk demokratik respublika dövründə fəaliyyətə başlamışdır. Həmin respublikanı quranlar, onun ali rəhbər və qanunverici orqanlarında çalışanlar Qərb təfəkkürünə, demokratik dəyərlərə yiyələnmiş insanlar idi. Onlar bir sıra məsələlərdə, hətta Qərbdən də irəli getmişdilər. Qadınlara seçib-seçilmək, yeni cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olmaq hüququ Qərb ölkələrinin bir çoxundan əvvəl Xalq Cümhuriyyəti dövründə Azərbaycanda verilmişdir.

1920-ci il martın 1-də fəaliyyətə başlamış AzərTAc ötən 90 ildə mürəkkəb, eyni zamanda şərəfli bir yol keçmiş, bütün çətinliklərə baxmayaraq, həmişə Azərbaycan xalqına xidmət etmişdir. Bu xidmətə ən layiqli qiyməti verən ümummilli liderimiz Heydər Əliyev demişdir: "AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzusunun carçısına çevril-

mişdir". Agentliyin tarixinə qısa ekskursda "mürəkkəb və şərəfli" yol ifadəsi heç də bədii ritorika deyildir. Ötən 90 ildə agentliyin təkcə adının yeddi dəfə dəyişdirilməsinin özü keçilmiş tarixi yolun mürəkkəbliyini təsdiq edən faktlardan biridir. Həmçinin bu yol mürəkkəb olduğu qədər də şərəfli olmuşdur.

70 il SSRİ-nin tərkibində SİTA-nın filialı kimi fəaliyyət göstərmiş agentliyimiz kollektivləşmə, sənayeləşmə, İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqının əldə etdiyi uğurları öz kanalları vasitəsilə yayırdı. Müharibə illərində agentliyin hərbi müxbirləri arasında Rəsul Rza, Qılman Musayev, Abbas Zamanov, Cəmşid Əmirov, Nüsrət Bağırov, İsmayıl Hüseynov, Mixail Pleskaçevski kimi adlı-sanlı insanlar var idi.

Azərbaycan Teleqraf Agentliyi o illərdə respublika nəşrlərini cəbhə xəbərləri ilə təmin etməklə bərabər, arxa cəbhədəki insanların qələbə naminə fədakar və vətənpərvər əməyi haqqında da informasiyalar hazırlayıb yayırdı.

Təəssüf ki, Azərbaycanın bu qələbəyə töhfəsini nə o vaxtkı, nə də sonrakı sovet rəhbərliyi layiqincə qiymətləndirmədi. Halbuki bu töhfə misilsiz idi. Təkcə onu xatırladaq ki, 1941-45-ci illərdə ölkədə çıxarılan neftin 75, aviasiya benzini və digər neft məhsulları istehsalının 85-90 faizi Azərbaycanın payına düşürdü.

Müharibədən sonrakı illərdə iqtisadi, ictimai-siyasi, mədəni həyatdakı quruculuq işləri yenidən agentliyin materiallarının başlıca mövzusu idi. Agentliyin respublikanın həyatının müxtəlif sahələrindən, Xəzərin qəhrəman neftçilərinin, pambıqçıların əmək qələbələrindən, Bakının, Sumqayıtın, Mingəçevirin və digər şəhərlərimizin yeni-yeni tikintilərindən, Azərbaycan alimlərinin elmi axtarışlarından, incəsənət ustalarının uğurlarından, nəhayət, ictimai-siyasi həyatdakı dəyişikliklərdən bəhs edən müxtəlif informasiyaları SİTA vasitəsilə ittifaq və xarici ölkə mətbuatına verilirdi.

Ən başlıcası o idi ki, bu dövrdə Azərbaycanda yeni informasiya mühiti formalaşır, milli mətbuatımızın tərcümə məktəbinin ənənələrini daha da zənginləşdirən, dilimizin şəffaflığını qoruyan çox görkəmli jurnalist nəsli yetişirdi. Adları AzərTAc-ın tarixinə qızıl hərflərlə yazılmış Bağır Seyidzadənin, Cəlil Xəlilovun, Xasay Vəzirovun, İbrahim Novruzovun, İsa-

xan Ömərovun, Azər Ələsgərovun və başqalarının xatirələri agentliyimizdə daim səmimiyyətlə yad edilir. Onlar AzərTAc-a gələnədək zəngin həyat yolu keçmişdilər. Məsələn, ömrünün sonunadək agentliyin direktor müavini işləmiş, əsl ziyalı, dərin zəka sahibi olan, xeyirxah və nəcib insan Bağır Seyidzadə "Gənc işçi" qəzetinin redaktoru, Təbrizdə sovet diplomatik nümayəndəliyinin rəhbəri, kinematoqrafiya naziri, mədəniyyət nazirinin müavini, nəşriyyat direktoru olmuş, gəlişi ilə AzərTAc-a yeni nəfəs, yaradıcılıq ab-havası, yeni ideyalar gətirmişdir. Agentliyin sonrakı inkişafında bu insanların böyük xidməti olmuşdur.

Əminliklə deyə bilərəm ki, AzərTAc-ın bugünkü səviyyəyə gəlib çatması, dünya informasiya məkanına çıxması bilavasitə görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Məlumdur ki, 1969-cu ilin iyulunda Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlməsi respublikanın həyatında dönüş mərhələsinin başlanğıcı olmuşdur. Həmin dövrdə sosial-iqtisadi həyatın bütün sahələrində sovet respublikaları arasında axırıncı yerlərdən birini tutan Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində bütün sahələrdə sürətli inkişafa nail oldu.

1972-ci ilin iyununda respublika Nazirlər Sovetinin qərarı ilə Azərbaycan İnformasiya Agentliyi o dövr üçün müasir texniki avadanlıqla da təchiz olunmuşdu. Əlbəttə, o illərdə bu, heç də asan məsələ deyildi. Lakin Heydər Əliyevin şəxsi nüfuzu, qüdrəti bütün sədləri aşmağa imkan verirdi. 1970-1980-ci illərdə o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlıqları ilə təchiz edilən Azərinform keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə ön mövqeyə çıxmağa nail olmuşdur.

Azərbaycan dövlət müstəqilliyini elan etdikdən bir qədər sonra, 1992-ci il dekabrın 18-də agentliyin tarixi adı bərpa olundu və o, Azərbaycan Teleqraf Agentliyi – AzərTAc adlandırıldı. Lakin Azərbaycanın o vaxtkı səriştəsiz və bacarıqsız rəhbərliyi agentliyin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması barədə düşünmədi, AzərTAc da ağır günlərini yaşamağa məcbur oldu.

Sovet İttifaqının dağılması ilə yeni müstəqil dövlətlər yarananda ən ağır vəziyyətdə olan Azərbaycan idi. O vaxt digər dövlətlər üçün də səciyyəvi

olan siyasi və iqtisadi böhranla yanaşı, 1980-ci illərin axırlarında Mixail Qorbaçov başda olmaqla, keçmiş sovet rəhbərliyinin himayədarlığından ruhlanan Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, həmin ərazilərdə etnik təmizləmə aparmış, 1992-ci ilin fevralında Xocalıda azərbaycanlılara qarşı kütləvi qırğın – XX ərsin ən dəhşətli soyqırımlarından birini törətmişdir. Ermənistan ərazisindəki tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı da oradan zorla qovulub çıxarılmışdır. Beləliklə, ölkədə 1 milyon qaçqın və məcburi köçkün yaranmış, Azərbaycan çox böyük humanitar fəlakətlə qarşılaşmışdır.

Belə bir şəraitdə, 1993-cü ilin iyununda xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxladı, bütün çətinlikləri və maneələri dəf edərək inkişaf yoluna çıxdı, dünya birliyində layiqli yerini tutdu.

Heydər Əliyevin əsasını qoyduğu geniş siyasi və sosial-iqtisadi islahatlar xətti hazırda Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son altı ildə ölkəmiz iqtisadi artım sürətinə görə dünyada birinci yerdədir. Regionda lider dövlətə çevrilmiş və beynəlxalq aləmdə nüfuzu getdikcə artan Azərbaycan hazırda dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir.

Cəsarətlə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin qurub-yaratdığı müasir müstəqil Azərbaycan Respublikası Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində digər sahələrdə olduğu kimi, insan hüquqları və azadlıqlarının, onun tərkib hissəsi olan mətbuat və söz azadlığının təmin edilməsi sahəsində də bir çox ölkələrdən xeyli öndədir və dünyanın ən qabaqcıl ölkələri sırasına çıxmaq əzmindədir. Müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatının elə bir sahəsi yoxdur ki, AzərTAc-ın xəbərlərində müntəzəm olaraq öz əksini tapmasın. Mövzular, janrlar, coğrafiya dəyişir, yalnız bir prinsip – hazırlanan informasiyanın əzəli və əbədi prinsipi dəyişməz qalır. Bu, faktların geniş ictimai əhəmiyyəti, doğru-düzgünlüyü, dəqiqliyi və xəbərlərin operativliyidir.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan reallıqlarının yayılma coğrafiyasının genişləndirilməsi ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri

idi. İndi tam məsuliyyətlə deyə bilərik ki, ümummilli liderin bu arzusu da reallığa çevrilmişdir.

Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Rumıniyanın, İranın, Bolqarıstanın, Çinin, Qazaxıstanın, Ukraynanın, Koreya Respublikasının, Küveytin, Macarıstanın, İndoneziyanın, Serbiyanın, Misirin, Albaniyanın, Latviyanın, Belarusun, Moldovanın, İordaniyanın, Monqolustanın, Qırğızıstanın, Tacikistanın milli informasiya agentlikləri ilə əməkdaşlıq müqavilələri vardır.

Bundan əlavə, AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. 2004-cü ilin sentyabrında AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü olmuşdur. 2007-ci il dekabrın 12-də isə OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən iclasında AzərTAc bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin idarə heyətinin üzvü seçilmişdir. 2008-ci ildən AzərTAc Asiya Xəbər Agentlikləri Konsorsiumunun (AsiaPulse) üzvüdür. AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilməsi agentliyimizin həyatında ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir. Beləliklə, agentliyimiz postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi və həmin təşkilatın sayca 31-ci üzvü olmuşdur.

AzərTAc son illərdə bir sıra beynəlxalq təşkilatların iclaslarına ev sahibliyi etmişdir. 2008-ci il aprelin 29-u – mayın 3-də Bakıda müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 85 illiyi ərəfəsində Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclası keçirilmişdir.

Həmin il sentyabrın 1-4-də Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının – OANA-nın İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclasına AzərTAc ev sahibliyi etmişdir.

Hörmətli mərasim iştirakçıları, respublikamızın qocaman və ən böyük xəbər agentliyinə bu gün də dövlət səviyyəsində çox yüksək qayğı

göstərilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edən Azərbaycan kimi AzərTAc da yüksəliş yolundadır.

Prezident İlham Əliyevin AzərTAc-ın 19 nəfər əməkdaşını agentliyimizin 90 illiyi münasibətilə Azərbaycan Respublikasının bir sıra fəxri adları və mükafatları ilə təltif etməsi hər birimizin qəlbində böyük qürur və iftixar hissi doğurur. Biz bu yüksək diqqət və qayğıya görə hörmətli Prezidentimizə dərin minnətdarlığımızı bildirir, xalqımızın xoşbəxt gələcəyi, müasir müstəqil Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gərgin və səmərəli fəaliyyətində Ulu Tanrıdan ona uğurlar arzulayırıq. Hörmətli Prezidentimizi əmin edirik ki, Azərbaycan həqiqətlərini dünyaya yaymağı Vətən, xalq qarşısında müqəddəs vəzifəsi hesab edən AzərTAc-ın kollektivi bu borcu şərəflə yerinə yetirmək üçün bundan sonra da fədakarcasına işləyəcək, kollektivimizə göstərilən böyük etimadı ləyaqətlə doğruldacaqdır.

Əziz dostlar, hörmətli qonaqlar, dəvətimizi qəbul edib agentliyimizin yubiley mərasimində iştirak etdiyinizə görə hamınıza bir daha səmimi qəlbdən təşəkkürümü bildirir, sizə işlərinizdə uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik arzu edirəm.

Bakı, 1 mart 2010-cu il.

Müasir iqlim dəyişmələri və Azərbaycan

(UNESCO-nun Moskva ofisi ilə AzərTAc-ın birgə seminarında çıxış)

– Əziz dostlar!

Hörmətli forum iştirakçıları!

Hamınızı Bakıda ürəkdən salamlayıram. Çox şadam ki, iqlim dəyişiklikləri ilə mübarizə və bu işdə KİV-lərin rolu kimi bəşəriyyət üçün çox mühüm mövzuda UNESCO-nun seminarı Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc-ın bilavasitə təşkilatçılığı ilə keçirilir. AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsi, onun dünyanın ən mötəbər xəbər agentliklərinin – Avropa Xəbər Agentlikləri Alyansının, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Alyansının, Türkdilli Xəbər Agentlikləri Birliyinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının, Asiya Xəbər Agentlikləri Konsorsiumunun, MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının üzvü olması və onların fəaliyyətində yaxından iştirak etməsi agentliyimizə beynəlxalq aləmdə etibarlı tərəfdaş imici qazandırmışdır. Belə bir əhəmiyyətli tədbirin Bakıda keçirilməsi üçün UNESCO-nun Moskva bürosunun AzərTAc-ı seçməsi və onunla bir yerdə bu tədbiri təşkil etməsində qazanılmış bu uğurların az rolu olmamışdır.

Bugünkü seminarda müzakirə edəcəyimiz problem hər kəsi düşündürür. Aydındır ki, dünyada baş verən təbii fəlakətlər – daşqınlar, qasırğalar və bunun nəticəsi olaraq dünya okeanının səviyyəsinin yüksəlməsi, yaxud quraqlıqla bağlı iqlim dəyişiklikləri XXI əsrdə insan resurslarının inkişafı üçün ciddi təhlükədir, bütün bunlar planetimizdə həyat tərzini dəyişir. Elmi cəhətdən təsdiq edilmişdir ki, belə davam etsə, ekoloji fəlakət qaçılmaz olacaqdır. BMT İnkişaf Proqramının məruzəsində deyilir ki, bu məsələyə münasibətimizə yenidən baxmaq, iqlim dəyişikliklərinin doğura biləcəyi daha dəhşətli nəticələrin qarşısını almaq və onlarla mübarizəyə yönəlmiş fəaliyyət xəttini təkmilləşdirmək çox vacibdir.

BMT İnkişaf Proqramının hamıya yaxşı məlum olan bu məruzəsinin məzmununu danışmaq istəmirəm, yalnız ekologiya mövzusunda yazan jurnalistlərin ətraf mühitin mühafizəsi uğrunda mübarizədə necə iştirak etməli olduqları barədə bəzi düşüncələrimi bölüşmək istərdim.

Əvvəlcə tarixə nəzər salaq. Məlumdur ki, SSRİ-nin süqutuna qədər, "inkişaf etmiş sosializm" adlanan dövrdə mətbuatda ekologiya problemlərinə az yer ayrılırdı. Ətraf mühitin vəziyyətinə dair informasiya gizli saxlanılırdı. Lakin hələ o vaxtlar müxtəlif qəzalar barədə məlumatlar azdan-çoxdan kütlələrə çatdırılırdı. Məsələn, 1986-cı ildə Çernobıl AES-də baş vermiş qəza və digər belə hadisələr barədə rəsmi məlumatlar ictimaiyyətə çox gec verilmişdi.

Keçmiş Sovet İttifaqı respublikaları müstəqillik əldə etdikdən sonra bütün digər məsələlər kimi, ekoloji problemlərə, onların kütləvi informasiya vasitələrində işıqlandırılması məsələsinə də münasibət dəyişmişdir. Demək olar ki, ekologiya jurnalistikasında yeni dövr başlanmış, onun qarşısında yeni vəzifələr qoyulmuşdur. İndi biz bu vəzifələri həll etməliyik.

Bu vəzifələrdən birincisi ekoloji problemlərə dair bu və ya digər məlumatların operativ surətdə yayılmasıdır. Əhaliyə vaxtında məlumat verilməlidir. KİV-lərin bu məsələdə rolu çox böyükdür. Lakin nəyin harada baş verməsi barədə məlumat yaymaq kifayətdirmi? Düşünürəm ki, yox. İnsanlar mənfi informasiyadan usanmışlar və insan sağlamlığını təhdid edən pis ətraf mühitlə mübarizədə hansı işlərin görüldüyünü və görmək lazım gəldiyini bilmək istəyirlər. Əminəm ki, ekologiya jurnalistikası bu maarifçilik missiyasını öz üzərinə götürməlidir və demək olar ki, götürmüşdür.

Ekologiya mövzusuna toxunarkən, bununla bağlı bu və ya digər vəziyyətdən çıxış yolu tapmağa çalışan alimlərin, ekoloqların, dövlət rəhbərlərinin səyləri barədə məlumat verərkən, yəqin təkcə vəziyyətin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərlə bağlı faktları şərh etmək kifayət deyildir, bu mövzuda daha kəskin və təəssübkeşliklə yazmaq, ən əsası isə alimlərin, ekoloqların səylərinin bəzən lazımi nəticələr verməməsində təqsirkar olanları ciddi tənqid etmək lazımdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsis edilməsi – həmin nazirliyin əməkdaşları bu gün məruzə ilə çıxış edəcəklər, – və ekoloji sahə üzrə bir sıra qeyri-hökumət təşkilatlarının yaradılması, təbii ki, bu mövzuda informasiyaların sayını artırmışdır. Bu mövzuda xəbərlərə, xüsusilə, problemləri işıqlandıran informasiyalara ictimai maraq güclənmişdir. Bu da təbiidir – insan öz sağlamlığını, ən əsası isə övladlarının sağlamlığının qayğısına qalır. Odur ki, kütləvi informasiya vasitələrində ekologiya mövzusu

getdikcə daha geniş yer tutur. Lakin bu yetərli deyildir. Mən bir ABŞ jurnalistinin İnternet nəşrlərin birinin səhifələrində yerləşdirilmiş "Ekologiya jurnalistikası üçün pis xəbərlər" adlı məqaləsini oxumuşdum. Məqalədə haqlı olaraq qeyd olunur ki, ekologiya ilə bağlı bəzən ən maraqlı materiallar belə nəşrlərin axırıncı səhifələrində dərc olunur, yaxud redaktorların mühüm hesab etdiyi xəbərlərlə, məsələn, kriminal və ya idman mövzularında materiallarla əvəz edilir. Təbii ki, bu, mənfi bir tendensiyadır və tezliklə o, aradan qaldırılmalı, ekologiyaya dair xəbərlər qəzetin ön səhifəsində yer almalıdır.

Daha bir mövzuya da toxunmaq istərdim. Bəzi jurnalistlər hesab edirlər ki, ekologiya mövzusunda informasiya yalnız dəhşətli xəbərlərlə zəngin olanda maraqlıdır. Hesab edirəm ki, bu cür yanaşma təhlükəlidir. İlk növbədə ona görə ki, bu informasiyanı oxuyan və ya dinləyən insanlar, əsasən, ətraf mühitin real vəziyyətindən xəbəri olmayan gənclər təşvişə düşür, stress keçirirlər, bu isə onların sağlamlığına mənfi təsir göstərir.

Bir sözlə, ekologiya mövzusunda yazan jurnalistlərin üzləşdiyi məqamlar çoxdur. Lakin biz onlarla hesablaşmalıyıq. Çünki ekoloji problemlərin kəskinliyi artdıqca, ətraf mühitin mühafizəsi mövzusuna maraq sönmür, əksinə getdikcə çoxalır. Həyatın qarşımızda qoyduğu vəzifələrin öhdəsindən gəlmək üçün müasir KİV-lərdə hansı struktur və iqtisadi dəyişikliklər aparılmalıdır? Bizim ümumi vəzifəmiz bunu müəyyənləşdirməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

Əziz dostlar, indi isə məmnuniyyətlə sözü məruzəçilərə verirəm. Onlar ekologiyanın aktual problemlərindən və onların kütləvi informasiya vasitələrində işıqlandırılmasından daha ətraflı danışacaqlar.

"Müasir iqlim dəyişmələri və Azərbaycan" toplusu,
14 noyabr 2009-cu il.

AzərTAc – Avropanın informasiya agentlikləri ailəsində

(Avropa Xəbər Agentlikləri Alyansı (EANA) Baş Məclisinin iclasında çıxış)

– Hörmətli cənab sədr!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

İlk növbədə, EANA Baş Assambleyasının növbəti iclasının bütün iştirakçılarını salamlamaq və Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın kollektivi adından və öz adımdan uğurlar arzulamaq istərdim.

Əziz dostlar, bildiyiniz kimi, Baş Assambleyanın bu ilin aprelində Estoniyanın paytaxtı Tallinndə keçirilən iclasında AzərTAc Avropanın və ümumən dünyanın ən mötəbər xəbər agentliklərini birləşdirən EANA-ya üzv qəbul olunmuşdur. Biz AzərTAc-ın Avropa xəbər agentlikləri ailəsinə qəbul edilməsini agentliyimizin həyatında çox mühüm və əlamətdar hadisə kimi qiymətləndirir, bunu böyük şərəf sayırıq. Agentliyimizə göstərilən bu etimada görə EANA-nın prezidenti hörmətli cənab Volfqanq Vislozilə, baş katib cənab Erik Nyulenə, bizi dəstəkləyən bütün həmkarlarımıza AzərTAc-ın kollektivi adından dərin minnətdarlığımı bildirirəm. Biz hesab edirik ki, AzərTAc-ın bu mötəbər quruma daxil olması beynəlxalq əlaqələrimizin coğrafiyasının daha da genişlənməsinə, həmkarlarımızın zəngin təcrübəsindən faydalanmaqla işimizi daha yaxşı qurmağımıza kömək edəcəkdir.

Bu gün AzərTAc öz fəaliyyətinin əsas istiqamətini dünya informasiya məkanına inteqrasiya etməkdə, Azərbaycan haqqında obyektiv informasiyanın geniş yayılmasında görür. Ümidvarıq ki, dünyanın aparıcı informasiya agentliklərinin zəngin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi bizim gələcək işlərimizdə çox faydalı olacaqdır. Bu baxımdan, biz artıq müəyyən uğurlar qazanmışıq. İndiyədək 16 ölkənin xəbər agentlikləri ilə qarşılıqlı əməkdaşlıq haqqında ikitərəfli sazişlər bağlamışıq.

Hazırda 10-dan çox ölkədə AzərTAc-ın xüsusi müxbirləri var və gələcəkdə belə müxbir məntəqələrinin sayını artırmaq nəzərdə tutulur.

AzərTAc bir sıra regional informasiya qurumlarının, o cümlədən Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan Ölkələrin İnformasiya Agentlikləri Assosiasiyasının

(BSANNA), MDB-nin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) təsisçilərindən biridir. AzərTAc 2004-cü ildən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvüdür. 2007-ci ilin dekabrında OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən Baş Assambleyasında AzərTAc bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvü seçilmişdir.

Qürur hissi ilə bildirirəm ki, AzərTAc artıq beynəlxalq tədbirlərə ev sahibliyi etməyə başlamışdır. 2008-ci il aprelin 30-u – mayın 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi Baş Məclisinin 6-cı iclası keçirilmişdir. Hazırda həmin qurumda AzərTAc sədrlik edir. Sentyabrın 1-4-də isə Bakıda AzərTAc-ın ev sahibliyi ilə OANA İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclası keçirilmişdir. İclasda dünyanın 21 ölkəsindən ən nüfuzlu informasiya agentliklərinin rəhbərləri və yüksək vəzifəli təmsilçiləri iştirak etmişlər.

Bizim şəxsi dəvətimizlə EANA-nın prezidenti, Avstriyanın APA agentliyinin baş direktoru cənab Volfqanq Vislozil də OANA İcraiyyə Komitəsinin Bakı forumunda iştirak etmişdir. Mən fürsətdən istifadə edib dostum Volfqanqa dəvətimi qəbul edib Bakıya gəldiyinə və məni yolüstü füsunkar Vyanada qəbul etdiyinə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

OANA-nın və EANA-nın tarixində ilk dəfə idi ki, bu mötəbər qurumların rəhbərləri bir araya gəlmişdilər. Ona görə də OANA İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasında səmərəli konstruktiv müzakirələr, fikir mübadiləsi aparıldı, qloballaşan dünyamızda ən çox tələbat olan və istənilən nöqtəyə inanılmaz sürətlə – saniyələr, dəqiqələr ərzində çatdırılan xəbərlərin daha operativ, qərəzsiz hazırlanması və yayılması baxımından faydalı təkliflər, tövsiyələr səsləndi.

Hörmətli dostlar, bu iclasımızda da səmərəli fikirlər səsləndi, faydalı təkliflər irəli sürüldü. Ən əsası isə biz bir daha dostlarla görüşdük, ünsiyyət saxladıq, bir-birimizi daha yaxşı tanıdıq.

Mən iclasın iştirakçılarına səmərəli iş, onların gələcək fəaliyyətlərində uğurlar və firavanlıq arzu edirəm.

Diqqətinizə görə sağ olun.

Nitsa, 26 sentyabr 2008-ci il.

Dünya informasiya məkanına inteqrasiya başlıca vəzifədir

(Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan Ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) II konfransında çıxış)

– Hörmətli cənab sədr!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

Əvvələn, BSANNA-nın növbəti iclasının bütün iştirakçılarını salamlamaq və Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivi adından və öz adımdan uğurlar arzulamaq istərdim.

İcazə verin, bu mötəbər tədbirə dəvətə görə Bolqarıstanın BTA agentliyinin Baş direktoru, dostum və qardaşım cənab Maksim Minçevə səmimi təşəkkürümü bildirim.

Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc 1920-ci ilin mart ayında, müsəlman Şərqində ilk demokratik respublika olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmışdır. Lakin həmin il aprelin axırlarında respublika süqut etmiş, AzərTAc isə sonralar yetmiş il Sovet İttifaqı Teleqraf Agentliyinin – SİTA-nın Azərbaycan filialı kimi fəaliyyət göstərmişdir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra AzərTAc-ın ilkin statusu da bərpa edilmişdir.

Azərbaycan Respublikasında söz və mətbuat azadlığı Konstitusiyada təsbit olunmuşdur. Ölkədə senzura tamamilə ləğv edilmişdir. İndi respublikamızda çıxan qəzet və jurnalların, onların sayı isə yüzlərlədir, fəaliyyət göstərən televiziya və radio kanallarının, informasiya agentliklərinin böyük əksəriyyəti özəl və müstəqildir.

Azərbaycanda söz və mətbuat azadlığının təmin edilməsində mərhum Prezidentimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Buna görə də təsadüfi deyil ki, Prezident Heydər Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdü. Respublikanın indiki Prezidenti cənab İlham Əliyev təməli ulu öndərimiz tərəfindən qoyulmuş ənənələri uğurla və ardıcıllıqla davam etdirir.

AzərTAc öz fəaliyyətinin əsas istiqamətini dünya informasiya məkanına inteqrasiya etməkdə, Azərbaycan haqqında obyektiv informasiyanın

geniş yayılmasında görür. Ümidvarıq ki, dünyanın aparıcı informasiya agentliklərinin zəngin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi bizim gələcək işlərimizdə çox faydalı olacaqdır. Bu baxımdan, biz artıq müəyyən uğurlar qazanmışıq: Türkiyənin Anadolu Agentliyi, Rusiyanın İTAR-TASS, Çinin Sinxua, Ukraynanın Ukrinform, İtaliyanın ANSA, Bolqarıstanın BTA, Misirin MENA, Serbiyanın TANYUQ, Macarıstanın MTİ, İranın İRNA, Rumıniyanın Rompress, Belarusun BELTA, Albaniyanın ATA, İordaniyanın Petra, Monqolustanın MONTSAME, Koreya Respublikasının Yonhap agentlikləri ilə qarşılıqlı əməkdaşlıq haqqında ikitərəfli sazişlər bağlamışıq.

Hazırda Ankarada, Moskvada, Vaşinqtonda, Parisdə, Vyanada, Berlində, Kiyevdə, Tehranda, Orta Asiyada AzərTAc-ın xüsusi müxbirləri var və gələcəkdə başqa ölkələrdə də müxbir məntəqələrinin açılması nəzərdə tutulur.

AzərTAc bir sıra regional informasiya qurumlarının, o cümlədən Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan Ölkələrin İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA), MDB-nin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) təsisçilərindən biridir. AzərTAc 2004-cü ildən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvüdür. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə edə bilir. 2007-ci ilin dekabrında OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən Baş Assambleyasında AzərTAc bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvü seçilmişdir.

2008-ci ilin aprelində AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul olunması agentliyimizin tarixində ən mühüm hadisələrdən biridir. Beləliklə, AzərTAc postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi, təşkilatın sayca 31-ci üzvü olmuşdur. AzərTAc-ın dünyanın iki ən nüfuzlu regional informasiya qurumunun – OANA və EANA-nın üzvü olması agentliyimizi həm Şərqin, həm də Qərbin informasiya məkanına çıxarmış, Azərbaycan haqqında xəbərlərin yayılması coğrafiyasının genişlənməsinə səbəb olmuşdur.

Qürur hissi ilə bildirirəm ki, AzərTAc artıq beynəlxalq tədbirlərə ev sahibliyi etməyə başlamışdır. 2008-ci il aprelin 30-u – mayın 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi Baş Məclisinin 6-cı iclası keçirilmişdir. Hazırda həmin qurumda AzərTAc sədrlik edir. Bir həftə əvvəl – sentyabrın 1-4-də Bakıda AzərTAc-ın ev sahibliyi ilə OANA İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclası keçirilmişdir. İclasda dünyanın 21 ölkəsindən ən nüfuzlu informasiya agentliklərinin rəhbərləri və yüksək vəzifəli şəxsləri təmsil olunmuşdur.

Bizim şəxsi dəvətimizlə EANA-nın prezidenti, Avstriyanın APA agentliyinin baş direktoru cənab Volfqanq Vislozil, Frans-Press Agentliyinin xarici əlaqələr departamentinin direktoru Fransua Qranye, İordaniyanın PETRA Agentliyinin məsul əməkdaşı Mövlud Abdullah Riqaybat, həmçinin bu gün qonağı olduğumuz əziz dostum, Bolqarıstanın BTA Agentliyinin baş direktoru Maksim Minçev, bu agentliyin redaktoru xanım Nevin Mustafova OANA İcraiyyə Komitəsinin Bakı forumunda iştirak etmişlər. Mən fürsətdən istifadə edib dostum Maksim Minçevə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

OANA-nın və EANA-nın tarixində ilk dəfə idi ki, bu mötəbər qurumların rəhbərləri bir araya gəlmişdilər. Ona görə də OANA İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasında səmərəli konstruktiv müzakirələr, fikir mübadiləsi aparıldı, qloballaşan dünyamızda ən çox tələbat olan və istənilən nöqtəyə inanılmaz sürətlə – saniyələr, dəqiqələr ərzində çatdırılan xəbərlərin daha operativ, qərəzsiz hazırlanması və yayılması baxımından faydalı təkliflər, tövsiyələr səsləndi.

AzərTAc hazırda sutkalıq iş rejimində Azərbaycan, rus, ingilis və qismən də alman dillərində informasiya buraxır. Gələcəkdə agentliyin linqvistik imkanlarının genişləndirilməsini planlaşdırırıq.

Hörmətli həmkarlar, fürsətdən istifadə edib bir məsələyə toxunmaq istərdim.

Bu gün – qloballaşan dünyamızın qlobal iqlim dəyişiklikləri, dini və etnik dözümsüzlük, ekstremizm, transmilli cinayətkarlıq kimi təhlükələrlə üzləşdiyi bir şəraitdə kütləvi informasiya vasitələrinin üzərinə xüsusi məsuliyyət düşür. Bəşəriyyəti narahat edən problemlərin işıqlandırılmasın-

da ölçü hissi, obyektivlik kimi amillərin gözlənilməməsi proqnozlaşdırılması mümkün olmayan nəticələrə gətirib çıxara bilər.

Azərbaycan tarixən çoxmillətli və çoxkonfessiyalı ölkə olmuşdur və bu gün də belədir. Lakin məlum olduğu kimi, biz özümüz etnik-millətçi separatizmdən və terrorizmdən çox zərər çəkmişik. Buna baxmayaraq, ölkəmiz həqiqətən etnik və dini tolerantlıq nümunəsidir. Bunu ən nüfuzlu beynəlxalq təşkilatlar, siyasi, ictimai xadimlər və din xadimləri dəfələrlə qeyd etmişlər.

Mən iclasın iştirakçılarına bir daha səmərəli iş, onların gələcək fəaliyyətlərində uğurlar və firavanlıq arzu edirəm.

Diqqətinizə görə sağ olun.

Sofiya, 9 sentyabr 2008-ci il.

Qloballaşan dünyada informasiya hamı üçün

(OANA İcraiyyə Komitəsinin 30-cu iclasında çıxış)

– Hörmətli iclas iştirakçıları,
hörmətli qonaqlar,
xanımlar və cənablar!

Mən sizin hamınızı qədim tarixi və zəngin mədəniyyəti olan Azərbaycan torpağında böyük səmimiyyətlə salamlayır, hər birinizə dünyanın "Neft akademiyası" adlandırılan paytaxtımız Bakıya "Xoş gəlmisiniz!" deyirəm.

Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) İcraiyyə Komitəsinin 30-cu iclasının Bakıda keçirilməsi barədə qərar 2007-ci ilin dekabrında İndoneziyanın paytaxtı Cakartada – 13-cü Baş Assambleyada qəbul olunmuşdur. AzərTAc-a göstərilən bu yüksək etimada görə OANA-nın və üzv agentliklərin rəhbərlərinə kollektivimiz adından minnətdarlığımı bildirirəm. Eyni zamanda, biz bu qərarı sürətli iqtisadi inkişaf dövrünü yaşayan Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasının, habelə AzərTAc-ın dünya informasiya məkanına çıxmasının daha bir təsdiqi kimi qiymətləndiririk.

Xanımlar və cənablar, bugünkü iclasımızda dünyanın ən tanınmış, mötəbər xəbər agentliklərinin rəhbərləri və təmsilçiləri iştirak edirlər.

Mən bu gün burada OANA-nın prezidenti, İndoneziyanın Antara agentliyinin baş icraçı direktoru cənab Əhməd Muxlis Yusufu, OANA Katibliyinin rəhbəri, Antaranın baş icraçı direktorunun müavini cənab Əhməd Hüseynini ürəkdən salamlamaqdan böyük məmnunluq duyuram.

Türkiyənin Anadolu agentliyi İdarə heyətinin sədri və baş direktoru cənab Hilmi Bengiyə və baş direktorun müavini cənab Əhməd Tekə,

Rusiyanın İTAR-TASS agentliyi baş direktorunun birinci müavini, həmyerlimiz cənab Mixail Qusmana, baş direktorun müavini cənab Fərid Alyautdinova, Beynəlxalq əlaqələr və xüsusi layihələr xidmətinin direktoru cənab Yakov Borovoya, Xarici siyasət informasiya xidmətinin beynəlxalq əməkdaşlıq və beynəlxalq mübadilə şöbəsinin rəhbəri Sergey Buşuyevə,

Qazaxıstanın Kazinform agentliyinin prezidenti cənab Dauren Diyarova,

Qırğızıstanın Kabar agentliyinin baş direktoru cənab Narın Ayıpa,

Monqolustanın MONTSAME agentliyinin baş direktoru cənab Tuqalxuuqiyn Baasansurenə günəşli Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm.

Yaponiyanın Kyodo agentliyinin Beynəlxalq əlaqələr departamentinin icraçı direktoru cənab Masaru Savanişini,

Koreya Respublikasının Yonhap agentliyinin İnformasiya biznesi departamentinin baş direktoru cənab Kim Çanq-Hoeni,

Malayziyanın BERNAMA agentliyinin baş meneceri cənab Visvakumar Sangiahı və baş redaktoru cənab Yonq Soo Heonqu,

Çinin Sinxua agentliyinin Xarici əlaqələr departamentinin baş direktorunun köməkçisi cənab Liu Yanqı,

İranın İRNA agentliyinin Süni peyklər və informasiya texnologiyaları departamentinin baş direktoru cənab Hüseyn Şahverdini və Beynəlxalq əlaqələr üzrə direktoru cənab Mortəza Geranqədrini,

Vyetnamın VNA agentliyinin Dünya xəbərləri departamentinin direktoru cənab Nquyen Anh Tuanı və Texniki mərkəzin direktoru cənab Dam Hieu Dunqu Bakıda görməyimizdən çox şad olduğumuzu bildirirəm.

Birləşmiş Ərəb Əmirlikləri Xəbər Agentliyinin baş redaktoru cənab Camal Nəssir əl-Süveydini və İnformasiya texnologiyaları departamentinin müdiri cənab Əhməd Nəcibi,

Qətər Xəbər agentliyinin baş redaktoru cənab Əhməd Səəd əl-Buinini və departament müdiri cənab Əhməd Səid əl-Kuvarini,

Suriyanın SANA agentliyinin Moskva bürosunun direktoru cənab Fəhd Kamnakeçi və Moskva bürosunun əməkdaşı xanım Liliya Fyodorovanı,

Küveytin KUNA agentliyinin Beynəlxalq əlaqələr departamentinin direktoru cənab İsam əl-Ruvayeni və Moskva bürosunun direktoru cənab Ədib əl-Səidi,

Yəmənin SABA agentliyi sədrinin və baş redaktorunun müavini cənab Raceh əl-Cabubini böyük səmimiyyətlə salamlayıram.

Mən böyük qürur hissi ilə qeyd etmək istəyirəm ki, AzərTAc 2008-ci ilin aprelində Avropanın və ümumən dünyanın ən məşhur xəbər agentliklərinin təmsil olunduğu mötəbər regional quruma – Avropa Xəbər Agentlikləri Alyansına üzv qəbul olunmuşdur.

Postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra AzərTAc-ın EANA kimi çox nüfuzlu regional quruma üzv qəbul edilməsi bizim üçün

əlamətdar hadisədir. Mən fürsətdən istifadə edərək, EANA-nın prezidenti cənab Volfqanq Vislozilə, habelə müzakirələrdə və səsvermədə bizi dəstəkləyən bütün agentliklərin rəhbərlərinə dərin minnətdarlığımı bildirirəm.

Biz EANA-nın prezidenti, Avstriyanın APA agentliyinin baş direktoru çox hörmətli cənab Volfqanq Vislozili bir müddət əvvəl Bakıya dəvət etmişdik. Təəssüf ki, o vaxt müəyyən səbəblər üzündən gələ bilmədi. Bu gün isə cənab Vislozil burada bizimlə birlikdədir və mən onu salamlamaqdan böyük şərəf duyuram.

Eyni zamanda, bizim dəvətimizi qəbul edib Bakıya gəldiklərinə görə Bolqarıstanın BTA agentliyinin baş direktoru cənab Maksim Minçevə və BTA-nın redaktoru xanım Nevin Mustafovaya, Frans-Press agentliyinin Xarici əlaqələr departamentinin direktoru cənab Fransua Qranjeyə, İordaniyanın Petra agentliyinin baş müxbiri cənab Mövlud Abdullah Riqaybatıya dərin minnətdarlığımı bildirirəm.

Hörmətli iclas iştirakçıları,

Azərbaycan tarixən Şərqlə Qərbin, sivilizasiyaların qovuşduğu və bütün dövrlərdə yüksək tolerantlığı, qonaqpərvərliyi ilə tanınan bir diyardır.

Azərbaycan həm də müsəlman Şərqində 90 il əvvəl ilk demokratik respublikanın qurulduğu, 135 il əvvəl ilk dünyəvi teatrın, 100 il əvvəl ilk operanın yarandığı ölkədir.

OANA İcraiyyə Komitəsinin Bakıda keçirilən 30-cu iclası ölkəmiz üçün əlamətdar bir dövrə təsadüf edir. Yaxın vaxtlarda – oktyabrın 15-də Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcək, oktyabrın 18-də isə biz müstəqilliyimizin yenidən bərpasının 17-ci ildönümünü qeyd edəcəyik.

Sovet İttifaqının dağılması ilə yeni müstəqil dövlətlər yarananda ən ağır vəziyyətdə olan Azərbaycan idi. O vaxt digər dövlətlər üçün də səciyyəvi olan siyasi və iqtisadi böhranla yanaşı, ölkəmiz 1980-ci illərin axırlarında Mixail Qorbaçov başda olmaqla keçmiş sovet rəhbərliyinin himayədarlığından ruhlanaraq, xalqımızın tarixi torpağı olan Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışan erməni millətçilərinin separatizminin daha da genişlənməsi və sonra isə qonşu Ermənistanın hərbi təcavüzü ilə üzləşmişdi. Nəticədə xaricdəki havadarlarının, o cümlədən bəzi dövlətlərin aşkar-gizli köməyi sayəsində Ermənistan Azərbaycan tor-

paqlarının 20 faizini işğal etmiş, həmin ərazilərdə etnik təmizləmə aparmış, 1992-ci ilin fevralında Xocalıda azərbaycanlılara qarşı kütləvi qırğın – XX ərsin ən dəhşətli soyqırımlarından birini törətmişdir. Ermənistan ərazisindəki tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı da oradan zorla qovulub çıxarılmışdır. Beləliklə, ölkədə 1 milyon qaçqın və məcburi köçkün yaranmış, Azərbaycan çox böyük humanitar fəlakətlə qarşılaşmışdı. Hazırda Azərbaycan əhalisinin təxminən hər 8 nəfərindən biri öz ölkəsində qaçqın və məcburi köçkündür və siz dünyanın heç bir ölkəsində belə vəziyyətə rast gələ bilməzsiniz.

Bununla yanaşı, daxildə hakimiyyət uğrunda gedən çəkişmələr ölkəni dağılmaq, müstəqilliyi itirmək həddinə çatdırmışdı.

Belə bir şəraitdə, 1993-cü ilin iyununda xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxladı, bütün çətinlikləri və maneələri dəf edərək inkişaf yoluna çıxdı, dünya birliyində layiqli yerini tutdu.

Heydər Əliyevin əsasını qoyduğu geniş siyasi və sosial-iqtisadi islahatlar xətti hazırda Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son üç ildə ölkəmiz iqtisadi artım sürətinə görə dünyada birinci yerdədir. Azərbaycan regionda lider dövlətə çevrilmişdir və beynəlxalq aləmdə nüfuzu getdikcə artır. Ölkəmiz özünün zəngin təbii ehtiyatlarını dünyaya açmışdır və hazırda çox aktual olan enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verir.

Azərbaycan dövlətinin ali məqsədi demokratik vətəndaş cəmiyyəti qurmaq, öz vətəndaşları üçün azad, firavan həyat şəraiti təmin etməkdir.

Azərbaycan sülhsevər dövlətdir, təcavüzkar Ermənistan istisna olmaqla, bütün qonşuları ilə dostluq, mehribanlıq münasibətlərinə, qarşılıqlı surətdə faydalı əməkdaşlığa əsaslanan sıx əlaqələr qurmuşdur. Hazırda Azərbaycanın ən başlıca problemi ölkənin ərazi bütövlüyünün bərpasıdır. Azərbaycanın bugünkü iqtisadi və hərbi gücü işğal altındakı torpaqlarımızı hərbi yolla azad etməyə imkan verir. Lakin biz yenidən qan tökülməsinin əleyhinəyik və münaqişənin sülh yolu ilə beynəlxalq hüququn prinsipləri əsasında həll olunmasını istəyirik. Ancaq işğalçı Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkmir. Belə bir vəziyyətdə münaqişənin həlli ilə

məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri, beynəlxalq təşkilatlar və ümumən dünya birliyi prinsipiallıq göstərməli, təcavüzkarı beynəlxalq hüquq normalarına əməl etməyə məcbur etməlidirlər. Əks halda, Cənubi Qafqaz regionunda davamlı sülhün bərqərar olması mümkün deyil və bu vəziyyətin davam etməsi regional təhlükəsizliyə ciddi qorxu törədir.

Bunları deməklə mən Azərbaycanın bugünkü reallıqlarını hörmətli həmkarlarımızın diqqətinə çatdırmaq istəyirəm.

Bu il 88 yaşı tamam olan Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc 1920-ci ilin martında, ilk demokratik respublika dövründə yaradılmışdır və deyə bilərik ki, Şərqdə, ümumən Asiyada birinci xəbər agentliklərindəndir. Lakin həmin ilin aprelində respublika süqut etmiş, AzərTAc isə fəaliyyətini dayandırmışdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1920-ci ilin iyununda yenidən fəaliyyətə başlamış, SSRİ dağılana qədər ittifaq informasiya agentliyinin – SİTA-nın filialı olmuşdur. 1992-ci ildən isə müstəqil Azərbaycan dövlətinin rəsmi informasiya agentliyi kimi fəaliyyət göstərir.

Azərbaycan Respublikasında hər kəsin fikir və söz azadlığı Konstitusiyada təsbit olunmuşdur. Müstəqil mətbuatın inkişafına, KİV-lərin sərbəst fəaliyyətinin təmin edilməsinə yönəldilmiş bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Hazırda Azərbaycanda 3500-dən artıq KİV qeydiyyata alınmışdır. Onların əksəriyyəti qəzet və jurnal, 30-dan çoxu informasiya agentliyi, 44-ü elekton KİV-dir. Azərbaycanda 7 ümumrespublika, 14 regional televiziya kanalı, 12 kabel televiziyası və 11 radiostansiya fəaliyyət göstərir. Ölkədə mətbuat üzərində senzura 1998-ci ildə ləğv olunmuşdur.

1999-cu ildə kütləvi informasiya vasitələri haqqında Qanun qəbul edilmiş, 2000-ci ildə mətbuatın fəaliyyətinə nəzarət funksiyasını yerinə yetirən nazirlik ləğv edilmiş, 2003-cü ildə mətbuat-cəmiyyət-dövlət arasında münasibətlərin ictimai tənzimlənməsi mexanizmi olan Mətbuat Şurası yaradılmış, 2002-ci ilin iyununda "Televiziya və radio yayımı haqqında" Qanun qüvvəyə minmiş, həmin ilin oktyabrında isə Milli Televiziya və Radio Şurası yaradılmışdır. 2005-ci ildə "İnformasiya əldə etmək haqqında" Qanun qəbul edilmiş, 2008-ci il iyulun 31-də isə mətbuatla bağlı daha bir hüquqi sənəd qüvvəyə minmişdir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kütləvi infor-

masiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"dır. Konsepsiyada fikir, söz və mətbuat azadlığının inkişaf etdirilməsinin əsas müddəaları əksini tapmışdır. Bütün bunlar Azərbaycanda yeni informasiya mühitinin formalaşdığını təsdiq edir.

Dünya informasiya məkanına inteqrasiya, Azərbaycan haqqında obyektiv xəbərlərin yayılması AzərTAc-ın fəaliyyətinin əsas istiqamətidir. Bu baxımdan da biz agentliyin beynəlxalq əlaqələrinin genişlənməsinə xüsusi əhəmiyyət veririk. Türkiyə, Rusiya, Çin, Ukrayna, İtaliya, Bolqarıstan, Macarıstan, Misir, Serbiya, Belarus, Albaniya, İordaniya, İndoneziya və digər ölkələrin xəbər agentlikləri ilə ikitərəfli əməkdaşlığa dair sazişlər imzalanmışdır.

Hazırda Ankarada, Moskvada, Vaşinqtonda, Parisdə, Vyanada, Kiyevdə, Tehranda, Tbilisidə, Orta Asiyada AzərTAc-ın xüsusi müxbirləri var və gələcəkdə başqa ölkələrdə də müxbir məntəqələrinin açılması nəzərdə tutulur.

AzərTAc həm də Türkdilli Xəbər Agentlikləri Birliyinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına Üzv Ölkələrin İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA), MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) üzvüdür. 2007-ci ilin dekabrında İndoneziyanın paytaxtı Cakartada, OANA-nın 13-cü Baş Assambleyasında AzərTAc təşkilatın rəhbər orqanına – İcraiyyə Komitəsinə üzv seçilmişdir.

AzərTAc sutkalıq iş rejimində Azərbaycan, ingilis, rus dillərində, son vaxtlar isə həm də qismən alman dilində xəbərlər buraxır. Gələcəkdə başqa dillərdə də xəbərlərin yayılmasını planlaşdırırıq.

Hörmətli həmkarlar,

OANA İcraiyyə Komitəsinin Bakıda keçirilən iclası çox mühüm bir mövzuya həsr olunmuşdur. Qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada hər bir kəsin informasiya almaq imkanının olması artıq zərurətə çevrilmişdir. Xüsusilə bəşəriyyətin siyasi qarşıdurmalar, terrorizm, separatçılıq, dini ekstremizm, transmilli cinayətkarlıq kimi təhlükələrlə üzləşdiyi bir vaxtda insanların obyektiv, qərəzsiz informasiyaya daha çox ehtiyacı var. İnsanların məhz belə informasiya ala bilməsi onlara təkcə öz ölkələrində deyil, həm də ümumən dünyada baş verən hadisələri doğru-düzgün qiymətləndirməyə imkan verir. Bu isə, mən deyərdim ki,

son nəticədə xalqların və ölkələrin bir-birini daha yaxşı tanımasına, onların yaxınlaşmasına xidmət edir. Əksinə, sivilizasiyalararası, konfessiyalararası dialoqun, Şərq ilə Qərb arasında dialoqun həmişəkindən daha aktual olduğu zəmanəmizdə qərəzli, həqiqətdən uzaq, təhrif olunmuş, insanların milli və dini hisslərini təhqir edən xəbərlərin KİV-lərdə yer alması yalnız və yalnız düşmənçiliyə, ekstremizmə rəvac verir.

Biz hesab edirik ki, OANA kimi nüfuzlu regional qurumun İcraiyyə Komitəsinin iclasının Bakıda keçirilməsi respublikamızın həyatında yaddaqalan hadisəyə çevriləcəkdir.

Eyni zamanda, əminik ki, bu iclasda çox səmərəli konstruktiv müzakirələr, fikir mübadiləsi aparılacaq, qloballaşan dünyamızda ən çox tələbat olan və istənilən nöqtəyə inanılmaz sürətlə – saniyələr, dəqiqələr ərzində çatdırılan məhsulun, yəni xəbərlərin daha operativ, obyektiv, qərəzsiz hazırlanması və yayılması baxımından faydalı təkliflər, tövsiyələr səslənəcəkdir.

Ümidvarıq ki, hörmətli qonaqlarımız iclasımızın keçirildiyi günlər ərzində paytaxtımız Bakı ilə müəyyən qədər tanış ola biləcək və siz Azərbaycandan xoş təəssüratla ayrılacaqsınız.

Diqqətinizə görə təşəkkür edirəm.

Bakı, 2 sentyabr 2008-ci il.

Qloballaşan dünyada informasiya hamı üçün,
Bakı, "Şərq-Qərb", 2009-cu il.

Ukrinform-90: şərəfli yol

(Ukrayna Milli İnformasiya Agentliyinin – Ukrinformun 90 illik yubiley mərasimində çıxış)

– Hörmətli Viktor Fyodoroviç!

Hörmətli həmkarlar!

Hörmətli tədbir iştirakçıları!

Əvvəlcə icazə verin Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc-ın kollektivi adından və şəxsən öz adımdan sizi əlamətdar gün – Avropa Xəbər Agentlikləri Alyansında Ukraynanı layiqincə təmsil edən və dünyanın məşhur informasiya agentliklərindən biri sayılan Ukrinformun 90 illik yubileyi münasibətilə təbrik edim.

Çox şadam ki, bu əlamətdar bayramda iştirak edirəm və iltifat göstərib məni Kiyevə dəvət etdiyinizə görə bir daha təşəkkürümü bildirirəm.

Biz bilirik ki, dünyada yüksək peşəkar kimi ad qazanmış Ukrinform böyük və şərəfli yol keçmişdir. Biz fəxr edirik ki, AzərTAc bu agentliklə sıx yaradıcılıq münasibətləri qurmuşdur. Şübhəsiz ki, agentliyinizin informasiya yayımı sahəsində uğurlarında Ukrinformun rəhbəri, hörmətli Viktor Fyodoroviç Çamaranın xidmətləri böyükdür.

Biz Viktor Fyodoroviç ilə müxtəlif beynəlxalq forumlarda, konqreslərdə dəfələrlə görüşmüş, maraqlı söhbətlər etmişik. Viktor Fyodoroviç həmişə işlərimizə və bizimlə əməkdaşlığa maraq göstərmiş, AzərTAc-ın dünya informasiya məkanına daha fəal inteqrasiya etmək istəyini hərtərəfli dəstəkləmişdir. Bir müddət əvvəl OANA-ya üzv olandan və Asiya ölkələri ilə əməkdaşlığı xeyli genişləndirəndən sonra biz Avropa Xəbər Agentlikləri Alyansı – EANA-nın da tamhüquqlu üzvü olmağa səy göstərirdik. Bu yaxınlarda Azərbaycan Dövlət Teleqraf Agentliyi bu təşkilata üzv qəbul olundu. Agentliyimizin EANA-ya üzv olmasının lehinə səs verənlər arasında AzərTAc-ı dəstəkləyən, onun fəaliyyətini bəyənən, məsələnin müsbət həllinə hərtərəfli kömək göstərən cənab Çamara da var idi. Bizim geniş imkanlarımıza inanıb səs verənlərin hamısına təşəkkürümüzü bildiririk.

Ukrinformun və onun dostlarının bu şad günündə sizə yaradıcılıq uğurları, Vətənin rifahı naminə səmərəli fəaliyyət, Ukraynanın tarixində parlaq səhifələr arzulayıram!

Bir daha Ukrinformun əməkdaşlarını şanlı yubiley münasibətilə təbrik edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Kiyev, 14 may 2008-ci il.

Türkdilli agentliklərin Bakı görüşü

(Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclasında çıxış)

– Əziz dostlar!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi Baş Məclisinin VII iclasının bütün iştirakçılarını ürəkdən salamlayır, Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivi adından və öz adımdan hamınıza "Xoş gəlmisiniz!" deyirəm.

Baş Məclisin Bakıda ilk dəfə keçirilən toplantısı ölkəmiz, xalqımız üçün çox əlamətdar olan hadisəyə təsadüf edir. Yaxın günlərdə, mayın 10-da müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, görkəmli siyasi və dövlət xadimi, türk dünyasının dahi şəxsiyyətlərindən biri Heydər Əliyevin anadan olmasının 85 illiyi tamam olur. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi sayılan bugünkü Azərbaycan Respublikası müstəqilliyinin qorunub saxlanmasına, bütün çətinlikləri və maneələri dəf edərək dinamik inkişaf yoluna çıxmasına, dünya birliyində layiqli yerini tutmasına və ümumiyyətlə, bugünkü bütün uğurlarına görə, ilk növbədə, xalqımızın dahi oğlu Heydər Əliyevə borcludur. Məhz buna görə də biz mübaliğəsiz deyirik ki, bugünkü müstəqil Azərbaycan ulu öndərimizin şah əsəridir.

88 il əvvəl, 1920-ci ilin mart ayında yaradılmış Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc da Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. Lakin həmin il aprelin axırlarında respublika süqut etmiş, AzərTAc isə sonralar yetmiş il Sovet İttifaqı Teleqraf Agentliyinin – SİTA-nın Azərbaycan filialı kimi fəaliyyət göstərmişdir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra AzərTAc-ın ilkin statusu da bərpa edilmişdir. AzərTAc-ın bugünkü səviyyəyə gəlib çatması, dünya informasiya məkanına çıxması da bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

O, hələ 1970-80-ci illərdə respublikaya rəhbərliyinin birinci dövründə və sonralar, 1993-cü ildən müstəqil Azərbaycanın prezidenti olduğu illərdə AzərTAc-ın maddi-texniki bazasının möhkəmləndirilməsi, əməkdaşların sosial vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük işlər görmüşdür.

Xatırladım ki, Prezident kimi, Heydər Əliyev AzərTAc-la bağlı yeddi fərman və sərəncam imzalamışdır. AzərTAc-a bu qayğı və diqqət hazırda Prezident İlham Əliyev tərəfindən də göstərilir.

AzərTAc öz fəaliyyətinin əsas istiqamətini dünya informasiya məkanına inteqrasiya etməkdə, Azərbaycan haqqında obyektiv informasiyanın geniş yayılmasında görür və bu baxımdan artıq müəyyən uğurlar qazanmışdır. Rusiyanın İTAR-TASS, Türkiyənin Anadolu Agentliyi, Çinin Sinxua, Ukraynanın Ukrinform, İtaliyanın ANSA, Bolqarıstanın BTA, Misirin MENA, Serbiyanın TANYUQ, Macarıstanın MTİ, İranın İRNA, Rumıniyanın Rompress, Belarusun BELTA, Albaniyanın ATA, İordaniyanın Petra, İndoneziyanın Antara agentlikləri ilə qarşılıqlı əməkdaşlıq haqqında sənədlər imzalanmışdır. AzərTAc Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi ilə yanaşı, bir sıra digər regional informasiya qurumlarının – Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv Ölkələrin İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA), MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) üzvüdür.

Bizim üçün ən əlamətdar hadisələrdən biri bu yaxınlarda, aprelin 18-də Avropa Xəbər Agentlikləri Alyansı (EANA) Baş Assambleyasının Estoniyanın paytaxtı Tallinndə keçirilmiş iclasında AzərTAc-ın bu mötəbər quruma üzv qəbul edilməsidir. EANA-nın 30 üzvündən 29-nun təmsil olunduğu bu iclasda 26 agentlik AzərTAc-ın təşkilata qəbul edilməsinə səs vermişdir. Beləliklə, AzərTAc postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü agentlik, təşkilatın isə sayca 31-ci üzvü olmuşdur. Mən fürsətdən istifadə edərək, bu məsələdə AzərTAc-a çox fəal kömək edən Anadolu Ajansının rəhbəri, əziz dostum və qardaşım Hilmi Bengiyə, habelə müzakirələrdə bizi dəstəkləyən digər agentliklərin rəhbərlərinə dərin minnətdarlığımı bildirirəm.

AzərTAc sutkalıq iş rejimində Azərbaycan, ingilis, rus və alman dillərində informasiya buraxır. Gələcəkdə başqa dillərdə də xəbərlərin yayılmasını planlaşdırırıq.

2007-ci ilin dekabrında İndoneziyanın paytaxtı Cakartada OANA Baş Assambleyasının 13-cü iclasında AzərTAc bu təşkilatın İcraiyyə Komitəsinin 6 büro üzvündən biri seçilmişdir. Eyni zamanda, həmin iclasda OANA

İcraiyyə Komitəsinin növbəti iclasının bu il avqustun axırı - sentyabrın əvvəlində Bakıda keçirilməsi qərara alınmışdır. Biz bunları dünya informasiya məkanında AzərTAc-ın artan nüfuzunun təsdiqi kimi qiymətləndirir və agentliyimizin bu məsələlərdə dəstəklənməsinə görə həmkarlarımıza minnətdarlığımızı bildiririk.

Hörmətli həmkarlar!

Türkdilli xalqların qədim və zəngin mədəniyyəti var və onlar bəşər sivilizasiyasına çox böyük töhfələr vermişlər. Lakin tarixin müəyyən dönəmlərində xalqlarımız böyük faciələrlə də qarşılaşmış, onların bir çoxu milli dövlətçiliyini itirərək, əsrlər boyu başqa imperiyaların tərkibində yaşamağa məcbur olmuşdur. Sovet İttifaqı dağılana qədər türk dünyasında yalnız bir müstəqil dövlət – Türkiyə Respublikası var idi. SSRİ-nin süqutundan sonra isə daha beş müstəqil türkdilli dövlət yaranmışdır. Bu, ortaq tarixi, mədəniyyəti, dili, oxşar adət-ənənələri olan xalqlarımız, ölkələrimiz arasında əlaqələrin, əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi üçün çox böyük bir fürsət, imkandır. Bir-birimizi daha yaxından tanımaq, ən başlıcası isə özümüzü dünyaya geniş tanıtmaq, ölkələrimiz haqqında həqiqətləri yaymaq üçün bu imkandan istifadə etməliyik.

Bunun isə yolu yenə də bizim birliyimizdən, sıx əməkdaşlığımızdan keçir. Bu baxımdan türk dövlətləri və cəmiyyətlərinin qurultaylarının böyük əhəmiyyətini vurğulamaq istərdim. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildən bəri müntəzəm keçirilən bu qurultaylar, həqiqətən, türk dünyasının birləşməsi baxımından mühüm hadisədir. Bu birlik istəyi isə heç kimə qarşı yönəlməyibdir. Tarix də təsdiq edir ki, türkdilli xalqlar bütün dövrlərdə dini və etnik dözümlülüyü, əməkdaşlığa açıqlığı ilə fərqlənmiş, daha doğrusu, nümunə olmuşlar. Bu gün də belədir. İndi biz birlikdən danışanda qonşularımız da, dünya da bunu müasir qloballaşma dövrünün tələblərindən irəli gələn, xalqlarımızın və ölkələrimizin tərəqqisinə, firavanlığına yönəldilmiş əməkdaşlıq səyləri kimi başa düşməlidir. Bu isə öz növbəsində, bizim yerləşdiyimiz coğrafiyadakı digər ölkələrlə də əlaqələrin, yəni geniş məkanda regional əməkdaşlığın inkişafını nəzərdə tutur.

2007-ci ilin martında Bakıda Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu keçirilmiş, bu, diaspor təşkilatlarımızın birləşməsi işində mühüm rol oynamışdır. Hazırda, demək olar, bütün ölkələrdə

Azərbaycan və türk diaspor təşkilatları birgə fəaliyyət göstərir, bizim əleyhimizə yönəldilən tədbirlərin qarşısını almaqda birlikdə çıxış edir, ölkələrimizin milli maraqlarını müdafiə edirlər.

Ermənistan 15 ildən çoxdur ki, Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. Yüz ilə yaxındır ki, onlar qondarma "soyqırımı" haqqında Türkiyəyə qarşı ittihamlar irəli sürürlər. Prezident İlham Əliyevin dediyi kimi, "Xocalı soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda onların yalan təbliğatı uğur gətirir. Bir çox hallarda xarici ölkələrin ermənilər tərəfindən pulla, rüşvətlə ələ alınmış siyasətçiləri onların səsinə səs verirlər. Erməni lobbisi və Ermənistan bütün ölkələrin parlamentlərində qondarma "soyqırımı"nı tanıtdırmaq istəyir. Bu, böyük erməni yalanıdır, böyük erməni təxribatıdır. Ermənilər həmişə türklərə, azərbaycanlılara qarşı soyqırımı siyasəti aparmışlar. Keçmiş tarixdə də belə olub, yaxın tarixdə də. Ancaq əfsuslar olsun ki, dünya birliyi bunu ya görmür, ya da görmək istəmir, ermənilərin, erməni lobbisinin və dünya ermənilərinin uydurma "faktları" əsasında qərar qəbul edirlər".

Erməni təbliğatının saxtakarlığı bizə yaxşı məlumdur, bu barədə danışıb vaxtınızı almayacağam. Lakin son vaxtlara aid bircə faktı xatırlatmaq istəyirəm. ABŞ ermənilərindən biri orada rus dilində çıxan qəzetdə 1915-ci il qondarma "erməni soyqırımı" haqqında məqalə dərc etdirmiş və amerikalı oxucuları daha da təsirləndirmək üçün fotoşəkil də vermişdi. Halbuki bu, 1992-ci ilin fevralında Xocalıda qətlə yetirilmiş azərbaycanlıların şəkli idi. AzərTAc-ın və ABŞ-dakı diplomatlarımızın etirazlarından sonra həmin qəzet bununla bağlı təkzib verməyə məcbur olmuşdur.

Hesab edirəm ki, ermənilərin Türkiyəyə, Azərbaycana qarşı riyakar təbliğatının ifşası dost və qardaş ölkələrimizin informasiya orqanlarının da diqqətindən kənarda qalmamalıdır. Biz əks-təbliğat xatirinə yox, sadəcə, ədalət naminə, tarixi həqiqətlərin xalqlarımıza və dünyaya olduğu kimi çatdırılması üçün birgə səylər göstərməliyik.

Müasir dünyada ikili standartlarla yanaşmaları islam dininə münasibətdə də görürük. Bunun müxtəlif səbəbləri var və onların arasında hazırda planetimizdə müsəlmanların sayının daha sürətlə artması, habelə xüsusilə Avropada islam dinini qəbul edən insanların çoxalması, zənnimizcə, heç də sonuncu yerdə deyildir. Ötən ilin aprelində Bakıda "Dözümlülüyün və

qarşılıqlı anlaşmanın inkişafında KİV-lərin rolu" mövzusunda böyük bir beynəlxalq konfrans keçirilmişdi. Yeri gəlmişkən deyim ki, konfransda türk dünyasının görkəmli ədibi, Azərbaycan xalqının böyük dostu Oljas Süleymenov da iştirak edirdi. Konfransda çoxlu maraqlı çıxışlar olmuş, səmərəli fikir mübadiləsi aparılmışdı. İştirakçılardan biri çıxışında son altı il ərzində yaşadığı ABŞ-da müşahidə etdiyi bir məqamı vurğulamışdır. O demişdir ki, bu ölkədə hansısa müsəlman cinayət törədirsə, KİV-lər onu "müsəlman cinayətkar" kimi təqdim edir. Ancaq "xristian cinayətkar" ifadəsinə rast gəlməzsən. Zənnimcə, bunun əlavə şərhə ehtiyacı yoxdur.

İslam dini xalqlarımızı birləşdirən mənəvi dəyərlər arasında çox mühüm yer tutur və ona görə də biz müqəddəs dinimizə qarşı əsassız ittihamlara, hücumlara, xüsusilə onun terrorizmlə, ekstremizmlə eyniləşdirilməsinə laqeyd qalmamalıyıq.

Hörmətli həmkarlar!

Son illər tez-tez belə bir fikir səslənir ki, XXI yüzillik türk əsri olacaqdır. Bu fikrin, hamımızın ürəyindən keçən bu istəyin gerçəkliyə çevrilməsi, türkdilli dövlətlərin qloballaşan dünyada özlərinin layiqli yerini tutması, beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi üçün ölkələrimiz və xalqlarımız arasında əlaqələrin, işbirliyinin möhkəmlənməsi günümüzün tələbidir. Bu baxımdan Azərbaycanın Türkiyə ilə əlaqələrini misal çəkə bilərik. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bu əlaqələr indi ən yüksək səviyyəyə çatmışdır. Prezident İlham Əliyevin dediyi kimi, qarşılıqlı maraq, dərin tarixi köklər əsasında qurulmuş bu qardaşlıq münasibətləri artıq beynəlxalq siyasətin amilinə çevrilmişdir. Azərbaycan-Türkiyə birliyinin türk dünyası üçün, həm də dünyada gedən proseslər üçün çox böyük əhəmiyyəti var.

Belə yaxın dostluq və qardaşlıq əlaqələrinin bütün türkdilli xalqlar və ölkələr arasında olması vacibdir və buna nail olmaq mümkündür. Bu baxımdan bizim təmsil etdiyimiz xəbər agentlikləri də çox iş görə bilər.

Ölkələrimizdə yaşlı və orta nəslin nümayəndələrinin xalqlarımızın tarixi, mədəniyyəti, ədəbiyyatı haqqında müəyyən qədər məlumatı vardır. Ancaq bunu indiki gənc nəsil haqqında deyə bilmərik. Halbuki, ulu öndər Heydər Əliyevin dəfələrlə vurğuladığı kimi, ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində

əlaqələrin təsiri çox böyükdür. Bunsuz, ötən dövrlərdə mədəniyyətlərimiz, ədəbiyyatlarımız arasında yaranmış əlaqələrin qırılması qorxusu var. Belə əlaqələrin yerini isə heç bir, hətta yüksək səviyyədə iqtisadi əlaqələr, əməkdaşlıq da doldura bilməz. Əksinə, mədəni, humanitar əlaqələrin genişlənməsi iqtisadi əməkdaşlığın inkişafına təkan verə bilər.

Eyni zamanda, deyə bilərik ki, dövlətlərimizin və xalqlarımızın bugünkü həyatı, ölkələrimizdə gedən proseslər haqqında yetərincə məlumatın əldə edilməsi baxımından da problemlər vardır. Belə məlumatı isə indiki dövrdə yalnız KİV-lər vasitəsilə almaq mümkündür. Digər tərəfdən, bu məlumatların dəqiq, obyektiv olması üçün onların, ilk növbədə, bilavasitə bizim xəbər agentliklərindən alınması vacibdir. Bundan ötrü isə agentliklərimiz arasında ikitərəfli əməkdaşlıq əlaqələri qurmaqla xəbər mübadiləsinin təşkili çox əhəmiyyətlidir. AzərTAc ilə Anadolu Agentliyi arasında belə əməkdaşlıq var. Lakin çox istərdik ki, bu gün burada təmsil edilən digər agentliklərlə də bu cür əlaqələrimiz olsun. Biz hesab edirik ki, informasiya agentlikləri xalqlarımız, ölkələrimiz arasında tarixən yaranmış əlaqələrin bugünkü reallıqlar şəraitində daha da inkişafına, xalqlarımızın bir-birinə daha da yaxın olmasına öz töhfəsini verə bilər və verməlidir. Məsələn, agentliklərimiz müntəzəm olaraq, deyək ki, ildə iki dəfə öz ölkəsinin, respublikasının həyatına dair geniş, illüstrasiyalı material hazırlaya və bir-birinə göndərə bilər. Həmin materialları öz saytlarımızda yerləşdirməklə yanaşı, yerli mətbuatda da dərc etdirə bilərik. Eyni zamanda, təcrübə mübadiləsi üçün müvafiq razılaşma əsasında əməkdaşlarımızın qarşılıqlı səfərləri də faydalı olardı. AzərTAc olaraq biz həmkarlarımızı qəbul etməyə hazırıq.

Əziz dostlar!

Bildiyiniz kimi, bu il həm də qırğız xalqının, bütün türk dünyasının böyük oğlu, dünya şöhrətli yazıçı Çingiz Aytmatovun 80 illik yubileyi qeyd edilir. Qırğızıstan Prezidentinin sərəncamı ilə 2008-ci il Çingiz Aytmatov İli elan edilmişdir. Bizim üçün çox fəxrdir ki, xalqımızın böyük dostunun yubileyi ilə bağlı silsilə tədbirlər məhz Azərbaycandan başlanmışdır. O, özü bu ilin fevralında ölkəmizdə keçirilən həmin tədbirlərdə iştirak etmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev görkəmli yazıçı ilə görüşmüş və respublikamızda yeni təsis olunmuş yüksək dövlət mükafatı – "Dostluq" ordeni ilə ilk dəfə Çingiz Aytmatovu təltif etmişdir.

Mən çıxışımı ulu öndər Heydər Əliyevin türkdilli ölkələrin dövlət başçılarının 1995-ci ilin avqustunda Bişkekdə keçirilmiş III Zirvə görüşündəki nitqindən bu sözlərlə tamamlamaq istəyirəm:

"Xalqlarımız min illər boyu sıx əməkdaşlıq etmiş, qarşılıqlı fəaliyyət göstərmiş, bir-birini zənginləşdirmişlər. Yeni dövrdə, yeni şəraitdə bu əməkdaşlığın dirçəldilməsi hamımız üçün böyük əhəmiyyət kəsb edir. Bu köklər, bu əsaslar xalqlarımızın ən müqəddəs arzularının çiçəklənməsinə geniş imkanlar açır, onların sülhə, tərəqqiyə doğru inamla getməsinə gözəl şərait yaradır".

Türk dünyasının dahi oğlunun bu fikirləri ilə razılaşmamaq olmaz. Həqiqətən də, biz bir-birimizə gərəyik və xalqlarımızın, ölkələrimizin daha da yaxınlaşması üçün birlikdə olmalıyıq. Əminəm ki, toplantımızda iştirak edən həmkarlarımız da bu barədə fikirlərini bölüşəcək və biz yekunda müəyyən tövsiyələr hazırlaya biləcəyik.

Sizin hamınızı gözəl Bakımızda bir daha ürəkdən salamlayır, toplantımıza uğurlar diləyirəm. Sağ olun.

Bakı, 30 aprel 2008-ci il.

Türkdilli agentliklərin Bakı görüşü.
Bakı, "Şərq-Qərb" 2009-cu il.

AzərTAc OANA-nın fəal üzvüdür

(OANA-nın XIII Baş Assambleyasında çıxış)

– Hörmətli cənab sədr!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

Əvvələn, OANA-nın 13-cü Baş Məclisinin və İdarə heyətinin 29-cu toplantısının bütün iştirakçılarını salamlamaq və Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivi adından və öz adımdan uğurlar arzulamaq istərdim.

İcazə verin, bu mötəbər tədbirlərə dəvətə görə OANA-nın prezidenti cənab Datuk Azman Ujanqa, İdarə heyətinin hörmətli üzvlərinə, bizlərə çox böyük qonaqpərvərlik göstərən Antara agentliyinin baş direktoru cənab Asro Kamal Rokana səmimi təşəkkürümü bildirim.

Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc 1920-ci ilin mart ayında, müsəlman Şərqində ilk demokratik respublika olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmışdır. Lakin həmin il aprelin axırlarında respublika süqut etmiş, AzərTAc isə sonralar yetmiş il Sovet İttifaqı Teleqraf Agentliyinin – SİTA-nın Azərbaycan filialı kimi fəaliyyət göstərmişdir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra AzərTAc-ın ilkin statusu da bərpa edilmişdir.

Azərbaycan Respublikasında söz və mətbuat azadlığı Konstitusiyada təsbit olunmuşdur. Ölkədə senzura tamamilə ləğv edilmişdir. İndi respublikamızda çıxan qəzet və jurnalların, fəaliyyət göstərən televiziya və radio kanallarının, informasiya agentliklərinin böyük əksəriyyəti özəl və müstəqildir.

Azərbaycanda söz və mətbuat azadlığının təmin edilməsində mərhum Prezidentimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Buna görə də təsadüfi deyil ki, Prezident Heydər Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdü. Respublikanın indiki Prezidenti İlham Əliyev təməli ulu öndərimiz tərəfindən qoyulmuş ənənələri uğurla və ardıcıllıqla davam etdirir. AzərTAc öz fəaliyyətinin əsas istiqamətini dünya informasiya məkanına inteqrasiya etməkdə, Azərbaycan haqqında obyektiv informasiyanın geniş yayılmasında görür. Ümidvarıq ki, dünyanın aparıcı informasiya agentliklərinin zəngin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi bizim

gələcək işlərimizdə çox faydalı olacaqdır. Bu baxımdan, biz artıq müəyyən uğurlar qazanmışıq: Rusiyanın İTAR-TASS, Türkiyənin Anadolu Agentliyi, Çinin Sinxua, Ukraynanın Ukrinform, İtaliyanın ANSA, Bolqarıstanın BTA, Misirin MENA, Serbiyanın TANYUQ, Macarıstanın MTİ, İranın İRNA, Rumıniyanın Rompress, Belarusun BELTA, Albaniyanın ATA, İordaniyanın Petra agentlikləri ilə qarşılıqlı əməkdaşlıq haqqında ikitərəfli sazişlər bağlamışıq. AzərTAc bir sıra regional informasiya qurumlarının, o cümlədən Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA), MDB-nin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) üzvüdür. Lakin biz AzərTAc-ın 2004-cü ilin sentyabrında OANA-ya üzv qəbul olunmasını agentliyimizin həyatında xüsusilə mühüm hadisə kimi qiymətləndiririk. Bu, AzərTAc-ın dünya informasiya məkanına daha geniş çıxa bilməsi, Azərbaycan haqqında xəbərlərin yayılması coğrafiyasının genişlənməsi baxımından çox əhəmiyyətlidir.

O vaxdan OANA ilə ən fəal əməkdaşlıq edən agentliklər sırasında AzərTAc-ın da adının çəkilməsi bizim üçün xüsusilə sevindirici haldır.

Hazırda Moskvada, Ankarada, Vaşinqtonda, Parisdə, Berlində, Vyanada, Kiyevdə, Tehranda, Tbilisidə, Orta Asiyada AzərTAc-ın müxbir məntəqələri fəaliyyət göstərir. Eyni zamanda, bir sıra başqa ölkələrdə və regionlarda xüsusi müxbirlərimizin akkreditə edilməsi imkanları nəzərdən keçirilir.

AzərTAc sutkalıq iş rejimində Azərbaycan, rus və ingilis dillərində informasiya buraxır. Gələcəkdə agentliyin linqvistik imkanlarının genişləndirilməsini planlaşdırırıq.

2008-ci il aprelin axırları – mayın əvvəllərində Bakıda Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi Baş Assambleyasının növbəti iclası keçiriləcəkdir. Həmin iclasda bu Birlikdə sədrlik funksiyası AzərTAc-a keçəcəkdir.

Dünya İnformasiya Agentlikləri Şurasının Soçidə keçirilmiş üçüncü iclası zamanı həmkarlarımızdan bir çoxu bizə OANA İcraiyyə Komitəsinin növbəti iclasının 2008-ci ildə Bakıda keçirilməsi barədə müraciət etməyi təklif etmişdir.

Respublikamızın rəhbərliyi bu ideyanı dəstəkləyir və biz müvafiq məktubla OANA-nın prezidentinə müraciət etmişik. Biz beynəlxalq və digər regional informasiya strukturlarının, habelə dünyanın aparıcı

agentliklərinin rəhbərləri də dəvət edilməklə, həmin tədbiri gələn il avqustun axırları – sentyabrın əvvəllərində keçirə bilərdik. Fürsətdən istifadə edərək, hörmətli Baş Assambleyadan bu təklifin dəstəklənməsini bir daha xahiş edirik. Biz hesab edirik ki, iclasın Bakıda keçirilməsi OANA İcraiyyə Komitəsi üzvlərinin, habelə digər qonaqların gənc müstəqil dövlət olan Azərbaycanın bugünkü həyatı, uğurları ilə bilavasitə tanışlıq üçün də yaxşı fürsət olardı.

Hörmətli həmkarlar, fürsətdən istifadə edib daha bir məsələyə toxunmaq istərdim.

Jurnalistə yüksək peşəkarlıqla yanaşı, obyektivlik və qərəzsizlik kimi keyfiyyətlər də xas olmalıdır. Əks halda, onun materialları nəinki ayrı-ayrı şəxsiyyətlər, hadisələr barədə, hətta dövlətlər, bütövlükdə xalqlar barədə yanlış, mənfi təsəvvür yaradır. Azərbaycan müəyyən dairələrin fikirlərini əks etdirən bəzi nəşrlərin məsələyə bu cür münasibəti ilə indi də qarşılaşır. Mənim fikrimcə, bu gün, dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun, Şərq ilə Qərb arasında dialoqun həmişəkindən daha aktual olduğu bir vaxtda bu cür yanaşmalar mədəniyyətlər və xalqlar arasında qarşılıqlı anlaşmaya nail olmağa əsla kömək etmir.

Biz insanlara saysız-hesabsız müsibətlər və fəlakətlər gətirən separatizmin, təcavüzün, terrorizmin, milli və dini dözümsüzlüyün bütün təzahürlərini qətiyyətlə pisləyir və tam məsuliyyətlə deyirik ki, hansı şüarlarla pərdələnməsindən asılı olmayaraq, bu bəd əməlləri törədənlər bütövlükdə bəşəriyyətin düşmənləridir.

Yeri gəlmişkən xatırladım ki, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının noyabrın 1-2-də Moskvada keçirilmiş növbəti iclasında AzərTAc-ın təklifi ilə bu məzmunda müraciət qəbul olunmuşdur.

Mən baş məclisin iştirakçılarına bir daha səmərəli iş, onların gələcək fəaliyyətlərində uğurlar və firavanlıq arzu edirəm.

Diqqətinizə görə sağ olun.

Cakarta, 11 dekabr 2007-ci il.

Dünya Xəbər Agentliklərinin ikinci konqresində çıxış

– Hörmətli cənab sədr!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

Əvvələn, Dünya İnformasiya Agentliklərinin ikinci qurultayının bütün iştirakçılarını salamlamaq və bu forumun işinə uğurlar arzulamaq istərdim.

İcazə verin, qurultaya dəvətə görə Dünya İnformasiya Agentlikləri Şurasının Baş katibi cənab Uffe Riis Sorensenə, İTAR-TASS agentliyinin baş direktoru, köhnə dostum cənab Vitali İqnatenkoya, EFE agentliyinin icraçı direktoru cənab Aleks Qrijelmoya, "Jurnalistika şəhəri Estepona" beynəlxalq proqramının baş direktoru cənab Rafael de Lomaya, Estepona şəhərinin meri cənab Antonio Barrientosa səmimi təşəkkürümü bildirim. Bu nüfuzlu forumda iştirak etməyi özüm üçün böyük şərəf sayıram.

AzərTAc öz fəaliyyətinin əsas istiqamətini dünya informasiya məkanına inteqrasiya etməkdə, Azərbaycan haqqında obyektiv informasiyanın geniş yayılmasında görür. Ümidvarıq ki, dünyanın aparıcı informasiya agentliklərinin zəngin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi bizim gələcək işlərimizdə çox faydalı olacaqdır. Bu baxımdan, biz artıq müəyyən uğurlar qazanmışıq: İTAR-TASS, Anadolu Agentliyi, Sinxua, Ukrinform, ANSA, BTA, MENA, TANYUQ, MTI, İRNA, Rompress, BELTA, ATA agentlikləri ilə qarşılıqlı əməkdaşlıq haqqında ikitərəfli sazişlər bağlamışıq. AzərTAc bir sıra regional informasiya strukturlarının, o cümlədən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agenlikləri Təşkilatının (OANA), Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin İnformasiya Agentlikləri Assosiasiyasının (PANİA), MDB üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) üzvüdür. Moskvada, Ankarada, Vaşinqtonda, Parisdə, Berlində, Vyanada, Kiyevdə, Tehranda, Tbilisidə, Orta Asiyada AzərTAc-ın müxbir məntəqələri fəaliyyət göstərir. Hazırda bir sıra başqa ölkələrdə də xüsusi müxbirlərimizin akkreditə edilməsi imkanları nəzərdən keçirilir.

2008-ci il aprelin axırları – mayın əvvəllərində Bakıda Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi Baş Assambleyasının növbəti iclası keçiriləcəkdir.

Həmin iclasda bu Birlikdə sədrlik funksiyası AzərTAc-a keçəcəkdir. Dünya İnformasiya Agentlikləri Şurasının Soçidə keçirilmiş üçüncü iclasında OANA-nın İcraiyyə Komitəsinin növbəti iclasını 2008-ci ildə Bakıda keçirmək barədə təklif olunmuşdur. Respublikamızın rəhbərliyi bu ideyanı dəstəkləyir və biz müvafiq məktubla OANA-nın prezidentinə müraciət etmişik. Biz beynəlxalq və digər regional informasiya strukturlarının, habelə dünyanın aparıcı agentliklərinin rəhbərlərinin dəvət edilməsi nəzərdə tutulan həmin tədbiri gələn il avqustun axırları – sentyabrın əvvəllərində keçirməyi nəzərdə tutmuşuq.

Hörmətli həmkarlar,

Əminəm ki, konqresimiz aktual məsələlərin müzakirəsi şəraitində keçəcək, bizi düşündürən problemlərin həlli yollarının tapılması baxımından faydalı olacaqdır.

Mən konqres iştirakçılarına bir daha səmərəli iş, onların gələcək fəaliyyətlərində uğurlar və firavanlıq arzu edirəm.

Diqqətinizə görə sağ olun.

Estepona, 26 oktyabr 2007-ci il.

Bütün türk xalqları üçün əlamətdar hadisə

(Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VI iclasında çıxış)

– Hörmətli məclis iştirakçıları,

Hörmətli xanımlar və cənablar,

Əziz dostum və qardaşım Hilmi bəy!

Bu gün sizinlə bir yerdə olmaqdan, belə mötəbər məclisdə iştirak etməkdən sonsuz sevinc və iftixar hissi keçirirəm.

Biz bu gün hamımız üçün əlamətdar olan bir hadisə – türk dilinin dövlət dili elan edilməsinin 730 illiyi münasibətilə bir araya gəlmişik. Bu, təkcə Türkiyə üçün deyil, bütün qardaş türk xalqları üçün olduqca əlamətdar hadisədir.

İcazə verin, bu möhtəşəm yubiley münasibətilə hamınızı təbrik edim, məclisimizin işinə uğurlar arzulayım. Hörmətli həmkarlar, dəyərli məclis iştirakçıları, qardaş Türkiyə torpağında, bu gözəl şəhərdə yeni minilliyin, XXI yüzilliyin 7-ci ilində görüşürük. Qloballaşan, sürətlə inteqrasiya edən dünyada bütün milli dəyərlərimizi, milli sərvətimiz, varlığımızın təyinedicisi olan dilimizi qorumaq, inkişaf etdirmək, zənginləşdirmək qarşımızda duran çox vacib vəzifədir. Bu mühüm işdə informasiya agentliklərinin, bu qurumlarda çalışan jurnalistlərin üzərinə çox böyük məsuliyyət düşür.

Tarix boyu türk xalqlarına qarşı çox ədalətsizliklər olmuşdur. Xalqlarımız tarixin çətin sınaqlarından çıxmışdır. Nə qədər məhrumiyyətlər, çətinliklər, basqılar olsa da, yadelli işğalçılar sərvətlərimizi talasalar da, dilimizi qorumuş, zənginləşdirmiş, inkişaf etdirmişik. Bu işdə qələm əhlinin – yazıçıların, şairlərin, jurnalistlərin xüsusi xidmətləri olmuşdur. Biz ata və babalarımızın ənənələrini layiqincə davam etdirməliyik. Bu bizim mənəvi borcumuz, vətəndaşlıq vəzifəmizdir.

Əminəm ki, bugünkü məclisimizdə səmərəli müzakirələr aparacaq, məqsədlərimizə çatmaq üçün yollar müəyyənləşdirəcək, faydalı fikir mübadiləsi edəcəyik.

Hörmətli həmkarlar,

Bu gün buraya bəşər mədəniyyətinə misilsiz töhfələr vermiş, neçə-neçə dühalar yetirmiş böyük türk dünyasının təmsilçiləri toplaşmışlar. Türk xalqları

tarix boyu geniş ərazilərdə – uzaq Altaydan, Sibirdən Avropaya qədər böyük bir məkanda yaşamış, neçə-neçə qüdrətli dövlət qurmuşlar. Həmin dövlətlərdə ən müxtəlif xalqlar yaşasa da, bizim əcdadlarımız onların heç birinə qarşı heç vaxt, indiki anlamda desək, milli, etnik ayrı-seçkilik etməmişdir.

Ancaq zaman xalqlarımızı ağır sınaqlara da çəkmişdir. Bizim indiki toplantımıza ev sahibliyi edən qardaş Türkiyədən savayı, tarixin uzun bir dövründə, yəni XIX-XX əsrlərdə xalqlarımızın öz dövləti olmamış, biz iki yüz ilə yaxın bir müddətdə müstəqillik arzusu ilə yaşamışıq. Bununla belə, çox şükürlər olsun ki, xalqlarımız bu müddətdə dillərini, adət və ənənələrini, qədim və zəngin mədəniyyətlərini nəinki qoruyub saxlamış, hətta yetərincə inkişaf etdirmişlər.

Bu baxımdan xəbər agentlikləri kimi bizim də üzərimizə çox böyük vəzifə düşür. Doğrudur, alimlərimizin apardıqları araşdırmalar sayəsində biz xalqlarımızın, ölkələrimizin tarixi, mədəniyyəti, ədəbiyyatı və s. haqqında yetərincə məlumat əldə edə bilirik. Lakin dövlətlərimizin və xalqlarımızın bugünkü həyatı, ölkələrimizdə gedən proseslər haqqında yalnız qəzet və jurnallar, radio və televiziya vasitəsilə məlumat ala bilirik. Bu xəbərlərin dəqiq, obyektiv olması üçün isə onların birbaşa öz ölkələrimizin kütləvi informasiya vasitələrindən alınması son dərəcə önəmlidir.

Bu il 87 yaşı tamam olmuş Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc ölkənin rəsmi xəbər qurumu olaraq, dünya informasiya məkanına daha geniş çıxmaq üçün ikitərəfli əlaqələrə böyük əhəmiyyət verir. Hazırda biz Anadolu Ajansı, İTAR-TASS, Sinxua, Ukrinform ilə, İtaliyanın (ANSA), Bolqarıstanın (BTA), Belarusun (BELTA), Serbiyanın (TANYUQ), Macarıstanın (MTA), Misirin (MENA), Moldovanın (Moldpress), Rumıniyanın (Rompress) agentlikləri ilə əməkdaşlıq edirik. Səudiyyə Ərəbistanı və Küveytin rəsmi xəbər agentlikləri ilə sazişlər bağlanması barədə danışıqlar gedir.

Amma çox təəssüf ki, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın xəbər agentlikləri ilə belə əlaqələrimiz yoxdur. Ölkələrimizin əməkdaşlığı ilə müqayisədə biz, xəbər agentlikləri kənarda qalmışıq. Ona görə də mən fürsətdən istifadə edərək, Orta Asiyadan olan həmkarlarımı bu məsələ barədə fikirlərini bölüşməyə çağırıram. Əminəm ki, qardaş Türkiyədəki bu görüşümüz agentliklərimizin gələcək birbaşa əlaqələrinin qurulması ilə nəticələnəcəkdir.

Bununla bağlı bir məsələ barədə də həmkarlarımızın fikrini bilmək istərdim. Məlumdur ki, Azərbaycan və qardaş Türkiyənin əhalisinin bir-birini yaxşı anlaması üçün, demək olar ki, dil problemi yoxdur. Ancaq bütövlükdə türkdilli ölkələr arasında bu problem var. Doğrudur, keçmiş Sovet İttifaqına daxil olan respublikalarda yaşayanlar rus dili vasitəsilə bir-biri ilə ünsiyyətdə ola bilirlər. Türkiyə vətəndaşlarının isə belə bir imkanı yoxdur. Ona görə də indiki mərhələ üçün mən təklif edərdim ki, agentliklərimizin gənc əməkdaşlarının uzun müddətə qarşılıqlı ezam olunmasının mümkünlüyü barədə fikir mübadiləsi edək. Ümumi razılıq olarsa, bu məsələnin təşkilati tərəflərini dəqiqləşdirmək mümkündür. Gələcəkdə ölkələrimizin hər birində agentliklərimizin müxbir məntəqələrini açmaq imkanı yarananda, zənnimcə, məsələ özlüyündə həllini tapacaq və dediyim mübadiləyə ehtiyac qalmayacaqdır.

Hörmətli həmkarlar, təbii ki, ölkələrimizin hər birinin özünəməxsus problemləri var. Lakin Azərbaycan və Türkiyə, bəlkə də, yeganə ölkələrdir ki, dünyanın hər yerində onlara qarşı mütəşəkkil, böyük maliyyə imkanlarına malik olan erməni diasporu, erməni lobbisi güclü təbliğat maşını vasitəsilə yalan, böhtan kampaniyası aparır. Ermənistan 15 ildən çoxdur Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. Ermənilər 100 ilə yaxındır ki, qondarma "soyqırımı" haqqında Türkiyəyə qarşı ittihamlar irəli sürürlər. Prezident İlham Əliyevin dediyi kimi, "Xocalı soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda onların yalan təbliğatı uğur gətirir. Bir çox hallarda xarici ölkələrin ermənilər tərəfindən pulla, rüşvətlə ələ alınmış siyasətçiləri onların səsinə səs verirlər". Bu, ədalətsizliyin, mənəviyyatsızlığın zirvəsi, ikili standartların daha bir nümunəsidir. Hesab edirəm ki, riyakar erməni təbliğatının ifşası bizim dost, qardaş ölkələrimizin informasiya orqanlarının da diqqətindən kənarda qalmamalıdır. Yəni biz əks-təbliğat xatirinə yox, sadəcə, tarixi həqiqətlərin xalqlarımıza və dünyaya çatdırılmasında birgə səylər göstərməliyik.

Əziz dostlar, sizin hamınızı bir daha ürəkdən salamlayır, sizə möhkəm cansağlığı, xalqlarımızın və ölkələrimizin dünyaya daha yaxından tanıdılması işində yeni-yeni uğurlar arzulayıram.

Karaman, 12 may 2007-ci il.

Ənənələr yaşayır, zənginləşir...

(Akademik Mehdi Mehdizadə adına Cəbrayıl rayon orta məktəbinin 130 illik yubiley mərasimində çıxış)

– Hörmətli mərasim iştirakçıları!

Əziz müəllimlərim!

Möhtərəm xanımlar və cənablar!

Bu gün Cəbrayıl rayon təhsil işçilərinin – müəllimlərimizin və biz məzunların ən əziz bayramıdır. Bu gün doğma divarları arasından pərvazlanıb müstəqil həyata qədəm qoyduğumuz məktəbimizin 130 illik bayramıdır. Qoca tarixin dili ilə desək, 130 il bir əsr və bir qərinəyə bərabərdir. Bu illər ərzində akademik Mehdi Mehdizadə adına Cəbrayıl rayon orta məktəbini bitirən məzunların sayını hesablamaq bəlkə də mümkün deyildir. Amma bu məktəbi bitirən, Azərbaycanın ictimai-siyasi, elmi-mədəni və ədəbi həyatında mühüm rol oynayan insanların adlarını qürur hissi ilə çəkə bilərik.

Prezidentin İcra Aparatının humanitar siyasət məsələləri şöbəsinin müdiri, hörmətli Fatma xanım Abdullazadə dövlətimizin başçısı möhtərəm cənab İlham Əliyevin akademik Mehdi Mehdizadə adına məktəbin 130 illiyi münasibətilə pedaqoji kollektivə ünvanladığı təbriki oxudu. Cənab Prezidentin qəlbimizi sevinc, qürur və iftixar hissləri ilə coşduran ilhamlı sözləri yaddaşlarımızdan heç zaman silinməyəcəkdir.

Belə bir unudulmaz hadisənin xoş anlarını Cəbrayılın pedaqoji ictimaiyyətinin bu salonda əyləşən ağsaqqal nümayəndələri 30 il bundan əvvəl – 1976-cı ildə də yaşayıblar. Ümummilli liderimiz, dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin imzaladığı qərarla doğma məktəbimizin 100 illik yubileyi həmin il təntənəli surətdə qeyd edilmişdi. İndiki kimi, respublikamızın nüfuzlu ictimai-siyasi, elm, təhsil və mədəniyyət xadimlərinin iştirak etdikləri həmin yubiley mərasimi barədə mətbuatda dərc olunan yazılar gənclik illərinin pozulmaz naxışları kimi hafizəmə həkk olunmuşdur. 100 illik yubileylə əlaqədar unudulmaz müəllimlərimiz – məktəbin direktoru İslam Məmmədov, nüfuzlu pedaqoqlar Rəşid Məmmədov və Əli Əlizadə əməkdar müəllim fəxri adlarına layiq görülmüş, Əminə xanım Ədilova Lenin ordeni ilə mükafatlandırıl-

mışdı. Müəllimlərimizin bir qrupuna isə Ali Sovetin fəxri fərmanları, metodist və baş müəllim adları verilmişdi.

İftixar mənbəyimizə çevrilmiş bu faktları yada salarkən bir tarixi oxşarlığı, ənənələrin yaşadığını təsdiqləyən bir məqamı diqqətə çatdırmağı vacib hesab edirəm:

100 illik yubiley münasibətilə məktəbimizin bir qrup müəllimi ümummilli liderimiz Heydər Əliyevin diqqət və qayğısı sayəsində yüksək dövlət mükafatlarına layiq görülmüşdü.

130 illik yubiley münasibətilə isə Azərbaycan Prezidenti, ulu öndərimizin siyasi xəttinin layiqli davamçısı İlham Əliyevin sərəncamları ilə sevimli müəllimlərimiz – məktəbimizin direktoru Müzəffər Sadıqov "Əməkdar Müəllim" fəxri adına layiq görülmüş, Nailə xanım Babayeva isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Hörmətli Müzəffər müəllim, layiq görüldüyünüz fəxri ada, əziz Nailə xanım, dövləti təltifinizə görə sizi bir daha ürəkdən təbrik edirəm.

Məktəbimizin 130 illik yubileyini əlamətdar bayramlar ərəfəsində qeyd edirik. Cəmi bir həftədən sonra Dünya azərbaycanlılarının həmrəyliyi gününü, müqəddəs Qurban bayramını və Yeni ili qeyd edəcəyik. Mən sizin hamınızı bugünkü təntənə və qarşıdan gələn bayramlar münasibətilə təbrik edir, möhkəm cansağlığı, yeni uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun.

Bakı, 20 dekabr 2006-cı il.

Yeni Azərbaycan Partiyasının mübariz dəstəsi

(YAP Səbail rayon təşkilatının VII konfransında çıxış)

– Hörmətli konfrans iştirakçıları,

Xanımlar və cənablar!

Bu günlərdə biz partiyamızın banisi, müstəqil dövlətimizin memarı və qurucusu, Azərbaycan xalqının dahi oğlu, görkəmli siyasi və dövlət xadimi kimi dünyada şöhrət tapmış ulu öndərimizin nurlu xatirəsini yad etdik. Əslində, bu, ümummilli liderimizin dünyasını dəyişməsinin üçüncü ildönümü ilə bağlı ölkəmizdə keçirilən mərasimlər idi. Çünki bu dahi şəxsiyyət hələ sağlığında Azərbaycan xalqının qəlbində özünə elə bir abidə ucaltmışdır ki, onun xatirəsi daim ürəklərdə yaşayır, onu hər gün dərin minnətdarlıq hissi ilə yad edirik.

Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Onun respublikaya rəhbərliyinin birinci dövründə gördüyü nəhəng işlərlə bugünkü Azərbaycanın dövlət suverenliyinin, iqtisadi müstəqilliyinin, milli dirçəliş, azərbaycançılıq ideologiyasının təməli qoyulmuşdur.

1993-cü ilin yayında, Azərbaycanın "olum, ya ölüm" dilemması qarşısında qaldığı bir vaxtda xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən respublikanın siyasi rəhbərliyinə qayıdışından 13 ildən çox vaxt keçmişdir. Bu qayıdışla Azərbaycan tarixinin Heydər Əliyev dövrünün yeni, daha şərəfli və əzəmətli mərhələsi başlandı. Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslarla, beynəlxalq normalara və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Azərbaycan dövlətçiliyinin varlığına böyük təhlükə olan dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Azərbaycanda silahlı yolla hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyuldu. Bu, müstəqilliyin ilk illərində respublikaya rəhbərlik edənlərin xəyanətkarlığı, bacarıqsızlığı, səriştəsizliyi nəticəsində ağır siyasi, hərbi və iqtisadi böhran girdabına sürüklənmiş ölkənin tədricən dirçəldilməsi və inkişaf yoluna çıxarılması üçün başlıca şərtlərdən biri idi.

Ulu öndərimizin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri

milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf edirdi. Heydər Əliyevin bu sahədə beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıqla və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və gələcəyi baxımından müstəsna rol oynamışdır. Onun fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların Azərbaycana və onun Ermənistan tərəfindən zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişmişdir.

Xalqımızın müdrik oğlunun nəhəng fəaliyyətinin nəticəsi olan bütün bu uğurlarda, Heydər Əliyevin şah əsəri olan bugünkü müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmlənməsində ulu öndərimizin daha bir yadigarı olan Yeni Azərbaycan Partiyasının da öz payı vardır.

Böyük Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycan dövləti indi ulu öndərin siyasi varisi, partiyamızın sədri, respublikamızın Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə özünün inkişafının yeni mərhələsini yaşayır.

Hörmətli konfrans iştirakçıları, AzərTAc-ın sovet dönəmindəki tarixinin ən uğurlu illəri də ulu öndərimizin respublikaya rəhbərliyinin birinci dövrünə təsadüf etmişdir. O vaxtlar Azərinform adlanan agentliyimiz Heydər Əliyevin diqqət və qayğısı sayəsində həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında sayılıb-seçilənlərdən birinə çevrilmişdi. Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompyuterləşdirilmiş üçüncü agentlik Azərinform olmuşdur.

Xalqımızın dahi oğlunun 1993-cü ildə Azərbaycanın siyasi rəhbərliyinə qayıdışından sonra AzərTAc-ın da həyatında yeni mərhələ başlandı. Ulu öndərimizin imzaladığı çoxsaylı fərman və sərəncamlar sayəsində AzərTAc-a dövlət agentliyi statusu verildi, onun maddi-texniki bazası ən müasir avadanlıqla yenişləşdirildi, agentliyin tarixində ilk dəfə olaraq, xarici ölkələrdə müxbir məntəqələri açıldı, işçilərin maddi vəziyyəti yaxşılaşdırıldı.

Artıq dördüncü ildir ki, fasiləsiz rejimdə işləyən agentliyimiz üç dildə – Azərbaycan, ingilis, və rus dillərində xəbərlər yayır. Hər gün 80-dən çox ölkə ilə informasiya mübadiləsi aparılır. AzərTAc onlarca ölkənin informa-

siya agentlikləri, o cümlədən Türkiyənin Anadolu, Rusiyanın İTAR-TASS, Çinin Sinxua, İtaliyanın ANSA, Ukraynanın Ukrinform, Bolqarıstanın BTA, Moldovanın Moldpress, Yunanıstanın ANA, Albaniyanın ATA kimi tanınmış agentlikləri ilə əməkdaşlıq haqqında sazişlər imzalamışdır və bu proses davam edir.

Təkcə son 6 ayda AzərTAc Serbiyanın, Misirin, Səudiyyə Ərəbistanının, Küveytin informasiya agentliklərindən qarşılıqlı əməkdaşlığa dair sazişlər imzalamaq barədə təkliflər almışdır. AzərTAc həm də bir sıra regional informasiya qurumlarının, o cümlədən 33 ölkənin 40 xəbər agentliyini birləşdirən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının – OANA-nın, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin informasiya agentlikləri alyansının – BSANNA-nın, Türkdilli Ölkələrin İnformasiya Agentlikləri Alyansının (TKA) fəal üzvlərindəndir.

Hörmətli konfrans iştirakçıları,

AzərTAc ilk təşkilatı 2002-ci il noyabrın 11-də təsis edilmişdir. Hazırda təşkilatımızın 53 nəfər üzvü var. Onların 50 nəfəri məhz AzərTAc-da partiyaya üzv qəbul edilmişdir. Agentlikdə ən məsul sahələrə rəhbərlik edənlərin əksəriyyəti partiyamızın üzvləridir.

Səbail rayon təşkilatı 14 illik tarixinin 13 ilini iqtidar partiyası kimi fəaliyyət göstərən, ölkəmizin siyasi səhnəsində alternativi olmayan, yaxın gələcəkdə üzvlərinin sayının yarım milyona çatacağına ürəkdən inandığımız Yeni Azərbaycan Partiyasının mübariz dəstələrindən biridir. Agentliyimizin ilk təşkilatı rayon təşkilatı ilə sıx əlaqədə işləyir, ondan dəyərli tövsiyələr alırıq.

Son illər biz Azərbaycanın həyatının bütün sahələrində böyük inkişafın şahidiyik. Ulu öndərimizin ideyalarının layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu və məqsədyönlü siyasəti nəticəsində müstəqil Azərbaycan beynəlxalq aləmdə nüfuzlu, öz sözü, öz mövqeyi olan dövlətə çevrilmişdir. Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada birinci yerdədir və beynəlxalq maliyyə qurumları da bunu birmənalı şəkildə təsdiq edirlər. Böyük qürur hissi ilə deyirik ki, bu gün Azərbaycan regionda lider dövlətdir. Bölgələrin, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilməsi respublikamızın şəhər və rayonlarının simasını sürətlə dəyişdirir. Sosial sahənin inkişafına diqqət, insanların yaşayış səviyyəsinin

yaxşılaşdırılması sahəsində ardıcıl surətdə həyata keçirilən tədbirlər xalqımız tərəfindən böyük razılıqla qarşılanır.

Ulu öndərimizin ideyalarının həyata keçirilməsi, Azərbaycanın qüdrətli, zəngin ölkəyə çevrilməsi yolunda Prezident İlham Əliyevin gördüyü ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, ölkəmiz haqqında həqiqətlərin dünyada daha da geniş yayılması üçün AzərTAc-ın kollektivi bundan sonra da bütün imkanlardan istifadə edəcək, ilk təşkilatımızın üzvləri bütün bu işlərdə ön sırada olacaqlar.

Çıxışımın sonunda YAP Səbail rayon təşkilatının hesabat dövründəki fəaliyyətinin qənaətbəxş qiymətləndirilməsini təklif edirəm.

Diqqətinizə görə sağ olun.

Bakı, 16 dekabr 2006-cı il.

Ulu öndərimizin misilsiz xidmətləri milli tariximizin səhifəsinə qızıl hərflərlə yazılmışdır

(Ümummilli lider Heydər Əliyevin AzərTAc-ın binasında büstünün açılış mərasimində çıxış)

– Hörmətli xanımlar və cənablar!

İcazə verin, agentliyimizin kollektivi üçün son dərəcə əlamətdar olan bu gündə sizin hamınızı ürəkdən salamlayım.

AzərTAc-ın kollektivinin dəvətini qəbul edərək, ulu öndərimiz, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizin tarixində və xalqımızın yaddaşında əbədi yaşayacaq Heydər Əliyevin büstünün açılış mərasimində iştirak etməklə bizə böyük şərəf verdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Xanımlar və cənablar,

Tarixi həqiqətdir ki, ulu öndərimiz Heydər Əliyev respublikaya rəhbərliyinin hər iki dövründə mətbuata həmişə böyük yaradıcılıq sərbəstliyi, demokratik mühitdə işləmək imkanı yaratmış, eyni zamanda, cəmiyyətdə onun ictimai nüfuzunun artmasına, fəaliyyət dairəsinin genişlənməsinə xüsusi diqqət və qayğı göstərmiş, həqiqi mənada azad sözün təminatçısı olmuşdur. Mübaliğəsiz deyə bilərik ki, çağdaş dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünü, onun əhəmiyyətini Heydər Əliyev qədər bilən və yüksək qiymətləndirən ikinci dövlət xadimi, bəlkə də, olmamışdır.

Gələn il 87 yaşını qeyd edəcək AzərTAc-ın sovet dönəmindəki tarixinin ən uğurlu illəri də ulu öndərimizin respublikaya rəhbərliyinin birinci dövrünə təsadüf etmişdir. Məhz o illərdə Azərbaycan mətbuatına da milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği təəssübkeş ziyalıların, o cümlədən jurnalistlərin fəaliyyətində mühüm yer tutmuşdur. O vaxtlar Azərinform adlanan agentliyimiz də Heydər Əliyevin diqqət və qayğısı sayəsində həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında sayılıb-seçilənlərdən birinə çevrilmişdi. Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompyuterləşdirilmiş üçüncü agentlik Azərinform olmuşdur.

Xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra vaxtilə Azərbaycan ətrafında yaranmış informasiya blokadasının yarılmasında ulu öndərimizin misilsiz xidmətləri müasir tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Heydər Əliyev Ermənistanın hərbi təcavüzünə və xaricdəki erməni diasporunun, lobbisinin məkrli antiazərbaycan təbliğatına məruz qalmış ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün bütün imkanlardan istifadə edirdi. Biz fəxr edirik ki, onun bu sahədəki fəaliyyətinə AzərTAc-ın kollektivi də öz işi ilə yardımçı olmağa çalışmışdır.

Ümummilli liderimiz, sözün əsl mənasında, jurnalistlərin dostu idi. O, mətbuat nümayəndələrini həmişə obyektiv, qərəzsiz olmağa, həqiqəti yazmağa, eyni zamanda, nöqsanları açıb göstərməyə çağırırdı. Elə hallar da olurdu ki, müsahibələr zamanı özü cavan jurnalistləri istiqamətləndirir, fikirlərini daha dəqiq ifadə etməyi öyrədir, hansı məsələlərə diqqət yetirmək barədə dəyərli məsləhətlərini verirdi. Məhz buna görə də mətbuat nümayəndələri Heydər Əliyevlə daim ünsiyyətə can atırdılar. Onlar bununla nəinki maraqlandıqları məsələlər barədə informasiya alır, həm də özləri üçün çox mətləbləri öyrənirdilər. Ulu öndərimizin ən müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli nitqləri isə siyasi publisistikanın bənzərsiz nümunələri, təkcə tədqiqatçılardan ötrü deyil, həm də Azərbaycan jurnalistikası üçün əvəzsiz xəzinədir. Bütün bunlara görə qətiyyətlə deyə bilərik ki, Heydər Əliyev bir çox başqa sahələrdə olduğu kimi, jurnalistika sahəsində də böyük bir məktəb yaratmışdır və bugünkü KİV nümayəndələrinin böyük bir dəstəsi həmin məktəbdən peşəkarlıq dərsi almışdır.

Xanımlar və cənablar,

Xalqımızın dahi oğlunun 1993-cü ildə Azərbaycanın siyasi rəhbərliyinə qayıdışından sonra AzərTAc-ın da həyatında yeni mərhələ başlandı. Ulu öndərimizin imzaladığı çoxsaylı fərman və sərəncamlar sayəsində AzərTAc-a dövlət agentliyi statusu verildi, onun maddi-texniki bazası ən müasir avandanlıqla yeniləşdirildi, agentliyin tarixində ilk dəfə olaraq, xarici ölkələrdə AzərTAc-ın müxbir məntəqələri açıldı, işçilərin maddi vəziyyəti yaxşılaşdırıldı.

Ümummilli liderimiz 2000-ci il fevralın 29-da AzərTAc-ın 80 illiyi ilə əlaqədar kollektivimizə təbrik məktubunda müstəqillik illərində agentliyin fəaliyyətində xüsusi dönüş yarandığını vurğulamaqla yanaşı, Azərbaycanın

rəsmi dövlət informasiya qurumu kimi AzərTAc-ın qarşısında duran vəzifələri də konkret şəkildə müəyyənləşdirmişdir: "AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır".

Ötən illərdə kollektivimiz öz işini məhz bu istiqamətdə qurmağa çalışmışdır. Agentliyin xaricdə 9 müxbir məntəqəsi açılmışdır. Artıq dördüncü ildir ki, fasiləsiz rejimdə işləyən agentliyimiz üç dildə – Azərbaycan, ingilis və rus dillərində xəbərlər buraxır. Hər gün 80-dən çox ölkə ilə informasiya mübadiləsi aparılır.

Biz bütün bunlara ümummilli liderimiz Heydər Əliyevin agentliyimizə göstərdiyi böyük diqqət və qayğının sayəsində nail olmuşuq. Məhz buna görə də kollektivimiz ulu öndərə dərin minnətdarlığının əlaməti olaraq, agentliyin binasında onun büstünün ucaldılmasını və daimi fotosərginin təşkil edilməsini qərara almışdır. Fürsətdən istifadə edərək, dəyərli məsləhətləri ilə bizə kömək etmiş görkəmli fırça ustası, xalq rəssamı Tahir Salahova, görkəmli heykəltəraş, xalq rəssamı, Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarova, büstün müəllifi, tanınmış heykəltəraş, Rəssamlıq Akademiyasının prorektoru Fuad Salayevə, fotosərginin tərtibatçısı, rəssam, Rəssamlıq Akademiyasının baş müəllimi Faiq Dadaşova minnətdarlığımızı bildirirəm.

Hörmətli mərasim iştirakçıları,

Son illər biz Azərbaycanın həyatının bütün sahələrində böyük inkişafın şahidiyik. Ulu öndərimizin ideyalarının layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu və məqsədyönlü siyasəti nəticəsində müstəqil Azərbaycan beynəlxalq aləmdə nüfuzlu, öz sözü, öz mövqeyi olan dövlətə çevrilmişdir. Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada birinci yerdədir və beynəlxalq maliyyə qurumları da bunu birmənalı şəkildə təsdiq edirlər. Böyük qürur hissi ilə deyirik ki, bu gün Azərbaycan regionda lider dövlətdir. Bölgələrin, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilməsi respublikamızın şəhər və rayonlarının simasını sürətlə dəyişdirir. Sosial sahənin inkişafına diqqət, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması sahəsində ardıcıl surətdə həyata keçirilən tədbirlər xalqımız tərəfindən böyük razılıqla qarşılanır.

Ulu öndərimizin ideyalarının həyata keçirilməsi, Azərbaycanın qüdrətli, zəngin ölkəyə çevrilməsi yolunda Prezident İlham Əliyevin gördüyü ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, ölkəmiz haqqında həqiqətlərin dünyada daha da geniş yayılması üçün AzərTAc-ın kollektivi bundan sonra da bütün imkanlardan istifadə edəcəkdir. Bu baxımdan AzərTAc-ın yaxın vaxtlarda hazır olacaq yeni, daha mükəmməl internet saytının da böyük rolu olacaqdır.

Xanımlar və cənablar!

Vaxt ayırıb bu mərasimdə iştirak etdiyinizə görə Sizə bir daha minnətdarlığımızı bildiririk.

Diqqətinizə görə çox sağ olun.

Bakı, 9 dekabr 2006-cı il.

AzərTAc yeni regional qurumun təsisçilərindən biridir

(BSANNA-nın üzvü olan Ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının təsis konfransında çıxış)

– Hörmətli konfrans iştirakçıları,

Əziz həmkarlar,

Fürsətdən istifadə edərək, sizin hamınızı salamlayır, bizə göstərilən qonaqpərvərliyə görə ukraynalı həmkarlarımıza və şəxsən Ukrinformun baş direktoru cənab Viktor Fyodoroviç Çamaraya xüsusi minnətdarlığımı bildirirəm. Qara dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin milli informasiya agentlikləri assosiasiyasının yaradılması təşəbbüsü barədə Ukrinformun müraciətini alanda, Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc bunu çox müsbət qarşıladı. Təqdim olunan Nizamnamə layihəsi ilə tanışlıq isə qənaətimizi daha da möhkəmləndirdi.

Çünki hesab edirik ki, informasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi, qloballaşma prosesinin getdikcə gücləndiyi indiki dövrdə dünya informasiya məkanına daha geniş çıxmaq, ölkələrimiz haqqında xəbərlərin operativ yayılmasına nail olmaq üçün informasiya agentlikləri arasında ikitərəfli əlaqələrlə yanaşı, müxtəlif regional qurumlar çərçivəsində əməkdaşlıq da zəruri və faydalıdır. Ona görə də biz Ukrinformun təşəbbüsünü yüksək qiymətləndirir və gələcəkdə Assosiasiyanın səmərəli fəaliyyətinə öz töhfəmizi verməyə çalışacağıq.

Biz Ukrinform tərəfindən təqdim olunan Nizamnamə layihəsi ilə ümumən razıyıq. Hesab edirik ki, layihənin giriş (preambula) hissəsində göstərilən məqsədlər – bərabərhüquqlu və sərbəst informasiya mübadiləsi və informasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsində qarşılıqlı fəaliyyət, öz dövlətlərinin həyatı barədə obyektiv informasiyanın digər ölkələrdə yayılması üçün səylərin birləşdirilməsi ölkələrimizin milli informasiya agentlikləri qarşısında duran vəzifələrə tam uyğundur və şübhəsiz, bunların yerinə yetirilməsi işinə əlavə kömək olacaqdır.

Yəqin ki, informasiya mübadiləsinin qaydaya salınması ilə bağlı texniki və maliyyə məsələlərinin müzakirəsi zamanı faydalı rəy və təkliflər səslənəcək və son nəticədə biz görüşümüzün əsas məqsədinə nail ola biləcəyik. Bir daha hamınızı salamlayır, bugünkü təsis konfransına uğurlar arzulayıram. Sağ olun.

Kiyev, 30 may 2006-cı il.

Azərbaycan-Rusiya münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir

(Azərbaycanda İTAR-TASS günlərinin açılış mərasimində çıxış)

– Hörmətli xanımlar və cənablar!

Hörmətli həmkarlar!

Sizi – Azərbaycanda İTAR-TASS günlərinin iştirakçılarını bir daha ürəkdən salamlayır və müstəqil respublikamızın paytaxtı Bakıya "Xoş gəlmisiniz!" deyirəm.

Fürsətdən istifadə edərək, dünyanın ən böyük və nüfuzlu informasiya agentliklərindən biri olan İTAR-TASS-ın 100 illiyi münasibətilə beynəlxalq informasiya məkanında tanınmış xadim, mənim üçün çox əziz insan olan hörmətli cənab Vitali Nikitiç İqnatenkonu, agentliyin baş direktorunun birinci müavini, əziz həmyerlimiz cənab Mixail Solomonoviç Qusmanı, İTAR-TASS-ın hörmətli kollegiya üzvlərini, bütün kollektivi təbrik etməkdən böyük şərəf duyuram.

İcazə verin, bugünkü görüşümüzdə iştirak edən əziz qonaqlarımızı – Rusiyanın ən aparıcı kütləvi informasiya vasitələrinin rəhbərlərini habelə xarici ölkələrdəki rusdilli mətbuatın tanınmış nümayəndələrini ürəkdən salamlayım.

"Kultura" qəzetinin baş redaktoru Yuri İsaakoviç Belyavskinin, "İzvestiya" qəzetinin baş redaktoru Vladimir Alekseyeviç Borodinin, "Kommersant" qəzetinin baş redaktoru Andrey Vitalyeviç Vasilyevin, "Birinci kanal" Açıq Səhmdar Cəmiyyəti baş direktorunun müavini Oleq Viktoroviç Volnovun, "Moskovski komsomolets" qəzetinin baş redaktoru Pavel Nikolayeviç Qusevin, "Trud" qəzeti baş redaktorunun birinci müavini Rafael Cahidoviç Hüseynovun, "Rossiyskaya qazeta"nın baş redaktorunun birinci müavini Elmar Yevgenyeviç Hüseynovun, "Krasnaya zvezda" qəzetinin baş redaktoru Nikolay Nikolayeviç Yefimovun, "Arqumentı i faktı" qəzetinin baş redaktoru Nikolay İvanoviç Zyatkovun, "Selskaya jizn" qəzetinin baş redaktoru Şamun Musayeviç Kagermanovun, "Terra" nəşriyyatının direktoru Sergey Aleksandroviç Kondratovun, "Tribuna" qəzetinin baş redaktoru Oleq Sergeyeviç Kuzinin, "REN-TV" teleşirkətinin prezidenti İrena Stefanovna Lesnevskayanın, Nəşriyyat Evi Direktorlar Şurasının sədri Viktor Qriqor-

yeviç Loşakın, Beynəlxalq Televiziya və Radio Akademiyasının prezidenti Anatoli Qriqoryeviç Lısenkonun, "Moskovski komsomolets" qəzeti baş redaktorunun köməkçisi Sergey İvanoviç Roqojkinin,"STS" teleşirkətinin baş direktoru Aleksandr Yefimoviç Rodnyanskinin, Teleradio Yayıcıları Milli Assosiasiyasının prezidenti Eduard Mixayloviç Saqalayevin, "Komsomolskaya pravda" qəzetinin baş redaktoru Vladimir Nikolayeviç Sunqorkinin, "Latinskaya Amerika" jurnalının baş redaktoru Vladimir Yevgenyeviç Travkinin, "Geotar-Med" nəşriyyatının prezidenti Gözəl Ernstovna Ulumbekovanın, "Novıye rubeji" jurnalının (Finlandiya) baş redaktoru, Ümumdünya Rus Mətbuatı Assosiasiyası İcraiyyə Komitəsinin üzvü Nikolay Meynertin, "Petit" Nəşriyyat Evinin (Latviya) direktoru, Ümumdünya Rus Mətbuatı Assosiasiyası İcraiyyə Komitəsinin üzvü Mixail Semyonoviç Soyferin, "Petit" Nəşriyyat Evi direktorunun müavini Yelena Mixaylovna Titovanın, "Rossiya seqodnya" qəzetinin (Bolqarıstan) baş redaktoru, Ümumdünya Rus Mətbuatı Assosiasiyası İcraiyyə Komitəsinin üzvü Svetlana Stefanovna Şarenkovanın, "Petit" Nəşriyyat Evinin prezidenti, Ümumdünya Rus Mətbuatı İcraiyyə Komitəsinin üzvü Aleksey Robertoviç Şeyninin AzərTAc-a qonaq gəlməsindən böyük şərəf duyuruq. Tarixə müraciət etsək deyə bilərik ki, Azərbaycan və rus xalqları arasında münasibətlərin kökləri çox qədimdir. Üstəlik, xalqlarımız təxminən iki əsr ərzində bir dövlətin tərkibində olmuşlar. Bütün bu dövr ərzində rus və Azərbaycan xalqları arasında xoş münasibətlər yaranmış və getdikcə sıx dostluğa çevrilmişdir.

Müasir dövrdə Azərbaycan–Rusiya münasibətləri keyfiyyətcə yeni səviyyəyə qalxmışdır. Bu, ilk növbədə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Rusiya Prezidenti cənab Vladimir Putinin birgə səyləri, onların arasındakı səmimi dostluq münasibətləri sayəsində mümkün olmuşdur. Çox sevindiricidir ki, bu siyasət prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən uğurla davam etdirilir. Ölkələrimiz arasındakı münasibətlərin səviyyəsini belə bir fakt da səciyyələndirir ki, Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı seçildikdən sonra – ötən ilyarımdan da az müddətdə Rusiyaya üç dəfə səfər etmişdir və yaxın vaxtlarda dördüncü səfəri gözlənilir. Azərbaycan-Rusiya əlaqələrində mədəni və humanitar sahədə əməkdaşlığın da xüsusi yeri vardır və bu, ilbəil inkişaf edir. Bu isə xalqlarımızın daha da yaxınlaşmasına, bir-birini

daha yaxşı tanımasına, insani münasibətlərin dərinləşməsinə kömək edən mühüm amillərdəndir.

Bildiyiniz kimi, tarixən Azərbaycanda yaşayan bütün xalqlara, o cümlədən ruslara münasibət həmişə son dərəcə xeyirxah olmuşdur və bu gün də belədir. SSRİ dağılandan sonra Azərbaycanda heç bir rus məktəbi bağlanmayıbdır. Dövlət ali məktəblərinin hamısında rus dilində tədris şöbəsi var. Sovet dövrünə nisbətən hazırda Azərbaycanda rus dilində çıxan qəzetlərin sayı bir neçə dəfə artmışdır. Azərbaycanda Rusiya telekanallarının verilişləri sərbəst yayımlanır. Zənnimcə, Siz də razılaşarsınız ki, MDB məkanında heç də hər yerdə vəziyyət belə deyildir.

Bizim bugünkü qonaqlarımızın bir çoxu 2003-cü ilin sentyabrında Bakıda keçirilən Rus mətbuatının V Ümumdünya Konqresinin iştirakçısı olmuşdur. Belə mötəbər tədbirin Azərbaycan paytaxtında keçirilməsi də ölkəmizdə Rusiyaya, rus dilinə olan xoş münasibətin daha bir təsdiqidir.

Şübhəsiz ki, son illərdə Azərbaycan və Rusiya arasında mədəni, humanitar əlaqələrin inkişafı AzərTAc ilə İTAR-TASS-ın əlaqələrinin də yeni səviyyəyə qalxmasına təsirini göstərməyə bilməzdi. 2004-cü ilin fevralında – Azərbaycan dövlətinin başçısının rəsmi səfəri çərçivəsində Kremldə Prezident İlham Əliyevin və Vladimir Putinin iştirakı ilə AzərTAc və İTAR-TASS arasında informasiya sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması agentliklərimizin tarixində çox əlamətdar hadisədir.

Bundan sonra həmin sazişin həyata keçirilməsinə dair Protokol imzalanmışdır.

Ötən ilin oktyabrında Azərbaycan Prezidentinin Moskvaya işgüzar səfəri zamanı İTAR-TASS-ın binasında MDB ölkələrinin informasiya agentlikləri arasında ilk dəfə olaraq AzərTAc-ın binasında MDB ölkələrinin informasiya agentlikləri arasında ilk dəfə olaraq AzərTAc-ın müxbir məntəqəsinin açılışı olmuşdur. Biz bunu yüksək qiymətləndirir və İTAR-TASS-ın rəhbərliyinə, xüsusən, baş direktor cənab İqnatenkoya və baş direktorun birinci müavini cənab Qusmana minnətdarlığımızı bildiririk.

Yeri gəlmişkən deyim ki, İTAR-TASS-ın Azərbaycandakı müxbir məntəqəsi də uzun illərdir AzərTAc-ın binasında yerləşir və sıx əməkdaşlıq edirik.

Əziz həmkarlar, vaxtınızı çox alsam da, burada sizin hüzurunuzda İTAR-TASS-ın baş direktoru, hamımızın çox böyük hörmət bəslədiyimiz Vitali Ni-

kitiç İqnatenko haqqında bir neçə kəlmə deməyə bilmərəm. Agentliklərimiz arasında əməkdaşlığın inkişafında, AzərTAc-ın dünya informasiya məkanına daha yaxından inteqrasiyasında cənab İqnatenkonun xüsusi xidmətləri vardır. Dünyanın ən nüfuzlu və nəhəng informasiya agentliklərindən birinin rəhbəri kimi Vitali Nikitiç bizə dost, həmkar köməyini heç vaxt əsirgəməyib və hesab edirəm ki, bundan sonra da əsirgəməyəcəkdir.

Vitali Nikitiç, bütün bunlara görə Sizə kollektivimiz adından və şəxsən öz adımdan dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, Sizin yaxından köməyinizlə əlaqələrimiz bundan sonra da genişlənəcək, birgə informasiya məkanının iştirakçıları kimi İTAR-TASS və AzərTAc-ın əməkdaşlığı xalqlarımızın və ölkələrimizin daha da yaxınlaşması işinə xidmət edəcəkdir.

İndi isə, Vitali Nikitiç, icazə verin, Sizə kollektivimiz adından xatirə hədiyyəsi təqdim edim.

Hörmətli həmkarlar, mən bizim üçün çox xoş olan bir hadisəni də xatırlatmaq istəyirəm. İTAR-TASS agentliyi baş direktorunun birinci müavini, bizim həmyerlimiz, əziz dostumuz Mixail Solomonoviç Qusmanın yanvarın 23-də 55 yaşı tamam olur.

Əzizim Mixail Solomonoviç!

Sizi ad gününüz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, səadət dolu günlər, gələcək fəaliyyətinizdə böyük uğurlar arzulayırıq.

Sizi ad gününüz münasibətilə doğma şəhərinizdə – Bakıda təbrik etmək bizim üçün ikiqat xoşdur.

Mixail Solomonoviç, Siz uzun illərdir Moskvada işləməyinizə baxmayaraq, doğulub boya-başa çatdığınız vətənlə ünsiyyəti heç vaxt kəsmir, Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafına öz töhfənizi verirsiniz. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizin yüksək mükafatı – "Şöhrət" ordeni ilə təltif olunmağınız buna əyani sübutdur.

Əziz Mixail, Siz bizim həmvətənimiz, həmkarımız olmaqla bərabər, həm də AzərTAc-ın yaxın dostusunuz.

İTAR-TASS-ın baş direktorunun birinci müavini olaraq, Siz həm ikitərəfli əlaqələrimizin inkişafına, həm də AzərTAc-ın regional informasiya qurumlarına qəbul edilməsi işinə böyük kömək göstərirsiniz. Biz bunu

yüksək qiymətləndirir, Sizin İTAR-TASS kimi nəhəng və nüfuzlu agentliyin rəhbərlərindən biri olmağınızla fəxr edirik.

Hörmətli Mixail Solomonoviç, ən xoş arzularla Sizin sağlığınıza badə qaldırır və ümidvar olduğumuzu bildiririk ki, səmimi dostluq münasibətlərimiz bundan sonra da davam edəcəkdir.

İcazə verin, ad gününüz münasibətilə AzərTAc-ın kollektivi adından Sizə xatirə hədiyyəsini təqdim edim.

Bugünkü görüşümüzdən xatirə olaraq, digər qonaqlarımıza da hədiyyələrimiz var. İcazənizlə, onları sizə təqdim edək.

Əziz dostlar, siz iki gün Azərbaycan paytaxtının qonağı olacaqsınız. Xalqımızın belə bir atalar sözü var: "Dost gəlişi bayram olar". Azərbaycanda İTAR-TASS günlərinin keçirilməsi çox böyük siyasi əhəmiyyəti olan hadisə, Rusiyanın ən aparıcı kütləvi informasiya vasitələri rəhbərlərinin ölkəmizi dost bilərək Bakıya səfər etməsi isə bizim üçün həqiqətən bayramdır.

Səfər müddətiniz çox qısa olsa da, ümidvaram ki, siz ölkəmizin bugünkü həyatı barədə müəyyən təsəvvür əldə edə biləcək, Azərbaycandan xoş təəssüratla ayrılacaqsınız.

Sizi bir daha salamlayır, Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin səyləri sayəsində sürətlə inkişaf edən, möhkəmlənən Azərbaycan-Rusiya dostluğunun şərəfinə, AzərTAc-İTAR-TASS dostluğunun şərəfinə və yenidən görüşmək arzusu ilə sizin sağlığınıza badə qaldırıram.

Bakı, 22 yanvar 2005-ci il.

Beynəlxalq informasiya məkanına inteqrasiya AzərTAc-ın fəaliyyətinin başlıca istiqamətidir

(Dünya İnformasiya Agentliklərinin birinci konqresində çıxış)

– Hörmətli cənab sədr!
Hörmətli həmkarlar!
Hörmətli xanımlar və cənablar!

İlk növbədə, informasiya agentliklərinin Ümumdünya Konqresinin bütün iştirakçılarını salamlamaq və konqresin işinə uğurlar arzulamaq istərdim.

Məni konqresə dəvət etdiyi üçün İTAR-TASS Agentliyinin baş direktoru, mənim dostum cənab Vitali İqnatenkoya təşəkkürümü bildirmək istəyirəm və bu mötəbər forumda iştirakı özüm üçün böyük şərəf hesab edirəm.

Fürsətdən istifadə edərək, agentliyin baş direktoru Vitali Nikitiç İqnatenkonu, Baş direktorun birinci müavini, həmyerlim cənab Mixail Solomonoviç Qusmanı dünyanın ən iri və aparıcı informasiya agentliklərindən biri olan İTAR-TASS-ın 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik etmək istəyirəm. Bu məşhur agentliyin bütün əməkdaşlarını təbrik edir, onlara cansağlığı, ailə səadəti, şərəfli və məsuliyyətli işlərində böyük uğurlar arzulayıram. Arzu edirəm elə bir gün yetişsin ki, İTAR-TASS-ın jurnalistləri, dünyanın bütün jurnalistləri insanlara iztirab və bədbəxtlik gətirən hadisələr barədə deyil, planetimizin bütün xalqlarının sülhə, əmin-amanlığa, tərəqqiyə və rifaha nail olmasına xidmət edən işlər barədə xəbərlər yaysınlar.

Müstəqil Azərbaycan Respublikası çox gənc olmasına baxmayaraq, onun rəsmi informasiya orqanı sayılan Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc-ın tarixi ötən əsrin əvvəllərindən başlanır. Agentliyimiz 1920-ci ilin martında, müsəlman Şərqində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə yaranmışdır. Lakin bir müddətdən sonra respublika dağılmış və AzərTAc 70 il ərzində keçmiş SSRİ-nin informasiya agentliyi – SİTA-nın filialı kimi fəaliyyət göstərmişdir.

1991-ci ildə SSRİ-nin süqutundan və Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra AzərTAc-ın əvvəlki statusu bərpa edilmişdir. AzərTAc hazırda respublikanın rəsmi dövlət informasiya agentliyi kimi fəaliyyət göstərir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan Respublikasının bütün sahələrində olduğu kimi, kütləvi informasiya vasitələrində də böyük islahatlar aparılmışdır. Bu sahədə fəaliyyəti tənzimləyən xüsusi qanun qəbul edilmişdir. Söz və mətbuat azadlığı Konstitusiya ilə təsbit olunmuşdur. Senzura ləğv edilmişdir. Hazırda nəşr olunan qəzet və jurnalların, fəaliyyət göstərən televiziya və radio kanallarının, agentliklərin əksəriyyəti özəl və müstəqildir. Eyni zamanda, dövlət onların maliyyə imkanlarının zəif olmasını nəzərə alaraq, bir sıra güzəştlər də tətbiq etmişdir. Rəsmi informasiya agentliyi olan AzərTAc-ın müasir texniki avadanlıqla təchiz edilməsi üçün zəruri tədbirlər görülmüşdür.

Mərhum Prezidentimiz Heydər Əliyevin Azərbaycanda söz və mətbuat azadlığının təmin edilməsində xidmətləri danılmazdır. Azərbaycan Prezidentinə "Jurnalistlərin dostu" mükafatının verilməsi buna bariz sübutdur. İndiki Prezident İlham Əliyev də kütləvi informasiya vasitələrinə diqqət və qayğısını əsirgəmir. Biz hesab edirik ki, Azərbaycan kimi keçid dövrünü yaşayan ölkələrdə demokratiyanın inkişafı üçün dövlət müəyyən mərhələdə müstəqil mətbuatı dəstəkləməlidir.

Gənc müstəqil dövlətin rəsmi informasiya agentliyi kimi, AzərTAc fəaliyyətinin başlıca istiqamətini dünya informasiya məkanına inteqrasiyada, Azərbaycan haqqında obyektiv informasiyanın yayılmasına nail olunmasında görür. Bu baxımdan, biz müəyyən uğurlar qazanmışıq. AzərTAc bir sıra agentliklər, o cümlədən İTAR-TASS, Anadolu Agentliyi, Sinxua Agentliyi, Ukrinform ilə qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalamışdır. İTAR-TASS Agentliyi ilə əlaqələrimizi xüsusi vurğulamaq istərdim. Bu dünya şöhrətli agentlik ilə əməkdaşlıq, onun təcrübəsindən və imkanlarından istifadə etmək bizim üçün çox önəmlidir.

Dünyanın aparıcı kütləvi informasiya vasitələrinin AzərTAc-ın informasiyalarına istinad etməsi bizi çox sevindirir. Eyni zamanda, biz bunun müntəzəm xarakter alması üçün yeni yollar və imkanlar axtarırıq. AzərTAc bir sıra regional informasiya agentlikləri qurumlarının üzvüdür. İndiki qloballaşma əsrində müasir informasiya məkanına çıxmaq kifayət deyildir. Bunu nəzərə alaraq, biz Avropa Xəbər Agentlikləri Alyansının (EANA) və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) rəhbər orqanlarına bu strukturlara üzv qəbul edilmək xahişi ilə müraciət

etdik. Ümidvarıq ki, bizim xahişlərimiz müsbət həll olunacaq və AzərTAc dünyanın bu iki mötəbər informasiya agentlikləri alyansına daxil olmaqla qlobal informasiya məkanına inteqrasiya baxımından yeni imkanlar əldə edəcəkdir.

Eyni zamanda, biz hesab edirik ki, bu məqsədə nail olmaq üçün ilk növbədə, AzərTAc-ın fəaliyyətini müasir tələblər səviyyəsinə qaldırmaq lazımdır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra AzərTAc-ın müxbirləri ilk dəfə xarici ölkələrdə fəaliyyətə başlamışlar. Hazırda Moskvada, Ankarada, Vaşinqtonda, Parisdə, Berlində, Kiyevdə, Orta Asiyada, İranda və Gürcüstanda müxbir məntəqələrimiz fəaliyyət göstərir. Bir sıra digər ölkələrdə, o cümlədən İngiltərədə, Avstriyada, Çində müxbir məntəqələri açmağı nəzərdə tutmuşuq.

AzərTAc-ın texniki imkanlarının genişləndirilməsi informasiyaların operativ əldə edilməsi və yayılmasını təmin etmək üçün şərait yaradır. Agentliyin müasir avadanlığı informasiyanı, o cümlədən fotoinformasiyanı dünyanın istənilən ölkəsinə göndərməyə imkan verir.

Azərbaycanın həyatının müxtəlif sahələrinə aid məlumatların operativ əldə edilməsi və yayılması üçün biz İTAR-TASS, Bi-Bi-Si, İnterfaks, Frans Press, Röyter, İRNA, Anadolu Agentliyi, "Azadlıq" radiosu, "Amerikanın səsi" radiosu ilə əlaqələrdən istifadə edirik.

AzərTAc fasiləsiz rejimdə Azərbaycan, rus və ingilis dillərində informasiyalar yayır. Bu materiallar həm də agentliyimizin yenilənmiş İnternet saytında da yerləşdirilir. Gələcəkdə başqa dillərdə də informasiyalar yaymaq nəzərdə tutulmuşdur. Yeri gəlmişkən, qeyd etməliyəm ki, ABŞ-dan gətirilən ən müasir laboratoriya yüksək keyfiyyətli fotomateriallar hazırlamağa imkan verir.

Bəzi hallarda, məsələn, Azərbaycan Prezidentinin xarici səfərləri zamanı bu agentliklərin imkanlarından da istifadə edirik. Bu baxımdan, Qazaxıstan, Özbəkistan, Ukrayna, Türkiyə, Rusiya və Gürcüstandan olan həmkarlarımızın dövlətimizin başçısının bu ölkələrə səfərlərinin işıqlandırılmasında göstərdikləri köməyi minnətdarlıqla qeyd etmək istərdim. Əlavə edim ki, Rusiyada çoxsaylı Azərbaycan diasporunun olduğunu nəzərə alaraq İTAR-TASS-ın rəhbərliyi ilə ölkənin regionlarındakı büroların imkanlarından istifadə edilməsi barədə razılığa gəlmişik.

AzərTAc-ın öz fəaliyyətini müasir tələblər səviyyəsində qurmaq, müxtəlif ölkələrin informasiya agentlikləri ilə əlaqələri genişləndirmək səyləri öz bəhrəsini verir. Xarici ölkələrin nəşrlərində agentliyimizə verilən qiymət bunu deməyə imkan verir.

Respublikamızda informasiya məkanının kiçik olmasına baxmayaraq, artıq dediyim kimi, Azərbaycanda çoxlu kütləvi informasiya vasitələri fəaliyyət göstərir. İndiyə kimi AzərTAc-ın onlarla münasibətində heç bir münaqişə yaranmamışdır. Müstəqil KİV-lərin xahişi ilə kütləvi informasiya vasitələri haqqında Qanuna edilmiş dəyişikliklərə uyğun olaraq, rəsmi agentlik kimi AzərTAc fotoinformasiya ilə yanaşı, onlara bütün digər informasiyaları da təmənnasız təqdim edir. Qeyd etdiyim kimi, bu, həmin KİV-lərin üzləşdiyi maliyyə çətinlikləri ilə əlaqədardır. Lakin biz hesab edirik ki, bu, çox çəkə bilməz və odur ki, informasiyanın yalnız abonentlərə verilməsinə nail olmaq niyyətindəyik.

AzərTAc-ın informasiyalarının abonentləri ən müxtəlif qruplara aiddirlər. Özəl qurumlarla yanaşı, onların arasında dövlət strukturları da vardır. Respublikanın informasiya məkanında rəqabətin getdikcə artdığı bir şəraitdə biz abonentlərin sayını artırmağa çalışır, ilk növbədə, informasiya əldə edilməsində və yayılmasında operativliyi artırmağa səy göstəririk.

Qlobal informasiya məkanına inteqrasiya AzərTAc-ın informasiya siyasətinin öncül istiqamətidir. Ümidvarıq ki, dünyanın ən iri regional informasiya strukturlarına üzv qəbul edilməyimiz barədə müraciətlərimiz müsbət həll olunacaq, aparıcı informasiya agentliklərinin zəngin təcrübəsinin öyrənilməsi və tətbiqi bu işdə bizə böyük kömək göstərəcəkdir.

Bir daha Konqres iştirakçılarına və bu mötəbər foruma ev sahibliyi edən moskvalı həmkarlarımıza gələcək fəaliyyətində uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

Moskva, 25 sentyabr 2004-cü il.

Dahilər sırasında öz yeri, öz şöhrəti olan əfsanəvi şəxsiyyət

("Dünyanı heyran qoyan insan" kitabının təqdimat mərasimində çıxış)

– Hörmətli mərasim iştirakçıları!

Xanımlar və cənablar!

Bu günlər xalqımız, dünya azərbaycanlıları ümummilli liderimiz, müstəqil dövlətçiliyimizin qurucusu, Azərbaycanın XX əsrdə yetirdiyi ən dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 81-ci ildönümünü qeyd etmiş, onun xalq, Vətən qarşısındakı xidmətlərini bir daha vurğulamış, ulu öndərimizin əziz xatirəsini minnətdarlıqla və dərin ehtiramla yad etmişdir.

Təqdimatına toplaşdığımız kitab da böyük azərbaycanlının misilsiz xidmətlərinin oxuculara çatdırılması istiqamətində daha bir təşəbbüsdür.

Bu kitabın ərsəyə gəlməsinin təşəbbüsçüsü və müəllifi fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevdir. Hörmətli Ramiz müəllim hələ keçən il, möhtərəm Prezidentimiz Heydər Əliyevin 80 illik yubileyi münasibətilə belə bir kitabın hazırlanmasının zəruriliyini bildirmiş, AzərTAc-ın xarici ölkələrdəki müxbirlərinin tanınmış siyasətçilərin, dövlət xadimlərinin, biznes nümayəndələrinin, elm və mədəniyyət xadimlərinin Prezident Heydər Əliyev haqqında fikirlərini əks etdirən materiallar toplamasını tapşırmışdı.

Hörmətli Ramiz müəllimin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı tədqiqatı bu ideyanın həyata keçirilməsinin başlanğıcı və həlledici amili oldu.

Əfsuslar olsun ki, sonrakı hadisələr bu işi başa çatdırmağa imkan vermədi. Amma təskinliyimiz ondadır ki, gec də olsa, həmin kitab oxuculara təqdim edildi.

Professor Ramiz Mehdiyevin bu əsəri Heydər Əliyev şəxsiyyətinin nəhəng fəaliyyətinin bütün dövrlərinin elmi-fəlsəfi prizmadan araşdırıldığı sanballı elmi-nəzəri tədqiqatın məhsuludur və kitabda toplanmış digər materialların mahiyyətini tam dolğunluğu ilə dərk etməyə imkan verir.

Heydər Əliyevin mübarizələrlə dolu bütün mənalı ömrü canından artıq sevdiyi xalqına, Vətəninə xidmətə həsr olunmuşdur. Ulu öndərimiz çıxışlarından birində deyirdi: "Mən həyatım boyu, bütün əmək fəaliyyətim

dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam".

İlk baxışda çox adi görünən bu sözlərin arxasında nəhəng şəxsiyyətin mübarizələrlə dolu, dinclik, istirahət nə olduğunu bilməyən uzun bir ömrü dayanır. Elə bir ömür ki, hər günü, hər ayı, hər ili bütün varlığı ilə sevdiyi, bağlı olduğu xalqına, Vətəninə misilsiz xidmət nümunəsidir.

Bəşər tarixi çox görkəmli şəxsiyyətlər yetirmişdir. Onlar məşhur sərkərdə, siyasi və dövlət xadimi, elm, mədəniyyət, ədəbiyyat və incəsənətin inkişafına misilsiz töhfələr vermiş insanlar kimi tarixə düşmüşlər. Lakin ölkəsinin, xalqının tarixinin ən çətin, ağır dövründə xilaskarlıq missiyasını öz üzərinə götürən və bunu, həqiqətən yerinə yetirən, ən nəhayət isə, Vətənini tərəqqi yoluna çıxaran, dünyada tanıdan şəxsiyyətlər heç də yüzlərlə, minlərlə deyildir. Belələri çox azdır. Ona görə də biz fəxr edə bilərik ki, həmin dahilərin sırasında Azərbaycan xalqının yetirdiyi Heydər Əliyev kimi əfsanəvi şəxsiyyətin öz yeri, öz çəkisi, öz şöhrəti var.

Bütün bu deyilənlər professor Ramiz Mehdiyevin tədqiqatlarında elmi və tarixilik baxımından geniş təhlil olunaraq, nəzəri ümumiləşdirmələr şəklində oxucuya təqdim edilir.

Azərbaycanın tarixinin son otuz ildən artıq bir dövrü, sözün həqiqi mənasında, Heydər Əliyevin adı ilə bağlıdır. Ilk dəfə 1969-cu ildə respublikada siyasi hakimiyyətə gələn Heydər Əliyev qısa bir müddətdə Azərbaycanın hərtərəfli inkişafını təmin edə bildi. Hörmətli Ramiz müəllimin çox düzgün vurğuladığı kimi, "1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir".

Lakin Azərbaycan xalqı ötən əsrin 80-ci illərinin ortalarınadək Heydər Əliyevin xidmətlərindən nə qədər bəhrələnmişdisə, onun SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra, xüsusilə 90-cı illərin əvvəllərində siyasi səhnədə olmamasının ağrı-acısını bir o qədər hiss etdi, həllini bu gün də tapmamış Qarabağ dərdinə düçar oldu. Azərbaycanın bəlalı günləri elə o vaxt başlandı. Ona görə də görkəmli qazax yazıçısı, ictimai-siyasi xadim, xalqımızın böyük dostu Oljas Süleymenovun kitab-

dakı yazısındakı "mən əminəm ki, 1980-ci illərin axırları – 1990-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycana rəhbərliyi davam etdirsəydi, Ermənistan-Azərbaycan münaqişəsinə yol verməzdi. 1990-cı ilin yanvarında general Varennikovun tankları Bakıya yeridilməzdi. Qarabağ itirilməzdi" – fikri tamamilə haqlıdır.

Çünki Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyinə yenidən qovuşandan sonra onun bəlaları azalmadı, əksinə daha da artdı. Qanlı Yanvar qırğınının göynərtisi hələ keçməmiş, Ermənistanın təcavüzünün günbəgün gücləndiyi, torpaqlarımızı bir-birinin ardınca itirdiyimiz vaxtda Azərbaycan həm də parçalanır, ölkədə qardaş qanı tökülürdü. Ən dəhşətlisi isə bu idi ki, Azərbaycan müstəqil dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı.

"Olum ya ölüm" dilemması ilə qarşılaşan Azərbaycan xalqı 1993-cü ilin böhranlı iyun günlərində öz müdrik oğlunu təkidlə yenidən siyasi hakimiyyətə gətirdi və yanılmadı. Bu, böyük Qayıdış, böyük Dirçəlişin başlanğıcı idi.

Xalqımızın dahi oğlu, vaxtilə Kremlin siyasi hakimiyyət pilləsində ən parlaq sima olan Heydər Əliyev özünün nəyə qadir olduğunu bir daha bütün dünyaya – dostlarımıza da, bədxahlarımıza da sübut etdi. Ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdi, dövlət müstəqilliyini qoruyub saxladı, möhkəmləndirdi, onu əbədi və dönməz etdi, iqtisadi böhrana son qoydu, iqtisadiyyatı inkişaf yoluna çıxardı, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etdi, Azərbaycanı regionun aparıcı dövlətinə çevirdi. Cəmi bir neçə kəlmə ilə sadalamaq mümkün olan bu taleyüklü vəzifələrin yerinə yetirilməsinin arxasında Heydər Əliyev şəxsiyyətinin gecəli-gündüzlü, məqsədyönlü, ağlasığmaz dərəcədə gərgin, son nəticədə sağlamlığına qəsd edən fəaliyyəti dayanır. Ona görə də 34 illik bir dövrdə siyasi hakimiyyətin zirvəsində olan Heydər Əliyevi xalqımızın bəxtinə düşmüş Tanrı payı adlandıranlar, Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll, Konrad Adenauer kimi siyasi və dövlət xadimləri ilə müqayisə edərək, hələ sağlığında canlı əfsanəyə çevrilmiş lider hesab edənlər heç də yanılmırlar.

Professor Ramiz Mehdiyev çox düzgün vurğulayır ki, "Heydər Əliyevin şəxsiyyətinin və fəaliyyətinin mahiyyətinin dərk olunması on illərlə

Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə ümummilli problemlərin həlli yollarına işıq salır. O, işdə sübuta yetirmişdir ki, dünyanı təkcə böyük dövlətlər idarə etmir, kiçik xalqlar da var və onların rəyi ilə hesablaşmaq lazımdır".

Prezident Heydər Əliyevin Azərbaycan, xalqımız, bütün region üçün gördüyü misilsiz işlər özlüyündə nə qədər böyük və əhəmiyyətli olsa da, biz bunların əzəmətini, bəlkə də, hələ olduğu kimi dərk edə bilmirik. Bu baxımdan, Ukrayna Prezidenti Leonid Kuçma "Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir", Qazaxıstan Prezidenti Nursultan Nazarbayev isə "onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir" deməkdə tamamilə haqlıdırlar.

Lakin o da həqiqətdir ki, dünya görkəmli siyasi xadim, mahir diplomat, müdrik dövlət xadimi kimi Prezident Heydər Əliyevin qiymətini artıq vermişdir.

Fransada çıxan "Kuryer İnternasional" jurnalında çıxan nəşrin baş redaktoru Aleksandr Adler Prezident Heydər Əliyevin 80 illik yubileyi münasibətilə geniş məqaləsində yazır: "Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlar son dərəcə mürəkkəb bir tarixi məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Bəli, Heydər Əliyev, həqiqətən yüksəklərə qalxmışdır, əlçatmaz zirvədir. Ancaq dağın əzəmətini onun ətəyindən yox, kənardan baxmaqla görmək mümkündür. Bu mənada dünyanın görkəmli siyasi və dövlət xadimlərinin, biznes nümayəndələrindən tutmuş diplomatlara, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin dilindən səslənmiş fikirlər Heydər Əliyev şəxsiyyətinin, Rusiya Prezidenti Vladimir Putinin sözləri ilə desək, "siyasət nəhəngi"nin əzəmətini daha dolğun dərk etməyə imkan verir.

Bu kitabda toplanmış materiallar Heydər Əliyev dühası, müdrikliyi barədə deyilənlərin az bir hissəsini əhatə edir. Lakin bunların özü də onun şəxsiyyətinin nə üçün hələ sağlığında əfsanəyə çevrildiyini, qismən

də olsa, dərk etməyə imkan verir. Həqiqətən də, Prezident Heydər Əliyev siyasi və dövləti fəaliyyəti ilə dünyanı valeh edən əfsanəvi liderdir. Buna görə dünya da onu olduğu kimi qiymətləndirmişdir və gələcəkdə də qiymətləndirəcəkdir.

Prezident Heydər Əliyev nəsillərə örnək olan mənalı, hadisələrlə zəngin ömrünü bütünlüklə doğma Azərbaycanına həsr etmiş, bu yolda göstərdiyi misilsiz xidmətləri ilə nəinki ölkəmizin tarixində, həm də dünya diplomatiyasının tarixində silinməz iz qoymuşdur. Bənzərsiz fitri istedadı, müdrikliyi, siyasi uzaqgörənliyi ilə dünyanı valeh edən bu əfsanəvi şəxsiyyət hələ sağlığında miyonlarla insanın qəlbində özünə abidə ucaltmışdır. Lakin Prezident Heydər Əliyevin ucaltdığı ən böyük abidə günbəgün tərəqqi edən, işıqlı gələcəyi olan yeni, xoşbəxt Azərbaycandır. Ona görə də nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də, onun ideyaları da ürəklərdə yaşayacaqdır. Ulu öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev bu gün onun siyasi xəttini davam etdirir, ideyalarını həyata keçirir. Heydər Əliyevin alternativi olmayan siyasətinin davam etdirilməsi müstəqil Azərbaycanın hər cəhətdən qüdrətli dövlətə çevrilməsini, xalqlarımızın xoşbəxt gələcəyini təmin edəcəkdir.

Çıxışımı professor Ramiz Mehdiyevin sözləri ilə bitirmək istəyirəm: "Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır. Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəkdir...

Heydər Əliyev Azərbaycan dövlətinin arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur".

Ümidvaram ki, təqdimatını keçirdiyimiz kitabın gələcəkdə bu istiqamətdə elmi araşdırmalar aparacaq tədqiqatçılara müəyyən köməyi olacaqdır.

Diqqətinizə görə çox sağ olun.

Bakı, 15 may 2004-cü il.

Agentlik jurnalisti münaqişə və gərginlik nöqtəsində

(Dünya İnformasiya Agentliklərinin sammitində çıxış)

– Hörmətli cənab sədr!

Xanımlar və cənablar!

Hörmətli həmkarlar!

Mənə söz verildiyi üçün minnətdarlığımı bildirirəm.

Dünyamız yeni yüzillikdə də müharibələrdən, münaqişələrdən və qarşıdurmalardan xilas ola bilmədi. Planetin bu və ya digər regionunda "qaynar nöqtə"lər qalmaqdadır. Fələstin, Əfqanıstan, Dağlıq Qarabağ, Çeçenistan, Abxaziya, İraq münaqişələri... Hələ gec işə düşən minaya bənzəyən nə qədər potensial münaqişə ocaqları vardır...

Bütün bunlar həyatımızın reallıqlarıdır. O reallıqlar ki, onların planını siyasətçilər hazırlayır, generallar icra edir, biz jurnalistlər isə qəzetlərin səhifələrində, internet saytlarında, fotoşəkillərdə və videolentlərdə tarixləşdiririk. Tarix isə tərəfkeşliyi, ikili standartları, təhrif və təhdidləri qəbul etmir. Yəni demək istəyirəm ki, münaqişə və gərginlik nöqtələrindən yazan jurnalist üçün əsas meyar obyektivlik olmalıdır.

Çağdaş zəmanəmizdə kütləvi informasiya vasitələrinin bolluğu, müxtəlif xəbər agentliklərinin və telekanalların operativliyi sayəsində yer kürəsinin milyonlarla sakini bu və ya digər münaqişə, toqquşma barədə dərhal kifayət qədər geniş məlumat alır. Həmin məlumatlardakı faktlar, hadisələr və digər detallar əksər hallarda oxucu və tamaşaçıya bu məlumatları hazırlayan jurnalistləri unutdurur. Əslində, unutmaq olmaz ki, insanların "məlumat aclığı"nın söndürülməsi üçün münaqişə bölgələrində döyüşən əsgərlərdən heç də az risk etməyənlər məhz jurnalistlərdir. Ümumdünya Jurnalistləri Müdafiə Komitəsinin (CPJ) bu yaxınlarda elan olunmuş illik hesabatında deyildiyi kimi, 2002-ci ildə həmkarlarımızdan 20 nəfəri öz peşə fəaliyyətinə görə cinayətkar qruplaşmaların sifarişi ilə qətlə yetirilmişdir. İndi bütün dünyanın böyük narahatlıqla izlədiyi İraq müharibəsində də, çox təəssüf ki, həlak olan jurnalistlər var.

"Qaynar nöqtə"lərdən materiallar hazırlamaq üçün faktların toplanması jurnalistlərə heç də həmişə asan başa gəlmir. Onlar çox tez-tez çətinliklərlə, maneələrlə, bəzi hallarda isə həyatları üçün təhlükələrlə qarşı-

laşmalı olurlar. Çox təəssüf ki, ötən əsrin axırlarından etibarən Azərbaycan jurnalistləri öz ölkəsində neçə illər döyüş bölgələrində işləməli olmuşlar. Bu da qonşu Ermənistanın əzəli Azərbaycan torpağı Dağlıq Qarabağa əsassız iddiası ilə 1988-ci ildən başlayan və indiyədək də həll edilməmiş qalan münaqişə ilə bağlıdır. Onu da xatırladım ki, sonradan açıq hərbi təcavüzə və müharibəyə çevrilən bu münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizi müəyyən səbəblərdən, ilk növbədə bəzi dövlətlərin birbaşa dəstəyi sayəsində Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş, 1 milyon azərbaycanlı öz ölkəsində qaçqın-köçkünə çevrilmişdir. Münaqişə nəticəsində Azərbaycana həm də çox böyük maddi-mənəvi zərər dəymişdir. Qarabağın dağlıq hissəsində və onun ətrafındakı Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarında 800-dən çox yaşayış məntəqəsi, 3472 sosial-mədəni obyekt, o cümlədən 315 səhiyyə obyekti, xalqımızın qədim tarix və mədəniyyət abidələri dağıdılmışdır.

Bütün bu faktların statistikası döyüş bölgələrindən jurnalistlərimizin informasiyaları əsasında hazırlanmış, sonradan rəsmi sənədlərə istinadən dəqiqləşdirilmişdir. Mən jurnalistləri uzun müddət münaqişə şəraitində, döyüş bölgələrində ekstremal vəziyyətlərdə işləyən, bu sahədə müəyyən təcrübəsi olan bir informasiya agentliyinin rəhbəri kimi mövzu ilə bağlı bəzi məqamları hörmətli həmkarlarımın diqqətinə çatdırmaq istəyirəm.

Azərbaycan torpaqlarında döyüş əməliyyatları gedən vaxt ölkəmizin qarşılaşdığı ən çətin problemlərdən biri münaqişənin əsl səbəbləri, Ermənistanın hərbi təcavüzünün ağır nəticələri barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqla bağlı idi. Mübaliğəsiz deyə bilərəm ki, o illərdə Azərbaycan, həqiqətən informasiya blokadasına düşmüşdü. O vaxtkı sovet mətbuatı, tək-tük hallar istisna olmaqla, hadisələri, əsasən, birtərəfli mövqedən işıqlandırır, yaxud da guya bu məsələdə "tarazlığı gözləməyə" üstünlük verirdi. Türkiyə mətbuatını çıxmaq şərti ilə, xarici kütləvi informasiya vasitələri bu mövzuya bir o qədər də maraq göstərmirdi. Bununla belə, Moskvanın, habelə xarici ölkələrin vicdanlı, öz peşələrinə sadiq bəzi jurnalistlərinin xidmətlərini minnətdarlıq hissi ilə xatırlamağı da özümə peşə borcu bilirəm. Belə bir vəziyyətdə Azərbaycan jurnalistləri ölkəmizin məruz qaldığı təcavüz barədə məlumatları yaymaq üçün özlərinin o qədər

də geniş olmayan imkanlarından istifadə edirdilər. Lakin bunun özü də çox vaxt səmərəsiz olurdu. Çünki xaricdəki güclü diasporun köməyindən istifadə edən ermənilərin genişmiqyaslı təbliğatı sayəsində dünya mətbuatı da hadisələri, əksər hallarda qeyri-obyektiv işıqlandırır və belə təsəvvür yaradırdı ki, guya haqq-ədalət ermənilərin tərəfindədir, guya təcavüzə məruz qalan da onlardır.

İlk dəfə belə ekstremal vəziyyətdə işləməyə məcbur olan AzərTAc jurnalistlərinin qarşılaşdıqları çətinlikləri təsəvvür edə bilərsiniz. Həmin dövrdə onların texniki imkanları da çox aşağı səviyyədə idi, mobil rabitə vasitələrindən isə söhbət belə gedə bilməzdi. Onların döyüş bölgəsində işləmək təcrübəsi də yox idi. Bununla belə, jurnalistlərimiz ən gərgin nöqtələrə gedib materiallar hazırlamaq üçün hər bir imkandan istifadə etməyə çalışırdılar. Bu isə bəzi hallarda onların həyatları bahasına başa gəlirdi. Həmin dövrdə Azərbaycanın bir neçə tanınmış jurnalisti, habelə onların Rusiyadan olan həmkarı döyüş bölgəsində həlak olmuşdur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində törədilmiş və XX əsrin ən dəhşətli faciələrindən biri olan qırğın barədə həqiqətlər məhz istedadlı telereportyorumuz Çingiz Mustafayevin çox böyük risklə çəkdiyi videokadrlar sayəsində dünyaya bəyan edildi. Xatırladım ki, həmin dəhşətli gecədə şəhərdə qalan 2500-dək sakindən 613 nəfəri, o cümlədən 106 qadın, 83 uşaq, 70 qoca qətlə yetirilmiş, 1275 nəfər girov götürülmüşdü. Ermənilərin təbliğat maşını bu qırğın barədə yayılan məlumatları təkzib etmək üçün nə qədər cəhd göstərsə də, istədiklərinə nail ola bilmədilər. Dünya bu dəhşətli faciə barədə kifayət qədər məlumat aldı.

Bütünlükdə götürdükdə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri və ölkəmiz üçün ağır nəticələri barədə həqiqətlərin dünyaya bəyan edilməsi çətin və uzunsürən proses olmuşdur. Həmkarlarıma cəsarətlə deməliyəm ki, bu işdə ən böyük xidməti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev göstərmişdir. Onun çoxsaylı xarici səfərləri zamanı keçirdiyi görüşlər, apardığı danışıqlar, çıxışları ölkəmizlə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz rol oynamışdır. Əvvəldə dediyim kimi, münaqişə, gərginlik nöqtələrindən yazan jurnalistlərdən maksimum obyektiv, qərəzsiz olmaq tələb edilir. Lakin silahlı münaqişə, hərbi əməliyyat zonalarından söhbət getdikdə, təbii

ki, burada ortaya başqa məqamlar çıxır. Məsələn, Ermənistan-Azərbaycan münaqişəsinə nəzər salaq. Şübhəsiz ki, biz istəyirdik və bu gün də arzu edirik ki, həmin mövzudan yazan xarici jurnalistlər baş verənlərin əsl səbəblərini bilsinlər və hazırladıqları materiallarda da bu, öz əksini tapsın. Yəni onlar öz peşə borclarına sadiq qalsınlar və mümkün qədər obyektiv, qərəzsiz olmağa çalışsınlar. Yenə deyirəm ki, bundan ötrü, ilk növbədə problem barədə ətraflı məlumata malik olmaq lazımdır.

Öz jurnalistlərimizə gəldikdə isə, onların vəzifələri fərqli idi və bu gün də belədir. Başqa cür mümkün də deyildir. Vətəninə, torpağına hərbi təcavüz edilmiş jurnalistlər, şübhəsiz ki, ölkəsinin, xalqının mənafeyini əsas tutmalı və hazırladıqları materiallarda da bu mövqedən yanaşmalıdırlar. Onlar düşmən tərəfin törətdiyi vəhşiliklərin şahidi olduqda, əlbəttə ki, bunları təkcə jurnalist kimi deyil, həm də bir vətəndaş kimi şərh etməyə məcburdurlar. Yaxud da, adətən, münaqişə zonalarına ezam edilən jurnalistlərə bilavasitə döyüş əməliyyatları gedən yerlərdə necə davranmaq barədə tövsiyələr verilir və xatırladılır ki, onlar KİV nümayəndəsi, bitərəf şəxs olduqlarını unutmamalıdırlar. Lakin ərazisində döyüş əməliyyatları gedən ölkənin jurnalistlərinə bunları heç də həmişə şamil etmək mümkün deyildir. Çünki elə vəziyyətlər yaranır ki, ön xətdə olan jurnalist bəzən hücum edən düşmən tərəfin qarşısını alan döyüşçülərə qoşulmalı olur. Ona görə də "jurnalist heç kimin tərəfində durmamalıdır" prinsipi belə hallarda əsas götürülə bilməz.

Zənnimcə, "qaynar nöqtə"lərdə işləyən jurnalistlərin öz həmkarları ilə əlaqələri və zəruri hallarda əməkdaşlığı da diqqətdən kənarda qalmamalıdır. Xüsusilə belə regionlara ilk dəfə ezam olunan KİV əməkdaşlarına bu barədə müəyyən tövsiyələrin verilməsi onların işinə xeyli dərəcədə köməl edə bilər. Gərginlik, münaqişə zonalarında jurnalistin işləməsi heç də asan olmur və o, hər an gözlənilməz vəziyyətlə rastlaşa bilər. Necə deyərlər, bu, jurnalist peşəsini seçənlərin qismətidir. Əlbəttə, hamımız istərdik ki, jurnalistlər müharibə, silahlı münaqişələr, terror aktları barədə yox, insanların daha yaxşı yaşamasına, sülhə, tərəqqiyə xidmət edən yeniliklərdən yazsınlar. Əfsus ki, bu, hələlik arzu olaraq qalır və ona görə də jurnalistlərin neçə-neçə nəsli yenə də "qaynar nöqtə"lərdən xəbərlər hazırlamalı olacaqdır.

İstanbul, 15 aprel 2003-cü il.



Çexiyaya səfərə yola düşərkən. 2002-ci il.

Prezident Heydər Əliyevə Yeni il münasibətilə təbrik məktubunu təqdim edərkən 2002-ci il.

Prezident Heydər Əliyevə "Jurnalistlərin dostu" mükafatının təqdim olunması mərasimində. 2001-ci il.

İsveçrəyə rəsmi səfərdən qayıdarkən təyyarədə müsahibə. 2000-ci il.

Naxçıvan. 2002-ci il.

[illegible] 90 illik yubileyi münasibətilə rəsmi qəbul zamanı. 2010-cu il.



AzərTAc-ın 90 illik yubileyi münasibətilə rəsmi qəbul zamanı. 2010-cu il.

AzərTAc ilə İTAR-TASS (Rusiya) arasında əməkdaşlıq haqqında Sazişin imzalanması. 2004-cü il.



AzərTAc ilə BTA (Bolqarıstan) arasında əməkdaşılıq haqqında Sazişin imzalanması. 2004-cü il.

Rusiya Federasiyasının "Dostluq" ordeni təqdim olunarkən. 2011-ci il.

Rusiyalı həmkarları Vitali İqnatenko və Mixail Qusmanla. 2011-ci il.

Bakı Beynəlxalq Humanitar Forumu. 2011-ci il.

AzərTAc ilə ELTA (Litva) arasında əməkdaşlıq haqqında Sazişin imzalanması. 2011-ci il.



AzərTAc ilə QNA (Qətər) arasında Anlaşma Memorandumunun imzalanması. 2011-ci il.

İtaliyanın ANSA və AGİ agentliklərinin nümayəndələri AzərTAc-da. 2011-ci il.



ıbiley mərasimində. 2010-cu il

Türkiyə Qəzetçilər Federasiyası ilə əməkdaşlıq müqaviləsinin imzalanması. 2010-cu il.

İndoneziyanın ANTARA agentliyi ilə əməkdaşlıq haqqında Memorandumu imzalanması. Cakarta 2007-ci il.

MÜSAHİBƏLƏR

Sosial şəbəkənin informasiyası xalq düşüncəsinə daha yaxındır, yaxud informasiyanı başlı-başına buraxmaq olmaz

Aslan Aslanov: Dünya informasiya nəhənglərinin, o cümlədən bizi də narahat edən ən aktual mövzu ondan ibarətdir ki, artıq sosial şəbəkələr ənənəvi mediaya çox ciddi təsir göstərir

– Rusiyanın İTAR-TASS informasiya agentliyinin himayəsi ilə Moskvada Beynəlxalq Ticarət Mərkəzinin "Konqres" salonunda "Dünya mediası: XXI əsrin çağırışları" devizi altında Ümumdünya Media Sammiti keçirilmişdir. Sammitin işində ölkəmizin aparıcı KİV-lərinin nümayəndələri də iştirak edirdilər. Nümayəndə heyətinə başçılıq edən Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın baş direktoru Aslan Aslanov "Kaspi" qəzetinə müsahibəsində sammitdə müzakirə olunan məsələlərdən, dünya mediasının qarşısında duran problemlərdən və Azərbaycan mediasının bugünkü vəziyyətindən söhbət açır.

Ümumi vəziyyətdən çıxış yolları

– Aslan müəllim, Ümumdünya Media Sammitinin keçirilməsində məqsəd nə idi?

– Bir sıra beynəlxalq xəbər agentlikləri dünya informasiya siyasətinin əsas istiqamətləri, faktların toplanması, xəbərin hazırlanması, yayılması, innovasiyalı texnologiyanın tətbiqi, əsrin çağırışları ilə əlaqədar qarşıya çıxan problemlər barədə ildə bir neçə dəfə yığışır və geniş müzakirələr aparırlar. Müəyyən təkliflər əsasında rəylər formalaşır və dünyanın ən nüfuzlu agentlikləri öz işlərini məhz bu istiqamətdə qurmağa çalışırlar. Bu alyanslardan biri Avropa Xəbər Agentlikləri Alyansıdır. Avropanın 30 ölkəsi burada birləşibdir. Bu alyansa qəbul olunmaq da çox çətindir. Onun ağır şərtləri var. Əvvəla, hər ölkədən bir agentlik bu şərtləri tam yerinə yetirdikdən və Avropa Xəbər Agentlikləri Alyansının bürosunda səs alandan sonra bu quruma qəbul oluna bilər. Burada Avropanın əsas ölkələri təmsil olunur. O cümlədən, AzərTAc da 2008-ci ildə dünya informasiya siyasətində mühüm rol oynayan bu alyansa qəbul olunubdur. 29 ölkədən 26-sı bizə səs verib. Onu da qeyd edim ki, keçmiş sovet respublikalarından yalnız Rusiyanın

İTAR-TASS agentliyi və Ukraynanın Ukrinform agentliyi bu təşkilata üzvdür. İldə iki dəfə alyansın iclasları keçirilir. Avropa ölkələrinin informasiya agentlikləri burada toplaşaraq dünya informasiya siyasətinin qarşıda duran problemlərini ətraflı müzakirə edir və təcrübə mübadiləsi aparırlar. İkinci təşkilat isə Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Alyansıdır. Bu təşkilat demək olar ki, Yer kürəsinin yarıdan çoxunu əhatə edir və burada dünyanın 33 ölkəsi təmsil olunur. AzərTAc 2004-cü ildə bu alyansa qəbul olunub. Mən iki dəfə dalbadal bu alyansın idarə heyətinə üzv seçilmişəm. Bundan başqa, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin informasiya agentlikləri alyansı fəaliyyət göstərir və burada 14 ölkə birləşibdir. İki il bundan əvvəl Bakıda bu təşkilatın iclası keçirildi və hazırda AzərTAc qurumda sədrlik edir. AzərTAc Türkdilli Xəbər Agentlikləri Alyansına da uzun müddətdir ki, rəhbərlik edir. Heç bir agentlik qarşılaşdığı problemləri təkbaşına həll edə bilməz. O, mütləq müəyyən qurumlarda iştirak etməlidir ki, öz işini düzgün qura və dünya informasiya siyasətinə uyğunlaşdıra bilsin.

2009-cu ildə dünyanın ən nəhəng informasiya agentlikləri fikirləşdilər ki, daha yeni bir qurum lazımdır. Məsələn, Dünya İnformasiya Agentlikləri Konqresi fəaliyyətdə idi. Amma bu, özünü doğrultmadı. Onda dünyanın "Sinxua", "Assoşieyted Press", "Röyter", "Kiodo" kimi nəhəng agentlikləri yeni bir qurumun yaranması ilə bağlı təşəbbüs qaldırdılar. Elə bir qurum ki, orada dünya informasiya siyasətinə az-çox töhfə verməyi bacaran, onun işində iştirak edə bilən agentliklər bir yerə toplaşsın və 2-3 ildən bir medianın qarşısında duran qlobal problemlərlə bağlı müzakirələr aparsın, ümumi vəziyyətdən çıxış yollarını araşdırsınlar. 2009-cu ildə məhz Çin Xalq Respublikası təşəbbüsü öz üzərinə götürdü. Mən həmin tədbirə dəvət olunsam da, təəssüf ki, müəyyən səbəblərə görə iştirak edə bilmədim.

Bu il isə İTAR-TASS agentliyi təşəbbüs göstərərək, dünya sammitinin Moskvada keçirilməsini məsləhət bildi. Həmçinin, təmsilçilərin dairəsi bir qədər genişləndirilirdi, beləliklə, medianın bütün sahələri əhatə olundu. Dünyanın 102 ölkəsindən 300-dən çox mətbuat nümayəndəsi Moskvaya dəvət olundu və demək olar ki, dünya sammiti çox böyük uğurla keçdi. Sammitdə mənimlə bərabər "Trend" agentliyinin baş direktoru İlqar Hü-

seynov və "Azerbaydjanskiye izvestiya" qəzetinin baş redaktoru Gülnarə xanım da iştirak edirdi.

– *Rusiyanın dövlət rəsmilərinin forumun işinə reaksiyası necə oldu?*

– İTAR-TASS-ın baş direktoru, Ümumdünya Media Sammitinin prezidenti Vitali İqnatenko forumu açaraq Rusiya Prezidenti Vladimir Putinin zirvə görüşü iştirakçılarına ünvanlanan təbrik məktubunu oxudu. Rusiyanın Baş naziri Dmitri Medvedevin təbrik məktubu da oxundu. BMT-nin baş katibi Pan Gi Mun isə zirvə görüşü iştirakçılarını video-müraciətlə təbrik etdi. Rusiya Dövlət Dumasının sədri Sergey Narışkin çıxışında KİV-lərin bu gününü və gələcəyini necə gördüyündən, həmin prosesdə parlamentarizmin əhəmiyyətli rolundan söz açdı və jurnalistlərin suallarını cavablandırdı. Çinin "Sinxua" agentliyinin prezidenti Li Suntszyun, "Röyter" agentliyinin mətbuat üzrə prezidenti Syuzan Teylor Martin və başqaları forumda çıxış etdilər. Birinci gün dünya informasiyasını maraqlandıran bir sıra aktual məsələlər müzakirə edildi. İkinci gün isə iclası Mixail Qusman açdı. Yaponiyanın "Kiodo", Çinin "Sinxua" və s. agentliklərin baş direktorları çıxış etdilər. Mən də çıxış etdim və suallara cavab verdim. Hesab edirəm ki, bu sammit bir daha göstərdi ki, regional xəbər alyansları ilə birlikdə Avropa Xəbər Agentlikləri Alyansı nə qədər əhəmiyyətli, nüfuzlu olsalar da, dünya informasiya siyasətinin qarşılaşdığı problemlərin həll olunmasında lazımi effekti tam verə bilmirlər. Dünya mediasının nəhəngləri də belə hesab edirlər ki, dünya sammiti davam etdirilməlidir. Heç olmasa, iki ildən bir dünya mediasının nəhəngləri bir yerə toplaşmalı və qarşıya çıxan problemlər müzakirə olunmalıdır. Problemlər isə hələ çoxdur.

Qlobal problem

– *Sammitdə müzakirə olunan əsas problemlər nədən ibarət idi?*

– Bütövlükdə XXI əsrdə informasiyanı nə gözləyir? Bu sual hamını düşündürür. Dünya informasiya nəhənglərinin, o cümlədən də şəxsən bizi narahat edən ən aktual mövzu ondan ibarətdir ki, artıq sosial şəbəkələr ənənəvi mediaya çox ciddi təsir göstərir. Nəinki təsir göstərir, hətta onu vurub sıradan çıxarmağa xeyli dərəcədə yaxınlaşır. Səbəb odur ki, insanlar innovasiya texnologiyalarının yeniliklərindən çox ağılla, dərrakə ilə istifadə edərək artıq özləri bir-birilərinə müxtəlif janrlı - həm görüntülü, həm səsli,

həm də infoqrafik xəbərlər göndərir, bir-biriləri ilə xəbərləşirlər. Ənənəvi media bu operativlikdən xeyli geri qalır.

Tutaq ki, cənab Prezidentin "Qaradağ sement" zavodunun açılışında iştirak etməsi ilə bağlı xəbər AzərTAc-ın müxbiri və ya istənilən ənənəvi medianın bir nümayəndəsi tərəfindən yazılır. Müxbir xəbəri yazaraq redaktora, o da öz növbəsində buraxılış redaktoruna verməlidir... Bu, xeyli dərəcədə vaxt aparır. Amma orada iştirak edən, heç bir jurnalist təhsili və jurnalistika ilə əlaqəsi olmayan bir adam hadisə baş verən kimi onunla bağlı bir cümləni Facebook-da yerləşdirəcək. Bu cümlə baş-ayaq olacaq və orada heç bir dil və üslub qaydalarına əməl olunmayacaq. Lakin buradakı ən vacib olan fakt insanları cəlb edəcək. Bir dəqiqənin içərisində 4-5 min adam bu xəbərə baxacaq. AzərTAc-ın və ya Azərbaycanda olan istənilən informasiya agentliyinin və yaxud elektron mətbuatın nümayəndəsinin buraxdığı xəbər isə gün ərzində özünə 1000-2000 oxucu toplamayacaq. Deməк, bu prosesin qarşısını almaq mümkün deyil. Moskva sammiti də göstərdi ki, sadəcə reallıqla razılaşmaqla bərabər, əgər ənənəvi media təcili tədbirlər görməsə, innovasiyalı texnologiyaların imkanlarından yüksək, daha yaradıcı səviyyədə istifadə etməsə, onda bu mübarizədə əsaslı surətdə geri qalacaq və uduzacaq. Ən çox narahatlıq gətirən problem sosial şəbəkələrlə ənənəvi media arasındakı gərginliyi aradan qaldırmaqdır. Moskva sammitinin keçirilməsinin əsas məqsədlərindən biri məhz bu idi. Bu, çox qlobal problemdir.

Operativlik qeyri-adi dərəcədə sürətlənməlidir

– XXI əsrin digər çağırışları hansılardır?

– XXI əsrin başqa çağırışları da var. Elə çağırışlar var ki, onlar mütləq müzakirə olunmalı, fikir mübadiləsi aparılmalıdır. Medianın bazar məsələsi, onun reklam məsələsi də çox böyük problemdir. Bütün bunlar Moskva sammitində ətraflı müzakirə olundu.

- Ənənəvi medianın mövqeyini necə qoruyub saxlamaq olar? Forumda problemin həlli ilə bağlı hansı təkliflər səsləndi?

– Əsas məqsəd ondan ibarətdir ki, operativlik qeyri-adi dərəcədə sürətlənməlidir. Bunun üçün isə innovasiyalı texnologiyadan maksimum istifadə olunmalıdır. Əgər 10 il bundan əvvəl AzərTAc-ın işlərinin xeyli hissəsi teletayp vasitəsilə görülürdüsə, 4-5 il bundan əvvələ qədər əsas

məhsulumuzun buraxılmasında faks maşınları və elektron poçtlar rol oynayırdı. İndi daha yeni innovasiyalı texnologiyalardan istifadə olunmalıdır. Mən özüm də, o biri agentliklərin baş direktorları da çıxışlarda bildirdik ki, informasiyanın dəqiqliyi, operativliyi, ahəngdarlığı və dilin zənginliyinin qorunması kimi prinsiplərə əməl olunmasına çalışmalıyıq. Bu, əsas şərtlərdən biridir. Lakin sosial şəbəkələrdə buna nəzarət etmək mümkün deyil. Faktlar cəlbedici olsa da, onların dürüstlüyü tam təminat vermir. Halbuki artıq dünyanın ən nüfuzlu ölkələri – ABŞ da, Avropa ölkələri də bir az əvvəl öz siyasətlərini ənənəvi medianın əldə etdiyi informasiyalar üzərində qururdusa, indi hətta, dövlətlər özləri də sosial şəbəkələrin informasiyasına daha çox meyillidirlər.

– *Səbəb nədir?*

– Səbəb ondan ibarətdir ki, bu, xalqın içindən gəlir. Sosial şəbəkənin informasiyası xalq düşüncəsinə daha yaxındır. Bütün dərinliklərə vara bilir. Sosial şəbəkədə heç bir qadağa, heç bir redaksiya, kənar müdaxilə yoxdur, tam sərbəstlikdir. Yəni insanın ürəyində nə varsa - gözlə gördüyü, qulağı ilə eşitdiyi nə varsa ondan istifadə edir. Sadəcə, informasiya oradadır. Bəs o informasiyanı necə götürməli? Bu informasiya dəqiq süzgəcdən keçirilməlidir. Ona görə də bir neçə il bundan əvvəl "Sinxua", "Assoşieyted Press", "Röyter, "Kiodo" agentlikləri sosial şəbəkələr şöbələri yaratmağa məcbur oldular. Azərbaycanda da informasiya siyasəti ilə məşğul olan təşkilatlarda mütləq sosial şəbəkələrlə iş şöbələri yaradılmalıdır. Bu, elə bir sahədir ki, diqqətdən kənarda qala bilməz. Düzdür, o idarəolunmazdır, ancaq oradakı faktlardan istifadə çox vacibdir. Bir halda, dünyanın nəhəng ölkələri öz siyasətlərini sosial şəbəkələr üzərində qurmağa nəinki meyillidirlər, hətta, bunu edirlərsə, onda başqa ölkələrdə də ənənəvi medianın təsir dairəsindən çıxmaq lazım gələcəkdir. Başqa yol yoxdur. Ənənəvi media da çalışır ki, nə varsa obyektiv çatdıra bilsin. Amma sosial media bunu xeyli dərəcədə üstələyir. Yenə deyirəm, burada çox dəqiq süzgəc lazımdır. Sənə lazım olan informasiyanı seçib götürməli, informasiyanı yenidən yoxlamalısan. Hər halda rəsmi dövlət siyasəti ilə məşğul olan təşkilatlar ondan olduğu kimi istifadə edə bilməzlər. Lakin o, çox gözəl bir mənbədir, xammaldır. Ona görə də mən bir neçə ştatları ləğv etmişəm və əvəzinə yeni bir şöbə – sosial şəbəkələrlə iş şöbəsi yaratmışam.

Gələcəyin informasiyası

– Siz sammitdəki çıxışınızda internet KİV-lərin və sosial şəbəkələrin inteqrasiyasının daha da genişlənəcəyini və təkmilləşəcəyini qeyd etmisiniz. İnternet nəşrlərini KİV adlandırmaq olarmı?

– Bu barədə diskussiyalar az olmayıb. Lakin mübahisələr öz yerində, internet isə "hücuma keçməkdə" davam edir. Məsələn, Azərbaycanda yalnız internetə əsaslanan özəl informasiya agentlikləri AzərTAc ilə açıq rəqabət aparmağa başlayırlar. Son vaxtlar sosial şəbəkələr, xəbər portalları, axtarış sistemləri xüsusi cazibə qüvvəsi qazanıblar. Qloballaşma tamamilə yeni bir informasiya məkanı – konverqasiyaya məruz qalmış interaktiv sosial medialar yaradıb. Bunlar ənənəvi və internet KİV-lərin, o cümlədən AzərTAc-ın işinə konkret təsir göstərir. Onlar ən iri nəşrlərin buraxdığı informasiyanı tamamlamaq və təhlil etmək imkanına malikdir. Jurnalistlər Birliyi bu məkanı sosial şəbəkələrdə dislokasiya olunmuş böyük bir "ordu" ilə tərəfdaşlıq şəraitində mənimsəməlidir.

– Bəs təsirə tam məruz qalmamaq üçün AzərTAc vəziyyətdən çıxış yolunu necə axtarıb tapır?

– 2010-cu ildə AzərTAc-ın 90 illiyi qeyd ediləndə Prezidentə məruzə etdim ki, dünya informasiya siyasətinin qarşılaşdığı problemlərdə AzərTAc-ın da yaxından iştirak etməsi, beynəlxalq alyanslarda və digər regional qurumlarda qazandığımız yerin əldə saxlanması üçün biz mütləq yeni xidmət sahəsi yaratmalıyıq. Onlarla tarazlaşmaq üçün başqa yol yoxdur. Çünki insanlar artıq televiziyanın qarşısında oturub xəbər gözləmirlər. Buna insanın nə vaxtı, nə də həvəsi var. Ümumiyyətlə, o, bunu özünə yaxın buraxmaq, vaxtını hədər yerə itirmək istəmir. İnsan istəyir ki, informasiyanı ona lazım olan vaxt – oturub çörək yeyəndə, yolda, maşında, hansısa bir görüşdə olarkən düyməni basmaqla əldə etsin. Ona görə mən bəri başdan deyirəm ki, əgər Azərbaycan televiziyaları yaxın gələcəkdə insanlara informasiya çatdırmaq formalarını dəyişməsələr, o televiziyalara heç kəs baxmayacaq. Onsuz da indi tamaşaçı xeyli azalıb. Əgər orada müxtəlif islahatlar aparılmasa, televiziya insanın öz yaxınına gəlməsə, ona heç kim baxmayacaq. İstənilən ailəyə gedin və görün: ailənin neçə üzvü televiziyanın qarşısında əyləşib. Görəcəksiniz ki, onların böyük əksəriyyəti öz otaqlarında kompyuterin arxasında oturaraq onlara lazım olan informasiyanı internet jurnalistikası vasitəsilə tapmağa çalışırlar.

Ona görə də biz ölkə Prezidentinin Sərəncamı ilə Multimedia-videoxəbər xidməti redaksiyası yaratdıq. İndi biz həm xaricdəki alıcılarımız, həm də yerli oxucularımız üçün görüntülü xəbərlər də buraxırıq. Hətta, mən bu redaksiyanı yaradanda bir çox televiziyalar "deyəsən, AzərTAc televiziya yaradır" – deyə təşvişlə fikirləşdilər. Bir halda ki, əgər televiziya sıradan çıxırsa, insanlar bu televiziyanı qəbul etmirlərsə, onda o televiziyanı nə üçün yaratmalıyam? Dağılan bir şeyi təzədən nə üçün qurmalıyam? Mən televiziya yaratmıram, mən insanlara görüntülü xəbər vermək istəyirəm. Bu redaksiyanı da məhz buna görə yaradıram.

Bundan sonra bir az sakitlik yarandı. Demirəm ki, indi biz məqsədimizə tam çatmışıq. Amma xeyli bünövrə yarada bilmişik. Kadrlar tapmışıq, studiyalar yaratmışıq, avadanlığımız var. Artıq AzərTAc-ın işçiləri sərbəst olaraq respublika üçün əhəmiyyətli olan beynəlxalq tədbirləri həm də görüntülü xəbər şəklində təqdim edirlər. O cümlədən, səsli xəbərlər də yayırıq. Bu cür xəbərlərin də dinləyiciləri çoxdur. İnsanlar tıxaclarda qalarkən, uzaq səfərlərə gedərkən informasiya eşitmək istəyirlər. Əgər bu informasiyanı axtarıb radiodan tapırlarsa, elə isə niyə AzərTAc-ın səsli xəbərindən eşitməsinlər? Düzdür, biz hələ bu dairəni tam qapaya bilməmişik. Hələ yeni başlamışıq, amma demək olar ki, səsli xəbərlər də artıq özünə xeyli dinləyici toplaya bilib. İndi daha yeni bir janr – infoqrafik janr yaranıb. Amma əslində bu janrın kökü daha qədimdir. İnsanlara daha obyektiv, daha lakonik informasiyalar lazımdır. Bunu infoqrafik yolla da əldə etmək olar. Əgər bir az əvvəl biz gün ərzində 3 infoqrafik xəbər qoyurduqsa, indi 15 belə xəbər qoyuruq. Görürük ki, buna maraq da çoxdur. Elə hesab edirəm ki, gələcəkdə informasiya yükü əsasən multimedia, videoxəbər xidmətinin üzərinə düşəcəkdir.

Çap mediası üçün təhlükə

– Siz internet jurnalistikasının, sosial medianın televiziyalar üçün yaratdığı təhlükədən danışdınız. Bəs çap mediası üçün hansı təhlükələr hiss olunur?

– Onda gəlin oradan başlayaq: mən nə üçün jurnalist oldum? Mən Cəbrayıl rayonunda, sıravi bir ailədə doğulmuşam. Orta məktəbdə oxuyanda müşahidə edirdim ki, "Kommunist" qəzetinin müxbiri rayona gələndə

bütün rəhbərlər ona necə diqqət göstərirlər. Adamlar da sonra onun nə yazacağını səbirsizliklə gözləyirdilər. Məqalə çıxanda isə qəzet əl-əl gəzirdi. Məni jurnalistikaya da bu maraq gətirdi.

Universitetin jurnalistika fakültəsini bitirdiyim vaxtlar Mərkəzi Komitə hüquq, şərqşünaslıq və jurnalistika fakültələrinin təyinatlarına xüsusi nəzarət edirdi. Məlum oldu ki, Ağcabədi rayonunda bir nəfər də ali təhsilli jurnalist yoxdur və bir neçə nəfər o rayona getməlidir. Siyahıda adı olanlardan biri də mən idim. Mən Ağcabədiyə getdim. 10 gündən sonra bizi pambıq yığımına apardılar. Çox əzablı idi, amma mən pambıq yığımında iştirak edirdim. Lakin mən orada respublika mətbuatı ilə müntəzəm əlaqə saxlayır, yazılar yazırdım. Qəlbimdə "Kommunist" qəzetində işləmək arzusu hələ də qalırdı.

O zaman bu qəzetə Tofiq Rüstəmov rəhbərlik edirdi. O, universitetdə müəllimim olmuşdu. Mən ərklə onun yanına gəldim və arzumu bildirdim. Bir həftədən sonra Tofiq müəllim əmrimi verdi və işə götürüldüm. Mən bu redaksiyada təxminən bir il işləyəndən sonra müşahidə etdim ki, artıq yazılı mətbuat təxminən öz təsirini itirir. Artıq televiziya yavaş-yavaş yazılı mətbuatı üstələyir və onu meydandan çıxarmağa başlayır. İnsanlar qəzet oxumağa yox, daha çox televiziyaya baxmağa meyil edirlər. Onlar öz informasiyalarını televiziyadan almaq istəyirdilər. Böyük əksəriyyət özünü efirdən görmək istəyirdi. Bir az əvvəl isə hamı arzulayırdı ki, onun haqqında "Kommunist" qəzetində yazsınlar və ya heç olmasa, adı-soyadı qəzetdə getsin. İndi isə artıq insanlar kütlə şəklində televiziyaya meyil edirdilər. Bu, onu göstərirdi ki, televiziya yazılı mətbuatı əməlli-başlı üstələyir. Çünki operativlik, informasiyanın insanlara çatması baxımından televiziya daha böyük imkanlara malik idi. Ölkənin ən ucqar nöqtəsində insanlar xəbəri eşidə bilirdilər. Ancaq qəzetin oralara gedib çatması üçün ən azı bir gün vaxt lazım idi.

Hazırda isə belə bir vəziyyət yaranıb ki, artıq internet jurnalistikası televiziyanı üstələyir. Televiziya vaxtilə yazılı mətbuata göstərdiyi təsirdən 5 qat artıq zərbə alır. Düzdür, biz o vaxtlar deyirdik ki, qəzetlə televiziyanın mübarizəsində yazılı mətbuat xeyli dərəcədə məğlub oldu, ancaq sıradan çıxmadı. İndi də dünyada bu mübarizəyə nəinki tab gətirən, hətta meydandan heç cür çıxmaq istəməyən nümunələr var. Yenə də onların mil-

yonlarla oxucuları var, insanlar onlara inanır, onları oxumaqdan həzz alırlar. Mən demirəm ki, televiziya da 5-10 ilə tam sıradan çıxacaq. Duruş gətirən, mübarizədə yerini qoruyub saxlaya bilən televiziyalar sözsüz ki, olacaq. Hər halda sosial jurnalistikanın ənənəvi mediaya çox ciddi surətdə zərbə vurması və onu sıxışdırıb meydandan çıxarmağa çalışması faktdır. Həyat göstərəcək ki, buna nail olacaq, ya yox. Şəxsən mən hesab edirəm ki, buna hələ uzun müddət vaxt lazımdır.

– Əgər bu gün naşı adamlar da sosial şəbəkələrdə informasiya ilə oynayırlarsa, onda cəmiyyətdə jurnalistin rolu nədən ibarətdir?

– Bu, təkcə sizi yox, bütün dünyanı düşündürür. Hətta "Sinxua"nın, "Röyter"in direktoru da "nə etmək lazımdır?" deyə düşünür. Bax, bunu tapmaq lazımdır. Biz insanlara informasiyanı elə sürətlə çatdırmalıyıq ki, onlar informasiyanı bizdə - ənənəvi mediada axtarsınlar. Mən bir jurnalist kimi qətiyyən sosial medianın üstündən xətt çəkmək istəmirəm. Belə bir fikrim də yoxdur. Hesab edirəm ki, ona hörmətlə yanaşmaq, onun inkişafına kömək etmək lazımdır. Amma bununla bərabər gərək elə edək ki, ənənəvi medianın da faydalı nəticələri – informasiyanın daha zənginliyi, faktın dəqiqliyi, xəbərin dil, üslub, redaktə baxımından ahəngdarlığına əməl olunsun. Elə şeylər var ki, bunu inkar etmək gələcəkdə pozuqluq yaradar. Hesab etmirəm ki, hər şeyə əl-qolumuzu soyudaq və deyək ki, sosial şəbəkələr var və artıq agentlikləri, televiziyaları bağlayaq. Xeyr, mən qətiyyən bu fikirdə deyiləm. Mən deyirəm ki, insanların dünyagörüşü, milli mənəvi dəyərlərimizi, əxlaqımızı, tərbiyəni qoruyub saxlamaq lazımdır. Biz çalışıb ənənəvi medianın işini elə qurmalıyıq ki, mübarizədə çox məğlub olmasın, tərəzinin aşağı gözündə durmasın. Heç bir ağıllı adam belə düşünməz ki, ənənəvi medianın da axırı gəldi. Heç kəs belə düşünmür. Onda cəmiyyətdə də bir qarmaqarışıqlıq yaranar, idarəolunmaz bir vəziyyətə gəlib çıxar. İnformasiyanı idarə etmək lazımdır, onu başlı-başına buraxmaq olmaz.

– Milli Mətbuat Gününə sayılı günlər qalıb. Azərbaycan mətbuatının bugünkü mövqeyini, yerini, vəziyyətini necə xarakterizə edərdiniz?

– Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra onu narahat edən ən mühüm məsələ Azərbaycanın dünyada təbliğ olunması, ideoloji işin aparılması ilə bağlı idi. O deyirdi ki, gərək Azərbaycan

mətbuatı dünya arenasına çıxsın, dünya informasiya şəbəkələrində yer tuta bilsin. Ümummilli lider Elmlər Akademiyasında keçirdiyi ilk tədbirinə başlayanda "gərək AzərTAc-ın müxbiri burada olsun" demişdi. O bilirdi ki, görülən işlər gərək dünyaya çıxarılsın. Ona görə də ulu öndər hakimiyyətə gələn kimi mətbuata, ilk növbədə, AzərTAc-a xüsusi diqqət yönəltdi. 3-4 ilin ərzində agentlik haqqında çox ciddi fərman və sərəncamlar çıxdı. İndi AzərTAc Avropa Xəbər Agentlikləri Alyansında digər nüfuzlu agentliklərlə tam bərabər mövqeli və ən fəal üzvlərdən biridir. AzərTAc-ın artıq 18 ölkədə müxbir məntəqəsi fəaliyyət göstərir. Dünyanın 30-dan çox ölkəsi ilə ikitərəfli müqaviləmiz var. Dairə hər il genişlənir. Hazırda AzərTAc altı dildə materiallar buraxır. Əvvəllər biz əsasən Azərbaycan, rus və ingilis dillərində xəbərlər buraxırdıqsa, artıq keçən ildən həm də alman, fransız və ərəb dillərində materiallar yayırıq.

Bu gün AzərTAc-la yanaşı Azərbaycan mətbuatı, televiziyalarımız, o cümlədən internet jurnalistikamız çox inkişaf edir. İstənilən ölkənin mətbuatı ilə Azərbaycan mətbuatını müqayisə etmək olar. Mən həmişə bütün çıxışlarımda da demişəm ki, Azərbaycanda demokratik mətbuatın inkişafı dünyanın heç bir ölkəsindən geri qalmır. Hətta, bir çoxları üçün nümunə ola bilər. Mən şəxsən Azərbaycan mətbuatının vəziyyətindən çox razıyam. Azərbaycan mətbuatı düzgün istiqamətdədir.

"Kaspi" qəzeti, 11-12 iyul 2012-ci il.
"Yeni Azərbaycan", "İki sahil" qəzetləri,
13 iyul 2012-ci il.

Dünyanın informasiya məkanında layiqli yeri olan Azərbaycanın uğurları diqqət mərkəzindədir

– Sizi 60 illik yubileyiniz və yüksək mükafat – "Şöhrət" ordeni ilə təltif olunmağınız münasibətilə təbrik edirik. Bu əlamətdar hadisələr barədə təəssüratları özünüzdən eşitmək maraqlı olardı.

– Hər iki hadisəni həyatımın heç zaman unudulmayacaq məqamı hesab edirəm. Çünki 60 yaş Tanrının qismətimə yazdığı ömür payıdır. "Şöhrət" ordeni isə möhtərəm Prezidentimiz İlham Əliyevin əməyimə verdiyi yüksək qiymətdir. Mənə yaratdığınız imkandan istifadə edərək cənab Prezidentə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Əslində bu mükafat təkcə mənə deyil, AzərTAc-ın kollektivinə, ümumiyyətlə milli mətbuatımıza göstərilən diqqət və qayğının təzahürüdür. Bu diqqət və qayğı kollektivimizin hər bir üzvündə ruh yüksəkliyi yaratmış, müasir müstəqil Azərbaycanın inkişaf dinamikasını daha geniş coğrafiyada təbliğ etmək əzmini qat-qat artırmışdır. Hazırda dünyanın informasiya məkanında özünə layiqli yer tutan Azərbaycanın uğurları nüfuzlu mətbuat orqanlarının, tanınmış siyasətçilərin, analitiklərin və politoloqların diqqət mərkəzindədir. Onlar öz şərhlərində, təhlillərində liderin rolu məsələsinə xüsusi diqqət yetirirlər. Bu barədə çoxsaylı misallardan ikisini diqqətə çatdırmaqla kifayətlənəcəyəm.

Fransada nəşr olunan "La Lettre diplomatique" jurnalı son illər Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlara toxunaraq yazır: "Ölkə rəhbərliyinin ayrı-ayrı vaxtlarda regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun aradan qaldırılması və ölkənin davamlı inkişafı və digər məsələlərlə bağlı qəbul etdiyi proqramlar və qərarlar son bir neçə ildə Azərbaycanın simasını tamamilə dəyişmiş, ölkəni dünyanın aparıcı dövlətləri sırasına çıxarmış, dünyadakı imicinin yüksəlməsinə səbəb olmuşdur".

ABŞ-ın nüfuzlu Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunun sədri Frederik Starr isə AzərTAc-ın müxbirinə müsahibəsində demişdir: "Səmimi deməliyəm ki, mən Prezident İlham Əliyevin pərəstişkarlarından biriyəm. Bilirsiniz, Amerika prezidentlərindən Teodor Ruzvelt özünə çox güvənən adam, güclü və maraqlı şəxsiyyət idi. Amma daim diqqət mərkəzində olmağı sevərdi. Prezident İlham Əliyevin ən güclü cəhətlərindən biri odur ki, onun üçün daim diqqət mərkəzində

olmaq əhəmiyyətli deyildir. O, bacarıqlı, tarazlı, düşünülməmiş qərarlara yol verməyən, rəyi ilə razılaşmadığı insanlara ehtiramla yanaşan bir şəxsiyyətdir. Mən onun Azərbaycandakı müxalifət nümayəndələri barədə hörmətlə danışdığını dəfələrlə eşitmişəm. O, şəxsi hissləri siyasətdən ayıra bilən adamdır. Bunların hamısı çox məsuliyyətli insana xas olan xüsusiyyətlərdir. Məncə, o, indiyə qədər ölkəsinə çox gözəl xidmət edib. İlham Əliyevi bir çox prezidentlərdən, hətta bəlkə də öz atasından fərqləndirən bir cəhət var. Heydər Əliyevə daim irəlidə olmaq istəyi xas idi. Məncə, bu, təkcə onun vəzifə borcu ilə bağlı deyildi, təbiətcə belə insan idi. Liderlik onun ən gözəl qabiliyyətlərini üzə çıxarırdı. Amma İlham Əliyev bütöv, xoşbəxt və fəal şəxsiyyətdir və mənə elə gəlir ki, bu, heç də onun Prezident olması ilə bağlı deyil. Başqa sözlə desəm, onun şəxsiyyəti bu vəzifə olmadan da bütövdür".

Hər bir vətənpərvər azərbaycanlının qəlbini iftixar hissi ilə dolduran bu fikirlərə əsaslanaraq, təəssüratlarımın mahiyyətini qısaca belə ifadə edərdim: məşhur nəşrlərin, simaların yüksək dəyər verdikləri şəxsiyyətin, liderin, dövlət başçısının rəhbərliyi altında çalışmağı etibar, şərəf, məsuliyyət və ləyaqət işi hesab edirəm.

– *Məqalələrinizin birində yazmısınız ki, AzərTAc-ın yaranması tarixi zərurət idi. Bu mənada sizi yenicə çapdan çıxmış "Müasir dünyanın informasiya şəbəkəsində AzərTAc-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri" adlı monoqrafiyanı yazmağa hansı zərurət sövq etmişdir?*

– Məni bu işə "Heydər Əliyev və AzərTAc", "AzərTAc-dan AzərTAc-a mürəkkəb və şərəfli yol", "AzərTAc-90" kitablarını yazmaq üçün apardığım araşdırmalar zamanı rast gəldiyim zəngin arxiv materialları, tarixi sənədlər, faktlar, informasiya işinin təşkili ilə bağlı yenilikləri öyrənib təcrübədə tətbiq etmək istiqamətində agentlikdə həyata keçirilən işlər sövq etmişdir.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan AzərTAc 1920-ci il martın 1-də fəaliyyətə başlamışdır. Doxsan bir illik inkişaf yolu keçməsinə baxmayaraq, agentliyin tarixi və fəaliyyəti ilə bağlı indiyədək ayrıca tədqiqat işi aparılmamışdır. Ayrı-ayrı yubiley məqalələrini, bəzi jurnalist xatirələrini nəzərə almasaq, demək olar ki, bu sahədə heç bir iş görülməmişdir.

Digər tərəfdən, Azərbaycan coğrafi mövqeyinə, müstəqil siyasətinə görə dünya informasiya arxitekturasında yeri, özünəməxsus imkanları olan bir

ölkə kimi tanınır. Keçən əsrin sonlarında Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra özünün informasiya siyasətini müəyyənləşdirmiş və bu siyasəti həyata keçirmək, beynəlxalq aləmdə nüfuzunu təsdiq etmək üçün informasiya işindən geniş istifadə etməyə başlamışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev siyasi fəaliyyətinin hər iki dövründə dövlət idarəçiliyində, yeni siyasi və iqtisadi potensialın səfərbər edilməsində, xalqın sosial vəziyyətinin yaxşılaşdırılmasında, milli mədəni dəyərlərin, elmin, təhsilin inkişafında informasiyanın geniş imkanlarından istifadə etməyin labüdlüyünü nəzərə almaqla, bu sahəyə böyük əhəmiyyət vermişdir. Məhz ümummilli liderin prezidentliyi dövründə AzərTAc-a dövlət agentliyi statusu verilmiş, onun fəaliyyəti əsaslı şəkildə yenidən qurulmuş, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün təsirli tədbirlər görülmüşdür. İndi Azərbaycan dünya informasiya məkanında öz yeri olan, yayılan xəbərlərin dəqiqliyi və etibarlılığı ilə seçilən bir ölkəyə çevrilmişdir. Ona görə də beynəlxalq miqyasda tanınmış informasiya agentlikləri nüfuzlu mənbə kimi AzərTAc-ın xəbərlərindən istifadə edir. Azərbaycanda görülən işlər, toplanmış təcrübələr, ölkəmizin qazandığı nüfuz müxtəlif təşkilatlar və beynəlxalq agentliklər tərəfindən yüksək qiymətləndirilmişdir. Bu yenilik və təcrübələrin ümumiləşdirilməsi, elmi cəhətdən araşdırılması da böyük aktuallıq kəsb edir.

AzərTAc-ın keçdiyi tarixi inkişaf yolunun, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında, dövlətçiliyin möhkəmlənməsində fəaliyyətinin, ölkəmizin qarşılaşdığı informasiya blokadasının aradan qaldırılmasında və Azərbaycan həqiqətlərinin dünyada yayılmasında rolunun, agentliyin dünya informasiya məkanına inteqrasiyası prosesinin araşdırılmasına ehtiyac da məhz belə bir zərurətdən irəli gəlmişdir.

– Azərbaycanın qədim, böyük və yeganə rəsmi xəbər agentliyi olan AzərTAc sürətlə qloballaşan dünyanın informasiya məkanına fəal inteqrasiya edir. Bu isə müasir innovasiyalardan istifadə etmədən mümkün deyildir. Agentlikdə bu istiqamətdə hansı yeniliklər vardır?

– Təxminən 10-15 il əvvəl informasiya agentlikləri mətn formatında olan xəbərlərin və fotoşəkillərin istehsalçısı idilər. Bu gün isə onların hamısı multimedia şirkətləridir. Proqnozlara görə, 10-15 ildən sonra iqtisadi potensial getdikcə daha sürətlə tükənməkdə olan xammal ehtiyatları

və enerji resursları ilə deyil, yeni elmi texnologiyaların inkişaf səviyyəsi ilə müəyyən ediləcəkdir. Bu mənada qlobal informasiya dünyasının ən müasir texnoloji innovasiyaları AzərTAc-ın fəaliyyətində də geniş yer tutmaqdadır.

Azərbaycanın yeni texnologiyalar erasına qədəm qoyması Prezident İlham Əliyevin "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2010-cu il 22 aprel tarixli Sərəncamında da xüsusi qeyd olunur. Sərəncamda deyilir ki, son illər Azərbaycan Respublikasının sürətli sosial-iqtisadi və demokratik inkişafı, ölkəmizin beynəlxalq nüfuzunun artması kütləvi informasiya vasitələrinin qarşısında yeni vəzifələr müəyyənləşdirmişdir. Qlobal informasiya məkanında mühüm dəyişikliklər baş verdiyi, yeni informasiya texnologiyalarının geniş tətbiq olunduğu müasir dövrdə Azərbaycan haqqında obyektiv məlumatların operativ şəkildə beynəlxalq ictimaiyyətə çatdırılması və dünyada baş vermiş hadisələr barədə cəmiyyətimizin hərtərəfli məlumatlandırılması kütləvi informasiya vasitələrinin fəaliyyətinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini tələb edir.

Həmin sərəncamın icrası ilə əlaqədar AzərTAc-da böyük təşkilati, texnoloji və struktur dəyişikliklər həyata keçirilir. Öz fəaliyyətini müasir tələblər səviyyəsində quran agentlik bu dəyişiklikləri etməyə məcburdur. Çünki bizim məhsulların istehlakçısı olan auditoriya daim hərəkətdədir. Onlar bütün gün ərzində, harada olmalarından asılı olmayaraq, dünyada nə baş verdiyini və nəyin mühüm olduğunu bilməyə can atır. Bu auditoriya artıq səhər qəzetlərində, televiziyaların və radioların xəbərlər proqramlarındakı informasiyalarla kifayətlənmir. Onlara maşında gedərkən, hətta küçədə gəzərkən müntəzəm və operativ xəbərlər lazımdır. Bununla əlaqədar, biz bazarın tələbinə uyğun olaraq redaksiyalarımızı birləşdirməyə, məhsullarımızı yaxşı formada bütün yaş qruplarından olan auditoriyaya çatdırmaq məqsədi ilə kağız və peyk xəbərlərinin vəhdətini yaratmağa başlamışıq. Buna görə də, hesab edirik ki, nəinki 10 il, neçə onilliklərdən sonra da milli informasiya agentliklərinin, o cümlədən AzərTAc-ın xəbərlərinə ehtiyac duyulacaqdır.

Bu məqsədlə, AzərTAc xəbər istehsalı və yayılmasında çox önəmli islahatlara, iddialı bir proqram həyata keçirməyə başlamışdır. Bu proqramın vacib cəhətlərindən biri xarici dillərdə informasiya baş redaksiyasının arxitekturasının yenidən qurulmasıdır. Artıq bu istiqamətdə ciddi addımlar

atılmış, ingilis və rus dillərindən başqa alman, fransız və ərəb dillərində də xəbər şöbələri yaradılmışdır. Bunun nəticəsində AzərTAc-ın xəbərləri artıq altı dildə dünyanın müxtəlif ölkələrinə yayılır.

Proqramın digər vacib cəhəti isə aparıcı milli xəbər agentliyi üçün yüksək standartlara cavab verən yeni multimedia və videoxəbər redaksiyasının yaradılmasıdır. Bu, gün ərzində fasiləsiz işləyən, siyasətdən tutmuş idmana qədər bütün mövzuları əhatə edən informasiya məhsullarını ortaya qoyacaq bir redaksiyadır. Bu istiqamətdə ixtisaslaşmış peşəkar jurnalistlər hadisə yerindən reportajları agentliyə ötürəcəklər. Rəqəmsal avadanlıqla işləyən redaktorlar günün əvvəlində xəbər mövzularını planlaşdırır, jurnalistlər tapşırıqları yerinə yetirir, çap xəbər redaktorları isə məhsulun istehlakçıya çatdırılması funksiyasını yerinə yetirirlər. Yeni rollar məsələsində ideal nəticə bütün media xəbərlərini idarə etmək və qərarları mümkün qədər tez verməkdir.

Bizim komanda informasiyanı müxtəlif mənbələrdən – dövlət və hökumət qurumlarından, qeyri-hökumət təşkilatlarından, hadisə yerlərindən, xəbər lentlərindən, xarici ölkələrdəki müxbirlərimizdən əldə edib onu daim yenilənən qaynar xəbər kimi hazırlayır və yayır. İndi AzərTAc-ın saytında səsli xəbərlərdən, audioslaydşoulardan, video, fotolent və infoqrafikadan geniş istifadə olunur.

Agentlikdə audio və videoxəbərlərin sayının artırılmasına və onların keyfiyyətinin daim yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Rus və ingilis dilləri ilə yanaşı, alman, fransız və ərəb dillərində də audio və videomaterialların hazırlanması istiqamətində intensiv iş gedir. Bu proqramın həyata keçirilməsi sayəsində AzərTAc-ın xarici ölkələrdəki auditoriyası xeyli genişlənəcək, beləliklə, agentliyin məhsullarının əcnəbi istehlakçıları Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı, demokratik vətəndaş cəmiyyəti quruculuğundakı nailiyyətləri, eləcə də Azərbaycan diplomatiyasının çoxvektorlu xarici siyasətdə uğurları ilə daha yaxından tanış olmaq imkanı əldə edəcəklər.

– Müasir dünyanın informasiya arxitekturasında mühüm yeri olan milli agentliklərin beynəlxalq əlaqələri sürətlə genişlənməkdədir. Bu prosesdə AzərTAc da fəal iştirak edir. Agentliyin beynəlxalq əlaqələr müstəvisində yeri və rolu barədə də məlumat verməyinizi xahiş edirik.

– AzərTAc-ın beynəlxalq əlaqələrinin qurulması Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı illərə təsadüf edir. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikasının dünya birliyində öz yerini tutması, ulu öndərin daxili və xarici siyasətinin müasir mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində ölkəmizin regionda şəksiz lider dövlətə çevrilməsi, beynəlxalq aləmdə nüfuzunun artması və mövqelərinin möhkəmlənməsi, habelə AzərTAc-ın maddi-texniki bazasının gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi sahəsində dövlət səviyyəsində görülən ardıcıl tədbirlər agentliyin xarici əlaqələrinin inkişafında, onun dünya informasiya məkanına çıxmasında həlledici rol oynamışdır. Beynəlxalq əlaqələrinin genişlənməsi AzərTAc-ın fəaliyyətinin strateji istiqamətidir.

Hazırda AzərTAc-ın dünyanın istənilən ölkəsi ilə birbaşa əlaqə saxlamaq, informasiya mübadiləsi aparmaq üçün ən müasir texniki imkanlara malik bazası, ən mükəmməl elektron poçt şəbəkəsi və internet saytı vardır. İndi hər gün AzərTAc-ın internet saytına dünya üzrə 10-12 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər.

Agentliyimiz hazırda Türkiyə, Rusiya, Çin, Ukrayna, İtaliya, Bolqarıstan, Misir, Serbiya, Macarıstan, İran, Rumıniya, İndoneziya, Belarus, Qazaxıstan, Koreya Respublikası, Yaponiya, CAR kimi 25 ölkənin milli informasiya agentlikləri ilə ikitərəfli sazişlər əsasında informasiya mübadiləsi aparır. Həmin sazişlər bilavasitə AzərTAc-ın tərəfdaşlarının təşəbbüsü ilə imzalanmışdır. Bu da Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun getdikcə artmasının daha bir təsdiqidir.

AzərTAc 2004-cü ilin sentyabrından dünyanın 33 ölkəsinin təmsil olunduğu Mərkəzi Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü, 2007-ci ildən büro üzvüdür. Bu uğur agentliyi beynəlxalq əlaqələr müstəvisində yeni mərhələyə çıxarmışdır.

AzərTAc beynəlxalq əlaqələr sahəsində daha bir uğura 2008-ci ildə imza atmışdır. Həmin il aprelin 18-də AzərTAc Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilmişdir. MDB məkanında Rusiyanın İTAR-TASS və Ukraynanın Ukrinform agentliklərindən sonra bu beynəlxalq media qurumuna məhz AzərTAc qəbul olunmuşdur.

AzərTAc Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), MDB-nin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Alyansının (ANİA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. Hazırda AzərTAc bu qurumlardan ikisinin - TKA və BSANNA-nın sədridir.

Hər gün bu regional qurumların saytında AzərTAc-ın Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatına dair orta hesabla 20-25 informasiyası yerləşdirilir.

Bu uğurlar beynəlxalq aləmdə AzərTAc-a marağı artırmışdır. Bunun nəticəsidir ki, 2008-ci ilin mayında TKA-nın Baş məclisinin 7-ci, həmin ilin oktyabrında OANA İcraiyyə Komitəsinin 30-cu, 2010-cu ilin martında Müstəqil Dövlətlər Birliyi Dövlət İnformasiya Agentliklərinin Rəhbərləri Şurasının 9-cu iclasları, 2011-ci ilin iyununda BSANNA-nın V Baş Assambleyası AzərTAc-ın ev sahibliyi ilə Bakıda keçirilmişdir.

AzərTAc-ın Türkiyə, Rusiya, ABŞ, Fransa, Almaniya, Avstriya, Macarıstan, Böyük Britaniya, Latviya, Yaponiya, Çin, İran, Ukrayna, Gürcüstanda, Orta Asiya və Qazaxıstanda, bir sözlə Avropa və Asiyanın əsas aparıcı ölkələrində müxbir məntəqələri fəaliyyət göstərir.

Müxbirlərimiz xaricdə baş verən aktual siyasi-iqtisadi mövzularla yanaşı, vacib ədəbi-mədəni hadisələrə dair operativ materiallar göndərməklə hərtərəfli əlaqələrimizin daha da möhkəmlənməsində mühüm rol oynayırlar. Biz çalışırıq ki, bu iş birtərəfli istiqamətdə getməsin, xaricdəki müxbirlərimiz həm də Azərbaycan haqqında ən mühüm informasiyaları çalışdıqları ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırsınlar.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan reallıqlarının yayılma coğrafiyasının genişləndirilməsi ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. İndi tam məsuliyyətlə demək olar ki, ümummilli liderin bu arzusu da reallığa çevrilmişdir. Azərbaycan qloballaşan dünyanın yeni informasiya məkanında öz yerini tutmuşdur və bunu getdikcə möhkəmləndirir.

http://yap.org.az/view.php?lang=az&menu=20&id=17151
1 sentyabr 2011-ci il.

Niyyətlər, perspektivlər, planlar

– Aslan müəllim, sizi 60 illik yubileyiniz və "Şöhrət" ordeni ilə təltif olunmağınız münasibətilə ürəkdən təbrik edirik! Müasir Azərbaycan jurnalistikasının görkəmli nümayəndələrindən biri kimi, sizin həyat və fəaliyyətinizi taleyini bu peşəyə bağlayanlar üçün örnək hesab etmək olar. Söhbətimizin əvvəlində xəyalən ömrünüzün gənclik çağlarına qayıtmağınızı, tələbəlik illərinizi, jurnalistikada ilk addımlarınızı xatırlamağınızı istərdik...

– Artıq uzaq keçmişdə qalan gənclik illərimi həyatımın o dövrün romantik əhval-ruhiyyəli kənd cavanlarının orta məktəbi bitirib Bakıya gəlmək, ali təhsil almaq, karyera qurmaq həvəsi ilə yaşadıqları bir mərhələsi kimi xatırlayıram. Mən də orta məktəbi bitirib jurnalist olmaq həvəsi ilə Bakıya gəldim, 1970-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olundum. Universitetin auditoriyalarında jurnalistikanın sirlərini öyrəndiyim unudulmaz müəllimlərim, qaynar tələbəlik həyatı, acılı-şirinli yataqxana mühiti, kitabxanalar, mühazirələr, seminarlar, imtahanlar yaddaşımın silinməz xatirələridir. Mən də digər tələbə dostlarım kimi, jurnalistikada ilk addımımı universitet auditoriyalarında atmışam. Fakültənin "Jurnalistika" qəzetində, təcrübə keçdiyimiz rayon və respublika mətbuatında yazılarımız çıxanda, necə deyərlər, uçmağa qanad tapmırdıq. Biz o zaman sadəcə tələbə-jurnalistlər idik. Böyük jurnalistikada isə yolum heç də hamar olmamışdır. Əmək fəaliyyətimə Ağcabədi rayon qəzetində müxbirlikdən başlamış, sonra Zərdabda və İmişlidə yerli qəzetlərdə şöbə müdiri işləmişəm. Qismətimdə yenidən qaynar Bakı həyatına qayıtmaq var imiş. Beləliklə, 1990-cı ilin dekabrından 1992-ci ilin noyabrınadək "Xalq qəzeti"ndə işlədim və burada təcrübəli həmkarlarımdan çox şey öyrəndim. Ancaq məni Azərbaycan Dövlət Teleqraf Agentliyində - AzərTAc-da daha çətin və məsuliyyətli jurnalist taleyi gözləyirmiş. Yenicə müstəqilliyə qovuşan Azərbaycanın tarixində təlatümlərlə yadda qalan 1992-ci ilin axırlarında məni AzərTAc-da müxbir vəzifəsinə işə qəbul etdilər...

– Uzun illər qəzet jurnalistikasında çalışandan sonra informasiya agentliyinə gəldiniz. Yaradıcılıq potensialınız, istedadınız məhz burada çalışdığınız illərdə özünü tam mənada büruzə verdi. Özü də bu illər ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrə düşür. Bu dahi

şəxsiyyətin xarici səfərlərini, görüşlərini, qəbullarını müntəzəm işıqlandıran müxbir, Azərbaycanın informasiya blokadasından çıxarılması sahəsində görülən möhtəşəm işlərin şahidi kimi, yəqin ki, o dövrlə bağlı maraqlı xatirələriniz vardır...

– Mən AzərTAc-da qəzet redaksiyalarından tam fərqli bir iş üslubu, yaradıcılıq mühiti ilə qarşılaşdım. Həm çətin, həm də maraqlı idi. Məhz bu maraq mənə çətinliklərin öhdəsindən gəlməkdə, mürəkkəb informasiya işinin incəliklərini öyrənməkdə kömək oldu. Ancaq mənim agentliyə gəlişim AzərTAc-ın heç də xoş günlərinə təsadüf etməmişdir. Lakin 1993-cü ilin yayında ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı bütün xalqımızda olduğu kimi, AzərTAc-ın kollektivində də ölkənin həyatında yaxşılığa doğru dönüşün başlandığına ümidlə inamı artırdı. Çox keçmədi ki, Azərbaycanın taleyində, tarixində yeni bir dövr, dönüş başladı.

Yaxşı yadımdadır. Prezident Heydər Əliyev ilk xarici səfərini 1993-cü ilin dekabrında Fransaya etdi. O vaxtkı Prezident Fransua Mitteranla aparılan danışıqların yekunlarına əsasən, ölkələrimiz arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı.

Dövlətimizin başçısının ilk səfərini məhz Fransaya etməsi heç də təsadüfi deyildi. Bunun səbəbini cənab Prezident dekabrın 21-də Parisdə mətbuat konfransında verdiyi bəyanatında çox aydın açıqlamışdır: "Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycan ilə Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur, Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələrin, ikitərəfli münasibətlərin gələcək inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir".

Fransanın dünyada güclü erməni diasporunun fəaliyyət göstərdiyi ölkələrdən biri olduğunu nəzərə alsaq, Azərbaycanın onunla əlaqələr yaratması, Avropada və ümumən dünya siyasətində böyük təsiri və rolu olan Fransada respublikamız haqqında həqiqətlərin yayılmasına nail olmaq çox vacib idi.

Azərbaycan Prezidenti Heydər Əliyevin sonra BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan daha iki ölkəyə – 1994-cü ilin fevralında Böyük

Britaniyaya və mart ayında Çin Xalq Respublikasına rəsmi səfərlərini də bu baxımdan ayrıca vurğulamaq lazımdır. Həmin səfərlər zamanı yüksək səviyyədə aparılan danışıqların dövlətlərarası əlaqələrin inkişafı baxımından tarixi əhəmiyyəti məlumdur. Lakin bu ölkələrin müxtəlif dairələrinin nümayəndələri ilə keçirilən görüşlərin Azərbaycanın təbliği, xalqımızın üzləşdiyi problemlər, ilk növbədə zorla cəlb olunduğumuz müharibə və bunun ağır nəticələri, ümumən ölkəmiz, onun zəngin təbii ehtiyatları, iqtisadi potensialı, xarici iş adamlarından ötrü sərmayə imkanları barədə geniş təsəvvür yaratmaq baxımından vacibliyi də diqqətdən yayınmamalıdır. Buna misal olaraq, möhtərəm Prezidentimizin Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında, Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışlarını, Pekində mətbuat konfransındakı bəyanatını, Pekin İctimai Elmlər Akademiyasında çıxışını göstərmək olar. Qətiyyətlə deyə bilərik ki, bunlar adi protokol çıxışları deyil, müstəqillik yoluna çıxmış, çox ağır və mürəkkəb problemlərlə üzləşən, lakin gələcəyə böyük ümid və inam bəsləyən Azərbaycan haqqında hərtərəfli məlumat, dərin məzmunlu, güclü məntiqə və obyektiv faktlara söykənən klassik mühazirələr idi.

Bütün bunları kimlərsə adi axarı ilə gedən dövlət siyasətinin nəticələri hesab edə bilər. Amma bu, əsla belə deyildir. Bundan ötrü daxildə ictimai-siyasi sabitlik yaratmaqla, ölkəni demokratik inkişaf, bazar iqtisadiyyatı yoluna çıxarmaqla yanaşı, dünyanı Azərbaycanda gedən bu proseslərə inandırmaq lazım idi. Bu isə hec də asan məsələ deyildi, turist, jurnalist kimi Azərbaycana gəlib-gedənlərin təəssüratları əsasında buna nail olmaq mümkün deyildi. Bunun yalnız və yalnız bir yolu vardı – ölkəmizin dünyaya açıq olduğunu, Azərbaycan həqiqətlərini beynəlxalq aləmə çatdırmaq, xarici iş adamlarını respublikamıza sərmayə qoymağın sərfəliliyinə inandırmaq. Mübaliğəsiz, birmənalı deyə bilərik ki, bunlara məhz cənab Heydər Əliyev nail ola bilərdi və nail oldu da.

Bir sözlə, möhtərəm Prezidentimizin BMT-nin, ATƏT-in yüksək tribunalarından etdiyi tarixi çıxışlarından tutmuş, çoxsaylı rəsmi və işgüzar səfərləri zamanı keçirdiyi görüşlər, apardığı danışıqlar yalnız bir məqsədə – Azərbaycanı dünyaya tanıtmağa, ölkəmiz haqqında əsl həqiqətləri, o cümlədən xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, nankor qonşularımızın təcavüzkar

siyasətini, əzəli torpaqlarımıza əsassız iddialarını beynəlxalq miqyasda bəyan etməyə, dünyanı buna inandırmağa, müstəqil dövlətimizin beynəlxalq aləmdə öz layiqli yerini tutmasına nail olmağa xidmət etmişdir. Dövlətimizin başçısı bu yolda heç kimin, o cümlədən bütünlükdə ölkəmizin təbliğat strukturlarının, kütləvi informasiya vasitələrinin görə bilmədikləri işi görmüşdür.

Yeri gəlmişkən, Azərbaycanın dünyaya tanıdılmasında respublikamızın kütləvi informasiya vasitələrinin müəyyən rolu da, ilk növbədə, Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əvvəla, dövlətimizin başçısı Azərbaycanda söz, fikir, mətbuat azadlığının təmin olunması üçün hər cür şərait yaratmışdır və KİV-lərə daim diqqət və qayğı göstərirdi. İkincisi, Azərbaycan Prezidenti KİV təmsilçilərini daim əsas problemlərə istiqamətləndirir, faktlara və hadisələrə obyektiv yanaşa bilmələri üçün dəyərli tövsiyələr verirdi. Birmənalı deməliyik ki, mətbuatla bağlılıq, jurnalistlərlə sıx ünsiyyətdə olmaq istəyi heç də bütün siyasətçilərə, dövlət xadimlərinə xas olan xüsusiyyət deyildir. Prezident Heydər Əliyev isə bu baxımdan tamamilə fərqlənirdi. Müqayisə üçün keçmiş Sovet İttifaqı məkanını götürsək, elə bir dövlət başçısı yoxdur ki, jurnalistlər Heydər Əliyevlə olduğu qədər onunla ünsiyyətdə olsunlar və ya buna can atsınlar. Bu mənada cəsarətlə deyə bilərik ki, ümummilli lider ilə daim ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları işıqlandıran Azərbaycan jurnalistləri həqiqətən yeni bir məktəb keçmişlər, Prezident Heydər Əliyevin jurnalistika məktəbində formalaşmışlar. Ona görə də ulu öndərin "Jurnalistlərin dostu" adına layiq görülməsi tamamilə təbii və qanunauyğun idi. Bu da öz bəhrəsini verdi. Azərbaycanın kütləvi informasiya vasitələrinin bir çoxu ölkəmizdə baş verən hadisələri ictimaiyyətə daha obyektiv çatdırmaqla yanaşı, müstəqil dövlətimizin dünyada tanıdılması, Azərbaycanın informasiya blokadasından çıxması üçün çox böyük iş görmüşdür.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi böhrandan inkişaf yoluna çıxarılmasında, ölkəmizin beynəlxalq aləmdə tanınması və dünya birliyində layiqli yerini tutmasında misilsiz xidmətlərini, bir sözlə, zəmanəmizin ən qüdrətli siyasi və dövlət xadimlərindən biri olmasını dövlət başçıları, məşhur siyasətçilər, diplomatlar da səmimiyyətlə etiraf edirlər.

– İndiki adı və yaranma tarixi Şərqin ilk demokratik respublikası – Azərbaycan Xalq Cümhuriyyəti ilə başlayan AzərTAc zəngin ənənələri olan bir media qurumudur. İnformasiya toplanmasının, hazırlanmasının və yayılmasının mükəmməl qayda və prinsipləri bu ənənələrin tərkib hissəsidir. Sizin rəhbərliyiniz dövründə AzərTAc-ın fəaliyyəti daha da təkmilləşdirilmiş, maddi-texniki bazası möhkəmləndirilmiş, kadr potensialı gücləndirilmişdir. Baş direktor kimi fəaliyyətə başlayarkən özünüz üçün hansı məqsəd və vəzifələri müəyyənləşdirmişdiniz? Ötən müddətdə düşündüklərinizi və nail olmaq istədiklərinizi tam reallaşdırmaq mümkün olubmu?

– AzərTAc özünün əsl inkişaf yoluna ötən əsrin 70-ci illərindən qədəm qoymuşdur. Həmin vaxtlar Azərbaycanda gedən genişmiqyaslı quruculuq işlərinin canlı şahidləri olanlar yaxşı xatırlayırlar ki, mətbuatın, o cümlədən AzərTAc-ın qaldırdığı hər hansı bir təşəbbüs ulu öndərimiz Heydər Əliyevin diqqətindən kənarda qalmırdı. Məhz o illərdə Azərbaycan mətbuatının, eləcə də AzərTAc-ın materiallarına milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği qələm sahiblərinin yaradıcılıq amalına çevrilmişdir.

Heydər Əliyevin böyük qayğısı sayəsində hələ ötən əsrin 80-ci illərində o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlığı ilə təchiz edilən AzərTAc keçmiş sovet respublikaları arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə fərqlənmişdi. Zamanın hökmü ilə 1920-ci il martın 1-də, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış AzərTAc ilk gündən azadlığın, demokratik dəyərlərin, xalqın amallarına cavab verən milli prioritetlərin carçısı olmuşdur.

AzərTAc onun qarşısında qoyulmuş vəzifələrin öhdəsindən öz təşəkkülünün ilk illərində də, Şərqdə ilk demokratik cümhuriyyətin süqutundan sonra sovet hakimiyyəti illərində də uğurla gəlmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli mətbuatın, o cümlədən AzərTAc-ın da inkişafını daim diqqət mərkəzində saxlayırdı. Bunun nəticəsidir ki, hazırda AzərTAc müasir avadanlıqla təchiz edilmiş, çoxşaxəli müxbir şəbəkəsinə, geniş beynəlxalq əlaqələrə malik olan güclü informasiya strukturudur. Bu uğurların qazanılmasında ümummilli liderin çox böyük xidmətləri olmuşdur.

Dünyanın aparıcı informasiya agentlikləri sırasında olan AzərTAc bu gün də dövlətin diqqət mərkəzindədir.

AzərTAc bir sıra ən iri regional xəbər agentlikləri birliklərinin, məsələn, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA), MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) üzvüdür. AzərTAc özünün 90 illik yubileyi ərəfəsində böyük səs çoxluğu ilə Avropa İnformasiya Agentlikləri Alyansına (EANA) üzv qəbul edilmişdir. Bu, agentliyin jurnalistlərinin – istər ölkədə, istərsə də bütün dünyada baş verən ən mühüm hadisələrin nəbzini tutmağı bacaran insanların yüksək peşəkarlığına verilən qiymətdir. Cari ilin ilk yeddi ayında dünyanın 90-dan çox ölkəsindən, o cümlədən ABŞ, Rusiya, Türkiyə, Almaniya, Fransa, Böyük Britaniya, Ukrayna, Avstriya, İndoneziya və başqa ölkələrdən olan istifadəçilər AzərTAc-ın saytına müraciət etmişlər.

Mən oxucuları statistik rəqəmlərlə yormaq istəməzdim. Ancaq rəqəmlər daha aydın təsəvvür yaradır. Çinin Sinxua, Yaponiyanın KYODO, Rusiyanın İTAR-TASS və Ria-Novosti, Türkiyənin Anadolu, İndoneziyanın ANTARA, Malayziyanın Bernama xəbər agentliklərinin, ümumiyyətlə, 33 ölkənin 39 informasiya agentliyinin üzv olduğu OANA-nın saytında təkcə bu ilin yeddi ayında Prezident İlham Əliyevin səfərləri, qəbulları, görüşləri, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın keçirdiyi tədbirlər, ümumiyyətlə, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatına dair 2954 xəbər yer almışdır. Həmin xəbərlərin ən azı 10-12-si hər gün bu informasiya resursunun baş səhifəsində yerləşdirilmişdir.

Gün ərzində AzərTAc-ın orta hesabla 24-25 informasiyası "Günün xəbərləri" bölməsində yerləşdirilmiş, həftə ərzində azı 30-32 informasiyamız ən çox oxunan xəbərlər sırasında olmuşdur. İlin əvvəlindən bəri bu saytda haqqında ən çox informasiya yayılan ölkələr sırasında Azərbaycan daim 1-3-cü yerləri tutmuşdur. OANA-nın üzvü olan 39 agentlikdən yanvar-iyul aylarında yalnız üçünün fotoinformasiyaları qurumun saytında yerləşdirilmişdir. Həmin agentliklərdən biri də AzərTAc-dır. Ölkəmiz haq-

qında fotoinformasiyaların OANA-nın saytında yerləşdirilməsi statistikasına görə Azərbaycan müntəzəm surətdə 1-2-ci olmuşdur.

Müasir müstəqil Azərbaycanın inkişaf dinamikası ilə bağlı AzərTAc-ın xəbərlərinin geniş yer aldığı informasiya resurslarından biri də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının - BSANNA-nın saytıdır. Ötən yeddi ayda bu saytda ölkəmizin həyatının ən müxtəlif sahələrinə dair 1614 xəbər yerləşdirilmişdir.

Azərbaycan reallıqlarının geniş təbliğ olunduğu informasiya resurslarından biri də Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA) internet səhifəsidir. TKA-nın sədri olan AzərTAc-ın bu qurumun saytında ötən yeddi ayda 2790 xəbəri yerləşdirilmişdir. Bu materiallar sırasında da əsas yeri dövlətimizin başçısı İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın keçirdikləri tədbirlərlə bağlı informasiyalar tutmuşdur.

Bu ildən AzərTAc ölkəmizin əldə etdiyi nailiyyətlərlə bağlı xəbərləri və fotoinformasiyaları daha bir regional qurumun – MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) saytında yerləşdirməyə başlamışdır. Ötən yeddi ayda bu informasiya resursunda Azərbaycanla bağlı 1182 xəbər yer almışdır. Həmin dövrdə informasiyaların sayına görə Azərbaycan üzv ölkələr arasında birinci yerdə olmuşdur. Söylədiklərimdən belə nəticəyə gəlmək olar ki, agentliyin qarşısına qoyulmuş vəzifələr uğurla reallaşdırılır.

Agentliyin kollektivi bundan sonra da öz peşəkarlığından və yaradılan imkanlardan istifadə edərək Vətənə, xalqa sədaqətlə xidmət edəcək, Azərbaycan haqqında bütün həqiqəti dünyanın geniş ictimaiyyətinə çatdıracaq, beləliklə, müstəqil Azərbaycan dövlətinin tərəqqisi naminə dünyada mövqelərimizi möhkəmlədəcəkdir.

– AzərTAc dövlətimizin informasiya siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Bu baxımdan onun fəaliyyəti dövlətimizin başçısının daimi diqqət və qayğısı ilə əhatə olunub. Prezident İlham Əliyevin "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Sərəncamının icrası qurumun işinə hansı yeniliklər gətirib?

– Azərbaycan dövləti KİV-in inkişafına böyük qayğı göstərir. Təkcə bunu demək kifayətdir ki, Prezident İlham Əliyevin sərəncamları ilə

qəzetlərin dövlət nəşriyyatına olan bütün borcları silinmişdir. Bu isə heç də az məbləğ deyildir. Hər il dövlətimizin başçısının ehtiyat fondundan müxtəlif nəşrlərə sanballı maddi yardım göstərilir. Onu da qeyd etmək lazımdır ki, bu məsələdə heç bir ayrı-seçkiliyə yol verilməmişdir: həm iqtidara münasibətdə loyal mövqe tutan media orqanları, həm də hər gün hökumətə ünvanlanmış tənqidi materiallarla çıxış edən müxalifətçi KİV-lər üçün nəzərdə tutulmuş pul vəsaitlərinin çox hissəsi redaksiyaların texniki təchizatına sərf ediləcəkdir. O ki qaldı AzərTAc-ın fəaliyyətinin təkmilləşdirilməsi haqqında sərəncama bunun agentliyimizin inkişafı üçün çox böyük bir əhəmiyyəti vardır. AzərTAc-ın xarici ölkələrdə müxbir məntəqələrinin sayı artıq 15-ə çatdırılmış, agentlikdə 5 xarici dildə - ingilis, rus, fransız, alman, ərəb dillərində informasiya buraxılışı təşkil olunmuş, multimedia - videoxəbər redaksiyası yaradılmış, jurnalistikanın yeni janrı olan infoqrafikadan istifadə olunmağa başlanmışdır. Hazırda AzərTAc-ın saytında səsli xəbərlərdən, audioslaydşoulardan, videoxəbərlərdən, fotolentlərdən geniş istifadə olunur. Həmin Sərəncama əsasən AzərTAc-ın yeni inzibati binası üçün torpaq sahəsi ayrılmış, tikinti işlərinə başlanmışdır. Yeni binada agentliyin əməkdaşlarının iş şəraiti daha mükəmməl və səmərəli olacaqdır. Bütün bunlar dövlətimizin başçısının müvafiq Sərəncamının AzərTAc-ın fəaliyyətinə gətirdiyi yeniliklərin heç də tam siyahısı deyildir...

– AzərTAc-ın dünya informasiya şəbəkəsinə inteqrasiyası prosesi necə gedir? Bu sahədə hansı nailiyyətlər, perspektivlər vardır?

- Qeyd etdiyim kimi, AzərTAc dünyanın iki ən böyük informasiya qurumunun - Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Avropa Xəbər Agentlikləri Alyansının (EANA) üzvüdür. Agentliyimiz həm də OANA-nın İcraiyyə Komitəsinin büro üzvüdür. AzərTAc, həmçinin Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. AzərTAc hazırda TKA-ya və BSANNA-ya sədrlik edir.

Agentliyimiz Azərbaycan həqiqətlərini, ölkəmizdə gedən sürətli sosial-iqtisadi inkişaf barədə məlumatları beynəlxalq aləmdə yaymaq, dün-

yanın qabaqcıl xəbər agentlikləri ilə informasiya mübadiləsi aparmaq istiqamətində səylərini davam etdirir. Perspektivlə bağlı niyyətlərimiz çoxdur, planlarımız çoxdur, onların barəsində indidən danışmağı məqbul hesab etmirəm.

Müsahibəni apardı: Möhtərəm Rəcəbova
"Respublika" qəzeti, 23 avqust 2011-ci il.

Azərbaycan jurnalistikası – 135 il

– Azərbaycan mətbuatının tarixi "Əkinçi" qəzeti ilə başlanır. İlk nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxmış bu nəşrin baş redaktoru Azərbaycanın görkəmli maarifçisi Həsən bəy Zərdabi olmuşdur. Sonradan ölkəmizdə nəşr edilən bütün qəzet və jurnallar, obrazlı şəkildə desək "Əkinçi" qəzetinin "şinel"indən çıxmış, onun ənənələrini davam etdirmişlər.

Azərbaycan milli mətbuatı 135 ildə çox böyük inkişaf yolu keçmiş, ölkənin tarixinin hər mərhələsində yeni təcrübə və ənənələrlə zənginləşmişdir. Ölkəmiz müstəqillik əldə edəndən sonrakı 20 ildə milli mətbuat daha coşqun inkişaf dövrü yaşamışdır. Bu illərdə qazanılmış ən böyük uğurlardan biri mətbuatda senzuranın ləğv edilməsi olmuşdur. KİV haqqında qanun qəbul edilmiş, bu qanun beynəlxalq təşkilatlarda ekspertizadan uğurla çıxmışdır. Dövri nəşrlərin sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Bu gün 9 milyon əhalisi olan Azərbaycanda 30-dan çox gündəlik və 100-ə yaxın həftəlik qəzet çıxır, 20-yə yaxın informasiya agentliyi, 8 ümumrespublika və 14 regional telekanal fəaliyyət göstərir.

Azərbaycan cəmiyyətinin açıqlığına dəlalət edən faktlardan biri də budur ki, ölkə əhalisinin 40 faizdən çoxu İnternet xidmətlərindən istifadə edir. Bu, Cənubi Qafqazın qonşu ölkələrində müvafiq göstəricidən çoxdur.

Milli Mətbuat bayramının özü müstəqilliyin məhsuludur: bu bayram ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2000-ci ildən başlayaraq hər il qeyd edilir.

Azərbaycan dövləti KİV-lərin inkişafına böyük qayğı göstərir. Təkcə bunu demək kifayətdir ki, ölkə Prezidenti İlham Əliyevin qərarı ilə bir neçə dəfə qəzetlərin dövlət nəşriyyatına olan bütün borcları silinmişdir. Bu isə heç də az məbləğ deyil. Hər il dövlət başçısının ehtiyat fondundan müxtəlif nəşrlərə sanballı maddi yardım göstərilir. Bu il də Milli Mətbuat Günü ərəfəsində ölkədə fəaliyyət göstərən 32 qəzetin hər birinə 20 min manat və ya təxminən 25 min dollar, 8 informasiya agentliyinin hər birinə 10 min manat və ya təxminən 13 min dollar məbləğində birdəfəlik maddi yardım ayrılmışdır. Onu da qeyd etmək lazımdır ki, bu məsələdə heç bir ayrı-seçkiliyə yol verilməmişdir: həm iqtidara münasibətdə loyal mövqe tutan media orqanları, həm də hər gün hökumətə ünvanlanmış tənqidi

materiallarla çıxış edən müxalifətçi KİV-lər üçün nəzərdə tutulmuş pul vəsaitlərinin çox hissəsi redaksiyaların texniki təchizatına sərf ediləcəkdir.

Prezidentin öz ehtiyat fondundan jurnalistlər üçün yaşayış evi tikilməsinə 5 milyon manat vəsait ayrılması barədə qərarı isə media birliyində daha böyük sevinclə qarşılanmışdır. Həmin qərarın çox operativ tərzdə qəbul edilməsi çoxlarının nəzərindən qaçmamışdır: mənzil problemləri məsələsi həmin gün səhər dövlət başçısının Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə qaldırılmış və cəmi bir neçə saatdan sonra İlham Əliyev yaşayış evinin tikintisi üçün sanballı məbləğ ayrılması barədə Sərəncam imzalamışdır.

Milli mətbuatın inkişafında xidmətlərinə görə 92 jurnalistin yüksək dövlət təltiflərinə layiq görülməsi də xoşagələn hadisədir. Bu halda da heç bir ayrı-seçkiliyə yol verilməmişdir: təltif edilənlərin siyahısında iqtidara yaxın nəşrlərin əməkdaşları ilə yanaşı, müstəqil və müxalifətçi KİV-lərdə işləyən jurnalistlərin də adları vardır.

Bütün bu faktları bəzən öz hesabatlarında Azərbaycanda dövlət ilə KİV arasında problemlər olmasından bəhs edən bəzi beynəlxalq təşkilatlara ismarıc kimi də qiymətləndirmək olar. Lakin milli mətbuatın yubileyinə həsr edilmiş bayram şənlikləri bir daha göstərdi ki, Azərbaycan dövləti mətbuata çox diqqətlə və ciddi yanaşır, müstəqil və güclü mətbuatın ölkədə mühüm ictimai təsisat kimi formalaşmasında maraqlıdır. Bütün başqa sahələrdə olduğu kimi, burada da yalnız bir əsas meyar var – Azərbaycanın milli maraqları.

Müsahibəni apardılar: Sevinc Abdullayeva, Viktor Şulman
www.itar-tass.com
29 iyul 2010-cu il.

Azərbaycan mətbuatı bu gün

– Aslan müəllim, siz Azərbaycan mətbuatının keçdiyi inkişaf yolunu necə qiymətləndirirsiniz? Müstəqillik illərində hansı uğurlar qazanılmışdır və qarşıda nə kimi vəzifələr durur?

– Azərbaycan mətbuatı çox çətin və eyni zamanda, şərəfli inkişaf yolu keçmişdir. Məlum olduğu kimi, Azərbaycan milli mətbuatının əsası 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşri ilə qoyulmuşdur. Xalqımız üçün yolgöstərən ulduza çevrilmiş bu qəzet öz ətrafında mütərəqqi fikirli ziyalıları birləşdirirdi. Onun səhifələrində elm, maarif, mədəniyyət, incəsənət və kənd təsərrüfatının inkişafı ilə bağlı məqalələr dərc edilir, qəzet xalqın mədəni tərəqqisi uğrunda mübarizə aparır, dini mövhumata və nadanlığa qarşı kəskin çıxışlar edirdi. Sonrakı illərdə "Ziya", "Kəşkül", "Şərqi-rus", "Həyat", "İrşad", "Füyuzat", "Təzə həyat", "Həqiqət", "Tərəqqi", "Molla Nəsrəddin" kimi qəzet və jurnallar məhz "Əkinçi"nin ənənələrini davam etdirmiş, milli oyanış və özünüdərk proseslərinə, əhalinin geniş təbəqələrinin maarifləndirilməsi işinə mühüm töhfələr vermişdir.

135 illik tarixə malik olan Azərbaycan milli mətbuatının zəngin ənənələri vardır. O, xalqımızın azadlıq, müstəqillik amallarının həyata keçməsinə, müstəqil Azərbaycan dövlətinin təşəkkülünə və inkişafına böyük töhfələr vermişdir. Əlbəttə, müxtəlif dövlət sistemlərinin və dövlət qurumlarının tərkibində fəaliyyət göstərən milli mətbuatımız istər-istəməz mövcud sosial-siyasi, mədəni-etik dəyərlərin bütün spektrini əks etdirmiş, eyni zamanda, problemlərin həllinə Azərbaycan xalqının mənəvi-əxlaqi keyfiyyətləri prizmasından yanaşmışdır.

Müstəqillik illərində ideya mürgüsündən oyanmış, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizənin ön sıralarında olmuş Azərbaycan mətbuatı azadlıq və müstəqillik carçısına çevrilmiş, Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır. Ölkəmizin düşdüyü informasiya blokadasının yarılmasında da mətbuatın rolu çox böyük olmuşdur.

Milli mətbuatımızın yaranma gününün bayram edilməsi müstəqilliyin məhsuludur. Bu bayram ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2000-ci ildən başlayaraq hər il iyulun 22-də – Azərbaycan dilində ilk

mətbu orqan olmuş "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün qeyd edilir.

Sürətlə qloballaşmaqda olan müasir dünyada milli mətbuatımızın qarşısında yeni vəzifələr durur. Bildiyiniz kimi, Azərbaycan sürətlə inkişaf edir, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu yolda çox böyük uğurlar qazanır. İndi analitiklər və politoloqlar "inkişafın Azərbaycan modeli" ifadəsindən tez-tez istifadə edirlər.

Bu modelin mahiyyətini təşkil edən əsas amil ondan ibarətdir ki, öz milli inkişaf strategiyasını yeni dünya nizamına uyğunlaşdıran müasir Azərbaycan dövləti qarşısına qoyduğu hədəflərə çatmaq üçün təkcə zəngin təbii sərvətlərinin gətirdiyi dividendlərlə kifayətlənmir, insan kapitalının formalaşması istiqamətində inamla irəliləyir. Buna görə də bizim ən birinci vəzifəmiz Azərbaycan reallıqlarını, nailiyyətləri və qələbələri ölkə və dünya ictimaiyyətinə çatdırmaqdır.

– Sizin fikrinizcə, Azərbaycan mediasının inkişaf sürəti dünya göstəricilərinə uyğundurmu?

– Azərbaycanda medianın inkişafına dövlət dəstəyini gücləndirmək üçün ardıcıl tədbirlər görülür, müvafiq dövlət konsepsiyası qəbul edilmişdir, dövlət KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsinə kömək edir. Bununla əlaqədar bütün zəruri qanunvericilik aktları qəbul edilir. Ölkədə söz, fikir və məlumat azadlığının inkişafı üçün bütün addımların atılması göz qabağındadır.

Bu gün Azərbaycan KİV-ləri intensiv şəkildə, bəlkə də dünya KİV-lərindən daha sürətlə inkişaf edir. Hər halda biz xarici ölkələrin aparıcı media konsernlərinin ən yeni texnoloji araşdırmalarından istifadə etmək imkanına malikik, təcrübə mübadiləsi proqramları, aparılan treninqlər də bu işdə mühüm rol oynayır. Əlbəttə, problemlər də vardır və biz onları birlikdə, necə deyərlər, elliklə aradan qaldırmalıyıq.

– Sizin çap və elektron KİV-lərin inkişaf səviyyəsi barədə fikirlərinizi bilmək maraqlı olardı. Onlardan hansı daha sürətlə inkişaf edir?

– Bu sahədə dinamikaya nəzər salsaq aydındır ki, çap məhsullarının rolu artıq bu gün xeyli dəyişmişdir. Yaşlı nəsil ənənəyə sadiq qalaraq qəzetləri çap variantında oxuyur, kütləvi tələbat isə əlbəttə, bu gün elektron KİV-lərin təqdim edə biləcəyi operativ xəbərlərədir.

Əlbəttə, heç nə yerində saymır, hər şey inkişaf edir. Məsələn, artıq elektron kağızlar, xüsusi cihazlar, o cümlədən qəzet oxumaq üçün qurğular da yaradılmışdır. Mən deyərdim ki, burada əsas jurnalistikanın bir peşə kimi gələcəyi məsələsidir. Bu gün bloqlarla və digər internet resursları ilə necə rəqabət aparmaq işi hamını düşündürür. Bu yeni aləmdə öz yerini tapmaq məsələsi tamamilə aktuallaşır. Aparıcı ekspertlərin əksəriyyəti əmindir ki, multimedianın böyük gələcəyi vardır, yəni hər bir KİV kombinə edilmiş olacaq, orada şəkillər, fonoqramlar və adi mətn üçün yer tapılacaqdır.

Bizim gündəlik həyatımızda çap informasiya vasitələri çox fəal inkişaf edir və əlbəttə ki, insanlar bu informasiya daşıyıcılarından dönə-dönə istifadə edəcəklər. Eyni zamanda, elektron informasiya vasitələri də çox sürətlə inkişaf edir. Artıq bu gün bu sahədə bir sıra yeniliklər, məsələn, elektron qeyd dəftərçələri, elektron boyalar və s. vardır.

Müasir dövrdə elektron informasiya vasitələrinin kitabları bir qədər sıxışdırması göz qabağındadır, lakin jurnallara, reklam kimi sahələrdə keyfiyyətli çap məhsullarına tələbat artır.

Ekspertlərin fikrincə, çap və elektron informasiya vasitələrinin kombinə edilmiş variantının daha da inkişaf edəcəyi gözlənilir və hibrid sistemlərin sayı getdikcə artacaqdır.

– Azərbaycan mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlər, habelə Azərbaycan Prezidenti İlham Əliyevin mətbuat işçilərinin təltif edilməsi və onların sosial müdafiəsinin gücləndirilməsi (məsələn, jurnalistlər üçün mənzillər tikintisinə əlavə 5 milyon manat ayrılması) haqqında sərəncamları mətbuatın inkişafı üçün nə dərəcədə əhəmiyyətlidir? Siz dövlətin mediaya qayğısını necə qiymətləndirirsiniz?

– İyulun 21-də və 22-də Azərbaycan Prezidenti KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsinə və jurnalistlərin sosial müdafiəsinə dair bir sıra sərəncamlar imzalamışdır. Ölkədə fəaliyyət göstərən 32 qəzetin hər birinə 20 min manat və ya təxminən 25 min dollar, 8 informasiya agentliyinin hər birinə 10 min manat və ya təxminən 13 min dollar məbləğində birdəfəlik maddi yardım ayrılmışdır. Onu da qeyd etmək lazımdır ki, bu məsələdə heç bir ayrı-seçkiliyə yol verilməmişdir: həm iqtidara münasibətdə loyal mövqe tutan media orqanları, həm də hər gün hökumətə ünvanlanmış tənqidi materiallarla çıxış edən müxalifətçi KİV-lər

üçün nəzərdə tutulmuş pul vəsaitlərinin çox hissəsi redaksiyaların texniki təchizatına sərf ediləcəkdir.

Prezidentin öz ehtiyat fondundan jurnalistlər üçün yaşayış binalarının tikilməsinə 5 milyon manat vəsait ayrılması barədə Sərəncamı isə media birliyində daha böyük sevinclə qarşılanmışdır. Bu qərarın çox operativ tərzdə qəbul edilməsi çoxlarının nəzərindən qaçmamışdır: mənzil problemləri məsələsi həmin gün səhər dövlət başçısının Mətbuat Şurasının idarə heyətinin üzvləri ilə görüşündə qaldırılmış və cəmi bir neçə saatdan sonra Prezident İlham Əliyev yaşayış binasının tikintisi üçün sanballı məbləğ ayrılması barədə Sərəncam imzalamışdır. Milli mətbuatın inkişafında xidmətlərinə görə 92 jurnalistin yüksək dövlət təltiflərinə layiq görülməsi də sevindirici hadisədir. Bu halda da heç bir ayrı-seçkiliyə yol verilməmişdir: təltif edilənlərin siyahısında iqtidara yaxın nəşrlərin əməkdaşları ilə yanaşı, müstəqil və müxalifətçi KİV-lərdə işləyən jurnalistlərin də adları vardır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə azad mətbuat sürətlə inkişaf edir. Azərbaycan milli mətbuatının 135 illik yubileyi günündə Mətbuat Şurasının yeni binası istifadəyə verilmiş, Prezident İlham Əliyev bu müstəqil qurumun idarə heyətinin üzvləri ilə görüşmüşdür. Yeri gəlmişkən, bu görüş kifayət qədər qeyri-ordinar hadisədir: dövlətimizin başçısının media nümayəndələri ilə şəxsən görüşməsi, onların qayğıları barədə söhbət etməsi, hətta, çoxəsrlik demokratik ənənələri olan ölkələrdə də nadir hadisədir.

Prezident həmin görüşdə müasir milli mətbuatın ən ümdə problemləri barədə fikirlərini söyləmiş, jurnalistlərin peşəkarlığı və məsuliyyətindən başlamış, onların sosial müdafiəsinə qədər müxtəlif məsələlərə toxunmuşdur. Dövlətimizin başçısı reklam məsələlərinin həllində, yerli KİV-lərin imicinə ciddi ziyan vuran qərəzli yazılara və "reket jurnalistikası"na qarşı mübarizə barədə qanun qəbul edilməsini şəxsən dəstəkləyəcəyini vəd etmişdir. Bütün bu faktları bəzən öz hesabatlarında Azərbaycanda dövlət ilə KİV arasında problemlərin olmasından bəhs edən bəzi beynəlxalq təşkilatlara ismarıc kimi də qiymətləndirmək olar. Lakin milli mətbuatın yubileyinə həsr edilmiş bayram şənlikləri bir daha göstərdi ki, Azərbaycan dövləti mətbuata çox diqqətlə və ciddi yanaşır, müstəqil və güclü mətbuatın ölkədə mühüm ictimai təsisat kimi formalaşmasında maraqlıdır.

Bütün başqa sahələrdə olduğu kimi, burada da yalnız bir əsas meyar vardır – Azərbaycanın milli maraqları.

– Bu illərdə Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın keçdiyi yol barədə bir qədər məlumat verərdiniz... Agentliyin gələcək planları necədir?

– Zamanın hökmü ilə 1920-ci il martın 1-də, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış AzərTAc ilk gündən azadlığın, demokratik dəyərlərin, xalqın amallarına cavab verən milli prioritetlərin carçısı olmuşdur. Eyni zamanda, bu, oxucu auditoriyasının genişləndirilməsi üçün, ölkədə baş verən hadisələr barədə əhaliyə operativ məlumat verən yaxşı bir vasitə idi.

AzərTAc onun qarşısında qoyulmuş vəzifələrin öhdəsindən öz təşəkkülünün ilk illərində də, Şərqdə ilk demokratik cümhuriyyətin süqut etdiyi dövrdə də, sonralar Böyük Vətən müharibəsi illərində də uğurla gəlmiş, azərbaycanlı əsgərlərin döyüş meydanlarında, sadə əməkçilərin arxa cəbhədə göstərdiyi şücaətlər, faşizm üzərində böyük Qələbənin yaxınlaşdırılmasına onların böyük töhfəsi haqqında söhbət açmışdır.

Sovet hakimiyyəti illərində AzərTAc ölkənin ictimai-siyasi həyatında böyük rol oynamış, Azərbaycanda aparılan bütün quruculuq işlərini işıqlandırmış, xalqımızı təkcə ittifaq çərçivəsində deyil, onun hüdudlarından uzaqlarda da məşhurlaşdırmışdır.

Ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəli AzərTAc-ın bütün əməkdaşları üçün siyasi yetkinlik baxımından ciddi sınaq dövrü olmuş, kollektiv bu sınaqdan şərəflə çıxmışdır. Ölkənin baş informasiya agentliyinin əməkdaşları mürəkkəb şəraitdə işləyir, ermənilərin hərbi təcavüzünə məruz qalmış, informasiya blokadasına düşmüş Azərbaycan haqqında həqiqətləri dünyaya çatdırmağa çalışırdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli mətbuatın, o cümlədən AzərTAc-ın da inkişafını daim diqqət mərkəzində saxlayırdı, çünki tarix boyu bütün müharibələrdə və savaşlarda uğur qazanmağın başlıca şərti informasiya cəbhəsindəki qələbə olmuşdur. Bu gün AzərTAc müasir avadanlıqla təchiz edilmiş, çoxşaxəli müxbir şəbəkəsinə, geniş beynəlxalq əlaqələrə malik olan güclü informasiya strukturudur. Bu uğurların qazanılmasında ümummilli liderin çox böyük xidmətləri olmuşdur.

Dünyanın aparıcı informasiya agentlikləri sırasında olan AzərTAc bu gün də dövlətin diqqət mərkəzindədir.

AzərTAc bir sıra ən iri regional xəbər agentlikləri birliklərinin, məsələn, Asiya və Sakit okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA), MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) üzvüdür. AzərTAc özünün 90 illik yubileyi ərəfəsində böyük səs çoxluğu ilə Avropa İnformasiya Agentlikləri Alyansına (EANA) üzv qəbul edilmişdir. Bu, agentliyin jurnalistlərinin – istər ölkədə, istərsə də bütün dünyada baş verən ən mühüm hadisələrin nəbzini tutmağı bacaran insanların yüksək peşəkarlığına verilən qiymətdir. Cari ilin ilk yeddi ayında dünyanın 90-dan çox ölkəsindən, o cümlədən ABŞ, Rusiya, Türkiyə, Almaniya, Fransa, Böyük Britaniya, Ukrayna, Avstriya, İndoneziya və başqa ölkələrdən olan istifadəçilər AzərTAc-ın saytına müraciət etmişlər.

Mən oxucuları statistik rəqəmlərlə yormaq istəməzdim. Ancaq rəqəmlər daha aydın təsəvvür yaradır. Çinin Sinxua, Yaponiyanın KYODO, Rusiyanın İTAR-TASS və Ria-Novosti, Türkiyənin Anadolu, İndoneziyanın Antara, Malayziyanın Bernama xəbər agentliklərinin, ümumiyyətlə, 33 ölkənin 39 informasiya agentliyinin üzv olduğu OANA-nın saytında təkcə bu ilin yeddi ayında Prezident İlham Əliyevin səfərləri, qəbulları, görüşləri, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın keçirdiyi tədbirlər, ümumiyyətlə, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatına dair 2954 xəbər yer almışdır. Həmin xəbərlərin ən azı 10-12-si hər gün bu informasiya resursunun baş səhifəsində yerləşdirilmişdir.

Gün ərzində AzərTAc-ın orta hesabla 24-25 informasiyası "Günün xəbərləri" bölməsində yerləşdirilmiş, həftə ərzində azı 30-32 informasiyamız ən çox oxunan xəbərlər sırasında olmuşdur. İlin əvvəlindən bəri bu saytda haqqında ən çox informasiya yayılan ölkələr sırasında Azərbaycan daim 1-3-cü yerləri tutmuşdur. OANA-nın üzvü olan 39 agentlikdən yanvar-iyul aylarında yalnız üçünün fotoinformasiyaları qurumun saytında yerləşdirilmişdir. Həmin agentliklərdən biri də AzərTAc-dır. Ölkəmiz haq-

qında fotoinformasiyaların OANA-nın saytında yerləşdirilməsi statistikasına görə Azərbaycan müntəzəm surətdə 1-2-ci olmuşdur.

Müasir müstəqil Azərbaycanın inkişaf dinamikası ilə bağlı AzərTAc-ın xəbərlərinin geniş yer aldığı informasiya resurslarından biri də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının – BSANNA-nın saytıdır. Ötən yeddi ayda bu saytda ölkəmizin həyatının ən müxtəlif sahələrinə dair 1614 xəbər yerləşdirilmişdir.

Azərbaycan reallıqlarının geniş təbliğ olunduğu informasiya resurslarından biri də Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA) internet səhifəsidir. TKA-nın sədri olan AzərTAc-ın bu qurumun saytında ötən yeddi ayda 2790 xəbəri yerləşdirilmişdir. Bu materiallar sırasında da əsas yeri dövlətimizin başçısı İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın keçirdikləri tədbirlərlə bağlı informasiyalar tutmuşdur.

Bu ildən AzərTAc ölkəmizin əldə etdiyi nailiyyətlərlə bağlı xəbərləri və fotoinformasiyaları daha bir regional qurumun – MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) saytında yerləşdirməyə başlamışdır. Ötən yeddi ayda bu informasiya resursunda Azərbaycanla bağlı 1182 xəbər yer almışdır. Həmin dövrdə informasiyaların sayına görə Azərbaycan üzv ölkələr arasında birinci yerdə olmuşdur.

Agentliyin kollektivi bundan sonra da öz peşəkarlığından və yaradılan imkanlardan istifadə edərək Vətənə, xalqa sədaqətlə xidmət edəcək, Azərbaycan haqqında bütün həqiqəti dünyanın geniş ictimaiyyətinə çatdıracaq, beləliklə müstəqil Azərbaycan dövlətinin tərəqqisi naminə dünyada mövqelərimizi möhkəmlədəcəkdir.

– Siz gənc kadrlara hansı ümidlərlə baxırsınız? Bu gün Azərbaycanda yaşlı nəslin layiqli əvəzi yetişdiyini deyə bilərikmi?

– Gənclik, həqiqətən böyük qüvvədir. Bu gün Azərbaycanın gənc oğlan və qızları öz əməli işləri ilə sübut edirlər ki, onlar ölkənin layiqli vətəndaşlarıdır. Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin möhkəmlənməsi, etibarlı gələcəyin təmin edilməsi çox cəhətdən gənclərin sosial-siyasi fəallığının artmasından asılıdır. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi və hazırda onun layiqli varisi Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət gənclər siyasətinin leytmotivini məhz bu konsep-

siya təşkil edir. Bütün bunlar bir daha təsdiq edir ki, dövlət gənclərə hər cür diqqət və qayğı göstərir, bundan sonra da gənclərin yolunda yaranan çətinliklərin aradan qaldırılması, cəmiyyətin həyatının bütün sahələrində gənclərin fəal iştirakının təmin edilməsi üçün zəruri tədbirləri görəcəkdir.

AzərTAc-ın işçiləri arasında istedadlı gənclər çoxdur, onlardan bəzilərinin iki ali təhsili var, xüsusi Prezident proqramı üzrə təhsil almışlar, yaxud aspiranturada oxuyurlar. Bizim vəzifəmiz gənclərin irəliləməsinə, karyera yüksəlişinə, onların öz peşəkar səviyyəsini artırmasına, öyrənməsinə kömək etməkdir. Bizim məqsədimiz bu gənclərin öz qüvvə və qabiliyyətini layiqincə tətbiq etməyə imkan tapmasına kömək etməyə çalışmaqdır. Biz belə hesab edirik ki, cavan işçilər öz karyera yüksəlişini müəyyən mənada planlaşdırmalıdırlar. Biz bu irəliləyişi izləməli və gənc mütəxəssislərə kömək etməliyik. Biz istəyirik ki, gənclər AzərTAc-a işə gələndə yaxın gələcəkdə onları hansı real perspektivlər gözlədiyini aydın təsəvvür etsinlər və beləliklə, onların əməyə stimulunu və motivasiyasını əhəmiyyətli dərəcədə artıraq.

– Siz mətbuatımızın gələcəyini necə görürsünüz?

– Ölkəmizdə demokratik dəyişikliklərin baş verməsi şübhəsizdir. Bu dəyişikliklər ictimai həyatın bütün sahələrində özünü göstərəcək, cəmiyyətin bütün seqmentlərinə yeni məzmun kəsb etdirəcək və təbii ki, Azərbaycan cəmiyyətində münasibətlərin forması da dəyişəcək, ölkədə mövcud olan dəyərlər ümumbəşəri dəyərlərə yaxınlaşacaqdır. Dəyişmiş, demokratik məzmun kəsb etmiş ictimai münasibətlər təbii ki, bu baxımdan yeniləşmiş mediaya da təsir göstərəcək, onlar irəliləməyə və tərəqqiyə mane olan ifrat siyasiləşmədən və qərəzli sifarişlərdən xilas olacaq, sözün həqiqi mənasında azad və müstəqil mediaya çevriləcəklər. Mən bu sözləri tam əminliklə deyirəm, çünki ölkəmizdə söz, fikir və informasiya azadlığı Azərbaycan Prezidentinin siyasi kursunun mühüm tərkib hissəsidir. Prezident İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışı münasibətilə çıxışında milli mətbuatımızın gələcəyi barədə çox dəyərli fikirlər söyləmişdir: "Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında, müstəqil medianın gücləndirilməsində görürəm. Çünki hələ ki, bizdə bu sahədə, xüsusilə yazılı mediada siyasiləşmə meyilləri çox güclüdür. Ola bilər ki, bu, müəyyən mərhələdə – Azərbaycanda siyasi sistem, siya-

si münasibətlər formalaşdığı bir dövrdə qaçılmaz idi. Ancaq mən hesab edirəm ki, bu gün medianın inkişafı üçün siyasiləşmə prosesi gərək azalsın. Çünki birinci növbədə, Azərbaycan cəmiyyəti siyasiləşmiş cəmiyyət deyildir. Azərbaycan cəmiyyəti vətənpərvər cəmiyyətdir. Dövlətə, dövlətçiliyə sadiq olan cəmiyyətdir, ancaq siyasiləşmiş cəmiyyət deyildir. Hesab edirəm ki, cəmiyyəti süni şəkildə siyasiləşdirmək bizə uğur gətirə bilməz. Hər şey təbii olmalıdır, o cümlədən mediada da. Siyasi sifarişlərlə çıxan orqanlar nə qədər az olarsa, bizim mediamız da o qədər həm güclü, həm də ki, daha da müsbət reputasiyaya malik olacaqdır".

– Müsahibəyə görə sağ olun.

1news.az, 27 iyul 2010-cu il.

Hansı informasiyanı almağa hazırıq?

Öz ölkəsinin vətəndaşı kimi hər birimizin informasiya almaq hüququ vardır. Bu hüquq qanunlarla tənzimlənir və müdafiə olunur. Ancaq informasiya aləminə baş vurmuş adam dəryaya düşmüş talaşaya bənzəyir. Hara üzməli? Hansı küləyin istiqamətində irəliləməli? Həqiqəti hansı limanda axtarmalı? Bu stixiyanın elə qanunauyğunluqları varmı ki, onlara bələd olub axtardığını tapmış olasan? Bu məsələnin həllinə müxtəlif KİV-lər kömək edir. Onlardan ən mötəbəri informasiya agentlikləridir. Qonağımız, Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın baş direktoru Aslan Aslanov ekskluziv müsahibəsində informasiyanın mahiyyəti və təsnifatı, onun cəmiyyətin və dövlətin həyatında rolu barədə fikirlərini bölüşür.

– Hörmətli cənab Aslanov, AzərTAc mart ayında 90 illiyini qeyd edir. Milli ənənələrə sadiq qalaraq, zamanla ayaqlaşan agentlik Qafqazda informasiyanın etibarlı generatorudur. İşinizi hansı prinsiplər əsasında qurursunuz?

– Müasir dövrdə Azərbaycan texnoloji əsası qlobal informasiya şəbəkələrindən ibarət olan elmi-texniki tərəqqidən kənarda qala bilməz. Ölkəmizin və agentliyimizin gələcəyi onların bu şəbəkələrdə səmərəli iştirakından xeyli dərəcədə asılı olacaqdır. Milli şəbəkələrin qlobal İnternet şəbəkəsinə real inteqrasiyası bu gün olduqca aktualdır. Əvvələn, bu, informasiya mübadiləsi zamanı ölkənin maraqlarını qorumaq üçün, ikincisi isə milli informresursların və informasiya-telekommunikasiya infrastrukturunun təhlükəsizliyini təmin etmək üçün lazımdır. Razılaşın ki, müasir KİV-lər hadisələri nəinki operativ əks etdirir, həm də daha çox informasiyanın təhlili, onun ilkin saf-çürük edilməsi və məqsədyönlü seçilməsi ilə məşğul olur, yəni insanların şüuruna güclü təsir vasitəsi olaraq, ictimai rəyi formalaşdırır və mühüm dövlət qərarlarının qəbul edilməsinə təsir göstərir.

– Sizinlə razılaşmamaq çətindir. Bəs, belə qərarlar üçün daha çox hansı informasiyaya ehtiyac vardır?

– Burada bir çox amil və faktları nəzərə almaq lazımdır. Onların toplanması bu gün ayrıca məsələdir və çox vaxt problemə çevrilir: informasiya nə qədər çoxdursa, onu yoxlamağa daha çox ehtiyac duyulur. İnformasiyanın satılması biznesə çevrilmişdir. Odur ki, onun müxtəlif mənbələri istehlakçının diqqətini cəlb etmək üçün rəqabət aparır. Bu mənbələr heç də həmişə

ehtiyacları ilə üst-üstə düşməyən öz məsələlərini həll edirlər. Əlbəttə, mövcud problemi sürətlə və keyfiyyətlə həll etmək üçün xüsusi tədqiqat sifariş etmək olar və bəzən hətta lazımdır. Ancaq çox vaxt informasiyanın əsas hissəsi artıq toplanmış olur və haradasa yatır. Biz belə informasiyanı, adətən, ikinci mənbədən alınmış informasiya adlandırırıq. Onun üstünlüyü eksklyuziv informasiyadan xeyli ucuz olmasındadır.

– Siz ikinci mənbədən alınmış informasiya dedikdə İnterneti nəzərdə tutursunuz?

– Xeyli dərəcədə bəli. Axı, bu informasiya ən əlyetər mənbələrdən biridir. Son bir neçə ildə İnternet güclü tədqiqat vasitəsinə çevrilmişdir. Buna baxmayaraq, o, adi təsəvvürə sığmayan informasiya məkanıdır. Bu şəbəkə tam idarə olunmayan, mətbu orqanlara və elektron bazalara oxşar standart formatı, iyerarxiyası, yaxud hərtərəfli indeksi olmadan müxtəlif xidmətlər təklif edən strukturlaşdırılmamış informasiya resursudur.

– Belə olan halda, istifadəçi Şəbəkədə tapdığı informasiyanın etibarlılığını necə müəyyən etməlidir?

– İnternetə müraciət etmiş istifadəçi ona təklif edilmiş istinadların 99 faizinin axtarış predmetinə heç bir aidiyyatı olmadığına hazır olmalıdır. İnformasiya mənbələrinin yoxlanması və qiymətləndirilməsi zərurəti bu və ya digər sorğuya cavab kimi verilmiş istinadlar siyahısına çox vaxt telekonfranslardan, forumlardan olan məktublara, habelə serverdən kənarlaşdırılmış məlumatların və s. daxil edilməsindən yaranır. Bu, daha çox axtarış serverlərinin sahiblərinə sərfəlidir, çünki onlar statistikanı yaxşılaşdırmaq və deməli, reklam şirkətlərinin vasitələrini cəlb etmək üçün, yəni özünüreklam xatirinə müraciət etmiş istifadəçilərin sayından yararlanmağa çalışırlar. Bütün çatışmazlıqlara baxmayaraq, İnternetdə saysız-hesabsız elmi informasiya yerləşdirilmişdir. Problem onu sürətlə əldə etmək yolunu tapmaqdır. Müəyyən mövzuya dair material axtararkən ilk baxışda maarifləndirici xarakter daşıyan, əslində isə kiminsə pərdələnmiş, saxta konsepsiya dərəcəsinə yüksəldilmiş şəxsi rəyindən ibarət olan yazıya rast gələ bilərsən. Əlbəttə, informasiyanın xeyli hissəsinin mənbələri elementar da olsa hər halda yoxlanılır.

İnternet bu və ya digər elmi işin biblioqrafiyasını sürətlə yoxlamağa imkan verir. İndi, keyfiyyətli rabitə hesabına bu işi əvvəlkinə nisbətən

daha sürətlə görmək, üstəlik, bu zaman mövzuya dair yeni nə isə bir şey öyrənmək mümkündür.

– *Şəbəkədən götürülmüş informasiyanı necə qiymətləndirirsiniz?*

– İnformasiya istifadə edildikdə qiymətli olur. Üstəlik, informasiyanın faydalılığı onun dolğunluğundan, səhihliyindən və gündəmdə olmasından asılıdır. O, vəziyyəti operativ qiymətləndirməyə, öz fəaliyyətini dəqiq planlaşdırmağa, müxtəlif kampaniyaların nəticələrini izləməyə imkan verir, qərar qəbul etmək üçün əsas olur.

– *İnformasiyanı necə təsnif edirsiniz?*

– İnformasiyanın növündən asılı olaraq, ona müəyyən tələblər irəli sürülür. İşgüzar informasiya qərarların qəbuluna təsir etdiyi üçün operativ olmalıdır. Valyutaların məzənnəsi, qiymətli kağızların kotirovkası, uçot norması kimi birja və maliyyə informasiyası isə sürətlə dəyişdiyi üçün tez-tez təzələnməlidir, əks halda, əhəmiyyətini itirir.

İşgüzar informasiya istehlakçılarının iqtisadi informasiyadan, şərhlər, proqnoz və məlumat bazalarından istifadə etmələri üçün onlayn yolu olmalıdır. Kommersiya informasiyası, o cümlədən müəssisələr, müəssisə rəhbərləri, satışlar haqqında informasiya da operativ olmalıdır. Məsələn, hətta ən etibarlı işgüzar tərəfdaşla biznesə başlamaq üçün onun haqqında bütün məlumatları yoxlamaq lazımdır. Odur ki, bu cür informasiyaya eyni tələblər irəli sürülür: müntəzəm yeniləşmə. Fərq yalnız onun dövriliyindədir. Belə deyək, həftədə azı bir dəfə.

Uzunmüddətli meyilləri və perspektivləri əks etdirən statistika tez-tez təzələnməməlidir. Hüquqi informasiya, o cümlədən qanunların, sərəncamların, normativ aktların mətnləri etibarlı mənbələrdən alınmalı, səhih və dolğun olmalıdır. Belə informasiya daxil olduqca sistemli şəkildə təzələnməlidir. Elmi-texniki informasiya, habelə ixtisaslaşdırılmış peşəkar informasiya bir qayda olaraq, elmin müvafiq sahələrində nəzəriyyə və təcrübə toplandıqca yavaş-yavaş dəyişilir.

– *İstehlakçılar daha çox hansı informasiyaya maraq göstərirlər.*

– Xəbərlərdən, elektron jurnallardan, sorğu kitablarından, ensiklopediyalardan, evdə istifadə üçün nəzərdə tutulmuş istehlak və əyləncə xarakterli informasiyadan, hava haqqında məlumatdan, nəqliyyatın hərəkət cədvəlindən ibarət kütləvi informasiyaya. Elektron kompyuter oyunlarını,

reklamı, alğı-satqı təkliflərini, otel və restoranların sorğu kitablarını, turizm xəbərlərini və s. də belə informasiyaya aid etmək olar.

– Xəbərləri xatırlatdınız. Onların mahiyyəti nədən ibarətdir?

Xəbərlərin işlənməmiş forması "çiy" informasiya növüdür, təkcə mahiyyət etubarilə deyil, hadisələrin, yaxud onların inkişafı dinamikası baxımından da qiymətlidir və çox vaxt sonradan işlənməli olur.

– İnformasiyanın yayılmasında informasiya agentlikləri nə kimi yer tuturlar?

– Sadalanan bütün informasiya növlərinin mənbələri müxtəlif mövzuda olan məlumat bazalarını bir araya gətirən dünyanın tanınmış informasiya agentlikləridir. İnformasiya şərhlər və jurnalist tapıntıları ilə dolğunlaşaraq təkcə KİV-lərə deyil, həm də qlobal Şəbəkəyə məhz buradan daxil olur. Bəzi xəbərlər qəzetlərdə və elektron nəşrlərdə məqalələr şəklində deyil, informasiya agentliyinə istinadla bloklar, yaxud bloqlar şəklində dərc olunur. Agentliklər informasiyanın kiçik hissəsini adətən, pulsuz, daha dolğun variantını isə pulla yayırlar. Dövri mətbu nəşrlərin elektron versiyaları getdikcə daha çox yayılır. Bu növ xidmətlərin üstünlüyü məlumatların analitik təhlili və poçt idarələrindən asılı olmaması imkanındadır.

– İnformasiyanın yayılması kanalları barədə danışaq. Sizcə, onların seçimində ortaq məxrəci harada axtarmalı?

– Yayılma kanallarının düzgün seçilməsi optimal olmalı, informasiyanı ünvana daha az resurs sərf etməklə, səmərəli çatdırmağa imkan verməlidir. Bu seçim, eləcə də informasiyanın təqdim edilmə forması, ilk növbədə həmin informasiyanın hansı məqsədli qruplar üçün nəzərdə tutulması ilə müəyyən olunur. Heç şübhəsiz, auditoriyanın ölçüsünü, onun keyfiyyət tərkibini, çatdırılma müddətini, hər bir kanalla yaymaq üçün zəruri olan resursları nəzərə almaq lazımdır. Belə xarakteristikalar informasiyanın yayılmasında prioritet yolları seçmək üçün həlledici rol oynayır.

– Sizcə, dövlətin informasiya siyasətinin mahiyyəti nədən ibarətdir?

– İqtisadi cəmiyyətin yeni tipinə keçid, hüquqi, əsl demokratik dövlətin qurulması, eyni zamanda informasiya cəmiyyətinin qurulmasını nəzərdə tutur. Bütün sivil ölkələr məhz bu amilə sosial-iqtisadi, siyasi və mədəni inkişafın əsası kimi baxır və bununla bağlı məqsədyönlü dövlət siyasəti yürüdürlər. Ölkənin informasiya resursları cəmiyyətin və dövlətin kapita-

lıdır. Milli informresursların formalaşması, toplanması, yayılması və kommersiya məqsədi ilə istifadəsi məsələləri ümumdövlət əhəmiyyəti daşıyır.

Müxtəlif ölkələrin informasiya siyasəti onların sosial-iqtisadi və mədəni inkişafının xüsusiyyətlərinə görə fərqlənir. Ancaq əsas strateji məqsəd birdir: inkişafı, informasiya cəmiyyəti qurulmasını, dünya informasiya məkanına inteqrasiyanı təmin etmək.

Müsahibəni apardı: Roman Suşşenko
"Raboçaya qazeta" (Ukrayna), 24 fevral 2010-cu il.
AzərTAc – 90. Bakı, "Şərq-Qərb", 2011-ci il.

Şərqdə ilk demokratik respublikanın xalqımıza bəxş etdiyi ən dəyərli milli sərvətlərdən biri də AzərTAc-dır

Martın 1-də Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) 90 yaşı tamam oldu. Bu, Azərbaycan milli mətbuatının tarixində çox əlamətdar hadisədir. İyul ayının 22-də milli demokratik mətbuatımızın 135 illiyini qeyd edəcəyik. Həmin dövrün 90 illik mərhələsini digər mətbu orqanlarımızla bərabər AzərTAc da tarixin yaddaşına yazmışdır. Mübaliğəsiz deyə bilərik ki, Şərqdə ilk demokratik respublikamızın xalqımıza bəxş etdiyi ən dəyərli milli sərvətlərdən biri də AzərTAc olmuşdur. Ötən müddət ərzində dünyanın aparıcı kütləvi informasiya vasitələrindən birinə çevrilmiş bu rəsmi dövlət qurumunun tarixi, onun yaranmasını zəruri edən amillər müstəqilliyimizin qazanılması ilə bağlıdır.

Müxbirimizə müsahibəsində AzərTAc-ın baş direktoru Aslan Aslanov bu amilləri xüsusi vurğulayır:

– Yarandığı gündən ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatına dair informasiyaların beynəlxalq ictimaiyyətə çatdırılması Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında duran ən aktual məsələlərdən biri idi. Bakı sahil radiostansiyasının Poçt və Teleqraf Nazirliyinə verilməsi bu istiqamətdə atılmış mühüm addımlardandır. Lakin informasiyaların qəbulu, ötürülməsi, bülletenlərin, yerli xəbərlər əsasında məlumat vərəqələrinin hazırlanması və nəşri üçün xüsusi avadanlıq, əlavə ştatlar tələb olunurdu. Bütün bu işlərin görülməsi kiçik radiostansiyaların imkanları xaricində idi. Bunun üçün ayrıca bir agentliyə ehtiyac vardı.

Azərbaycan Teleqraf Agentliyinin yaradılmasının zəruriliyi, yenicə müstəqilliyini qazanmış bir ölkə üçün onun əhəmiyyəti 1920-ci il fevralın 23-də parlamentin 127-ci iclasında "Bakı sahil radiostansiyasının ştatı haqqında" qanun layihəsinin müzakirəsi zamanı da vurğulanmışdı. Bildirilmişdir ki, texniki imkanların məhdudluğu üzündən Avropanın üç böyük stansiyasından eyni vaxtda gələn xəbərləri qəbul etmək mümkün olmur, radiostansiyadakı aparatlar sutka ərzində 70 mindən çox söz qəbul edə bilmir. Məlumat verilmişdir ki, hökumətin teleqraf agentliyi yaratmaq niyyəti var və bunun üçün layihə də hazırlanmışdır.

– Aslan müəllim, gəlin AzərTAc-ın keçdiyi yola nəzər salaq. Axı bu yol heç də hamar və birmənalı olmamış, müxtəlif dövrlərdən, müxtəlif ideologiyanı təbliğ edən dövlət quruluşlarından keçmişdi.

– "AzərTAc" imzası ilə ilk xəbərlər 1920-ci il martın 2-də Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olan "Azərbaycan" qəzetində dərc edilmişdir. İndi saralmış qəzet səhifələrindəki həmin xəbərləri gözdən keçirərkən AzərTAc-ın müstəqil dövlətin siyasi, iqtisadi, sosial və mədəni həyatının o vaxtkı yeniliklərinə necə həssaslıqla yanaşdığının şahidi oluruq.

Təəssüf ki, Xalq Cümhuriyyətinin özü kimi, onun ilk kövrək addımlarını atan müstəqil informasiya qurumu da çox qısa ömür yaşadı. Fəaliyyətinin ilk mərhələsində "AzərTAc" imzası milli tariximizə təqribən iki aylıq bir zaman kəsiyi ilə daxil olmuşdur.

AzərTAc-ın fəaliyyətinin ikinci mərhələsinin tarixi daha böyükdür. Xalq Cümhuriyyətinin süqutundan sonra bu qurum Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) filialı kimi müxtəlif adlar altında 70 il fəaliyyət göstərmişdir. Sovet imperiyası dövründə "informasiya işinin təşkili" anlayışı indiki meyarlardan tam fərqlənirdi. Həyatın bütün sahələrində olduğu kimi, söz, informasiya, mətbuat üzərində də ciddi ideoloji nəzarət var idi. Nədən yazmaq, necə yazmaq imperiyanın sərt qanunları ilə tənzimlənirdi. Həddən artıq ciddi senzura hökm sürürdü. Bu sədləri keçməyə cəhd edənlərin aqibəti tarixdən bizə yaxşı bəllidir. Stalin repressiyası illərində neçə-neçə ziyalımız, jurnalistimiz azad sözə və fikrə basqının qurbanı olmuşdur. AzərTAc-ın yolu da bu dəhşətli rejim qaydalarının girdabından keçmişdir. Sovet hakimiyyəti illərində imperiya ideoloqları azad sözdən, demokratik fikirlərdən çəkindikləri qədər heç nədən qorxmayıblar. Yeri gəlmişkən, cəsarətlə demək olar ki, Azərbaycanda bu qorxu buzunu məhz ulu öndərimiz, xalqımızın ümummilli lideri Heydər Əliyev elə sərt sovet rejimi illərində – siyasi hakimiyyətə gəlişinin birinci mərhələsində çox məharətlə qıra bilmişdir. Təbii ki, o dövrdə rəhbərlikdə olanların arasında da mətbuatın cəmiyyətə təsir gücünün böyük olduğunu bilənlər var idi. Lakin onlarda Heydər Əliyev qətiyyəti, cəsarəti, Heydər Əliyev müdrikliyi, uzaqgörənliyi yox idi. Heydər Əliyevin siyasi irsini, dövlətçilik fəaliyyətini araşdıranlar yaxşı bilirlər ki, müasir tarixdə mətbuatın cəmiyyətə təsir gücünün əhəmiyyətini onun qədər yüksək dəyərləndirən ikinci bir lider tapmaq

çətindir. Ulu öndərimiz hakimiyyətə gəldiyi ilk vaxtlardan şərəfli və zəngin ömrünün sonunadək mətbuata həmişə həm böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı vermiş, həm də onun ictimai nüfuzunun artmasına, fəaliyyət şəraitinin yaxşılaşdırılmasına xüsusi qayğı və diqqət göstərərək, həqiqi mənada, azad sözün təminatçısı olmuşdur.

Ötən əsrin 80-ci illərinin axırları – 90-cı illərin əvvəlləri Azərinformun jurnalistləri, eləcə də bütün əməkdaşları üçün çox ciddi siyasi kamillik, vətəndaş cəsarəti, vətənpərvərlik sınağı oldu. Təsərrüfat hesabı ilə fəaliyyət göstərən agentlik ən çətin günlərini yaşayırdı. Bununla belə agentliyin əməkdaşları bu çətinliklərə sinə gərərək öz vəzifə borclarını layiqincə yerinə yetirməyə çalışırdılar.

1990-cı ilin Qanlı Yanvar hadisələri buna misal ola bilər. Yanvarın 20-də sovet imperiyasının qoşunları Azərbaycana soxularaq, dinc əhaliyə tarixdə görünməmiş vəhşiliklə divan tutmuşdu.

Qəzetlərin çıxmasına imkan verilmədiyi, enerji bloku təxribatçılar tərəfindən partladıldığına görə Azərbaycan radiosu və televiziyasının susduğu həmin günlərdə insanlar baş vermiş hadisələrdən ancaq agentliyin Bakının müxtəlif yerlərində divarlara yapışdırılan bülletenlərindən xəbər tuturdular. Həmin bülletenlərdəki heç də bütün xəbərlər respublikanın o vaxtkı rəhbərliyinin xoşuna gəlmirdi.

Buna baxmayaraq, Azərinformun jurnalistləri öz peşə borclarına sadiq idilər və real faktlara əsaslanan doğru-düzgün məlumatı əhaliyə çatdırırdılar. Bu xəbərlərin başlıca dəyəri, ilk növbədə, onların operativliyində idi. Xəbərlər Azərbaycan və rus dillərində buraxılır, bəzən Azərinformun öz müxbirləri vasitəsilə respublikanın digər bölgələrində yayılırdı. Vərəqələr məxfi şəkildə, hərbi senzuradan (Azərinformun binasında onun daimi nümayəndəsi otururdu – *A.A*) gizli hazırlanır və qaranlıq düşən kimi Bakının müxtəlif məhəllələrində evlərin divarlarına yapışdırılırdı. Lakin səhər açılan kimi imperiya əsgərləri onları qoparıb atırdılar. O günlərin dəhşətli həqiqətini çılpaqlığı ilə nümayiş etdirən Azərinformun fotovitrininin də taleyi belə oldu.

Sonra müstəqillik illəri, AzərTAc-ın həyatında yeni dövr başlandı...

– Bu dövr AzərTAc-ın inkişafında mühüm dövrdür və bu inkişaf da ulu öndərin adı ilə bağlıdır...

– Düz deyirsiniz. AzərTAc-ın inkişafında ulu öndərin xidmətləri əvəzsizdir. Agentliyimiz özünün inkişaf yoluna ötən əsrdə – hələ bu dahi şəxsiyyətin respublikamıza rəhbərlik etdiyi 70-ci illərdə qədəm qoymuşdur. Həmin illərdə Azərbaycanda gedən genişmiqyaslı quruculuq işlərinin canlı şahidləri olan bizim nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, mətbuatın, o cümlədən AzərTAc-ın qaldırdığı hər hansı bir təşəbbüs ulu öndərimiz Heydər Əliyevin diqqətindən heç vaxt kənarda qalmırdı. Məhz o illərdə AzərTAc-ın, o cümlədən Azərbaycan mətbuatının fəaliyyətinə milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği qələm əhlimizin yaradıcılıq amalına çevrilmişdir. Bu mənada Böyük Azərbaycanlı – ümummilli liderimiz milli ruhlu yazarlarımızın ideya ilhamçısı, himayədarı olmuşdur.

Heydər Əliyevin böyük qayğısı və diqqəti sayəsində hələ ötən əsrin 70-80-ci illərində o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlığı ilə təchiz edilən AzərTAc keçmiş sovet respublikaları arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə sayılıb-seçilmişdir. Məhz Heydər Əliyevin yüksək nüfuzu, yenilməz iradəsi və qətiyyəti sayəsində Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompyuterləşdirilən informasiya agentliyi AzərTAc olmuşdur. AzərTAc o vaxtlar SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəz idi.

Amma çox təəssüflər olsun ki, 1987-ci ildə müdrik siyasi xadimin Moskvada Sovet İttifaqının ali rəhbərliyindən kənarlaşdırılması ilə bu qüdrətli insanın tükənməz övlad sədaqəti ilə sevdiyi, gərgin əmək, fitri istedad hesabına qurub abadlaşdırdığı, tikib səltənətə çevirdiyi Azərbaycanı "olum, ya ölüm" dilemması ilə üz-üzə qoydular. Ölkəmizi Dağlıq Qarabağ münaqişəsinin qanlı girdabına saldılar. Sonra yuxarıda xatırlatdığım qanlı 20 Yanvar faciəsi törədildi. Nəhayət, havadarlarına güvənən Ermənistan Azərbaycana qarşı total hərbi təcavüzə başladı, Xocalı soyqırımı törədildi, torpaqlarımızın 20 faizi işğal olundu. Bir milyondan çox azərbaycanlı öz vətənində qaçqına və məcburi köçkünə çevrildi.

Azərbaycanın o illərdə xalqa, Vətənə xəyanət yolu tutmuş rəhbərliyi təkcə maddi sərvətlərimizi deyil, milli ideoloji, milli mənəvi dəyərlərimizi də məhvə məhkum etdilər. Məhz o illərdə AzərTAc da ağrılı-acılı tale yaşadı. Milli mətbuatımıza ögey münasibət ölkənin aparıcı informasiya agent-

liyinin də taleyindən yan ötmədi. Mətbuat üzərində sovet senzurasından da sərt qaydalar, qadağalar qoyan Vəzirov, Mütəllibov, Müsavat-AXC hakimiyyəti guya mətbuata müstəqillik vermək adı ilə kütləvi informasiya vasitələrinə arxa çevirdilər. Maddi, mənəvi, siyasi və ideoloji dayaqlardan məhrum olan Azərbaycan mətbuatı, o cümlədən AzərTAc həlli mümkün olmayan problemlərlə üz-üzə qaldı. Bu ağır illərdə Azərbaycanda baş verən hadisələrə keçmiş ittifaq məkanında və ümumən dünyada münasibətin necə olduğunu o dövrün canlı şahidləri kimi yaxşı xatırlayırıq.

Belə bir məşəqqətli məqamda xilaskarımız yenidən qayıtdı və məmləkətimizi, dövlətçiliyimizi, xalqımızı dəhşətli bəlalardan xilas etdi. Ulu öndərimizin hakimiyyətə xalqın təkidli tələbi ilə qayıdışından sonra AzərTAc-ın da həyatında, sizin qeyd etdiyiniz kimi, inkişaf, tərəqqi, yüksəliş mərhələsi başlandı. Bu möhtəşəm qayıdışdan iki il sonra Azərbaycan Prezidenti Heydər Əliyevin 1995-ci il 3 mart tarixli Fərmanı ilə AzərTAc-a dövlət agentliyi statusu verildi. 2000-ci il 17 yanvar tarixli Fərmanla isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırıldı.

Ulu öndərimizin böyük qayğısı və diqqəti sayəsində AzərTAc-ın maddi-texniki bazası qısa müddətdə dünyanın aparıcı informasiya agentlikləri ilə bərabər səviyyəyə yüksəldi. Dünya informasiya məkanına sürətlə inteqrasiya edən AzərTAc xarici ölkələrdə bir-birinin ardınca müxbir məntəqələrini açdı. İndi MDB ölkələrinin agentlikləri arasında yeganə olaraq AzərTAc-ın ən müasir dünya standartları səviyyəsində fotoinformasiya laboratoriyası, internet şəbəkəsinə sürətli çıxışı təmin edən server avadanlığı, cərəyan kəsilsə belə üç saat ərzində agentliyin çoxşəbəkəli lokal kompyuter sistemini işlədə bilən ən mükəmməl yardımçı enerji təchizatı vardır. Məhz bunların nəticəsidir ki, hazırda istər ölkənin daxilindəki, istərsə də xaricdəki informasiya istehlakçılarına hər üç dəqiqədən bir informasiya göndərə bilirik. İndi AzərTAc dünyanın 90-dan çox ölkəsinə ingilis və rus dillərində xəbərlər göndərir və qəbul edir.

Ulu öndərimizin qurub-yaratdığı, siyasi memarı olduğu müasir müstəqil Azərbaycanın inkişaf sükanı etibarlı əllərdədir. Ümummilli liderimizin siyasi xəttini, milli inkişaf konsepsiyasını, ideoloji məfkurəsini çox böyük uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin diqqət və

qayğısı sayəsində AzərTAc informasiya işinin təşkilində daha böyük uğurlar qazanmaqdadır. Xatırladım ki, AzərTAc-ın 85 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə 18 əməkdaşımızın yüksək dövlət mükafatına – "Tərəqqi" medalına və "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülməsi bu qayğının bariz təzahürüdür.

– *İndicə AzərTAc-ın beynəlxalq əlaqələrini ötəri xatırlatdınız. Xahiş edirəm, bu əlaqələr və əməkdaşlıq barədə geniş məlumat verəsiniz.*

– Hazırda AzərTAc-ın dünyanın istənilən ölkəsi ilə birbaşa əlaqə saxlamaq, informasiya mübadiləsi aparmaq üçün ən müasir texniki imkanlara malik bazası, ən mükəmməl elektron poçt şəbəkəsi və internet saytı vardır. İndi hər gün AzərTAc-ın internet saytına dünya üzrə 10-12 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər.

Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Rumıniyanın, İranın, Bolqarıstanın, Çinin, Qazaxıstanın, Ukraynanın, Koreya Respublikasının, Küveytin, Macarıstanın, İndoneziyanın, Serbiyanın, Misirin, Albaniyanın, Latviyanın, Belarusun, Moldovanın, İordaniyanın, Monqolustanın, Qırğızıstanın, Tacikistanın aparıcı informasiya agentlikləri ilə əməkdaşlıq müqavilələri vardır. Bu müqavilələrin bir çoxu Azərbaycan Prezidenti İlham Əliyevin xaricə səfərləri zamanı dövlət və hökumət rəhbərlərinin iştirakı ilə imzalanmışdır.

AzərTAc 2004-cü ilin sentyabrından dünyanın 34 ölkəsinin təmsil olunduğu Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) və qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvüdür.

Agentliyimiz Avropa Xəbər Agentlikləri Alyansının (EANA) Baş Assambleyasının 2008-ci il aprelin 18-də Estoniyanın paytaxtı Tallinndə keçirilən iclasında bu quruma üzv qəbul edilmişdir. İclasda EANA-nın 29 üzvündən 26-sı AzərTAc-ın təşkilata üzv qəbul edilməsinə səs vermişdir. AzərTAc postsovet məkanında Rusiyanın İTAR-TASS və Ukraynanın Ukrinform agentliyindən sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi, təşkilatın isə sayca 31-ci üzvüdür. Bu qurumların üzvü olan ölkələrə gün ərzində 20-25 informasiya göndərir və qəbul edirik. AzərTAc Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA), habelə MDB-nin üzvü olan ölkələrin İnformasiya Agentlikləri Alyansının (ANİA) üzvü, Qara dəniz İqtisadi Əməkdaşlıq

Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir.

AzərTAc Bakıda beynəlxalq təşkilatların bir sıra iclaslarını uğurla keçirmişdir. 2008-ci il aprelin 29-dan mayın 3-dək müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin "Türkdilli ölkələrin əlaqələrinin inkişafında xəbər agentliklərinin əməkdaşlığının rolu" mövzusunda VII iclasını təşkil etmişik. İclasda AzərTAc-ın, Türkiyənin Anadolu Ajansının, Qazaxıstanın Kazinform, Qırğızıstanın "Kabar", Şimali Kiprin TAK agentliklərinin, habelə qonaq qismində Rusiya Federasiyasının Tatarıstan və Başqırdıstan respublikalarının "Tatarinform" və "Başinform" agentliklərinin, Ukraynanın Krım Muxtar Respublikasından "Krım xəbərləri" agentliyinin rəhbərləri, Türk İşbirliyi və İnkişaf Agentliyinin (TİKA) təmsilçiləri iştirak etmişlər. Tədbirdə bir sıra mühüm qərarlar qəbul edilmişdir. Bizim təklifimizlə Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyinin adı dəyişdirilərək Türkdilli Xəbər Agentlikləri Birliyi adlandırılmışdır. Məhz bu qərarın qəbulundan sonra "Tatarinform", "Başinform" və "Krım xəbərləri" agentlikləri Birliyə üzv qəbul olunmuşlar. Bu, iclasın rəsmi yekun sənədində öz əksini tapmışdır. TKA Baş Məclisi VII iclasının materialları Azərbaycan və rus dillərində ayrıca kitab halında nəşr edilmişdir.

Ötən il sentyabrın 1-4-də Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının – OANA-nın İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclasına AzərTAc ev sahibliyi etmişdir. İlk dəfə olaraq, 21 ölkənin milli informasiya agentliklərinin rəhbərləri və yüksək vəzifəli təmsilçiləri Azərbaycan paytaxtına gəlmişdilər. İclasda OANA-nın prezidenti, İndoneziyanın Antara agentliyinin baş icraçı direktoru Əhməd Muxlis Yusuf və üzv agentliklərin rəhbər və yüksək vəzifəli təmsilçiləri ilə yanaşı, AzərTAc-ın dəvəti ilə, Avropa Xəbər Agentlikləri Alyansının – EANA-nın prezidenti, Avstriyanın APA agentliyinin baş icraçı direktoru Volfqanq Vislozil, Bolqarıstanın BTA agentliyinin baş direktoru, Fransanın Frans Press agentliyinin departament rəhbəri, habelə İordaniyanın PETRA agentliyinin nümayəndəsi də iştirak etmişdir. Şərq və Qərb ölkələrinin aparıcı informasiya agentliklərinin rəhbərlərini bir araya gətirmək sahəsində AzərTAc-ın ilk dəfə həyata keçirdiyi bu təcrübə iclas

iştirakçıları tərəfindən rəğbətlə qarşılanmış, gələcəkdə bu təcrübədən istifadənin məqsədəuyğun olduğu bildirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclas iştirakçılarına təbrik məktubu göndərmiş, sentyabrın 2-də onları qəbul etmişdir. İclas çərçivəsində "Mədəniyyət", "Təbiət" və "İdman" nominasiyalarında fotomüsabiqə keçirilmişdir. Qaliblərə OANA-nın və AzərTAc-ın xüsusi diplomu, qiymətli hədiyyələri təqdim edilmişdir. İclasın materialları Azərbaycan, ingilis və rus dillərində ayrıca kitab şəklində nəşr edilmişdir.

AzərTAc-ın Türkiyə, Rusiya, ABŞ, Fransa, Almaniya, Avstriya, İran, Ukrayna, Gürcüstanda, Orta Asiya və Qazaxıstanda müxbir məntəqələri fəaliyyət göstərir. Yaxın gələcəkdə onların sayının artacağı gözlənilir. Müxbirlərimiz xaricdə baş verən aktual siyasi-iqtisadi mövzularla yanaşı, vacib ədəbi-mədəni hadisələrə dair operativ materiallar göndərməklə hərtərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə mühüm kömək göstərirlər. Xarici məmləkətlərdəki müxbirlərimiz təkcə həmin ölkələrin deyil, region dövlətlərinin də həyatında baş verən yenilikləri operativ surətdə Azərbaycan oxucusuna çatdırmağa səy göstərirlər. Biz çalışırıq ki, bu iş birtərəfli istiqamətdə getməsin, xaricdəki müxbirlərimiz həm də Azərbaycan haqqında ən mühüm informasiyaları çalışdıqları ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırsınlar.

Azərbaycanla fəaliyyət göstərdikləri ölkələr arasında, necə deyərlər, ünsiyyət körpüsü rolunu oynayan xarici müxbirlərimizin işini canlandırmaq üçün təsirli tədbirlər görülür. Bu işdə AzərTAc-ın yeniləşdirilmiş saytı mühüm rol oynayır. AzərTAc-ın saytı BMT-nin Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet səhifəsində yerləşdirilmişdir. Agentliyimiz 2004-cü ildə İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafatına, 2005-ci ildə isə Madriddəki biznes təşəbbüsü mərkəzinin xüsusi keyfiyyət və yüksək texnologiya üçün "Avropaya qapı" beynəlxalq qızıl mükafatına layiq görülmüşdür. Əməkdaşımız Osman Kərimovun fotosu İspaniyada dünyanın 90 ölkəsinin aparıcı informasiya agentlikləri fotomüxbirlərinin işlərinin təqdim olunduğu müsabiqənin "Bayram" nominasiyasında münsiflər heyətinin yekdil qərarı ilə birinci yeri tutmuşdur.

– Bəs, AzərTAc-ı dövlət informasiya agentliyi kimi fərqləndirən cəhətlər hansılardır?

– Bilirsinizmi, informasiya yayan orqanın mənsubiyyəti, onu kimin maliyyələşdirməsi oxucunu, dinləyicini qətiyyən maraqlandırmır. Hər şeyi fakt həll edir. İnformasiya agentliyinin vəzifəsi faktı, hadisəni ictimaiyyətə doğru-düzgün çatdırmaqdır. Mahiyyət, dediyim kimi, iş prinsipində, faktlara, hadisələrə yanaşma tərzindədir. Mən deyərdim ki, bunlar təkcə jurnalistin səriştəsindən yox, həm də dünyagörüşündən, vətəndaş mövqeyindən, mənəvi saflığından da asılıdır.

Jurnalistlərimiz informasiyaya çevirmək istədikləri faktları dəfələrlə, bir neçə mənbədən dəqiqləşdirirlər. Hər bir informasiyanın doğura biləcəyi reaksiyanı nəzərə alırlar. Elə bunun nəticəsidir ki, indiyədək, bir dəfə də olsun təkzib vermək məcburiyyətində qalmamışıq.

Gördüyünüz kimi, elə bir əsaslı fərq sadalamadım. Dediklərimin hamısı adi jurnalist etikası çərçivəsində gözlənilməsi vacib olan tələblərdir.

– Müsahibəyə görə sağ olun.

"Milli Məclis" jurnalı, mart-aprel 2010-cu il.

Azadlıq arzularının carçısı

Respublikanın ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatının elə bir sahəsi yoxdur ki, AzərTAc-ın xəbərlərində müntəzəm olaraq öz əksini tapmasın.

Hazırda hər gün AzərTAc-ın internet saytına dünya üzrə 10-12 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər. Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Rumıniyanın, İranın, Bolqarıstanın, Çinin, Qazaxıstanın, Ukraynanın, Koreya Respublikasının, Küveytin, Macarıstanın, İndoneziyanın, Serbiyanın, Misirin, Albaniyanın, Latviyanın, Belarusun, Moldovanın, İordaniyanın, Monqolustanın, Qırğızıstanın, Tacikistanın milli informasiya agentlikləri ilə əməkdaşlıq müqavilələri vardır Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın 90 yaşı tamam olur. Ötən 90 ildə AzərTAc mürəkkəb, eyni zamanda, şərəfli bir yol keçib. Bu xidmətə ən layiqli qiyməti ümummilli lider Heydər Əliyev verib: "AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının carçısına çevrilmişdir". Agentliyin təkcə adının 7 dəfə dəyişdirilməsinin – AzərTAc, AzQafROSTA, AzərTA, ZaqTA, yenidən AzərTA, daha sonra Azərinform, nəhayət, AzərTAc – özü keçilmiş tarixi yolun mürəkkəbliyini təsdiq edən faktlardan biridir.

– AzərTAc-ın keçdiyi tarixi yolu necə xarakterizə edərdiniz?

– Şərqdə ilk xəbər agentliklərindən biri olan AzərTAc-ın yaranması bilavasitə Xalq Cümhuriyyəti hökumətinin adı ilə bağlıdır. 1919-cu il martın 3-də Xalq Cümhuriyyəti hökumətinin – Nazirlər Şurasının iclasında Azərbaycan Teleqraf Agentliyinin təşkili barədə məsələ müzakirə olunub. Lakin məlum olmayan səbəblər üzündən agentlik həmin tarixdə fəaliyyətə başlamayıb. 1920-ci il fevralın 2-də hökumətin növbəti iclasında Azərbaycan Teleqraf Acanslığının ştatlarının layihəsi və əsasnaməsinin müəyyən dəyişikliklərlə parlamentə çıxarılması qərara alınıb. Nəhayət, 1920-ci il martın 2-də "Azərbaycan" qəzetində ilk dəfə olaraq "AzərTAc" imzası ilə xəbərlər dərc olunub. Lakin agentlik cəmi iki aya yaxın fəaliyyət göstərə bildi. Bolşevik Rusiyasının işğalı nəticəsində 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra AzərTAc Rusiya Teleqraf Agentliyinin (ROSTA) filialı kimi fəaliyyətini davam etdirib. Bölgələrdən göndərilən xəbərlər istisna olmaqla, AzərTAc qalan bütün informasiyaları ROSTA-dan alırdı. ROSTA-nın Qafqaz diyar şöbəsinin Azərbaycan bölməsinin – AzQafROSTA-nın işi təkcə Bakı ilə məhdudlaşmır, respublikanın digər şəhərlərində də (Gəncə, Şuşa, Lənkəran və s.) qurumun bölmə və məntəqələri fəaliyyət göstərirdi. 1922-ci ildə SSRİ-nin təşkilindən sonra digər respublikaların informasiya agentlikləri kimi, AzərTA da əslində Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) filialına çevrilmişdi. Zaqafqaziya Federasiyası yarandıqdan sonra 1923-cü ilin martında üç Cənubi Qafqaz respublikasının informasiya agentlikləri ZaqTA adı altında birləşdirildi. 1936-cı ildə isə Azərbaycan Teleqraf Agentliyi yenidən AzərTA adı ilə fəaliyyətini bərpa etdi. Agentliyin fəaliyyətinin heç də az əhəmiyyətli olmayan tərəfi, əlbəttə ki, AzərTA müxbirlərinin işi idi. Onlar gecəni gündüzə qataraq Azərbaycanın salnaməsini yaradırdılar.

– AzərTAc-ın tarixi adı yenidən necə oldu ki, bərpa edildi?

– Azərbaycan dövlət müstəqilliyini elan etdikdən bir qədər sonra, 1992-ci il dekabrın 18-də Azərinformun tarixi adı bərpa olundu və o, Azərbaycan Teleqraf Agentliyi – AzərTAc adlandırıldı. Lakin Azərbaycanın o vaxtkı səriştəsiz və bacarıqsız rəhbərliyi agentliyin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması barədə düşünmədi. Halbuki zaman agentliyin işinin yeni dövrün tələblərinə cavab verən maddi-texniki baza əsasında və dünya standartları səviyyəsində qurulmasını və təkmilləşdirilməsini tələb edirdi. Bunun üçün isə, ilk növbədə, maliyyə vəsaiti lazım idi. Lakin həmin dövrdə büdcə vəsaitindən əslində məhrum edilən AzərTAc ağır günlərini yaşamağa məcbur olmuşdu. Ulu öndər Heydər Əliyevin 1993-cü ilin yayında xalqın təkidi ilə yenidən respublikanın siyasi rəhbərliyinə qayıdışı Azərbaycanı xilas etdi, dövlət müstəqilliyinin itirilməsi təhlükəsi aradan qalxdı. 1995-ci il martın 3-də Prezident Heydər Əliyev Azərbaycan Teleqraf Agentliyinin yenidən təşkil edilməsi haqqında fərman imzaladı. Həmin fərmanla agentliyin tarixi adı saxlanılmaqla ona dövlət informasiya orqanı statusu verilərək, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi yaradıldı. AzərTAc-ın maliyyə çətinliklərini nəzərə alaraq, onun əsasən dövlət

büdcəsindən maliyyələşdirilməsi müəyyən edildi. 1996-cı il iyunun 29-da isə "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Prezidentin sərəncamı verildi və onun icrası ilə əlaqədar Nazirlər Kabinetinin müvafiq qərarı qəbul olundu. Həmin qərarla işin spesifik xüsusiyyətləri nəzərə alınmaqla AzərTAc-ın maddi-texniki bazası yaxşılaşdırıldı, onun fəaliyyətini gücləndirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirildi, agentliyin tarixində ilk dəfə olaraq ABŞ, İran, Almaniya, Fransa, Türkiyə, Tbilisi, Moskva və Daşkənddə müxbir məntəqələri açıldı, xarici dillərdə xəbər hazırlayan və yayan baş redaksiya yaradıldı.

– AzərTAc-ın xəbərlərinin əsas mövzusunu necə müəyyənləşdirirsiniz?

– Müstəqil Azərbaycanın həyatının bütün sahələrində baş verən köklü dəyişikliklər AzərTAc-ın xəbərlərinin əsas mövzusudur. Demokratik vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla irəliləyən, dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən, özünün zəngin təbii resurslarını dünyaya açan və Avropanın enerji təhlükəsizliyinə töhfəsini əsirgəməyən ölkəmizin bütün bu sahələrdəki uğurları barədə informasiyalar AzərTAc-ın kanalları ilə təkcə respublika daxilində deyil, həm də xaricdə geniş yayılır. Yeri gəlmişkən, hazırda agentlik gün ərzində Azərbaycan, rus və ingilis dillərində orta hesabla 450 min işarədən çox informasiya və 40-50 fotoinformasiya buraxır.

Respublikanın ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatının elə bir sahəsi yoxdur ki, AzərTAc-ın xəbərlərində müntəzəm olaraq öz əksini tapmasın. Mövzular, janrlar, coğrafiya dəyişir, yalnız bir prinsip – hazırlanan informasiyanın əzəli və əbədi prinsipi dəyişməz qalır. Bu, faktların geniş ictimai əhəmiyyəti, doğru-düzgünlüyü, dəqiqliyi və xəbərlərin operativliyidir.

– AzərTAc-ın beynəlxalq əlaqələri, dünya informasiya məkanına inteqrasiyası barədə nə deyə bilərsiniz?

– Hazırda AzərTAc-ın xarici ölkələrdə, respublikanın bölgələrində 20 müxbir məntəqəsi fəaliyyət göstərir. Xarici məmləkətlərdəki müxbirlərimiz təkcə həmin ölkələrin deyil, region dövlətlərinin də həyatında baş verən yenilikləri operativ surətdə Azərbaycan oxucusuna çatdırmağa səy göstərirlər. Biz çalışırıq ki, bu iş birtərəfli istiqamətdə getməsin. Xaricdəki müxbirlərimiz həm də Azərbaycan haqqında ən önəmli informasiyaları ça-

lışdıqları ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırırlar.

Hazırda hər gün AzərTAc-ın internet saytına dünya üzrə 10-12 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər. Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Rumıniyanın, İranın, Bolqarıstanın, Çinin, Qazaxıstanın, Ukraynanın, Koreya Respublikasının, Küveytin, Macarıstanın, İndoneziyanın, Serbiyanın, Misirin, Albaniyanın, Latviyanın, Belarusun, Moldovanın, İordaniyanın, Monqolustanın, Qırğızıstanın, Tacikistanın milli informasiya agentlikləri ilə əməkdaşlıq müqavilələri vardır.

Bundan əlavə, AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. 2004-cü ilin sentyabrında AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü olub. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə edir. 2007-ci il dekabrın 12-də isə OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən iclasında AzərTAc bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin idarə heyətinin üzvü seçilib. 2008-ci ildən AzərTAc Asiya Xəbər Agentlikləri Konsorsiumunun ("AsiaPulse") üzvüdür. AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilməsi agentliyimizin həyatında ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir. Beləliklə, agentliyimiz postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi və həmin təşkilatın sayca 31-ci üzvü olub. Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan reallıqlarının yayılma coğrafiyasının genişləndirilməsi ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. İndi tam məsuliyyətlə deyə bilərik ki, ümummilli liderin bu arzusu da reallığa çevrilibdir.

Müsahibəni apardı: Təranə Məhərrəmova

"Kaspi" qəzeti, 2 mart 2010-cu il.

Mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək qiymətləndirən ikinci bir lider olmamışdır

– Aslan müəllim, Milli mətbuat günü münasibətilə Sizi təbrik edir, cansağlığı, çətin və şərəfli işinizdə uğurlar arzulayırıq. Uzun illər ümummilli lider Heydər Əliyevi xarici səfərlərdə müşayiət etmisiniz, onun respublikada keçirdiyi tədbirləri işıqlandırmısınız. Taleyinizə bu böyük insanı yaxından müşahidə etmək qismət olmuşdur. O illəri necə xatırlayırsınız?

– Mən də Sizi, "Azərbaycan və dünya" jurnalının bütün oxucularını bu bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm. 134 il əvvəl "Əkinçi" qəzetinin nəşri ilə əsası qoyulan və başlıca prinsipləri maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması olan milli demokratik mətbuatımız çox böyük inkişaf yolu keçmişdir. Bax bu böyük yolun tam bir qərinəsi isə ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu dövrə təsadüf edir. Qəti inamla deyə bilərik ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan Heydər Əliyev milli mətbuatımızın inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Bu gün fəxrlə deyirik ki, Heydər Əliyev həqiqətən böyük bir jurnalistika məktəbi yaratmış, Azərbaycan jurnalistlərinin əksər hissəsi də bu məktəbdən dərs almışdır.

Heydər Əliyev mətbuata həmişə, hətta sovet rejiminin ciddi qadağaları dövründə böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı yaratmış, fikir və söz azadlığının himayədarı olmuş, mətbuatın ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına böyük qayğı göstərmişdir.

Cəsarətlə deyə bilərik ki, müasir dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək qiymətləndirən ikinci bir lider olmamışdır.

Tale elə gətirib ki, ulu öndərimizin dövlət başçısı kimi uzun illər xarici ölkələrə səfərlərinin və respublikada keçirdiyi tədbirlərin, görüşlərin, qəbulların tam əksəriyyətinin iştirakçısı olmuşam. Həmişə də şahidi olmuşam ki, əksər dövlət başçılarından fərqli olaraq, Heydər Əliyev bu çoxsaylı səfərlərdə, tədbirlərdə kütləvi informasiya vasitələri

nümayəndələrinin ətraflı məlumat əldə edə bilmələri üçün bilavasitə özü lazımi şərait yaradırdı.

Qeyri-adi zəkaya malik, geniş dünyagörüşü və zəngin dövlətçilik təcrübəsi olan ulu öndərimiz jurnalistləri daim öyrənməyə, Vətənə və xalqa sədaqətlə xidmət etməyin yollarını mənimsəməyə çağırırdı. O, müsahibinin ovqatındakı ən kiçik məqamları dərhal sezirdi. Təbiətən daxili nəzakət hissinə və fenomenal sövq-təbiiliyə, uzaqgörənlik qabiliyyətinə malik olan Heydər Əliyev opponentinin fikrindən keçənləri bir andaca duymağı, bəzən də onun dolaşıq fikirlər kələfini açmağı bacarırdı və bunu təsdiqləyən çoxlu sübutlar var. Bununla yanaşı, onun fenomenal yaddaşı vardı və istənilən anda uzaq keçmişdən hadisələri, faktları və rəqəmləri misal gətirərək sözlərini təsdiqləməyi bacarır, hər bir sahədə miqyası ilə adamı, həqiqətən heyrətə salan, mat qoyan dərin biliklər nümayiş etdirirdi.

Ulu öndərimiz müasir mətbuatımızın, publisistikamızın vəzifələrindən bəhs edərkən gənclərimizin milli ruhda, vətənə, müstəqil dövlətimizə sədaqət ruhunda tərbiyəsi, ana dilimizin saflığının qorunması, onu mükəmməl bilməyin vacibliyi kimi ümdə məsələləri də ön plana çəkirdi.

– *Neçə illərdir ki, Azərbaycanın informasiya məkanında lider olan Azərbaycan Dövlət Teleqraf Agentliyinə rəhbərlik edirsiniz. Son vaxtlar agentlik dünya informasiya məkanında öz layiqli yerini tutmuş, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük uğurlar qazanmışdır.*

– Memarı və qurucusu Heydər Əliyev olan müstəqil Azərbaycanın inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq yaradıcılıqla davam etdirilməsi nəticəsində respublikanın regionda lider dövlətə çevrilməsi, dünyada mövqeyinin möhkəmlənməsi AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsinə, onun dünya informasiya məkanına inteqrasiyasına müsbət təsir göstərən amillərdən biridir. İndi dünyanın tanınmış xəbər agentlikləri AzərTAc-a maraq göstərir, bizi mass-media ilə bu və ya digər şəkildə əlaqədar olan ən mötəbər beynəlxalq tədbirlərə dəvət edirlər.

Hazırda AzərTAc dünyanın 80-dən çox ölkəsinin informasiya agentlikləri ilə əməkdaşlıq edir. Bundan əlavə, AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara dəniz İqtisadi Əməkdaşlıq

Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir.

2004-cü ilin sentyabrından Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü olan AzərTAc 2007-ci ildə təşkilatın İndoneziyanın paytaxtı Cakartada keçirilən iclasında bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvü seçilmişdir.

Keçən il aprelin 18-də AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilməsi agentliyimizin həyatında ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir. Beləliklə, AzərTAc postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi və həmin təşkilatın sayca 31-ci üzvü olmuşdur. Həmçinin, 2008-ci ildən AzərTAc Asiya Xəbər Agentlikləri Konsorsiumunun ("AsiaPulse") üzvüdür.

AzərTAc artıq regional və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. 2008-ci il aprelin 30-u – mayın 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclası keçirilmişdir. Hazırda TKA-da AzərTAc sədrlik edir.

Ötən il sentyabrın 1-4-də isə AzərTAc-ın ev sahibliyi ilə OANA İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclası keçirilmişdir.

İlk dəfə idi ki, dünyanın 21-dən çox ölkəsindən ən nüfuzlu xəbər agentliklərinin rəhbərləri və yüksək vəzifəli təmsilçiləri respublikamıza gəlmişdilər. Azərbaycanın ictimai həyatında mühüm hadisə olan bu toplantının əhəmiyyəti həm də onda idi ki, OANA və EANA-nın tarixində ilk dəfə olaraq, bu qurumların rəhbərləri tədbirdə birlikdə iştirak edirdilər. Azərbaycan Prezidenti cənab İlham Əliyevin iclas iştirakçılarını qəbul etməsi qonaqlarda çox böyük təəssürat doğurmuşdur.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan reallıqlarının yayılması coğrafiyasının genişləndirilməsi ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. İndi tam məsuliyyətlə deyə bilərik ki, ümummilli liderimizin bu arzusu da reallığa çevrilmişdir.

Əgər 5-10 il bundan əvvəl biz hansısa xarici ölkənin informasiya agentliyi ilə əlaqə qurmaq haqqında düşünürdüksə, indi xarici ölkələrin

agentlikləri AzərTAc-a böyük maraq göstərir və qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq barədə arzularını bildirirlər. Təkcə bu il AzərTAc Qətər Xəbər Agentliyi (QNA), Qazaxıstanın "Kazinform", Tacikistanın "Xovar" agentliyi, Küveytin KUNA agentliyi ilə sazişlər imzalamışdır.

– *Azərbaycan mətbuatında, o cümlədən rəhbərlik etdiyiniz kollektivdə xeyli gənc çalışır. Sizcə gənc jurnalist hansı keyfiyyətlərə malik olmalıdır?*

– Hörmətli Prezidentimiz İlham Əliyevin uzaqgörən, müdrik siyasəti sayəsində bu gün bölgədə liderlik edən Azərbaycan bir sıra göstəricilər üzrə nəinki MDB məkanında, həm də dünyada birincilər sırasındadır. Yaxın illərdə Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutacaqdır.

Bütün bunlar isə mətbuatımız qarşısında da daha yeni mühüm vəzifələr qoyur. Razılıqla demək olar ki, bu gün AzərTAc-da öz işinin incəliklərini dərindən bilən, peşəsinə qəlbən bağlı olan dərin təfəkkürlü, geniş dünyagörüşlü, bir neçə dil bilən, kompyuter texnologiyasından baş çıxaran cavan, perspektivli gənclər çalışır. Beynəlxalq tədbirlərdə də fəallıqla iştirak edən bu cavanlar nəinki AzərTAc-ı, həm də Azərbaycan mətbuatını çox ləyaqətlə təmsil edirlər. Azərbaycan xalqının tarixi salnaməsini yaradan AzərTAc-ın böyük gələcəyi var.

Azərbaycan mətbuatına istedadlı gənc nəsil gəlmişdir və ona hamımız böyük ümid bəsləyirik. Peşəkarlıq keyfiyyətləri ilə bərabər, jurnalist yüksək mənəviyyatı, xalqına, Vətəninə, dövlətçiliyə sədaqəti ilə də seçilməlidir. Əks halda, onun demokratik vətəndaş cəmiyyətində "dördüncü hakimiyyət"in təmsilçisi olmağa mənəvi haqqı çatmaz. Mən cavan həmkarlarıma özlərində bu keyfiyyətləri tərbiyə etməyi, "sarı" mətbuatın təsirindən uzaq olmağı tövsiyə edərdim. Bu, həm də gözəl ənənələri olan mətbuatımızın gələcəyi naminə onların üzərinə düşən böyük məsuliyyətdir. Əminəm ki, gənclərimiz bunu dərindən dərk edirlər.

Müsahibəni apardı: Yaşar Quluzadə
"Azərbaycan və dünya" jurnalı, №6-7, 2009-cu il.

Yeni ildə yeni vəzifələr

– Yola saldığımız 2009-cu il AzərTAc-ın həyatında nə ilə əlamətdar olmuşdur?

– AzərTAc dünyanın iki ən böyük informasiya qurumunun – Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Avropa Xəbər Agentlikləri Alyansının (EANA) üzvüdür. Agentliyimiz həm də OANA-nın rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvüdür. AzərTAc, həmçinin Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. AzərTAc hazırda TKA-ya sədrlik edir. AzərTAc həm də "AsiaPulse" – Asiya Xəbər Agentlikləri Konsorsiumunun üzvüdür.

Agentliyimiz Azərbaycan həqiqətlərini, ölkəmizdə gedən sürətli sosial-iqtisadi inkişaf barədə məlumatları beynəlxalq aləmdə yaymaq, dünyanın qabaqcıl xəbər agentlikləri ilə informasiya mübadiləsi aparmaq ənənəsinə yola saldığımız 2009-cu ildə də sadiq qalmışdır.

Bu il AzərTAc ilə Qırğızıstanın "Kabar", Qazaxıstanın "Kazinform", Küveytin KUNA, Tacikistanın "Xovar" və Koreya Respublikasının Yonhap informasiya agentlikləri arasında əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır. Bu müqavilələr agentliyimizə birbaşa informasiya mübadiləsi coğrafiyasını genişləndirərək tərəfdaş ölkələrin sayını 23-ə çatdırmağa imkan vermişdir.

İlin mühüm hadisələrindən biri də Müstəqil Dövlətlər Birliyi Milli İnformasiya Agentlikləri Rəhbərləri Şurasının noyabrın 23-24-də Minskdə baş tutmuş X iclasında Şuranın növbəti iclasının 2010-cu ilin martında Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsidir. Yeri gəlmişkən, qeyd edim ki, 2010-cu ilin martında AzərTAc-ın 90 yaşı tamam olur. Kollektivimiz ili yubileyə hazırlıq əhval-ruhiyyəsi ilə yola salır.

Cari il AzərTAc üçün bir sıra beynəlxalq müsabiqələrin mükafatlarının qazanılması ilə də yadda qalmışdır. Yaponiyada keçirilmiş nüfuzlu "Nikon Photo Contest İnternational-2009" və Moskvada "İdmanda yumor-2009" müsabiqələrində AzərTAc-ın iki foto əsəri birinci mükafata layiq görülmüş-

dür. Agentliyin bir neçə əməkdaşı yerli və beynəlxalq müsabiqələrin qalibi olmuşdur.

– Agentlikdə informasiya işinin təşkilini təkmilləşdirmək üçün planlarınız varmı?

– Bu məsələ daim gündəlikdədir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı xəbər məhsulu istehsalının texniki bazasını daim təkmilləşdirməyi tələb edir. AzərTAc yeni nəsil innnovasiya texnologiyalarının tətbiqi işini davam etdirir, texnika parkını təkmilləşdirir.

– Yeni il arzularınızı eşitmək xoş olardı...

– Xalqımızı, bütün dünya azərbaycanlılarını yeni – 2010-cu il münasibətilə təbrik edirəm. Əminik ki, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf strategiyasını uğurla davam etdirən, onu müasir dövrün tələblərinə uyğun olaraq modernləşdirən dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə regionun lider dövlətinə, dünyada söz sahibinə çevrilən, keçid mərhələsini müvəffəqiyyətlə başa çatdıran Azərbaycan yeni ildə daha böyük naliyyətlər qazanacaq, xalqımızın rifahı qat-qat yüksələcəkdir.

Arzum budur ki, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli barədə xəbəri yeni ildə bütün dünyaya yayaq.

Müsahibəni apardı: Ziya Səccad Babayev
www.azpress.az. 30 dekabr 2009-cu il.

AzərTAc informasiyanı haradan alır?

– AzərTAc-ın günümüzdəki durumu – strukturu, texniki imkanları, xidmət servisləri, fəaliyyət sahəsi və s. haqqında qısaca söyləmək istədikləriniz?

– Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc respublikanın aparıcı informasiya agentliyi, yerli və xarici KİV-lər üçün yeganə rəsmi dövlət informasiya mənbəyidir.

Agentlik rəsmi dövlət xəbərləri ilə yanaşı, ictimai-siyasi, iqtisadi mövzularda, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və s. haqqında fasiləsiz olaraq bütün sutka ərzində Azərbaycan, ingilis, rus və alman dillərində operativ informasiya buraxır.

Fasiləsiz iş rejimində çalışan AzərTAc-ın Azərbaycan dilində, rus dilində, xarici dillərdə informasiya, fotoinformasiya, tərcümə baş redaksiyaları, katiblik və sorğu-məlumat şöbəsi, texniki idarəsi və digər şöbələri vardır. İşçilərin ümumi sayı 194 nəfərdir. Onların 70 faizi yaradıcı işçidir.

Agentliyin böyük texniki imkanlara malik 9 müasir serveri vardır. AzərTAc-ın saytı 32 cədvəl üzərində qurulmuşdur ki, bu da onun tez bir zamanda yüklənməsini təmin edir. Sayt FİREWALL proqramlar paketi ilə mühafizə olunur. İnternet xətti AzərTAc-a optik kabellə daxil olmuşdur və internetin sürəti 1 mbit/san-dir.

Hazırda AzərTAc-ın texnika parkında 80 dəstdən çox kompyuter, 33 printer, 18 ədəd diktofon, 2 ədəd kseroks, 9 ədəd faks aparatı, 9 server vardır.

– Agentliyinizin buraxdığı gündəlik xəbərlərin sayı nə qədərdir və bu xəbərlərdən təqribən neçəsi yerli KİV-lərdə gündəlik olaraq yer alır?

– AzərTAc gün ərzində 3 dildə təxminən 350 informasiya və 40 fotoinformasiya yayır. Bu informasiyaların böyük əksəriyyəti yerli mətbuatda yer alır.

– Ötürülən gündəlik, həftəlik və ya aylıq xəbərlər təsnifatlandırıldıqda məzmununa görə hansı sahə – rəsmi, siyasi, ictimai, iqtisadi, mədəniyyət və s. üstünlük təşkil edir?

– AzərTAc rəsmi informasiya agentliyi olduğundan informasiyaların da böyük hissəsi rəsmi informasiyalardır. Agentlik Azərbaycan Prezidentinin

qəbulları, görüşləri, onun iştirakı ilə keçirilən tədbirlər, dövlət başçısının xarici ölkələrə və respublikamızın bölgələrinə səfərlərinə dair geniş informasiyalar hazırlayır. Bundan əlavə, AzərTAc Azərbaycanın digər dövlət və hökumət qurumlarının fəaliyyətini, dövlət başçısının rəhbərliyi ilə aparılan daxili və xarici siyasətin informasiya təminatını həyata keçirir, respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən ən mühüm hadisələri, bütövlükdə ölkənin, o cümlədən bölgələrin sürətli inkişafına dair məlumatları daxildə və xaricdə yayır. Beləliklə, rəsmi xəbərlər üstünlük təşkil edir. Sonrakı yerlərdə ictimai-siyasi, iqtisadi, elmi-mədəni xəbərlər gəlir.

– Gündəlik xəbərlərdən nə qədəri xarici ölkələrlə bağlıdır və bu mənada hansı ölkə və ya ölkələr ilk sırada yer alır?

– Gündəlik informasiyaların təxminən 20-25 faizini xarici ölkələrlə bağlı xəbərlər təşkli edir. Bura həm AzərTAc-ın xarici ölkələrdəki müxbir məntəqələrindən daxil olmuş xəbərlər, həm xarici tərəfdaşlarımızdan aldığımız informasiyalar, həm də internet vasitəsilə əldə edilmiş xəbərlər daxildir. Agentliyimizin buraxdığı xarici xəbərlərdə ən böyük yeri qardaş Türkiyə, ABŞ, Fransa, Almaniya, Rusiya, MDB ölkələri, ümumiyyətlə, dünyanın nüfuzlu ölkələri tutur.

– Agentliyinizin xarici ölkələrlə bağlı verdiyi informasiyalar məzmununa görə üstünlük təşkil edirmi?

– Demək olar ki, bütün sahələrə aid informasiyalar vardır. Üstünlüyə gəldikdə, əlbəttə ki, Azərbaycanın sosial-iqtisadi və siyasi həyatına, beynəlxalq əlaqələrinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan rəhbərliyinin fəaliyyətinə, Avropanın enerji təhlükəsizliyinə, regional layihələrin icrasına verdiyi töhfələrə dair informasiyalar üstünlük təşkil edir.

– AzərTAc-ın gündəlik və ya həftəlik olaraq təqribən neçə xəbəri xarici ölkələrin kütləvi informasiya vasitələrində yer alır və bu mənada ilk sırada hansı ölkə durur?

– Biz bunun dəqiq hesabatını aparmamışıq, yəqin ki, bunu aparmaq da mümkün deyil. Çünki dünyanın bütün ölkələrinin mətbuatını daim izləmək qeyri-mümkündür. Buna baxmayaraq, biz xarici ölkələrin KİV-lərini diqqətdə saxlayırıq. AzərTAc-da xüsusi bölmə fəaliyyət göstərir. Bu

bölmənin işçiləri internet vasitəsilə xarici ölkələrin mətbuatını maksimum dərəcədə izləyir. Deyə bilərəm ki, xarici mətbuatda AzərTAc-ın informasiyaları ilə hər gün rastlaşırıq. AzərTAc-ın hər gün 7-8 informasiyası OANA-nın və BSANNA-nın saytlarında yerləşdirilir və bu xəbərləri 50-dən çox ölkənin rəsmi internet saytında yerləşdirir. Ümumiyyətlə, AzərTAc informasiyalarını dünyanın 80-dən çox ölkəsinə göndərir. Bu informasiyaların əsas hissəsini də rəsmi informasiyalar təşkil edir. Yuxarıda dediyim kimi, AzərTAc yerli və xarici KİV-lər üçün yeganə rəsmi dövlət informasiya mənbəyidir.

– Agentliyinizin neçə abunəçisi var? Bunlardan neçəsi yerli, neçəsi ölkə xaricindədir?

– Ölkə daxilində bütün KİV-lər, dövlət və hökumət qurumları, qeyri-hökumət təşkilatları, xarici ölkələrin diplomatik xidmət orqanları, şirkətlər, kommersiya və qeyri-kommersiya təşkilatları alırlar. Ölkə xaricində AzərTAc-ın informasiyalarını həm ikitərəfli müqavilələr əsasında, həm də birtərəfli olaraq 80-dən çox abunəçi alır. AzərTAc-ın saytının linki ABŞ Dövlət Departamentinin rəsmi saytında yerləşdirilmişdir.

– AzərTAc xəbər agentliyinin hazırda hansı xarici ölkələrdə və ölkə daxilində neçə xüsusi müxbiri var?

– Hazırda AzərTAc-ın Türkiyədə, Rusiyada, ABŞ-da, Fransada, Böyük Britaniyada, Almaniyada, Avstriyada, Ukraynada, İranda, Gürcüstanda, Orta Asiyada (Daşkənd) müxbir məntəqələri fəaliyyət göstərir. Eyni zamanda, bir sıra başqa ölkələrdə müxbir məntəqələrinin açılması imkanları nəzərdən keçirilir. Bundan əlavə, agentliyin respublikanın bütün iqtisadi zonalarında, habelə Sumqayıtda müxbirləri vardır.

– AzərTAc-ın sovet dövrü ilə, 1990-cı ildən günümüzə qədərki müstəqillik dövrünü qarşılaşdırdıqda, əsasən hansı fərqli cəhətləri sıralayardınız?

– Ən böyük fərq ondan ibarətdir ki, AzərTAc o vaxtlar SİTA-nın bir orqanı kimi fəaliyyət göstərirdi və əsasən sovet dövlətinə xidmət edirdi. Amma hazırda AzərTAc müstəqil Azərbaycan Respublikasının rəsmi informasiya agentliyi kimi dövlətin informasiya siyasətini həyata keçirir. Ötən dövrdə AzərTAc böyük inkişaf yolu keçmişdir. Əgər sovet dövründə agentlik yalnız respublika əhəmiyyətli xəbərlər hazırlayırdısa, hazırda AzərTAc Cənubi Qafqazın ən böyük informasiya agentliyi olmaqla ölkəmizin həyatında,

habelə regionda və xaricdə baş verən hadisələr barədə operativ və dəqiq xəbərlər hazırlayıb yayır. Bir daha qeyd etmək istərdim ki, hazırda AzərTAc-ın informasiyalarının dünyanın 80-dən çox ölkəsində abunəçisi vardır.

AzərTAc öz fəaliyyətinin əsas istiqamətini dünya informasiya məkanına inteqrasiya etməkdə, Azərbaycan haqqında obyektiv informasiyanın geniş yayılmasında görür və bu baxımdan artıq müəyyən uğurlar qazanılmışdır. Agentliyimiz bir neçə ölkənin nüfuzlu informasiya agentlikləri ilə qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr imzalamışdır. AzərTAc Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv Ölkələrin İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA), MDB Ölkələri Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA) üzvüdür. Bu ilin aprelində Avropa Xəbər Agentlikləri Alyansı (EANA) Baş Assambleyasının Estoniyanın paytaxtı Tallinndə keçirilmiş iclasında AzərTAc bu mötəbər quruma üzv qəbul edilmişdir. EANA-nın 30 üzvündən 29-nun təmsil olunduğu bu iclasda 26 agentlik AzərTAc-ın təşkilata qəbul edilməsinə səs vermişdir. Beləliklə, AzərTAc postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü agentlikdir.

– *Sovet dövründə SİTA-nın bir qolu kimi fəaliyyət göstərən AzərTAc-ın o dövrdə işləyişi – xəbərlərin dağılması-yayılması haqqında düşüncələriniz?*

– Mən bu məsələyə əvvəlki sualı cavablandırarkən ətraflı münasibət bildirdim.

– *Müstəqillik dövründə AzərTAc hansı xarici ölkə agentlikləri ilə əməkdaşlıq müqavilələri bağlayıb? Sizcə bu sazişlər dünyadakı təktərəfli informasiya axınının balanssızlığına alternativ təşkil edirmi? Bu müqavilələr işbirliyinə tərəf ölkələr arasında xəbər axınına necə təsir göstərir? Bu barədə nəticələri necə dəyərləndirirsiniz?*

– Müstəqillik dövründə AzərTAc Rusiyanın İTAR-TASS, Türkiyənin Anadolu Agentliyi, Çinin Sinxua, Ukraynanın Ukrinform, İtaliyanın ANSA, Bolqarıstanın BTA, Misirin MENA, Serbiyanın TANYUQ, Macarıstanın MTİ, İranın İRNA, Rumıniyanın Rompress, Belarusun BELTA, Albaniyanın ATA, İordaniyanın Petra, İndoneziyanın Antara agentlikləri ilə qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalamışdır. Deyə bilərəm ki, bu cür əməkdaşlıq tərəflərə böyük səmərə verir. Biz həmin agentliklərin, onlar

isə bizim xəbərləri alıb yayırlar. "Təktərəfli informasiya axını" terminina münasibət birmənalı ola bilməz. Bütün dünyada informasiya ötürülür və qəbul edilir. Söhbət göndərilən və qəbul edilən informasiyanın çoxluğu, yaxud da azlığından gedə bilər. Bu da informasiya qurumunun böyüklüyü və ya kiçikliyi amilləri ilə bağlıdır.

– Sizcə qlobal informasiya axınına istiqamət verən dörd böyük beynəlxalq xəbər agentliyində (Reuters, AP, UPI, AFP) və İTAR–TASS-da Azərbaycanla bağlı xəbərlərə nə qədər yer verilir? Bu xəbər agentlikləri ayrı–ayrılıqda, Azərbaycanla əlaqədar gün və ay ərzində təqribən neçə xəbər yayır?

– Bildiyimə görə sizin sadaladığınız aparıcı informasiya agentliklərinin demək olar ki, hamısının Azərbaycanda müxbir məntəqələri fəaliyyət göstərir. Bizim həmin agentliklərin ölkəmizdəki müxbirləri ilə də yaxşı əməkdaşlığımız vardır.

Bu agentliklərin Azərbaycanla bağlı informasiyalarının dəqiq statistikası əlimizdə olmasa da, onu deyə bilərəm ki, ölkəmizin başçısı İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, regional liderə çevrilən Azərbaycanda baş verən dəyişikliklər, ölkəmizin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı layihələr, Azərbaycandakı demokratikləşmə prosesləri, regionların sosial-iqtisadi inkişafı, iqtisadiyyatın müxtəlif sahələrinin dinamik yüksəlişi, dövlət başçısı İlham Əliyevin, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın fəaliyyəti, yüksək səviyyəli xarici qonaqların Azərbaycana səfərləri, respublikamızda keçirilən toplantılar, sammitlər, beynəlxalq və regional tədbirlər xarici mətbuatın diqqət mərkəzindədir. Adlarını sadaladığımız agentliklərin hər birinin ay ərzində Azərbaycanla bağlı yaydığı xəbəri təqvim ayının günlərinə bölsək, orta hesabla hər günə 4-5 xəbər düşür.

– Azərbaycanın ən köklü xəbər agentliyinin baş direktoru olaraq, ölkədə baş verən bir hadisənin xarici bir xəbər agentliyi müxbiri tərəfindən (müxbirin düşüncə tərzini, anlayışını, dil fərqini, ölkəyə və onun çıxarlarına yad birisi olmasını; bir sözlə, hadisəyə yabançı bir müxbirin gözü ilə baxılması və s. kimi amilləri nəzərə alanda) xəbərləşdirilərək dünyaya çatdırılmasına münasibətiniz necədir?

– İnformasiya məhsuldur, onun xarici və ya yerli müxbir tərəfindən hazırlanmasının istehlakçı oxucu, istifadəçi üçün fərqi yoxdur. İnformasiya dəqiq, düzgün, obyektiv, publisistik müdaxilə olmadan hazırlanıb yayılmalıdır. Əlbəttə, qeyri-obyektiv, qərəzli informasiya məqbul sayıla bilməz. Sizin sadaladığınız amillər – dil, milli mənsubiyyət, müxbirin düşüncə tərzi informasiya üçün əsas deyildir. Əlbəttə ki, ingilis, rus və yaxud başqa bir millətdən olan jurnalist informasiyanı öz dilində, öz agentliyinin üslubunda yazacaqdır. Əsas odur ki, fakt təhrif olunmasın, informasiyada qərəzli mövqe olmasın, olaya ikili standartlardan yanaşılmasın. İnformasiya birtərəfli olmamalıdır. Təəssüf ki, qlobal informasiya axınında belə hallara rast gəlinir və bu ədalətsizliyə Azərbaycan da məruz qalır. Belə halların qarşısı informasiya sahəsinə də qarşılıqlı dialoqun gücləndirilməsi, dövlət–cəmiyyət-vətəndaş həmrəyliyi yolu ilə alınmalıdır. Azərbaycan problemi bu yolla həll etməyə çalışır.

– *Qarşıda bizləri AzərTAc-la bağlı hansı yeniliklər gözləyir?*

– AzərTAc daim yeniləşmək, inkişaf etmək yolundadır. Yaxın perspektivdə ərəb və fransız dillərində də informasiya buraxmağı nəzərdə tuturuq. AzərTAc-ın xarici ölkələrdə müxbir məntəqələrinin sayını artıracağıq. Bu, bizə həm informasiyanı ilk mənbədən əldə etməyə, həm də Azərbaycan həqiqətlərinin həmin ölkələrdə daha çevik, operativ və etibarlı təbliğinə imkan verəcəkdir.

Müsahibəni apardı: Vəfalı Ənsər
İstanbul Universiteti Sosial Elmlər İnstitutunun
radio, televiziyza və kino ixtisası üzrə doktorantı
iyul 2008-ci il.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə doğru-düzgün çatdırılması AzərTAc-ın fəaliyyətinin əsas istiqamətidir

– Aslan müəllim, gəlin əvvəlcə AzərTAc-ın keçdiyi tarixi yolu yada salaq və agentliyin bugünkü fəaliyyətini nəzərdən keçirək.

– Bu gün iftixar hissi ilə deyə bilərik ki, Şərqdə ilk demokratik respublikamızın xalqımıza ərməğan etdiyi ən dəyərli milli sərvətlərdən biri AzərTAc olmuşdur. Arxiv materiallarından göründüyü kimi, AzərTAc imzası ilə ilk xəbərlər 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin orqanı "Azərbaycan" qəzetində dərc edilmişdir. Artıq saralmış qəzet səhifələrindəki həmin informasiyaları nəzərdən keçirərkən bu qurumun müstəqil dövlətin siyasi, iqtisadi, sosial və mədəni həyatının o vaxtkı yeniliklərinə həssaslıqla yanaşdığının şahidi oluruq.

Təəssüf ki, Xalq Cümhuriyyətinin özü kimi, onun ilk kövrək addımlarını atan müstəqil informasiya orqanı da çox qısa ömür yaşadı. Xalq Cümhuriyyətinin süqutundan sonra – 1920-ci il iyunun 9-da Rusiya Dövlət Teleqraf Agentliyinin (ROSTA) Qafqaz Ölkə Müvəkkilliyinin Azərbaycan şöbəsi yaradıldı, 1921-ci ildən isə o, Azərbaycan Teleqraf Agentliyinə çevrildi.

1972-ci ildən Azərinform adlanan bu qurum Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) filialı kimi 70 il fəaliyyət göstərdi. O zaman bütün sahələrdə olduğu kimi, söz, informasiya, mətbuat üzərində də ciddi ideoloji nəzarət var idi. Nədən yazmaq, necə yazmaq imperiyanın sərt qanunları ilə tənzimlənirdi. AzərTAc-ın yolu da bu nəzarət və senzura rejiminin girdabından keçmişdir. Azərbaycanda bu xofu məhz ulu öndərimiz Heydər Əliyev siyasi hakimiyyətə gəlişinin birinci mərhələsində çox məharətlə aradan qaldıra bilmişdir.

Təbii ki, AzərTAc özünün əsl inkişaf yoluna məhz bu dövrdə qədəm qoymuşdur. Həmin vaxtlar Azərbaycanda aparılan genişmiqyaslı quruculuq işlərinin canlı şahidləri olanlar yaxşı xatırlayırlar ki, mətbuatın, o cümlədən AzərTAc-ın qaldırdığı hər hansı bir təşəbbüs ulu öndərimiz Heydər Əliyevin diqqətindən kənarda qalmırdı. Məhz o illərdə Azərbaycan mətbuatının, eləcə də AzərTAc-ın materiallarına milli ruh qayıtmış, qələm

sahibləri, məhdud çərçivədə olsa da, milli ideologiyanı, azərbaycançılığı təbliğ etmişlər.

Heydər Əliyevin böyük qayğısı sayəsində hələ ötən əsrin 80-ci illərində o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlığı ilə təchiz edilən AzərTAc keçmiş sovet respublikaları arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə fərqlənmişdi. Məhz Heydər Əliyevin yüksək nüfuzu, yenilməz iradəsi və qətiyyəti sayəsində Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompyuterləşdirilmiş üçüncü informasiya agentliyi olan AzərTAc o vaxtlar SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəz idi.

Təəssüflər olsun ki, 1987-ci ildə Heydər Əliyevin Moskvada Sovet İttifaqının ali rəhbərliyindən kənarlaşdırılması ilə bu qüdrətli insanın gərgin əmək, fitri istedad hesabına qurub abadlaşdırdığı, inkişaf etmiş diyara çevirdiyi Azərbaycanı ölüm-dirim dilemması ilə üz-üzə qoydular. Ölkəmizi Dağlıq Qarabağ münaqişəsinin qanlı meydanına çevirdilər, torpaqlarımızın 20 faizi işğal olundu.

O illərdə Azərbaycanın xalqa, Vətənə xəyanət yolu tutmuş rəhbərliyi təkcə maddi sərvətlərimizi deyil, milli ideoloji, milli mənəvi dəyərlərimizi də məhvə məhkum etdilər. AzərTAc da ağrılı-acılı tale yaşadı. Milli mətbuatımıza ögey münasibət ölkənin aparıcı informasiya agentliyinin də taleyindən yan ötmədi.

Mətbuat üzərində sovet senzurasından da sərt qaydalar, qadağalar qoyan Vəzirov, Mütəllibov, AXC-Müsavat cütlüyü guya mətbuata müstəqillik vermək adı ilə kütləvi informasiya vasitələrinə arxa çevirdilər. Maddi, mənəvi, siyasi və ideoloji dayaqlardan məhrum olan Azərbaycan mətbuatı, o cümlədən AzərTAc çətin problemlərlə üz-üzə qaldı.

Belə bir ağır məqamda ulu öndərimizin xalqın təkidli tələbi ilə hakimiyyətə ikinci qayıdışından sonra AzərTAc-ın da həyatında dirçəliş, inkişaf və yüksəliş mərhələləri başlandı.

Ulu öndərimizin böyük qayğısı və diqqəti sayəsində AzərTAc-ın maddi-texniki bazası qısa müddətdə dünyanın aparıcı informasiya agentlikləri ilə bərabər səviyyəyə yüksəldi. Dünya informasiya məkanına sürətlə inteqrasiya edən AzərTAc xarici ölkələrdə bir-birinin ardınca müxbir məntəqələrini

açdı. İndi MDB ölkələrinin agentlikləri arasında yeganə olaraq AzərTAc-ın ən müasir dünya standartları səviyyəsində fotoinformasiya laboratoriyası, habelə internet şəbəkəsinə sürətli çıxışı təmin edən server avadanlığı, cərəyan kəsilsə belə, üç saat ərzində agentliyin çoxşəbəkəli lokal kompyuter sistemini işlədə bilən ən mükəmməl yardımçı enerji təchizatı qurğusu vardır. Məhz bunların nəticəsidir ki, hazırda istər ölkənin daxilindəki, istərsə də xaricdəki informasiya istehlakçılarına AzərTAc hər 3 dəqiqə yarımdan bir informasiya göndərə bilir. İndi AzərTAc dünyanın 60-dan çox ölkəsinə ingilis və rus dillərində xəbərlər göndərir və qəbul edir.

Ulu öndərimiz Heydər Əliyevin siyasi memarı olduğu, qurub-yaratdığı yeni müstəqil Azərbaycanın inkişaf sükanı etibarlı əllərdədir. Ümummilli liderimizin siyasi xəttini, milli inkişaf konsepsiyasını, ideoloji məfkurəsini çox böyük uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində AzərTAc informasiya işinin təşkilində daha böyük uğurlar qazanmaqdadır. AzərTAc-ın 85 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə agentliyimizin 18 əməkdaşının yüksək dövlət mükafatına - "Tərəqqi" medalına və "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülməsi bu qayğının bariz təzahürüdür.

– AzərTAc-ı yerli informasiya agentliklərindən fərqləndirən əsas xüsusiyyətlər hansılardır?

– Birincisi, AzərTAc müstəqil dövlətimizin rəsmi informasiya agentliyidir. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin bütün istiqamətlərdə davam etdirilməsi, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun daha da yüksəldilməsi, respublikamızın dinamik sosial-iqtisadi inkişafına nail olunması sahəsində dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, müstəqil respublikamız haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması kollektivimizin fəaliyyətinin əsas istiqamətləridir.

İnformasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativlik işimizin təməl prinsipləridir. Agentliyimiz 2003-cü il yanvarın 1-dən, bayram və bazar günləri də daxil olmaqla, fasiləsiz iş rejimində çalışır. Günün istənilən saatında AzərTAc-ın əməkdaşları iş başındadır, kütləvi informasiya vasitələrinə, internet şəbəkəsinə fasiləsiz olaraq xəbərlər ötürülür. İndi AzərTAc hər gün ölkənin və dünyanın məlumat məkanına

300-350 informasiya ötürür. Bəzən soruşurlar ki, informasiya baxımından Azərbaycan kiçik məkandır, bu qədər informasiya necə əldə olunur? Cavab verirəm ki, informasiya agentliyində çalışan jurnalist üçün "məlumat qıtlığı" anlayışı yoxdur. Axı, həyat bir yerdə dayanmır, cəmiyyət inkişafdadır. Hərəkət, inkişaf olan yerdə hansı qıtlıqdan danışmaq olar? Azərbaycan kiçik məkan olsa da, əsl jurnalist üçün kifayət qədər informasiya vardır. İnformasiyanı, faktı görə bilməmək və ya görmək istəməmək isə başqa məsələdir.

Bu gün ölkəmiz başdan-başa tikinti meydançasına çevrilib, iqtisadiyyatda, idarəetmədə əsaslı islahatlar aparılır, struktur dəyişiklikləri həyata keçirilir, elmimiz, təhsilimiz, səhiyyəmiz dünya standartlarına uyğunlaşdırılır, idmanın kütləviliyi üçün böyük işlər görülür, beynəlxalq təşkilatlar, maliyyə qurumları ölkədə onlarca layihə reallaşdırır, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, "İpək yolu" ideyası gerçəkləşir, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi başa çatmışdır. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası uğurla davam etdirilir. "İpək yolu", neft və qaz kəmərləri boyunca yaradılacaq infrastrukturları, müxtəlif sosial-məişət obyektlərini təsəvvürünüzə gətirin, görün informasiya üçün nə qədər mənbə vardır. Jurnalistlərimiz bütün bunları əhatə edə bilirlərmi?

Ölkəmizdə söz və mətbuat azadlığı təmin olunduğu üçün indi kifayət qədər informasiya agentlikləri, habelə çoxsaylı qəzet, jurnal yaranmışdır. Buna təbii baxıram. Lakin onların bir çoxu fakta, hadisəyə münasibətdə peşə etikası normalarını pozur, kimlərinsə ambisiyasına, siyasi maraqlarına xidmət etməyə çalışır. Hər bir agentliyin, mətbuat orqanının əməkdaşı fakta vicdanla yanaşmalı, şayiəni informasiyaya çevirib ictimaiyyəti çaşdırmamalıdır. Fakt sifarişlə yozulanda informasiya istər-istəməz qərəzli xarakter daşıyır. Belə informasiyalar isə müstəqilliyini dönməz etməyə çalışan, hüquqi dövlət quran, torpaqlarının bütövlüyünü təmin etmək istəyən Azərbaycana ancaq ziyan vurur, düşmən dəyirmanına su tökür.

İnformasiya agentliyinin vəzifəsi faktı, hadisəni ictimaiyyətə doğru-düzgün çatdırmaqdır. Bunlar təkcə jurnalistin peşəkarlığından yox, həm də dünyagörüşündən, vətəndaş mövqeyindən, mənəvi saflığından da asılıdır.

Jurnalistlərimiz informasiyaya çevirdikləri faktları dəfələrlə, bir neçə mənbədən dəqiqləşdirirlər. Hər bir informasiyanın doğura biləcəyi reak-

siyanı nəzərə alırlar. Elə bunun nəticəsidir ki, indiyədək, bir dəfə də olsun, təkzib vermək məcburiyyətində qalmamışıq.

Gördüyünüz kimi, elə bir əsaslı fərq sadalamadım. Dediklərimin hamısı adi jurnalist etikası çərçivəsində gözlənilməsi vacib olan tələblərdir. AzərTAc ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və milli mətbuatımızın ənənələrini zənginləşdirən prinsipləri fəaliyyətində əsas normaya çevirmişdir.

– Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə çatdırmaq üçün hansı vasitələrdən istifadə edirsiniz, xarici ölkələrin informasiya agentlikləri ilə əlaqələriniz necə qurulub?

– Hazırda AzərTAc-ın dünyanın istənilən ölkəsi ilə birbaşa əlaqə saxlamaq, informasiya mübadiləsi aparmaq üçün ən müasir texniki imkanlara malik bazası, ən mükəmməl elektron poçt şəbəkəsi və internet saytı vardır. İndi hər gün AzərTAc-ın internet saytına dünya üzrə 10-12 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər.

Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Bolqarıstanın, Çinin, Qazaxıstanın, Ukraynanın və digər ölkələrin aparıcı informasiya agentlikləri ilə əməkdaşlıq müqavilələri vardır. Bu müqavilələrin bir çoxu Azərbaycan Prezidenti İlham Əliyevin xaricə səfərləri zamanı dövlət və hökumət rəhbərlərinin iştirakı ilə imzalanmışdır. Yaxın vaxtlarda qarşı tərəflərin təşəbbüsü ilə KUNA (Küveyt), SPA (Səudiyyə Ərəbistanı), MENA (Misir), TANYUQ (Serbiya), Antara (İndoneziya), BELTA (Belarus), ATA (Albaniya), ANA (Yunanıstan), Moldpress (Moldova) agentlikləri ilə də müqavilələr imzalanacaqdır.

AzərTAc 2004-cü ilin sentyabrından dünyanın 34 ölkəsinin təmsil olunduğu Mərkəzi Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) tamhüquqlu üzvüdür. İndi agentliyimiz bu qurumun üzvü olan hər bir ölkəyə hər gün 20-25 informasiya göndərir və qəbul edir. Azərbaycan informasiya agentliyi bu təşkilatda təmsil olunan dördüncü MDB dövlətidir.

AzərTAc türkdilli, habelə MDB-nin üzvü olan ölkələrin informasiya agentlikləri alyanslarının – TİKA, ANİA-nın üzvüdür. Agentliyimiz Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya

Agentliklərinin 2006-cı il mayın 29-31-də Kiyevdə keçirilən təsis konfransında yaradılmış yeni regional quruma – BSANNA-ya daxil olmuşdur.

Hazırda agentliyimiz Avropa ölkələri informasiya agentliklərinin nüfuzlu regional qurumu olan EANA-ya üzv qəbul edilmək üçün intensiv iş aparır. Bu məqsədə nail olandan sonra AzərTAc-ın dünya informasiya məkanına operativ çıxmaq, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün imkanları daha da genişlənəcəkdir. AzərTAc-ın müxtəlif ölkələrdə fəaliyyət göstərən müxbirləri xaricdə baş verən aktual siyasi-iqtisadi mövzularla yanaşı, vacib ədəbi-mədəni hadisələrə dair operativ materiallar göndərməklə hərtərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə mühüm kömək göstərirlər.

Hazırda doqquz xarici ölkədə agentliyimizin müxbir məntəqəsi vardır və yaxın gələcəkdə onların sayı daha da artacaqdır. Xarici məmləkətlərdəki müxbirlərimiz təkcə həmin ölkələrin deyil, region dövlətlərinin də həyatında baş verən yenilikləri operativ surətdə Azərbaycan oxucusuna çatdırmağa səy göstərirlər. Biz çalışırıq ki, bu iş birtərəfli istiqamətdə getməsin. Xaricdəki müxbirlərimiz həm də Azərbaycan haqqında ən önəmli informasiyaları çalışdıqları ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırsınlar.

Azərbaycanla fəaliyyət göstərdikləri ölkələr arasında, necə deyərlər, ünsiyyət körpüsü rolunu oynayan xarici müxbirlərimizin işini canlandırmaq üçün təsirli tədbirlər görülür. Bu işdə AzərTAc-ın yeniləşdirilmiş saytı mühüm rol oynayır. AzərTAc-ın saytı BMT-nin Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet səhifəsində yerləşdirilmişdir. Agentliyimiz 2004-cü ildə İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafatına, 2005-ci ildə isə Madriddəki biznes təşəbbüsü mərkəzinin xüsusi keyfiyyət və yüksək texnologiya üçün "Avropaya qapı" beynəlxalq qızıl mükafatına layiq görülmüşdür.

– *İş prosesində ən çox hansı problemlərlə üzləşirsiniz?*

– Hər günün, hətta hər saatın öz problemi olur. Çoxillik təcrübəmdən deyə bilərəm ki, jurnalist üçün əsas problem vaxtın azlığıdır. Agentlik əməkdaşları daim çaparaqda işlədikləri üçün buraxılan informasiyanı sonradan oxuyanda həmişə belə bir hiss keçirir: Vaxtım olsaydı xəbəri bir qədər də mükəmməl işləyərdim. Güman edirəm ki, elə "Zaman-Azərbaycan"

qəzetinin redaksiyasında çalışan həmkarlarımız da iş prosesində bu hissləri yaşayırlar.

Yeri gəlmişkən, biz də dünya informasiya agentliklərindən məlumatlar alırıq. Ancaq onları yayanda mütləq mənbəni göstəririk. Bu, jurnalist etikasından əlavə, həm də başqasının əməyinə insani qiymət verməkdir, ən nəhayət, dünya praktikasında qəbul olunmuş qaydadır.

– Vaxtilə Azərbaycanın informasiya blokadasında saxlanıldığından tez-tez danışılardı. İndi belə bir təhdid ehtimalı yoxdur ki?

– Sualınıza ətraflı cavab vermək üçün əvvəlcə keçmişə – XX əsrin 60-cı illərinin sonuna qayıtmaq istərdim. Azərbaycanı, xalqımızı nəinki dünyada, hətta yarım əsr tərkibində olduğu keçmiş ittifaqın heç də hər yerində əməlli-başlı tanımırdılar. Lakin 1969-cu ildə cənab Heydər Əliyev respublikaya rəhbər seçildikdən sonra vəziyyət dəyişdi. O, Moskvanın Azərbaycanın hərtərəfli inkişafına yönəldilmiş xeyli və çox mühüm qərarlar qəbul etməsinə nail oldu, onların həyata keçirilməsini təmin etdi. Bu, ittifaq büdcəsindən külli miqdarda vəsaitin ayrılması, respublikada yeni müasir sənaye müəssisələrinin, elm, təhsil, mədəniyyət, səhiyyə ocaqlarının istifadəyə verilməsi, saysız-hesabsız tikinti işlərinin aparılması, xalqın güzəranının yaxşılaşması ilə bərabər, əlbəttə, Azərbaycanın, azərbaycanlıların ittifaq miqyasında, həm də onun hüdudlarından kənarda tanınmasına, nüfuzunun artmasına səbəb oldu.

Ona görə də qətiyyətlə deyə bilərəm ki, respublikaya rəhbərliyinin birinci dövründə cənab Heydər Əliyevin ən böyük xidmətlərindən biri doğma Azərbaycanını və övlad sədaqəti ilə xidmət etdiyi xalqını dünyaya tanıtması olmuşdur. Onun Sovet İttifaqının ali rəhbərlərindən biri olduğu illər isə bu xidmətin daha yüksək səviyyədə davamı idi.

Təəssüf ki, 1980-ci illərin axırlarında Heydər Əliyevin fitnə-fəsadla siyasi hakimiyyətdən uzaqlaşdırılması Azərbaycana çox baha başa gəldi. Üzləşdiyimiz problemlərin və faciələrin ən böyüyü, ən acınacaqlısı o dövrdə respublikaya rəhbərlik edənlərin öz doğma xalqına xəyanəti üzündən haqq işimizi dünyaya çatdırmaqdan məhrum olmağımız idi. Məhz o illərdə Azərbaycan, sözün əsl mənasında, informasiya blokadası girdabında boğulurdu.

O dövrdə Azərbaycanda baş verən proseslərə keçmiş ittifaq məkanında, bütün dünyada münasibətin necə olduğu hamımızın yaxşı yadındadır...

Birmənalı şəkildə deyirəm: Azərbaycanı informasiya blokadasından Heydər Əliyev çıxarmışdır. O, Naxçıvandan Bakıya dəvət edildiyi vaxtdan başlayaraq, Azərbaycanın haqq işini dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bəyan etdi.

Onun xarici həmkarları ilə görüşləri zamanı əlində xəritə ilə etdiyi söhbətləri heç birimiz unutmamışıq. 1993-cü il dekabrın 21-də Parisdə keçirdiyi mətbuat konfransı yadınızdadırmı? Cənab Prezident orada demişdi: "Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycan ilə Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur. Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövləti barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələrin, ikitərəfli münasibətlərin gələcək inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir". Nəzərə alaq ki, Fransa dünyada güclü erməni diasporunun olduğu ölkələrdən biridir. Ona görə də Azərbaycanın bu ölkə ilə əlaqələr yaratması, dünya siyasətində böyük rolu olan Fransada respublikamız haqqında həqiqətin yayılmasına nail olmaq çox vacib idi.

Həmin dövrdə Prezidentimizin səfərlərdə olduğu ölkələrin müxtəlif dairələrinin nümayəndələri ilə keçirdiyi görüşlər Azərbaycan, xalqımızın üzləşdiyi problemlər, zorla cəlb olunduğumuz müharibə, onun ağır nəticələri, zəngin təbii ehtiyatlarımız, iqtisadi potensialımız barədə geniş təsəvvür yaradır, xarici iş adamlarının iqtisadiyyatımızın dirçəldilməsinə cəlb olunmasında böyük rol oynayırdı. Möhtərəm Heydər Əliyevin xarici səfərlər zamanı ən yüksək səviyyəli görüşlərdə, beynəlxalq tədbirlərdə etdiyi çıxışlar adi protokol çıxışları deyildi, müstəqillik yoluna qədəm qoymuş, çox ağır və mürəkkəb problemlərlə üzləşən, lakin gələcəyə böyük ümid və inam bəsləyən Azərbaycan haqqında hərtərəfli məlumat verən, dərin məzmunlu, güclü məntiqə və obyektiv faktlara söykənən klassik mühazirələr idi.

Azərbaycanın informasiya blokadasının yarılmasının iqtisadi baxımdan əhəmiyyətini də unutmaq olmaz. Artıq respublikamız dünyanın aparıcı neft şirkətləri ilə təxminən 60 milyard dollarlıq 26 müqavilə imzalamışdır,

Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin tikintisinin inşası başa çatmışdı.

Bunları kimlərsə adi axarı ilə gedən dövlət siyasətinin nəticələri hesab edə bilər. Əslində isə, bundan ötrü daxildə ictimai-siyasi sabitlik yaratmaq, ölkəni demokratik inkişaf, bazar iqtisadiyyatı yoluna çıxarmaqla yanaşı, dünyanı Azərbaycanda gedən bu proşeslərə inandırmaq da lazım idi və cənab Heydər Əliyev həmin missiyanın öhdəsindən ən yüksək səviyyədə gəldi.

İnformasiya blokadasının yarılmasında, Azərbaycanın dünyaya tanıdılmasında kütləvi informasiya vasitələrinin rolu da bu böyük şəxsiyyətin – Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Çünki dövlətimizin başçısı ölkədə söz, fikir, mətbuat azadlığının təmin olunması üçün hər cür şərait yaratmışdır və kütləvi informasiya vasitələrinə daim diqqət və qayğı göstərirdi. Digər tərəfdən, Prezident KİV təmsilçilərini daim əsas problemlərə istiqamətləndirir, fakt və hadisələrə obyektiv yanaşmaq üçün onlara dəyərli tövsiyələr verirdi. Cəsarətlə deyə bilərəm ki, dövlətimizin başçısı ilə müntəzəm ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları işıqlandıran jurnalistlərimiz Heydər Əliyevin jurnalistika məktəbində formalaşmışlar.

İndi Azərbaycanın kütləvi informasiya vasitələrinin bir çoxu ölkəmizdə baş verən hadisələri ictimaiyyətə daha obyektiv çatdırmaqla yanaşı, müstəqil dövlətimizin dünyada tanıdılması, Azərbaycanın bir daha informasiya blokadasına düşməməsi üçün səmərəli iş görür.

Müstəqil respublikamız isə planetin hər yerində tanınır, dünya birliyində öz layiqli yerini tutmuşdur, beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, möhkəmlənir. Çünki ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı inkişaf strategiyasını möhtərəm Prezidentimiz İlham Əliyev uğurla davam etdirir. Artıq Azərbaycan iqtisadi inkişafın, demokratik cəmiyyət quruculuğunun bir sıra sahələrində dünyanın qabaqcıl ölkələrini belə üstələyir. İndən belə Azərbaycanı yenidən informasiya blokadasına salmaq qeyri-mümkündür. Ona görə ki, Azərbaycan həqiqətlərini indi bütün dünya görür, təsdiqləyir və təqdir edir.

"Zaman" qəzeti, 13-17 iyul 2006-cı il.

AzərTAc yeni inkişaf yolundadır

AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini layaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır.

Heydər Əliyev

– Yeni yüzilliyin daha bir ili – 2005-ci ilin tarixə qovuşmasına az qalır. Yola salacağımız il yaddaşımızda ölkəmizin həyatının bütün sahələrində qazanılmış uğurlarla bərabər, milli mətbuatımızın 130, Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın 85 illik yubileylərinin qeyd edilməsi ilə də qalacaqdır. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Şərqdə ilk demokratik respublikamızın xalqımıza ərməğan etdiyi ən dəyərli milli sərvətlərdən biri AzərTAc olmuşdur. Arxiv materiallarından göründüyü kimi, AzərTAc imzası ilə ilk xəbərlər 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin orqanı "Azərbaycan" qəzetində dərc edilmişdir. Artıq saralmış qəzet səhifələrindəki həmin informasiyaları nəzərdən keçirərkən bu qurumun müstəqil dövlətin siyasi, iqtisadi, sosial və mədəni həyatının o vaxtkı yeniliklərinə həssaslıqla yanaşdığının şahidi oluruq. Təəssüf ki, Xalq Cümhuriyyətinin özü kimi, onun ilk kövrək addımlarını atan müstəqil informasiya orqanı da çox qısa ömür yaşadı.

Xalq Cümhuriyyətinin süqutundan sonra 1920-ci il iyunun 9-da Rusiya Dövlət Teleqraf Agentliyinin (ROSTA) Qafqaz Ölkə Müvəkkilliyinin Azərbaycan şöbəsi yaradıldı, 1921-ci ildən isə o, Azərbaycan Teleqraf Agentliyinə çevrildi. 1973-cü ildən Azərinform adlanan bu qurum Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) filialı kimi 70 il fəaliyyət göstərdi. O zaman bütün sahələrdə olduğu kimi, söz, informasiya, mətbuat üzərində də ciddi ideoloji nəzarət var idi. Nədən yazmaq, necə yazmaq imperiyanın sərt qanunları ilə tənzimlənirdi. AzərTAc-ın yolu da bu nəzarət və senzura rejiminin girdabından keçmişdir. Azərbaycanda bu xofu məhz ulu öndərimiz Heydər Əliyev siyasi hakimiyyətə gəlişinin birinci mərhələsində çox məharətlə aradan qaldıra bilmişdir.

AzərTAc özünün əsl inkişaf yoluna ötən əsrin 70-ci illərindən qədəm qoymuşdur. Həmin vaxtlar Azərbaycanda gedən genişmiqyaslı quruculuq işlərinin canlı şahidləri olanlar yaxşı xatırlayırlar ki, mətbuatın, o cümlədən AzərTAc-ın qaldırdığı hər hansı bir təşəbbüs ulu öndərimiz Heydər Əliyevin diqqətindən kənarda qalmırdı.

Məhz o illərdə Azərbaycan mətbuatının, eləcə də AzərTAc-ın materiallarına milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği qələm sahiblərinin yaradıcılıq amalına çevrilmişdir.

Heydər Əliyevin böyük qayğısı sayəsində hələ ötən əsrin 80-ci illərində o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlığı ilə təchiz edilən AzərTAc keçmiş sovet respublikaları arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə fərqlənmişdi. Məhz Heydər Əliyevin yüksək nüfuzu, yenilməz iradəsi və qətiyyəti sayəsində Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompyuterləşdirilmiş üçüncü informasiya agentliyi olan AzərTAc o vaxtlar SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəz idi.

Məhz ulu öndərin qayğısı və diqqəti sayəsində AzərTAc-ın ən müasir avadanlıq alınmaqla maddi-texniki bazası möhkəmləndirildi. İnformasiya məkanına sürətlə inteqrasiya edən AzərTAc xarici ölkələrdə bir-birinin ardınca müxbir məntəqələrini açdı. İndi AzərTAc-ın ən müasir dünya standartları səviyyəsində fotolaboratoriyası, internet şəbəkəsinə sürətli çıxışı təmin edən server avadanlığı, cərəyan kəsilsə belə, çoxşəbəkəli lokal kompyuter sistemini üç saat ərzində işlədə bilən ən mükəmməl yardımçı enerji təchizatı sistemi vardır. Hazırda istər ölkənin daxilindəki, istərsə də xaricdəki informasiya istehlakçılarına AzərTAc hər iki dəqiqədən bir informasiya göndərə bilir. AzərTAc dünyanın 80-dən çox ölkəsinə ingilis və rus dillərində xəbərlər ötürür və qəbul edir. Dünyanın İTAR-TASS, Anadolu Agentliyi, Sinxua, ANSA (İtaliya), BTA (Bolqarıstan), İRNA (İran), Ukrinform, Rompress (Rumıniya) kimi tanınmış agentlikləri ilə ikitərəfli əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Bu sazişlərin bilavasitə tərəfdaşlarımızın təşəbbüsü ilə imzalanması AzərTAc-ın beynəlxalq miqyasda nüfuzunun getdikcə artmasının daha bir sübutudur. Yaxın vaxtlarda yenə də qarşı tərəflərin təşəbbüsü ilə KUNA (Küveyt), SPA (Səudiyyə Ərəbistanı), MENA

(Misir), TANYUQ (Serbiya və Çernoqoriya), Antara (İndoneziya) agentlikləri ilə müqavilələr imzalanacaqdır.

2004-cü ilin sentyabrında isə agentliyimizin həyatında çox əlamətdar hadisə baş vermiş, AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) tamhüquqlu üzvü olmuşdur. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 34 ölkənin 39 informasiya agentliyi istifadə edə bilir. AzərTAc isə, öz növbəsində, həmin agentliklərin OANA-nın saytına daxil olan bütün informasiyalarından istifadə etmək imkanı qazanmışdır.

Ümummilli liderimizin qarşımıza qoyduğu vəzifələrdən biri də xarici dövlətlərdəki səfirliklərimizə Azərbaycanın gündəlik həyatı barədə operativ informasiya əldə etmək imkanı yaratmaq idi. AzərTAc-ın yeniləşdirilmiş saytı bunu təmin etmişdir. Agentliyimizin saytına gün ərzində orta hesabla 60 min, bəzən isə 90 mindən çox müraciət olur. AzərTAc-ın saytı BMT-nin Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet səhifəsində yerləşdirilmişdir. AzərTAc İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafatına (2004-cü il), xüsusi keyfiyyət və yüksək texnologiya üçün Madriddəki Biznes Təşəbbüsü Mərkəzinin "Avropaya qapı" beynəlxalq qızıl mükafatına (2005-ci il) layiq görülmüşdür.

İnformasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativliyə nail olmaq üçün yeni yollar axtarılır, texniki-təşkilati tədbirlər görülür. Bütün bunlar getdikcə öz bəhrəsini verir, gündəlik informasiyaların həcmi on dəfədən çox artmışdır. Tale elə gətirib ki, dövlət başçısı kimi ulu öndərimizin xarici ölkələrə səfərlərindən materialları uzun illər mən hazırlamışam. Bu səfərlərin hər birində möhtərəm Heydər Əliyev jurnalistlərə xüsusi həssaslıqla yanaşır, tövsiyə və tapşırıqlarını verirdi. Adi bir xəbərdə belə dilimizin incəliklərini gözləməyi, məfkurə saflığını qorumağı, Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə doğru-dürüst çatdırmağı, bəşəri dəyərlərlə milli ənənələri uzlaşdırmağı tövsiyə edirdi. Qeyri-adi zəka, geniş dünyagörüşü və zəngin dövlətçilik təcrübəsi olan ulu öndərimiz jurnalistləri daim öyrətməyə, vətənə, xalqa sədaqətlə xidmət etməyin yollarını onlara mənimsətməyə çalışırdı. Tövsiyə edirdi ki, hər bir

mətbu orqan öz fəaliyyətində xalqımızın, dövlətimizin milli maraqlarını göz bəbəyi kimi qorumalıdır. Ümummilli liderimizin bizə tövsiyə etdiyi vacib məsələlərdən biri də ümumbəşəri dəyərlərə hörmətlə yanaşmaq prinsipidir. Ölkədə hüquqi, demokratik və dünyəvi dövlət qurulur, Azərbaycan dünya birliyinə inteqrasiya edir, nüfuzlu beynəlxalq qurumların üzvüdür. Mətbuatımız dünya birliyinin tamhüquqlu üzvü olan Azərbaycanın imicini qorumağa borcludur. AzərTAc milli mətbuatımızın tarixi ənənələrini yaşatmaqla bərabər, xalqımızın böyük oğlu, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi bu prinsipləri fəaliyyətində əsas normaya çevirmişdir. Agentliyimiz milli mətbuatımızın ənənələrini bu prinsiplər əsasında inkişaf etdirir. Hazırda AzərTAc Avropa ölkələri informasiya agentliklərinin nüfuzlu regional qurumu olan EANA-ya üzv qəbul edilmək üçün intensiv iş aparır. Bu məqsədə nail olandan sonra AzərTAc-ın dünya informasiya məkanına daha operativ çıxmaq, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün imkanları daha da genişlənəcəkdir. Hazırda dünyanın doqquz ölkəsində AzərTAc-ın müxbir məntəqəsi var, yaxın gələcəkdə onların sayı daha da artacaqdır. Xarici müxbirlərimiz təkcə həmin ölkələrin deyil, region dövlətlərinin də həyatında baş verən ictimai-siyasi və mədəni yenilikləri operativ surətdə Azərbaycan oxucusuna çatdırmağa səy göstərirlər. Eyni zamanda, Azərbaycan haqqında ən önəmli informasiyaları fəaliyyət göstərdikləri ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırırlar.

– Aslan müəllim, AzərTAc hər gün 250-300 informasiyanı necə əldə edir?

– İnformasiya agentliyində çalışan jurnalist üçün məlumat qıtlığı anlayışı olmamalıdır. Axı həyat bir yerdə dayanmır, cəmiyyət inkişafdadır. Hərəkət, inkişaf olan yerdə hansı qıtlıqdan danışmaq olar? Azərbaycan kiçik məkan olsa da, əsl jurnalist üçün kifayət qədər informasiya vardır. Yeri gəlmişkən xatırladım ki, lap bu günlərdə mətbuatda "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunu dərc olunmuşdur. Bu gün iqtisadiyyatda, idarəetmədə əsaslı islahatlar aparılır, struktur dəyişiklikləri həyata keçirilir, elmimiz, təhsilimiz, səhiyyəmiz dünya standartlarına uyğunlaşdırılır, idmanın kütləviliyi üçün böyük işlər görülür, beynəlxalq təşkilatlar, maliyyə qurumları ölkədə onlarca layihə reallaşdırır, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, İpək Yolu ideyası gerçəkləşir, Bakı-Tbilisi-Ceyhan neft kəməri başa

çatmaq üzrədir, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi sürətlə davam edir. Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunduğu üçün indi kifayət qədər özəl informasiya agentlikləri də yaranmışdır. Buna təbii baxıram. Lakin jurnalistlərin bir çoxu fakta, hadisəyə münasibətdə peşə etikası normalarını pozur, kimlərinsə şəxsi ambisiyasına, siyasi maraqlarına xidmət etməyə çalışır. Hər bir jurnalist fakta vicdanla yanaşmalı, şayiəni informasiyaya çevirib ictimaiyyəti çaşdırmamalıdır. Fakt sifarişlə yozulanda informasiya istər-istəməz qərəzli xarakter daşıyır. Belə informasiyalar isə müstəqilliyini əbədi etməyə çalışan, hüquqi dövlət quran, torpaqlarının bütövlüyünü təmin etmək istəyən Azərbaycana ancaq ziyan vurur, düşmən dəyirmanına su tökür. Bu cür fəaliyyəti ancaq ideoloji təxribat adlandırmaq olar. Unutmamalıyıq ki, xaricdə Azərbaycana düşmən mövqe tutan, onun beynəlxalq nüfuzuna, xalqımızın adına ləkə vurmaq istəyən qüvvələr var və onlar öz çirkin niyyətlərinə nail olmaq üçün ölkəmizin daxilindəki üzdəniraq jurnalistlərin cızma-qaralarından can-başla istifadə edirlər.

Biz ölkədəki bütün KİV-lərə pulsuz informasiya veririk. Təəssüf ki, bir sıra KİV-lər bizim informasiyaları mənbəyi göstərilmədən, öz məhsulları kimi yayırlar. Biz də dünya informasiya agentliklərindən məlumatlar alırıq. Ancaq onları öz adımıza çıxmırıq, mənbəyini göstəririk. Bu, jurnalist etikasından əlavə, həm də başqasının əməyinə insani qiymət verməkdir, ən nəhayət, dünya praktikasında qəbul olunmuş norma və qaydadır.

Dahi Heydər Əliyevin qurub-yaratdığı, siyasi memarı olduğu yeni müstəqil Azərbaycanın gələcək taleyi etibarlı əllərdədir. Ulu öndərin siyasi xəttini, milli inkişaf konsepsiyasını, ideoloji məfkurəsini çox böyük uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində AzərTAc gələcək fəaliyyətində daha böyük uğurlar qazanacaqdır. Mətbuatımızın flaqmanının 85 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə agentliyin 18 əməkdaşı "Tərəqqi" medalına və "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüşdür. Kollektiv bu qayğıya cavab olaraq daha səylə çalışır, müstəqil Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə daha geniş çatdırılması üçün yeni yollar, vasitələr axtarır.

"Azərbaycan" qəzeti, 16 dekabr 2005-ci il.

Azərbaycanın 85 illik şanlı tarixinin salnaməçisi

– 85 illik zəngin və mürəkkəb bir yaradıcılıq yolu keçmiş, xalqımızın mübarizələrlə dolu, enişli-yoxuşlu, eyni zamanda, çox şərəfli tarixinin qiymətli salnaməçisi haqqı qazanmış Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın inkişaf mərhələlərini necə xarakterizə edərdiniz?

– Bu il martın 1-də Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın fəaliyyətə başlamasının 85 ili tamam oldu. Bu, Azərbaycan milli mətbuatının tarixində həqiqətən çox əlamətdar hadisədir. İyul ayının 22-də milli demokratik mətbuatımızın 130 illiyini qeyd edəcəyik. Bu 130 illik dövrün 85 illik mərhələsini, digər mətbu orqanlarımızla bərabər, AzərTAc da tarixin yaddaşına yazmışdır. Bütün Şərqdə ilk demokratik respublikamızın xalqımıza ərməğan etdiyi ən dəyərli milli sərvətlərdən biri AzərTAc olmuşdur.

AzərTAc imzası ilə ilk xəbərlər Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olan "Azərbaycan" qəzetində 1920-ci il martın 2-də dərc edilmişdir. İndi saralmış qəzet səhifələrindəki həmin xəbərləri gözdən keçirərkən AzərTAc-ın müstəqil dövlətin siyasi, iqtisadi, sosial və mədəni həyatının o vaxtkı yeniliklərinə həssaslıqla yanaşdığının şahidi oluruq. Təəssüf ki, Xalq Cümhuriyyətinin özü kimi, onun ilk kövrək addımlarını atan müstəqil informasiya qurumu da çox qısa ömür yaşadı. Fəaliyyətinin ilk mərhələsində AzərTAc imzası milli tariximizə təqribən iki aylıq bir zaman kəsiyi ilə daxil olmuşdur. AzərTAc-ın fəaliyyətinin ikinci mərhələsinin tarixi daha böyükdür. Xalq Cümhuriyyətinin süqutundan sonra bu qurum Sovet İttifaqı Teleqraf Agentliyinin filialı kimi müxtəlif adlar altında 70 il fəaliyyət göstərmişdir. Sovet imperiyası dövründə informasiya işinin təşkili anlayışı indiki meyarlardan tam fərqlənirdi. Həyatın bütün sahələrində olduğu kimi, söz, informasiya, mətbuat üzərində ciddi ideoloji nəzarət var idi. Nədən yazmaq, necə yazmaq imperiyanın sərt qanunları ilə tənzimlənirdi. Həddən artıq ciddi senzura var idi. Bu sədləri keçməyə cəhd edənlərin aqibəti tarixdən bizə yaxşı bəllidir. Stalin repressiyası illərində neçə-neçə ziyalımız, jurnalistimiz azad sözə və fikrə basqının qurbanı olmuşdur. AzərTAc-ın yolu da bu dəhşətli nəzarət və rejim qaydalarının girdabından keçmişdir. Sovet hakimiyyəti illərində imperiya ideoloqları azad sözdən, demokratik

fikirlərdən çəkindikləri qədər heç nədən qorxmayıblar. Cəsarətlə demək olar ki, Azərbaycanda bu qorxu buzunu məhz ulu öndərimiz, xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi hakimiyyətə gəlişinin birinci mərhələsində çox məharətlə qıra bilmişdir. Təbii ki, o dövrdə rəhbərlikdə olanların arasında da mətbuatın cəmiyyətə təsir gücünün böyük olduğunu bilənlər var idi. Lakin onlarda Heydər Əliyev qətiyyəti, cəsarəti, Heydər Əliyev müdrikliyi, uzaqgörənliyi yox idi. Heydər Əliyevin siyasi irsini, dövlətçilik fəaliyyətini araşdıranlar yaxşı bilirlər ki, müasir tarixdə mətbuatın cəmiyyətə təsir gücünün əhəmiyyətini onun qədər yüksək dəyərləndirən ikinci bir lider tapmaq çətindir. Ulu öndərimiz hakimiyyətə gəldiyi ilk vaxtlardan şərəfli və zəngin ömrünün sonunadək mətbuata həmişə həm böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı verib, həm də onun ictimai nüfuzunun artmasına, fəaliyyət şəraitinin yaxşılaşdırılmasına xüsusi qayğı və diqqət göstərib, həqiqi mənada azad sözün təminatçısı olubdur.

AzərTAc özünün əsl inkişaf yoluna ulu öndərimizin ötən əsrdə respublikamıza rəhbərlik etdiyi 70-ci illərdə qədəm qoyubdur. Həmin illərdə Azərbaycanda gedən genişmiqyaslı quruculuq işlərinin canlı şahidləri olan bizim nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, mətbuatın, o cümlədən AzərTAc-ın qaldırdığı hər hansı bir təşəbbüs, ulu öndərimiz Heydər Əliyevin diqqətindən heç vaxt kənarda qalmırdı. Məhz o illərdə AzərTAc-ın, o cümlədən Azərbaycan mətbuatının fəaliyyətinə milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği qələm əhlimizin yaradıcılıq amalına çevrilmişdir. Bu mənada Böyük Azərbaycanlı – ümummilli liderimiz milli ruhlu yazarlarımızın ideya ilhamçısı, himayədarı olmuşdur.

Amma çox təəssüflər olsun ki, 1987-ci ildə cənab Heydər Əliyevin Moskvada Sovet İttifaqının ali rəhbərliyindən kənarlaşdırılması ilə bu qüdrətli insanın tükənməz övlad sədaqəti ilə sevdiyi, gərgin əmək, fitri istedad hesabına qurub abadlaşdırdığı, tikib səltənətə çevirdiyi Azərbaycanı "ölüm-dirim" dilemması ilə üz-üzə qoydular. Ölkəmizi Dağlıq Qarabağ münaqişəsinin qanlı girdabına saldılar. Sonra Qanlı 20 Yanvar faciəsi törədildi. Nəhayət, havadarlarına güvənən Ermənistanın Azərbaycana qarşı total hərbi təcavüzü başladı, Xocalı soyqırımı törədildi, tarixi Şuşa qalası düşmənə təhvil verildi, torpaqlarımızın 20 faizi işğal olundu. Bir milyondan çox azərbaycanlı öz vətənində qaçqına və məcburi köçkünə çevrildi.

Azərbaycanın o illərdə xalqa, Vətənə xəyanət yolu tutmuş rəhbərliyi təkcə maddi sərvətlərimizi deyil, milli ideoloji, milli mənəvi dəyərlərimizi də məhvə məhkum etdilər. Məhz o illərdə AzərTAc da ağrılı-acılı tale yaşadı. Milli mətbuatımıza ögey münasibət ölkənin aparıcı informasiya agentliyinin də taleyindən yan ötmədi. Mətbuat üzərində sovet senzurasından da sərt qaydalar, qadağalar qoyan Vəzirov, Mütəllibov, Müsavat-AXCP hakimiyyəti guya mətbuata müstəqillik vermək adı ilə kütləvi informasiya vasitələrinə arxa çevirdilər. Maddi, mənəvi, siyasi və ideoloji dayaqlardan məhrum olan Azərbaycan mətbuatı, o cümlədən AzərTAc həlli mümkün olmayan problemlərlə üz-üzə qaldı. Bu ağır illərdə Azərbaycanda baş verən hadisələrə keçmiş ittifaq məkanında və ümumən dünyada münasibətin necə olduğunu o dövrün canlı şahidləri kimi yaxşı xatırlayırıq.

Belə bir məşəqqətli məqamda Xilaskarımız yenidən qayıtdı və məmləkətimizi, dövlətçiliyimizi, xalqımızı dəhşətli bəlalardan xilas etdi. Ulu öndərimizin hakimiyyətə xalqın təkidli tələbləri ilə ikinci qayıdışından sonra AzərTAc-ın da həyatında inkişaf, tərəqqi, yüksəliş mərhələsi başlandı. Bu möhtəşəm qayıdışdan iki il sonra Azərbaycan Prezidenti Heydər Əliyevin 1995-ci il 3 mart tarixli Fərmanı ilə AzərTAc-a dövlət agentliyi statusu verildi. 2000-ci il 17 yanvar tarixli Fərmanla isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırıldı.

Ulu öndərimizin böyük qayğısı və diqqəti sayəsində AzərTAc-ın maddi-texniki bazası qısa müddətdə dünyanın aparıcı informasiya agentlikləri ilə bərabər səviyyəyə yüksəldi. Dünya informasiya məkanına sürətlə inteqrasiya edən AzərTAc xarici ölkələrdə bir-birinin ardınca müxbir məntəqələrini açdı. İndi MDB ölkələrinin agentlikləri arasında yeganə olaraq AzərTAc-ın ən müasir dünya standartları səviyyəsində fotoinformasiya laboratoriyası, internet şəbəkəsinə sürətli çıxışı təmin edən server avadanlığı, cərəyan kəsilsə belə üç saat ərzində agentliyin çoxşəbəkəli lokal kompyuter sistemini işlədə bilən ən mükəmməl yardımçı enerji təchizatı vardır. Məhz bunların nəticəsidir ki, hazırda istər ölkənin daxilindəki, istərsə də xaricdəki informasiya istehlakçılarına AzərTAc hər 3 dəqiqə yarımdan bir informasiya göndərə bilir. İndi AzərTAc dünyanın 60-dan çox ölkəsinə ingilis və rus dillərində xəbərlər göndərir və qəbul edir.

Ulu öndərimiz Heydər Əliyevin qurub-yaratdığı, siyasi memarı olduğu yeni müstəqil Azərbaycanın inkişaf sükanı etibarlı əllərdədir. Ümummilli liderimizin siyasi xəttini, milli inkişaf konsepsiyasını, ideoloji məfkurəsini çox böyük uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində AzərTAc informasiya işinin təşkilində daha böyük uğurlar qazanacaqdır. AzərTAc-ın 85 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamları ilə agentliyimizin 18 əməkdaşının yüksək dövlət mükafatına – "Tərəqqi" medalına və "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülməsi bu qayğının bariz təzahürüdür.

– Milli demokratik mətbuatımızın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləndirmə, müasirləşmə, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşması, hadisələrin obyektiv işıqlandırılması – dövlətçilik tariximizdə mühüm xidmət göstərmiş AzərTAc-ın əsrə yaxın fəaliyyətində bir təməl daşı kimi hansı rolu oynamış və həmin ənənələr hazırda necə davam və inkişaf etdirilir?

– Mətbuat cəmiyyətdə həmişə ictimai proseslərə böyük təsir göstərən qüvvə olubdur. Bu mənada milli mətbuatımız, o cümlədən onun aparıcı qurumlarından biri olan AzərTAc "Əkinçi" qəzetinin bəyan etdiyi prinsiplərə 85 illik fəaliyyəti dövründə həmişə sadiq qalmağa çalışıbdır. Maarifləndirmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin qorunması, hadisələrin işıqlandırılması, sözün əsl mənasında, Azərbaycan mətbuatı üçün özünəməxsus məktəb olan AzərTAc-ın fəaliyyətinin bütün mərhələlərində xüsusi yer tutmuşdur. İstər Xalq Cümhuriyyəti dövründə, istər 70 ildən artıq bir dövrü əhatə edən sovet hakimiyyəti dönəmində, istərsə də müstəqillik illərində həmin prinsiplər AzərTAc-da çalışan jurnalistlərin daim diqqət mərkəzində olmuşdur. Sovet hakimiyyəti illərində partiyalı mövqedən çıxış etməsinə baxmayaraq, AzərTAc-da çalışan vətənpərvər jurnalistlər oxucuların maariflənməsi, ədəbi dilin informasiya dilinə yaxınlaşdırılması, faktlara və hadisələrə obyektiv münasibət meyarlarını daim qorumağa çalışmış, bu amilləri zənginləşdirmişlər. Mətbuatımızın milli ənənələrinə sədaqətin nəticəsidir ki, sovet dönəmində ideoloji buxovlara baxmayaraq, Azərbaycan mətbuatı, o cümlədən AzərTAc milli jurnalistikamızın varlığını

qoruyub saxlamış, zəngin ənənələri davam və inkişaf etdirərək, respublikamızın ictimai-siyasi həyatında mühüm rol oynamışdır.

Ən başlıcası odur ki, milli mətbuatımız indi həmin prinsipləri hər hansı bir ideoloji qurumun göstəriş və ya tapşırıqları ilə deyil, ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş və beynəlxalq norma və tələblərə cavab verən ən mükəmməl hüquqi normativ akt – "Kütləvi informasiya vasitələri haqqında" qanun çərçivəsində yaşadır və inkişaf etdirir.

Ümummilli liderimiz Heydər Əliyev kütləvi informasiya vastələrinin əməkdaşları ilə istər rəsmi, istərsə də qeyri-rəsmi görüşlərində bütün bu məsələlərə xüsusi önəm verirdi. Tale elə gətirib ki, ulu öndərimizin dövlət başçısı kimi uzun illər xarici ölkələrə səfərlərindən materialları mən hazırlamışam. Bu səfərlərin hər birində möhtərəm Heydər Əliyev jurnalistlərə xüsusi həssaslıqla yanaşır, tövsiyə və tapşırıqlarını verirdi. Adi bir xəbərdə belə dilimizin incəliklərini gözləməyi, məfkurə saflığını qorumağı, Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə doğru-dürüst çatdırmağı, bəşəri dəyərlərlə milli ənənələri uzlaşdırmağı tövsiyə edirdi. Bu mənada mübaliğəsiz demək olar ki, Azərbaycan jurnalistlərinin böyük bir nəsli "Heydər Əliyev jurnalistika məktəbi"nin yetirməsidir. Qeyri-adi zəka, geniş dünyagörüşü və zəngin dövlətçilik təcrübəsi olan ulu öndərimiz jurnalistləri daim öyrətməyə, Vətənə və xalqa sədaqətlə xidmət etməyin yollarını mənimsətməyə çalışırdı.

Tövsiyə edirdi ki, hər bir mətbu orqan öz fəaliyyətində xalqımızın və dövlətimizin milli maraqlarnı göz bəbəyi kimi qorumalıdır. Böyük Heydər Əliyev milli mətbuatımızın ənənələrini zənginləşdirən üç mühüm prinsipi müəyyənləşdirmişdir. Birincisi, dövlətçiliyə xidmətdir. Heydər Əliyev Azərbaycan mətbuatına, o cümlədən AzərTAc-ın jurnalistlərinə milli dövlətçiliyə xidmət amalı aşılamışdır.

Ulu öndərimiz Heydər Əliyevin milli mətbuatımızın əbədiyaşar ənənələrinə əlavə etdiyi yeni dəyərlərdən biri də Azərbaycan və azərbaycançılıq ideologiyasının təbliğidir.

Ən nəhayət, ümummilli liderimizin bizə miras qoyub getdiyi vacib məsələ ümumbəşəri dəyərlərə hörmətlə yanaşmaq prinsipidir. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət qurulur. Azərbaycan dünya birliyinə inteqrasiya edir, nüfuzlu beynəlxalq qurumların üzvüdür. Mətbuatımız dün-

ya birliyinin tamhüquqlu üzvü olan Azərbaycanın imicini qorumağa borcludur. AzərTAc milli mətbuatımızın tarixi ənənələrini yaşatmaqla bərabər, xalqımızın böyük oğlu, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi bu prinsipləri fəaliyyətində əsas normaya çevirmişdir. Agentliyimiz milli mətbuatımızın ənənələrini bu prinsiplər əsasında inkişaf etdirir.

– AzərTAc-ın yeni informasiya məkanları ilə yaxın ünsiyyət, dünyanın bir sıra ölkələrinin aparıcı informasiya agentlikləri ilə sıx əməkdaşlıq səylərini qloballaşma vüsəti ilə seçilən əsrimizin obyektiv oxucuları, təbiidir ki, böyük maraq və ümidlə izləyirlər. Bu sahədə görülən işlər barədə nə deyə bilərsiniz?

– Hazırda AzərTAc-ın dünyanın istənilən ölkəsi ilə birbaşa əlaqə saxlamaq, informasiya mübadiləsi aparmaq üçün ən müasir texniki imkanlara malik bazası, ən mükəmməl elektron poçt şəbəkəsi və internet saytı vardır. İndi hər gün AzərTAc-ın internet saytına dünya üzrə 6-8 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər.

Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Bolqarıstanın, Çinin, Qazaxıstanın və digər ölkələrin aparıcı informasiya agentlikləri ilə əməkdaşlıq müqavilələri vardır. Bu müqavilələrin bir çoxu Azərbaycan Prezidenti İlham Əliyevin xaricə səfərləri zamanı dövlət və hökumət rəhbərlərinin iştirakı ilə imzalanmışdır.

Yeni müqavilələr bağlamaq barədə xarici ölkələrin rəsmi informasiya qurumlarından təkliflər almışıq. AzərTAc ötən il dünyanın 34 ölkəsinin təmsil olunduğu Mərkəzi Asiya və Sakit okean regionunun informasiya agentliklərinin qurumu olan OANA-ya üzv qəbul edilmişdir. İndi agentliyimiz bu qurumun üzvü olan hər bir ölkəyə hər gün 15-20 informasiya göndərir və qəbul edir. Hazırda agentliyimiz Avropa Ölkələri İnformasiya Agentliklərinin nüfuzlu regional qurumu olan EANA-ya üzv qəbul edilmək üçün intensiv iş aparır. Bu məqsədə nail olandan sonra AzərTAc-ın dünya informasiya məkanına operativ çıxmaq, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün imkanları daha da genişlənəcəkdir.

– AzərTAc-ın müxtəlif dövlətlərdə fəaliyyət göstərən müxbirləri xaricdə baş verən aktual siyasi-iqtisadi mövzularla yanaşı, vacib ədəbi-mədəni hadisələrə dair operativ materiallar göndərməklə hərtərəfli əlaqələrimizin

daha da möhkəmlənməsinə mühüm kömək göstərmiş olurlar. Bu istiqamətdə hansı yeniliklər gözlənilir?

– Bir qədər əvvəl qeyd etdiyim kimi, ulu öndərimiz Heydər Əliyevin diqqət və qayğısı sayəsində hazırda AzərTAc-ın dünyanın doqquz ölkəsində müxbir məntəqəsi var, yaxın gələcəkdə onların sayı daha da artacaqdır. Xarici məmləkətlərdəki müxbirlərimiz təkcə həmin ölkələrin deyil, region dövlətlərinin də həyatında baş verən ictimai-siyasi və mədəni yenilikləri operativ surətdə Azərbaycan oxucusuna çatdırmağa səy göstərirlər. Biz çalışırıq ki, bu iş birtərəfli istiqamətdə getməsin. Xaricdəki müxbirlərimiz Azərbaycan haqqında ən önəmli informasiyaları çalışdıqları ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırsınlar. Azərbaycanla, AzərTAc-la fəaliyyət göstərdikləri ölkələr arasında, necə deyərlər, ünsiyyət körpüsü rolunu oynayan xarici müxbirlərimizin işini canlandırmaq üçün təsirli tədbirlər görülür.

"Ədəbiyyat qəzeti", 18 mart 2005-ci il.
Heydər Əliyev və AzərTAc, Bakı, "Nurlan", 2005-ci il.

AzərTAc-ın əsl dirçəliş dövrü Prezident Heydər Əliyevin adı ilə bağlıdır

– Aslan müəllim, hazırda dünyada informasiya bolluğu yaranmışdır. Son vaxtlar isə, demək olar ki, bütün xəbər agentliklərinin diqqəti İraqda gedən proseslərə yönəlmişdir. Yəqin ki, bu, AzərTAc-ın işinə də öz təsirini göstərmişdir.

– Həqiqətən də hazırda dünyada informasiya bolluğu yaranmışdır. Bu da təbiidir, çünki elm və texnikanın indiki səviyyəsi və bu zəmində qlobal internet şəbəkəsinin yaranması dünyanın istənilən nöqtəsində baş verən bu və ya digər hadisə haqqında çox tez bir zamanda xəbər tutmağa imkan yaradır. Buna görə də indi informasiya qıtlığı problemi, əslində, aradan qalxmışdır.

Sualınızın ikinci hissəsinə gəldikdə isə, bəri başdan deyim ki, İraq məsələsi agentliyimizin işinə elə bir təsir göstərməmişdir. Əlbəttə, İraqda gedən müharibə son vaxtlar dünya informasiya vasitələrində əsas yer tutur. Lakin bu da faktdır ki, xəbərlər müxtəlif mövqelərdən təqdim olunduğuna görə əsl vəziyyəti daha dolğun, obyektiv təsəvvür etmək o qədər də asan deyildir. Biz bu barədə buraxılan xəbərlərə Azərbaycan dövlətinin həmin məsələ ilə bağlı bəyan edilmiş mövqeyi baxımından yanaşırıq.

– Bir vaxtlar Azərbaycanın üzləşdiyi informasiya blokadasından tez-tez danışırdılar. Hətta həmin blokadanın bir sıra sahələrdə bu gün də davam etdiyini deyənlər vardır. Sizcə, vəziyyət indi necədir?

– Sualınıza dolğun cavab vermək üçün əvvəlcə keçmişə – XX əsrin 60-cı illərinin sonuna qayıtmaq istərdim. Azərbaycanı, xalqımızı nəinki dünyada, hətta yarım əsr tərkibində olduğu İttifaqın heç də hər yerində əməlli-başlı tanımırdılar. Lakin 1969-cu ilin yayında cənab Heydər Əliyev respublikaya rəhbər seçildikdən sonra vəziyyət dəyişdi. O, Moskvanın Azərbaycanın hərtərəfli inkişafına yönəldilmiş xeyli və çox mühüm qərarlar qəbul etməsinə nail oldu, onların həyata keçirilməsini təmin etdi. Bu, İttifaq büdcəsindən külli miqdarda vəsaitin ayrılması, respublikada yeni müasir sənaye müəssisələrinin, elm, təhsil, mədəniyyət, səhiyyə ocaqlarının istifadəyə verilməsi, geniş quruculuq işləri, xalqın güzəranının yaxşılaşması demək idi. Eyni zamanda, Azərbaycanın, azərbaycanlıların İttifaq miqyasın-

da, həm də onun hüdudlarından kənarda tanınmasına, nüfuzunun artmasına səbəb oldu.

Ona görə də qətiyyətlə deyə bilərəm ki, respublikaya rəhbərliyinin birinci dövründə cənab Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycanı və xalqımızı dünyaya tanıtması olmuşdur. O, Sovet İttifaqının ali rəhbərlərindən biri olduğu illərdə bu xidmətini daha yüksək səviyyədə davam etdirmişdir.

Təəssüf ki, ötən əsrin 80-ci illərinin axırlarında Heydər Əliyevin fitnə-fəsadla siyasi hakimiyyətdən uzaqlaşdırılması Azərbaycana çox baha başa gəldi. Üzləşdiyimiz problemlərin və faciələrin ən böyüyü, ən acınacaqlısı o dövrdə respublikaya rəhbərlik edənlərin öz doğma xalqına xəyanəti üzündən haqq işimizi dünyaya çatdırmaqdan məhrum olmağımız idi. Məhz o illərdə Azərbaycan, sözün əsl mənasında, informasiya blokadası girdabında boğulurdu. O dövrdə Azərbaycanda baş verən proseslərə keçmiş İttifaq məkanında, bütün dünyada münasibətin necə olduğu hamımızın yaxşı yadındadır...

Birmənalı şəkildə deyirəm: Azərbaycanı informasiya blokadasından Heydər Əliyev – xalqın, dövlətin çətin günündə Corc Vaşinqtonun, Bismarkın, Atatürkün, Nehrunun, Adenauerin, de Qollun fədakarlığını təkrar etmiş dahi şəxsiyyət çıxarmışdır. O, Naxçıvandan Bakıya dəvət edildiyi vaxtdan başlayaraq, Azərbaycanın haqq işini dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bəyan etdi. Onun xarici həmkarları ilə görüşləri zamanı əlində xəritə ilə etdiyi söhbətləri heç birimiz unutmamışıq. Nəzərə alaq ki, Fransa dünyada güclü erməni diasporunun olduğu ölkələrdən biridir. Ona görə də Azərbaycanın bu ölkə ilə əlaqələr yaratması, dünya siyasətində böyük rolu olan Fransada respublikamız haqqında həqiqətin yayılmasına nail olmaq çox vacib idi.

Həmin dövrdə Prezidentimizin səfərlərdə olduğu ölkələrin müxtəlif dairələrinin nümayəndələri ilə keçirdiyi görüşlər Azərbaycan xalqının üzləşdiyi problemlər, zorla cəlb olunduğumuz müharibə, onun ağır nəticələri, zəngin təbii ehtiyatlarımız, iqtisadi potensialımız barədə geniş təsəvvür yaradır, xarici iş adamlarının iqtisadiyyatımızın dirçəldilməsinə cəlb olunmasında böyük rol oynayırdı. Möhtərəm Heydər Əliyevin xarici səfərlər zamanı ən yüksək səviyyəli görüşlərdə, beynəlxalq tədbirlərdə etdiyi çıxışlar

adi protokol çıxışları deyildi, müstəqillik yoluna qədəm qoymuş, çox ağır və mürəkkəb problemlərlə üzləşən, lakin gələcəyə böyük ümid və inam bəsləyən Azərbaycan haqqında hərtərəfli məlumat verən, dərin məzmunlu, güclü məntiqə və obyektiv faktlara söykənən klassik mühazirələr idi.

Azərbaycanın informasiya blokadasının yarılmasının iqtisadi baxımdan əhəmiyyətini də unutmaq olmaz. Artıq respublikamız dünyanın 15 ölkəsinin 30 iri neft şirkəti ilə təxminən 60 milyard dollarlıq 21 müqavilə imzalamışdır, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməli qoyulmuşdur. Bunları kimlərsə adi axarı ilə gedən dövlət siyasətinin nəticələri hesab edə bilər. Əslində isə, bundan ötrü daxildə ictimai-siyasi sabitlik yaratmaq, ölkəni demokratik inkişaf, bazar iqtisadiyyatı yoluna çıxarmaqla yanaşı, dünyanı Azərbaycanda gedən bu proseslərə inandırmaq da lazım idi və cənab Heydər Əliyev həmin missiyanın öhdəsindən ən yüksək səviyyədə gəldi.

İnformasiya blokadasının yarılmasında, Azərbaycanın dünyaya tanıdılmasında kütləvi informasiya vasitələrinin rolunun artması da bu böyük şəxsiyyətin – Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Çünki dövlətimizin başçısı ölkədə söz, fikir, mətbuat azadlığının təmin olunması üçün hər cür şərait yaratmışdır və kütləvi informasiya vasitələrinə daim diqqət və qayğı göstərir. Digər tərəfdən, Prezident KİV təmsilçilərini daim əsas problemlərə istiqamətləndirir, fakt və hadisələrə obyektiv yanaşmaq üçün onlara dəyərli tövsiyələr verir. Cəsarətlə deyə bilərəm ki, dövlətimizin başçısı ilə müntəzəm ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları işıqlandıran jurnalistlərimiz yeni bir məktəb – Heydər Əliyevin jurnalistika məktəbində formalaşırlar. Ona görə də dövlətimizin başçısının "Jurnalistlərin dostu" adına layiq görülməsi tamamilə təbii və qanunauyğundur.

İndi Azərbaycanın kütləvi informasiya vasitələrinin bir çoxu ölkəmizdə baş verən hadisələri ictimaiyyətə daha obyektiv çatdırmaqla yanaşı, müstəqil dövlətimizin dünyada tanıdılması, Azərbaycanın bir daha informasiya blokadasına düşməməsi üçün səmərəli iş görür. Müstəqil respublikamız isə planetin hər yerində tanınır, dünya birliyində öz layiqli yerini tutmuşdur, beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, möhkəmlənir.

Mənə elə gəlir ki, sualınızın ikinci hissəsinə də cavab verdim.

– Mümkünsə, bir qədər AzərTAc-ın yaranması haqqında məlumat verin. Bu qurumun yaranmasını zərurətlə bağlayaq, yoxsa bu da keçmiş sovet məkanında gedən proseslərin nəticəsi idi? Müstəqillik qazandıqdan sonra bu qurumun adı da dəyişdi. "AzərTAc" nə deməkdir?

– AzərTAc-ın yaranmasına gəldikdə, o, heç də keçmiş sovet məkanında gedən proseslərin nəticəsi deyildir. Bizim agentliyin 83 illik tarixi var.

Hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1919-cu il martın 3-də ölkəmizdə ayrıca informasiya agentliyi yaradılması haqqında qərar qəbul edilmiş, adı isə belə göstərilmişdir: Azərbaycan Teleqraf Agentliyi (AzərTAc). Amma hansısa səbəblərdənsə, o vaxt agentliyi təşkil etmək mümkün olmamışdır. Üstündən bir il ötəndən sonra, 1920-ci il fevralın axırlarında Azərbaycan Teleqraf Agentliyinin yaradılması barədə yeni qərar qəbul edilmişdir. Martın 2-də isə mətbuatda "AzərTAc" imzası ilə ilk xəbərlər dərc olunmuşdur. Ona görə də martın 1-i ölkəmizdə rəsmi dövlət teleqraf agentliyinin yaradıldığı gün sayılır.

Təəssüflər olsun ki, dövlət teleqraf agentliyinin ömrü heç 2 ay da çəkmir. Xalq Cümhuriyyətinin süqutu ilə o da öz fəaliyyətini dayandırır.

Sovet hakimiyyəti dövründə – 1920-ci il iyunun 9-da Rusiya Dövlət Teleqraf Agentliyi (ROSTA) Qafqaz Ölkə Müvəkkilliyinin Azərbaycan şöbəsi yaradıldı. O, Azərbaycan Mətbuat Mərkəzinin tərkibində fəaliyyət göstərirdi. 1921-ci ildən isə şöbə Azərbaycan Teleqraf Agentliyinə çevrildi. 1972-ci ildən Azərinform adlanan bu qurum da, digər müttəfiq respublikalarda olduğu kimi, əslində, SİTA-nın filialı idi.

Ölkəmizin müstəqilliyinin ilk illərində agentliyin fəaliyyətində elə bir nəzərəçarpan dəyişiklik olmamışdır. Doğrudur, keçmişdəkindən fərqli olaraq, ilk dəfə Azərbaycan dilində xəbərlər hazırlanmasına başlanmışdı. O vaxtadək materiallar yalnız rus dilində hazırlanır, sonra isə Azərbaycan dilinə tərcümə edilirdi.

Agentliyin əsl dirçəliş dövrü möhtərəm Heydər Əliyev yenidən respublikada siyasi hakimiyyətə qayıtdıqdan sonra başlanmışdır. Dövlətimizin başçısının 1995-ci il 3 mart tarixli Fərmanı ilə agentliyə rəsmi dövlət informasiya orqanı statusu verildi və o, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi adlandırıldı. Agentliyin qısaldılmış adına – AzərTAc abbreviaturasına gəldikdə isə, deyim ki, bu, hələ 1920-ci

ildə qəbul olunmuşdur və Azərbaycan Teleqraf Agentliyi deməkdir. Onun qısaldılmış adı "AzərTAg" şəklində dilə yatmadığına görə, ixtisarda fransızcadan türk dilinə keçmiş "acente" sözündən istifadə edilmişdir.

Xüsusi vurğulamaq istəyirəm ki, möhtərəm Prezidentimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsinə çox böyük diqqət yetirir. Dövlətimizin başçısı AzərTAc-ın fəaliyyətinin təkmilləşdirilməsi, işçilərin maddi təminatının yaxşılaşdırılması barədə bir neçə Fərman və Sərəncam imzalamışdır.

Bütün bunların sayəsində agentliyin maddi-texniki bazası möhkəmləndirilmiş, ən müasir avadanlıq alınmışdır. Lap bu yaxınlarda, mart ayının əvvəlində AzərTAc üçün xaricdən respublikada, bəlkə də, MDB məkanında oxşarı olmayan fotolaboratoriya alınıb quraşdırılmışdır. Bizə göstərilən bu böyük diqqət və qayğıya görə cənab Prezidentimizə hədsiz minnətdarıq və kollektivimiz bu etimadı doğrultmaq üçün özünün bütün imkanlarından istifadə edərək, daha böyük səylə çalışır.

– Xarici informasiya agentlikləri ilə əməkdaşlığınız necədir, onlarla informasiya mübadiləsi aparılırmı?

– Müstəqil dövlətin rəsmi informasiya agentliyi kimi AzərTAc, təbii ki, müxtəlif ölkələrin müvafiq agentlikləri ilə əlaqələr yaratmışdır və bu, gələcəkdə daha da genişləndiriləcəkdir. Biz Türkiyə, İran, Rusiya, Rumıniya, Çin, Pakistan, Qazaxıstan, Ukrayna və bir sıra digər ölkələrin rəsmi agentlikləri ilə əməkdaşlıq edirik.

Lap bu yaxınlarda Çin Xalq Respublikasının Sinxua agentliyi ilə əlaqələri genişləndirmək barədə yeni saziş imzalanmışdır. Onu da əlavə edim ki, Sinxuanın iş təcrübəsi ilə tanış olmaq üçün Pekinə səfər etmək barədə dəvət almışıq və bu imkandan istifadə edəcəyik. Biz bu agentliklərlə, çox geniş olmasa da, müəyyən səviyyədə informasiya mübadiləsi aparır, eyni zamanda, Bakıda fəaliyyət göstərən nümayəndəlikləri və təmsilçiləri ilə müntəzəm əlaqə saxlayırıq. Ümumiyyətlə, bu sahədə işimizi daha səmərəli qurmaq üçün yeni imkanlar axtarırıq.

Bundan əlavə, biz informasiya agentliklərinin müxtəlif regional qurumlarının keçirdikləri tədbirlərdə imkan daxilində iştirak edirik.

AzərTAc-ın fəaliyyətində mühüm istiqamətlərdən biri də Azərbaycanın xarici ölkələrdəki səfirlikləri ilə əlaqələrdir. Ölkəmizin ABŞ, Fransa, Böyük

Britaniya, Almaniya, Türkiyə, İran, Çin, Pakistan, Səudiyyə Ərəbistanı və sair ölkələrdəki diplomatik missiyalarının başçıları AzərTAc-la müntəzəm əlaqə saxlayır, mühüm xəbərlərin operativ şəkildə alınıb yayılmasında bizə yaxından kömək göstərirlər. Qəzetinizin verdiyi bu imkandan istifadə edərək, diplomatlarımıza dərin minnətdarlığımızı bildiririk və ümidvarıq ki, qarşılıqlı əməkdaşlığımız gələcəkdə daha da geniş və səmərəli olacaqdır.

– Çoxdandırmı AzərTAc-da çalışırsınız?

– 1992-ci ildən buradayam. Əvvəlcə müxbir, sonra baş redaktorun müavini və baş redaktor işləmişəm. 1997-ci ildə cənab Prezidentimizin Sərəncamı ilə baş direktorun birinci müavini təyin edilmişdim. 2002-ci ilin oktyabrında isə dövlətimizin başçısının Fərmanı ilə baş direktor təyin olunmuşam.

– Agentliyin işində əvvəlki dövrlərə nisbətən daha çox hansı fərqləri hiss edirsiniz? Bu dəyişikliklər iş prosesinə hansı müsbət çalarlar verir? AzərTAc-ın strukturu standart xarakter daşıyır, yoxsa müəyyən özünəməxsusluq var?

– Əvvəlki dövrlə müqayisə aparmadan bu gün rəhbər tutduğumuz başlıca iş prinsipimizi deyə bilərəm: informasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativliyə, son dərəcə çevikliyə nail olmaq.

Bu il yanvarın 1-dən AzərTAc bayram və bazar günləri də daxil olmaqla, fasiləsiz iş rejiminə keçmişdir. Günün istənilən saatında əməkdaşlarımız iş başındadır, kütləvi informasiya vasitələrinə, internet şəbəkəsinə xəbərlər ötürülür. İnformasiyanı toplayan, hazırlayan və operativ yayan çevik qruplar yaradılmışdır.

Strukturda ciddi dəyişikliklər aparmışıq. Özünü doğrultmayan, zamanla ayaqlaşmayan bəzi bölmələr ləğv edilib, vəzifələr ixtisara salınıb, müasir tələblərə uyğun yeni strukturlar yaradılıb. Bayaq dediyim çevik qrupların tərkibində bu strukturların hamısının nümayəndələri təmsil olunublar. Bütün bunlar həm keyfiyyətə, həm kəmiyyətə, həm də operativliyə müsbət təsir göstərmişdir.

– Aslan müəllim, fikrimizcə, informasiya baxımından Azərbaycan kiçik məkandır. Belə olan halda, AzərTAc-ın fəaliyyətində ölkə ilə bağlı məlumatların bolluğu nə dərəcədə hiss olunur?

– İnformasiya agentliyində çalışan jurnalist üçün "məlumat qıtlığı" anlayışı yoxdur. Axı, həyat bir yerdə dayanmır, cəmiyyət inkişafdadır. Hərəkət,

inkişaf olan yerdə hansı qıtlıqdan danışmaq olar? Azərbaycan kiçik məkan olsa da, əsl jurnalist üçün kifayət qədər informasiya vardır. İnformasiyanı, faktı görə bilməmək və ya görmək istəməmək isə başqa məsələdir.

Bu gün Bakı başdan-başa tikinti meydançasına çevrilib, iqtisadiyyatda, idarəetmədə əsaslı islahatlar aparılır, struktur dəyişiklikləri həyata keçirilir, elmimiz, təhsilimiz, səhiyyəmiz dünya standartlarına uyğunlaşdırılır, idmanın kütləviliyi üçün böyük işlər görülür, beynəlxalq təşkilatlar, maliyyə qurumları ölkədə onlarca layihə reallaşdırılır, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, "İpək yolu" ideyası gerçəkləşir, Bakı-Tbilisi-Ceyhan neft kəməri tikintisinin bünövrəsi qoyulmuşdur. "İpək yolu" və neft kəməri boyunca yaradılacaq infrastrukturları, müxtəlif sosial-məişət obyektlərini təsəvvürünüzə gətirin. Siz soruşun ki, jurnalistlərimiz bütün bunları əhatə edə bilirlərmi?

Peşəkar jurnalist üçün informasiya, məlumat azlığı, məkan darlığı ola bilməz və olmamalıdır. Təkrar edirəm, söhbət peşəkarlardan gedir. Peşəkar olmayanın isə KİV-lərdə çalışmağa mənəvi haqqı yoxdur.

– Bu məsələdə digər informasiya agentliklərinin fəaliyyətini necə qiymətləndirirsiniz? Həmin agentliklərlə əlaqələriniz varmı?

– Söhbətimizin əvvəlində informasiya blokadasının yarılmasında KİV-lərin roluna toxundum. Həmin sözləri informasiya agentliklərinə də şamil edərdim. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında onların rolu böyükdür. Təkrar edirəm: həqiqətlərin.

Ölkəmizdə söz və mətbuat azadlığı təmin olunduğu üçün indi kifayət qədər informasiya agentlikləri yaranmışdır. Buna təbii baxıram. Lakin onların bir çoxu fakta, hadisəyə münasibətdə peşə etikası normalarını pozur, kimlərinsə ambisiyasına, siyasi maraqlarına xidmət etməyə çalışır. Hər bir agentlik əməkdaşı fakta vicdanla yanaşmalı, şayiəni informasiyaya çevirib ictimaiyyəti çaşdırmamalıdır. Fakt sifarişlə yozulanda informasiya istər-istəməz qərəzli xarakter daşıyır. Belə informasiyalar isə müstəqilliyini dönməz etməyə çalışan, hüquqi dövlət quran, torpaqlarının bütövlüyünü təmin etmək istəyən Azərbaycana ancaq ziyan vurur, düşmən dəyirmanına su tökür. Belə fəaliyyəti ancaq ideoloji təxribat adlandırmaq olar.

Əlaqələrimizə gəldikdə isə, biz bütün KİV-lərə informasiya veririk. Özü də pulsuz. Ancaq bayaq fakta vicdanlı münasibət barədə dediklərimi bizim informasiyalara göstərilən münasibətə də aid etmək istəyirəm. Təəssüf ki,

bir sıra KİV-lər bizim informasiyaları mənbəyi göstərilmədən, öz məhsulları kimi yayırlar. Unudurlar ki, jurnalist həmkarlarının əməyinə, zəhmətinə, nəhayət, hüququna hörmət bəslənilməlidir.

Yeri gəlmişkən, biz də dünya informasiya agentliklərindən məlumatlar alırıq. Ancaq onları yayanda mütləq mənbəni göstəririk. Bu, jurnalist etikasından əlavə, həm də başqasının əməyinə insani qiymət verməkdir, ən nəhayət, dünya praktikasında qəbul olunmuş norma, qaydadır.

– Sizcə, AzərTAc-ın digər ölkədaxili agentliklərlə fərqi onun rəsmi dövlət orqanı olmasındadır, yoxsa...

– Bilirsinizmi, informasiya yayan orqanın mənsubiyyəti, onu kimin maliyyələşdirməsi oxucunu, dinləyicini qətiyyən maraqlandırmır. Hər şeyi əlahəzrət fakt həll edir. İnformasiya agentliyinin vəzifəsi faktı, hadisəni ictimaiyyətə doğru-düzgün çatdırmaqdır. Vicdanlı, qərəzsiz şəkildə. Mahiyyət, dediyim kimi, iş prinsipində, faktlara, hadisələrə yanaşma tərzindədir. Mən deyərdim ki, bunlar təkcə jurnalistin səriştəsindən yox, həm də dünyagörüşündən, vətəndaş mövqeyindən, mənəvi saflığından da asılıdır.

Jurnalistlərimiz informasiyaya çevirmək istədikləri faktları dəfələrlə, bir neçə mənbədən dəqiqləşdirirlər. Hər bir informasiyanın doğura biləcəyi reaksiyanı nəzərə alırlar. Elə bunun nəticəsidir ki, indiyədək, bir dəfə də olsun, təkzib vermək məcburiyyətində qalmamışıq.

Gördüyünüz kimi, elə bir əsaslı fərq sadalamadım. Dediklərimin hamısı adi jurnalist etikası çərçivəsində gözlənilməsi vacib olan tələblərdir.

– Aslan müəllim, təqribən beş ay əvvəl Prezidentin Fərmanı ilə siz AzərTAc-a baş direktor təyin edilmisiniz. Daha sonra rəhbərlik etdiyiniz qurumda çalışan işçilərin maaşlarının artırılması haqqında sərəncam imzalandı. Bu, agentliyin işində hansı dönüşə səbəb oldu?

– Bayaq struktur dəyişikliyi və işimizdəki müsbət çalarlar barədə sualınıza cavab verərkən dönüş, daha doğrusu, bu gün fəaliyyətimizdə rəhbər tutduğumuz prinsip haqqında danışdım. Nail olduğumuz müsbət nə varsa, möhtərəm Prezidentimizin qayğısının nəticəsidir.

Mənim baş direktor təyin olunmağıma, işçilərimizin maaşının artırılmasına təkcə etimad və ya bir qrup insanların sosial vəziyyətinin yaxşılaşdırılması kimi baxmaq düzgün olmazdı. Söhbət dövlətçiliyə xidmət

edən adamların – indiki halda AzərTAc əməkdaşlarının məsuliyyətinin yüksəldilməsindən gedir. Bu məsuliyyəti işdə doğrultmaq üçün ilk gündən qüvvələri səfərbərliyə almışıq. Struktur dəyişiklikləri barədə danışdım. Son zamanlar informasiyalarımızın kəmiyyət və keyfiyyət göstəriciləri də xeyli artıb. Gün ərzində təxminən 50-70 informasiya buraxılır.

Şəxsən cənab Prezident Heydər Əliyevin qayğısı ilə maddi-texniki bazamız da möhkəmlənib. Fotolaboratoriyadan əlavə, ən müasir rəqəmli fotoaparatlar, agentliyi fasiləsiz enerji ilə təchiz edən yeni avadanlıq alınmışdır.

Dünya informasiya agentliklərinin təcrübəsinə uyğun olaraq, kompyuterlər, faks aparatları və peyk anteni ilə təmin edilmiş xüsusi zal-studiya yaradılmışdır. Əməkdaşlarımız indi telefon rabitəsi, elektron poçtu, internet şəbəkəsi vasitəsilə istənilən yerlə əlaqə saxlaya bilirlər...

Bu gün AzərTAc-da çalışan jurnalist təkcə zəhmətkeş işçi deyil, o, eyni zamanda müasir dünyagörüşünə malik insan, ən başlıcası isə, Azərbaycan dövlətçiliyinə, bu dövlətçiliyin möhkəmləndirilməsinə yönəlmiş siyasətə xidmət edən vətəndaşdır.

– Səhv etmiriksə, bu yaxınlarda bir neçə ölkədə yeni müxbir məntəqələrinin də yaradılmasına nail olmusunuz?

– Möhtərəm Prezidentimizin bizə göstərdiyi diqqət və qayğı, Azərbaycan hökumətinin gördüyü tədbirlər xarici ölkələrdə də müxbirlər şəbəkəsini genişləndirməyə imkan vermişdir. İndi 9 ölkədə xüsusi müxbirimiz fəaliyyət göstərir. Bu yaxınlarda Ukraynada müxbir məntəqəmiz fəaliyyətə başlayıb. İndi növbədə bir çox beynəlxalq təşkilatların iqamətgahlarının yerləşdiyi Avstriyadır. Gələcəkdə bəzi başqa ölkələrdə də müxbir məntəqələri yaratmağı nəzərdə tutmuşuq.

– İnformasiyanın hazırlanmasında jurnalistin məsuliyyətini necə qiymətləndirirsiniz?

– Yuxarıda yeri gəldikcə məsələyə münasibətimi bildirmişəm. Konkret onu deyə bilərəm ki, ilk növbədə, jurnalistin fəaliyyət azadlığı, informasiya almaq hüququ qorunmalıdır. Ölkəmizdə bərqərar olmuş mətbuat azadlığı, qəbul edilmiş qanun və qərarlar buna imkan verir.

Bilavasitə jurnalistin informasiya hazırlaması prosesinə gəldikdə isə, hər bir qələm sahibi etik normalara əməl etməlidir. Belə ki, informasiya düzgün və həqiqi olmalıdır, insanların şəxsiyyəti təhqir edilməməlidir;

məlumat cinayətkar yolla əldə olunmamalıdır; informasiyalarda faktlar təhrif edilməməli və ya gizlədilməməlidir; mətndə, başlıqda təhrifə yol verilməməlidir; informasiyada irqi, dini və milli mənsubiyyətə görə ayrı-seçkilik olmamalıdır; vətəndaşların şəxsiyyətini ləkələyən məlumatlara ən qısa müddət ərzində təkzib verilməlidir. Jurnalist unutmamalıdır ki, həqiqətə xidmət edir. Bu xidmətdə isə başlıca prinsip dəqiqlik və obyektivlikdir. İnformasiya mənbəyi mütləq göstərilməlidir. Hər bir jurnalist peşə ləyaqətini gözləməlidir.

Əlbəttə, bunların sayını artırmaq da olar. Lakin mənə elə gəlir ki, normal fəaliyyət göstərib cəmiyyətə namusla xidmət etmək istəyən jurnalist üçün bunlar da kifayətdir...

"Yeni Azərbaycan" qəzeti, 28 mart 2003-cü il.
Heydər Əliyev və Azər TAc. Bakı, "Nurlan", 2005-ci il.

RƏYLƏR, XATİRƏLƏR

"İnsanlar...Hadisələr... Zaman" kitabına ön söz

Azərbaycanın Əməkdar Jurnalisti Elmira Əliyevanı Azərinforma gələndən tanıyıram. Ancaq hələ Azərbaycan Dövlət Universitetinin tələbəsi ikən onun haqqında çox eşitmiş, "İzvestiya" qəzetində məqalələrini oxumuşdum. O, uzun illər "İzvestiya" qəzetinin respublikamızdakı xüsusi müxbiri, lap əvvəl, Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirəndən sonra isə "Bakinski raboçi" qəzetinin əməkdaşı işləmişdir. Xatirimdədir, "E.Əliyeva" imzası olan materiallar oxucuların və əlbəttə, bizim, gələcək jurnalistlərin həmişə marağına səbəb olurdu. Düşünürəm ki, onlar, ilk növbədə, dərinliyi və aktuallığı ilə yanaşı, həm də mənə elə gəlir ki, səmimiliyi ilə də diqqəti cəlb edirdi. Çünki onun yaddaqalan yazılarının mövzusu həmişə insanları düşündürən mövzular olurdu.

Mən Azərinforma (indiki AzərTAc) işləməyə gələndə Elmira Əliyeva agentliyin mədəniyyət şöbəsinə rəhbərlik edirdi. Bundan əvvəl o, direktorun yanında xüsusi müxbir idi və çoxlu materiallar yazırdı. O illər Stalin repressiyalarının qurbanlarının reabilitasiyasına həsr olunmuş bir sıra məqalələr, çox sevdiyi mədəniyyət sahəsinin xadimləri haqqında oçerklər, kəskin və tənqidi materiallar artıq təcrübəli jurnalistin qələminin bəhrəsi idi. Bütün bunlar çox böyük sərištə ilə, məsuliyyətlə yazılırdı. 1990-cı illərin əvvəllərində Elmira Əliyeva təxminən 10 il rus dilində informasiya redaksiyasının baş redaktoru işləmiş, eyni zamanda, bir müddət direktor müavininin səlahiyyətlərini icra etmişdir. İndi təcrübəli jurnalist Baş direktorun müşaviridir, yaradıcılıqla da fəal məşğul olur, çoxlu maraqlı materiallar yazır. Əvvəllər olduğu kimi, indi də yüksək peşəkarlığı, seçdiyi sənətə sədaqəti ona çox kömək edir. Məqalələrinin qəhrəmanları isə öz əməlləri ilə Vətənimizin şöhrətini ucaldan müasirlərimiz, habelə bu dünyadan şərəfli ad qoyub köçmüş insanlardır. Agentliyə rəhbərlik etdiyim illər ərzində Elmira xanımın bütün təşəbbüslərini məmnuniyyətlə dəstəkləyir, onun jurnalistlik fəaliyyətini hərtərəfli təşviq edir, gənc jurnalistləri ondan öyrənməyə çağırmışam. Elmira Əliyevadan çox şey öyrənmək olar. Əsl jurnalist və güclü müşahidə qabiliyyətinə malik olan Elmira xanım maraqlı şəxsiyyətin, hadisənin, təzahürün yanından heç zaman ötüb keçmir, bu barədə mətbuat səhifələrində söz açmağa tələsir, həm də çox maraqlı yazır.

Onun materialları şəxsi münasibətlər əsasında yazılır, incə, gözəl hisslərlə doludur və görünür ki, müəllif öz qəhrəmanlarını sevir. Bu isə onun yazılarını daha da cəlbedici edir.

Çox şadam ki, Elmira xanım məqalələrinin ikinci toplusu olan "İnsanlar... Hadisələr... Zaman" kitabını dərc etdirmək qərarına gəlmişdir. Əminəm ki, buradakı oçerklər, xülasələr, esselər, informasiyalar cəmiyyətimizdə maraq doğuracaqdır.

Э.Алиева. "Люди... События... Время..."
Баку, изд. "İndigo", 2009.

"Ədəbi redaktə: nəzəriyyə və təcrübə" kitabına ön söz

Yaşadığımız dövrü informasiya əsri adlandırırlar. Belə bir bənzətmə əsla təsadüfi deyil. İndi hər bir ölkə vətəndaşı istər yerli miqyasda, istərsə dünyanın müxtəlif guşələrində – yaxın, uzaq məmləkətlərdə baş verən yeniliklərdən, ictimai-siyasi dəyərə malik hadisələrdən vaxtında, həm də çətinlik çəkmədən xəbər tutur. Həmin sahədə elektron informasiya vasitələrinin, mətbuatın rolu əvəzsizdir.

Lakin xüsusilə müasir tamaşaçının, dinləyicinin, oxucunun zövqünün, marağının və tələbkarlığının artdığı, artmalı olduğu indiki şəraitdə bu, hələ işin bir tərəfidir. Mühüm məlumatları yerlərə, əyalətlərə çatdırmaq üçün həmin məkanlara çaparlar göndərildiyi vaxtdan bizi tarixin çox uzun bir dövrü – saysız-hesabsız qərinələr, əsrlər ayırır. Bu müddət ərzində elmin, texnikanın inkişafı ilə bərabər insanın özü də yetkinləşmiş, zövqü, dünyagörüşü zamana uyğun şəkildə formalaşmışdır.

Bir sıra digər ictimai-siyasi amillər kimi bu məsələlərin müsbət həllində də jurnalistikamız xeyli dərəcədə fəal rol oynayıb. Xüsusən son dövrlərdə onun tərəqqisində, yeni keyfiyyətlərlə zənginləşməsində ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri hər kəsə yaxşı bəllidir. Jurnalistlərin özlərinin yaxın dostu adlandırdıqları Heydər Əliyev cənabları kütləvi informasiya vasitələrinin bütün sahələrinin cəmiyyətin, xalqın həyatında müsbət rol oynamasını həmişə yüksək qiymətləndirmiş, çətinlik və problemlərin araşdırılıb aradan qaldırılmasını daim diqqət mərkəzində saxlamışdır. Bunu elə onun gündəlik fəaliyyətindən, məruzə və çıxışlarından da aydın görmək olardı. O yazırdı ki, "Mətbuat, ya müstəqil mətbuat, yaxud da müxalifət mətbuatı, təbiidir ki, cəmiyyətdə olan çatışmazlıqları, nöqsanları, hakimiyyətin fəaliyyətində olan qüsurları tənqid etməklə həm iqtidara, həm də cəmiyyətin bu nöqsanlardan təmizlənməsinə kömək etməlidir" ("Azərbaycan" qəzeti, 21 yanvar 2001-ci il).

Nəzəri fikirdə və əməli fəaliyyətdə özünü doğruldan belə nəcib, xeyirxah əməllərin təsiri, onlara minnətdarlıq duyğusu ilə 2005-ci ildə yazdığım "Heydər Əliyev və AzərTAc" adlı kitabımda göstərmişəm ki, bu qurum özünün əsl inkişaf yoluna ulu öndərimizin ötən əsrdə respublikamıza rəhbərlik etdiyi 1970-1980-ci illərdən qədəm qoymuşdur. Həmin illərdə

Azərbaycanda gedən genişmiqyaslı quruculuq işlərinin canlı şahidi olan bizim nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, "... mətbuatın...qaldırdığı hər hansı bir təşəbbüs Heydər Əliyevin diqqətindən kənarda qalmırdı. Məhz o illərdə Azərbaycan mətbuatına milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği jurnalistlərin yaradıcılığında mühüm yer tutmuşdur" (5, s.1).

Həmçinin onu da qeyd etmişəm ki, "Azərbaycan Prezidenti Heydər Əliyevin müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli, əhatəli nitqləri, ən yüksək səviyyədə apardığı danışıqları siyasi publisistikanın son dərəcə gözəl, təkrarsız nümunələridir. Bütün bunlar dönə-dönə nəzərdən keçirilməli, diqqətlə öyrənilməlidir. İnamla demək olar ki, Heydər Əliyevin siyasi publisistikası bu gün də, 50, 100 il bundan sonra da Azərbaycan jurnalistikası üçün əvəzsiz xəzinədir" (5, s.113).

Onun çıxış və məruzələrini, qələm məhsullarını bu qədər cazibəli, təsirli edən həm mühakimələrinin dərinliyi, gətirdiyi dəlil və sübutların həyatiliyi və inandırıcılığı, həm də dilimizin imkanlarına hədsiz dərəcədə bələdliyi və bu imkanlardan son dərəcə səriştəli şəkildə, böyük ustalıqla, məharətlə istifadə etməsi idi.

Ümummilli lideri müxtəlif vaxtlarda yaxın və uzaq səfərlərdə müşayiət edənlər bunu daha yaxşı bilirlər. Bilirlər ki, məntiqi vurğusuna, intonasiyasına qədər düzgün seçilmiş söz, söz birləşmələri, cümlələr adamları nə dərəcədə heyran edir, qəlblərə necə hakim kəsilirdi...

Bütün bunlar öz gözəl səmərəsini vermiş və yenə verməkdədir. Heydər Əliyev ideyalarını böyük sədaqət, inam və ehtiramla davam etdirən İlham Əliyev cənabları da cəmiyyətin həyatında jurnalistikanın rolunu yüksək qiymətləndirir, mətbuat və söz azadlığını, siyasi plüralizmi tərəqqiyə, inkişafa xidmət edən mühüm amillər kimi qiymətləndirir, Azərbaycanda, sözün əsl mənasında, müstəqil mətbuata böyük ehtiyac olduğunu göstərir, bu müstəqilliyi cəmiyyətin sifarişi kimi şərh edir.

Belə bir zamanda elə tarixi şəraitin özü söz yaradıcılığına daha böyük tələbkarlıq və həssaslıqla yanaşmağı, bu sahədə ciddi yaradıcılıq axtarışları aparmağı, ulularımızın bizə əmanət qoyub getdiyi mənəvi sərvəti daha da kamilləşdirməyi, zənginləşdirməyi tələb edir. Unutmamalıyıq ki, aqillərin "Gözəllik ondur, doqquzu dondur" kəlamı da elə xalqımızın zövq incəliyinə,

duyum zərifliyinə, kamilliyə meylinin, marağının artmasına dəlalət edir və bu tələblərə əməl olunmasını zaman-zaman bizə xatırladır.

"Göz gözəllik vurğunudur" deyib ulularımız. Ancaq təkcə gözmü? Yox, elə qulaq da məlumatın ona necə gəldi yox, incə, şux tərzdə çatdırılmasını "istəyir" və belə hallarda, yəqin ki, "sevinmiş olur". Bütün bunlar isə sayı gündən-günə artmaqda olan kütləvi informasiya vasitələrinin işçiləri – jurnalistlər, o cümlədən aparıcılar, şərhçilər və redaktorlar qarşısında mühüm tələblər irəli sürür.

Odur ki, informasiyanın, həmçinin digər janrlardakı materialların yüksək səviyyədə hazırlanmasında, peşəkarlığın artırılmasında müxtəlif amillərlə yanaşı, elmi-nəzəri ədəbiyyatın da rolu böyükdür və qarşınızdakı kitab, ilk növbədə, bu cəhətdən – mövzunun aktuallığı və əhəmiyyəti baxımından maraq doğurur. Lakin mühüm mövzuya müraciət hələ məsələnin bir tərəfidir. Yaradıcılıq prosesində müvəffəqiyyəti təmin edən digər amil isə oxucuya, dinləyiciyə, tamaşaçıya ünvanlanan materialın kim tərəfindən, necə hazırlıqla, hansı məsuliyyət hissi ilə qələmə alınmasıdır.

Mahmud Mahmudov uzun illərdir ki, ali məktəb auditoriyalarında ədəbi redaktənin nəzəriyyəsi və təcrübəsi məsələlərindən mühazirələr oxuyur, seminarlar aparır, televiziya kanallarında çıxış edir, nəşriyyatlarda kitabları, mətbuat orqanlarında sanballı məqalələri dərc olunur. Eyni zamanda, bu işin əməli məsələləri ilə də ardıcıl şəkildə məşğul olur. Özünün dediyi kimi, ədəbi redaktə artıq onun "yaradıcılıq həyatı"na çevrilib və əməyinin bəhrələri də göz önündədir. Tanınmış qələm sahibləri bəzi əsərlərinin ədəbi redaktəsini ancaq ona etibar edirlər. Mövzuya dərindən bələdlik bu kitabda məsələlərin qoyuluşunda da özünü göstərir. Müəllif həmin sahəyə dair bəzi müvafiq elmi-nəzəri ədəbiyyatı, metodik tövsiyələri xatırladır, ədəbi redaktənin qarşısına qoyulmuş məqsəd və vəzifələrdən, onun metodikasından, başlıca prinsiplərindən, ayrı-ayrı sahələr üzrə redaktənin özünəməxsus xüsusiyyətlərindən, uğur və qüsurlardan söhbət açır. Haqlı olaraq göstərir ki, dilimizə, onun saflığının və gözəlliyinin qorunmasına dövlət qayğısının get-gedə artdığı bir şəraitdə mətbuatda, kitablarda, ekran və efirdə Azərbaycan ədəbi dilinin normalarına məhəl qoyulmaması yolverilməzdir və bunun qarşısı hökmən alınmalıdır. Necə, hansı yollarla? Dərs vəsaitində bu suallara da cavab tapmaq mümkündür.

Kitabda diqqətimi cəlb edən məsələlərdən biri də, əvvəldə xatırlatdığım kimi, nəzəri fikirlə əməli materialların sıx vəhdətidir. Müəllif konkret bölmələrə aid elmi fikrin işığında çoxlu nümunələr gətirir, təhlillər aparır, həmçinin özünün ayrı-ayrı əlyazmalarını necə redaktə etməsi də müvafiq materiallardan aydın görünür. Onu da hiss etdim ki, M.Mahmudov redaktə prosesində şifahi xalq yaradıcılığı nümunələri ilə daha çox maraqlanır, qiymətli mənəvi sərvətin kobudcasına təhrifinə barışmaz münasibəti var və ciddi tənqidi mülahizələrini inandırıcı faktlarla sübuta yetirir.

Orası da maraqlıdır ki, müəllif dilimizin ifadə zənginliyinə aid qiymətli nümunələri bəzən heç də adi şəkildə xatırlatmaqla kifayətlənmir. Fikrinin daha təsirli, inandırıcı olması üçün münasib yollar arayıb-axtarır. Bu məqsədlə kiçik süjetlər qurur, səsləniş və yazılışca eyni, məna baxımından tamamilə zidd olan kəlmələri müəyyən hadisələr, əhvalatlarla oxucuya çatdırır. Nəticədə ibrətamiz müqayisələr şüurumuza daha möhkəm həkk olub hər birimizi mənəvi dəyərlərimizə etinasız yanaşmamağa, onu lazımınca qiymətləndirməyə səsləyir. Bir sıra ifadələrdə məcazi mənanın qabardılması, hər birinin müəyyən münasibətlər fonunda yazıya gətirilməsi və yenə də tutarlı müqayisələrlə bəzi xarici dillərdə bir neçə hərəkətin yalnız bir kəlmə ilə ifadə olunmasının xatırladılması bu qəbildəndir.

Belə bir əyanilik, inandırıcılıq ayrı-ayrı sahələrlə məhdudlaşmır, əslində elə hər yerdə bu əlamət duyulur. Məsələn, oçerkin, zarisovkanın, müsahibənin, yeri gəldikcə, redaktə naminə başlıca əlamətlərinə diqqət yetirilməsi, məzmun və formaya, məntiq və inandırıcılığa, xüsusən süjet və kompozisiyaya aid gətirilən nümunələr də həmin məqsədə xidmət edir.

Yaxşı ilə pisin, keyfiyyətlə keyfiyyətsizliyin əks qütbdə dayanıb, böyük təzad təşkil etməsi hər kəsə bəllidir. Lakin belə bir məlum həqiqət, hər halda, qarşılaşdırma zamanı daha aydın görünür, müəllifin qayəsi, fikir və mülahizələri xeyli dərəcədə əyani, qüvvətli alınır.

Kitabda, nə yaxşı ki, bu vasitədən də yerli-yerində, bacarıqla istifadə olunub. Fikrimizi əsaslandırmaq üçün əhatəli şəkildə nümunə gətirilmiş və geniş təhlilə cəlb olunmuş bir yazıya diqqət yetirək. Burada sözün urvatdan salınması, onun yüngül ehtirasların təsvirinə həsr olunması məsələsinə elə məqalə kimi kitab müəllifinin də münasibəti son dərəcə mənfi və barışmazdır. Lakin o, görünür, həmin qüsur barəsindəki fikir və mülahizələrin bir

qədər ümumi səslənib, lazımi şəkildə qüvvətli təsir bağışlaya bilməyəcəyi ehtimalını da hiss edib və belə məqamda həmin o qarşılaşdırma zərurəti – təzadlı tərəflərin qabardılması, müqəddəs idealın daim diqqət mərkəzində saxlanılması vacibliyi də xatırlanıb.

M.Mahmudovun ədəbi cəhətdən üzərində işləyib qəzetdə çap etdirdiyi zarisovka həm müqəddəs idealına, həm də ali məramın gözəl dildə, parlaq üslubda qələmə alınmasına görə onsuz da müvəffəqiyyətlidir. Ancaq işin bu tərəfi həmin o yüngül təbiətli adamların yazdığı və çapına üzdəniraq redaktorların "xeyir-dua" verdikləri səviyyəsiz, bəsit, şit, oxucunun zövqünü korlayan yazılarla müqayisədə uğur daha parlaq, çağırış ruhu, hiss-həyəcanı, harayı əsrarəngiz dərəcədə gözəl, əzəmətli səslənir.

Yaxud başqa bir məqama diqqət yetirək – qoyulan problemlərin özü kimi, kitabın ünvanlandığı oxucuların dairəsi də genişdir. Elə bunun özü də mövzunun təbiətindən, məzmun və mahiyyətindən, problemin çoxlarının maraq dairəsində olmasından irəli gəlir. Doğrudur, dərs vəsaiti, əsasən jurnalist ixtisası üzrə kadr hazırlayan ali məktəblərin müvafiq fakültə və şöbələrinin müəllim və tələbələri üçün nəzərdə tutulub. Lakin kütləvi informasiya vasitələrinin əməkdaşları, nəşriyyat işçiləri üçün də çox faydalıdır. Eyni zamanda, dilimizin saflığına, ifadə zənginliyinə maraq göstərən, fikirlərini səlis, oxunaqlı üslubda qələmə almaq istəyən hər kəs ondan bəhrələnə bilər.

Məlumat üçün orasını da xatırladım ki, M.Mahmudovun "Respublikamızdakı televiziya kanallarının rəhbərlərinə, redaktor və aparıcılarına, müğənnilərə" "Söz sərvətimizi bayağılaşdırmayaq!" rubrikası ilə "Kredo" qəzetində çap etdirdiyi açıq məktubu da eyni mənəvi tələb və ehtiyacdan yaranmışdır. Müəllif burada qarşısına iki məqsəd qoyub: aparıcıların və xüsusən müğənnilərin yol verdikləri qüsurları qabarıq şəkildə göstərmək; həmin nöqsanların aradan qaldırılması uğrunda mübarizəyə daha geniş auditoriyanı cəlb etmək.

Belə bir fəaliyyətin, xeyirxah, gözəl niyyətin timsalında biz vəziyyətin yaxşılığa doğru düzəlməsini, təbii ki, iddia edə bilmərik. Ancaq çəkilən əməyin səmərə verəcəyinə əminik. Ona görə ki, müəyyən əlamətlər diqqəti cəlb edir. Əvvəla, müasir şəraitdə dilimizin saflığının qorunmasının, onun ifadə imkanlarından səmərəli istifadənin vəziyyəti (bu vəziyyət nə qədər

xoşagəlməz olsa da) artıq göz qabağındadır. Belə bir mənzərənin konkret nümunələrlə təsviri əvvəl-axır bizi hərəkətə gəlməyə, səmərəli yollar axtarmağa, onu gündəlik əməli fəaliyyətimizlə bağlamağa vadar etməlidir.

Bəzi mütəxəssis-alimlərin, yazıçıların, müxtəlif peşə sahiblərinin müzakirədə fəal iştirakı da bu fikrin təsdiqi kimi görünə bilər.

Müəllifin konkret sahədəki təəssübkeşliyinə aid başqa nümunələr gətirmək olar. Məsələn, özünün dissertasiya işini əvvəlcə başqa dildə yazmaq istəyən və bu dilin guya bizimkindən daha geniş imkanlara malik olduğunu iddia edən həmkarının fikrini əsaslı dəlillərlə təkzib edir. Lakin belə düşünənlərin, az da olsa, hər halda, mövcudluğunu nəzərə alıb, məsələyə münasibətini, necə deyərlər, daha geniş müstəviyə keçirir. Yəni, əvvəlcə adi maraq üzündən apardığı axtarışları genişləndirərək müxtəlif tələbə auditoriyalarına gətirib çıxarır. Nəticə də sevindiricidir: konkret mətndə dilimizdəki bir kəlmənin səkkiz yüzdən artıq (!) əvəzedicisi toplanıb, kitaba daxil edilmişdir.

Doğrudur, tapıntıların hamısı eyni dərəcədə müvəffəqiyyətli sayıla bilməz. Lakin məsələ heç də ayrı-ayrı sözlərdə yox, məqsəddə, məna və mahiyyətdədir. Yəni belə bir müqayisə genişliyi dilimizin son dərəcə rəngarəngliyinə, ifadə imkanlarının zənginliyinə dair ürəkaçan faktdır. Məsələnin digər tərəflərini də qeyd edək. Əvvəla, müəllif bu tapıntıları bütünlüklə öz adına çıxmır. Əksinə, seminar məşğələlərində ona yaxından kömək göstərmiş tələbələrin əməyini də qədrşünaslıqla qeyd edir. Mənə xoş gələn o biri cəhət axtarışların hələ bitmədiyinə dair qeydlərdir. Müəllif oxuculara müraciət edərək bu sahədə təzə, müvafiq-münasib kəlmələri ona ünvanlamağı xahiş edir, müvəffəqiyyətli olanların kitabın yeni nəşrində hökmən nəzərə alınacağını vəd edir və bu yolda zəhmət çəkəcək hər kəsə qabaqcadan təşəkkürünü bildirir.

Dilimizin ifadə imkanlarının hədsiz genişliyi, tədqiqatçının uğurlu və gərgin, səmərəli axtarışları əvəzedici sözlərin sayının minə çatacağı və bəlkə daha artıq olacağı güman və ehtimalını, arzusunu yaradır. Bunun isə əhəmiyyəti olduqca böyükdür. Çünki onların yaranması, formalaşması dövründən bizi on, yüz, min, bəlkə də milyon illər ayırır. Belə bir danılmaz fakt isə hər birimizin bu yerlərin heç də qədim sakini olmayıb, Azərbaycan, İrəvan... torpaqlarında guya sonradan məskunlaşdığımızı iddia edən məkrli

düşmənlərimizin başına endirilən yağlı qapaz təsiri bağışlayır, sifətinə vurulan (və haqlı olaraq vurulan!) sərt sillə kimi səslənir.

Ancaq yersiz cəhd, böhtan və iftira hədərdir və əvvəl-axır süquta, məhvə möhtacdır. Müdrik atalarımız nahaq yerə deməyiblər ki, "Yalan ayaq açar, yeriməz". Hələ bununla kifayətlənməyib – məlum həqiqətin digər variantlarını, ifadə formalarını da yaradıblar. Məsələn, "Quru palçıq divara yapışmaz", "Oğru elə bağırdı ki, doğrunun zəhri yarıldı", "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Özgə çörəyinə bel bağlayan gecə şamsız yatar", "Qonşunu iki inəkli istə ki, bəlkə özün bir inəkli olasan"...

Bəli, bütün bunların taleyin, daha doğrusu, imperiya siyasətinin bizə qonşu etdiyi bədnamlara, qara qüvvələrə bu və ya digər dərəcədə, daha doğrusu, bütünlüklə aidiyyəti var. Xalqımızın böyüklüyü, əzəməti, mənəvi zənginliyi, qonşumuzun süfrəmizin artığı ilə dolanmağından aydın görünür.

Etiraf edim ki, əlyazmanı redaktə edərkən, ictimai qürur və mənafe naminə çəkilən ağır zəhmətə görə iftixar hissi yuxarıdakı səbəblər üzündən qəlbimdə yarandı, yaşandı və indi də yaşanmaqdadır... Həm də təkcə mənimmi? Qəti qənaətim belədir ki, bu hiss və duyğular öz xalqını doğma övlad məhəbbəti ilə sevən, onun zəngin mənəvi sərvətlərindən olan əsrarəngiz, füsunkar, zamanın sərt sınaqlarından, sözün ən müsbət mənasında, heyrətamiz bir inadkarlıqla, üsyankarlıq ruhu ilə qalib çıxan dilinə sonsuz istəklə yanaşan hər kəsə sirayət edəcək. Belə düşünməyə çox səbəb var.

Onlardan biri də müəllifin mövzuya böyük məhəbbətidir. Aqillərimizin "Sevməyən sevdirə bilməz" kəlamı da ümumi müvəffəqiyyətdə bu məsələnin heç də az rol oynamadığına dəlalət edir. Yəni, irəlidə xatırlatdığım kimi, mövzunun aktuallığı və əhəmiyyəti məsələnin yalnız bir tərəfidir. Digər amil isə alimin, qələm əhlinin... məsuliyyət və sevgisi, bu sahədəki gərgin və səmərəli əməyidir.

Məhz həmin səbəblər Mahmud Mahmudovu əlyazmasını dönə-dönə "mürəkkəbdə çimizdirməyə", lazımi ixtisarlar aparmağa, əlavələr etməyə səsləyib və mən redaktor kimi bu işin çox şahidi olmuşam. Yaxud, hələ işıq üzü görməmiş vaxtlarda da gələcək kitabın nəşri barəsində (!) fikirləşməsi, bununla əlaqədar müvafiq planlaşdırma aparması da yazdıqlarımın sübutu

kimi qiymətləndirilə bilər. Bütün bunlar isə belə bir fikri inamla söyləməyə əsas verir ki, qələmə alınanlar dilmizə vurğunların sevgisini daha da artıracaq, məhrəm münasibəti, istəyi hələlik qəlbinin dərinliklərində mürgülü şəkildə yaşadanları silkələyib ayıldacaq, müqəddəs mehraba, möcüzəli aləmə, gözəlliklərlə dolu dünyaya biganə olanlara öz təsirini göstərəcəkdir. Bu, başqa cür ola bilməz və olmamalıdır da. Çünki təbiətimizdəki ayrı-ayrı qüsurlar, etinasızlıq, biganəlik halları, yadmeyillilik əlaməti özü belə bizə ana südü kimi doğma olanları bizdən ayıra bilməz – onu müqəddəs zirvələrdən yerə endirməsi ağlasığmaz və yolverilməzdir...

Qeydlərimi kağıza köçürərkən istər-istəməz bir məsələ barədə də fikirləşməli oldum. Düşündüm ki, deyəsən, axı, hiss etmədən özüm də müəllifin təsiri ilə istilah və ibarələrlə, bənzətmə və mübaliğələrlə "nəfəs alıb" fikrimi sıx-sıx müqayisə yolu ilə ifadə etməyə çalışmışam. Həm də belə bir halı özlüyümdə məqbul saydım: həqiqəti sadə sözlərlə də, mənasına, mahiyyətinə ziyan yetirmədən bir qədər "bəzək-düzəkli" şəkildə də bəyan etmək olar. Təki ortaya səmimiyyətdən, həqiqi qiymətdən kənar fikir, boğazdan yuxarı – təmənnalı söz gəlməsin.

Çoxumuza yaxşı bəlli olan – olacaq sadə həqiqətlərdən biri budur ki, bu kitabın redaktorunun özü kimi AzərTAc-ın bəzi işçiləri də, televiziya və radioda, müxtəlif mətbuat orqanlarında, nəşriyyatlarda çalışan xeyli əməkdaş da yazılanlara sabiq müəllimlərinin müxtəlif vaxtlarda auditoriyalarda oxuduğu mühazirələrin məntiqi, yeni fakt və hadisələr, mühakimələrlə zənginləşdirilmiş davamı kimi baxacaqlar. Deməli, illər arasında gözəgörünməz körpü salınacaq, ayrı-ayrı məqamlarla əlaqədar xatirələr yada düşəcəkdir.

Nəticədə müxtəlif dövrlər arasında uyğunluq və fərqlər axtarılanda gətirilən faktların bilavasitə özündən doğan təzadlı qənaətlər hasil olunacaq. Belə ki, tarixdə ikinci dəfə müstəqilliyimizi əldə etdikdən sonra... kütləvi informasiya vasitələrinin kəmiyyət göstəricisi mətbuat, söz azadlığı, siyasi plüralizm zəminində, təbii ki, çox yüksək qiymətləndiriləcək. Ancaq keyfiyyət, dəyər baxımından mülahizələr, yəqin ki, birmənalı olmayacaq, ciddi narazılıq, narahatlıq doğuran əlamətlər də yada salınacaqdır.

Bunu da müəllifin xidməti kimi qiymətləndirmək mümkündür: nöqsanlar aşkar olunanda onun aradan qaldırılması, ləğvi barəsində düşünmək

də lazım gəlir. Bir sözlə, mütaliə etməkdə olduğunuz əsərin yalnız əlaqədar sahə üzrə müəllim, konkret ixtisas bilicisi kimi yetişməkdə olan tələbələrin, hətta, bütünlüklə mütəxəssislərin deyil, hər bir oxucunun masaüstü kitabına çevrilməsini arzulayır və buna inanıram. Axı, əhəmiyyəti göz qabağında olan, faydası şübhə doğurmayan qələm məhsuluna kütləvi şəkildə maraq göstəriləcəyinə, onun lazımınca qiymətləndiriləcəyinə niyə də inanmayım?..

M.Mahmudov. Ədəbi redaktə:
nəzəriyyə və təcrübə. Bakı, "Şərq-Qərb", 2008-ci il.

Babam Aslan bəyin ruhu şad olsun!

(Acılı-şirinli xatirələr)

Uzaq keçmişlə, xüsusən də bilavasitə şahidi olmadığın hadisələrlə, məsələlərlə bağlı, yalnız ötəri söhbətlərdən yadında qalanlar barədə yazmaq çox çətin işdir. Vaxt sarıdan imkan olmayanda isə bu, ikiqat çətindir. Nə qədər illər, aylar, günlər, saysız-hesabsız hadisələr yada salınmalı, xatirələr çözələnməlidir. Amma bütün bunlara baxmayaraq, həmyerlim, çox hörmətli ziyalı, nurlu bir insan olan Həsən Təhməzova (Cəbrayıl rayonunun Şıxalıağalı kənd orta məktəbinin ingilis dili müəllimi) verdiyim söz yerinə yetirilməlidir.

Başqa çarə yoxdur, vaxt nə qədər az, iş nə qədər çox olsa da, Həsən müəllimin hazırladığı kitab üçün bu bir neçə vərəq yazı verilməlidir. Həm də düzünə qalsa, Həsən müəllimə, necə deyərlər, minnət etmək də insafsızlıqdır. Bu kişi çox xeyirxah bir qərar qəbul edərək, doğulub boya-başa çatdığı, bu gün isə ermənilərin işğalı altında olan Cəbrayıl rayonunun Şıxalıağalı kəndinin tarixi haqqında kitab hazırlamaq fikrindədir.

...Babam Aslan bəy sovet hakimiyyətindən əvvəl nəinki Şıxalıağalıda, həm də onun yerləşdiyi Arazboyunun o taylı-bu taylı mahallarında çox hörmətli bəylərdən biri olduğu üçün Həsən müəllim, necə deyərlər, mənim qapımı belə bir xahişlə döyüb. Mən isə verdiyim sözü yerinə yetirməliyəm.

Mənim üçün nə qədər kədərli olsa da, həqiqət budur ki, Aslan bəy haqqında məlumatım çox azdır. Özümə haqq qazandırmaq üçün demirəm, amma hər halda bu, faktdır ki, öz qanlı caynaqları ilə milyonlarla insanın həyatına ağır zərbələr vurmuş sovet repressiyaları bax, bizə – o dövrün gənclərinə öz ata-babalarımızın, hətta millətimizin tarixini əməlli-başlı dərindən, mükəmməl öyrənməyə imkan verməyibdir. Repressiya qorxusu adamların gözünü o qədər qırmışdı ki, onlar öz ululları haqqında bildiklərini övladlarına da danışmağa ehtiyat edirdilər. Amma o kədər, o qüssə onların qəmli gözlərində, solğun üzlərində, yaralı qəlblərində qaldı və beləcə də dünyadan köçüb getdilər.

Mənim nənəm Əzət xanım da, son nəfəsinədək, özünün dili ilə desək, Sibirdə çürümüş atasının, qardaşlarının həsrətini çəkmişdi. Bəli, bunlar elə acı xatirələrdir ki, onları yada salmağın özü insanı dəhşətə gətirir...

Eşitdiyim, bildiyim budur ki, babam Aslan bəy XIX əsrin sonu – XX əsrin əvvəllərində qədim Xudafərin körpüsündən bir qədər aşağıda Araz çayının sahilində yerləşən Şıxalıağalı kəndində geniş torpaq sahələri, otlaq yerləri, böyük sürüləri olan, o taylı-bu taylı Arazqırağı mahallarda böyük nüfuz, hörmət sahibi olan bəylərdən biri imiş. Əzət nənəmin söhbətlərindən yadımda qalan odur ki, babam Tehrana, Təbrizə tez-tez çağırılar, mühüm yığıncaqlarda yaxından iştirak etməklə yanaşı, ona həm də söz-nüfuz sahibi olan bir ağsaqqal kimi hörmət olunurdu.

Atamgil iki bacı, bir qardaş idilər. Deyilənə görə, böyük bibim Misdi xanım Aslan bəyin sağ əli imiş. Çiyində beşatılan, belində xəncər at üstündə əsas işlərə nəzarət edən bibim öz qoçaqlığı, mərdliyi ilə kişiləri məəttəl qoyarmış. Kiçik bibim Şamama isə çox sakit, başıaşağı, həlim təbiətli bir xanım olub.

Azərbaycanda sovet hakimiyyəti qurulandan bir qədər əvvəl Aslan bəyin xanımı rəhmətə gedir, başqa sözlə, yurdunda oğul övladı görmək arzusunu onun gözündə qoyur. Aslan bəyin Mirzəcanlı Məmməd bəylə çox yaxşı dostluq, həm də uzaq qohumluq əlaqələri vardı. Məmməd bəyin də üç oğul anası olan qızı Əzət xanımın əri həyatdan vaxtsız köçübmüş. Məmməd bəygildəki qonaqlıqların birində Əzət xanım Aslan bəyin xoşuna gəlir və onlar evlənirlər. Amma bundan bir qədər sonra Aslan bəy qəflətən ağır xəstələnir.

Əzət xanım isə uşaq gözləyirmiş. Deyilənə görə, Aslan bəy həftələrlə can verir, sanki xanımının dünyaya gətirəcəyi körpəni gözləyirmiş. Nəhayət, Əzət xanım Aslan bəy üçün oğul doğur. Qulluqçular yenicə dünyaya gələn uşağı götürüb tez xəstə yatan Aslan bəyin yanına aparıb deyirlər ki, "bəy, gözün aydın, oğlun oldu". Aslan bəy sevincək yerindən dikəlir, uşağa diqqətlə baxaraq gülümsəyir və "adını Əhməd qoydum" deyib, rahatca gözlərini əbədi yumur. Beləliklə, mənim atam Əhməd bəy 1923-cü ildə Cəbrayıl rayonunun Şıxalıağalı kəndində Aslan bəyin evində dünyaya göz açır.

Aslan bəy rəhmətə gedəndən sonra onun qızı Misdi xanımı tayfalararası döyüşlərin birində qəflətən arxadan güllə ilə vururlar. Elə bundan sonra da Aslan bəyin malı, mülkü, yurdu düşmənləri, həm də elə qohum-əqrəbaları tərəfindən dağıdılır. Əzət xanım balaca Əhmədi də götürüb,

özünün dediyinə görə, bir dəvə yükü mal-dövlətlə kənddən çıxır. Aslan bəyin evi, daha doğrusu, atamın dünyaya göz açdığı ev sonralar Şıxalıağalı kənd orta məktəbinə çevrildi...

1937-1938-ci illərin repressiya dövründə nənəm Əzət xanımın atasını, dayılarını, əmilərini, qardaşını, o cümlədən Aslan bəyin qohumlarının hamısını Sibirə sürgün edirlər. Əzət xanım gözdən bir qədər uzaq olmaq üçün oğlanları ilə birgə Cəbrayıl rayonunun Papı kəndinə gəlir və burada özlərinə məskən qura bilirlər.

Sovet hakimiyyətinin o qanlı-qadalı illərində baş vermiş bu qorxunc hadisələr onları öz keçmişlərini hər kəsdən gizlətməyə məcbur etmişdi. Atam Əhməd ögey qardaşlarının hamısından yaşca kiçik olsa da, hamı onu çox sevirdi, həm də ona böyük hörmətlə yanaşılırdı. Elə ona görə də lap gənc yaşlarında o, özünü nəslin başbiləni, ağsaqqalı kimi aparırdı. Yəni bütün məsələlərdə böyük qardaşlar onunla məsləhətləşir, qəbul etdiyi qərarlarla sözsüz razılaşırdılar. Atama bu münasibət onun həyatdan köçdüyü son ana qədər davam etmişdi. Ögey qardaşlarının soyadını qəbul edən atam – Quliyev Əhməd Aslan oğlu qonşu kənddə səkkizillik orta məktəbi bitirdikdən sonra xüsusi qabiliyyəti, bacarığı nəzərə alınmaqla, Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsində işə qəbul olunur. Böyük Vətən müharibəsi başlanandan sonra yenə bu keyfiyyətlərini, arxa cəbhədə gərəkliyini nəzərə alaraq, bir neçə il hərbi xidmətdən azad edirlər. O vaxtkı sözlə desək, müharibəyə getməmək üçün "bron" verirlər. 1945-ci ilə qədər atam arxa cəbhədə işləyir, lakin müharibənin başa çatmasına az qalmış, onu hərbi xidmətə çağırırlar. Nənəm söhbət edirdi ki, atam müharibənin o ağır illərində əlində olan imkanlardan istifadə edərək, çox adamlara yaxşılıq etmiş, kömək göstərmişdir. 1945-ci ildə o, Tiflisə göndərilir və buradan ön cəbhəyə yola salınmalı imiş. Lakin iş elə gətirir ki, Tiflisdəki toplanış məntəqəsindəki azərbaycanlı, daha doğrusu, cəbrayıllı zabitlərdən biri Aslan bəyin oğlunu tanıyır və onu ön cəbhəyə getməkdən azad edir.

Bir neçə aydan sonra müharibə başa çatır. Beləliklə, atam ön cəbhəyə gedə bilmir. Lakin həm bəy oğlu olması, həm də müharibədə, daha doğrusu, ön cəbhədə olmaması sonralar onun partiya sıralarına keçməsinə, dövlət işində çalışmasına çox maneələr törədir. Ancaq o, bunlardan heç vaxt sınmır...

Yadımdadır ki, atam uzun illər kolxozda ferma müdiri işlədi. Biz hər il yayı Gorusdan keçərək Bazarçaya, Üçtəpəyə, Sarıyer yataqlarına gedərdik. Çünki məhz bu yerlər bizim elin yaylaqları idi. Qışda isə o yerin adamları da Arazboyuna qışlaqlara gələrdilər. Ona görə də çox sıx əlaqələr var idi.

Yaxşı yadımdadır ki, atamın uşaqlıq dostu olan Vahid İsmayılov (yeri gəlmişkən, o, sonralar Zəngilan, Ağcabədi, Jdanov (Beyləqan) rayon partiya komitələrinin birinci katibi işləmiş, görkəmli partiya işçisi kimi respublikada böyük nüfuz qazanmışdı) 1960-cı illərin əvvəlində Kirovabad Kənd Təsərrüfatı İnstitutunu bitirərək, rayona işləməyə gəldi. Bir müddətdən sonra onu bizim kolxoza sədr təyin etdilər. Vahid İsmayılov aqronom kimi çox savadlı, qabiliyyətli mütəxəssis və kolxoz sədri kimi çox bacarıqlı təşkilatçı idi.

Ona görə də o, dağətəyi ərazidə yerləşən Papı və Çərəkən kəndlərini birləşdirən M.F.Axundov adına kolxozu qabaqcıl təsərrüfatlar sırasına çıxarmaq üçün kənddən xeyli aralıda Araz çayının sahilində torpaq yeri icarəyə götürərək, pambıqçılıq briqadası yaratdı və atamı oraya briqadir təyin etdi. Yaxşı xatırlayıram, biz atamızı, demək olar, yalnız qış aylarında görə bilirdik. Çiyid səpiləndən pambıq yığılıb dövlətə təhvil veriləne qədər atam daim işin üstündə olurdu. Məhz Vahid İsmayılov kimi güclü təsərrüfatçının atamla birgə işi o vaxt çox yüksək nəticə verdi. M.F.Axundov adına kolxoz nəinki rayonda, hətta respublikada tanınmağa başladı və əldə olunan bu nailiyyət Vahid müəllimə böyük uğur gətirdi, 30 yaşlı cavan bir oğlan tezliklə yüksək bir vəzifəyə – rayon Kənd Təsərrüfatı İdarəsinə rəis təyin olundu, oradan isə Zəngilana birinci katib göndərildi.

Atam isə bir müddətdən sonra briqadirlikdən çıxaraq, başqa işə keçdi. Ailəmiz böyük idi – beş qız, bir də mən. Evdə bizə Şıxalıağalı kəndi haqqında çox az danışırdılar. Aslan bəy haqqında isə nənəm Əzət xanım hərdən üstüörtülü söhbət açardı. Böyük bacım Aminə o vaxt çox yaxşı hörmətə malik olan Şuşa Pedaqoji Texnikumuna daxil oldu. Mən həyatımda ilk dəfə məhz Aminə texnikumda oxuyanda Şuşaya getdim. Bacım yaxşı oxuyurdu.

O vaxt Şuşa Rayon Partiya Komitəsinin birinci katibi də cəbrayıllı idi. Bəlkə də ona görə Aminəyə təklif etmişdilər ki, qalıb texnikumda işləsin. Lakin atam buna qəti etiraz etdi. Düzü, mən əvvəlcə bu etirazın səbəbini başa düşmədim. Sonra nənəm Əzət xanım bir gün mənə başa saldı ki,

atanın öz arzusu var. O istəyir ki, uşaqlarından biri onun doğulduğu ata evində – Aslan bəyin evində – Şıxalıağalı kənd məktəbində işləsin. Nənəm bir də pıçıldadı ki, "Aslan, sən hələ uşaqsan, böyüyəndə başa düşəcəksən ki, atan nə üçün tez-tez yolunu Şıxalıağalıdan salır, öz ata evinə, ata yurduna həsrətlə baxıb təskinlik tapır. Bu hissləri sən ancaq böyüyəndə başa düşə bilərsən".

Yadımdadır ki, bacım Aminə Şuşa Pedaqoji Texnikumunu fərqlənmə ilə bitirib Cəbrayıl Rayon Xalq Maarif Şöbəsinə təyinat aldı. O vaxt maarif şöbəsinin müdiri bizim qonşu kənddən idi. Yaxşı bir insan kimi el-oba arasında xüsusi hörməti vardı. Heç yadımdan çıxmaz, maarif müdiri bacım Aminəni çox hörmətlə qəbul edib demişdi ki, istəyirsənsə Cəbrayıl orta məktəbində, istəyirsənsə Çərəkəndə, yaxud o biri kəndlərdə sənə dərs verə bilərəm.

Amma atan Şıxalıağalı kənd məktəbində işləməyini istəyir. Get fikirləş, bir neçə gündən sonra qərarını mənə deyərsən. Anam da, biz uşaqlar da, dayımgil də məsələnin məğzinin nə olduğunu bilmədiyimiz üçün buna etiraz edirdik ki, bu qız Papıdan xeyli uzaqda yerləşən Şıxalıağalı kəndinə hər gün necə gedib-gələcək. Axı bunun soyuğu, istisi, yağışlı-qarlı günləri var. Yox, atamı fikrindən döndərmək mümkün olmadı. Nənəm Əzət xanım bir gün bizi başa saldı ki, Aminənin bir müəllim kimi Aslan bəyin evində yerləşən Şıxalıağalı kənd məktəbində dərs deməsi atamın ən böyük arzularından biri imiş.

Bəli, Aminə Şıxalıağalı kənd məktəbinə müəllim təyin olundu. O gün bizim evdə, doğrudan da, əməlli-başlı şadyanalıq oldu. Nənəm aş bişirdi, yaxşı süfrə açdı. Sonradan dayım Həsən mənə söhbət edirdi ki, atam Əhməd Aminənin Şıxalıağalı kənd məktəbinə müəllim təyin olunması üçün qonşu kənddən olan maarif müdirinə yaxşı bir qoç da bağışlayıbmış.

Aslan bəyin Şıxalıağalı kəndində bir çox qohumları qalmışdı. Biz həmişə Bəhmən əmini və onun uşaqlarını böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Bəhmən əmi babamın yaxın qohumlarından biri olub. Böyük Vətən müharibəsi zamanı alman faşistlərinə qarşı döyüşlərdə dəfələrlə igidlik göstərib, ad qazanmışdı.

Lakin müharibənin sonlarına yaxın Bəhmən kişi ağır yaralanmış, daha doğrusu, hər iki ayağını itirmişdi. Xatirimdədir ki, xarakterсə çox qızğın,

cəsarətli, sözü üzə deməyi bacaran, haqq-ədalətin tərəfdarı olan bu kişini daim gətirib Şıxalıağalı kəndinin ortasından keçən asfalt yolun kənarında xüsusi çarpayısına uzandırardılar.

Yoldan gəlib keçən insanlar, xüsusilə rayon rəhbərlərinin hər biri mütləq maşını saxlayar, Bəhmən kişi ilə hal-əhval tutar, söhbətlərinə maraqla qulaq asardılar.

Bəhmən kişi Aslan bəyin el ağsaqqalı, igid, qoçaq bir adam olması barədə həvəslə danışardı. Yadımdadı, deyərdi ki, biz hamımız Aslan bəyin süfrəsinin çörəyi ilə böyümüşük.

...Bacım Aminə bir neçə il Şıxalıağalı kənd məktəbində müəllim işlədi. Qışda, soyuq havalarda isə kənddə Bəhmən əmigildə qalırdı. Bəhmən əmi və onun bütün ailəsi bacıma çox böyük rəğbət bəsləyirdilər. Kişi bu qızı, sözün həqiqi mənasında, öz balalarından da qat-qat çox istəyirdi və yeri gələndə deyirdi ki, mən bu qızın üzündə Aslan bəyin cizgilərini çox aydın görürəm. Ona görə də bu uşaq mənə çox əziz gəlir.

Bəhmən əminin çox yaxşı övladları var. Böyük oğlu Məhərrəm 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin o vaxt böyük nüfuz qazanmış tətbiqi riyaziyyat fakültəsinə daxil oldu. Ortancıl oğlu Oruc isə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini fərqlənmə ilə bitirdi.

Bacım Aminə sonralar söhbət edirdi ki, Şıxalıağalı kənd məktəbində müəllim işlədiyim illərdə, demək olar, tez-tez oturub öz uşaqlıq xəyallarıma dalar və fikirləşərdim, görəsən, mənim atam bu gün dərs keçdiyim bu sinif otaqlarının hansında dünyaya gəlib və yaxud babam Aslan bəy xəstə vaxtı bunların hansında yatırmış?!

Aminə bir neçə il Şıxalıağalı kənd məktəbində müəllim işlədikdən sonra nənəm Əzət xanımın qardaşı Əsəd bəyin oğlu Şəmşid Məmmədovla ailə qurdu. Şəmşid Məmmədov uzun illər Sənaye-Tikinti Nazirliyinin Mingəçevirdəki ən böyük tikinti trestinə rəhbərlik etmişdir. İndi cəsarətlə demək olar ki, 1970-80-ci illərdə Mingəçevirdə inşa olunmuş iri fabriklərin, zavodların, digər müəssisələrin tam əksəriyyətini onun rəhbərlik etdiyi trest tikmişdi.

...İş elə gətirdi ki, ortancıl bacım Müdafiə 1980-ci illərin əvvəllərində Kirovabad Dövlət Pedaqoji İnstitutunu bitirdi və ali təhsilli müəllim kimi o da Şıxalıağalı kənd orta məktəbində işlədi.

Bəli, mən bunları yalnız böyüyəndə başa düşdüm. Amma bir hadisə heç vaxt yadımdan çıxmır. Cəbrayılda Şıxalıağalı və Şükürbəyli kəndlərini özündə birləşdirən 26 Bakı komissarı adına çox məşhur bir kolxoz var idi. Bu kolxozun sədri əsl el ağsaqqalı olan Köçəri Babayev idi. Köçəri Babayev 1970-80-ci illərdə ulu öndərimiz Heydər Əliyevin diqqəti, qayğısı sayəsində respublikada çox böyük nüfuz qazanmışdı. Sonralar o, Sosialist Əməyi Qəhrəmanı fəxri adı almışdı.

İndiki kimi yadımdadır, 1970-ci illərin əvvəllərində mən yenicə universitetin jurnalistika fakültəsinə qəbul olunmuşdum. Bir gün axşam evimizin darvazasında bir maşın dayandı. Mən gələni qarşılamağa çıxdım, onun Köçəri Babayev olduğunu görəndə məəttəl qaldım. Köçəri Babayev kimi adlı-sanlı bir adamın bizə gəlməsi məni də, elə atamın özünü də təəccübləndirmişdi. Belə hörmətli qonağın gəlməsini eşidən kimi dayımgil, əmimgil də bizə toplaşdılar.

Qoyun kəsildi, yeməklər bişirildi. Dayım Həsən Həsənov da Cəbrayılda çox nüfuzlu, hörmətli bir adam idi. Cavanlığında bir sıra böyük rayonlarda prokuror işləmiş, yaxşı ad-san qazanmışdı. O vaxt isə təcrübəli maarif işçisi kimi həm Cəbrayılda, həm də qonşu rayonlarda hamı ona hörmət bəsləyirdi. Söhbət gecə keçənədək davam etdi. Nəhayət, qonaq gəlişinin məqsədini dedi. Bildirdi ki, artıq respublikada məşhur olan 26 Bakı komissarı adına kolxozun Şıxalıağalı kəndində də yeni orta məktəb tikilməlidir və o, yeni məktəbi Aslan bəyin evinin yerində tikmək istəyir. Hamı bu sözdən təsirləndi.

Çox qürurlu, vüqarlı olan atamın gözlərinin dolduğunu heç vaxt görməmişdim. Amma həmin söhbətdən sonra atam əməlli-başlı qəhərlənmişdi. Amma o, özünü ələ alıb Köçəri Babayevin bu hərəkətini çox yüksək qiymətləndirdi, ona təşəkkürünü bildirdi və öz halallığını verdi. Xatirimdədir, atamın ürəkdən kövrəldiyini görən Köçəri Babayev dedi ki, Əhməd, sənin atan Aslan bəy Şıxalıağalıda, Şükürbəylidə, ətraf el-obada çox adamlara çörək verib, yaxşılıq edib. Mən hələ uşaq olanda valideynlərim Aslan bəyin onlara göstərdiyi kömək, etdiyi yaxşılıqlar barədə danışmaqdan doymazdılar. Məni də bu qapıya gətirən, bax, həmin o yaxşılıqlardır. O vaxtdan neçə illər keçsə də, mən Köçəri Babayevin bu mərdanə hərəkətini heç vaxt unutmuram.

Bəli, Aslan bəy haqqında mənim bildiklərim elə bunlardır. Nə bilidimsə, onları kağız üzərinə köçürdüm. Hörmətli Həsən müəllimə bir daha minnətdaram ki, mənə belə bir xahişlə müraciət etdi və mən heç olmasa, ürəyimdə olanları deməyə çalışdım. Bəli, bu gün Ermənistan silahlı qüvvələrinin işğalı altında inləyən torpaqlarımız, kəndlərimiz, el-obamız barədə kitablar yazmaq çox müqəddəs bir işdir. Kənd isə insanlardan ibarətdir və həyatda böyük izlər qoymuş insanları yada salmaq Tanrıya da xoş gedər.

H.Təhməzli. Şıxalıağalı: tarixi keçmişdən bu günə.
Bakı, "MBM" nəşriyyatı, 2012-ci il.

Xatirəsi qəlbimizdə yaşayacaq insan haqqında düşüncələr

Oqtay Məmmədov Azərbaycan mətbuatının tanınmış nümayəndələrindən biri idi. Jurnalistikanın çox çətin, məsuliyyətli və şərəfli sahələrindən olan fotojurnalistikada öz sözünü deyən, izini qoyan peşəkar bir insan kimi o, uzun illər qəlbimizdə yaşayacaqdır. Nizam-intizamlı, peşəsinə qəlbən bağlanmış, dövlətinə, dövlətçiliyinə sədaqətlə xidmət edən bir jurnalist kimi Oqtay Məmmədovun qısa, lakin şərəfli həyatı bugünkü gənclər üçün əsl nümunə, örnəkdir.

1993-cü ildən 2003-cü ilədək ulu öndər Heydər Əliyevin xarici səfərlərində, respublikada keçirdiyi tədbirlərdə Oqtay Məmmədovla birgə iştirak etmişik. Qətiyyətlə deyə bilərəm ki, xalqımızın müdrik oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə, xüsusən də müstəqil Azərbaycan dövlətinin Prezidenti kimi 1993-cü ildən sonra özünəməxsus bir jurnalistika məktəbi yaratmışdır. Biz, Azərbaycan jurnalistlərinin böyük əksəriyyəti, o cümlədən Oqtay Məmmədov da məhz bu məktəbdə dərs almış, formalaşmışıq.

Yaxşı yadımdadır, 1993-cü ilin əvvəlində respublikada yaranmış ağır bir vaxtda xalqın təkidli tələbi və xahişi ilə iyunun 9-da Bakıya gələn ümummilli lider Heydər Əliyev, iki gündən sonra iyunun 11-də Böyük Britaniyanın "Britiş Petroleum" şirkətinin nümayəndəsini, ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsini müvəqqəti icra edən Robert Finni, Fransanın ölkəmizdəki səfiri Jan Perrəni qəbul etdi və digər görüşlər də keçirdi. Məhz, bu görüşlərin hamısında Oqtay Məmmədovla birgə iştirak etdik. Xatirimdədir ki, həmin gün axşam keçirilən qəbulların birində hətta, Heydər Əliyev bizdən soruşdu ki, siz hansı qəzetdənsiniz ki, mənim bütün tədbirlərimdə iştirak edirsiniz. Cavab verdik ki, biz AzərTAc-ın əməkdaşlarıyıq. Ulu öndərimiz gülümsəyərək bizə xoş münasibətini bildirdi. Və tale elə gətirdi ki, məhz həmin gündən 2003-cü ilə qədər Heydər Əliyevin respublikada keçirdiyi tədbirlərin və xarici səfərlərinin tam əksəriyyətində biz AzərTAc-ın nümayəndələri kimi iştirak etdik. Demək olar ki, Heydər Əliyevin jurnalistika məktəbinin daimi müdavimləri olduq. Belə bir xoşbəxtliyi bizə nəsib etdiyinə görə həmişə Ulu Tanrıya minnətdaram.

Heydər Əliyev jurnalistlərə xüsusi həssaslıqla, əsl atalıq qayğısı ilə yanaşırdı. Bəzən bu və ya digər hadisələri şərh edərkən nəyə xüsusi diqqət

yetirməyin lazım olduğunu göstərir, yaxşını pisdən ayırmağı bacarmaq vərdişi aşılayırdı. Ulu öndərin jurnalistlərlə hər bir görüşü, söhbəti, ümumiyyətlə, ünsiyyəti əsl ustad dərsləri idi. O, istənilən vaxt istənilən mövzuda müsahibə verməyə, jurnalistləri maraqlandıran sualları cavablandırmağa hazır idi. Jurnalistlər ona həmişə müraciət edə bilərdi. Bütün bunlar, sözün əsl mənasında, ustad dərsləri, nəyi yazmaq, nədən yazmaq, necə yazmaq barədə dərslər idi, xalqın, cəmiyyətin qələm əhlindən nələr gözlədiyini anlatmaq, öyrətmək dərsi idi. Bu dərslərdə dövlətimizin, xalqımızın taleyi, gələcəyi ilə bağlı məsələlər ön planda dururdu.

Məhz, Oqtay Məmmədov da bu məktəbi keçmişdi, dünyada tayı-bərabəri olmayan dahi bir insandan dərs almışdı. Mən həmişə böyük qürurla deyirəm ki, müasir dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək qiymətləndirən ikinci bir lider olmamışdır.

Oqtay özü də həmişə fəxrlə etiraf edərdi ki, AzərTAc-da işə başlayanda fotojurnalistika haqqında o qədər də dərin biliyə malik deyildi. Məhz ulu öndərin tədbirlərində iştirak etməklə, onun tövsiyələrini dinləməklə Heydər Əliyevin mətbuata necə böyük diqqət yetirdiyini görən Oqtay bu peşəyə qəlbən bağlandı, onun bütün incəliklərini öyrənmək üçün, hətta canını belə əsirgəmədi.

Oqtay Məmmədov mərdliyi, insanpərvərliyi, səmimiyyəti ilə çox-çox insanların qəlbində özünəməxsus yer tutub. Şən zarafatları, istiqanlılığı ilə diqqəti cəlb edən Oqtay iş vaxtı, tədbirlər zamanı tamamilə fərqli bir insana çevrilirdi. O, seçdiyi peşəyə bütün qəlbi, qanı-canı ilə bağlı idi. Çəkiliş anında onu fikrindən ayırmaq, diqqətini yayındırmaq Oqtay üçün əsl faciəyə çevrilirdi. Çox gərginliklə axtarıb tapdığı həmin anın əldən verilməsi, ona sanki zərbə vururdu. Çünki o, çəkdiyi şəkilləri adi fotokadr kimi yox, sənət əsəri kimi təsəvvür edir, həm də yaxşı anlayırdı ki, fotoaparatın yaddaşına köçürdüyü bu kadrlar dahi bir insanın həyatının unudulmaz anlarıdır. Bunlar yüz il də, min il də bundan sonra Azərbaycan xalqı üçün əvəzsiz xəzinəyə çevriləcəkdir. Ona görə də, Oqtay bu sənətlə yaşayırdı.

Ulu öndərimiz Heydər Əliyevin bütün xarici səfərləri çox gərgin və səmərəli keçirdi. Ümummilli lider nə özü üçün dincəlməyə vaxt ayırır, nə də biz, heç olmasa, şəhəri bir az gəzməyə imkan tapırdıq. Daha doğrusu, belə imkan çox təsadüfi hallarda olurdu. Çünki səfər proqramı zərgər dəqiqliyi ilə hazırlanırdı. Nizam-intizamı pozmaq isə, sadəcə, qeyri-mümkün idi.

Yeri gəlmişkən, yadıma bir əhvalat düşdü. Heydər Əliyevin Böyük Britaniyaya səfəri uğurla başa çatdıqdan sonra bizə tapşırıq verilmişdi ki, uçuş vaxtına iki saat qalır. Onun bir saatını hava limanına getməyə, bir saatını isə şəhərlə tanışlığa sərf edə bilərdik. Jurnalistlər və mühafizəçilərin müəyyən hissəsi avtobusla Londondan Hitrou hava limanına yola düşərkən qərara aldıq ki, nəzərdə tutulmuş bir saatdan səmərəli istifadə edək, heç olmasa, şəhərdə bir az gəzişib məşhur memarlıq abidələrinin bəzilərinə yaxından tamaşa etmək imkanını əldən buraxmayaq.

Sözün qısası, avtobus küçələrin birində dayandı. Elan olundu ki, hamı saatlarını yoxlasın və bir saatdan sonra avtobusa qayıtsın. Beləcə, hərə istədiyi səmtə yön aldı. Düz bir saatdan sonra hamı öz yerində idi. Amma Oqtay gəlib çıxmamışdı. Mən çox həyəcan keçirsəm də, inanırdım ki, o, vəziyyətdən çıxış yolu tapacaqdır. Biz çox məyus halda Oqtaysız Hitrou hava limanına yola düşdük. Oraya çatanda isə Oqtayı təyyarənin pilləkəni yanında görüb, məəttəl qaldıq. Oqtay başına gələnləri o qədər maraqla və məzəli nağıl etdi ki, yolboyu bunu dönə-dönə danışmağı ondan xahiş edirdik. Mən bu əhvalatı onun kimi söyləyə bilməsəm də, yadımda qalan odur ki, Oqtay gəlib bizi orada görməyəndə bir taksiyə əyləşib "Marqaret Tetçer flayt... Marqaret Tetçer flayt..." deyə-deyə sürücüyə hara getmək istədiyini birtəhər başa sala bilmişdi.

Həyatının son anına qədər o, Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın səfərlərinin respublika mətbuatında işıqlandırılmasında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi.

Çoxları yaxşı bilir ki, çətin və məsuliyyətli bir sahə olan fotojurnalistikanın ən şərəfli vəzifəsi rəsmi dövlət tədbirlərini lentə köçürməkdir. Bu, həm də bacarıq və xüsusi istedad deməkdir. Çünki rəsmi fotoinformasiya jurnalistdən dərin düşüncə, qeyri-adi fəhmlə lazım olan anı görmək, fiziki cəldlik və seçdiyi peşəyə dərin məhəbbət tələb edir. Gərgin çəkilişlər zamanı o, bir neçə dəfə zədə almış, hətta qolunu sındırmış, lakin öz işini ləyaqətlə davam etdirmişdir. Bir sözlə, Oqtayı fotoaparatsız, fotoaparatı isə Oqtaysız təsəvvür etmək mümkün deyildi.

Danılmaz faktdır ki, doğma Azərbaycanımızın, habelə AzərTAc-ın tarixinin bütöv bir qərinəsi ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu bir dövrə təsadüf edir. 1970-ci illərdə Azərbaycanın sosial-iqtisadi gerilikdən çıxaraq İttifaqın qabaqcıl respublikalarından birinə çevrildiyi bir vaxtda mətbuat, xüsusən informasiya agentliyi diqqətdən kənarda qala bilməzdi.

Məhz Heydər Əliyevin yaxından köməyi sayəsində Azərinform SSRİ-nin əsas informasiya orqanı olan SİTA sistemində çox nüfuzlu bir quruma çevrilmişdir. O vaxt buna nail olmaq asan məsələ deyildi. Heydər Əliyevin hər hansı maneəni aradan qaldırmağa imkan verən şəksiz nüfuzu və güclü təsiri öz müsbət rolunu oynamışdır. Nəhəng informasiya maşını SİTA SSRİ rəhbərliyinin böyük hörmət və rəğbətlə yanaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı uğurlar haqqında Azərinform tərəfindən hazırlanmış xəbərləri həm də dünyaya yayırdı.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra AzərTAc-ın yenidən təşkil edilməsi haqqında Fərman imzaladı və bununla da informasiya orqanına rəsmi dövlət statusu verildi.

Memarı və qurucusu Heydər Əliyev olan müstəqil Azərbaycanın inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirilməsi nəticəsində respublikamız indi regionda liderlik edir və dünyada söz və nüfuz sahibi olan bir dövlətə çevrilmişdir. Bu isə AzərTAc-ın da beynəlxalq əlaqələrinin genişlənməsinə və onun dünya informasiya məkanına inteqrasiyasına müsbət təsir göstərmişdir. Hazırda AzərTAc dünyanın 80-dən çox informasiya agentliyi ilə əməkdaşlıq edir. Agentliyimiz Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü, həm də onun rəhbər orqanı olan İcraiyyə Komitəsinin bürö üzvüdür. 2008-ci ildə AzərTAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilməsi agentliyimizin həyatında ən mühüm hadisələrdən biridir. AzərTAc artıq regional və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. Belə ki, 2008-ci il aprelin 30-u – mayın 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclası keçirildi və hazırda TKA-da AzərTAc sədrlik edir.

Ötən il sentyabrın 1-4-də isə AzərTAc-ın ev sahibliyi ilə Bakıda OANA İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclası keçirildi. İlk dəfə olaraq dünyanın 21-dən çox ölkəsinin ən nüfuzlu xəbər agentliklərinin rəhbərləri respublikamıza gəldilər. OANA ilə EANA-nın tarixində isə ilk dəfə olaraq, bu qurumların rəhbərləri birlikdə tədbirdə iştirak etdilər. Azərbaycan Prezidenti cənab İlham Əliyevin iclas iştirakçılarını qəbul etməsi qonaqlarda çox böyük təəssürat doğurdu.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. Tam qətiyyətlə deyə bilərəm ki, AzərTAc-ın əldə etdiyi bütün

nailiyyətlərdə Oqtay Məmmədovun əvəzsiz xidmətləri olmuşdur. Ən vacibi isə o idi ki, Oqtay AzərTAc-ın əldə etdiyi uğurlara sidq-ürəkdən sevinir, Bakıda agentliyimizin təşkilatçılığı ilə keçirilən tədbirlərin yüksək səviyyədə təşkilində ondan asılı olan hər bir işi ləyaqətlə yerinə yetirməyə çalışırdı.

O, ümumiyyətlə kollektivlə nəfəs alırdı. AzərTAc, həqiqətən onun ikinci evi idi. Bəlkə də o, öz evindən çox kollektivə can yandırırdı. Kollektivin ümumi işi ilə yaşayan insanlara böyük rəğbət bəsləyir, tənbəllərə, küncdə-bucaqda gizlənib yaxasını işdən kənara çəkənləri isə görməyə gözü yox idi. Beləleri bilirdilər ki, Oqtay lazım gələndə onların yaxasından yapışıb əməllərini düz gözlərinin içinə deyərdi. Onun mərdliyi, qoçaqlığı, yeri gələndə insanlara arxa-dayaq durması bu gün də yoldaşları tərəfindən dönə-dönə xatırlanır.

Oqtay eyni zamanda, sədaqətli dost, gözəl ailə başçısı idi. Həmişə deyib-gülən Oqtayın çoxsaylı səfərlərlə bağlı, özünün və yol yoldaşlarının rastlaşdığı qəribə hadisələr barədə yumorla dolu şirin söhbətləri, heç kimin qəlbinə toxunmayan şux zarafatları hamıda xoş ovqat doğururdu. Eyni zamanda, o, çox həssas qəlbli idi, haqsızlığı, kobudluğu, ədəb-ərkandan kənar hərəkətləri heç cür qəbul etmir, belə hallarla rastlaşanda etirazını, narazılığını gizlədə bilmirdi. Oqtay Məmmədov bütün varlığı ilə peşəsinə bağlı, intizamlı adam idi. 20 ilə yaxın bir yerdə işlədiyimiz müddətdə Oqtay Məmmədovun ən çətin və məsuliyyətli tapşırıqların öhdəsindən həmişə ləyaqətlə, yüksək peşəkarlıqla gəldiyinin şahidi olmuşam. Həyatının son anında da bu sənətə sadiqliyini bir daha sübuta yetirdi. O, üzərinə düşən vəzifəni vicdanla başa vurdu və yalnız bundan sonra həyatla vidalaşdı.

Oqtay Məmmədovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, 2000-ci ildə Prezident Heydər Əliyevin Fərmanı ilə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına və 2005-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür. Azərbaycan mətbuatının qayğıkeşi və himayədarı möhtərəm Prezidentimiz İlham Əliyev Oqtay Məmmədovun ailəsini mənzillə təmin etmiş, mərhumun dəfn mərasiminin yüksək səviyyədə təşkili barədə tapşırıq vermişdir.

Oqtay Məmmədov Azərbaycan mətbuatı üçün çox böyük itkidir. Mənim üçün isə o, əziz dost, qəlbimdə əbədi yeri olan bir insan idi.

2009-cu il.

Əsl bakılı, geniş qəlbli və möhkəm əqidəli insan

O, Bakının yəhudilər yaşayan məhəlləsində doğulmuşdur. Yetkinlik illərində tale onu Tanrı evinə – sinaqoqa gətirmiş və bu, onun sonrakı bütün həyatına çox böyük təsir göstərmişdir. Çoxlu dostu var, özü də təkcə Azərbaycanda deyil, həm də dünyanın hər yerində. Sevimli məşğuliyyəti şəkil çəkmək və tikişdir, klassik musiqini və muğamları sevir, kitablara, qiraətə xüsusi həvəsi var. Onun belə bir fikri hamıya tanışdır: indi Azərbaycan nəinki neft ixrac edə bilər, həm də ölkəni zinətləndirən, onun başını ucaldan, müxtəlif millətlərdən və dinlərdən olan insanların rahat yaşamasına və özlərini təhlükəsiz hiss etməsinə imkan verən dözümlülük – tolerantlıq ixrac edə bilər. Xüsusi vəzifəsinə görə, ölkənin yəhudi icmasını tez-tez xarici ölkələrdə təmsil etməli olur.

O, müxtəlif beynəlxalq görüşlərdə, forum və konfranslarda Azərbaycan haqqında, onun ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlandığı, erməni təcavüzü nətisəsində ölkəmizdə bir milyondan çox qaçqın və məcburi köçkünün olduğu, başlıcası isə, burada, onun Vətənində antisemitizmə heç vaxt – nə keçmişdə, nə də indi yol verilmədiyi barədə həqiqətləri dünya ictimaiyyətinə yorulmadan və əsaslı dəlillərlə çatdırır.

Bu sətirləri oxuyanlar, yəqin hiss etdilər ki, söhbət təkcə ölkəmizdə deyil, onun hüdudlarından uzaqlarda da tanınmış din xadimindən, Azərbaycan həqiqətlərinin fəal təbliğatçısından, Azərbaycanda yaşayan bütün xalqlar, onların mentalitetinə, adət və ənənələrinə böyük hörmətlə yanaşan bir insandan – Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Semyon İxiilovdan gedir.

Artıq 10 ildən çoxdur ki, Semyon Borisoviç bu icmaya rəhbərlik edir. Onun səyləri sayəsində bu icma Azərbaycan və yəhudi xalqları arasında körpü – dostluq, qarşılıqlı anlaşma körpüsü rolunu oynayır. Digər dini konfessiyaların başçıları ilə səmimi dostluq və sıx qarşılıqlı əlaqələr, geniş fəaliyyəti ona həmişə hadisələrin mərkəzində olmağa, öz mövqeyini, – söz düşmüşkən, çoxları bunu nəzərə alır, – bəyan etməyə imkan verir.

1998-ci ildə Semyon İxiilovun təşəbbüsü ilə Heydər Əliyevin respublika Prezidenti vəzifəsinə namizəd göstərilməsi üçün təşəbbüs qrupu ya-

radılmışdı. Semyon Borisoviç və onun fikrinə şərik olanlar əmin idilər ki, Azərbaycanı beynəlxalq aləmdə layiqincə təmsil etməyə, ona hörmət və nüfuz qazandırmağa, onu regionun lider dövlətinə çevirməyə ancaq və ancaq Heydər Əliyev kimi görkəmli siyasi xadim və dövlət xadimi qadirdir.

Azərbaycan dövləti və onun rəhbərliyi Semyon Borisoviçin fəal vətəndaş mövqeyini layiqincə qiymətləndirir. 2000-ci ildə ümummilli liderimiz Heydər Əliyevin Fərmanı ilə o, "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Azərbaycan Prezidenti dini icmaların rəhbərlərini, – onların arasında İxiilov da olurdu, – dəfələrlə qəbul etmiş və dağ yəhudiləri icması barədə həmişə dəyərli sözlər demişdir.

Diqqətəlayiq haldır, Semyon Borisoviç harada olmağından asılı olmayaraq, hər yerdə vurğulayır ki, Azərbaycan rəhbərliyinin milli siyasəti respublikada yaşayan bütün xalqların inkişafına kömək edir, bütün milli azlıqların nümayəndələri, o cümlədən yəhudilər ölkənin bərabərhüquqlu vətəndaşlarıdır. Bu sözlərin mötəbər beynəlxalq məclislərdə səslənməsinin necə böyük təsir bağışladığını deməmək olmaz. Məsələn, bu fikir 1998-ci ilin noyabrında ABŞ-ın altı aparıcı yəhudi təşkilatının rəhbərləri ilə görüşdə də səslənmişdir. Həmin il ölkəmizin yəhudi icmalarının bir qrup nümayəndəsi Azadlığa Dəstək Aktına bədnam 907-ci düzəlişin ləğv olunmasına kömək edə biləcək görüşlər keçirmək üçün Birləşmiş Ştatlara səfərə getmişdi. Bu fikir sonralar Amerika Yəhudi Komitəsinin illik konfransında, dünya yəhudi icmaları liderlərinin görüşündə də səslənmişdir. 2004-cü ildə din xadimlərinin nümayəndə heyətinin, – onların arasında, dağ yəhudiləri icmasının rəhbəri də vardı, – Roma Papası II İohann Pavel ilə görüşü ölkəmizin daha geniş tanıdılması, nailiyyətlərinin təbliği, habelə Azərbaycanın qarşılaşdığı problemlərin ictimaiyyətə çatdırılması üçün son dərəcə böyük əhəmiyyətə malik idi. Orada Pontifik müdrik sözlər demişdir: "Dinlərdən dözümsüzlük aləti kimi istifadə etməyə heç kimin haqqı yoxdur. Əksinə, onların dostluğu və qarşılıqlı hörməti həqiqi tərəqqi və sülhün zəngin mənbəyidir".

Mən əvvəllər Semyon Borisoviçi uzaqdan-uzağa tanıyırdım. Lakin ulu öndərimiz Heydər Əliyevin səfərləri və keçirdiyi müxtəlif tədbirlərdə AzərTAc-ın təmsilçisi kimi iştirak etdiyim zaman onu daha yaxından tanımaq imkanı qazandım, eyni zamanda, şəxsi tanışlığımız da yarandı. O,

ümummilli liderimiz, Azərbaycan haqqında həmişə böyük məhəbbətlə söhbət açır, xalqımızın ən ağrılı problemindən – Ermənistanın Azərbaycana hərbi təcavüzündən, habelə dünyadakı erməni lobbisinin ölkəmizə qarşı qərəzli mövqeyindən hiddətlə danışırdı. Hər kəlməsindən hiss olunurdu ki, o, doğulub boya-başa çatdığı ölkəni ürəkdən sevən, onun qayğıları ilə yaşayan bir insandır.

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin uğurla apardığı siyasət nəticəsində respublikamız iqtisadiyyat sahəsində də, demokratiya istiqamətində də sürətlə inkişaf edir. Azərbaycanın dağ yəhudiləri də bu inkişafa öz layiqli töhfəsini verirlər. Onlar milli mədəni özünəməxsusluğunu saxlayaraq, ölkədə gedən demokratik proseslərdə, vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edirlər. Mübaliğəsiz demək olar ki, bu sahədə bütün mütərəqqi ideyaların təkanvericisi, fəal icraçısı əsl bakılı, geniş qəlbli və möhkəm əqidəli insan olan Semyon Borisoviç İxiilovdur.

2008-ci il.

Dost haqqında ürək sözləri

1990-cı illərin əvvəllərində respublikamızın dağılmaq, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə ilahinin köməyi, xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması ilə ölkəmizdə gələcək böyük inkişafın bünövrəsinin ilk daşları qoyulurdu. Ölkə həyatının bütün sahələrində müəyyən bir canlanma başlanırdı. Hərc-mərclikdən, başıpozuq idarəetmədən cana doymuş insanların sifətindəki kədəri ölkənin, xalqın işıqlı sabahına olan ümid dolu sevinc, nur əvəz edirdi. Hər bir müəssisədə, kollektivdə işin ahəngi tədricən, addım-addım öz axarına düşürdü.

Ölkəyə dəymiş ağır zərbə nəticəsində çətin günlər yaşamış Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın, habelə Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin də fəaliyyətində artıq dirçəlmənin ilk işartıları sezilirdi. Ən vacibi isə, hər iki kollektivin üzvləri ulu öndərimizin həyata keçirməyə başladığı dahiyanə daxili və xarici siyasətin möhkəm informasiya təminatının yaradılması üçün böyük həvəslə çalışır, canla-başla gecəni gündüzə qatırdılar.

Heydər Əliyev yolunun haqq, ədalət yolu olduğunu, bu yolun müasir, müstəqil Azərbaycanın qurulması yolu olduğunu dərk edən həm agentliyin, həm də teleşirkətin əməkdaşlarının tam əksəriyyəti, sözün əsl mənasında, qüvvələrini səfərbər etmişdilər. Ölkədə atılan hər bir addım, görülən hər bir iş, qoyulan hər bir bünövrə insanlara sevinc, xoşbəxtlik gətirirdi. Əhali ümummilli lider Heydər Əliyevin sübh tezdən gecə yarıyadək keçirdiyi tədbirlər, apardığı danışıqlar, imzaladığı sənədlər haqqında AzərTAc-ın və AzTV-nin xəbərlərini hər gün böyük səbirsizliklə gözləyirdilər. Biz əməkdaşlar da bütün günü bu tədbirlərdə, bu görüşlərdə böyük qürur hissi və həvəslə iştirak edir, onları bacardığımız qədər operativ surətdə oxuculara, tamaşaçılara çatdırmağa çalışırdıq.

Belə günlərin birində AzərTAc-ın və AzTV-nin əməkdaşlarının bir qrupu Prezident sarayına çağırıldı. Bizi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi. Ulu öndər ölkənin informasiya siyasətinin həyata keçirilməsi sahəsində hər iki kollektivin üzərinə düşən vəzifələr barədə öz müdrik tövsiyələrini, məsləhətlərini, konkret tapşırıqlarını verdi. Sonra ulu

öndər, özünün Azərbaycan Prezidenti kimi yaxın günlərdə xarici ölkəyə – Fransaya edəcəyi ilk rəsmi səfərindən söhbət açdı və bu səfərin işıqlandırılması ilə əlaqədar AzərTAc-ın və AzTV-nin görəcəyi işlərdən danışdı. Dövlətimizin başçısının bu ilk rəsmi səfərində iştirak edəcək qrupun tərkibi də bu görüşdə müəyyənləşdirildi. Mən AzərTAc-ın, Səyyad Ağbabalı isə AzTV-nin xüsusi müxbirləri kimi bu tərkibə düşdük. Həmin unudulmaz görüşdə ulu öndərimiz biz jurnalistlərin üzərinə böyük məsuliyyət düşdüyünü xatırlatdı.

Prezident Heydər Əliyev ilə həmin görüşün unudulmaz dəqiqələri həmişə mənim qəlbimdə, məsuliyyəti isə bu gün də çiyinlərimin üstündədir. Prezident sarayındakı bu görüşdən bir neçə gün sonra, yəni 1993-cü il dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Fransaya rəsmi səfərə yola düşdü və biz də dövlətimizin başçısını bu səfərdə müşayiət etdik. Çox çətin, məsuliyyətli və şərəfli olan bu səfər zamanı Səyyad Ağbabalı ilə bir-birimizi yaxından tanıdıq və beləliklə, yol yoldaşlığımızın səmimi, mehriban münasibətlər zəminində bünövrəsini qoyduq.

Unudulmaz səfərlər zamanı ulu öndərin nurlu işığı ətrafına toplaşmış kiçik bir mətbuat qrupunun üzvləri olan Elmira Axundova, Vaqif Ağayev, Fazil Hadıyev, Rafiq Bağırov, Ədalət Abbasov, Səyyad Ağbabalı və başqaları sözün həqiqi mənasında, bu gün də mənim üçün çox əziz insanlardır. Məhz həmin xarici səfərlər zamanı bu qrupun üzvləri bir-birinə qəlbən bağlandılar, əsl dostluğun, insani münasibətlərin nədən ibarət olduğunu bir daha dərindən dərk etdilər.

Mən bu gün əziz həmkarım Səyyad Ağbabalını ad günü münasibətilə səmimi qəlbdən təbrik edərək, ona yaradıcılıq işlərində yeni-yeni uğurlar arzulayıram. Əminəm ki, Heydər Əliyevin jurnalistika məktəbindən dərs almış məzunlardan biri olan Səyyad Ağbabalı ulu öndərimizin ideyalarını uğurla həyata keçirən, Azərbaycanımızın tərəqqisi, daha sürətli inkişafı üçün böyük işlər görən Prezident İlham Əliyev siyasətinə daim sədaqətlə xidmət edəcəkdir.

2007-ci il.

Yaxşılıq heç vaxt unudulmur

Maksim Qorki adına Cəbrayıl şəhər orta məktəbində təhsil aldığım illəri xatırlayanda, ilk növbədə, tarix müəllimim Bahadur Mehdiyev, riyaziyyat müəllimim Rəşid Məmmədov və direktorumuz İslam Məmmədov yadıma düşür. Görkəmli pedaqoq olan bu insanlar minlərlə gəncin formalaşmasında mühüm rol oynamış, onların gələcək həyat yoluna sözün həqiqi mənasında nur çiləmişlər.

Bahadur Mehdiyev isə mənim qəlbimdə xüsusi yeri olan bir insandır. Bu gün ömrünün müdriklik çağını yaşayan, ağsaqqal öyüd-nəsihəti, qayğıkeşliyi ilə seçilən Bahadur müəllim mənim yaddaşımda hündürboylu, zəhmli, zabitəli, insanı dərhal təsirləndirməyi bacaran məharətli natiq kimi qalmışdır. Bu görkəmli pedaqoqun həmişə, hər yerdə "Aslan Maksim Qorki adına orta məktəbin və mənim ən yaxşı şagirdlərimdən biri olub", – deməsi mənim çiynimə daim böyük bir məsuliyyət qoyur.

Hərdən zəngləşirik, arabir görüşlərimiz də olur. Bu gün də cavanlıq eşqi ilə çalışan, yazıb-yaradan müəllimimin – yeri gəlmişkən, o, bir sıra kitabların müəllifidir, respublika mətbuatında tez-tez maraqlı yazılarla çıxış edir, – mənə zəng etməsi cəbrayıllı ziyalıların yaxşı xatırladığı mərhum Sirac Rüstəmov ilə bağlı idi.

Bahadur müəllim uzun illər Cəbrayılda rayon qəzetinin redaktoru olmuş, cavanlara xüsusi qayğısı ilə seçilən, mənim də vaxtilə sıx bağlı olduğum, çox abırlı bir insan kimi tanınan Sirac Rüstəmov barədə kitab yazdığını və onun haqqında xatirələrimi qələmə almağımı arzuladığını söylədi.

Düzünü deyim ki, tərəddüd etmədən razılıq verdim. Bahadur müəllimin rəhmətlik atam Əhməd kişinin Sirac Rüstəmovla dostluq münasibətlərinin olduğunu unutmaması məni xəyalən gənclik illərinə qaytardı.

...Orta məktəb illərindən jurnalist olmaq istəyirdim. Sənədlərimi Bakı Dövlət Universitetinin o dövrdə çox böyük nüfuz qazanmış jurnalistika fakültəsinə verdim. Bir neçə imtahandan yüksək qiymət alsam da, qəbul ola bilmədim. İnamımı itirməsəm də, kədər içində idim. Cəbrayıl qəsəbəsinin mərkəzindəki məşhur çinarın yaxınlığında mənim üçün bu gün də çox əziz insan olan Bahadur müəllimlə rastlaşdım. Zəhmli, zabitəli müəllimim mənimlə çox mehribanlıqla görüşüb, bir neçə imtahandan,

xüsusilə, tarixdən yüksək qiymət almağımdan iftixar hissi keçirdiyini və mənim mütləq jurnalistika fakültəsinə qəbul olacağıma ürəkdən inandığını söylədi. "Hərdən rayon qəzetində çıxış etməyin məsləhətdir, atan da bilir ki, Sirac yaxşı adamdır", – dedi. Doğrusunu deyim ki, ruhdan düşdüyüm o günlərdə doğma müəllimimin mənə belə ürək-dirək verməsi lap yerinə düşmüşdü. Bax, elə o günlərdə atam da, nədənsə, tez-tez Sirac Rüstəmovla dostluğundan söhbət açırdı.

Televiziyanın kəndə gedib çıxmadığı həmin o illərdə çox səmimi, mehriban bir insan olan İmamverdi müəllim axşamlar tez-tez bizə gələr, müharibə xatirələrini danışmaqdan doymazdı. Mən də özümü sınamağı qərara aldım. Kiçik bir zarisovka yazıb Cəbrayıla, rayon qəzeti redaksiyasına – həmkəndlim, məsul katib Seyfəddin Əliyevin yanına gəldim. Allah rəhmət eləsin, Seyfəddin çox gözəl insan idi. Materialı oxudu, bir sıra düzəlişlər etdi, "Sirac müəllimə göstərib gəlirəm" – deyib otaqdan çıxdı. Beş-on dəqiqədən sonra Seyfəddinlə birgə otağa ortaboylu, dolu bədənli, yaraşıqlı cavan bir kişi daxil oldu. Məni başdan-ayağa süzüb, – "atan Əhməd əsl bəy oğludur (sovet hakimiyyətindən əvvəl babam Aslan bəy Cəbrayılın sayılıb-seçilən bəylərindən biri olub, 1970-ci illərin ortalarına qədər Şıxalıağalı kənd məktəbi babam Aslan bəyin evində yerləşirdi), həmişə öz vüqarı ilə seçilir, mənim də yaxın dostumdur. Yazını oxudum, deyəsən, səndən nəsə olacaq", – dedi. Yazım qəzetdə çıxdı. Kənddə əməllibaşlı hörmət qazandım. Həvəsləndim, kiçikhəcmli olsa da, hərdən yazılar hazırlayıb redaksiyaya gedirdim. Qəsəbənin içindən keçən çaylağın sağ sahilində ikimərtəbəli xudmani bir binada yerləşən redaksiya yavaş-yavaş mənə doğmalaşırdı. Ona görə ki, mən burada həqiqətən çox böyük qayğı, yüksək insani münasibət gördüm. Bu isə bilavasitə Sirac müəllimlə bağlı idi. Çünki redaksiyaya gəldiyimi bilən kimi Sirac müəllim hər dəfə məni yanına çağırar, yazımı diqqətlə oxuyub düzəlişlərini edər, hətta vaxt tapıb xeyli söhbətə də tutardı. Kənd uşağı olsam da, bilirdim ki, qəzet redaktoru yüksək vəzifədir və Sirac Rüstəmov da rayonda çox böyük nüfuza malikdir. Amma biz onunla elə dostlaşmışdıq ki, hər dəfə yanına gələndə özümü səmimi, mehriban bir müəllimin yanındakı kimi hiss edirdim. Ən vacibi isə Sirac müəllim özümə olan inamımı artırdı və mən jurnalist olmaq fikrimdən daşınmadım.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində oxuduğum illərdə də hər tətilə gələndə mütləq Sirac müəllimlə görüşməyi özümə borc bilirdim. O vaxtlar yay semestrinin imtahanlarından sonra biz tələbələrin böyük əksəriyyətini Bakıda müxtəlif mətbuat orqanlarında təcrübə keçməyə saxlayırdılar. Mən də ilk iki il dalbadal "Kommunist" qəzetində təcrübədə oldum. Yayın istisində Bakıda qalmağın çətinliklərinə, bir də üzümə yaxşı baxdıqlarına görə, mən üçüncü il dekanımızdan xahiş edib təcrübəmi rayon qəzetində keçməyə razılıq ala bildim. Düzünü deyim ki, "Kolxozçu" qəzetindəki təcrübəm ürəyimcə oldu, qəzetdə tez-tez yazılarım çap olundu, Sirac müəllimlə dostluğumuz daha da möhkəmləndi.

Mən universiteti bitirdiyim il Ağcabədi respublikanın ən iri və qabaqcıl pambıqçılıq rayonlarından birinə çevrilmişdi. Rayon Partiya Komitəsinin birinci katibi olan rəhmətlik Vahid İsmayılov o vaxt yaşca cavan olsa da, güclü təsərrüfatçılıq, təşkilatçılıq qabiliyyəti ilə respublikada çox böyük hörmət qazanmışdı. O, Ağcabədi rayon qəzetində vur-tut iki nəfər ali təhsilli jurnalistin işlədiyini əsas götürərək, Mərkəzi Komitəyə məktub yazıb ali təhsilli jurnalistlərə ciddi ehtiyac olduğunu bildirmişdi. Ona görə də bizim buraxılışdan bir neçə nəfərə Ağcabədidə işləmək təklif olundu. Düzünü deyim ki, qrup yoldaşlarım müxtəlif vasitələrlə Ağcabədiyə getməkdən yayındılar. Mən isə öz razılığımla Ağcabədiyə təyinat aldım.

Avqustun 1-də iş yerində olmalı idim. Hələ vaxt var idi. Ona görə də kəndimizə getdim. Qohum-əqrəba, kənd adamları el adətinə görə bizdə yığışmışdılar. Rəhmətlik atam Əhməd erkək kəsdi, əməlli-başlı şadyanalıq etdik. Axşamüstü gördüm ki, atam yenə də bir erkək kəsdi. Maraq mənə güc gəldi, soruşdum ki, ikinci erkəyi nə üçün kəsdin? Atam gülərüzlə məni süzüb cavab verdi ki, "oğlum, universiteti bitirməyinə ən çox sevinən insanlardan biri də Sirac müəllimdir. Mən onu unuda bilmərəm. Axşam evinə gedib, ona sağ ol deməliyəm".

Ötən əsrin 80-ci illərinin axırlarında mən ailə vəziyyətimlə əlaqədar İmişlidə işləməli oldum. Rayon qəzetində şöbə müdiri idim. İsti yay günlərinin birində iş otağımın qapısı açıldı, Sirac müəllim Hafiz Hüseynov ilə birlikdə içəri girdi. Çox sevindim, düzü İmişlidə hələ çox adamı tanımadığım üçün qonaqlarım, necə deyərlər, göydən düşmüş kimi oldu. Oturub xeyli söhbət etdik. O vaxt Sirac müəllim Cəbrayıl Rayon Sovetinin İcraiyyə

Komitəsində şöbə müdiri, Hafiz Hüseynov isə qəzetin redaktoru idi. Görüşümüzün sonunda Sirac müəllim gülə-gülə dedi ki, "Aslan, sənə işim düşüb, ona görə gəlmişik. Məni bir neçə kolxoza təhkim ediblər, təzə katib də səninlə olan dostluğumu bilib deyir ki, get, öz kolxozların üçün beş-on maşın ot kömək etsin".

Boynumda Sirac müəllimin böyük haqqı var idi. Ona görə də rayon rəhbərlərindən birinə zəng edib mənim üçün əziz olan bu insana kömək göstərməsini xahiş etdim. Qonaqlarım çox razılıqla xudahafizləşib getdilər.

Aradan bir müddət keçəndən sonra Sirac müəllimlə yenə də görüşdük. Bu dəfə isə Sirac müəllim təhkim olunduğu kolxozların ət planındakı kəsirlə əlaqədar İmişliyə gəlmişdi. O zaman İmişlidə böyük ət kombinatı var idi. Ətraf rayonların hamısı, o cümlədən Cəbrayıl rayonu bu kombinata məhsul verirdi. Sirac müəllim dedi ki, "məhsulumuz var, amma vaxtında tədarük edib kombinata verə bilməmişik. Sabah axşam rayonda böyük müşavirədir, katib də mənə bərk hirslənib, təhkim olunduğum kolxozların planının kəsirdə olması yəqin onunla mənim aramdakı narazılığı daha da artıracaq". Kombinatın rəisi məni yaxşı tanıyırdı, ona görə də sözümü yerə salmadı, Sirac müəllim çox razı getdi. Mən isə ürəkdən sevindim ki, onun yaxşılıqlarının əvəzində, kiçicik də olsa, köməyim dəydi. Amma çox təəssüf ki, bu, qəlbimdə silinməz izlər buraxmış Sirac müəllimlə sonuncu görüşümüz oldu...

Bahadur müəllimin təklifini alanda neçə illərdən sonra bu gözəl insanla bağlı xatirələri yada salmaq mənim üçün çox xoş oldu. Bu yazını da qələmə alanda ilk öncə əziz müəllimlərimin adını çəkməyim də təsadüfi deyil. Çünki Sirac Rüstəmov da mənim üçün həqiqətən, əsl müəllim olmuşdur. Əlbəttə, mənə belə səmimi münasibət bəsləməsində atamla şəxsi dostluğu da az rol oynamamışdır.

Sonda onu deməliyəm ki, mən bu xatirələrimi heç kimə danışmamışdım. Mənim üçün çox əziz insan olan Bahadur müəllimə minnətdaram ki, olub-ötənlərin bir hissəsini kağıza köçürdüm, daha bir müəllimim olan Sirac Rüstəmov haqqında ürəyimdən keçənləri dedim. Allah Sirac müəllimə rəhmət eləsin!

"Kredo" qəzeti, 22 aprel 2006-cı il.

Öz dəst-xətti olan jurnalist

Dövlətimizə, xalqımıza sədaqətlə xidmət edən, görkəmli alim, gözəl insan Nizami Xudiyevin rəhbərlik etdiyi Azərbaycan Dövlət Teleradio Şirkətinin və AzərTAc-ın kollektivləri arasında uzun illərdən bəri çox səmimi dostluq münasibətləri yaranmışdır. Teleşirkətdə özlərinə məxsus yaradıcılıqları ilə Azərbaycan tamaşaçılarının dərin hörmətini qazanmış ustad qələm sahibləri Məmməd Aslan, Mailə Muradxanlı, Mövlud Süleymanlı, Telli Pənahqızı və başqaları, ulu öndərimiz, xalqımızın ümummilli lideri Heydər Əliyevin xarici ölkələrə, demək olar ki, bütün səfərlərində birgə çalışdığım, mənim üçün çox əziz insanlar olan Vaqif Ağayev, Fazil Hadıyev kimi öz peşəsinə qəlbən bağlı çoxlu peşəkar işləyir. Məhz belə peşəkarların arasında fərqlənmək, öz yerini tutmaq, yaradıcı yenilikləri ilə tamaşaçı rəğbəti qazanmaq heç də asan iş deyildir. Bəlkə də, elə bütün bu keyfiyyətlərinə görə müasir telejurnalistikamızı Qulu Məhərrəmlisiz təsəvvür etmək çətindir.

Gülərüz, ünsiyyətcil, şux zarafatlarından bir an da qalmayan, dost-tanışların nəzərində həmişə cavan sayılan Qulu Məhərrəmlinin 50 yaşı haqlaması bizi təəccübləndirsə də, Azərbaycan jurnalistikasında gördüyü işləri göz önünə gətirəndə fikrindən daşınmalı olursan. Qulu Məhərrəmli, həqiqətən, Azərbaycan televiziyasında tamaşaçı qəlbinə yol tapan, insanları düşünməyə vadar edən neçə-neçə gözəl verilişlərin müəllifi, yaradıcısıdır. Qulunun jurnalistikada öz dəst-xətti, öz üslubu, biçimi var, tapdalanmış cığırla getməyi, təqlidçiliyi xoşlamır, basmaqəlib, şablon formalardan uzaqdır. Bir az da dəqiq desək, o, həmişə özü kimi olmaq istəyir.

Qulu Məhərrəmlidən söhbət düşəndə Azərbaycan televiziyasının ən populyar, uzunömürlü proqramlarından olan "Səhər"i xatırlamamaq mümkün deyildir.

Üzümüzə açılan hər səhər tamaşaçılarla görüşə gələrək min bir qayğısı, istək və arzusu olan, müxtəlif xasiyyətli, zövqlü, peşəli insanlarla ünsiyyət yaratmaq, onları maraqlandıran, narahat edən məsələlərdən söhbət açmaq, yeri gəldikdə ürək-dirək, məsləhət vermək, qayğılarını bölüşmək, həqiqətən, çox çətindir, hətta mən deyərdim ki, heç də hər kəsin gücü çatmayan müşkül işdir. Ona görə də Qulu Məhərrəmlinin ən böyük

xidmətlərindən biri, bəlkə də, birincisi "Səhər" proqramını belə uzunömürlü etməsidir.

Əlli yaş ömrün müdriklik çağının hələ birinci pilləsidir. Bu yaşda Qulu Məhərrəmliyə ən əvvəl möhkəm cansağlığı, ailə səadəti diləyirəm. Yaradıcılıq tərəfinə gəldikdə isə, əminəm ki, o, ötən yarım əsrdə "yığdıqlarını" ömrün gələcək uzun yollarında süzgəcdən keçirəcək, cilalayacaq və oxuculara, tamaşaçılara neçə-neçə gözəl əsərlər, verilişlər bəxş edəcəkdir.

2004-cü il.

ASLAN ASLANOV

DÖVLƏT SİYASƏTİNİN İNFORMASİYA TƏMİNATI

(məqalələr, çıxışlar, müsahibələr, rəylər, xatirələr)

Texniki redaktorlar:
Cəvani Ağayev
Sevil Höcətova
Vüqar Əmrullayev
Arzu Əhədova

Rəssam:
Etibar Aslanov

Dizayner:
Rinat Əzizov

Korrektorlar:
Gülzaman Qurbanova
Zeynəb Əmirəliyeva

Yığılmağa verilmişdir: 11.07.2012
Çapa imzalanmışdır: 12.01.2013
Formatı: 1/16.
Fiziki çap vərəqi: 38.6 ç.v. + 1 ç.v. İllüstr.
Ofset üsulu ilə.
Tiraj: 500.
Sifariş: № 002

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç.,17.